Redaktor: **Ayaz MUSAYEV**
Buraxılışına məsul: **Suğra OSMANOVA**

**Qılman İlkin. BAKI VƏ BAKILILAR** (Üçüncü nəşri).
Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2006, 384 səh.
Lisenziya AB № 022039.

Respublikamızın paytaxtı Bakı keçmişlərdə necə olub? Sevdiyimiz, fəxr etdiyimiz bu gözəl şəhər əsrlər boyu nə kimi fırtınalardan, kəşməkəşlərdən keçib, bugünkü xoşbəxt günlərinə necə qovuşmuşdur? Mərd oğulları onu necə qorumuşlar, qədim abidələrini necə hifz edib saxlamışlar. Bu adamlar özləri necə olmuşlar? Özləri ilə necə mənəvi keyfiyyətlər yaşatmışlar? Bütün bu və başqa suallara xalq yazıçısı və Bakı tarixinin bilicisi Qılman İlkinin bu kitabında cavab tapa biləcəksiniz. Vətənimizin və onun paytaxtı Bakının keçmiş günlərinə maraq göstərən hər bir kəs üçün bu kitab çox maraqlı və qiymətlidir. Ensiklopedik səciyyəyə malik bu nəşrdə köhnə Bakının ab-havası və təkrarsızlığı müəllifin publisistik məlumatlarında öz əksini tapmışdır.

Kitab nadir və əsasən ilk dəfə çap üzü görən fotoşəkillərlə zəngindir.

ISBN - 9952 - 426 - 12 – 7

© «NURLAR», 2006

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakını əsrlər boyu quranlar, yaradanlar bugünkü və gələcək nəsillər üçün gözəl bir şəhər salıblar. Biz Bakı şəhəri - ölkəmizin paytaxtı ilə haqlı olaraq, fəxr edirik.

**Heydər ƏLİYEV**

## ÖN SÖZ

Çağdaş və gələcək nəsillərə doğma Azərbaycanımızı tanıtmaq hamımızın borcudur. Hərə bildiyi qədər, bacardığı qədər. Bu müqəddəs bir işdir. Hər nəsil yaşadığı mühitə göz açır, onun ab-havası ilə böyüyür, necə deyərlər, hər şeyi bir növ hazır görür. Bilmir ki, onun tarixi var, keçmişi var. Bu gün dünəndən yaranıb, sabah da bu gündən yaranacaq. Zira tarix ardı-arası kəsilməz prosesdir. Həm fasiləlidir, həm də fasiləsiz. Həyatın dialektikası belədir. Hər bir şeydə, hər bir hadisədə keçmişin qalıqları, indinin əsasları, gələcəyin isə rüşeymləri olur. Tarix və çağdaşlıq qırılmaz tellərlə bağlıdır. Biri digərsiz ola da bilməz. Odur ki, tariximizi, keçmişimizi bilməliyik. Bu işdə bizə yazılı mənbələr, peşəkar tarixçilər, görüb-götürmüş müdriklər, el ağsaqqalları, yaddaşımız, xatirələr köməyə gəlir. Uzaq keçmişi arxivlərdən, tarixi qaynaqlardan, tarixçilərin əsərlərindən, tarixi mövzularda yazan ədiblərimizdən, elm və mədəniyyət tarixini izləyən müəlliflərimizdən öyrəniriksə, nisbətən yaxın keçmişimizi də yaddaşlardan, xatirələrdən, bu dövrü görmüş canlı şahidlərdən öyrənirik.

Müxtəlif ölkələrin millət və xalqlarının tarixini yada salın. Görün bir Paris fransızlar, London ingilislər, Madrid ispanlar, Roma italyanlar, Berlin almanlar, Varşava polyaklar üçün nə qədər vacib əhəmiyyətə malik olmuşlar. Moskva ruslar üçün, İstanbul türklər üçün, Bağdad iraqlılar üçün əziz olduğu kimi Bakı da bizim üçün əziz və qiymətlidir.

Baxınız, kitabına ön söz yazdığım Qılman İlkin də Bakının, Abşeronun tarixindən, ab-havasından, insanlarından bəhs edir. Özü də yazıçı qələmi ilə, publisist qələmilə. Fərəhli haldır ki, Bakı haqqında təkcə tarixçilərimiz deyil (bu sahədə Sara xanım Aşurbəylinin, Bakı sənayesi haqqında Əlisöhbət Sumbatzadənin və Mahmud İsmayılovun, Bakı ticarəti haqqında M. Musayevin yazıları böyük maraq doğurur), habelə onun arxitekturası barədə görkəmli memarlarımız (xüsusən Sadıq Dadaşov, Mikayıl Hüseynov və Ə. Salamzadə və b.) az yazmamışlar. Bu işdə sənətkarların, yazıçıların da əməyi böyükdür. Böyük müğənni Hüseynqulu Sarabskinin "Köhnə Bakı", görkəmli səhnə ustası Hacıağa Abbasovun "Xatirələrim" kitabı təqdir olunmağa layiqdir. Bu nəcib işə söz sənətinin ustaları - yazıçılar da fəal surətdə qoşulmuşlar. Yazıçı Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim..." kitabı böyük maraq doğurmuşdur. İndi də növbə Qılman İlkinindir.

Ümumiyyətlə, böyük şəhərləri, o cümlədən paytaxtları onların ətrafında olan kəndlərsiz təsəvvür etmək mümkün deyil. Məsələn, Tiflisi onun əhatəsində olan kəndlərsiz, Moskvanı "Podmoskovye" adı ilə məşhur olan Moskva ətrafındakı

qəsəbə və kəndlərsiz düşünmək olmaz. Bu baxımdan bizim Bakını da. Bakı və kəndləri qırılmaz vəhdət təşkil edir. Bakılılar dedikdə biz dədə-babadan, necə deyərlər, kökündən, soyundan, əsl bakılı olan şəhər əhalisinin və şəhərin ətrafındakı kəndlərin sakinlərini nəzərdə tuturuq, təkcə Bakı deyil, həm də Abşeronun sakinləri nəzərdə tutulur. Bakının həyatını, keçmişini və çağdaşlığını, onun kəndləri ilə birlikdə götürmək lazımdır. Deyək ki, Bakını Mərdəkan, Buzovna, Maştağa, Nardaran, Novxana, Məhəmmədli, Balaxana, Əmircan, Fatmayı və digər kənd və qəsəbələrsiz təsəvvür etmək olmaz.

Bu baxımdan da hörmətli yazıçımız Qılman İlkin çox düzgün hərəkət edərək "Bakı və bakılılar" əsərində yazdıqlarını təkcə şəhərin özü ilə deyil, həm də onun kəndləri ilə bağlayır, həm Bakıdan, həm də onun kəndlərinin sakinlərindən danışır. Haqlıdır və belə də olmalı idi.

İstəyirsən şair ol, istəyirsən alim, istəyirsən tarixçi ol, istəyirsən yazıçı, publisist, bunu yaxşı dərk edənlər, qəlbən, ruhən dərindən duyanlar həmişə belə etmişlər. Məsələn, Səməd Vurğunun "Bakının dastanı" poemasını götürək. Lirik-epik janrda yazılmış və hələ tamamlanmamış bu əsərdə şair Bakıya, onun tarixinə, İçərişəhərə, Bakının küçələrinə, Abşeron torpağına, buranın sakinlərinin adət və ənənələrinə, keçmişinə və çağdaş həyatına xüsusi fikir verir.

Qılman İlkinin kitabında da məhz belə münasibətin ifadəsini görürük. Yazıçı publisist qələmilə Bakının və onun kəndlərinin keçmişindən, çağdaş həyatından, buradakı yerli xüsusiyyətlərdən geniş bəhs edir. Özü də tarixin aşkar etdiyi həqiqəti, bu sahədə elmin qazandığı nailiyyətləri bədii-publisist qələminin təsvirlərilə bağlamaqla.

O, tariximizin indi çoxuna məlum olmayan elə səhifələrini açıb göstərir ki, onları həyəcansız oxumaq olmur. Oxuduqca qəzəb və nifrət hissi coşur, başımıza gətirilən müsibətlərin əvvəlki faciələrin, qanlı-qadalı hadisələrin davamı olduğunu bütün dərinliyi ilə duyur, uzun müddət totalitar rejimin bizi "xalqlar dostluğu və qardaşlığı" pərdəsi altında aldatdığını yəqinliklə qət edirsən. Məlum olur ki, 1918-də erməni-müsəlman qırğını günlərində ermənilər ətraf evlərdə yaşayan azərbaycanlıları taxta sirk binasına yığıb yandırmaq istəyirlərmiş.

Qılman müəllim 1918-ci il hadisələrindən, Bakıda ermənilərin törətdiyi fitnə-fəsad və qırğınlardan, bu çirkin işdə daşnakların, xüsusən S. Melik-Yolçuyanın və Şaumyanın rolundan danışır. Martın 19-da daşnakların Suraxana, Əmircan və Bülbülədə zirehli avtomatların köməyilə əhalinin qanının axıdıldığını, Bakıda yüzlərlə, minlərlə adamlarımızın məhv edildiyini qeyd edir.

Aydın olur ki, hazırda başımıza gətirilən qanlı müsibətlərin dərin kökləri varmış. İblis elə həmişə iblis imiş.

Əziz oxucu, kitabın ən maraqlı bölmələrindən biri "Bakı kəndləri" adlanır. Müəllif 1870-ci il siyahısına istinadən 41 kəndin adını çəkir: Bibiheybət, Keşlə,

Əhmədli, Zığ, Hövsan, Türkan, Zirə, Qala, Binə, Suraxana, Əmircan, Ramana, Balaxana, Sabunçu, Bülbülə, Dərnəgül, Binəqədi, Digah, Məhəmmədli, Zabrat, Fatmayi, Novxana, Saray, Masazır, Corat, Goradil, Pirşağı, Kürdəxana, Maştağa, Nardaran, Bilgəh, Buzovna, Şağan, Mərdəkan, Güzdək, Hökməli, Xırdalan, Xoca Həsən, Pirəkəşkül, Biləcəri, Qobu.

Çoxları elə bilir ki, bu kəndlər elə əvvəllərdə də böyük olmuşdur. Halbuki belə deyil, onların əhalisi çox az imiş. Belə ki, 1813-cü il məlumatına görə Bakının ən iri kəndi olan Maştağada cəmisi 582 nəfər yaşayırmış, Mərdəkanın əhalisi isə 94 nəfər imiş.

Qılman müəllim bu kəndlərin əsasən özləri haqqında qısa məlumatlar verir. Əlbəttə, bu azdır və oxucu bu sahədə daha çox şey gözləyir. Arzu edərdik ki, hörmətli yazıçımız kitabın sonrakı nəşrlərində bunu nəzərə alsın və ya (bu daha yaxşı olar) Bakı kəndləri haqqında ayrıca bir kitab yazsın. Xüsusən onların adamları barədə daha geniş bəhs etsin, müasir adamlarına kimi. Onlar buna layiqdirlər. Elə ikicə kəndi qeyd edim: bir Novxana kəndini (1813-cü ildə əhalisi cəmisi 202 nəfər), bir də müəllifin (elə mənim özümün də) doğma kəndi olan Mərdəkanı.

Bu kiçik kəndlərdən nə qədər böyük adamlar çıxıb. Bu kəndlər əslində "kiçik" yox, böyükdürlər, müəzzəm və uludurlar.

Novxanada 17-ci əsrin yadigarı olan Şah Sultan Hüseyn məscidi dövlət tərəfindən mühafizə olunan qədim memarlıq abidəsidir. Bu kənddən ötən yüzillikdə, zəmanəmizdə neçə-neçə böyük və görkəmli şəxsiyyətlər çıxıb. Milli Demokratik Respublikamızın banisi Məmməd Əmin Rəsulzadə, dahi rəssam Əzim Əzimzadə, görkəmli siyasi xadim, alim və yazıçı Şıxəli Qurbanov, keçmiş SSRİ-də azəri türklərindən yeganə İttifaq naziri olan Sabit Orucov, xalq şairi Süleyman Rüstəm, 2-ci dünya müharibəsinin əfsanəvi qəhrəmanı Mehdi Hüseynzadə, respublikamızda müasir anatomiya elminin banisi Kamil Balakişiyev, görkəmli alimlər Ağaməmməd Abdullayev (pedaqogika), Nəsrulla Babayev (texnika, neft-qazma), Kəbutər Səfərov (kənd təsərrüfatı) və daha neçə alim, şair, rəssam, bəstəkar, respublikanın rəhbər işçiləri və b. (Mən yalnız dünyasını dəyişənləri qeyd etdim. Özü də bəzilərini. Hazırda bizimlə birlikdə yazıb yaradan, məhsuldar fəaliyyət göstərən onlarla novxanalıları hələ demirəm).

Mərdəkan da həmçinin. Qədim tarixə, Azərbaycan memarlığı sənətinin gözəl nümunələrinə malik olan bu kənddən çıxan görkəmli adamlar bir deyil, onlarladır.

Bütün dünyada tanınmış tarixçi alim, keçmiş SSRİ (indi Rusiya) Akademiyasının müxbir üzvü Əhməd İskəndərov mərdəkanlıdır. Bizim ailəni, yaxın qohum-əqrəbamı "alimlər ailəsi", "alimlər sülaləsi" adlandırırlar. Babam Səməd kişinin üç oğlu yüksək elmi dərəcəsi olan alimlər idi: atam Feyzulla

akademik, əməkdar elm xadimi, əməkdar müəllim, yüzlərlə əsərin müəllifi idi, şəxsən özü 120 nəfərdən artıq elmlər namizədi, 30 nəfərə yaxın elmlər doktoru yetişdirmişdi. Qardaşları (əmilərim) Mustafa tibb, Hacıbaba isə biologiya sahəsində elmlər doktoru idi. Kənddən bir neçə elmlər doktoru, onlarla elmlər namizədi çıxıb.

Keçmiş sovet hakimiyyəti illərində kəndimdən 500 nəfərdən çox adam ali təhsil alıb. Özü də unutmayaq ki, Mərdəkan da digər kəndlərimiz kimi kütləvi repressiyalara ən çox məruz qalan yerlərdən olub. 37-38-ci illərdə, sonralar da Vətən müharibəsində yüzlərlə adamını itirib. Əmim oğlu Asim Moskvada məşhur akademik V. A. Trapeznikovun başçılıq etdiyi İdarəetmə problemləri institutunda baş elmi işçi, texnika elmləri doktorudur. Qardaşı Rasim milli Akademiyamızda çalışır; o da texnika elmləri doktorudur. Xalam oğlu Tofiq kimya sahəsində tanınmış alimlərimizdəndir. Respublika Elmlər Akademiyasının müxbir üzvüdür.

Kənddən görkəmli fırça ustası, respublikamızın xalq rəssamı Maral xanım Rəhmanzadə, ön söz yazdığım bu kitabın müəllifi xalq yazıçısı Qılman İlkin və qardaşı Qurban Musayev, şair və alim Cəfər Rəmzi, tanınmış arxeoloq Qardaşxan Aslanov çıxıb və b. k.

Xalam Çimnaz Aslanova 20-ci illərdə yetişən ilk azərbaycanlı qadın maarif qabaqcıllarından idi, sadə məktəb müəllimlərindən keçmiş SSRİ Ali Sovetində Millətlər Soveti sədrinin müavininə qədər yüksəlmiş və 20 ildən artıq bu vəzifədə olmuşdu.

Bakının və kəndlərinin o qədər də uzaq olmayan tarixindən çox şey öyrənə bilərik. Çağdaş tələb və ehtiyaclarımız üçün istifadə edə bilərik. Məsələn, elə su, ərzaq, xeyriyyə və mesenatlıq məsələsini götürək.

Su sarıdan korluq çəkirik. Suya, xüsusən təmiz və içməli suya ciddi ehtiyacımız var. Köhnə Bakının bir çox həyətlərində quyular var idi. Kəndlərdə isə daha çox. Yaxşı olmazdımı ki, imkan daxilində onları bərpa edək, yenilərini qazaq. Xüsusi evlər, xüsusi həyət-bacalar indi çoxalıb. Qoy onların hər birində öz quyusu olsun. Elə iri yaşayış binalarının həyətlərində də quyular qazmaq olar.

Bakı kəndlərinin bitkiçilik, bağ-bostan, məhsul baxımından hər birinin özünəməxsus cəhətləri, təkrar olunmaz üstünlükləri var idi.

Xeyriyyə və mesenatlıqda isə indiki varlılarımız Hacı Zeynalabdindən ibrət götürsünlər, xalq yolunda, onun sağlamlığı, maarifi, elm və təhsili yolunda əsirgəmədən xərcləsinlər, sponsorluq etsinlər, sağlığında xeyir-dualar, alqışlar, dünyasını dəyişdikdən sonra isə qəni-qəni rəhmətlər qazansınlar.

Respublikamızın ağır bir şəraitdə yaşadığı, müharibənin getdiyi, qıtlıq və bahalığın kök saldığı mühitdə sponsorluğun, xeyriyyəçiliyin, varlıların və imkanları geniş olanların, əhaliyə qayğı göstərməsinin nə qədər böyük əhəmiyyətə malik olduğunu söyləməyə ehtiyac yoxdur. Qoy bu nəcib işdə ata və babalarımızın

yolu nümunə olsun. Qılman müəllim böyük maarifpərvər alim və jurnalist Həsənbəy Zərdabinin rolundan danışır. Milli qeyrətimizin təcəssümü olan H. Z. Tağıyevin bu sahədəki misilsiz xidmətlərini qeyd edir. Onun ikinci təşəbbüsü nəticəsində 1905-ci ildə "Müsəlman Xeyriyyə cəmiyyəti" yaradılır. Cəmiyyət kasıb-füqəraya, yetim-yesirlərə əl tutur, qocalara himayədarlıq edir, balalarımızı oxutdurur və digər xeyirli fəaliyyət göstərir. Hacı Zeynalabdinin sədr, İsrafil Hacıyevin sədr müavini, Hacı Mustafayevin xəzinədar, Əhməd bəy Ağayevin katib, İsmayıl bəy Səfərəliyevin, Əlimərdan bəy Topçubaşovun və Əsədulla Əhmədovun idarə heyətinin üzvləri olduğu bu cəmiyyətin müəssisələri sırasında Həsənbəy Zərdabi özü, Əlibəy Hüseynzadə, Hacı Aslan Aşurov, İsabəy Hacınski, Kamil bəy Səfərəliyev, Əbülxalıq Axundov, Məmmədrza Vəkilov, Həsən bəy Ağayev, Nəcəfqulu Sadıqov, Mirzə Əsədullayev, Əsədbəy Səlimxanov, Ağabala Quliyev, Hacı Həsən Ağamalıyev, Nəcəf Əmiraslanov da varmış. Göründüyü kimi bunlar təkcə milyonçular deyil, həm də xalqımızın görkəmli elm və mədəniyyət xadimləri idilər. Yəni cəmiyyətdə var-dövlətlə zəka, sərvətlə ağıl birləşmişdi. Bu gün bizə bu su kimi, hava kimi lazımdır. Qoy qeyrətli varlılarımız, "qaz vurub, qazan dolduran" fərasətli biznesmenlərimiz ağıl və zəka sahibləri ilə, elm və mədəniyyətin görkəmli adamları ilə tədbir işlətsinlər, birgə fəaliyyət göstərsinlər. Qoy millətimiz maddi və intellektual sərvətdən geniş istifadə edə bilsin.

1906-cı ildə yaradılmış "Nəşr və maarif" cəmiyyəti də xalqın xeyri naminə geniş iş aparırdı. Fəaliyyətini "Müsəlman Xeyriyyə cəmiyyəti" ilə əlaqələndirir, xalqa böyük fayda verirdi. Cəmiyyət Bakı kəndlərində 17, şəhərdə isə 3 məktəb açdırmış, yoxsul və yetim uşaqları pulsuz oxutdururdu.

"Nicat" mədəni-maarif cəmiyyəti də böyük işlər görürdü. Bu cəmiyyətin üzvləri millətimizin görkəmli ziyalıları idi. Onların sırasında Üzeyir Hacıbəyov, Cahangir Zeynalov, Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Hüseyn Ərəblinski, Həbib bəy Mahmudbəyov, Soltan Məcid Qənizadə, Murad Muradov, Mirmahmud Kazımov, Mehdi bəy Hacınski, Sidqi Ruhulla, Məmmədəli Sidqi və b. kimi xadimlər var idi. Xalqımızın böyük oğlu, Milli Demokratik Respublikamızın banisi Məmməd Əmin Rəsulzadə cəmiyyətin üzvü idi. O, 1907-ci ildə Həsən bəy Ağayev İrana getdikdən sonra cəmiyyətin sədri olur.

İndi belə cəmiyyətin olmasına böyük ehtiyac duyulur. Alim və yazıçılarımız əllərindən gələni edir. Hər il neçə-neçə qiymətli və millət üçün çox faydalı olacaq əsərlər yazırlar. Onları nəşr etmək isə müşkül bir işdir, çox vaxt mümkün olmur. Qoy qeyrətli varlılarımız belə kitabların nəşrində geniş sponsorluq fəaliyyəti göstərsinlər. Yaxşı deyiblər: "Səndən hərəkət, məndən bərəkət". Yazıb yaratmaq zəka sahiblərindən, nəşr etmək də varidat sahiblərindən.

Qoy pullarımız lazımı yerlərdə xərclənsin. Millət elm, mədəniyyət fədailərilə var-dövlət sahiblərinin birgə işindən faydalansın.

Qılman müəllimin kitabında Bakı tacirləri və ruhanilərinin təşkil etdiyi "Səadət" (1907) cəmiyyətinin də fəalı Axund Ələkbər olub. 1907-ci ildən cəmiyyətin açdığı "Səadət" məktəbində 1910-cu ildən 1916-cıilədək direktor Əlibəy Hüseynzadə olub. "Səadət"in də fəaliyyəti geniş və məhsuldar idi. Bakılı Hacı Səməd Heydərov 55 minə tikdirdiyi binanı kupçisilə birlikdə məktəbə bağışlayır və iki mərtəbəli daha bir bina tikdirəcəyini vəd edir.

Belə qeyrətli oğullarımızın ruhu şad olsun. Qoy onların nəcib işi bu gün də davam etsin, ənənəyə çevrilsin.

Hər bir elmi, bədii, tədris və ya məlumat xarakterli əsər müəyyən məna daşımalı, idraki və tərbiyəvi əhəmiyyətə malik olmalı, oxucuya bilik və zövq verməlidir. Əlbəttə, əgər o həqiqətən əsərdirsə, sözün əsl mənasında əsərdirsə. Tarix, ədəbiyyat, o cümlədən publisistika da söz yığını deyil. Məna daşıyan sahələrdir. Dövrümüz, yaşadığımız çətin günlər, keşməkeşli həyatımız elədir ki, tarixi və çağdaş məna daşıyan operativ yazılara, təsirli və kəsərli sözlərə ehtiyac artıb, tələbat çoxalıb. Oxucu onu maraqlandıran, onu düşündürən keçmişini, dünəni xatırladan, çağdaş vəzifə və məsələlərini başa salan, gələcəyi izah edən yazılara xüsusi maraq göstərir. Bakıda və Abşeronda 2 milyondan artıq adam yaşayır. Burada xeyli qaçqınlar da var. Demək olar ki, respublika əhalisinin üçdən biri burdadır. Bəlkə də daha çox. Üstəlik Bakı həyatı ilə, onun problemləri, tarixi və çağdaşlığı ilə təkcə bakılılar deyil, abşeronlular deyil, eləcə də bütün respublika əhalisi maraqlanır. Bu da təbiidir. Çünki Bakı respublikanın paytaxtıdır. Düşünən beyni, döyünən ürəyi, görən gözüdür.

İnanıram ki, Qılman İlkinin "Bakı və bakılılar" kitabı ilə hamı maraqlanacaq, o on minlərlə, yüz minlərlə oxucunun diqqətini cəlb edəcək, ümumi marağa, sorğu-suala səbəb olacaqdır.

Kitabların da ömrü müxtəlif olur. Kitab var ki, çapdan çıxar-çıxmaz unudulur. Kitab da var ki, xeyli müddət yaşayır, nəsillərə gərəkli olur, zaman-zaman ona ehtiyac və tələbat duyulur. Təkrar nəşrləri olur, ya da zahirən köhnəlsə də, vərəqləri saralsa da, oxunur, fayda verir.

İnanıram ki, Azərbaycan tarixini öyrənənlər "Dərbəndnamə"yə, "Qarabağnamə"yə indi də müraciət etdikləri kimi nəinki çağdaş nəsil, elə gələcək nəsillər də Qılman İlkinin kitabına müraciət edəcək, Bakı və bakılıların tarixini öyrənməkdə ondan faydalanacaqlar. Dediklərimin çin olacağına əminəm.

**FUAD QASIMZADƏ, akademik**

## QƏDİM ŞƏHƏR

Qədim Bakı Xəzər dənizinin qərb sahilində, şimal küləklərinin daim döyəclədiyi, cənub və qərb tərəfdən hündür çılpaq təpələrlə əhatə edilmiş çökəkdə salınmışdır. Şimal küləkləri (buna xəzri deyirlər) qopduğu zaman öz yolunda Baş Qafqaz silsilə dağlarına toxunur və bütün gücü ilə silsilənin ətrafına yayılır, çılpaq boz təpələrin sinəsindən toz-torpağı qopararaq, burula-burula şəhərin üzərinə hücum çəkir.

1826-cı ildə Bakıda olmuş görkəmli səyyah Zeynalabdin Şirvani yazırdı: "Bakını Badkubə də adlandırırlar. Çünki bu yerdə daim küləklər əsir. Bəzən elə güclü əsir ki, şəhərin böyük tikililərini də xəsarətə uğradır. Buna görə burada evlərin özülünü yonulmuş daşlardan qoyur, həyətləri və damları qırla örtürlər".

**Bakı və xəzri**. Şəhərin yaranışından bu iki məfhumu bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Xəzri əsməyə başladımı bir həftədən tez kəsməz. Qədim bakılılar bir adamın bakılı olub-olmadığını öyrənmək üçün ona belə bir sual verərdilər: "Bakıda qış nə vaxt olur?". Əgər həmin adam "Xəzri əsəndə" deyə cavab verərdisə, onun bakılı olduğuna şübhə etməzdilər. Yay aylarında xəzri əsdiyi zaman adamlar isti paltar geyməyə məcbur olurdular. Qışda isə onun soxula bilmədiyi dəlmə-deşik qalmazdı.

Bakı qədim şəhərdir. Doğrudur, onun məhz hansı əsrdə salındığı hələ dəqiq müəyyən edilməmişdir. Lakin Bakının özündə və ətraf kəndlərində arxeoloqların apardığı qazıntılar nəticəsində tapılan tarixi abidələr, saxsı qablar, daş sandıqçalarda dəfn edilmiş adamların sümükləri, sikkələr və sairədən məlum olur ki, onun yaranma tarixi eramızdan əvvəlki əsrlərə gedib çıxır.

Hazırda Binəqədi yaxınlığında "Qır gölü" adı ilə tanınan böyük bir sahə vardır. Tarixçilərin yazdığına görə on min illər bundan qabaq burada göl zaman-zaman qurumuş və bugünkü şəklini almışdır. Burada gölün qalın qır təbəqələri altında çoxlu, hətta bu gün artıq Abşeronda mövcud olmayan vəhşi heyvanların sümükləri tapılmışdır. Şir, iri maral, ayı, at, uzunqulaq sümükləri ilə yanaşı tapılan kərkədan sümükləri də göstərir ki, Abşeronda on min illər qabaq bu heyvanlar yaşamışdır. Bəzi alimlər belə nəticəyə gəlirlər ki, bu heyvanların yaşadıqları yerdə yəqin ki, onları ovlayan ibtidai insanlar da yaşamışlar. Deməк, eramızdan hələ xeyli qabaq Abşeron ətrafında ibtidai insanlar məskən salmışlar. Qobustan daşlarında isə bu heyvanları ovlayan ibtidai insanların şəkilləri həkk edilmişdir.

Məlum olduğu üzrə Bakı ətrafında ən qədim məskən yerlərindən bəziləri hazırda Xəzər suları altında qalmışdır. Eramızın II-VII əsrlərində Xəzər dənizinin hazırki sahili Nargin və Vulf adalarından xeyli uzaqda olmuşdur. Eramızın 6-cı əsrindən başlayaraq, Xəzərin səviyyəsi artmış və Qız qalasınadək olan bütün körfəz su altında qalmışdır. Yaxın keçmişdə dəniz səthinin aşağı düşməsi nəticəsində suyun dibindən yüksələn qədim tikilinin bürcləri buna aydın sübutdur. 1830-cu ildə Bakıda olmuş alman akademiki E. Lens yerli əhalidən eşitmiş olduğu

rəvayətlər barədə belə yazırdı: "Xeyli müddət əvvəl dəniz indikinə nisbətən 20 verst uzaqlıqda idi. O zaman Nargin adaları da qurunun ayrılmaz hissələri idi. Sonra dənizin səthi qalxaraq, xeyli qabağa gəlmiş və sahil indiki görkəmini almışdır". Lensin o zaman sezdiyi bir sıra əlamətlər bu ehtimalı daha da möhkəmləndirirdi. Lens Nargin adasının qayalıqlarında Zığ burnuna gedən araba çarxlarının izini görmüşdü. Bunu Abbasqulu ağa Bakıxanov da özünün "Gülüstani-İrəm" kitabında təsdiq edirdi. O yazırdı: "Bakı qəzasının Bilgəh, Zirə, Bibiheybət və başqa kəndlərində, habelə bir neçə adada qayalıqlar üstündə dənizin içərilərinə tərəf gedən araba çarxlarının izləri görünür". Daha sonra Bakıxanov yazırdı: "Şəhərin özündə Hacı Baba Hacı Ağahüseyn oğlu adında bir ev sahibi öz həyatində quyu qazdığı zaman dənizin indiki səviyyəsindən aşağıda, yerin altında daşla döşənmiş bir yola rast gəlmişdir". Zığ burnunda da qayalıqlarda dənizin içərilərinə tərəf gedən araba təkərlərinin izlərini görənlər olub.

Bütün bunlar göstərirdi ki, Xəzər dənizinin səthi yüksəldiyi zaman bir çox tikililər, hətta rəvayətə görə Səbail adlı bütöv bir şəhər də suyun altında qalmışdır.

Şəhərin ən yüksək bir yerində yerləşən Şirvanşahlar sarayında aparılmış qazıntılar nəticəsində tapılan sikkələrlə hələ 8-ci əsrdə burada ticarət liman şəhəri olduğu müəyyənləşdirilmişdir. Bakışünas alim Sara Aşurbəyli belə bir nəticəyə gəlmişdir: "Bakı feodal şəhəri kimi hələ eramızın 8-ci əsrində mövcud idi". Beləliklə, ehtimal etmək olar ki, Bakının 12 əsrlik tarixi vardır.

Yeri gəlmişkən qeyd edək ki, Bakı şəhərinin öyrənilməsində görkəmli alim Sara Aşurbəylinin misilsiz xidməti vardır.

Bakı sözünün mənşəyi də indiyədək tam və dürüst aydınlaşdırılmamışdır. Hələ X əsrin birinci yarısında ərəb yə fars mənbələrində bu şəhərin adı Bakuh, Bakuya, Baku və Badkubə şəklində işlənmişdir.

Badkubə sözünün yaradılması daha sonrakı əsrlərə aiddir. Məsələn, 18-ci əsrdən başlayaraq, bir çox mənbələrdə Bakı sözünün bu formasına tez-tez təsadüf olunur. Bu, iki fars sözündən düzəldilmədir: Bad-külək, kubə-döyən deməkdir. Yəni külək döyən. Görünür ki, bu şəhərdə tez-tez şiddətli küləklər əsdiyindən bəziləri onu belə adlandırmışlar. Hətta bəzi mənbələrdə Azərbaycan dilində "Yeldöyən" sözünə də rast gəlmək mümkündür. Qafqazşünas K. P. Patkanov iddia edir ki, şəhərin adı lak sözü "baki"dən (təpə deməkdir) əmələ gəlmişdir. O dövrlərdə Bakı təpələr üstündə salındığından bu fikirdə müəyyən dərəcədə bir həqiqət vardır. Türklərin məşhur "İslam ensiklopediyası"nda isə bu sözün Bəy-köy türk sözlərindən düzəldiyi iddia olunur. Bəy-köy baş şəhər deməkdir.

Tarixçi Əli Hüseynzadə isə Mahmud Kaşqarinin 1072-1074-cü illərdə yazıldığı güman edilən məşhur "Divani lüğət üt türk" əsərinə əsaslanaraq K. P. Patkanovun söylədiyi nəticəyə gəlir, o, bu əsərdə təpə mənasında işlədilən Bakı sözünə təsadüf etmiş və belə qərara gəlmişdi ki, Bakı təpələr üstündə salındığından

şəhərin də adı bu sözdən götürülmüşdür. Bu fikri coğrafiya elmləri doktoru B. Budaqov da təsdiq etmişdir. Bizcə, bu fikir həqiqətə daha uyğundur.

Şəhərin təbii sərvətləri ilə yanaşı coğrafi şəraiti, şərq və qərb, habelə şimala gedən ticarət yollarının əlverişli bir yerdə yerləşməsi çox cahangirlərin və yadelli işğalçıların iştah və diqqətini cəlb edirdi.

7-ci əsrin 30-cu illərində ərəb qoşunları İranın bir çox böyük şəhərlərini işğal etdikdən sonra Azərbaycan torpaqlarına soxuldular. Lakin onlar hər yerdə ciddi müqavimətə rast gəldilər. Ərəb istilaçıları Azərbaycanın gözəl yaylaqlarını, kənd və şəhərlərini xarabazara çevirdilər. Şirvanın məhsuldar qüvvələrinə böyük zərbə vurdular. Ölkədə, azğınlıq və talan başladı. Mədəni sərvətlər məhv edildi, tarixi abidələr dağıdıldı. Yüzlərlə, minlərlə adamlar öz yurd-yuvalarından didərgin salındı. İslam dini bu talanlar üçün bir vasitəyə çevrilmişdi. Onlar Bakı torpaqlarının zəngin yataqlara malik olduqlarını bildikləri üçün Şirvan və Bakını daim nəzarət altında saxlayırdılar. Çünki onlar Bakı neftindən, Bakının duz və başqa məmulatından xilafət xəzinəsinə daxil olan gəlirin yarısını belə başqa ölkələrdən toplaya bilmirdilər. Bəzən neft və duz yataqlarının bir hissəsi vəqf yerləri elan edilərək, Dərbənddə qərargah qurmuş xilafət nümayəndələrinin sərəncamına, ərəb əsgərlərinin istifadəsinə verilirdi. Dərbənddəki qoşunun demək olar ki, bütün xərcləri Bakı neftinin hesabına ödənilirdi. Ərəblər şimalın köçəri tayfalarının, birinci növbədə Xəzərlərin basqın və hücumlarından qorxaraq, Dərbənd sərhədlərini alınmaz bir istehkama çevirmişdilər. Bakı nefti hərbi məqsədlər üçün də istifadə edilirdi. Döyüşlərdə neft qablara doldurularaq, düşmən üzərinə atılırdı. Ərəblərin döyüşlərdə qələbə qazanmaları çox zaman neftin hesabına idi.

Bir tərəfdən ağır vergilər, o biri tərəfdən soyğunçuluq və talançılıq xalqın qəzəbini getdikcə coşdurur, hər bir yurdda, hər bir ocaqda işğalçılara qarşı üsyan və qiyam dalğaları alovlanırdı. Doğrudur, qiyamlar hər dəfə amansızcasına yatırılırdı. Ancaq əhalinin nifrət və qəzəbini qılınc və silah vasitəsilə də boğa bilmirdilər. Ərəb əmiri Şirvanşahları məcbur etmişdi ki, hər il ona 4 min gənc oğlan və qız qul kimi verilsin. Vergiləri verməyənlər də qul halına salınırdı. Şirvanşahlar torpağının çox hissəsi, xüsusi ilə suvarılan torpaqlar xəlifənin xüsusi əmlakı hesab edilirdi. Muğan və Şirvan düzlərinin ən münbit torpaqları Ərəbistandan buraya köçürülmüş ərəb tayfalarının sərəncamına verilmişdi. Sonralar bu ərəb tayfalarından çoxu yerli əhali ilə qaynayıb-qarışmış, həmişəlik bu torpaqlarda qalmışdılar. Hazırda Azərbaycanın cənub rayonlarında bir para kəndlər o vaxtdan ərəb adları daşıyırlar.

Ərəblərin yerli əhalinin atəşpərəstlik məbədlərini dağıdıb yandırmalarına baxmayaraq, kəndlilər İslam dinini çətinliklə qəbul edirdilər. Yalnız şəhərlərdə və o cümlədən Bakının özündə əsnaf və sənətkarlar ərəb istilaçılarının dininə daha

çox meyl göstərirdilər. Bu da onunla əlaqədardı ki, ərəb istilaçıları onların sərbəst alver etmələri üçün şərait yaradırdılar.

Ərəblərə qarşı baş vermiş ən böyük üsyanlardan biri 748-ci ildə Beyləqanda olmuşdu. Lakin üsyan Abbasilər tərəfindən yatırılmış və Beyləqan qalası yerlə yeksan edilmişdi.

808-ci ildə Ərdəbil mahalında, Savalan dağları ətəyində başlayan Babək hərəkatı 30 il müddətində ərəb xilafətini daim qorxu altında saxlamışdı. Qəhrəmanlıqla döyüşən xürrəmilər 819-827-ci illər ərzində ərəblərin 6 ordusunu darmadağın etmişdilər.

9-cu və 10-cu əsrlərdə bu qiyam və üsyanlar Abbasilar xilafətinin qüdrətini xeyli zəifl ətmişdi. Hər tərəfdə xüsusi feodallıqlar yaranıb, özlərini ərəb əsarətindən xilas etməyə, vergiləri verməkdən imtina etməyə başladılar. X əsrdə Dərbənddən Kür çayınadək uzanan torpaqlar artıq Şirvanşahların hökmranlığı altında idi.

Bir rəvayət vardır ki, guya yunanlar da Bakıda olmuşlar. Bu rəvayət Xəzərin suları altında qalmış qədim "Yunan qala" və yaxud "Yunan şəhr" qalıqları əsasında yaranmışdır. Bu şəhər qalıqları Bakı-Salyan yolunun təxminən əlli verstliyindədir. Təxminən 90 il qabaq Bakıdan Salyana gedən "Saruxan" adlı bir gəminin kapitanı suyun altında belə bir mənzərəyə rast gəlmişdi: "Körfəzin suları sakit idi. Günəş dənizin dibini apaydın işıqlandırmışdı. Birdən gəmi heyəti gəminin böyük bir küçənin üstü ilə üzdüyünü gördü. Aşağıda, dənizin dibində qədim bir şəhər görünürdü. Küçələr, döngələr ovucun içi kimi aydın idi".

Beləliklə, 20 fut dərinliyində suyun altında qədim bir şəhər kəşf edilmişdi. Daha sonralar dənizçilər Bakının cənubunda, Kür çayının Xəzər dənizinə töküldüyu yerdə, Byandovan burnunda da qədim bir şəhərin qalıqlarına rast gəlmişdilər.

Akademik İ. M. Qubkin Xəzər dənizi səthinin qalxıb-enməsinin dinamik proseslər nəticəsində baş verdiyini göstərərək yazırdı ki, "suyun altında qalmış şəhər haqqında rəvayətlər əfsanə deyil, həqiqətdir".

Yunanlar Bakıya necə gəlmişlər? Bir rəvayətə görə Aleksandr Makedonski Bakını fəth etmək üçün buraya qoşun yeritmişdir. Lakin tarixdən bizə məlumdur ki, Aleksandrın qoşunları Bakıya çatmayıblar. Bəs bəzi daşların və qayaların üstünə yunan sözləri necə həkk olunub? Çox ehtimal ki, İran dövləti Roma və Yunanıstanla etdiyi müharibələrdə əsir aldıqları əsgərləri sənətkarlıqlarına görə məmləkətin müxtəlif yerlərində yerləşdirmişdir. Daşların üzərinə yunan sözləri də yəqin onların tərəfindən həkk edilmişdir.

Şirvan ta qədimdən Slavyan dünyası ilə ticarət əlaqəsi saxlayırdı. IX əsrdə yaşamış ərəb yazıçısı Əbdülqasımın yazdığına görə hələ onun zamanında rus tacirləri Volqa və Xəzər dənizi vasitəsilə hətta Bağdadın özünə gedib çıxmışdılar. Lakin onlar Xəzərin sahillərinə çıxmaq üçün Xəzərlərin torpaqlarından keçməli

idilər. Ruslar Qara dənizdə gəmilərə oturur və Azov dənizindən Don çayı ilə qalxaraq, Xəzərlərin torpaqlarına çatır və burada gəmilərini quru ilə sürütdəyə-sürütdəyə Volqa çayına salaraq, Xəzərə çıxırdılar. Xəzərdə bəzən Bakı limanına yan alır, bəzən də Kür çayına daxil olaraq, o zaman ticarət mərkəzi kimi tanınmış Bərdəyə keçirdilər.

IX əsrin axırlarından ruslar həmin yolla artıq ticarət məqsədi ilə deyil, qarət qəsdilə Xəzər sularında üzürdülər. Rusların Xəzərin qərb sahillərinə ilk səfərləri 909-910-cu illərdə olmuşdur. Onlar Xəzər sularında sağına-soluna üzərək qarətlə məşğul olurdular.

Rusların ən böyük hücumları 913-cü ildə olmuşdur. Bu dəfə onlar Xəzərlərin xaqanı ilə danışaraq, onların torpaqlarından maniəsiz keçmiş və hərəsində 100 nəfər adam olan 500 gəmi ilə Volqa ilə üzərək Xəzərə çıxmışdılar. Dağıstanı keçəndən sonra Bakı yaxınlığında bir adada yerləşmişdilər. Bir müddət burada qaldıqdan sonra Xəzər sahillərini qarətə başlamışdılar. Zəngin qənimətlərlə geri dönən ruslar Volqanın mənsəbində Xəzərlərin özləri tərəfindən basqına məruz qalaraq, talan edilmişdilər.

Sonralar ruslar yenə bir neçə dəfə Azərbaycana basqın etmişlər. 944-cü ildə onlar gəmilərlə Bərdə yaxınlığında sahilə çıxmaq istərkən şəhər əhli tərəfindən böyük müqavimətə rast gəlmişdilər. Ancaq buna baxmayaraq, şəhəri işğal edə bilmişdilər. X əsr ərəb tarixçilərindən biri ruslar barədə yazırdı: "Öz iri bədənləri və cəsarətləri ilə fərqlənən ruslar geri qaçmağın nə olduğunu bilmirlər. Onlar düşməni öldürməyincə və ya özü ölməyincə geri dönməzdilər. Mən rusları görən adamlardan onların cəsarəti barədə çox maraqlı şeylər eşitmişəm".

Bir müddət sonra Mərzban İbn Məhəmməd 30 min qoşunla Bərdəni mühasirəyə alaraq, şəhəri həmlə ilə tutmaq istəmişdi. Ancaq bu heç bir nəticə verməmişdi. Yazılı mənbələr göstərir ki, ruslar qılınclarını işə salaraq, Mərzbanın qoşunlarını qırmışdılar. Sonra ruslar özləri də Bərdədə qalmayıblar. Kür çayında onları hazır gözləyən gəmilərə oturaraq, Azərbaycanı tərk etmişdilər.

1032-ci ildə təkrar Bakıda olan ruslar quru ilə geri dönərkən Dərbənd əmiri tərəfindən məğlub edilmişdilər.

Bu illərdə Bərdə şəhəri ilə yanaşı olaraq, Gəncə, Şamaxı, Şabran, Beyləqan, Ərdəbil, Təbriz, Marağa və Bakı şəhərləri şəhər və kənd sənətkarlarının istehsal etdikləri ipək məmulatı, parça və geyimləri ilə tanınmışdılar. Bu şəhərlər öz tikintiləri, karvansara və örtülü bazarları ilə və habelə əhalisinin sayına görə Bağdad şəhərindən heç də geri qalmırdı. Bakı öz nefti və duzu ilə yenə bütün Şərq ölkələrində öz əvvəlki şöhrətini hifz edib, saxlaya bilmişdi. Burada istehsal olunan neft, duz və zəfəran dəvə karvanları ilə İrana, İraqa və başqa ərəb ölkələrinə daşınırdı. Neftdən hər yerdə - həm yanacaq, həm sürtgü yağı, həm də hərbi işdə və təbabətdə istifadə olunurdu. Ərəb tarixçisi Məsudinin yazdığına görə Bakıda olan

əsas iki neft quyusundan 1.000 dirhəm gəlir əldə edilirdi. Şamaxıda və Bakıda hazırlanan ipək paltarlar da xarici bazarlarda ad çıxarmışdı. Bakı əhlinin əksəriyyəti kustar və sənətkar olsa da kənd təsərrüfatı, əkinçilik və bostançılıqla məşğul olanı da vardı. Qala divarlarından xaricdə olan düzənlik və çöllər bakılıların əkin sahələri idi. Hazırkı M. Nağıyev xəstəxanasının ətrafı Sinəqənbər adlanırdı. Burada yaxşı buğda və arpa yetişirdi. Qanlı təpə bostan yerləri idi. İndiki Səttərxan zavodunun dörd bir tərəfi üzüm bağları idi. Hətta onun sağ tərəfində olan təpə son vaxtlaradək Salqım üstü adlanırdı. İndiki vağzalın yeri də üzümlüklərdi. Burada çox məhsuldar üzüm bağları vardı. Bakıda tez-tez quraqlıq olduğundan buğda çox boy atmazdı. Buna görə biçin zamanı onu əllə kökündən qoparardılar. İndiki fəvvarələr meydanının yeri isə bakılıların zəfəran tarlaları idi. Kəndlərdə çoxlu çəki ağacları əkilərdi. Bakıda istehsal olunan ipək məşhur Şamaxı ipəyindən heç də əskik deyildi. Şəhər camaatı öz mal-qarasını bu çöllərdə otladardı. Meydanın yaxınlığındakı naxır bulağı yaxın keçmişədək qalmışdı. Bakı ətrafı torpaqların münbitliyi barədə səyyahların qeydlərinə tez-tez rast gəlmək olar. 1884-cü ildə Bakıda olmuş Skalkovskanın Sankt-Peterburqda çap olunmuş "Yol xatirələri" adlı kitabında Bakı ətrafı torpaqlar barədəki qeydləri çox səciyyəvidir. O yazırdı: "Şəhərin (Bakının - Q.İ.) iki verstliyində arpa və buğda zəmiləri başlayır. Adam inanmırdı ki, xırda daş ovuntularından ibarət olan zəmi belə məhsul verə bilər. Zahirən miskin görünən torpaq burada çox məhsuldardır. Bəzən elə olurdu ki, kəndlinin inşaat üçün daş çıxardığı yerdə qalan xırda daş ovuntularını və tozu külək qovaraq, torpağa qatar və yağışlı havalardan sonra bu torpaqda yaxşı məhsul bitərdi. Görünur ki, bu daş və balıqqulağı qırıntılarında fosfor turşusu vardır ki, o əkinə kömək edir. Lakin şiddətli küləklər taxılın artmasına mane olurdu. Odur ki, Bakı yaxınlığında taxıl heç bir arşın da arta bilmirdi. Buna görə taxılı biçmək çətinləşərdi.

Onları sadəcə olaraq, əllə kötüyündən çıxarır və kiçik dərzlər bağlayırlar. Belə əkin torpağı tez qüvvədən salır".

XI əsrdən başlayaraq, Orta Asiyadan çıxan köçəri Səlcuq türkləri Şərqə və o cümlədən 1054-cü ildə Azərbaycana basqın edirlər. Bir ildən sonra Toğrul bəyin komandanlığı altında Səlcuqlar ərəb xilafətinin paytaxtı Bağdadı da zəbt edə bilmişdilər. Toğrul bəy xilafətdə siyasi hakimiyyətin başçısı elan edilmişdi. Böyük Səlcuq dövlətinin paytaxtı əvvəlcə Mərvdə, sonralar isə Rey və İsfahanda olmuşdur. Toğrul bəyin varisi sultan Arp Aslan olub. Arp Arslandan sonra taxta çıxan Məlik şah (1072-1092) Azərbaycanın şimal əyalətlərində hakimiyyətini möhkəmlətmək məqsədilə Gəncə şəhərini tutur, sonra da Şirvanşah I Fəriburzu özünə tabe etdirərək, onu hər il 40 min dinar xərac verməyə məcbur edir. Səlcuq sultanı Azərbaycan torpaqlarını öz yaxın adamlarına paylamağa başlayır. Bu torpaq sahələrinə yiyələnən feodallar camaatdan topladıqları vergilərin bir hissəsini

dövlətin xəzinəsinə verməyə borclu idilər. Əlavə olaraq, lazım gəldikdə sultanın tələbi ilə ona qoşun hissələri də verməli idilər. Nəticə etibarilə bütün bu ağırlıqlar Şirvan kəndlilərinin və o cümlədən Bakı kəndliləri və sənətkarlarının üzərinə düşürdü.

## BAKI ŞİRVANŞAHLAR DÖVRÜNDƏ

Şirvanşahlar sarayında I Fəriburzdan sonra taxta I Mənuçəhr, ondan sonra isə II Mənuçəhr çıxmışdı.

1149-1203-cü illərdə isə Kəsranilər dövlətini II Mənuçəhrin oğlu I Axsitan idarə edirdi. Məhz Axsitan dövründə Şirvanşahlar iqtisadi və siyasi cəhətdən xeyli inkişaf edərək müstəqil bir dövlət kimi bütün Yaxın Şərq ölkələrində tanınmışdı. Bu vaxtadək Xəzər dənizində cüzi miqdarda gəmilərə sahib olan Şirvanşahlar indi güclü dəniz donanması ölkəsinə çevrilmişdi.

Şirvanşahlar səlcuqların əsarətindən bir dəfəlik xilas olmaq məqsədilə Gürcüstan çarı ilə yaxın qonşuluq əlaqələri yaradır. Gürcüstan şahı IV David səlcuqlara qarşı güclü bir qüvvə ilə çıxmaq üçün Şimali Qafqaz köçərilərinin köməyindən istifadə etmək qərarına gəlir. Bu məqsədlə o, qıpçaqların baş komandanının qızına evlənir. Hər ikisinin arasında gedən danışıqlara əsasən 45 min qıpçaq döyüşçüsü ailələri ilə birlikdə Gürcüstana köçürülür. IV David öz qoşununu artırandan sonra səlcuqlara nəinki vergi verməkdən imtina edir, hətta hücuma keçərək, Tiflis şəhərini onlardan xilas edir. Bir müddət sonra səlcuq sultanı Mahmud Şirvana hücum edərək, Şamaxı şəhərini tutur. II Mənuçəhr də əsir düşür. Bunu eşidən IV David onun köməyinə çataraq, Şamaxını səlcuqlardan təmizləyirlər. Bundan sonra Şirvanşahlarla gürcülər arasında dostluq daha da möhkəmlənir. Hətta II Mənuçəhr Davidin qızına evlənir. 1123-cü ildə Şamaxı yaxınlığında keçirilmiş ağır döyüşlərdən sonra Şirvanşahlar səlcuqların, asılılığından tamamilə azad olurlar.

Şamaxıdan sonra Şirvanın ikinci böyük şəhəri Bakı idi. Onun dövrəsinə çəkilmiş birinci hündür hasar Şirvanşah II Mənuçəhrin dövrünə aiddir. Şəhər divarlarından birinin təmiri zamanı tapılmış kufi yazılı daş bunu sübut edir. Daşda yazılmışdı ki, bu hasar 1120-1160-cı illərdə Şirvanşah II Mənuçəhr tərəfindən çəkilmişdir. Şəhərin ikinci alçaq divarı isə daha sonrakı illərə aiddir. 1191-ci ildə Qızıl Arslan Şamaxını zəbt etdikdə Şirvanşah I Axsitan Şirvanşahların paytaxtını Bakıya köçürür. Qala içərisində yaşayan əhalinin xariclə əlaqəsi yalnız iki darvaza vasitəsilə saxlanırdı. Bu darvazalardan biri şimal tərəfdə olub Şamaxı darvazası adlanırdı. O biri isə qalanın cənubundakı Salyan darvazası idi. Salyan darvazası dağlara tərəf açıldığı üçün bəzən Dağlıq qapısı da adlanırdı.

Şirvanşah I Xəlilullanın dövründə qala içərisində inşaat böyük vüsət almışdı. Şəhərin ən yüksək bir yerində, təpənin üstündə Şirvanşahlar sarayı tikildi. Şəhərin ansamblına divanxana, dərviş məqbərəsi, məscid, hamam da daxil idi. Saray dörd tərəfdən hasar içərisinə alınmışdı. 1683-cü ildə Bakıda olmuş alman səyyahı Engelbert Kempfer Şirvanşahlar sarayının tikilişinə heyran qalaraq yazırdı: "Şəhərin yuxarı hissəsində gözəl bir saray vardır ki, bu Şah sarayı adlanır. Saray qayanın üstündə, doğrudan da əzəmətli tikilmişdir... Sarayın qapısına bir-birilə üzbəüz oturmuş iki şir şəkli həkk olunmuşdur. Onların başları üstündə başqa bir heyvan başı da həkk olunmuşdur, elə bil dəvə başıdır".

Kempferin təsvir etdiyi şəkil hal-hazıradək şəhərin şimal darvazaları üstündə durur. Lakin Kempfer şirlərin arasındakı heyvan başını dəvə başına oxşatmaqda yanılmışdı. Belə öküz başı Bayıl körfəzində tapılmış daşların üstündə də həkk olunmuşdur. Bundan başqa hazırda şəhərin Ostrovski (indiki S. Vəzirov) küçəsində 59 nömrəli qədim bir evin qabağından keçərkən diqqət yetirsəniz, fasadda həkk olunmuş iki şirin arasında da öküz başı rəsm edildiyini görə bilərsiniz. Buradan məlum olur ki, iki şir arasında öküz başı vaxtı ilə Şirvanşahların gerbi olub.

Kempfer daha sonra yazırdı: "Bakı şəhəri demək olar ki, düzbucaqlı şəklindədir. Ancaq bir tərəfi daha uzundur. Hər tərəfi min addım, bəlkə də artıqdır. Şəhərin bir tərəfi limandır. O biri tərəfi isə (indiki Ə. Əliyev küçəsi tərəf - Q.İ.) dənizə baxır. Qalan tərəfləri isə daş kimi möhkəm torpaqda qazılmış xəndəklərlə əhatə olunub. Şəhər bir-birindən on beş addım aralı olan iki divar içərisindədir. Divarlarda çoxlu yarım dairəvi bürclər vardır. Divarın yuxarısı diş-dişdir. Şimal tərəfdəki darvazanın üzərinə dəmirdən üz çəkilmişdir".

Kempferdən xeyli sonra 1824-cü ildə Bakıda olmuş Kazan şəhərinin professoru İ. Berezin bu təsvirləri sanki təsdiq edərək yazırdı: "Bakı qalası, doğrudan da iki cərgə hasar arasına alınmışdı. Dəniz tərəfdə isə divar yalnız bir cərgədir. Qaldırılan körpüsü vardır və yaxşı müdafiə olunur. Cənub-qərb tərəfdə isə şəhərin ətrafında təpələr ucalır. Bakı qalasının qurudan keşikçi bastionları olan iki darvazası vardır: Şimal-şərqdə, şəhərə daxil olduğum Şamaxı darvazası və cənub-qərb tərəfdə Dağlıq darvazası. Mən bu qapıdan keçib, qəbiristanlığa getmişəm. Dəniz tərəfdən isə bir neçə kiçik girişlər vardır".

Berezinin Dağlıq qapısı adlandırdığı darvaza Salyan darvazasıdır. Keçmiş İnqilab bağına açılan darvaza. O zaman bu darvaza keçmiş Pionerlər sarayının, göz xəstəxanasının yerləşdiyi qəbiristanlığa açılırdı. Buna görə də Berezin qəbiristanlığa məhz bu darvazadan gedə bilərdi. Şamaxı və Salyan darvazaları içəri tərəfdən hasar boyu salınmış yolla birləşmişdi. Bu yolla piyadalar və arabalar hərəkət edirdi. Həmin yol indiki Sabir küçəsidir. Divarlar hər iki tərəfdən dənizə tərəf yenirdi. Lakin sahildə yalnız içəri hündür hasar sahil tərəfdən şəhəri

dövrələyir, ikinci alçaq divar isə sahildən dənizin içərilərinə tərəf uzanırdı. Beləliklə qala dəniz tərəfdən yalnız bir hasarla dövrəyə alınmışdı. Burada qaladan sahilə açılan üç qapı vardı.

XII əsrdə Şirvanşahlar artıq Bakı limanında böyük hərbi donanmaya malik idilər. Axsitan IV David, daha sonra gürcü şahı III Georgi ilə daimi hərbi-siyasi əlaqədə idi. Onun köməyi ilə Axsitan Dərbənd tərəfdən Şirvana hücum edən köçəri qıpçaqların hücumunu dəf etmişdi. 1175-ci ildə Bakı yaxınlığında, təxminən Mərdəkan və Şüvəlan tərəfdə Axsitan 73 gəmi ilə hücuma keçən rusların hücumunun qarşısını ala bilmiş və onları geri oturtmuşdu.

Azərbaycanın Gəncə, Bərdə, Beyləqan və Şamaxı şəhərlərində olduğu kimi Bakıda da kustarlıq və peşəkarlıq çox inkişaf etmişdi. Burada kətan, ipək və yun parçalar, dəmir məmulat və sairə hazırlanır və Azərbaycandan keçən, Şərqin və Avropanın ticarət mərkəzlərini birləşdirən karvan yolları və dəniz vasitəsilə başqa ölkələrə ixrac olunurdu. Şəhərdə çoxlu culfa, dəmirçi, boyaqçı, dülgər, başmaqçı, dəbbaq, dulusçu və dərzi yaşayırdı.

Şirvanşahlar dövründə şəhərləri şah tərəfindən təyin edilmiş əmirlər idarə edirdi. Əslində əmirlər böyük feodal idilər. Şəhərdə məscidlər və başqa binalar tikdirir və şəhərdən xaricdə, xüsusilə Xəzər dənizinin kənarlarında mühafizə əhəmiyyətli qalalar inşa etdirirdilər. Hazırda bəzi tikililərin üstündəki yazılı daşlarda belə əmirlərin adlarına rast gəlmək olar. Əmirlərdən başqa şəhərlərdə bir sıra yüksək vəzifəli məmurlar da vardı ki, bunlara Şirvanşahlar tərəfindən yüksək adlar verilmişdi. Məsələn, belə adlardan biri sədr idi. Sədrlər adətən hakim orqanlara yaxın adamlardı. Bəziləri hətta iri feodallar idi. Onlar vəqf və başqa işlərlə məşğul olurdular. Məscid tikdirmə hüququna malik idilər. Məsələn, Bakıda 1308-1309-cu illərdə tikilmiş Giley məscidinin kitabəsində sədr Əbubəkr oğlu Əminəddinin adına rast gəlmək mümkündür. Rəis adətən iri tacirlərə və kustarçılıq sexlərinin başçılarına deyirdilər. Qoşun hissəsinin baş komandanı süpehsalar adlanırdı. Onlar da iri feodallardı və müdafiə əhəmiyyətli qalalar tikdirə bilirdilər. Məsələn, Mərdəkandakı XIII əsr abidəsi dairəvi qalanı süpehsalar Kəkli oğlu İshaq tikdirmişdi. Süpehsalar Şirvanşahlar dövlətində ən yüksək hərbi vəzifə idi.

## SƏFƏVİLƏR VƏ TÜRKLƏR BAKIDA

Şirvanşah I Xəlilullanın oğlu Fərrux Yasar hakimiyyəti dövründə Səfəvilər Şirvan üzərinə hücuma keçərək, ölkəni təzədən əsarət altına aldılar. Hələ bundan qabaq 1460-cı ildə Səfəvi sərkərdələrindən şeyx Cüneyd Şirvana basqın edərkən I Xəlilulla tərəfindən öldürülmüşdü. Bundan təxminən iyirmi il sonra da şeyx Cüneydin oğlu şeyx Heydər vuruşmada Fərrux Yasar tərəfindən qətl edilmişdi. Azərbaycanı birləşdirmək və vahid Azərbaycan dövləti yaratmaq məqsədilə Şirvan

torpaqlarına hücum edən Şah İsmayıl babasının və atasının intiqamını almağı da unutmurdu. 1500-cü ildə Gülüstan yaxınlığında Fərrux Yasar qoşunları ilə Şah İsmayılın qızılbaşları arasında qızğın döyüşlər getdi. Bu döyüşlərdə Fərrux Yasar məğlub olaraq, öldürüldü. Bundan sonra Şah İsmayıl Şirvanın qala və şəhərlərini zəbt edərək, çoxlu qənimət ələ keçirdi. 1501-ci ildə isə qızılbaşlar Bakı üzərinə hücuma keçdilər.

Bu, baharın xoş günlərindən birində idi. Bakının işğalı üçün Şah İsmayıl özünün iki bacarıqlı sərkərdəsini göndərmişdi. Bunlar Məhəmməd bəy Ustaclu ilə İlyas bəy Xunuslu idi. Onlar şəhər divarlarına yaxınlaşanda donuxub qaldılar. Uca qalın divarlar boyu uzanan xəndəklər, üzərinə dəmir çəkilmiş darvazalar hər iki sərkərdəni çox düşündürdü. Belə möhkəm qalanı almaq çox çətin idi. Şah İsmayıl isə qalanın alınmasını tələsdirirdi. Hələ Şirvanşah Fərrux Yasarın dövründə Bakı, Mahmudabad və Salyanın idarə edilməsini kürəkəni Qazıbəyə həvalə etmişdi. Şah İsmayılın qoşunları Bakıya yaxınlaşanda Qazıbəy təsadüfi olaraq şəhərdən çıxmışdı. Lakin onun olmaması bakılıları zərrə qədər də sarsıtmadı. Onlar qalanın möhkəmliyinə arxayın olaraq, şəhəri qəhrəmanlıqla müdafiə etməyə başladılar. Ərzaq və silah ehtiyatları da kifayət qədər vardı. Ərinin qalada olmadığını düşmənə bildirməmək üçün Qazıbəyin arvadı özü müdafiəyə başçılıq etməyə başladı. Düşmənin qalaya bir-birinin dalınca olan həmlələri heç bir nəticə vermirdi. Bakılılar mərdliklə müdafiə olunurdular. Vəziyyəti belə gördükdə Səfəvilər bu mərd qadının yanına elçi göndərdilər. Qazıbəyin arvadı elçini sarayda deyil, qala divarının yanında qəbul etdi.

Cənabınızı eşidirəm, - deyə qarşısında durmuş qırmızı çalmalı elçini qəzəblə süzdü.

Böyük şahın fərmanını sizə çatdırmaq istəyirəm.

O nə fərmandır elə? - qadın istehza ilə soruşdu.

Fərman budur ki, təslim olasınız.

Kifayətdir. - Qadın əlini çırpdı. - Bizə təslim olmağı təklif edənlərə cavabımız ancaq birdir. - Bunu deyib, ətrafında toplaşmış müdafiəçilərə müraciətlə əlavə etdi. - Aparın.

Hələ özünə gəlməmiş elçinin başı dərhal vurulur. Qadının bu hərəkəti Şah İsmayılın sərkərdələrini bərk qəzəbləndirir və təzədən qalaya basqına başlayırlar. Ancaq bu da bir nəticə vermir. Bu dəfə şəhərin darğası şəhər müdafiəsinin başçısı yanına gəlir. Onu yola gətirməyə çalışaraq, qalanı təslim etməyi məsləhət görür. Darğanın da başı bədənindən ayrılır. Şah İsmayıl qalanın alınmadığını eşidib, köməyə təzə qüvvələr göndərir. Yenə də heç bir şey çıxmadığını görəndə özü Bakıya gəlməyə məcbur olur. Onun rəhbərliyi altında qızılbaş əsgərlər qala divarının altından gecəli-gündüzlü lağım atmağa başlayırlar. Qalanın bir tərəfi uçur. Yalnız bu zaman əhali təslim olmaq qərarına gəlir. Şəhərin görkəmli və

ağsaqqal adamlarından 70 nəfəri əyinlərinə kəfən taxaraq, qılıncları boyunlarından asılı halda əllərində Quran şəhər darvazalarından çıxıb, Şah İsmayılın yanına gəlirlər. Tarixçilərin yazdıqlarına görə, Şah İsmayıl onların günahından keçir, şəhərdən yalnız qan bahası olaraq, min tümən pul alır. Şah İsmayılın ürəyi bununla da soyumur. O, babasını öldürmüş Şirvanşah I Xəlilullanın sümüklərinin Şirvanşahların türbəsindən çıxarılıb, yandırılmasını əmr edir.

Həmin ildə də səfəvi qoşunları Şirvandan çıxırlar. Səfəvilərin Şirvan üzərində qələbə çalmasına baxmayaraq, Şirvanşahlar hələ də Səfəvilərə tabe olmaqdan imtina edirdilər. Xüsusilə Fərrux Yasarın oğlu Şirvanşah Şeyx şah açıq-açığına boyunduruq altına girmək istəmirdi. Buna görə də, sonralar Şah İsmayıl Şirvanı tamamilə özünə tabe etmək üçün dəfələrlə bu torpaqlara hücum çəkmişdi. Belə bir hücum axırıncı dəfə 1519-cu ildə olmuşdu. Şirvanşahlar bu dəfə Səfəvilərə qəti qələbə çalmaq əzmində idilər. Ancaq Səfəvilərin üstün qüvvələri qarşısında onlar heç bir şey edə bilmirlər. Təslim olurlar. Səfəvilərin hər dəfə qələbə çaldıqlarına baxmayaraq Şirvanşahlar öz istiqlaliyyətlərini hələ də saxlaya bilmişdilər. 1524-cü ildə Şah İsmayıl ölür və tac-taxta oğlu I Təhmasib sahib olur. I Təhmasib dövründə Səfəvilər dövləti özünün əvvəlki əzəmətini daha hifz edə bilmir. Bunun əsas səbəblərindən biri o idi ki, köçəri kürd tayfaları mərkəzi hakimiyyətə tabe olmaqdan imtina edirdilər. Şirvanşahlar da bundan istifadə edərək, öz mövqelərini möhkəmlətməyə çalışırdılar. Şirvanşah II Xəlilulladan sonra taxta onun qardaşı oğlu Şahrux keçir. O çox cavan idi. Saray əyanları bundan istifadə edərək, hakimiyyəti, demək olar ki, öz əllərinə almışdılar. Ölkədə talan başlandı. Bu da xalqın böyük qəzəbinə səbəb olmuşdu. Şirvanda üsyanlar başlamışdı. I Təhmasib bu fürsəti əldən buraxmaq istəmir. 20 minlik qoşunla Şirvana basqın edir. Dörd aylıq mühasirədən sonra Şahruxun yerləşdiyi qala işğal olunur. Şahrux özü isə əsir alınıb, Təbrizə göndərilir. 1540-cı ildə Şirvanşahların axırıncı şahı Şahrux Təbriz həbsxanasında gizlicə qətl edilir.

Beləliklə I Təhmasib Şirvanşahlar sülaləsini tamamilə ləğv edərək, Şirvanı Səfəvi dövlətinin əyalətlərindən birinə çevirdi. Bundan sonra Şirvan varlılarının böyük torpaq sahələri səfəvi əmirlərinə paylanır. Həmin müddətdə Şirvanın idarə edilməsi səfəvi canişininə - bəylərbəyinə həvalə olunur.

1541-ci ildə Təhmasib Qazi xan Təkəlini Bakıya hakim göndərir. Heç bir şeydən çəkinməyən bakılılar onu şəhərə buraxmırlar. Yalnız zor gücünə Təkəli şəhərə daxil olub, hakimiyyətə başlayır.

Bu illərdə sultan Türkiyəsi hələ də Azərbaycanı, Gürcüstanı işğal etmək arzusu ilə yaşayırdı. Xüsusilə Xəzərin qərb sahilləri onun iştahasını çox çəkirdi. 1549-cu ildə I Sultan Süleyman Azərbaycana qoşun yeridir. Bu işdə Türkiyəyə rəğbət bəsləyən yerli feodallardan Bürhan Əlinin də böyük köməyi olur. Bürhan Əlinin bu xidməti əvəzində türklər Şamaxını işğal etdikdən sonra onu Şirvana vali

təyin edirlər. İki ildən sonra Bürhan Əli ölür. Şirvan təzədən Səfəvilərin əlinə keçir. Şirvanlılar Səfəvilərin Bürhan Əlinin meyidindən də intiqam alacaqlarını bildikləri üçün meyidi gizlədirlər. Şirvanın bəylərbəyi Abdulla xan isə meyidi tapdıraraq, başını kəsdirir. Bu ara Abdulla xana xəbər verirlər ki, Bürhan Əlinin yaxın adamları Bakıda gizlənirlər. Onların dalınca bir dəstə atlı göndərilir. Çox axtarışdan sonra onları Xəzər dənizindəki adalardan birində tapırlar. Onları Bakıdan Şamaxıya gətirərək edam edirlər.

Bu əhvalatdan sonra Şirvan əhli bir müddət rahat nəfəs almağa başlayır. Lakin bu da uzun sürmür. 1554-cü ildə türk qoşunları Sinan bəyin başçılığı altında Zaqafqaziyaya daxil olub, Şirvan üzərinə yürüyür. Bu zaman türk qoşunlarına bələdçilik edən Şirvanşahlar nəslindən olan Qasım Mirzə idi. O vaxtilə Səfəvilərin istilasından sonra Türkiyəyə pənah aparmış və sultanın sarayında yaşamışdı. Türklər bu hücumda müvəffəqiyyət qazana bilmirlər. Ərzaq çatışmamazlığı onları qayıtmağa məcbur edir. 1555-ci ildə I Təhmasiblə türklər arasında müqavilə bağlanır. Bu müqaviləyə əsasən Qərbi Gürcüstanm bir hissəsi, Ermənistanın qərb əyalətləri Türkiyənin ixtiyarına verilir. Ermənistan və Gürcüstanın şərq əyalətləri isə Azərbaycanla birlikdə Səfəvilərin əlində qalır.

Bu müddətdən başlayaraq təxminən iyirmi il müddətində, Azərbaycan torpaqlarında davam edən dinclik və rahatlıq ölkənin və o cümlədən Bakı şəhərinin ictimai-iqtisadi həyatında tərəqqi dövrü olur. Ticarət genişlənir, ölkədə xalq təsərrüfatı müvəqqəti olsa da, qaydaya düşür. Xüsusilə Abdulla xan Şirvanda bəylərbəyi olduğu müddət ərzində Rusiya ilə ticarət əlaqələri xeyli genişlənir. Bakının ticarət mərkəzi kimi əhəmiyyəti daha da artır. Xəzər dənizi ilə yük daşınması birə-iki qat çoxalır. Bakı ilə Şamaxı arasında olan ticarət yolları üstündə karvansaralar və su ovdanları tikilir.

Bu iyirmi il Türkiyə üçün hərbi cəhətdən böyük yüksəliş, Səfəvilər üçün isə tənəzzül dövrü idi. I Təhmasibin ölümündən sonra köçəri tayfalarla mərkəzi hökümət arasında çəkişmələr daha da gərginləşmişdi.

Taxt-taca yiyələnmək üstündə şahın övladları arasında çəkişmə gedirdi. Bəzi saray əyanlarının köməyi ilə İsmayıl Mirzə II İsmayıl adı ilə taxta çıxarılır. Lakin onun hökmranlığı uzun sürmür. İki ildən sonra saray çevrilişi nəticəsində II İsmayıl öldurülür. Yerinə I Təhmasibin böyük oğlu kor Məhəmməd Xüdabəndə keçir. A. Bakıxanov "Gülüstani-İrəm" əsərində Xüdabəndənin siyasəti nəticəsində Səfəvi hökümətinin daha da zəiflədiyini qeyd edir. Onun yazdığına görə Məhəmməd Xüdabəndə iradəcə zəif bir adam idi. Onun hökmranlığı dövründə əmirlər arasındakı yekdillik də aradan qaldırılmışdı. Daha güclülər dövləti, demək olar ki, aralarında bölüşdürmüşdülər. Bütün bunların nəticəsində Səfəvi dövləti daxilən sarsılırdı.

Səfəvilərin belə zəifləməsindən istifadə edən Türkiyə vaxtı ilə onlarla bağlanmış müqaviləni pozaraq Mustafa Lələ paşanın başçılığı altında 100 minlik türk qoşununu təzədən Zaqafqaziyaya yeritdi. Məşhur ÇaldİRan döyüşlərində Səfəvilər məğlub edildi. Gəncə, Qəbələ, Şamaxı, Bakı və başqa şəhərlər işğal edildi. Ölkədə yeni inzibati bölgü düzəldi. Paşalıqlar, sancaqlar yaradıldı. Abşeron yarımadası Bakı şəhəri ilə birlikdə ayrıca bir sancaq oldu. Y.Paxomovun "Azərbaycan sikkə xəzinələri" kitabında o dövrdə Bakıda sultan adından basılmış sikkə nümunələri göstərilmişdir.

Bir müddətdən sonra türklər Bakı, Şamaxı və başqa şəhərlərdə kiçik qarnizon hissələri saxlayıb, əsas qüvvəni geri çəkirlər.

Səfəvilərə də belə fürsət lazım idi. Türklər geri çəkilən kimi Məhəmməd Xüdabəndənin oğlu Həmzə Mirzənin başçılığı altında Səfəvi qoşunları türklərin kiçik qüvvələrini darmadağın edib, şəhərləri və o cümlədən Bakını osmanlılardan azad etdilər. Osman paşa Dərbəndə qaçdı. 1584-cü ildə osmanlıların vassalı olmuş Məhəmməd Girey xan Osman paşanın köməyinə çatdı; Şamaxı, Bakı və başqa şəhərlər təzədən osmanlıların himayəsi altına keçdi. Türkləri Şirvan şəhərlərindən çıxartmaq üçün Xüdabəndə Azərbaycana təzə qüvvələr göndərdi. Səfəvi əmirləri əvvəlcə Bakını mühasirəyə aldılar. Lakin şəhəri işğal edə bilmədilər. Çünki onların arasında güclü ixtilaf başlamışdı. Digər tərəfdən ərzaq çatışmazlığı ordunun geri qayıtmasına səbəb oldu.

Osmanlıların işğalı dövründə Səfəvi dövləti son dərəcə ağır günlər keçirirdi. Özbəklər də ölkəni hədələməyə başlamışdılar. Səfəvi dövləti üçün belə ağır vəziyyətdə Məhəmməd Xüdabəndənin kiçik oğlu I Şah Abbas 1587-ci ildə taxta çıxır. O Səfəvi tarixində Şah Abbas Kəbir kimi tanınır. O zaman Şah Abbasın on altı yaşı vardı. Gənc olmasına baxmayaraq, Mərkəzi Səfəvi dövlətini böhrandan çıxarmaq üçün bir sıra tədbirlər düşünüb həyata keçirir. Onun reformaları nəticəsində Səfəvi dövləti özünün əvvəlki qüdrətini qaytarmağa nail olur. Səfəvilərin paytaxtını da Qəzvin şəhərindən, ölkənin içərilərinə - İsfahana köçürür. Gənc Səfəvi hökmdarı ölkəni ağır vəziyyətdən qurtarmaq üçün əsas çıxış yolunu osmanlılarla müharibəni dayandırmaqda görür. 1590-cı ilin may ayında türklərlə sülh müqaviləsi bağlanır. Doğrudur, bu Səfəvilərə çox ağır başa gəlir. Çünki Azərbaycanın şimal və cənub əyalətlərinin əksəriyyəti, o cümlədən Bakı və Abşeron türklərin himayəsi altında qalır. Türklər Azərbaycanda öz mövqelərini möhkəmlədəndən sonra sünni məzhəbini rəsmi məzhəb elan edərək, şiələri hər yerdə təqib etməyə başlayırlar. O dövrdə Bakı əhalisinin əksəriyyəti şiə idi. Bu cəhətdən əhali hərtərəfdən sıxışdırılır, onlara həddindən artıq vergi qoyulur, ticarət işlərinə maneçilik törədilirdi. Hətta bəzən bir çoxlarını sünni məzhəbini qəbul etməyə məcbur edirdilər. Türklər Dərbənddən tutmuş, ta Bakıyadək ticarət yollarını möhkəm nəzarət altına almışdılar. Rus ticarət gəmilərinin toplaşdığı

Niyazabadda türklər özləri üçün xüsusi ticarət gəmiləri inşa etməyə başlamışdılar. Türk qarnizonlarının yerləşdiyi bütün şəhərlər möhkəmləndirilmişdi. Mustafa Lələ paşanın əmri ilə Bakıda şəhər divarları təmir edilib, qaydaya salınmış, şəhərin müdafiəsi üçün keşikçilərin sayı artırılmışdı. Axşamlar şəhər darvazaları möhkəm bağlanır, içəriyə bir nəfər də buraxılmırdı.

Türklərin Xəzərin qərb sahillərində möhkəmlənməsi rusları narahat etməyə bilməzdi. Bu məqsədlə vaxtilə şah Xüdabəndə dövründə başlamış olduqları diplomatik danışıqlara təzədən qayıtmalı oldular. I Şah Abbas Moskva çarının yanına elçi göndərərək, türklər əleyhinə birgə müharibəyə başlamağı təklif etdi. Bunun əvəzində isə Şah Abbas Dərbənd ilə Bakı arasındakı Xəzər sahillərini həmişəlik olaraq rusların ixtiyarına verəcəyini vəd edirdi. İsveçlərlə müharibəni yenicə qurtarmış ruslardan xəbər çıxmadıqda Şah Abbas 1606-1607-ci illərdə tək başına türklər üzərinə yürüşə başladı. İrəvan, Gəncə, Şamaxı və Bakı şəhərlərini türklərdən geri aldı.

Bakı şəhərinin alınmasında şəhər əhalisinin də böyük köməyi olmuşdu. Bu zaman şəhərdə osmanlıların 300 nəfərdən ibarət bir qarnizonu dururdu. Bakılılar Şah Abbas qoşunlarının şəhərə yaxınlaşmasından xəbər tutduqda türklərin zülmündən xilas olmaq məqsədilə içəridə qarnizonun əleyhinə qəsd düzəldirlər. Əlbəyaxa vuruşlarda İçərişəhərin dar küçələri bakılıların köməyinə çatır. Damlardan, evlərin pəncərələrindən açılan güllələrlə və əllərində siyirmə qılınclarla bütün qarnizon əsgərlərini bir nəfər kimi qırırlar. Sonra əsgərlərdən çoxunun başını kəsərək, şəhər qapılarının açarları ilə birlikdə Şah Abbasa göndərdilər. Türk qarnizonuna tutulan bu divan şiəçilik bayrağı altında keçirilmişdi. Əhali bir işğalçının zülmündən qurtararaq, ikinci bir işğalçının əsarəti altına düşdüyünü dərk etmədən yalnız sünni məzhəb türkləri qovmaq üçün qızılbaşlara sığınmağa çalışırdı. Bir türk tarixçisinin yazdığına görə, Şah Abbas bu qəsd əvəzində bakılılara böyük mükafatlar vermişdi.

I Şah Abbas Azərbaycanda hakimiyyətini qüvvətləndirmək üçün inşaat işlərini sürətlə genişləndirirdi. Bakı şəhər divarlarını, Şamaxı darvazasını təmir etdirir, çoxlu karvansara və ovdanlar tikdirirdi. Onun tikdirdiyi karvansara və ovdanlardan bəziləri bizim günlərədək qalmışdır.

Şah Abbas tarixdə öz amansız müstəbidliyi ilə də tanınmışdır. Onun hökmdarlığı dövründə işğal edilmiş yerlərdə baş verən üsyanları amansızcasına yatırtmışdı. Qiyamçıları ən ağır cəzalarla öldürtdürür, kəndləri, obaları yandırtdırır, əhalini öz doğma yerlərindən sürgun etdirib, didərgin saldırırdı. Azərbaycanda özünə dayaq yaratmaq məqsədilə Şah Abbas yarımköçəri tayfaları İranın cənubundan şimal rayonlarına sürdürürdü. Muğanda yerləşmiş Şahsevən tayfaları da bu yerlərə o zaman köçürülmüşdü. Bu tayfanın nümayəndələri indiyədək Bakının bir çox kəndlərində yaşayırlar. Şahsevənlər başlıca olaraq, maldarlıqla

məşğul olmuşlar. Qılınc çalmağı məharətlə bacarırdılar, mərd və qorxmaz olublar. Bu keyfıyyətlərinə görə, Şah Abbas həmişə onlara arxalanırmış.

XVIII əsrin axırlarına doğru Səfəvilər dövləti uzun sürən talançılıq müharibələri və feodalların özbaşınalığı nəticəsində süqut etməyə başlayır. Dövlət maliyyə cəhətdən böhran keçirir. Xəzinə boşalır. Hətta şah Hüseynin dövründə sikkə basılması üçün gümüş tapılmadığından şahın əmri ilə sarayın gümüş və qızıl qabları əridilir, Səfəvi əcdadlarının məqbərələrindən gümüş bəzəklər çıxarılıb, xəzinənin sərəncamına verilir.

Əhalinin vəziyyəti isə son dərəcə ağırlaşmışdı. İllərlə davam edən quraqlıq nəticəsində ölkənin şimal və cənub əyalətlərində aclıq başlayır. Acından ölənlərin sayı gündən-günə artırdı.

## STEPAN RAZİN BAKIDA

1667-ci ilin yayında Stepan Razin altı min kazakla Volqadan çıxaraq gəmilərlə Xəzər sularına daxil olur və İran sahillərinə tərəf üzür. Yolda o sahilboyu Dərbəndlə Bakı arasındakı kənd və obaları talan edir. Ayrı-ayrı yerlərdə düşərgə salır və dincələndən sonra yenə yoluna davam edirdi. Belə düşərgələrdən biri də keçmiş Razin qəsəbəsində dağın ətəyi idi. Sonra Bakıya yaxınlaşır, lakin onu tuta bilmir. Şəhər ətrafındakı kəndləri qarət edəndən sonra ələ keçirdikləri qənimətlər, əsir aldığı yüzədək adam və yeddi min qoyunla Xəzərdəki Jiloy adasına çəkilirlər. Burada dincəldikdən sonra təzədən geri qayıdırlar. Xeyli müddət şəhərin ətrafında hərlənirlər. Bir şey çıxmır. Belə olduqda qayıqlardakı yüngül toplarla şəhəri atəşə tuturlar. Bu zaman şəhər qalasındakı ağır toplardan cavab atəşi açılması nəticəsində geri çəkilib, cənuba üz tuturlar. Stepan Razinin İran sularına yaxınlaşması rus çarı Aleksey Mixayloviçi çox narahat edirdi. Çünki Türkiyə ilə mübarizədə ona yaxın olan İran hökuməti, II Şah Abbas Stepan Razinin basqını ilə ondan üz döndərə bilərdi, bu məqsədlə polkovnik Palmar təcili olaraq, İrana göndərilir. Çar Aleksey Mixayloviç II Şah Abbasa göndərdiyi məktubda yazırdı ki, İran sularına yaxınlaşan talançılar başçısına heç bir kömək göstərilməsin, ona heç yerdə daldanacaq verilməsin, onlarla rastlaşanda hamısını amansızcasına qırsınlar. Lakin Palmar hələ Həştərxana çatıb, İran sularına girməmiş Stepan Razin artıq İran sahillərində idi. İranadək olan yol boyu kazaklar böyük şəhərlərə daxil olmaqdan çəkinərək, kiçik qəsəbə və obaları talan edə-edə irəliləyirdilər.

Razin Rəşt şəhərini alıb, əhaliyə divan tutandan sonra şah qoşunlarının təzyiqi altında geri çəkilir. Şah polkovnik Palmara güclü qüvvə verərək, dənizə Razinin arxasınca göndərir. Dənizin ortasında gedən ağır döyüşlərdə Razin şah qoşunlarını darmadağın edib, yoluna davam edir. O bir müddət Bakı yaxınlığındakı Səngi Muğan adasında düşərgə salır. Burada on həftə qalıb, özlərinə əyin-baş

düzəldəndən sonra Həştərxana tərəf hərəkət etmək istəyirdilər. Lakin rahat yola düşmək onlara müyəssər olmur. 1669-cu ilin iyununda başda Meneli xan olmaqla şah qoşunları adanı dövrəyə alırlar. Kazaklar özlərinə gəlməmiş şah qoşunları təbil və zurna sədaları altında adaya hücuma keçirlər. İranda olan İsveç səfarətxanasının katibi Kempfer bu döyüş barədə belə yazırdı: "Kazaklar bir neçə gəmi ilə adadan açıq dənizə çıxdılar. Bunu görən İranlılar güman elədilər ki, kazaklar qaçırlar. Əslində isə bununla kazaklar İranlıları öz arxalarınca dənizin içərilərinə çəkirdilər. Özlərini elə göstərirdilər ki, guya artıq gəmiləri idarə edə bilmirlər. Bundan həvəslənən şah qoşunları onları zurna-balabanla təqib edirlər. Hətta gəmiləri, zəncirlə bir-birinə bağlayırlar ki, kazaklar aradan çıxa bilməsinlər. Əslində bu vəziyyət kazaklara böyük üstünlük qazandırırdı. Xan özü də üstündə bayraq olan böyük gəmidə gəlirdi. O da, öz gəmisini zəncirlə başqa gəmilərə bağlamışdı. İranlılar sahildən xeyli aralanandan sonra kazaklar toplardan atəş açmağa başladılar. Razin özünün gənc, mahir topçusuna tapşırdı ki, öz topunu bayraqlı gəminin yuxarı hissəsində barıt saxlandığı yerə tuşlasın. Top gülləsinin içərisinə pambıqla neft doldurulduğundan, atəş gözəl nəticə verdi. Gəminin həmin hissəsi partladı və xan başqa gəmiyə keçməyə məcbur oldu. Gəmi batmağa başlarkən zəncirlə bağlanmış o biri gəmiləri də özü ilə birlikdə dənizin dibinə tərəf dartmağa başladı. Bu zaman kazaklar gəmilərə yaxınlaşdılar, atəşi dayandırdılar və öz gəmilərini hündür göyərtələri olan şah gəmilərinə bağlayaraq, İranlıları öldürməyə başladılar. İranlılardan bəziləri özlərini suya atıb, canlarını qurtardılar, qalanları isə qırıldı. Kazaklar İran gəmilərində toplardan başqa heç bir şey ələ keçirə bilmədilər. Bu yaxınlarda Səngi Muğan adası yanında dənizin dibindən tapılmış 18 müxtəlif növlü lövbərlərin içərisində iki haçalı admiralitet lövbəri xüsusilə maraqlı idi.

Səngi Muğan yanındakı bu döyüş bütün Rusiyaya səs salmışdı. Bu döyüş Stepan Razinin Xəzər dənizində axırıncı döyüşü oldu. Ondan sonra kazaklar Həştərxana tərəf üz tutdular. 1669-cu ildə avqustun əvvəlində artıq Volqa çayına çatmışdılar.

Stepan Razini gözləri ilə görmüş 17-ci əsr Hollandiya səyyahı Y.Y. Streys özünün məşhur "Üç səyahət" adlı kitabında Razinin həyat və fəaliyyətinə aid bir sıra maraqlı məlumatlar verir. Onun yazdığına görə Razin həm mərhəmətli və həm də amansız bir sərkərdə olmuşdur. Səyyah onun amansızlığına aid iki əhvalatı təsvir edir. Bunlardan birincisi bu idi: "Razin İranda olduğu zaman bir İran şahzadəsinin qızını qardaşı ilə birlikdə əsir almışdı. Oğlanı Pozorovski adlı bir cənaba satmış, şahzadə qızı isə məşuqəsi kimi yanında saxlamışdı. Razin bir dəfə sərxoş halda qəzəblənib, Volqaya müraciətlə deyir: "Sən gözəl çaysan, mən səndən çoxlu qızıl, gümüş və qiymətli qaş-daş toplamışam. Sən mənim namusumun, şöhrətimin atası və anasısan. Ar olsun mənə ki, bu vaxtadək sənə heç bir qurban verməmişəm. Yox, daha sənə, qarşı nankor olmayacağam. Al". - Bu sözləri deyib,

bir əli ilə şahzadə qızın boynundan, o biri əli ilə ayaqlarından yapışıb, Volqaya tullayır". Yeri gəlmişkən qeyd edək ki, A.S. Puşkin də bu əhvalatı şeirlərindən birində təsvir etmişdir.

Y.Y. Streysin Stepan Razinin qəddarlığına aid yazdığı ikinci əhvalat: "Bir dəfə belə bir hadisə olmuşdu. Bir nəfər kazak başqasının arvadı ilə yaşamışdı. Bu xəbər Razinə çatan kimi əmr etmişdi ki, onların hər ikisini həbs etsinlər. Bir müddətdən sonra kazakı çaya atıb öldürürlər. Arvada isə başqa cəza verilir. Çayın qırağında yerə bir dirək basdırırlar. Sonra arvadı başıaşağı dirəkdən asırlar. Arvadın başı öz çəkisindən iki dəfə artıq ağırlaşır və nəhayət canını tapşırır".

Bununla yanaşı Streys göstərir ki, Razin yoxsullara qarşı həmişə mərhəmətli olmuşdur. Yoxsul kəndlilərə kömək edirdi.

Bəlkə də belə idi. Lakin yoxsula qarşı bu mərhəməti Razin yalnız Rusiyada göstərirdi. Başqa ölkələrdə evləri talarkən adamları qılıncdan keçirərkən Razin üçün, xüsusilə onun kazakları üçün yoxsul və varlı yoxdu. Onlar varlılara da, yoxsullara da həmişə bir gözlə baxırdılar. Basqın etdiyi yerdə, o cümlədən Bakıda da Stepan Razin özünə ancaq nifrət və lənət qazanmışdı.

Y. Y. Streys Razin kazaklarının söhbətlərindən parçalar vermişdir. Bu söhbətlərdən görünür ki, kazaklar basqın etdikləri yerlərdə, əhaliyə irili-kiçikli hamıya amansızcasına divan tuturlarmış. Budur, onların söhbətləri: "Biz Xəzər, sahillərində, məşhur Barmaq (Beş barmaq - Q.İ.) dağının yaxınlığında yerləşən Nizabat (yəqin ki, Niyazabaddır), Şaberan, Mardov, Takuz şəhərlərini işğal edib, Bakıya və Astrabada tərəf üz tutmuşduq. Qabağımıza çıxan adamları qılıncdan keçirir, evləri və mülkləri yandırırdıq. Bakıya çatanda əlimizə çoxlu çaxır keçdi və onu öz aramızda bölüşdürdük. Çaxır içməyə adət etmədiyimiz üçün hamımız sərxoş olduq. O zaman beş minə qədər kazak idik. Bundan istifadə edən İranlılar (azərbaycanlılar - Q.İ.) tez qoşun toplayıb, biz sərxoş kazakların üstünə düşdülər. Çox güclü və igidcəsinə vuruşurdular; demək olar ki, hamımızı qırdılar. Yalnız 400-500 nəfər qayıqlara oturub canlarını qurtara bildilər. Stepan Razin də çətin vəziyyətə düşdü. Yanında mühafizəçi olmasaydı, o da diri-diri əsir düşəcəkdi. Yaxşı ki, mühafizəçi onu qoruyub, aradan çıxmaq üçün yol tapa bilmişdi".

Stepan Razinin kazakları Xəzər sahili şəhər və kəndlərdən aldıqları qənimətləri dənizin Zənbil adasında bölüşdürdülər. O vaxtdan Zənbil Duvannı adını almışdı. Duvannı sözü "duvanit" sözündən olub, bölüşdürmə deməkdir.

1670-ci ilin yazında qoşun rəisi seçilmiş Razin kazakları, qaçqın kəndliləri ətrafına toplayıb mütləqiyyətə qarşı üsyan qaldırdı. Üsyan antifeodal kəndli müharibəsi xarakteri almışdı.

## BAKI RUS İŞĞALI DÖVRÜNDƏ

1710-ci ilin baharında I Pyotr Xəzər suları ilə hərbi səfərə çıxdı. Həmin ilin isti iyul günlərindən birində 274 gəmidən ibarət rus donanması Həştərxandan çıxaraq, Xəzərin qərb və cənub sahillərinə tərəf üzməyə başladı. Gəmilərin bir hissəsi Gilanın Rəşt şəhərinə, o biri hissəsi Bakı sahillərinə, yerdə qalan gəmilər isə Dərbənd şəhərinə istiqamət aldılar. Bu gəmilərdə 22 min nizami piyada qoşun və 5 min matros vardı. Bunlardan başqa 9 min draqun, 20 min kazak, 30 min tatar və 20 min kalmıqdan ibarət 79 min atlı quru yolu ilə Dərbəndə göndərilmişdi. Onlar Dərbənd yaxınlığında hərbi donanma ilə birləşməli idi.

I Pyotrun məqsədi Xəzərin cənub və qərb sahillərinə yiyələnmək idi. Bu yerlər rus imperatorluğuna su və hava kimi lazım idi. Osmanlı Türkiyəsi tərəfindən Rusiyanın cənub sərhədlərinə hücum gözlənilirdi. Bu təhlükəni aradan qaldırmaq və Qafqazda rus qoşunları üçün möhkəm baza yaratmaq imperator qarşısında təxirəsalınmaz məsələ kimi durmuşdu. Pyotra etibarlı mənbələrdən xəbər verilmişdi ki, Osmanlı Türkiyəsi Səfəvilərin zəifləməsindən istifadə edərək, ölkə daxilində iğtişaşlar törətməyə başlayıbdır. Şəhərlərdə Səfəvilər əleyhinə başlayan qiyamların çoxu türklər tərəfindən qızışdırılmışdı. Türkiyənin Qafqazda olan əlaltıları - Dağıstan feodallarından ləzgi knyazı Hacı Davud və Qazıkumuq knyazı Surxay xan idi. Bunlar tez-tez Şamaxı şəhərinə, Abşeron kəndlərinə basqınlar edir, əhalini böyüklü-kiçikli qılıncdan, keçirirdilər. 1712-ci ildə Şamaxıya etdikləri basqın nəticəsində öldürülən yerli əhali içərisində 300 nəfərədək rus taciri də vardı. Həştərxan qubernatoru və habelə I Pyotr özü İran şahından quldurlara cəza verilməsini tələb etdi, lakin şah tədbir görməkdə aciz qalmışdı. Həştərxan qubernatorunun Pyotra göndərdiyi məlumatında deyilirdi ki, Hacı Davud və Surxay xan Krım xanı vasitəsilə Türkiyə sultanına müraciət edərək, himayə altına alınmalarını xahiş etmişlər.

Səfəvi şahı şah Hüseynin dövründə ölkə siyasi və iqtisadi cəhətdən bərbad bir hala düşmüşdü. Aclıq və xəstəlik başlamışdı. 1722-ci ildə əfqanlar 20 min qoşunla Səfəvilərin paytaxtı İsfahan üzərinə hücuma keçdilər. Onlar 6 aylıq mühasirədən sonra şəhəri ələ keçirdilər. Hüseyn şah taxtdan salındı. İran hökümətinin belə böhranlı vəziyyətində I Pyotr İrana öz hərbi köməyini təklif etdi. Əlbəttə, I Pyotru düşündürən Səfəvilərin vəziyyəti deyil, birinci növbədə rus imperatorluğunun mənafeyi idi. O, Xəzərin cənub və qərb sahillərinə də bu məqsədlə gəlmişdi. Rus dövlətinin cənub sərhədlərini möhkəmlətməklə yanaşı ölkənin gündən-günə artan sənayesi üçün yeni xammal mənbələri zəbt etmək, rus taciri üçün yeni bazarlar açmaq, sərbəst ticarət üçün əlverişli şərait yaratmaq - Pyotru düşündürən bunlardı. Dərbənd və Bakı kimi əlverişli limanlar Xəzərdə rus donanması üçün əsas dayaq ola bilərdi. Pyotr dəfələrlə təkrar edirdi ki, Xəzər dənizi sahillərinə yiyələnmək bizdən ötrü çox vacibdir. Biz türkləri oraya buraxa bilmərik.

Hələ 1716-cı ildə Pyotr Xəzərin cənub və qərb sahillərini öyrənmək və ərazini xəritəyə köçürmək üçün knyaz Çerkaskinin başçılığı altında Xəzər ətrafına ekspedisiya göndərmişdi. Bundan bir az qabaq isə o dövrdə görkəmli diplomat hesab edilən Artemi Volınskini İran şahının sarayına səfir kimi göndərmişdi. Volınski İranın vəziyyəti barədə Peterburqa tez-tez məlumatlar göndərirdi. Növbəti məlumatlardan birində Təbriz şəhərinin vəziyyətini belə təsvir edirdi: "Biz burada olduğumuz zaman çoxlu dilənçiyə rast gəldik. Onlardan çoxu utanmadan lüt-üryan gəzirdilər. Küçələrdə tez-tez yıxılıb qalmış meyitlərə rast gəlmək olar. Onlar itlərin yemi olmuşlar".

Əvvəlki məlumatlarında Volınski Hüseyn şahın hökmranlığı barədə də maraqlı xəbərlər yazırdı; "Hüseyn şah ancaq rəsmi olaraq dövlət başçısı hesab olunur. Əslində isə bir çox əyalətlər onun tabeliyindən çıxmışdır. Buradakı dövlət başçısı ona tabe olanların üzərində başçı deyil bəlkə də ona tabe olanların tabeliyindədir".

Volınski I Pyotrun tapşırıqlarını Hüseyn şaha yetirmiş və onların arasında belə bir söhbət olmuşdu:

Əlahəzrət şah cənabları, böyük rus imperatoru Pyotrun tapşırığı belədir ki, siz rus tacirlərinin sərbəst alverinə mane olanları cəzalandırasınız. Yəqin cənabınıza məlumdur ki, Dağıstan knyazlarından Davud bəy və Surxay xan Şamaxı şəhərinə basqın etmişlər.

- Bəli, məlumdur.

Həmin bu basqın zamanı rus tacirlərindən 300 nəfərədək öldürülmüş və malları talan edilmişdir.

Şah Hüseyn bundan kədərlənmiş kimi ancaq başını tərpətdi.

- O da cənabınıza məlum olsun ki, Xəzər dənizində də rus tacirlərinə bir neçə dəfə quldur basqınları olub.

Şah Hüseyn yenə də susub, başını aşağı dikir. A. Volınski ondan cavab çıxmadığını gördükdə, sözünə davam edir:

- İmperator məni vəkil etmişdir ki, rus tacirlərinin qan bahasını sizdən tələb edim.

A. Volınski ona da vəkil edilmişdi ki, əgər şah bu tələbləri yerinə yetirməkdə acizlik göstərərsə, Rusiyanın İrana kömək edə biləcəyini şaha çatdırsın. Volınski danışılan məsələlər üzrə İran şahı ilə razılığa gəlməyə müvəffəq olur. Sonra Rusiya ilə İran arasında əlverişli bir müqavilə bağlandı. Bu barədə bütün şəhər bəylərbəylərinə şahın fərmanı göndərildi. Bu fərmanda deyilirdi ki, rus tacirlərinin mal tayları heç yerdə açılmasın, onlar yoxlamadan azad edilsin. Bakı limanından Şamaxıya gedən yolda tacirlərə keşikçilər qoşmaq, yerlərdə malların oğrulardan qorunmasını təmin etmək də fərmanda qeyd edilirdi.

Hələ Həştərxanda ikən Pyotr ərəb, fars və Azərbaycan dillərində manifest çap etdirib Dərbənd, Bakı və Rəştə göndərmişdi. Manifestdə deyilirdi: "1713-cü ildə ləzgi knyazı Davud bəy və Qazıkumuq knyazı Surxay Şamaxı şəhərini hücumla almış, rus tacirlərini qətl və qarət etmişlər. Bu xüsusda Həştərxan qubernatoru onlara xəbər vermişdir. Biz də şahın hüzuruna elçi göndərmişdik. Lakin bu vaxta kimi heç bir nəticə alınmayıb. İran şahı bu fitnəkarların öhdəsindən gələ bilmir. Buna görə də, biz özümüz onları tənbeh etmək və intiqam almaq üçün o tərəflərə gəlirik. Hər kəs öz yerində rahat oturub, asayişi pozmazsa, bizim qoşunumuzdan ona heç bir zərər və ziyan toxunmaz. Əksinə, fəsad əhlinə kömək edənlər və ya qaçanlar padşahın qəhr və qəzəbinə düçar olacaqlar".

Həmin manifesti Bakıya poruçik Lunin, Dərbəndə polkovnik Naumov, Gilana isə Çebataryev aparmışdı.

Rus eskadronu avqustun 15-də Dərbəndə yaxınlaşdı. Avqustun 23-də isə Pyotrun quru qoşunu şəhərə çatdı. Dərbənd şəhərinin naibi İmamqulu bəy Pyotru böyük ehtiramla qarşılayaraq, şəhər darvazalarının açarlarını ona təqdim etdi:

- Dərbənd böyük Aleksandr Makedonski tərəfindən salınmış, onun açarları da Böyük Pyotra çatmalıdır - dedi.

Dərbəndin təslim olması Peterburqda böyük təntənə ilə qarşılanmışdı.

Dərbəndin alınmasından bir neçə gün sonra Pyotra xəbər çatır ki, Bakı sultanı Məhəmmədhüseyn bəy elçi Lunini şəhərə buraxmamışdır. Bu Pyotrun qəzəbinə səbəb olsa da, Bakı üzərinə yürüşü davam etdirə bilmir. Çünki donanma Dərbəndə gələrkən dənizdə fırtına qopmuş və ərzaq dolu gəmilərdən çoxu qərq olmuşdu. Ordu ərzaqsız, atlar isə yemsiz qalmışdı. Bütöv bir qoşunu burada saxlamaq çətin idi. Peterburqa göndərdiyi məktubda Pyotr yazırdı: "Yol çox uzaq olmasa da (Bakı nəzərdə tutulurdu - Q.İ.) atların yemsiz qalmaları ucbatından və istidən hərəkət etmək mümkün deyildir".

Beləliklə, Pyotr Dərbənddə bir qarnizon saxlatdırıb, Peterburqa qayıdır. Onun Peterburqa tələsməsinin başqa bir səbəbi də vardı. Məsələ orasında idi ki, rus qoşunlarının cənuba səfəri zamanı İsveçlə müharibənin təzədən başlanması təhlükəsi yaranmışdı. Belə günlərdə Pyotr Peterburqdan kənarda qala bilməzdi. Peterburqa yola düşərkən general-admiral Matyuşkinə əmr etmişdi ki, bir ildən sonra Bakıya mütləq desant çıxarıb, şəhəri tutsun.

Rus donanmasını Gilana səfəri isə həmin ilin noyabrında olmuşdu. Ekspedisiyanın başında Xəzər sahillərinə yaxşı bələd olan kapitan-leytenant Semyonov dururdu. Gəmilərə iki batalyon piyada qoşun yerləşdirilməsi barədə Pyotrun əmri hərbi hissənin komandiri polkovnik Şipovu qorxuya salmışdı və ehtiyatla öz etirazını bildirmişdi:

- İki batalyon az deyilmi, hökmdar?

Onun bu sözünə Pyotrun bərk qəzəbi tutmuşdu:

- Stepan Razin özünün 500 nəfər kazakı ilə onların üzərinə getməkdən çəkinməmişdir. Sənin sərəncamında isə iki batalyon təlim görmüş qoşun vardır.

Beləliklə, donanma iki batalyonla yola düşmüşdü.

1723-cü ilin iyulunda Matyuşkin imperatorun əmrini yerinə yetirmək məqsədilə Həştərxandan Bakıya yola düşür. Hərbi gəmilər Bakı sularına daxil olub, reyddə dururlar. Matyuşkin hələ Həştərxanda Rusiya ilə sülh danışıqları aparmaq məqsədilə Peterburqa gedən İran səfiri İsmayıl bəylə görüşmüş və ondan Bakı sultanı Məhəmmədhüseyn bəyin üstünə məktub almışdı. Həmin məktubda İsmayıl bəy Bakı şəhər sultanına məsləhət görürdü ki, şəhəri müqavimətsiz təslim etsin. Matyuşkin məktubu mayor Necayev vasitəsilə şəhər sultanına göndərir. Lakin Məhəmmədhüseyn bəy elçini şəhərə buraxmayıb, körpüdə qarşılayır.

Məktubu oxuduqdan sonra geri qaytarıb, deyir ki, İsmayıl bəyin məktubu onun üçün əsas ola bilməz. Çünki bu məktub Rusiyada yazılıb.

Elçi gəmiyə qayıdır. Sultan da qalaya keçir və darvazalar bağlanır. Qalanın divarları üstündə isə keşikçilər gəzişirdi. Açıq görünürdü ki, onlar düşmənin hərəkətini izləmək üçün qoyulmuşdur.

Hava xoş və sakit olsa da, şəhərdə müəzzinin səsindən başqa heç bir şey eşidilmirdi. Onun xoş avazı dik divarlar içərisindən yüksəlib, sakit dənizin üzərinə yayılırdı. Sahildə bir nəfər də nəzərə çarpmırdı. Körpülərdə yırğalanan kiçik balıqçı qayıqları da kimsəsizdi. Hasarların üstündə dənizə tərəf tuşlanmış qısa lüləli topları görəndə Matyuşkin narahat olur. Ona elə gəlir ki, qalanın içərisində hərbi hazırlıq gedir. Vaxtı itirmədən vuruşa hazırlaşmağı əmr edir. Sahilə dörd batalyon qoşun çıxarılır. Desantın çıxarılması ilə qala darvazalarının açılması bir olur. İçəridən çıxan qılınclı süvarilər əsgərlərin üzərinə hücuma keçirlər. Rusların iki səhra topu dərhal atəş açır. Qızılbaşların atlıları pərən-pərən düşüb, qalanın içərisinə doluşurlar. Matyuşkinin əmri ilə 7 hərb gəmisi azca irəliləyib, yarım dairə şəklində körfəzin sularında lövbər salırlar, qızılbaşların qala topları onları atəşə tutmağa başlayır. Gəmilərdəki 18 funtlu mis toplardan yaylım atəşi açılan kimi qala üstündəki topların dördü də susur. Gəmilərdən şəhərə atılan 94 mərmidən qalanın içərisində yanğın başlayır. Şəhərin ən qədim məscidi hesab edilən Məhəmməd məscidinin minarəsi də zədələnir. Yerli əhali sonralar onu uzun müddət, ta təmir olunanadək Sınıq qala adlandırırdı.

Sahilə çıxarılmış toplar da gəmilərin toplarına qoşulub, şəhəri gecəli-gündüzlü atəşə tuturlar. Qala divarları bəzi yerdə uçub tökülür. Onları təmir etmək, əmələ gəlmiş iri deşikləri tutmaq üçün bakılılara bir dəqiqə də imkan verilmirdi. Toplar durmadan atəş açırdılar. Bununla belə, şəhər təslim olmaq fikrində deyildi.

Matyuşkin iyulun 25-də şəhəri sübh tezdən hücumla almaq qərarına gəlir. Lakin gecə yarısı gözlənilmədən başlayan fırtına bu əməliyyatı keçirməyə mane olur. Şiddətli külək gəmiləri sahildən xeyli uzaqlaşdırır. Bundan istifadə edən

bakılılar gecə ikən divarların uçulub deşilmiş yerlərini təmir edirlər. Rus qoşunları sahilə iki tərəfdən çıxarılmışdı. Şəhərin şərqinə çıxarılmış qoşun sonralar Pyotr meydanı adlandırılmış yerdə qərar tutmuşdular. Şəhərin cənubuna çıxarılmış qoşun isə təpədə yerləşirdi. Sonralar bu yer Urusqala adlanırdı. Köhnə xristian qəbiristanlığı da burada salınmışdı. Sahilə çıxarılmış desant nəfərləri günortaya yaxın uzaqdan şəhərə gələn bir kəndli görürlər. O öz eşşəyinin xurcunlarında şəhərə qarpız aparırmış. Matyuşkin kəndlinin vasitəsilə şəhərin sultanına belə bir xəbər göndərir: "Əgər şəhər təslim olarsa, heç kəsə dəyib dolaşmayacağıq. Təslim olmasalar, heç kəsə aman yoxdur. Divarlardakı dəlikləri tutmaqlarının xeyri yoxdur, biz onlardan daha böyüklərini aça bilərik". Bir saatdan sonra qala divarları üstündə ağ bayraqlar görünür. Qalanın üstündən rusları işarə ilə başa salırlar ki, danışıq üçün öz adamlarını göndərə bilərlər.

Matyuşkin qalaya zabitlərdən ibarət nümayəndə heyəti göndərir. Bir müddətdən sonra nümayəndə heyəti dörd nəfər yerli ilə geri dönür. Şəhərin nümayəndələri bildirirlər ki, şəhər əhli qalanı təslim etmək fikrindədir. Matyuşkin müqavilənin şərt və maddələrini şəhər hakiminə çatdırır. Şəhərin dənizə baxan darvazaları taybatay açılır. Əhali böyükdən kiçiyədək sahilə çıxır. Batalyonlar sahildə sıraya düzülərək, hərbi addımlarla şəhər darvazalarına tərəf addımlayırlar. Rus əsgərləri birinci növbədə şəhər darvazalarının keşiyini öz əllərinə alırlar. Əsgərlər şəhərin əsas məscidi olan Cümə məscidinin qabağındakı meydançada və habelə erməni və moltanı karvansaralarında yerləşirlər. Məlum olur ki, şəhərdə 700 qızılbaşdan ibarət bir qarnizon vardır. Bu qarnizon yüzbaşı Dərgahqulu xanla birlikdə rusların sərəncamına keçir. Şəhərin sultanı öz vəzifəsində saxlanılsa da, hüququ çox məhdudlaşdırılır.

Knyaz Baratınski şəhər komendantı vəzifəsinə təyin olunur. Komendantın ilk sərəncamlarından biri ondan ibarət olur ki, şəhər əhlindən bütün silahlar alınır. Matyuşkinin əmri ilə iki polk şəhər komendantının sərəncamına verilir. İki polkda 2.382 əsgər vardı. Bakının işğalı ilə əlaqədar olaraq, I Pyotrun fərmanı əsasında Matyuşkinə general-leytenant rütbəsi verilir.

Bakı şəhərinin ilk gerbinin yaradılması da bu dövrə təsadüf edir. I Pyotrun hakimiyyəti dövründə Rusiya şəhərlərinin çoxunun öz xüsusi gerbi vardı. Bu gerblər daha çox hərbi əhəmiyyətə malik idi. Bu hissələr yerləşdikləri ərazi ilə bağlı xüsusi gerblərini yaratmış və öz bayraqlarına rəsm etdirmişlər.

Rus qoşunları Bakının işğalı ilə məşğul olduğu zaman I Pyotr Xəzər sahili vilayətlərinin Rusiyaya ilhaq edilməsi barədə İranla danışıqlar aparırdı. Xəzər sahili şəhərlərinin - Dərbəndin, Şamaxının, Bakının, Salyanın Rusiyaya güzəştə gedilməsi şərtilə I Pyotr İrana yenə öz hərbi köməyini təklif edir. Pyotrun bu təklifi əsassız deyildi, həmin illərdə Türkiyə Xəzər sahillərinə can atırdı. 1723-cü ilin baharında türk qoşunları Gürcüstanın içərilərinə doğru yürüş etməyə başladı. Tiflis

şəhərini alandan sonra Gəncə, Şamaxı və Bakı üzərinə hücuma keçdilər. Türklərin bu əyalətlərə basqını məlum olduğu kimi, Rusiyanın mənafeyi ilə toqquşurdu. Lakin İsveçlə müharibəni yenicə qurtarmış rus dövləti yeni bir müharibə başlamaq iqtidarında deyildi. Buna görə də, türklərlə sülh müqaviləsi bağlamaq onların xeyrinə idi. Belə bir müqavilə 1724-cü ilin iyununda İstanbulda bağlandı. Bu müqavilə ilə ruslar 1724-cü ilin 12 sentyabrında Peterburqda İranla bağlanmış müqavilənin şərtlərini bir daha möhkəmlətdi və Dərbənd, Bakı, Lənkəran, Rəşt və başqa şəhərlərin Rusiyanın tərkibinə keçməsi bir fakt kimi təsdiq edildi. İranla bağlanmış müqavilədə əfqanlara qarşı müharibədə silahlı kömək göstərməyi ruslar bir vəzifə olaraq, üzərlərinə götürmüşdülər. Ancaq İran hakim dairələrindəki ixtilafla əlaqədar olaraq, müqavilə İran şahı tərəfindən hələlik təsdiq edilməmişdi. Buna baxmayaraq, sənədin İran səfiri tərəfindən imzalanması rus qoşunlarının daha cənuba irəliləməsi üçün imkan verirdi. Matyuşkin 16 sentyabrda Həştərxana qayıtdıqda müqavilə barədə xəbəri eşidib, qoşun hissəsini Kür sahillərinə tərəf göndərməyi Bakı komendantı Baratinskiyə əmr etmişdi. Salyan naibi Hüseynbəy birinci olaraq, Rusiyaya sədaqətli qalacağına and içir. Ancaq sonra evinə qonaq çağırdığı 22 nəfər rus zabitini öldürtdürür. Bununla belə, şəhər yenə rus saldatlarının nəzarəti altında qalır.

Bakı şəhərində isə yaşayış öz yoluna düşmüşdü. P. Q. Butkov Bakı şəhərinin bu illərdəki vəziyyətini özünün "1722-ci ildən 1803-cü illərədək Qafqazın yeni tarixi üçün materiallar" kitabında çox geniş və müfəssəl təsvir etmişdir. O, yazırdı ki, hər şeydən əvvəl, şəhər üçün sərbəstlik yaradılmışdı. Xəzinənin ixtiyarında olan bütün əmlak və gəlirlər yeni idarə sisteminin ixtiyarına keçmişdir. Xəzinənin gəliri əsasən neft və duz yataqlarındandı. Onlardan xəzinəyə hər il 50 min manat gəlir yığılır. Bakıya yiyələndikdən sonra şəhərin qala divarlarını təmir edib, möhkəmlətmək və Bakı limanında yeni körpülər tikmək üçün I Pyotr Rusiyanın içərilərindən buraya 5 min tatar və çuvaş sürgün etmışdi. Bu qədər fəhlə qüvvəsi ilə Bakı limanı xeyli genişləndirilmiş və şəhərin ikinci divarında yeni bastionlar tikilmişdi. Üç-dörd ildən sonra tatar və çuvaşların bir hissəsi vətənlərinə qayıtmış, qalanları isə həmişəlik Bakıda məskən salmışdılar. Hazırda Bakıda yaşayan tatarlar da vaxtilə buraya sürülmüş tatarların nəslidir.

Xəzər sahili əyalətlərinin idarə edilməsi o illərdə knyaz V. Dolqorukova həvalə edilmişdi. Bütün hərbi və mülki hakimiyyət onun əlində idi. Şəhərlərin bəzilərində yeni inzibati müəssisələr yaradılmışdısa da, o birilərində köhnə hakimiyyət sistemi olduğu kimi saxlanmışdı. Əyalətləri idarə edən yenə də naiblər və sultanlar idi. Dərbənd, Bakı və Rəşt şəhərlərinin naibləri yeni hakimiyyəti qəbul edərək, öz vəzifələrində saxlanmışdılar. Bakıda komendant sistemi yaradılmışdısa da şəhər sultan Məhəmmədhüseyn bəy tərəfindən idarə olunurdu. I Pyotr yerli hakimiyyət orqanları vasitəsilə Xəzər sahilindəki əyalətləri rus sənayesi üçün

xammal mənbəyinə çevirmək istəyirdi. İpəkçilik və pambıqçılığın inkişafı, neft istehsalının artırılması, Xəzərdə və Kür çayında balıqçılığın tərəqqisi üçün rus hakimiyyət orqanları bir sıra tədbirlər həyata keçirməyə başlamışdı. Bakıda istehsal olunan neft I Pyotru xüsusilə maraqlandırırdı. O, 1723-cü ildə Matyuşkinə olan məktublarından birində yazırdı: "Əmr et ki, Bakıdan bizə bir neçə pud ağ neft göndərsinlər...". Daha sonralar I Pyotr Peterburqa pudlarla neft göndərilməsini tələb edirdi. Zəfəran istehsalı da hakim dairələrin diqqət mərkəzində idi. Bakı və Bakı ətrafındakı kəndlərdə yetişdirilən və şöhrəti bütün Şərq ölkələrinə yayılan zəfəran Rusiyanı ciddi maraqlandırmağa başlamışdı. Zəfəranın bioloji xüsusiyyətlərini öyrənmək məqsədilə təcrübə üçün Peterburqa tez-tez zəfəran göndərilirdi. Dövlət xəzinəsinə neftlə yanaşı duz yataqları da böyük xeyir gətirirdi. Masazır, Böyük Şor, Balaxana göllərində çıxarılan duz xaricə də ixrac olunurdu.

Bu illərdə şəhərin əhalisi 5-7 mindən artıq deyildi. Şəhər əhli xırda ticarət və kustarçılıqla məşğul olurdu. Kənd təsərrüfatı və maldarlıqla məşğul olanlar da var idi. Qızılbaşların əsgərlərinə yenə yüzbaşı Dərgahqulu bəy komandanlıq edirdi. Onun qarnizonu birinci gündən rus hərbi xidmətinə qəbul edilmişdi. Dərgahqulu bəy komendant Baratınskinin böyük etimadını qazana bilmişdi. Onun qızılbaşları da rus əsgərləri ilə qaynayıb-qarışmış, hətta bəzən təlimləri birgə keçirilirdi. Şəhər darvazalarının keşiyində qızılbaşlar da dururdular. Baratınski Dərgahqulu bəyin camaat arasında böyük hörmət qazandığını görüb, ona rus ordusunun polkovniki rütbəsini vermişdi.

A. Bakıxanov öz əcdadı olan Dərgahqulu bəy barədə geniş məlumat vermişdi. O yazırdı: "Yazılı mənbələr və şifahi xəbərlərdən anlaşıldığı kimi Dərgahqulu bəy ibn Heybət bəy, İbn Məhəmmədhüseynin keçmiş babaları... gilanlı xan Əhməd zamanı miladi 1592-ci ildə Şirvana qəlib, Bakıda mülk sahibləri və yüzbaşıların rəisi olmuşdur. Onların imarət və qalalarının xarabaları Ramana kəndində indi də mövcuddur. Xalq arasında belə rəvayət məşhurdur ki, Əmircan, Bülbülə və Ramana kəndləri xan kəndləridir.

Dərgahqulu bəy keçmiş zamanda Bakı sultanını öldürüb, xan ləqəbilə hakimiyyətə keçmişdi. Cürbəcür tədbir, vəsilə və əhalinin ittifaqı ilə şahın dərbarı tərəfindən təsdiq də edilmişdi. Buna görə yeni sultan ancaq qalanın komendantlığı ilə kifayətlənirdi".

Bakıxanovun bu izahatını başa düşmək üçün bir cəhəti aydınlaşdırmalıyıq. Məlum olduğu kimi, Səfəvilər dövründə ölkənin ayrı-ayrı əyalət və mahallarını şah tərəfindən təyin edilmiş bəylərbəyi idarə edirdi. Həmin əyalətlərə daxil olan şəhərlər isə sultanların ixtiyarında idi. Beləliklə, sultanlar da öz növbəsində bəylərbəyinə tabe idilər. Həmin illərdə Dərgahqulu bəy şəhər sultanını öldürərək, bütün əyaləti ələ keçirmiş və özünü xan elan etmişdi. A. Bakıxanovun yazdığına görə Dərgahqulu bəyin hökümət mərkəzi Maştağa kəndində olmuşdur. Burada

onun bağ-bağatı, imarəti və ovdanları varmış. Bakı sultanı da onun ixtiyarında imiş.

Bakıxanov Dərgahqulu bəyin Abdulla bəy Səlim oğlunu Bakı mahalının hakimi təyin etməsi barədə sənəd olduğunu da göstərir. Məlum olur ki, o illərdə Dərgahqulu bəyin hökmranlıq dairəsi çox genişmiş. Bir müddətdən sonra İran şahı da onun hakimiyyətini təsdiq edir.

Həmin illərdə Dağıstan knyazlarından Hacı Davud bəylə Surxay bəy Bakı şəhərini ələ keçirməyə can atırdılar. Onların bu niyyəti hər şeydən əvvəl, qatı sünnilik etiqadı ilə bağlı idi. Bakıda yaşayanların əksəriyyəti şiə olduqlarından bura Dağıstan knyazlarının nəzərində qatı düşmən məskəni idi. Dərgahqulu bəyin sərbazları ilə onların arasında baş vermiş döyüşü A. Bakıxanov belə təsvir edir: "Davud bəy və Surxay bəy Bakını tutmaq istəyirdilər. Lakin Dərgahqulu bəy ləzgi qoşununu şəhərin yarımağaclığında, o zamandan bəri Qanlı Təpə adlanan bir təpə yaxınlığında darmadağın etdi. Dərgahqulu bəyin qardaşı Hüseyncan bəy bu vuruşmada öldürüldü.

Dərgahqulu bəy Dağıstan qoşunlarının Bakı üzərinə yeridiklərini eşidib, onları qala divarları yanına buraxmaq istəməmişdi. Buna görə, qoşun çəkib, düşməni şəhərdən azca aralıdakı Qanlı Təpədə gözləmişdilər. Bura vuruş üçün çox əlverişli idi. Bir neçə saat davam edən vuruşmada bakılılar Dərgahqulu bəyin başçılığı altında böyük mərdlik və qəhrəmanlıq göstərmişdilər. Dağıstan atlıları Dərgahqulu bəyin sərbazları tərəfindən qılıncdan keçirilmiş, sağ qalanları isə pərən-pərən salınmışdı.

Pyotrun qoşunları Bakını ələ keçirdikdən sonra şəhərdə komendant sistemi yaratsalar da, yuxarıda deyildiyi kimi, şəhərin idarə edilməsi sultan Məhəmmədhüseyn bəyin ixtiyarına verilmişdi.

Bu dövrdə Pyotrun yürütdüyü siyasətdən biri də Xəzər sahili boyu salınmış şəhər və kəndlərdə əhalini xristianlaşdırmaq idi. Xəzərin qərb və cənub sahillərində özünə möhkəm dayaq yaratmaq məqsədilə xristianların, birinci növbədə ermənilərin buralara köçüb gəlmələri üçün hər cür şərait yaradılmağa başlandı. I Pyotr həm bu yerləri xristianlaşdırmaq və həm də ermənilərin ticarət işlərində səriştəli olduqlarını bildiyi üçün ticarəti daha da genişləndirmək niyyətilə onların Bakı, Gilan, Dərbənd, Mazandaran tərəflərdə yerləşdirilməsi barədə fərman vermişdi. Ermənilər nəinki Bakı şəhərində, habelə onun bir sıra kəndlərində də özlərinə məskən salmışdılar. Pyotr özünün 1724-cü il tarixli fərmanında general-leytenant Matyuşkinə və briqadir Levakova sərəncam vermişdi ki, ermənilərin göstərilən yerlərdə məskən salmalarına hər cür şərait yaradılsın və hətta lazım gəldikdə İranlılar (azərbaycanlılar- Q.İ.) sıxışdırılsın.

Həmin tarixdən başlayaraq, Bakıda ticarət, demək olar ki, ermənilərin əlinə keçir. Hindlilər ticarətdə artıq ikinci yeri tuturdular. Sonralar, təxminən 19-cu əsrin

əvvəllərindən Bakı kəndlərində ermənilər azalmağa başlayır. Onlar öz mülk və bağlarını satıb əsas etibarilə şəhərdə toplaşırlar. Ta inqilabadək Bakı kəndlərində ermənilərə çox nadir hallarda təsadüf etmək olardı.

Lakin Bakı sultanı Məhəmmədhüseyn bəy çarizmin milli siyasətindən çox narazı qalmışdı. O bu vəziyyətə son qoymaq məqsədilə Şamaxıda yaşayan türk meylli Hacı Davudla əlaqəyə girir və birlikdə Bakı komendantı əleyhinə təcavüz hazırlayırlar. Bundan xəbər tutan Dərgahqulu bəy həyəcanlı halda komendant Baratınskinin yanına gəlir.

- Cənab general, sizə mühüm bir xəbər deyəcəyəm.
- Buyur, polkovnik.

- Cənab general, mən eşitdiyim pis bir xəbəri sizə çatdırmağı özümə borc bilirəm.

- Mən sizi eşidirəm, polkovnik.
- Şəhərdə qəsd hazırlanır, cənab! Baratınski təşvişə düşür.

- O necə qəsddir, polkovnik?

- Şəhər sultanı Məhəmmədhüseyn bəy sizin əleyhinizə qəsd hazırlayır.

Dərgahqulu bəy şəhər sultanının hazırladıgı qəsd barədə komendanta ətraflı məlumat verir. Məlum olur ki, Məhəmmədhüseyn bəy Hacı Davudla gizli əlaqə saxlayır və birlikdə qarnizonun üzərinə qəflətən basqın etmək fikrindədirlər.

Baratınskinin əmri ilə Məhəmmədhüseyn bəy qardaşları ilə birlikdə dərhal həbs edilirlər. Sonra da Bakıdan Həştərxana sürgün olunurlar.

Komendantın yanında hörmətini artırmaq üçün Dərgahqulu bəyin atdığı bu addım ona, doğrudan da, böyük etibar qazandırır. Ancaq çox keçmir ki, o özü də 1727-ci ildə Hacı Davudla əlaqəyə girir. Onlar belə bir plan çəkirlər: Dərgahqulu bəyin adamları gecə şəhər darvazalarını açacaqlar və divarlar arxasında pusquda durmuş Hacı Davudu öz ləşkəri ilə şəhərə buraxacaqlar və birlikdə qarnizon əsgərləri üzərinə basqın edəcəklər. Lakin qəsdin üstü açılır. Dərgahqulu bəy bir neçə yaxın adamı ilə birlikdə adalardan birində gizlənir. Bu hadisə ilə əlaqədar olaraq şəhər əhalisinin, demək olar ki, əksəriyyəti heç bir günahları olmadan Rusiyaya sürgün olunurlar.

Dərgahqulu bəyin bu hərəkətindən sonra rus komandanlığı Abşeron kəndlərinin naibi Səlim xana da etibarını itirir. Naib Səlim xan da bu hadisədən sonra şəhərin komendantı Baratınskinin sərəncamına keçir. Baratınski Bakının qubernatoru təyin olunur.

Bir müddətdən sonra Dərgahqulu bəy tutduğu işdən peşman olaraq, təzədən rusların yanına qayıdır və onlara xidmət etməyə hazır olduğunu bildirir. Komendant onun belə cəsarətli addımını çox bəyənir və günahından keçir. Baratınski başa düşürdü ki, Bakı mahalında əhalinin əksəriyyəti Dərgahqulu bəyin tərəfindədir və o, hamının hörmətini qazanmışdır. Belə bir adam vasitəsilə yerli

əhalini itaətdə saxlamaq rus komendantlığı üçün çox əlverişli idi. Dərgahqulu bəy şəhərin sultanı təyin olunur.

1730-cu ildə Dərgahqulu bəy yenə rus ordusu xidmətindən çıxıb, Nadir şaha pənah aparır. Ancaq Nadirin xidmətində də çox qalmır. Təzədən Bakıya qayıdır və özünün Maştağa kəndindəki mülkündə sakit yaşamağa başlayır.

Dərgahqulu bəyin Maştağa kəndində yaşadığı dövrə aid səyyah Lerxin yazılarında bəzi qeydlərə rast gəlmək mümkündür. O, Abşeronun naibi Səlim xan və maştağalı Dərgahqulu bəyin təşkil etdikləri ovda iştirak etdiyini geniş təsvir edir. Onun qeydlərində oxuyuruq: "Biz daimi odlar yerindən (Suraxana demək istəyir - Q. İ.) çıxıb, çoxlu şoran otların bitdiyi Qala kəndindən keçdik və böyük bir kənd olan Sinsenliyə (Zirə kəndini nəzərdə tutur - Q. İ.) tərəf yolumuza davam edərək, yarımadanın ensizləşdiyi və vəhşi keçi ovlamaq üçün hazırlanmış şikar yerinə gəlib çıxdıq. Şikar üçün bütün kəndlərdən əllərində silah, ox və dəyənək olan bir neçə yüz kəndli yanlarında it buraya toplaşmışdılar. Onlar dənizin bu sahilindən o biri sahilinə bir cərgəyə düzülməli idilər. Biz də elə etdik. Bu cərgədən kənara çıxmadan qabağımıza çıxan vəhşi keçiləri yarımadanın ensiz yerinə qovlaya-qovlaya irəliləyirdik. Sultan Dərgahqulu bəy də bir neçə yüz kəndli ilə bizə qoşuldu. Zavallı heyvanlar bizim yaxınlaşdığımızı gördükdə, qışqırığımıza, dəyənəklə zərbə endirməyimizə baxmayaraq, bütün sürü ilə adamların üstündən atılıb, keçirdilər. Bəziləri isə, onları lap sıxışdırdıqda dörddə bir verst enində olan körfəzi üzüb keçərək, 7 verst uzunluğunda olan Müqəddəs (indiki Pirallahı - Q. İ.) adasına çıxırdılar". Bu göstərirdi ki, Dərgahqulu bəy rəsmi dövlət xidmətindən istefaya çıxsa da, Maştağadakı malikanəsində rahat yaşayırmış.

Bir müddət sonra biz onu yenə Nadir şahın xidmətində görürük. Bu xidmətində o, Nadirin cəsur sərkərdələrindən biri kimi şöhrət qazanır. Yerlərdə Nadir hakimiyyətinə qarşı çevrilmiş üsyanların yatırılmasında yaxından iştirak edir və belə vuruşmalardan birində Nadir şahın qardaşı İbrahim xanla birlikdə həlak olur. A. Bakıxanov Dərgahqulu bəyi cüssəli, cəsur və el arasında nüfuzlu bir adam kimi göstərmişdir.

XVIII əsrin 30-cu illərində türklərin hücumu bütün İran üçün böyük təhlükə təşkil edirdi. Bu ağır illərdə İran qoşunlarının başında sərkərdə Nadir durmuşdu. O, İranın əfşarlar tayfasındandı. Onun hərbi bacarığı nəticəsində əfqanlar İran torpağından qovulmuşdu. Bu qələbə Nadirə bir sərkərdə kimi daha böyük şöhrət qazandırdı. 1730-cu ildə böyük qüvvə ilə, türklərin üzərinə hücuma keçdi. Ağır döyüşlərdə Nadir özünün sərkərdəlik bacarığını bir daha nümayiş etdirərək, İranın bir sıra şəhərlərini və o cümlədən Həmədan, Ərdəbil və Təbrizi azad etdi.

Ordu içərisində olduğu kimi xalq içərisində də Nadirin hörmət və şöhrəti gün-gündən artırdı. Xalq onu əsl qəhrəman kimi alqışlayırdı. Çox keçmir ki, Nadir

II Təhmasibi taxtdan salır və onun yerinə dörd aylıq oğlu III Abbası şah elan edir. Beləliklə o, ölkənin idarə edilməsini bütünlüklə öz əlinə keçirir.

1733-cü ildə Bağdad ətrafındakı döyüşlərdə Nadir türk qoşunlarını böyük məğlubiyyətə uğratdıqdan sonra, 1734-cü ildə Şirvan üzərinə səfərə başlayır. Türklərin Şamaxı şəhərində olan əlaltısı Surxay xan qaçır. Nadirin qoşunları şəhəri talan edib, yandırır. Salamat qalan əhali Şamaxının yaxınlığında olan Ağsuya köçürülür. Nadir Şamaxının bir daha müqavimət göstərə bilməməsi üçün, şəhər divarlarını sökdürür.

Nadir sonra Gəncəyə tərəf hücum edərək, bir neçə müddət şəhəri mühasirədə saxlayır. Gəncəni asanlıqla ala bilməyəcəyini görən Nadir başqa tədbirlərə əl atır. O, Gəncə çayının qabağını sədlə kəsir və onun istiqamətini qala divarlarına tərəf yönəldir. Qıjıltı ilə hücum çəkən su qala divarlarını yuyub uçurur və şəhərə dolmağa başlayır. Bu vaxt Nadirə xəbər çatır ki, Kars və İrəvan tərəfdən türk qoşunları gəncəlilərin köməyinə tələsirlər. Nadir tez Gəncəni işğal etmək fikrindən əl çəkərək, düşməni qarşılamaq üçün 1735-ci ilin may ayında Ermənistana tərəf yürüş edir. Düşməni məğlub etdikdən sonra İrəvan və Tiflis şəhərlərini işğal edir və təzədən Gəncəyə qayıdır. Bu dəfə Gəncədəki türk qarnizonu Nadirin basqınına davam gətirə bilməyib, təslim olur.

Türklər Nadirin hücumunun qarşısını almaq üçün onun cəbhə arxasına Krım tatarlarından ibarət böyük bir dəstə desant çıxarır. Tatarlar Dərbənd qalasında yerləşirlər. Bundan xəbər tutan Nadir Dərbəndə hücum edərək, tatarları geri çəkilməyə məcbur edir.

İngiltərə və Fransa dövlətləri hələ də rus dövlətinə qarşı qəsd üçün İran və Türkiyədən istifadə etməyə çalışırdılar. Onların niyyəti bu idi ki, bu iki dövlət arasında ittifaq bağlansın və sonra hər ikisi Rusiyaya qarşı hücuma təhrik edilsin.

Rus imperiyası tarixində isə böyük dəyişikliklər əmələ gəlmişdi. 1725-ci ilin yanvarında, I Pyotr öləndən sonra onun taxt-tacına I Yekaterina çıxarılmışdı. Lakin onun hökmranlığı cəmi üç il davam etmişdi. Ondan sonra hakimiyyət başına keçən II Pyotrun da hökmranlığı üç ildən artıq çəkməmişdi. Saray dəyişikliyi zamanı taxtdan düşürülüb, yerinə Anna İoannovna çar elan edilmişdi.

Anna İoannovnanın hakimiyyət başına keçməsi Rusiyanın ağır bir dövrünə təsadüf etmişdi. Bu illərdə ölkənin daxili və xarici vəziyyəti xeyli pisləşmiş, ordu və donanma çox zəifləmişdi. Belə bir vəziyyətdə Rusiyadan uzaqlarda, Xəzər sahili əyalətlərində ordu saxlamaq böyük xərc tələb edirdi. I Pyotrun Xəzərin qərb sahilində işğal etdiyi torpaqlar cəmi 100 kilometr enində və 600 kilometr uzunluğunda bir zolaqdan ibarət idi. Bu torpaqları əldə saxlamaq üçün Xəzər sahillərində 16 nizami, 7 süvari draqun polku dururdu. Bunlardan başqa buraya 1.800 nəfərdən ibarət kazak, tatar, çuvaş, gürcü, erməni və mordov işçi qüvvəsi də gətirilmişdi. Təbii ki, bu böyüklükdə qüvvəni saxlamağa külli xərc tələb olunurdu.

İqlimə alışmamış əsgərlər içərisində xəstəliklər artırdı. Tibbi yardım lazımi səviyyədə olmadığından ölüm halları çoxalmışdı. N. Butkov yazırdı ki, Rusiya bu işğal dövründə çoxlu adam itirmişdi. Əyalətdən əldə edilən gəlir ixracatı ödəyə bilmirdi. Cənubda Rusiya üçün ordu saxlamaq bir də ona görə təhlükəli idi ki, bu əyalətlərin üstündə İranla müharibə baş verə bilərdi. O biri tərəfdən Türkiyənin də Rusiyanı təzədən hədələmək qorxusu vardı. Buna görə Rusiyaya Xəzər dənizinin deyil, Qara dənizin sahillərini möhkəmlətmək lazım idi. Türkiyə ilə müharibədə Rusiya İranla müttəfiq də ola bilərdi. Bu mülahizələr baxımından ruslar Xəzər sahili əyalətlərini tərk etmək məcburiyyəti qarşısında qalmışdı. İranla rus dövləti arasında ittifaq bağlanmasına Türkiyə heç cür razı ola bilməzdi. İngiltərə ilə Fransa da bu işdə Türkiyənin siyasəti ilə həmrəy idilər. Ancaq bununla belə, 1732-ci ilin 21 yanvarında Rəşt şəhərində İranla rus dövləti arasında sülh müqaviləsi bağlandı. Bu müqavilənin əsas maddələrindən biri ondan ibarət idi ki, İran dövləti Türkiyəni Xəzər sahili əyalətlərinə buraxmamağı bir vəzifə olaraq, üzərinə götürürdü. Bundan başqa sülh müqaviləsində rus tacirlərinin İran daxilində sərbəst alveri üçün imtiyazlar yaradılması da nəzərdə tutulurdu.

1735-ci ildə Gəncə yaxınlığında rus imperiyası ilə İran dövləti arasında yeni bir müqavilə bağlandı. Bu müqaviləyə əsasən rus qoşunları Bakı və Dərbənddən çıxarılmalı idi. Rus tacirlərinin İran torpaqlarında sərbəst və gömrüksüz ticarət edə biləcəkləri isə yenə pozulmaz bir maddə kimi müqavilədə qalırdı.

Rus qoşunları artıq Bakını tərk etməyə başlayırlar. Nadir özunün ən yaxın adamlarını həmin əyalətlərin şəhərlərində yerləşdirməyə tələsir. Şahın ən yaxın və etibarlı adamlarından biri olan Qələmi Bakıya sultan təyin olunur. Bakıda və ətraf kəndlərdə Nadir özünə möhkəm dayaq yaratmaq məqsədilə əfşar türk tayfalarından bir çoxlarını buraya sürgün edərək, Sabunçu, Keşlə, Zabrat və başqa kəndlərdə yerləşdirir. Sabunçuya köçürülmüş əfşar tayfalarının işərisində şahın ən yaxın adamlarından biri olan sərkərdə Aşur xan da vardı. 1743-cü ildə Ağsu yaxınlığında Şirvanşahların qaldırdığı üsvanın yatırılmasında Aşur xan fəal iştirak etmişdi. Sonralar Sabunçuda yaşamış məşhur Aşurbəyov sülaləsi yəqin ki, Aşur xanın nəslindəndir.

1736-cı ilin fevralında Nadir Muğana gəlir. O, kiçik yaşlı III Şah Abbasın ölümü münasibətilə ölkənin hər tərəfindən feodalları da buraya çağırtdırmışdı. Yığıncaq təxminən indiki Sabirabad torpağında keçirilmişdi. O zaman bu yer Cavad adlanırdı. Nadir gələnləri təntənə ilə qarşılamış və onlar üçün hətta müvəqqəti evlər, məscid və hamam da tikdirmişdi. İran feodallarının bu yığıncağında Nadir özünü İranın şahı elan etmişdi. Nadir şahın taxta çıxması ilə Səfəvilər sülaləsinə son qoyuldu. Bundan sonra Nadir ölkənin cənubuna yürüdü. 1736-cı ilin aprelində Nadir şah 1735-ci il İran-rus müqaviləsini pozaraq, Ərzurumda Türkiyə ilə sülh danışıqlarına başladı. Halbuki 1735-ci il Gəncə

müqaviləsinə əsasən İran Rusiyanın razılığı olmadan Türkiyə ilə heç bir müqavilə bağlamamalı idi. Beləliklə, 1736-cı ilin noyabr ayında İranla Türkiyə arasında sülh müqaviləsi bağlandı. Bu müqavilənin bağlanmasına İngiltərə xüsusilə böyük səy göstərmişdi. İngilislər Rusiyanın Şərq ölkələri ilə olan hər cür ticarət əlaqələrinin də yerli-dibli kəsilməsi üçün əllərindən gələni əsirgəmirdilər. Onlar Rusiya-İran ticarətinə mane olmaq üçün xüsusi quldur dəstələri yaradaraq, Xəzər dənizində üzən rus ticarət gəmilərinə müntəzəm basqınlar təşkil edirdilər. Nadir şah da onların bu hərəkətini bəyənir və dəniz quldurlarını gəmilərlə təmin edirdi.

Rus dövləti öz qoşunlarını Xəzər sahili əyalətlərindən geri çəksə də, bu yerlərin Rusiya üzərinə hücum platformasına çevrilməsinə yol verə bilməzdi.

Tacirlər sərbəst ticarət üçün şərait olmadığından ölkəni tərk edirdilər. Bakıda ticarət zəifləmişdi. Şirvandan ipək ixracı azalmışdı. Məşhur səyyah İ. Lerx belə yazırdr. "Dərbənddə 150 dükan üçün nəzərdə tutulmuş bir verst uzunluğundakı karvansarada bir nəfər də tacir yoxdur. Xəzər sahili əyalətlərinin İran hakimiyyəti altına keçməsindən sonra şəhərlərdə əhalinin miqdarı xeyli azalmışdır. Evləri, ocaqları uçub dağılmış bu adamlar başqa yerlərə köçməyə məcbur olublar".

Ölkənin iqtisadi böhran keçirdiyi, xəzinə gəlirinin azaldığı bu dövrdə işğalçılıq müharibələri İran hakim dairələri tərəfindən yeganə çıxış yolu kimi göstərilirdi.

Quraqlıq və ardı-arası kəsilməyən müharibələr nəticəsində ölkədə başlayan aclıq əhalinin böyük qırğınına səbəb olmuşdu. Nadirin taxta çıxdığı 1736-cı ilin qışında ölkədə xüsusilə dəhşətli aclıq idi.

Bütün bunların nəticəsində Azərbaycanda və Dağıstanda Nadir hakimiyyətinə qarşı tez-tez üsyan və qiyamlar baş verirdi. Azərbaycanda ən böyük üsyan Nadirin Hindistan səfəri dövrünə təsadüf edir. Dərbənddəki üsyanda muğanlılardan ibarət olan şəhər qarnizonunun böyük bir hissəsi də üsyançılar tərəfinə keçmişdi.

Dərbənd üsyanı amansızcasına yatırılmışdı. Qarnizondan sağ qalan muğanlıların gözləri çıxarılıb, Muğana göndərilmişdi ki, o birilərinə də dərs olsun.

## BAKI XANLIĞI

Nadir şahın öldürülməsi xəbəri Bakıya yetişdikdə, Dərgahqulu bəyin oğlu Mirzə Məhəmməd əhali içərisindəki hörmətindən istifadə edərək, fürsəti əldən vermir. O, iyirmi yaşlarında bilikli, gümrah bir gənc idi. Gəmiçiliyi çox sevərdi. Xəzərdə çox üzmüşdü. Hətta admiral kimi də şöhrət qazanmışdı. O öz yaxın adamlarının vasitəsilə Nadir şahın Bakıda olan vassalı Qələmini qovub, hakimiyyəti ələ aldı. Özünü Bakının xanı elan etdi.

Çox keçmir ki, belə xanlıqlar Azərbaycanın başqa şəhərlərində də yaradılır. Şirvan, Şəki, Qarabağ, Lənkəran, Quba, Ərdəbil və sair xanlıqlar əyalətlərdə hakimiyyəti öz əllərinə aldılar.

Mirzə Məhəmməd əyalətin bərbad hala salınmış iqtisadiyyatını qaydaya salıb, inkişaf etdirmək üçün birinci növbədə Xəzərdə gəmiçiliyin daha da inkişaf etdirilməsi qayğısına qaldı. O illərdə Xəzər dənizində üzən əsasən rus gəmiləri idi. Rus tacirləri bu gəmilərlə sərbəst üzərək, Şirvan, Gilan və Xəzər sahillərində olan başqa şəhərlərlə qızğın alver aparırdılar. Hind və erməni tacirləri də Həştərxanda bu gəmilərə minərək, istədikləri istiqamətdə hərəkət edirdilər. Xəzərdə özünün ticarət gəmilərinə malik olmaq Mirzə Məhəmmədin çoxdankı arzusu idi. Bu məqsədlə Bakı limanında gəmi inşasına başlanmışdı. O bununla da kifayətlənmirdi. İri ticarət və müdafiə gəmiləri yaratmaq məqsədilə Avropanın gəmiçilik ölkələrinə səfərə çıxmaq fikrində idi. Bir gün Mirzə Məhəmməd oğlu Məlik Məhəmmədi yanına çağırıb, dedi:

- Qulaq as, Məlik Məhəmməd, gör nə deyirəm. Biz dənizin sahilində oturmuşuq, ancaq öz gəmilərimiz yoxdur. Balıqçı gəmiləri ilə iş aşmaz. Bizə elə gəmi lazımdır ki, üstümüzə düşmən gələndə onun qabağına çıxa bilək.

Atasının sözlərindən heç bir şey başa düşməyən Məlik Məhəmməd gözlərini döyə-döyə ona baxırdı.

Bunun üçün mən Avropaya getməliyəm, - deyib Mirzə Məhəmməd dərindən nəfəs aldı. - Yaxşı gəmiləri ancaq oralarda düzəldirlər.

Bəs burada kim qalacaq? - Məlik Məhəmməd təəccüblə soruşdu.

Necə yəni kim qalacaq? Sən! Məlik Məhəmməd atasının bəzi işlərinə qarışıb, kömək etsə də, atası tərəfindən ona olan belə etibarı heç gözləməzdi.

- İran tərəfdən hələ bir xeyli müddət rahat ola bilərik. Nadirin ölümündən sonra ölkə uzun müddət özünə gələ bilməyəcək. Başları hakimiyyət uğrunda didişməyə qarışacaq. Şirvan xanlığı ilə də əlaqəmiz pis deyil. Nigarançılığım ancaq Quba xanlığı sarıdandır.

Bu sözlərdən sonra Mirzə Məhəmməd azca fikrə getdi. Sonra yenə sözünə davam etdi:

- Güman eləyirəm ki, ruslar onun bizə qəsd edəcəyinə yol verməzlər. Necə olsa da Bakı onlar üçün mühüm bazardır.

Həmin illərdə Bakıda olmuş səyyah Lerx yazırdı ki, Bakı xanı Mirzə Məhəmməd tez-tez Langertə gedərək, orada gəmi inşaatına rəhbərlik edirdi.

Rusiyaya göndərilən neft, duz, ipək və sairənin dəniz yolu ilə daşınmasını ucuzlaşdırmaq üçün Mirzə Məhəmməd əsas çıxış yolunu bunda görürdü. Bakı tacirləri mallarının rus gəmiləri ilə daşınmasının onlara çox baha başa gəlməsindən tez-tez şikayətlənirdilər.

Həmin illərdə Quba xanlığı qüvvətlənib, ətraf xanlıqlar üçün böyük təhlükə təşkil edirdi. XVIII əsrin ikinci yarısında Quba xanlığının başında Hüseynəli xan dururdu. O, başqa xanlardan fərqli olaraq, Rusiya ilə yaxından dostluq əlaqəsi saxlayırdı. 1758-ci ildə onun yerinə keçmiş oğlu Fətəli xanın dövründə Quba xanlığı daha da möhkəmlənir. A. Bakıxanov "Gülüstani-İrəm" kitabında Fətəli xanı dövrünün görkəmli dövlət xadimi kimi qiymətləndirərək, yazırdı ki, o, uzaqgörən, tədbirli və xanlığın idarə edilməsində mahir bir şəxsiyyət idi.

1770-ci ildə Azərbaycanda olmuş səyyah Qmelin isə yazırdı ki, Quba xanlığının paytaxtı alınmaz bir qalaya çevrilmişdir. Burada çoxlu qoşun və top vardır. Hətta toplardan kiçikləri arabalara yerləşdirilmişdir.

Fətəli xan ətraf yerlərə sahib olmaqla Quba xanlığını xeyli genişləndirmişdi. 1759-cu ildə Dərbəndi işğal edərək, Quba xanlığına qatmışdı. Onun gördüyü tədbirlərdən biridə Muğanda yaşayan döyüşkən şahsevən tayfalarını Quba xanlığı torpaqlarına köçürməsi idi. Şahsevənlər sonralar Fətəli xanın əsas dayaq qüvvəsinə çevrilmişdilər. Bəzi xanlıqları isə o silah vasitəsilə deyil, ağıllı tədbirlərləri ilə öz tərəfinə çəkə bilmişdi. Məsələn, Qaraqayqat əmiri Həmzə ilə ittifaq bağlamaq məqsədilə bacısı Tutu Bikə ilə evlənmişdi.

Mirzə Məhəmmədin Fətəli xandan çəkindiyi də məhz buna görə idi. Mirzə Məhəmmədin üç övladı olmuşdu: Məlik Məhəmməd, Əliqulu və Məhəmmədqulu. Mirzə Məhəmmədin ölümündən sonra onun yerinə keçmiş Məlik Məhəmməd xanı öz tərəfinə çəkmək üçün Fətəli xanın bacısı Xədicə Bikə xanımı ona ərə vermişdi.

Sonralar Salyan xanlığını da özünə tabe edərək, Dərbənddən tutub, Kür çayınadək Xəzər dənizi sahilinin böyük bir hissəsini Fətəli xan öz əlində saxlayırdı.

Fətəli xan Dağıstan feodalları ilə də dostluq əlaqəsinə girmişdi. Bir müddət sonra o, Şirvan xanı Ağasi xana müraciət edərək onun torpaqlarını Dağıstan feodallarının basqınından qoruduğu üçün xərac istəyir. Şamaxı xanı bu xəracı ödəməkdən boyun qaçırdıqda, Fətəli xan 1767-ci ildə Şəki xanı ilə birlikdə Şirvana hücum edir; Şamaxını tutur və xanlığın torpaqlarını Şəki xanı ilə birlikdə öz aralarında bölüşürlər. Şirvanda mövqeyini möhkəmlətmək məqsədilə Fətəli xan Dərbənddən əhalinin bir hissəsini buraya köçürür.

Fətəli xan fəaliyyəti müddətində Rusiya ilə həmişə dostluq və ittifaq siyasəti yeritmişdi. Xanlıq iqtisadi və hərbi cəhətdən qüvvətləndikcə düşmənlərinin sayı daha da artırdı. 1774-cü ildə Dağıstanın feodal hakimləri birləşərək, Quba xanlığı üzərinə hücuma keçirlər. Bu basqında yalnız Bakı və Salyan xanlıqları Fətəli xana sadiq qalırlar. Şirvan xanı Ağasi xan fürsətdən istifadə edib, baş qaldırır. Fətəli xan birinci növbədə onun üzərinə qoşun çəkir. Bu döyüşdə yeznəsi Məlik Məhəmməd xan da öz ləşkəri ilə iştirak edirdi. Ağasi xan Fətəli xanın hücumu qarşısında davam gətirə bilməyib, qoşununu başlı-başına buraxaraq, gizlənməyə məcbur olur. Fətəli xan buradan birbaşa Dərbəndi qorumağa gedir. Çünki Qaytaq hakimi əmir

Həmzə Məhəmməd xan Qazıkumuxski ilə ittifaq bağlayaraq, Dərbənd üzərinə gedirdi. Bundan istifadə edən Ağasi xan təzədən Şamaxıya yiyələnir.

Xudad yaxınlığında qızğın döyüşlər başlayır. Əvvəlcə Fətəli xan düşmən qüvvələrinə üstün gəlir. Sonra əmir Həmzə ilə Məhəmməd xan Qazıkumuxskinin qoşunları sürətlə irəli soxularaq qələbə çalırlar. Fətəli xan Qubada qala bilməyib Salyana çəkilir. Məhəmməd xan Qazıkumuxski Qubanın böyük bir hissəsinə yiyələnir. Əmir Həmzə isə Dərbənd üzərinə hücüma keçərək şəhəri mühasirəyə alır. Bu zaman Dərbənd qalasını qoruyan Fətəli xanın arvadı Tutu Bikə idi. O, əyninə kişi paltarı geyərək, qalanın müdafiəsinə başçılıq edirdi. Əmir Həmzə nə yolla olur-olsun Dərbəndi almağı qarşısına məqsəd qoymuşdu.

Döyüş qardaşla bacı arasında gedirdi. Tutu Bikənin başçılığı altında qaladakılar əmir Həmzənin bütün həmlələrini mərdliklə dəf edirdilər. Dərbəndin tarixi ilə məşğul olan E. İ. Kozibekinin yazdığına görə, Fətəli xanın cəsur arvadı bir kişi cəsarəti ilə şəhəri qardaşından qoruyurdu. O dişi bir şir kimi qala hasarlarının üstündə duraraq, toplardan necə atəş açmaq barədə sərəncam verirdi. Əmir Həmzə həmlələrinin boşa çıxdığını gördükdə, nəhayət, hiyləyə əl atır.

Döyüş ara verdiyi zaman qala mühafizəçilərindən biri hövlənak Tutu Bikənin yanına gəlir, lakin gördüyü hadisə barədə deməyə dili gəlmir. Nəhayət, özünü ələ alır.

- Fətəli xanın ölüsünü gətiriblər - deyir. Tutu Bikə buna inanmasa da, ürəyi davam gətirməyib, yaxınlaşıb, qala divarlarının dişləri arasından aşağı baxır. Tabutu və onun yanında durmuş qardaşı Həmzəni görən kimi gözlərinə bir anlıq qaranlıq çökür. Aşağıdan qardaşının səsini eşidir.

- Tutu Bikə, qapını aç. Fətəlinin meyidini gətirirlər. Şirvanda öldürülüb.

Meyidin üzü örtülü olduğu üçün Tutu Bikə qardaşının sözlərinə inanmır. Fikirləşir ki, Fətəlinin meyidi olsaydı, Həmzə onun üzünü açmış olardı. Qardaşına çığırır:

- İnanmıram ki, böyük Fətəli o kiçik cənazəyə sığışmış ola.

- Demək, ərinin cənazəsindən imtina edirsən?

- Ərimin yox, sənin düzəltdiyin cənazədən imtina edirəm. Əmir Həmzənin hiyləsi baş tutmur. Sonra məlum olur ki, o öz yaxın sərkərdələrindən birinin meyidini cənazəyə qoyub, şəhərə daxil olmaq istəyir. Onun son tədbiri də heç bir nəticə vermədiyindən qoşununu çəkib, Bakı üzərinə hücuma keçir.

Bakı da bu illərdə alınmaz möhkəm bir qalaya çevrilmişdi. Şəhərin müdafiə edilməsində Məlik Məhəmməd xanla yanaşı onun arvadı, Fətəli xanın bacısı Xədicə Bikə də yaxından iştirak edirdi.

Əmir Həmzə şəhər müdafiəçilərinin müqavimətini qıra bilmədiyindən, Bakı kəndlərini talan edərək, geriyə dönür.

Salyanda olarkən Fətəli xan kömək üçün II Yekaterinanın yanına elçi göndərir, özü də Dərbəndə, arvadının yanına qayıdır. Əmir Həmzə Bakıdan qayıdaraq, Dərbənd üzərinə ikinci dəfə hücuma keçərkən Fətəli xan artıq arvadının yanında idi.

II Yekaterina Fətəli xanın simasında Azərbaycanda rus təsirinin əsas dayaqlarından birini görürdü. Rusiyanın mənafeyinə zərbə vuran əmir Həmzəyə dərs vermək üçün Fətəli xanın köməyinə qoşun göndərməyi əmr edir.

1775-ci ildə mayor Medemin başçılığı altında qoşun dərbəndlilərin köməyinə gəlir. Fətəli xan rus qoşunları ilə birlikdə şəhəri mühasirədən qurtarır. Məğlub olmuş əmir Həmzə qaçır. Fətəli xan Dərbəndin açarlarını II Yekaterinaya göndərir. Lakin Yekaterina İran və yenicə müqavilə bağlamış olduğu Türkiyə ilə münasibəti pozmamaq məqsədilə Dərbəndin açarlarını qəbul etmir və rus himayəsinə daxil olmaq barədə Fətəli xanın xahişlərini də rədd edir.

Bakı xanlığı əslinə baxılsa, Fətəli xanın vassalitetindən başqa bir şey deyildi. Məlik Məhəmməd xan iradəcə zəif olduğundan xanlığı, demək olar ki, Fətəli xan və bacısı idarə edirdilər.

Bakı xanlığı o vaxtlar çox varlı idi. Neft və duzdan böyük gəlirlər əldə edilirdi. Əlbəttə, bu, Fətəli xanın nəzərindən qaça bilməzdi. Bakı xanlığı Fətəli xana xərac verməkdən başqa onun sərhədlərini Dağıstan feodallarının basqınlarından qorumaq üçün də qoşun ayırmalı idi. Məlik Məhəmməd Xədicə Bikəyə evləndən sonra Bakı xanlığı Quba xanına xərac verməkdən azad olunmuşdu. Ancaq Fətəli xan tələb etdikdə ona qoşun ayırmağa borclu idi. Məlik Məhəmməd Fətəli xana arxalansa da, Bakı qalasının möhkəmləndirilməsinə xüsusi fikir verirdi. Şəhərin şimal-qərb tərəfində bütün divar boyu xəndəkləri dərinləşdirmiş, bürclərə qırxa yaxın qısa lüləli və başqa toplar düzdürmüşdü. Qoşunun sayı isə 500 nəfərdən artıq deyildi.

1779-cu ilin baharında Fətəli xan Bakıya yeznəsinin yanına qonaq gəlir. Onu Şamaxı darvazalarının yanında yenicə tikilmiş Xan evində qəbul edirlər. Bacısı Xədicə Bikə süfrəyə hər cür nemət düzür. Söhbət adi məişət məsələlərindən getsə də, Məlik Məhəmməd Fətəli xanın sözlü adama oxşadığını hiss edir. Süfrə aradan yığışdırıldıqdan sonra otaqda yeznə ilə qayın tək qalırlar. Fətəli xan mütəkkəyə söykənib, zəndlə Məlik Məhəmmədə baxır və gəlişinin səbəbini izah etməyə başlayır:

- Bir ildir ki, Qarabağ xanı İbrahim xanla küsülüyəm - deyib köksünü ötürür. - Halbuki bu küsülülüyün heç bir mənası yoxdur. Yəni bizə xeyri yoxdur. Fikirləşirəm ki, bunu daha belə qoymaq olmaz. Qarabağ böyük xanlıqdır. İş elə düşər ki, ona bir ehtiyac hiss edərik. Bu sözləri deyib, Fətəli xan fikrə gedir. Araya

sükut çökür. Lakin gözlərini yenə Məlik Məhəmmədin sifətində gəzdirirdi. Sanki qayğılı nəzərləri ilə nəyi isə sınamağa çalışırdı. Məlik Məhəmməd dillənməyə məcbur olur:

- İndi fikrin nədir?

- Fikrim barışmaqdır... - deyə Fətəli birdən-birə qətiyyətlə səslənir. Gözləyirdim ki, o özü elçi göndərər, barışarıq. Görünür ki... - O yenə susdu. Sonra barmaqlarında yanaşı qoşa üzük olan sağ əlini havada yelləyib, əlavə edir: - Nə olar, o göndərmirsə, biz göndərrik

- Əhməd xanı göndərmək istəyirsən? - Məlik Məhəmməd soruşur.

- Yox. O uşaqdır. Bir nəfər etibarlı və hörmətli adam lazımdır.

- Bəs kimi?

- İstəyirəm ki, sən gedəsən. - Fətəli xan yenə qətiyyətlə səslənir.

- Mən? - Məlik Məhəmməd təəccüblə soruşur.

- Sən. Ancaq sən. Başqasına etibarım yoxdur. Başqasının ağzından artıq bir soz çıxsa, təzədən incikliyə səbəb olar.

Fətəli xanın iki oğlu vardı. Böyüyü Əhməd xan, kiçiyi Şıxəli xan. Məlik Məhəmməd fikirləşdi ki, Fətəli öz oğlunu göndərməyə çəkinir. İbrahim xanın tündməcaz olduğunu yaxşı bilir. Ondan hər bir şey gözləmək olar. Bununla belə, Məlik Məhəmməd öz etirazını bildirə bilmir. Arvadı Xədicə Bikə də ərinin belə xətərli işə göndərilməsinə ürəkdən narazı olsa da, qardaşının sözü üstünə heç bir söz deyə bilmir.

Ertəsi gün Məlik Məhəmməd yaraqlanıb, yaxın adamlarından iki nəfərlə birlikdə Şuşaya yola düşür. O gedəndən Xədicə Bikənin yuxusu ərşə çəkilir. İyirmi gündən sonra Məlik Məhəmmədi müşayiət edən atlılar qayıdıb, xəbər verirlər ki, İbrahim xan Məlik Məhəmmədi həbsə almışdır. Xədicə tez Qubaya qardaşına xəbər göndərir. Qardaşı cavab məktubunda ona təsəlli verib, yazırdı ki, təhlükəli heç bir şey yoxdur, Məlik Məhəmməd tezliklə geri qayıdacaqdır. Ancaq aylar keçir, Məlik Məhəmməddən isə heç bir xəbər çıxmırdı. Fətəli xan özü də bacısının gözünə görünməmək üçün Bakıya az-az gəlirdi.

Qarabağ xanı İbrahim xan Məlik Məhəmmədi düz iki il həbsdə saxlayır. Bu müddətdə Fətəli xan öz-özlüyündə İbrahim xana qarşı çox tədbir tökürsə də, heç birini həyata keçirə bilmir. Məlik Məhəmmədin üstündə İbrahim xanla müharibəyə girməyi təsəvvürünə sığışdıra bilmirdi.

Nəhayət, Fətəli xan öz müttəfiqləri ilə birlikdə 8 min qoşunla Qubadan Qarabağa, İbrahim xanın üzərinə hücuma keçir, İbrahim xan Məlik Məhəmmədi azad etməyə məcbur olur.

İki illik həbsdən sonra Bakıya qayıdan Məlik Məhəmmədin saçları tamam ağarmışdı. A. A. Bakıxanovun yazdığına görə, Məlik Məhəmməd həmin ildə Nəcəfə ziyarətə gedir və Bağdad yaxınlığında ölür.

Məlik Məhəmmədin Xədicə Bikədən iki oğlu olmuşdu: Mirzə Məhəmməd və Əbdürrəhim.

Məlik Məhəmməddən sonra yerinə böyük oğlu Mirzə Məhəmməd xanlığa keçir. O, tarixdə Mirzə Məhəmməd xan Sani (ikinci) kimi tanınmışdır. Mirzə Məhəmməd Sani A.A. Bakıxanovun atası idi. Xanlığa keçəndə on bir yaşı vardı. Xanlığı idarə etmək üçün dayısı Fətəli xan onun qəyyumu təyin edilmişdi. İyirmi yaşına çatdıqda Mirzə Məhəmməd xan Sani Fətəli xanın qızı Xan Bikə xanımla evlənir.

Fətəli xanın nüfuz dairəsi getdikcə genişlənirdi. 1785-ci ildə Şəki xanını məğlub edərək, onu özündən asılı vəziyyətə salır. Beləliklə, XVIII əsrin səksəninci illərində Azərbaycanın bütün şimal-şərq hissəsi onun hakimiyyəti altında birləşmişdi. Təkcə Qarabağ xanı ona tabe olmaqdan imtina edirdi.

1784-cü il Fətəli xandan ötrü daha uğurlu olur. Həmin ilin bahar aylarında onun Azərbaycanın cənub xanlıqlarına qarşı yürüşü başlayır. Fətəli xan, demək olar ki, heç yerdə müqavimətə rast gəlmir. Əhali hər yerdə onu rəğbətlə qarşılayır. Ərdəbil və Mişkin şəhərlərini müqavimətsiz ələ keçirir. Fətəli xanın belə müzəffər yürüşü II Yekaterinanı bərk narahat edir. Öz narazılığını knyaz Q. A. Potyomkin vasitəsilə Fətəli xana çatdırır. Bundan sonra Fətəli xan cənubda qala bilməyib, Qubaya dönür. Ancaq bu, onun Rusiyaya rəğbətinə zərrə qədər də xətər gətirmir.

80-ci illərdə Rusiya Qafqazda öz mövqeyini xeyli möhkəmlətmişdi. "Azərbaycan tarixi"nin birinci cildində yazılır: "1768-1774-cü illərdə rus-türk müharibəsində rus silahının qələbəsi, 1783-cü ildə Kuban boyu sərhədlərinin möhkəmləndirilməsi Rusiya üçün Qara dəniz sahilində və Qafqazda əlverişli vəziyyət yaratdı və onun sərhədlərini Zaqafqaziyaya yaxınlaşdırdı". 1783-cü ildə Gürcüstanın Rusiyanın himayəsinə keçməsi barədə Georgiyevskdə (Şimali Qafqaz) müqavilə bağlandı. Həmin ilin noyabr ayında rus qoşunları Tiflisə daxil oldular. Şimali Qafqazla Gürcüstan arasında yol çəkilməyə başlandı ki, bu yol sonralar Hərbi-Gürcüstan yolu adını aldı. Bu yolu general-poruçik P. S. Potyomkin çəkdirməyə başlamış, A. P. Yermolov başa çatdırmışdır. 1783-cü ildə İrəvanın əhalisi Qafqaz baş komandanlığına məktub göndərərək, rus qoşunlarının yolunu səbirsizliklə gözlədiklərini xəbər vermişdilər.

Beləliklə, bütün Zaqafqaziyanın və Dağıstanın işğalı üçün çox əlverişli şərait yaradılmışdı. Lakin birdən-birə baş vermiş hadisələr buna mane oldu. 1787-ci ildə Rusiya ilə Türkiyə arasında təzədən müharibə başladı. Bununla əlaqədar çar hökuməti öz qoşununu Tiflisdən geri çağırmağa məcbur oldu. Türkiyə hələ müharibədən qabaq Azərbaycan xanlıqlarını da öz tərəfinə çəkmək üçün çox cəhdlər göstərmişdi.

1787-ci ildə Fətəli xan Qarabağ xanı İbrahim xanı bərk məğlubiyyətə uğratdı. Çünki İbrahim xan Şamaxı xanlığını onun əlindən almaq fikrinə düşmüşdü. Bu qələbə Fətəli xanın güçünü daha da artırdı.

1788-ci ildə Şəki xanı öz müttəfiqləri ilə birləşib Fətəli xanın himayəsindən çıxmağa cəhd edir. Döyüş köhnə Şamaxının yaxınlığında baş vermişdi. Vuruşmada əvvəl şəkililər üstün gəlirlər. Şamxal Tarkovskinin köməyə çatması nəticəsində Fətəli xan Şəki xanı Məmməd Həsən xanın qoşunlarını darmadağın edir. Xan özü bir neçə nökəri ilə Şəkiyə qaçır.

Həmin ilin dekabrında Fətəli xan II İrakli ilə birlikdə Gəncəni özlərinə tabe etdilər.

1788-ci ildə Fətəli xan Azərbaycanda artıq ən güclü bir şəxsiyyət idi.

18-ci əsrin 70-ci illərinin başlanğıcında Şimali Azərbaycan torpaqlarının yarısı, demək olar ki, Quba xanlığına tabe idi.

Fətəli xan Şamaxını dövlətin paytaxtına çevirmək fikrində idi. Bu məqsədlə Dərbənd, Quba, Salyan və habelə Niyazabaddan etibarlı ailələri buraya köçürür, hətta Nadir şah tərəfindən salınmış yeni Şamaxının (Ağsu) əhalisini də köhnə Şamaxıya qaytarır. O, şəhəri möhkəmlətmək və bununla da köhnə Şirvanşahlar dövlətini diriltmək arzusunda idi.

1788-ci ildə Fətəli xanın gücü xeyli artmışdı. Quba, Dərbənd, Bakı, Şamaxı, Salyan tam onun ixtiyarında idi. Şəki xanı ondan asılı idi. Tabasaran hakimləri onun tam itaətində idilər. Şamxal Tarkovski, Qaytaq üsmüsü və Qazıkumux xanı Rusiyadan çəkindikləri üçün ona pənah gətirmişdilər. Talış, Muğan, Gilan xanları onun himayəsində idilər.

Belə bir qüvvə ilə o, Cənubi Azərbaycan xanlıqlarını da birləşdirmək fikrində idi. Lakin bu məqsədinə nail ola bilmədi.

1789-cu ildə Fətəli xan gözlənilmədən xəstələnir. Halının gün-gündən pisləşdiyini hiss edərək, Bakıya - bacısı Xədicə Bikənin yanına gəlir. Xədicə onun rəng-rufundan qorxuya düşür.

- Sənə nə olub? - soruşur.

- Heç sorma, Xədicə. Sənin yanına ölməyə gəlmişəm.

- Sən nə danışırsan?

- Həqiqi sözümdür. Mən hər şeyi qabaqcadan hiss etməyə öyrəşmişəm. İndi də başa düşürəm ki, ölüm arxamca gəzir.

Həmin ilin mart ayında Fətəli xan ölür.

Bacısı və kürəkəni - bacısı oğlu Mirzə Məhəmməd Sani onun üçün təntənəli dəfn düzəldirlər. Oğlanları Əhməd xan və Şıxəli xan Qubadan gəlirlər. Cənazəsi Bibiheybətin həyətindəki qəbiristanlıqda dəfn olunur. Bu yaxınlaradək onun qəbri dururdu, Bibiheybət söküldüyü zaman qəbrin başdaşısı tarix muzeyinə gətirilmişdir.

Fətəli xan öləndən sonra Bakı xanlığı içərisində ixtilaf başlayır. Bu işdə atasının ölümündən sonra onun yerinə keçmiş Əhməd xanın da günahı böyük olur. Mirzə Məhəmməd xan birincinin oğlu, yəni Məlik Məhəmməd xanın qardaşı Məhəmməd Qulu xan Əhməd xana arxalanaraq gizlincə Mirzə Məhəmməd xan Saninin əleyhinə qəsd hazırlayırlar. Məhəmməd Qulu xan Əhməd xana vəd edir ki, əgər xan taxtına yiyələnməkdə ona kömək edərsə, ona külli miqdarda xərac verməyə hazırdır. Əhməd xan da buna razılıq verir və beləliklə, öz bibisi oğlu, yeznəsi Mirzə Məhəmməd Sanini yıxmaq üçün birgə tədbir tökürlər. O, qoşunun bir hissəsini Salyana yola salmaq bəhanəsi ilə Bakı üzərinə göndərir. Məhəmməd Qulu da gizlincə Bakıya gələrək, yaxın adamları ilə birlikdə şəhəri ələ keçirmək üçün hazırlıq görür. Gecə yarısı hamı yuxuya gedəndən sonra şəhər darvazalarını qoruyan keşikçilərin üstünə basqın edib, qapıları açırlar, qoşun içəri soxulur. Qəflətən yaxalanan mühafizə dəstələri ilə əlbəyaxa vuruşma başlayır. Məlik Məhəmməd xanın qardaşı Məhəmməd Qulunun adamları şəhərdə əsas istehkamları əvvəlcədən tutduqlarına görə qalib gəlirlər.

Məhəmməd Qulu xan özünü xan elan edir. Mirzə Məhəmməd Sani isə ailəsi ilə birlikdə Qubaya sürgün olunur.

Bakıda Məhəmməd Qulu xanın hakimiyyəti uzun sürmür. Buna əsas səbəb o idi ki, o xanlığa yiyələnəndən sonra Əhməd xana verdiyi vədi yerinə yetirmir. Əhməd xan da yeznəsi Mirzə Məhəmməd xan Saniyə qarşı tutduğu işdən peşman olur. Əhməd xan bu dəfə Mirzə Məhəmməd xana qoşun verərək, onu Məhəmməd Qulu xanın üstünə göndərir. Qoşunun şəhər divarlarına yaxınlaşdığını görən Məhəmməd Qulu xan şəhər əhlinin ona xəyanət edə biləcəyini düşünüb, xəzinənin ağzını açıb, əhaliyə bəxşişlər paylayır. Onun belə səxavətindən razı qalan bakılılar şəhəri Mirzə Məhəmməd xandan qorumaqda ona yaxından kömək edirlər. Mirzə Məhəmməd Sani hücumlarının nəticə vermədiyini görüb təzədən Qubaya qayıdır.

1791-ci ildə Əhməd xan ölür və Quba xanlığı Fətəli xanın kiçik oğlu Şıxəli xanın əlinə keçir. Tarixçilərin yazdıqlarına görə, Şıxəli cavan olsa da, xanlığı fərasətlə idarə edirmiş.

Onun təşəbbüslərindən biri Bakı xanlığını həqiqi varisinə qaytarmaq olur. Mirzə Məhəmmədlə birlikdə Bakı üzərinə yürüşə başlayır. Şəhərə yaxınlaşanda fikirləşir ki, qalanı almaq üçün mutləq əlavə qüvvə lazımdır. Bu məqsədlə Georgiyevskdə general Qudoviçin qərargahına müraciət edir. Bakını geri almaq üçün ona kömək göstərilməsini xahiş edir. Qudoviçdən cavab gələnədək, o şəhəri mühasirədə saxlayır. General əmr edir ki, Bakı körfəzində duran freqatdan atəş açmaqla Şıxəli xana kömək edilsin. Bir neçə gündən sonra Qudoviç Məhəmməd Qulu xandan da məktub alır. Xan bildirir ki, o Bakının qanuni hakimidir və Şıxəli xana qarşı döyüşdə köməyə çatmasını bundan xahiş edir. Qudoviç Xəzər donanmasının komandiri general-mayor Şişkinə əmr edir ki, xanlardan kimin haqlı

olduğunu öyrənib, məsələni dövlətin xeyrinə həll etsin. Lakin Qudoviçin sonrakı əmri gec gəlib çatdığından kapitan-leytenant Mollerin əmri ilə gəmilərdən şəhərə bir neçə yaylım atəşi açılır.

Vəziyyəti belə gördükdə, Məhəmməd Qulu xan həmin ilin oktyabr ayında Mirzə Məhəmməd xanla saziş bağlamağa məcbur olur. Bu sazişə əsasən şəhərin gəliri Mirzə Məhəmməd Sani ilə Məhəmməd Qulu xan arasında tən bölünməli idi. Şıxəli xan isə Bakıdan 24 min manat xərac alacaqdı. Məhəmməd Qulu xan Bakı şəhərində, Mirzə Məhəmməd xan isə Balaxanada yaşamalı olurlar. XVIII əsrin qırxıncı illərində İ. Y. Lerx (o, 1744-1747-ci illərdə İranda rus səfirliyinin hakimi olmuşdur) yazırdı: "Balaxana kəndində hələ də 4 bastionlu dördkünc bir qala durur". Mirzə Məhəmməd xanın iqamətgahı da məhz bu qalada idi. O Balaxana iqamətgahında yaşayarkən gürcü qızı Sofiyaya təzəcə evlənmişdi. Abbasqulu və Cəfərqulu ağa bu qadından olmuşdular. Bundan sonra o yenə də evlənmiş və Abbasqulu ilə birlikdə 6 oğul atası olmuşdur. Abbasqulu ağa, Cəfərqulu ağa, Cavad ağa, Qədir ağa, Mustafaqulu ağa və Abdulla ağa. Mirzə Məhəmməd xan 1791-ci ildən başlayaraq, təkcə Balaxanada deyil, Maştağada, Əmirhacıyanda da yaşamışdır. Abbasqulu ağa da 1794-cü ildə Əmirhacıyanda anadan olmuşdur. Qalan dörd qardaşı isə Xeyimisə xanımdandı. Üçüncü arvadı Fətəli xanın qızı Xan Bikə xanım idi ki, ondan uşağı olmamışdı.

Şəhərin gəliri iki xanın arasında bölünsə də, əsas hakimiyyət Məhəmməd Qulu xanın əlində idi.

1792-ci ildə Məhəmməd Qulu xan ölür. Mirzə Məhəmməd xan bu dəfə də hakimiyyəti ələ keçirə bilmir. Məhəmməd Qulu xanın qardaşı Əli Qulu xanın oğlu (Mirzə Məhəmməd xanın əmisi oğlu) Hüseynqulu xan fürsətdən dərhal istifadə edərək özünü Bakı xanı elan edir. Mirzə Məhəmməd xanla Hüseynqulu xan arasında təzə bir çəkişmə başlayır. Mirzə Məhəmməd xan Quba qoşunlarının köməyi ilə şəhəri mühasirəyə alır və Hüseynqulu xanla müqavilə bağlamağa nail olur. Yenə də şəhərin gəliri iki xanın arasında bölünür.

Sonralar Hüseynqulu xan xanlığın iki xan arasında şərikli olmasına dözə bilmir. Fikirləşir ki, Mirzə Məhəmməd Sani Balaxanada xanlığın əsas gəlir mənbəyi olan neftin əsas hissəsini mənimsəyə bilər. Fürsət axtarır ki, Mirzə Məhəmmədin iqamətgahına gözlənilmədən basqın edib, onu Bakıdan uzaqlaşdırsın. Mirzə Məhəmməd isə təbiətən sadə və ürəyiaçıq olduğundan Hüseynqulu xanın ona xəyanət edəcəyini heç gözləmirdi.

Bir gecə Hüseynqulu xan bir dəstə atlı ilə Mirzə Məhəmmədin iqamətgahına basqın edir. Mirzə Məhəmməd xan gecə yarısı atların kişnəməsinə yuxudan ayılarkən, iqamətgahın mühasirəyə alındığını görür. Hüseynqulu xan sübh tezdən Mirzə Məhəmməd xanı ailəsi ilə birlikdə Qubaya sürgün edir. Beləliklə, hakimiyyət təkcə Hüseynqulu xanın əlində qalır.

1792-ci ildə Hüseynqulu xan öz hakimiyyətini daha da möhkəmlətmək məqsədilə Rusiyanın himayəsinə girmək barədə danışıqlara başlayır. Rus qüvvələrinin yerləşdiyi Georgiyevskə elçi göndərir. Dərbənddə onun elçisi Şıxəli xanın adamları tərəfindən tutulur. Hüseynqulunun II Yekaterinanın adına göndərdiyi məktub Quba xanını bərk qəzəbləndirir, Hüseynqulu xan məktubunun ələ keçdiyini eşitdikdə, bu dəfə başqa yolla Georgiyevskə təzədən məktub göndərir. II Yekaterinanın 1793-cü il 19 aprel tarixli fərmanına əsasən Bakı xanlığı rus imperatorluğunun himayəsinə qəbul edilir. Təkcə o qalır ki, Hüseynqulu xan təntənəli surətdə and içsin.

Hüseynqulu xanın bu hərəkəti ilə yanaşı Şıxəli xan da imperatriçaya müraciətlə bildirir ki, o və ona tabe olan Bakı xanlığı rus tabeliyini qəbul etməyə hazırdır. Elçi Şıxəli xan adından rus imperatorluğuna sadiq qalacaqlarına and içir. Rus qoşunları komandanı Qudoviç andın təsdiq edilməsi və imzalanması üçün Şıxəli xana məktub göndərir. Şıxəli xan isə buna əməl etmir. Halbuki Şıxəli xan bu müddətdə artıq rus təbəəsi hesab edilirdi. Çünki onun xahişi çariçaya göndərilmişdi.

1794-cü ilin ortalarında Şıxəli xan Bakı xanlığını Mirzə Məhəmməd Saniyə qaytarmaq üçün Bakı üzərinə hücuma keçir. Ancaq o hələ yolda ikən ona xəbər çatdırırlar ki, Qazıkumuklu Xambutay xan Şəki xanı Məhəmməd Hüseyn xanın üzərinə qoşun çəkmişdir. O, ləşkəri Mirzə Məhəmməd xana tapşırıb, özü Şəki xanının köməyinə tələsir.

Həmin illərdə Mirzə Məhəmməd xan Sani Bakı qalasından kənarda yaşasa da, xanlığın əsas gəlir mənbələrini öz əlində saxlayırdı. Neft quyularından və duzlu göllərdən alınan məhsula, demək olar ki, bütünlüklə yiyələnmişdi. Şəhərə neft, duz və başqa məhsulların daşınmasını tamamilə qadağan etmişdi. Hüseynqulu xan Quba qoşunlarının təzədən onun üzərinə hücuma keçəcəyini eşidən kimi Həştərxan vasitəsilə general Qudoviçə məktub göndərərək, Şıxəli xandan gileylənir. General Qudoviç Şıxəli xana xəbərdarlıq edir ki, Bakı xanlığını rahat buraxsın, unutmasın ki, Bakı xanlığına toxunmamaq onun andında qeyd edilmişdir.

Bu ara Mirzə Məhəmməd üzərinə basqın etmək üçün Hüseynqulu xandan ötrü əlverişli şərait yaranır. Gecə qaranlığında Balaxanada Mirzə Məhəmmədin iqamətgahına basqın edib, Bakı qalasına hücum etmək üçün Şıxəli xanın onun sərəncamına verdiyi qoşunu pərən-pərən salır. Mirzə Məhəmmədin ailəsi və o cümlədən Şıxəli xanın nişanlısı da Bakıya gətirilir. Sonralar Şirvan xanı Mustafa xan araya girərək, onları barışdırır. 1795-ci ilin payızında Mirzə Məhəmməd xan ailəsi ilə birlikdə Qubaya qayıdır. Şıxəli xan da həmin il Bəyim Bikə ilə evlənir.

1795-ci ilin dekabrında Hüseynqulu xanın rus himayəsinə daxil edilməsi barədə fərman gəlir. Fərmanda göstərilirdi ki, xanlıq titulu və vərəsəlik bundan sonra əlahəzrət imperator tərəfindən təsdiq edilməlidir. Xanlıq Qafqaz xəttinin baş

komandanlığı ilə razılaşdırılmadan rus tabeliyində olmayan ətraf hakimlərlə əlaqəyə girə bilməz. Bununla bərabər rus tacirləri üçün də əlverişli şərait yaradılmalıdır. Küləyin sahilə vurub çıxardığı gəmilər yükləri ilə birlikdə vaxtında sahibinə qaytarılmalıdır. Bakıda həmişə bir rus gəmisi durmalıdır. Rus tacirlərinin İranlılarla əlaqədar işləri təkcə Bakı hakimləri tərəfindən deyil, konsulla birlikdə həll edilməlidir. Şıxəli xanın Bakıya olan iddiaları əvəzində xan ona bəzi mükafatlar verməlidir.

Küləyin vurub sahilə çıxardığı gəmilər barədə fərmana xüsusi bir maddənin daxil edilməsi təsadüfi deyildi. Maştağa və Mərdəkan kəndləri sahillərində küləyin vurub sahilə çıxardığı gəmilərin malları Hüseynqulu xanın adamları tərəfindən bir qayda olaraq həmişə talan edilirdi. Hüseynqulu xan rus komandanlığı tərəfindən bir neçə dəfə məcbur edilmişdi ki, talan edilmiş malların dəyəri rus və hind tacirlərinə qaytarılsın. Bakı arxipelaqında da rus gəmilərinə basqın halları baş verirdi.

XVIII əsrin axırında baş vermiş hadisələr Hüseynqulu xanın rus tabeliyinə daxil edilməsi sənədlərinin tərtib edilməsinə mane oldu.

1794-cü ildə İranda Ağa Məhəmməd xan Qacar ölkənin əsas əyalətlərini ələ keçirərək, Tehranı paytaxt elan etmişdi. O, Cənubi Azərbaycanın xanlıqlarını da özünə tabe eləyəndən sonra Şimali Azərbaycana yürüş üçün hazırlıq görməyə başlayır. Əvvəlcə bütün xanlıqlara məktub göndərərək, onları İran şahının himayəsinə keçməyi təklif edir. Qarabağ xanı İbrahim xandan isə tələb edir ki, oğlunu onun yanında girov qoysun. İbrahim xan bundan imtina etdikdə, Ağa Məhəmməd xan Qacar onun üstünə 8 min nəfərlik qoşun göndərir. Gürcülər qarabağlıların köməyinə çataraq, birlikdə Əsgəran qalası yanında İran qoşunlarını darmadağın edirlər. Həmin ilin yayında Ağa Məhəmməd xan Qacar təzədən 85 min qoşunla Qarabağa soxulub, Şuşa şəhərini mühasirəyə alır. Mühasirə 33 gün davam edir. Ağa Məhəmməd xan Qacar şuşalıların müqavimətini qıra bilmədiyindən Tiflis üzərinə yürüyür. Tiflisə qədər olan yol boyu bütün şəhər və kəndləri xarabazara çevirir.

Qarabağlılar da öz borclarını yerinə yetirərək, gürcülərin köməyinə çatırlar. Gürcülər düşmənin üstün qüvvəsi qarşısında davam gətirə bilmirlər. Ağa Məhəmməd xanın qoşunları Tiflisə daxil olub, şəhəri talan edir, əhalini qılıncdan keçirirlər.

Ağa Məhəmməd xan Qacarın bu qələbəsi bu vaxtadək Rusiya ilə İran arasında tərəddüddə qalmış Şıxəli xanı ruhlandırır və ona qiymətli hədiyyələr göndərir. Onun rus təbəəliyinə qəbul edildiyinə baxmayaraq, qəti olaraq Ağa Məhəmməd xan tərəfinə keçir.

Gürcüstanı talan etdikdən sonra Ağa Məhəmməd xan 1795-ci ilin payızında qışı Muğan düzündə keçirmək məqsədilə Azərbaycana qayıdır. Yolda on iki min

qoşunla Şirvana basqın edir. Şirvan xanı Mustafa xan qaçıb Fit dağında gizlənir. Bunu eşidən Bakı xanı Hüseynqulu xan Şamaxıya Ağa Məhəmməd xan üçün böyük hədiyyələr göndərir və beləliklə özünü Qacarın qəzəbindən xilas edə bilir.

Muğanda qalmaqda Ağa Məhəmməd xanın niyyəti təzədən Azərbaycan xanlıqlarına hücum edib, bütün Azərbaycanı özünə tabe etdirmək idi. Lakin bu ona müyəssər olmur. Çünki Qacarın Zaqafqaziyaya basqını rus imperatorluğunu çox narahat edirdi.

General Qudoviç göstəriş almışdı ki, Ağa Məhəmməd xan Qacar Şamaxını işğal edərsə, Dərbənd üzərinə hücuma keçsin. Gürcüstanın, xüsusilə Tiflis şəhərinin Qacar qoşunları tərəfindən dağıldığı xəbərini alan kimi 1796-cı ildə 30 minlik rus qoşunu general V. A. Zubovun komandası altında Dərbənd şəhəri üzərinə hücuma keçirlər. Əvvəlcə Şıxəli xan müqavimət göstərir. Rusların güclü qoşunu qarşısında dura bilməyəcəyini hiss etdikdə anası və bacısının təhriki ilə qılıncını boynundan asaraq öz rəiyyəti ilə Zubovun yanına gəlir. Zubov onu xeyli müddət öz düşərgəsində saxlayır. Şıxəlinin anası və bacısı Zubovun düşərgəsinə gələrək, Şıxəlinin cavanlığını nəzərə almağı və onun günahından keçməyi xahiş edirlər. Zubov ona müqavimət göstərən yerli hakimləri adətən Rusiyaya göndərirdi. Görünür ki, Şıxəli xanın anası və bacısının xahişindən sonra, ya da başqa mülahizələrə görə onu öz yanında saxlayır və hətta Şamaxı üzərinə yürüşə də özü ilə bərabər aparır.

Zubov Dərbənd xanlığının boş qalmaması üçün Şıxəli xanın bacısı Pəricəni şəhərin hakimi təyin edir. 1796-cı ilin 3 iyununda II Yekaterina V. A. Zubova belə bir məktub göndərmişdi: "Dərbəndin hakimi Pəricə xanıma mən hədiyyə olaraq, qələm, sırğa və üzük göndərirəm... Deyirlər ki, ağıllı və yaxşı qızdır. Mənə elə gəlir ki, onun davranışında bir mərdlik vardır ki, bu da mənim xoşuma gəlir".

Keçmiş xanlıq nəslindən olan Nadir xan da Pəricəyə naib təyin olunur.

Həmin il 24 mayda Zubov Bakıya tərəf yürüşə başlayır. Dərbənddən sonra Şamaxı, Gəncə, Salyan xanlıqları da rus hakimiyyəti altına keçir. Qarabağ xanı Zubovun yanına elçi göndərərək, rus himayəsinə qəbul olunmasını xahiş edir. Bakı xanı Hüseynqulu xan da şəhəri təhvil vermək məcburiyyətində qalır.

Şəhərin işğalından sonra Yekaterina Bakını bütün Şərqdə böyük ticarət mərkəzinə çevirmək üçün ciddi tədbirlər görməyə başlayır. Bakı limanının hərbi donanma üçün yararlı hala salınması barədə layihə hazırlanır. Bu məqsədlə Peterburqdan Bakıya mütəxəssis ustalar göndərilir. Bakıda olmuş Butkov öz qeydlərində yazırdı ki, "Bakı limanı bütün Xəzər dənizində ən əlverişli liman olduğundan onu genişləndirmək və möhkəmləndirmək lazım gəlirdi. Dərinliyi 7 sajen olan liman sularında gəmilər rahat üzə bilirdilər".

Rusiya imperiyasının hakimiyyətini Azərbaycanda daha da möhkəmlətmək məqsədilə Zubov Kürlə Arazın birləşdiyi yerdə (Cavadda) yeni bir qala-şəhər

salmaq fikrinə düşür və onun layihəsi də hazırlanır. Bu məqsədlə buraya 2 min saldat köçürür, onları hərbi və kənd təsərrüfatı alətləri ilə təmin edir və ermənilərі məcbur edir ki, qızlarını rus saldatlarına ərə versinlər. Bu qala-şəhər Yekaterinoserd adlanacaqdı.

Bakını möhkəmlətmək isə rus komandanlığı qarşısında birinci dərəcəli məsələ kimi qoyulmuşdu. 1796-cı ilin 19 fevralında Zubova göndərilən əmrdə deyilirdi: "Bakını, Bakı limanını zəbt edib, onu baş depoya çevirməli". Bakı limanında işə başlamaq üçün vəsait də ayrılmış və Peterburqdan ustalar yola salınmışdı.

Ruslar 1796-1797-ci illər üçün nəzərdə tutulmuş tədbirləri həyata keçirə bilmirlər. II Yekaterinanın ölümü buna mane olur. Yekaterinadan sonra onun yerinə taxta çıxmış I Pavelin əmri ilə rus qoşunları təcili olaraq, geri çağırılır. I Pavelin məqsədi Fransaya qarşı mübarizə üçün Rusiyanın bütün hərbi qüvvələrini bir yerə toplamaq idi. Qoşunların geri çəkilməsinə baxmayaraq, Rusiya ilə Azərbaycan arasında ticarət əlaqələri əvvəlki kimi yenə davam edir və genişlənirdi. Bununla belə, Xəzər sahili şəhərlərinin bəzilərində yerli hakimlər tərəfindən bu ticarətə zərbə vuranlar da vardı. Məsələn, Bakı xanı Hüseynqulu xanın nəinki rus tacirlərinə, habelə hindlilərə da münasibəti yaxşı deyildi. Rus ticarət gəmilərinə yenə də basqınlar edilirdi. Hüseynqulu xan bu basqınların qarşısını nəinki almır, əksinə, bunun üçün əlverişli şərait yaradırdı. Belə halları aradan qaldırmaq məqsədilə İranda olah rus konsulu Skibinevski 1800-ci ildə Bakıya gəlir. O, Hüseynqulu xandan rus tacirlərinə vurulmuş zərərin qaytarılmasını tələb edir. Maştağa sahillərində küləyin vurub sahilə çıxardığı gəminin talan edildiyini söyləyərkən Hüseynqulu xan deyir:

- Bu gəminin malları rus tacirlərinin deyil. Qoy hindlilər bunu tələb etsinlər.
- Mallar rusların deyilsə də, gəmi ruslarındır. Gəminin içindəki mallar üçün ruslar məsuldurlar.

Beləliklə, Hüseynqulu xan nə rus tacirlərindən aldığı pulları, nə də talan etdiyi gəmilərin mallarını qaytarmaq istəmir. Vəziyyəti belə gördükdə Skibinevski zora əl atmağa məcbur olur. O Bakı limanında reyddə durmuş rus donanmasına əmr edir ki, şəhəri top atəşinə tutsun. "Qızlar" gəmisi şəhəri top atəşinə tutan kimi Hüseynqulu xan günahkar olduğunu boynuna alır və rus tacirlərindən aldıqları pulları və talan olunmuş malları qaytarmağa razılıq verir. Hətta üstəlik iltizam verir ki, bundan sonra rus tacirlərinə qarşı ədalətli hərəkət edəcəkdir. Bu əhvalatdan sonra, Hüseynqulu xan yaxın rəiyyətindən olan Mirzə Hadı bəyi rus imperatorluğu sarayına göndərərək, tutduğu hərəkətdən ötrü üzr istəyir.

Buna baxmayaraq, Hüseynqulu xan sonralar da rus və hind tacirlərinin gəmilərinə quldur basqınından əl çəkmirdi.

Azərbaycandan geri qayıtmış Ağa Məhəmməd xan Qacar İrana çatan kimi 1796-cı ildə Tehranda özünü şah elan edir. Bir ildən sonra təzədən böyük qüvvə ilə Azərbaycana gəlir. Qarabağ və Şirvan xanlıqlarını işğal edir. Hüseynqulu xanı Şuşa qalasına öz yanına çağırır. Bir rəvayətə görə, Hüseynqulu xan onun yanına getməkdən boyun qaçırır. Ağa Məhəmməd şah Qacar əmr edir ki, onun əl-ayağına zəncir vurub hüzuruna gətirsinlər. Ailəsi isə Tehrana sürgün olunsun. Başqa bir mənbədə göstərilir ki, Hüseynqulu xan özu Ağa Məhəmməd şahın yanına gedir. Ağa Məhəmməd şah Qacar onu qəzəblə qarşılayır. A. Bakıxanov bu barədə belə yazır: "Hüseynqulu xan Ağa Məhəmməd şahın hüzuruna gələrək, öz itaətkarlığını bildirmişdi. Lakin ruslara qarşı olan meylinə görə yaxşı qarşılanmamışdı. Əgər 12 iyun səhəri gün doğandan sonra şah öz saray xidmətçilərindən iki nəfər tərəfindən öldürülməsəydi, məlum deyildi ki, Hüseynqulu xanın taleyi necə olacaqdı".

Ağa Məhəmməd şahın ölüm xəbərini eşitdikdə, Qubada olan Mirzə Məhəmməd xan Sani Bakı xanlığına yiyələnmək üçün tələsik Bakıya gəlir. Ondan qabaq özünü yetirmiş olan Hüseynqulu xan şəhər qalasında möhkəmlənərək, müdafiə olunur. İki xan arasında keçirilmiş danışıqlara əsasən Bakı xanlığı yenə iki yerə ayrılır. Hüseynqulu xan Bakıda qalır, Mirzə Məhəmməd Sani isə Maştağaya çəkilərək, orada özünə təzə qala tikdirir.

1801-ci ilin 12 martında imperator Pavel öldükdən sonra onun yerinə I Aleksandr keçir. Təzə imperatorun ilk təşəbbüslərindən biri Zaqafqaziya hakimlərinə məktub göndərməsi olur. Bu məktubda o, bütün xanlıqları dostluq şəraitində yaşamağa çağırırdı. 1803-cü ilin fevralında knyaz Pavel Sisianov Qafqaza baş komandan təyin olunur. O, əslən gürcü idi, ulu babası knyaz Paati Sisianov (Sisişvili) 1725-ci ildə Rusiyaya köçmüşdü. O Kaxetiyanın məşhur çarı Vaxtanq Kartalini ilə birlikdə vaxtı ilə I Pyotrla görüşmək üçün Peterburqa yola düşmüşdülər. Pyotr isə bu vaxt artıq ölmüşdü. Vaxtanq da Həştərxanda xəstələnib ölmüş, Paati Sisianov isə rus təbəəliyini qəbul etmişdi. Pavel Sisianov 1754-cü ilin 8 sentyabrında Moskvada anadan olmuşdur.

Pavel Sisianovun baş komandan təyin edilməsi ilə Zaqafqaziyanın, o cümlədən Azərbaycanın təzədən işğalı geniş vüsət aldı.

Rus komandanlığı hər şeydən əvvəl Gəncə xanlığının işğal edilməsinə xüsusi əhəmiyyət verirdi. Gəncə xanı Cavadxan əslində rus tabeliyinə keçməyə etiraz etmirdi. Bunun üçün o, rus imperatorunun xüsusi reskriptini gözləyirdi ki, tabe olmaqla bərabər xanlığın müstəqilliyini hifz edə bilsin. General Sisianov onun nəzərinə çatdırır ki, Gəncə xanlığı hələ 1796-cı ildə Rusiyanın təbəəliyinə keçmiş və Gəncə qalası ruslar tərəfindən alınmışdı. Cavad xan cavabında yazırdı o zaman şah mənə reskript göndərmiş və mən də onun təklifini qəbul edərək, qalanı təhvil vermişdim. İndi də sənin padşahın belə bir reskript göndəribsə, mənə göstər. Mən də onun iradəsi qarşısında düşünüb-daşınım".

Cavad xanın bu sözləri, görünür ki, Sisianovun şəxsiyyətinə toxunmuş və 1803-cü ilin noyabrında Gəncə üzərinə qoşun çəkmişdi. Rus qoşunları 6 batalyon piyadadan, 11 topdan, 3 eskadron və 2 kazak bölüyündən ibarət idi.

1804-cü il yanvarın 2-dən 3-nə keçən gecəsində Sisianovun qoşunları qalaya hücuma keçirlər. Şəhərin müdafiəçiləri mərdliklə vuruşaraq nərdivanlarla qalaya qalxmağa çalışan qoşunların təşəbbüsünü dəf edirdilər. Buna baxmayaraq qoşunlar şəhəri müdafiə edənlərin müqavimətini qıra bilib, şəhərə daxil olur. Böyük mərdlik göstərmiş Cavad xan öldürülür. Beləliklə, Gəncə xanlığı Rusiyanın tərkibinə qatılır və şəhər I Aleksandrın arvadı Yelizavetanın adı ilə Yelizavetpol adlanır.

Sisianov I Aleksandra göndərdiyi raportunda qeyd edirdi ki, bu ilin kompaniyasında İranlılar tərəfindən vurulmuş bir milyon manat zərərin ödənilməsi üçün Xəzər donanmasının Ənzəli və Rəşt şəhərlərinə göndərilməsi lazım gəlir. 1865-ci ildə rus donanması general-mayor Zavalişinin başçılığı altında Pirbazara, Rəştə 800 nəfərdən ibarət desant çıxarır. Desant uğursuz olur. İran qoşunlarının üstün qüvvələri qarşısında Zavalişin geri çəkilib, Bakıya qayıdır.

Sübh açılarkən bakılılar körfəzdə hərb gəmisini görüb, təəccüb qalırlar. Hüseynqulu xan tez Zavalişinin yanına elçi göndərib onun nə niyyətlə gəldiyini öyrənmək istəyir... Zavalişin elçiyə belə deyir:

- Mən imperator tərəfindən göndərilmişəm ki, Bakını zəbt edim. Xanınıza deyin ki, şəhəri təslim etsin.

Hüseynqulu xan vaxtı udmaq üçün Zavalişinə xəbər göndərir ki, fikirləşmək üçün ona avqustun 15-dək möhlət versin.

Zavalişin razılaşır. Möhlət başa çatanda Hüseynqulu xandan heç bir xəbər çıxmır. Belə olduqda, Zavalişin sahilə desant çıxarır. Bu müddətdə Hüseynqulu xanın köməyinə gəlmiş Quba və Dərbənd xanlığının qoşunları Zavalişinin qoşunlarına qarşı vuruşmağa başlayırlar. Bu vuruşmada məğlub olan ruslar gəmi ilə Sara adasına çəkilirlər.

Rusiyanın Qafqaza yürüşü, Gürcüstanın və Azərbaycanın bir hissəsinin Rusiyaya ilhaq edilməsi Ağa Məhəmməd şah Qacardan sonra taxta çıxmış Fətəli şahı (o zamanlar Baba xan kimi tanınırdı) çox narahat edirdi. Hələ rus himayəsinə keçməmiş Qarabağ və Bakı xanlıqlarına elçilər göndərərək, onları hədələyir və xəbərdarlıq edirdi ki, rus tabeliyinə daxil olduqları təqdirdə onların üzərinə qoşun çəkəcəkdir. Bununla ürəyi soyumayan Fətəli şah 1805-ci ildə Qarabağ üzərinə böyük qüvvə ilə hücuma keçir. Qarabağ xanlığının atlı dəstələri İranlıları məğlub edib, geri oturdurlar. 1805-ci ilin 14 mayında Gəncə yaxınlığında, Kürəkçay sahilində Sisianovla İbrahim xan arasında müqavilə imzalanır. Kürəkçay sahilində Qarabağ xanlığı ilə danışıqlardan sonra Sisianov Şəki xanı Səlim xanla görüşür. Mayın 21-də Şəki xanlığı da Rusiyaya qatılır.

1805-ci ilin iyununda Fətəli şahın oğlu Abbas Mirzənin başçılığı altında İran qoşunları Arazı addayıb, Qarabağ üzərinə hücuma keçirlər. Bu zaman Şuşa qalasını İbrahim xanın dəstəsi ilə birlikdə rus qarnizonunun əsgərləri də qoruyurdular. Qarnizonun köməyinə Gəncədən polkovnik Karyaginin başçılığı altında 555 nəfər əsgər, iki top göndərilir. Yolda bu dəstə Abbas Mirzənin 10 minlik qoşunu tərəfindən dövrəyə alınır. Karyaginin əsgərləri özlərini itirməyərək, İranlılara qarşı döyüşə-döyüşə və yerli əhalinin bələdçiliyi ilə mühasirədən çıxa bilirlər.

Şuşa qalası ətrafında bütün həmlələri boşa çıxan və Karyaginin dəstəsini məğlub edə bilməyən Abbas Mirzə qoşunu çəkib, Gəncəyə tərəf yönəlir. Gəncə qalasını almaq da ona mümkün olmur. Buna görə də müdafiəsiz qalmış Tiflisə tərəf yürüyür. Lakin Karyaginin dəstəsi İranlılara çatır və onları pərən-pərən salır. Abbas Mirzə bu dəfə Qazaxdan keçərək İrəvana üz tutur. Abbas Mirzə hələ Qarabağa hücum etməmişdən qabaq Qazağa ultimatum göndərmişdi ki, İran qoşunlarına tabe olmadıqları təqdirdə, ailələri ilə birlikdə əsir alınacaqlar. Qazaxlılar Abbas Mirzənin bu hədəsinə əhəmiyyət vermədən öz mövqelərini möhkəmlədirlər. Şah qoşunları Qazağa daxil olduqda yerli əhali onlara bərk divan tutur. İranın saray tarixçilərindən biri qazaxlılar barədə belə yazırdı: "Qazax əhli İranlıların İrəvana tərəf yürüşünə mane olurdular. İrəvan düzənliyi başlananadək qazaxlılar, demək olar ki, hər fərsəx yolda pusqu düzəltmişdilər. Onlar hətta Abbas Mirzənin özünə də atəş açmışdılar".

Yaralanmış Abbas Mirzə İrana qayıtmağa məcbur olmuşdu.

Gəncə və Şəki xanlıqlarını özünə tabe etdikdən sonra Sisianov Şirvana tərəf yürüşə başladı. Bu müddətdə o, Qafqazın hər yerində "zəhmli knyaz" kimi şöhrət tapmışdı.

## SİSİANOVUN ÖLDÜRÜLMƏSİ

1806-cı ilin fevral ayı idi. Qış bərk keçsə də, qar artıq tamam ərimişdi. Ancaq havada hələ şaxta vardı. 200 nəfər süvari atlarından düşüb gözləyirdi. Hamının nəzərləri irəlidəki qədim qalanın darvazasına zillənmişdi. Hamıdan qabaqda durmuş adamın çiynindəki zər baftalı paqonlar tutqun havada uzaqdan diqqəti cəlb edirdi. Onun solğun sifəti, gözlərinin altına çökmüş dərin kölgələrdən bilmək olurdu ki, gecəni yatmayıb. Azca uzunsov sifəti qaramtıl bir rəng almışdı. O, Şamaxıdan çıxandan özünü pis hiss edirdi. Hətta elə vəziyyətdə idi ki, atın üstünə yaxın adamlarının köməyi ilə qalxa bilmişdi. Sonra da Şamaxı dağlarını keçərkən qar və yağış onu tamam taqətdən salmışdı. Böyük çətinliklə fevralın 30-da Bakıya çata bilmişdilər. Qoşun şəhərin iki verstliyində olan Naxır bulağında düşərgə salmışdı. Burada qoşundan 300 nəfər ayırıb, ondan qabaq Xəzər sahilinə

desant çıxarmış general-mayor Zavalişinə kömək göndərmiş və əmr etmişdi ki, şəhəri dəniz tərəfdən dövrəyə alsınlar. Özü isə 200 nəfər əsgərlə şəhər divarına yaxın su quyusunun yanında (Azərnəşrin keçmiş binasının yerində) qərar tutmuşdu. Bu, Qafqaz baş komandanı general Sisianov idi. Şamaxıda olarkən Mirzə Məhəmməd xan Saninin Bakıda olan qardaşı Əbdürrəhim ağa Hüseynqulu xanın zülmündən xilas olmaq üçün gizlin yolla onun yanına gəlmişdi. Sisianov onu yaxşı qəbul etmiş və Əbdürrəhim ağa onun bir sıra tapşırıqlarını fədakarlıqla yerinə yetirmişdi. Rus qoşununun ərzaq və yemlə təmin edilməsinə yaxından kömək etmişdi. Ailəsini düşmən Hüseynqulu xanın yanında qoyub Sisianova pənah gətirən Əbdürrəhim ağa barədə A. A. Bakıxanov belə yazırdı: "Mirzə Məhəmməd Saninin qardaşı Əbdürrəhim ağa Şirvana Sisianovun yanına gələrək, ona bəzi xidmətlər etmiş və Hüseynqulu xanın şəhərdə olan İran hərbi rəislərinə münasibətinə yaxşı bələd olduğundan Sisianovu dəfələrlə xəbərdar etmişdi ki, ehtiyatlı olsun. Sisianov isə ona xanın rəqibi kimi inanmaq istəməmişdi".

İndi də Bakının qalın divarları qarşısında durarkən, Əbdürrəhim ağanın xəbərdarlığını tamam unutmuşdu. O öz güçünə arxayın idi. Gəncə, Qarabağ, Şəki və Şamaxı şəhərlərini özunə tabe edəndən sonra Bakını tutmaq ona daha asan görünürdü. Xəstəlik və yorğunluq onu üzsə də, imperatorluq qarşısındakı xidmətlərindən razı bir tərzdə, bir az da qürurla durub, Bakı xanı Hüseynqulu xana yavəri Elizbar Eristov vasitəsilə məktub göndərmişdi. Məktubda imperatorluq adından təklif olunurdu ki, xan şəhəri təslim etsin. Cavab isə ləngiyirdi. Sisianov gözlərini şəhər darvazasından ayırmadan qalanın divarları arxasında baş verən hadisələri təsəvvür etməyə çalışırdı. O, bu hasarların o biri tərəfindəki hər şeyə bələd idi. Hələ 1796-cı ilin yazında II Yekaterinanın əmri ilə V. A. Zubovun qoşunları Bakını işğal etdiyi zaman Sisianov qalanın komendantı təyin edilmişdi. Doğrudur, bu çox az sürmüşdü. Çünki II Yekaterinanın ölümündən sonra onun yerinə keçən oğlu I Pavel qoşunları Qafqazdan geri çağırmışdı. Ancaq bu az müddətdə Sisianov Bakı şəhərinin bütün quruluşuna, adamlarının adət və ənənələrinə yaxından bələd olmuşdu. Şəhərdən dənizə açılan xoş mənzərə indiyədək gözlərinin qabağından çəkilmirdi. Xəzər sahillərinin işğalı o zaman imperatorluğa böyük xərclə başa gəlmişdi. Buna baxmayaraq, I Pavelin qoşunları geri çağırmasından Sisianov çox narazı qalmış və özlüyündə bunu imperatorun səhvi hesab etmişdi.

Birdən şəhər darvazası açıldı. Polkovnik Eristov atını çaparaq, içəridən çıxdı. Hüseynqulu xan cavab məktubunda göstərirdi ki, o komandanlığın tələbləri ilə razıdır və qalanı (bütün sərvəti, camaatı ilə birlikdə) təhvil verərək, rus təbəəliyini qəbul edir. Məktubda yazırdı: "Güman edirəm ki, çar 1796-cı ildə qoşunları Bakıda olarkən göstərdiyim xidməti nəzərə alaraq, məni xanlıqdan məhrum etməyəcəkdir". Sisianov Hüseynqulu xanın belə asanlıqla təslim

olmasından içərisində qürurdan daha çox bir lovğalıq hiss etdi və dərhal xana cavab məktubu göndərdi. Bu məktubda yazırdı ki, çar höküməti xanlığı onun sərəncamına ancaq aşağıdakı şərtlər əsasında verə bilər: 1. Din xanlıqda hamıdan ötrü azad olaraq qalır. 2. Xanlığı idarə etmək onun bütün nəslinə şayəstə edilir. Ancaq bu şərtlə ki, xanlığın idarə edilməsi mərhəmət və insanpərvərlik əsasında olsun. 3. Məhkəmə işləri hakimə həvalə olunsa da, cinayət işlərinə baxanda Bakı qarnizonu komendantı mütləq iştirak etməlidir. 4. Gömrük gəlirindən başqa bütün gəlirlər xanın sərəncamında qalır. 5. Zaqafqaziya ölkəsində ordunun ehtiyacı üçün duz və neft baş komandanlığın imzası ilə talonla pulsuz buraxılmalıdır. 6. Bakının ətrafında Bakı qarnizonunun yerləşdirilməsi üçün əlverişli mənzil ayrılmalıdır. 7. Xan bilavasitə baş komandanlığın təht-himayəsində olduğu üçün onun əmrlərinə sözsüz tabe olmalıdır. 8. Xan tərəfindən xəyanət hiss edildikdə dərhal hakimiyyətdən uzaqlaşdırılacaqdır.

Bunlardan başqa xanın qarşısında belə bir şərt də qoyulurdu: Xan Şərq adəti üzrə, and içməkdən əlavə öz oğlunu da, komandanlığın yanında girov qoymalıdır.

Sisianov qoşunlarının yaxınlaşıb, qalanı mühasirəyə alması şəhər əhalisi içərisində böyük təşvişə səbəb olmuşdu. Bəziləri köçünü yığışdırıb, Salyan darvazalarından təpələrə çəkilməyə hazırlaşırdı. Dəniz tərəfdən çıxmaq mümkün deyildi. Çünki general Zavalişinin gəmisi körfəzdə lövbər atıb durmuş və sahilə desant çıxarmışdı.

Bir azdan cavab əvəzinə xanın nümayəndəsi qaladan çıxıb, əlində gətirdiyi qala açarlarını və duz-çörəyi Sisianova təqdim etmək istəyir. General duz-çörəyi qəbul edir, açarları isə geri qaytararaq deyir:

- Mən istəyirəm ki, açarları Hüseynqulu xan şəxsən özü təqdim etsin.

Hüseynqulu xanın qaladan çıxması çox uzun çəkir. Sisianovun səbri tükənir və polkovnik Eristovu təzədən qalaya göndərmək istərkən şəhər darvazası açılır və Hüseynqulu xan öz yaxın adamları - İbrahim bəy, Qasım bəy, Ağakərim bəy, Seyid bəy və başqaları ilə birlikdə içəridən çıxırlar. Sisianov onları görən kimi polkovnik Eristovla birlikdə qoşundan qabağa çıxır. Onları təkcə bir kazak müşayiət edir. Hüseynqulu xan açarları Sisianova təqdim edərkən İbrahim bəy arxadan güllə ilə Sisianovu vurub öldürür. Xanin o biri adamları isə polkovnik Eristovu öldürürlər. Təkcə onları müşayiət edən kazak qaçıb aradan çıxa bilir. Sisianovun öldürülməsindən sonra qala divarlarının üstündən onun əsgərləri gülləyə tutulur, ölən ölür, ölməyən pərən-pərən düşür. Hüseynqulu xanın adamları aranın qarışmasından istifadə edərək, Sisianovun başını kəsərək, qalaya aparırlar. Sisianovun ölüm xəbərini eşidən Zavalişin isə desant qoşunlarını gəmiyə doldurub, Sara adasına tərəf istiqamət alır.

Ertəsi gün Hüseynqulu xanın əmri ilə Sisianovun başsız cəsədi qələbə rəmzi kimi şəhər darvazasından azca aralıda, divarın dibində dəfn edilir. Qəbir demək olar ki, ayaq altında tapdaq olur.

Sisianovun başı isə İrana, Fətəli şaha göndərilir. Əvəzində şah Bakı xanlığına bahalı hədiyyə göndərir.

Sisianovun qəbrinə ta 1811-ci ilədək dəyib-toxunan olmur. Yalnız həmin ilin axırında Qafqazın yeni baş komandanı Markiz Pauluççi Sisianovun sümüklərini Tiflisə apartdırıb Sion kilsəsində dəfn etdirir.

Sisianovun sümükləri Tiflisdə basdırıldığı zaman Bakı artıq Rusiya tərəfindən işğal edilmişdi.

Sisianovun ölümünü təsadüfi hadisə kimi qeyd etmək olmaz. Bakının ən axırıncı xanı hesab edilən Hüseynqulu xan özünün bütün hökmranlığı dövründə (1792-1806) Rusiyaya olan münasibətində heç zaman sabit qalmamışdı. Türkiyə, İran, Dərbənd tərəfindən gözlənilən daimi təhlükə onu Rusiya himayəsinə sığınmağa məcbur edirdisə, rus təbəliyini qəbul etdiyi tərzdə hakimiyyətini, müstəqilliyini itirə biləcəyindən qorxurdu. Buna görə də, həmişə Rusiya ilə İran arasında tərəddüd etmiş, gah bu tərəfə, gah o tərəfə meyl göstərmişdir. Onun siyasətindəki bu ikilik fəaliyyətin sonunadək davam etmişdi. Son dəfə də belə olmuşdu. Bir tərəfdən şəhərin təslim edilməsi barədə Sisianovla danışıqlar aparır, o biri tərəfdən İran hökuməti ilə gizli əlaqə saxlayırdı. Ruslarla bağladığı sazişlərə baxmayaraq, imkan düşən kimi ruslardan üz çevirirdi. Bəzi tarixçilərin yazdığına görə Sisianovun öldürülməsi ərəfəsində qalada İran şahı Fətəlinin iki casusu yaşayırmış. Onlar guya Fətəli şah tərəfindən göndərilibmiş ki, dənizdən qala divarları ətrafındakı xəndəklərə su çəkmək üçün kömək etsinlər. Əslində isə, Hüseynqulu xanın hərəkətlərinə göz qoyub, casusluq edirlərmiş. Hətta İbrahim bəyi Sisianovu öldürməyə təhrik edən də guya casuslar olub.

1846-cı ildə Bakının erməni varlılarından Tomas Eyvazov öz hesabına Sisianovun xatirəsinə abidə düzəltdirmişdi. Sisianovun öldürüldüyü yerdə (Azərnəşrin keçmiş binasının yerində) qoyulmuş bu abidə piramida şəklində olub, boz daşdan tikilmişdi; abidənin bir tərəfində bu sözlər yazılmışdı: "Abidə 1846-cı ildə knyaz Mixail Semyonoviç Vorontsovun canişinliyi dövründə qaldırılmışdır". O biri üzündə isə "Tomas Eyvazovun səyi və ianəsi ilə" qazılmışdı. Abidənin üstündə xəncər və tapança şəkli də rəsm edilmişdi. Tapançanın lüləsi və xəncərin ucu aşağıya əyilmiş vəziyyətdə idi.

Abidənin açılışında Qafqaz canişini Vorontsov da iştirak etmişdi. Abidə Azərbaycanda Sovet hakimiyyəti quruluşunun ilk illərinədək dururdu. Bakıda M. Ə. Sabirə heykəl qoyulduğu illərdə uçurulmuşdur.

A. A. Bakıxanov Hüseynqulu xanın atasının başına açdığı oyunları, atasının qanuni hüququnu tapdalamasını bildiyi halda onu cəsarətli bir xan kimi xarakterizə edirdi.

Sisianovun öldürülməsi çar hökümətini daha ciddi tədbirlər görməyə məcbur etdi. Çünki vaxtilə müəyyən siyasi məqsədlərlə əlaqədar Qafqaza canişin təyin edilmiş bu yüksək rütbəli məmurun, imperatorun tapşırıqlarını yerinə yetirmək üçün heç nədən çəkinməyən sadiq bir hərbçinin itirilməsi I Aleksandrın Qafqazdakı siyasətinə böyük zərbə idi. Təsadüfi deyildi ki, I Aleksandrın 1802-ci il 8 sentyabr tarixli fərmanı ilə ona verdiyi hüquqlar Sisianovun sələflərinə verilmiş hüquqlardan qat-qat üstün idi.

## BAKIXANOVLAR SÜLALƏSİ

Bakı xanlarının tarixi Mahmud Dərgahqulu bəylə başlayırsa, Bakıxanovlar sülaləsinin şöhrəti isə Mirzə Məhəmməd xan Sani ilə yüksəlmişdir. Bakı və Quba xanlıqlarının Rusiyaya yaxınlaşmasında onun böyük xidmətləri olub. 1824-cü ildə Qafqaz baş komandanı Yermolov Mirzə Məhəmməd Saninin bu xidmətlərini yüksək qiymətləndirərək, ona Quba əyalətində 7 para kənd bağışlamışdır. O kəndlər bunlardır: Rustov, Hacı Qaraqaşlı, Əmsar, Qaraqaşlı, Qarabağlı, Qulamlı və Şıxnəzərli. Bu torpaqlar onun xüsusi mülkiyyətinə daxil edilərək, xəzinənin hər cür vergilərindən azad edilmişdi. Mirzə Məhəmmədin qardaşı (onlar iki qardaş olublar) Əbdürrəhim ağanın da ruslara az xidməti olmamışdır. Sisianovun Bakıya səfəri ərəfəsində o ailəsini Bakıda təhlükə altında buraxıb, Şamaxıya generalın xidmətinə getmişdi. Mirzə Məhəmmədin 6 oğlundan altısı da atalarının yolu ilə gedərək, rus hərbi dairələrində xidmət etmişlər. Böyük oğlu Abbasqulu ağa Tiflisdə hərbi komandanlıq nəzdində tərcüməçi işləmişdir. Rus və hərbi şərq dillərini mükəmməl bilməsi, şərq tarixinə yaxından bələdliyi ona Qafqazın hərbi dairələrində böyük şöhrət qazandırmışdı. O bu xidmətində polkovnik dərəcəsinədək yüksələ bilmişdi. Abbasqulu ağanın anabir qardaşı Cəfərqulu ağa 19-cu əsrin ortalarında Qafqaz ordusunda döyüşən generallardan biri kimi tanınmışdı. 1867-ci ildə istefaya çıxaraq, Qubada atasından qalmış təsərrüfatı idarə etməklə məşğul olmuşdu. Cəfərqulu ağa 1826-1828-ci illər rus-İran müharibəsində göstərdiyi qəhrəmanlığa görə üçüncü dərəcəli Müqəddəs Anna ordeni ilə təltif olunmuşdu. Sonrakı vuruşmalarda da həmişə fərqlənmiş, orden və medallara layiq görülmüşdü. Mirzə Məhəmmədin ikinci arvadından olan övladlarından Qədir ağa rus ordusunda kapitan, Mustafa ağa isə general-mayor rütbələrində xidmət etmişlər. Mirzə Məhəmmədin nəvələrindən də çoxu atalarının yolu ilə getmişdilər. Cəfərqulu ağanın hər iki oğlu Həsən ağa ilə Əhməd ağa ömürlərinin sonunadək rus ordusunda xidmət etmişlər.

Abbasqulu ağanın oğlu olmamışdır. İki qızından biri Nisa Bəyim Cəfərqulu ağanın oğlu Həsən ağaya, o biri qızı Tuğra xanım isə Cəfərqulu ağanın kiçik oğlu Əhməd ağaya ərə getmişlər. Firidun bəy Köçərlinin yazdığına görə Tuğra xanım şer də yazmışdır. Hətta bu aşağıdakı iki misranı onun şerlərindən nümunə kimi göstərmişdir:

Tuğra xanımam, aləm ara çünki əzizəm,
Abbasqulu ağa qızı, Zəhraya kənizəm.

Nisa Bəyimin əri - Cəfərqulu ağanın oğlu Həsən ağa Bakıxanov Qafqaz ordusundakı xidmətlərinə görə çoxlu orden və medallara layiq görülmüşdü. Cəfərqulu ağanın kiçik oğlu Əhməd ağa da orduda qvardiya-polkovniki rütbəsi ilə xidmət etmişdir. Onların Nurcahan xanım adında bir bacıları da olub.

Bakıxanovlar çox maarifpərvər olub, ölkənin mədəni həyatı ilə həmişə maraqlanmışlar. Mirzə Məhəmməd xanın ən kiçik oğlu general-mayor Abdulla ağanın "Əkinçi" qəzetinin banisi Həsən bəy Zərdabi ilə olan məktublaşması buna sübutdur. Abdulla ağa və habelə onun qardaşı oğlu Əhməd ağa "Əkinçi" qəzetinin nəşrə başlamasına nəinki mənəvi, eyni zamanda maddi kömək də göstərmişlər. Ən çətin və ağır günlərdə onlar Həsən bəyin köməyinə çatmış, onu ruhlandırmağa çalışmışlar. Abdulla ağa Qubadan Həsən bəyə göndərdiyi 1875-ci il 19 iyun tarixli məktubunda yazırdı: "...Sizə başladığınız bu işdə müvəffəqiyyətlər diləyirəm. Doğrudur, ilk əvvəllər bəzi uğursuzluqlar olacaqdır. Bundan ötrü ruhdan düşməməli, həmişə olduğu kimi bu xeyirli işi davam etdirməlisiniz".

Abdulla ağa "Əkinçi" qəzetinin çapına icazə alınmasında yerli hakimiyyət orqanları vasitəsilə əlindən gələni etmişdi.

Bakıxanovlar böyük nəsil olmuşdur. Onların qol-budaqları bu gün də mövcuddur. Bakı kəndlərindən bir çoxunda Bakıxanovlar sülaləsinin nümayəndələrinə rast gəlmək mümkündür. Bakı şəhərində yaşayan Bakıxanovlar isə hazırda ölkəmizin mədəni həyatında böyük xidmətləri ilə tanınmış adamlardır.

## BAKI RUSİYANIN TƏRKİBİNDƏ

Sisianovun öldürülməsini Dağıstan feodalları sanki çoxdan gözləyirdilər. Yaranmış şəraitdən istifadə edərək, Qazıkumux və Avar xanları Azərbaycanın içərilərinə soxuldular. Surxay xan Kür sahillərinədək gəlib çıxdı. Lakin daha irəli gedə bilmədi. Rus qoşunlarının arxadan özlərini yetirə biləcəklərini düşünüb, geri dönməyə məcbur oldu. Başqa xanlar isə ehtiyat edib, Surxay xana qoşulmadılar. Onlar Şimali Qafqazdan çar qoşunlarının gec-tez yürüşə başlayacaqlarını bilirdilər. Baharın axırlarında İran şahı da Azərbaycana qoşun yeritdi. Qoşun Arazı adlayıb

birbaşa Qarabağ üzərinə hücuma keçdi. Bu vaxt Şuşa qalasında cəmi bir qarnizon rus əsgəri vardı. İbrahim xan (öz atlıları daxil olmaqla) belə bir qüvvə ilə İran qoşunlarının qarşısında dura bilməyəcəyini hiss eləyirdi. Tezliklə taxıl biçini də başlayacaqdı. Barlı-bərəkətli zəmilər İran atlılarının tapdağı altında qalmasın deyə, İbrahim xan tədbir görməyə başladı. Bu barədə Şuşa qarnizonu komandiri mayor Lisaneviçlə məsləhətləşdi:

- Deyirəm ki, İranlılar nə qədər ki, Şuşaya yaxınlaşmayıblar, bir tədbir görək.

Lisaneviç soyuqqanlıqla deyir:

- Qorunmaqdan başqa nə tədbir görə bilərik?

- Bəlkə onları qabaqlayıb, bəxşiş və ənam göndərək, yarı yoldan qaytaraq. Yoxsa, bütün zəmilər düşmən atlarının tapdağı olacaq.

Heç bir şey lazım deyil. Bizim qoşunlar tezliklə özlərini çatdıracaqlar - deyə Lisaneviç yenə eyni soyuqqanlıqla cavab verir.

Mayorun sözləri İbrahim xanı təmin etmir. Çünki qoşundan - köməyə gələcək rus saldatlarından hələ heç bir səs-səmir yox idi. İranlılar isə artıq qalaya yaxınlaşırdılar. Vəziyyəti belə gördükdə İbrahim xan öz ailəsi və yaxın adamları ilə qala yaxınlığında olan Xan bağına köçur. İbrahim xanın düşmənləri bundan istifadə edərək, xanın xəyanət yoluna düşdüyünü Lisaneviçə xəbər verirlər. Bu fitnəyə uyan mayor gecə bir dəstə əsgərlə İbrahim xanın yaşadığı yerə basqın edir və xanı ailəsi, yaxın adamları ilə birlikdə öldürtdürür. Bu xəbərdən ətraf xanlar bərk qəzəblənirlər. Hətta Şəki xanı yanındakı çar qarnizonunun əsgərlərini xanlıqdan qovur.

Yayın axırlarında Əsgəran qalası yanında çar qoşunları İranlıları geri oturdurlar. İran qoşunları geri çəkilərkən Qarabağdan, xüsusilə Şirvandan çoxlu əsir tutub aparırlar.

1806-cı ilin iyununda çar qoşunları General Qlazenapın başçılığı altında Şimali Qafqazdan çıxaraq Xəzər sahili ilə cənuba hərəkət etməyə başlayırlar. Bu qoşunun tərkibinə 1.400 nəfər piyada, bir bu qədər süvari və 9 top daxil idi. İyunun 22-də Dərbənd müqavimətsiz təslim olur.

Dərbənddə ikən Qlazenapı general Bulqakov əvəz edir. Çar qoşunu general Bulqakovun komandanlığı altında Dərbənddən Qubaya yola düşür. Quba xanlığı təslim olur. Şıxəli xan qaçır. Sonra Bulqakov Bakıya tərəf hərəkət edir. Avqustun təndir kimi şölə çəkən istisində yerimək çox çətin olur. Buna görə tez-tez düşərgə salıb, dincəlməyə məcbur olurlar. Axırıncı düşərgə dəniz sahilindən azca uzaqda, Beşbarmaq dağının ətəyində idi. Bulqakov şəhərə çatmamışdan qabaq buradan Bakı əhlinə bəyannamə ilə müraciət edir. Bəyannamədə göstərilirdi ki, əgər Bakı öz xoşu ilə təslim olarsa, heç kəsə zərər toxunmayacaq. Hüseynqulu xan ən yaxın adamı Kazım bəyin başçılığı altında Beşbarmağa Bulqakovun yanına elçi göndərir.

Elçilər Bulqakovun qabağına duz-çörəklə çıxır və bildirirlər ki, Bakı şəhəri təslim olmağa hazırdır.

Hüseynqulu xan çar qoşununun bu dəfəki səfərindən bərk qorxuya düşmüşdü. Güman edirdi ki, Sisianovun öldürülməsi üçün ondan dəhşətli intiqam alınacaqdır. Bulqakov elçilərlə xəbər göndərir ki, şəhər öz xoşu ilə təslim olarsa, heç kəsə toxunmayacaqdır. Hətta bu sözlərini möhkəmlətmək məqsədilə, öz oğlunu da elçilərlə birlikdə Bakıya göndərir.

Lakin şəhər əhli böyük həyəcan içində idi. İnanmırdılar ki, rus qoşunları Sisianovun öldürülməsini onlara elə-belə bağışlayacaqlar. Buna görə çoxu şəhəri tərk edir, yaxındakı təpələrin arxasında gizlənirdi. Bulqakovun oğlu şəhərə yaxınlaşanda belə bir mənzərənin şahidi olur: şəhər darvazalarından çıxan adamlar köçlü-külfətli şimal-qərb tərəfdəki dağlara çəkilirdilər. Gənc Bulqakovun onları sakitləşdirmək və geri döndərmək cəhdləri boşa çıxır. Hüseynqulu xan da qoşun hələ yaxınlaşmamışdan böyük bir köçlə - səkkiz arvadı, beş oğlu, 17 qızı ilə birlikdə gizlincə, dolamanc yolla Qubaya qaçır.

Qoşunun şəhərə daxil olması ilə yaranmış dincliyi görən şəhər əhli təpələrdən enməyə, ev-eşiklərinə qayıtmağa başlayırlar. Beləliklə, 1806-cı il sentyabr ayının 3-də Bakı tamamilə işğal olunur.

Bulqakov bir neçə müddət Bakı xanlarının qala darvazası yaxınlığındakı evlərində yaşayır. Bulqakovun yürüşü ərəfəsində başlamış bərk istilərlə əlaqədar bulaqların suyu azalmışdı. O biri tərəfdən bu bulaqların gözləri çoxdan arıdılmadığından axıdılan su şəhəri təmin etmirdi. Əhali bu sarıdan çox əziyyət çəkirdi. Qazılmış quyuların suyu isə dəniz suyu kimi şor və acı idi. Ordunu su ilə təmin etmək getdikcə çətinləşirdi. Əsgərlərin vəziyyəti də ağır idi. Şəhərdə əlverişli binalar olmadığından ordu dəniz sahilində düşərgə salmışdı. Şəhərin sahil divarından şərqə tərəf uzanan sahil boyu əsgər çadırları sıralanmışdı. Dənizin sərinliyi əsgərləri istidən qorusa da, su və hətta yanacaq cəhətdən korluq çəkirdilər. Xörək bişirmək üçün sahildən neçə verst uzaqda olan çöllərdən çırpı toplamaq lazım gəlirdi. İsti və susuzluq nəticəsində əsgərlər arasında xəstəlik yayılmışdı. Bundan qorxuya düşən Bulqakov şəhərdə bir qarnizon saxlayır, özü isə qoşun hissəsi ilə Qubaya yola düşür.

Bakı xanı Mirzə Məhəmməd xan Qubanın və Bakının alınmasında ruslara həmişə kömək etmişdi. Onun bu xidməti qarşısında çar hökuməti Qubanın və Bakının idarə edilməsini ona tapşırmışdı. Oğlu Abbasqulu ağa özünün "Gülüstani-İrəm" kitabında atasının xanlıq fəaliyyətindən çox az yazmışdı. Mirzə Məhəmməd xan özünün sadəliyi və ürəkaçıqlığı üzündən hakimiyyət uğrunda gedən vuruşmalarda həmişə məğlub olmuşdur. Qanuni xanlıq hüququnu onun əlindən almış olan Məhəmməd Qulu və Hüseynqulu xana qarşı mübarizədə acizlik göstərmişdir.

## BAKI KOMENDANTLIQ DÖVRÜNDƏ

Azərbaycan Rusiyanın tərkibinə keçəndən sonra xanlıqların əvəzinə əyalət və dairələr təşkil olundu və bu əyalətlərdə çarizmin hərbi-inzibati sistemi yaradıldı. Bu sistem komendant və idarə sistemi adlanırdı. Azərbaycanda altı əyalət: Bakı, Quba, Şəki, Şirvan, Qarabağ və Talış əyalətləri, Yelizavetpol və Car-Balakən dairələri, bunlardan başqa Qazax və Şəmşəddin distansiyaları təşkil olunmuşdu. Hər əyalətin başında komendant dururdu. Komendantlar Qafqazın baş komandanı tərəfindən etibarlı zabitlərdən təyin olunurdu. Komendant əyalətdə külli-ixtiyar sahibi idi. Onlar vəzifələrə məmurlar təyin edir, bəylərə torpaq sahəsi ayırır, lazım bildikləri zaman torpağı geri alır, vergilərin toplanması barədə sərəncamlar verirdi. Bakı komendantı neft və duz yataqlarını, balıq ovunu və s. iltizama (icarəyə) vermək hüququna da malik idi. Əyalətlər də öz növbəsində mahallara bölünür və onların başında naiblər dururdu. Komendantlar naibliyə çarizmə sadiq olan adamları təyin edirdilər. Kəndlərə kəndxudalar və yüzbaşılar cavabdeh idilər. Kəndxudalar öz yanlarında yasavul və onbaşılar saxlayırdılar. Vergi və mülkiyyətləri bölmək, onları vaxtlı-vaxtında yığmaq naiblərin vəzifəsi idi. Lakin adları çəkilən bu adamlar dövlətdən maaş almırdılar. Onlar toplanan vergilərdən ya müəyyən edilmiş miqdarda özlərinə pay götürür, ya da xidmətləri müqabilində komendantlar onlara torpaq və kəndli bağışlayırdılar.

1812-ci ildə Bakıda şəhər məhkəməsi (divan) yaradılır. Məhkəmənin sədri şəhərin komendantı idi. Məhkəmənin üzvlüyünə məmurlardan iki nəfər, şəhər əhlindən və bəylərdən də iki nəfər seçilirdi. Bəylərin, eləcə də əhalinin içindən məhkəməyə seçilənlər bir il işləyirdilər. Məhkəmənin iclaslarına bir nəfər molla da dəvət olunurdu. Ən ağır cinayətlərə hərbi orqanlardan təşkil edilmiş məhkəmə baxırdı. Bu zaman komendantın məhkəmədə iştirak etməyə ixtiyarı yox idi.

Hər əyalətdə ruhanilərin başında baş qazı dururdu. Qazıda mahal naibi kimi maaş əvəzinə 20 rəncbər mükafat alırdı. Baş qazı kəbin-talaq, vərəsəlik və s. bu kimi ailə məsələlərinə aid işlərlə məşğul olurdu. Ruhani məhkəmələri xalq içərisində böyük hörmət qazanmışdı. Bu ona görə idi ki, çar məmurları ən ağır və dolaşıq işləri ruhani məhkəməsinin ixtiyarına buraxırdılar.

Komendant sistemi dövründə də bəylər və keçmiş xanların adamları torpağı idarə etməkdə davam edirdilər. Xanlıqlar dövründə torpaqlar üç kateqoriyaya bölünürdü: xam torpaqlar, icma torpaqları və məskun torpaqlar. Keçmiş xanların külli miqdarda torpaqları çarizm xəzinəsinin ixtiyarına keçmişdi. Torpaqların böyük bir hissəsi isə feodalların əlində idi. Bunlar mülk, xalisə və tiyul torpaqdardan ibarət idi. Tyul torpaqlar vaxtı ilə xanlar tərəfindən bəylərə ömürlük verilmişdi. Hətta bu torpaqlar nəsildən-nəslə keçirdi. Lakin tiyul sahibi onu

başqasına satmaq hüququna malik deyildi. Lap əvvəllər tiyul torpaqlar Soyurqal adlanırdı. 18-ci əsrdə isə bu termin daha işlənmirdi. Torpağa yiyələnmənin başqa bir forması isə mülk idi. Tiyuldan fərqli olaraq, mülki satmaq və başqasına vermək də olardı. Bu, şəxsi mülkiyyətin daha mükəmməl forması idi. Mülk müxtəlif şəkildə olurdu. Onun bir forması "Xalisə" mülk idi. Xalisə mülklər vergilərdən azad olunurdu. Xam torpaqlar otlaq yerlərindən və meşələrdən ibarət idi. Bu torpaqlar ancaq xana məxsus idi. Xan bu torpaqları xüsusi şəxslərə müvəqqəti və ya da daimi istifadə üçün verirdi. İcma torpaqları isə kəndlilərin əlində idi. İcma bir ərazidə yaşayan kəndliləri birləşdirirdi. Bu sistem hələ xanlıq dövründə də vardı. Onlar feodal asılılığında olub, xan, komendantlıq dövründə isə bəylər tərəfindən təyin edilmiş kəndxudalar tərəfindən idarə olunurdu. Bəylər torpaqdan istifadə üçün kəndlilərdən vergi alırdı. Bunlardan başqa Vəqf torpaqlar da vardı. Belə torpaqlar, adətən, məscidlərə və sairə dini müəssisələrə aiddi. Vəqf torpaqların sahibləri hər cür imtiyazlardan istifadə edir və dövlət xəzinəsinə vergi verməkdən həmişəlik azad olunurdular. Məsələn, Bibiheybət məqbərəsi kimi... Kəndlilər iki cürdü: rəiyyət - torpağı olub bəydən asılı olan kəndlilər və ikincisi, torpaqdan və başqa kənd təsərrüfatı alətlərindən məhrum olan, ancaq günəmuzd işləyən rəncbərlər idi. Maaflar adlanan bir qrup adamlar da vardı ki, vergilərdən azad olsalar da xan və bəylərə hərbi xidmət etməyə borclu idilər. Xan tələb etdiyi zaman onun qoşunu sırasında vuruşmağa gəlməli idilər.

40-cı illərdə rus çarizmi bütün torpaqların xəzinənin hesabına keçirilməsi barədə tədbir hazırlamağa başlayır. Onlar deyirdilər ki, xanlıqlar dövründə bütün torpaqlar ayrı-ayrı adamların deyil, xanın əlində idi. Madam ki, xanlar yoxdur, demək, bütün torpaqlar xəzinəyə keçməlidir. Çar məmurları öz fikirlərini bununla əsaslandırdılar ki, Quran torpağa şəxsi mülkiyyəti inkar edir. Guya bütün torpaqlar Allahındır. Bu məqsədlə 1841-ci ildə imperatorun fərmanı çıxır. Bu fərmana görə bəylər kəndləri idarə etmək hüququndan məhrum edilirdilər. Bəylərə kəndlilərdən aldıqları vergi və töycü əvəzinə dövlət tərəfindən ömürlük pul mükafatı təyin olunurdu. Lakin bu vəziyyət çox davam etmir. İri torpaq sahibləri və məmurlar canişin Vorontsov qarşısında məsələ qaldırırlar ki, rus hökuməti ilə xidmətləri əvəzində onlara imtiyazlar verilsin. Rus hakimiyyəti özü də hiss edirdi ki, kəndliləri idarə etmək üçün yerli varlı siniflərə böyük ehtiyacı vardır. Kəndlilər rus idarə sisteminə pis baxırdılar. Onları daim tabelikdə saxlamaq üçün möhkəm bir arxa lazımdı. Məhz buna görə çarizm bəylərə güzəştə getməyə məcbur oldu. Rusiyada torpaq və kəndlilər mülkədarlar tərəfindən idarə olunduğu kimi çarizm Azərbaycanda da yerli əhali içərisində etibarlı bir arxaya dayanmalı idi.

1846-cı il dekabrın 6-da imperator xüsusi bir fərman verir. Bu fərman əsasında mülkədar və bəylərin ixtiyarında olan və əcdadları tərəfindən istifadə edilmiş bütün torpaqlar kəndlilərlə birlikdə daimi olaraq onların sərəncamına

verilirdi. Bir sözlə, Rusiyada təhkimçilik hüququnun ləğv edilməsindən 14 il qabaq Azərbaycanda təhkimçilik qayda-qanunu yaradılır.

Bütün torpaqların feodal və bəylərin ixtiyarına keçirilməsi Azərbaycanda və o cümlədən Bakı kəndliləri içərisində böyük narazılıq və təşvişə səbəb oldu. Bu narazılıq az qala qiyama çevriləcəkdi. Qorxuya düşən çarizm guya kəndlilərin də vəziyyətini yaxşılaşdırmaq üçün 1847-ci ilin 20 aprelində təzə bir qərar qəbul etdi. Bu qərara əsasən torpaq sahibi 15 yaşına çatmış hər bir kəndli üçün 5 desyatindən az olmayaraq torpaq ayırmalı idi. Bunun əvəzində isə kəndlilər torpaqdan götürəcəkləri məhsulun onda bir hissəsini sahibkar üçün ayırmalı idi. Sonralar, yəni 1870-ci ildə verilmiş təzə fərmana əsasən kəndlilərin xüsusi mükəlləfiyyətlərinin ölçüsü xeyli azaldılır. Əslində isə bu tədbirlərin heç biri kəndliləri dilənçi vəziyyətindən çıxara bilmir. Müəyyən edilmiş qaydaya əsasən kəndlilər mülkədardan hökümət vasitəsilə torpaq ala bilməzdilər. Səbəb onu göstərirdilər ki, guya kəndlilərin əksəriyyəti köçəri həyat keçirdiklərinə görə torpaq pulunu vaxtında verə bilməzlər. Halbuki Rusiyada və habelə Gürcüstanda kəndlilər üçün belə məhdudluq qoyulmurdu.

Çar höküməti Qafqazda komendant sistemini hərbi-xalq sistemi adlandırırdı. Əslində isə bu hərbi-inzibati bir sistem idi. Əyalətlərdə xalqın divan bəyləri, naiblər, kəndxudalar tərəfindən talan edilməsi və məhkumiyyət altında saxlanmaları üçün komendantlar hər cür şərait yaradırdılar. Çinovniklərin özbaşınalığı və bürokratizm həddini aşmışdı. Çar komendantların vəzifə və hüquqları barədə heç bir rəsmi təlimat verməmişdi. Yalnız 1828-ci ilin iyun ayında Tiflis qubernatoru komendantların ixtiyaratı barədə Şəki və Qarabağ xanlıqlarına göndərdiyi gizli təlimatda komendantların vəzifələrindən danışarkən göstərirdi ki, komendant idarəsinin birinci vəzifəsi təsərrüfat, məhkəmə, polis və xəfiyyə işləri ilə məşğul olmaqdır. Komendant xəzinənin gəlirini artırmaq üçün əlverişli vasitələr axtarmalı idi. Bu məsələyə çar hökuməti xüsusilə böyük əhəmiyyət verirdi. Xanlıqlar Rusiyanın tərkibinə daxil olduqca çar xəzinəsinin gəliri və xüsusi mülkiyyəti daha da artırdı. Rusiyanın əleyhinə çıxan bəy və xanların da torpaqları müsadirə edilərək, xəzinənin hesabına keçirilirdi. Təbii sərvətlərin istismarı üzərində komendant nəzarəti getdikcə artırdı. Bakıda və Şirvanda neft quyuları və duz yataqları ya komendantların özləri tərəfindən, ya da icarədarlar tərəfindən istismar olunurdu. Komendantlar Xəzər və Kür sahilindəki balıq vətəgələrini müvafiq məbləğə icarəyə verirdilər.

Torpaqların və kəndlilərin çarizmə rəğbət bəsləyən və rus çinovniklərinə yarınan feodallara verilməsi nəinki komendantlar tərəfindən, hətta rütbəli çar məmurları tərəfindən də həyata keçirilirdi. Xan və bəylər tərəfindən çarizmə qarşı düşmənçilik hiss edildikdə torpaqları dərhal xəzinənin xeyrinə müsadirə edilirdi. Yerli əhalinin və o cümlədən bəy və feodalların çarizmə sədaqətini yoxlamaq və

müntəzəm izləmək üçün komendantlar xəfiyyə işləri ilə də məşğul olurdular. Xüsusi çuğullar vasitəsilə əhalinin əhval-ruhiyyəsini öyrənməyə çalışırdılar.

Komendant idarəsinin özünün xüsusi ştatı vardı. Məsələn, 1824-cü ildə Bakı əyalət komendantlığı üçün aşağıdakı vəzifələr təsdiq edilmişdi: komendant, onun müavini, hərbi zabitlər, polismeyster və onun yerli əhalidən olan müavini, mülki çinovniklərdən bir nəfər katib, tərcüməçi, mirzə, atlı və piyada yasavullar.

Polis məmurları bəzən heç bir səbəb və əsas olmadan yerli əhalini sıxışdırır, onlardan öz xeyirlərinə olaraq qeyri-qanuni cərimələr alır, adamlara fiziki cəza verirdilər. Mütləqiyyətin müstəmləkəçilik siyasəti dərinləşdikcə, komendant (və bəylərin zülmü artdıqca əhali içərisində narazılıq çoxalırdı. 30-cu illərdə Bakıda və başqa şəhərlərdə müstəmləkəçiliyə qarşı kəndli çıxışları xeyli artmışdı. Çar siyasətinə qarşı ən böyük üsyan 1837-ci ildə Qubada olmuşdu. Burada kəndlilər yerli çar məmurlarına qarşı açıq üsyana qalxmışdılar.

Komendant sistemi özünü bütün Qafqazda biabır etmişdi. Hətta yüksək rütbəli çar məmurları özləri etiraf edirdilər ki, bu sistem özünü doğrultmur. Azərbaycanın iqtisadi tərəfdən mənimsənilməsi təşəbbüsləri heç bir nəticə vermirdi. Çünki bu təşəbbüslərin həyata keçirilməsinə tamahkar komendantlar açıqdan-açığa mane olurdular. Bu baxımdan komendant sistemi iqtisadi cəhətdən ümumiyyətlə çarizm üçün əlverişli deyildi, çünki gəlirin çox hissəsi xəzinəyə daxil olmaq əvəzinə komendant, hərbi xidmətçilər və iri torpaq sahibləri tərəfindən mənimsənilirdi. Rüşvətxorluq həddini aşmışdı.

1840-cı ilin 10 aprelində I Nikolayın təsdiqi ilə yeni bir reforma verildi. Bu reforma əsasında Zaqafqaziya ölkəsini idarə etmək üçün komendant sisteminin əvəzinə "Zaqafqaziya ölkəsinin işlərinə baxan idarə" yaradıldı. Reforma 1841-ci il yanvarın 1-dən həyata keçirilməyə başladı. Yeni reforma əsasında Zaqafqaziya iki hissəyə ayrıldı: Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayəti. Xəzər vilayətinə 7 qəza daxil olurdu: Şuşa, Nuxa, Lənkəran, Bakı, Şamaxı, Dərbənd və Quba. Gürcüstan-İmeretiya quberniyasının mərkəzi Tiflis, Xəzər vilayətinin mərkəzi isə Şamaxı şəhəri təsdiq edildi. Quba və Dərbənd qəzaları çarizmə qarşı vuruşan Dağıstanla həmsərhəd olduqları üçün ayrıca bir okruqda birləşmişdilər.

Dağlılarla müharibəni tez qurtarmaq və Zaqafqaziyada rus hakimiyyətini daha da möhkəmlətmək məqsədilə çar hökuməti Qafqazda rus inzibati idarəsini təkmilləşdirməyi qərara aldı. Qafqazda olan baş rəislik vəzifəsini ləğv edib, əvəzində 1844-cü ildə Qafqaz canişinliyi təsis etdi.

Qafqazda ilk canişin 63 yaşlı qraf M. S. Vorontsov oldu. O, I Nikolayın etimadını qazanmış sərkərdələrdəndi. Qafqazda bütün mülki və hərbi hakimiyyət onun əlində toplanmışdı. Canişin bilavasitə olaraq, çara tabe idi. Mərkəzi nazirliklərdən heç birinin onun işlərinə qarışmağa ixtiyarı yoxdu. Bütün məsələlər üzrə birbaşa çarın özünə müraciət edirdi.

Mülki və hərbi hakimiyyət sahəsində Vorontsovun böyük təcrübəsi vardı. O düz 40 il Sisianovun əlinin altında işləmişdi.

1845-ci ilin 25 martından Vorontsov öz vəzifəsinə başlayır. Etiraf etmək lazımdır ki, onun canişinliyi dövründə ölkədə mədəniyyətin inkişafı üçün əlverişli bir şərait yaradılmışdı. İmperiyanın ali məktəblərinə daxil olmaq üçün yerli əhalidən ötrü məktəblər məhz bu dövrdə təşkil olundu. Tiflisdə böyük kütləvi kitabxana açıldı, məktəblər yaradıldı. "Qafqaz" qəzeti və "Qafqaz kalendarı" çap olunmağa başladı. 1846-cı ildən çap olunmağa başlayan "Qafqaz" qəzetinin ilk redaktoru Konstantinov idi. Bunlardan əlavə Tiflisdə gözəl teatr binası tikildi. Araratın zirvəsinə çıxış da məhz bu illərdə olmuşdu. Xəzər dənizi ilə Qara dənizin səviyyələri, arasındakı fərq də Vorontsovun təşəbbüsü ilə hesablanmışdı. Romanovlar nəslindən şahzadə Aleksandr Nikolayeviç Qafqaza ilk dəfə məhz Vorontsovun canişinliyi zamanında gəlmişdi.

1846-cı ilin 14 dekabrında Vorontsovun əmrinə əsasən bütün Zaqafqaziya ölkəsi 4 quberniyaya bölündü: Tiflis, Qutayisi, Şamaxı və Dərbənd quberniyaları. Lakin bu bölgü heç bir prinsipə əsaslanmamışdı. Azərbaycan, Gürcüstan və Ermənistan torpaqlarını müvafiq quberniyalarda birləşdirmək əvəzinə onları daha da parçalamışdılar. Məsələn, Azərbaycan ərazisinin bəzi hissələri Tiflis, Yerevan və Dərbənd quberniyaları tərkibinə daxil edilmişdi.

1840-cı il reformasından sonra bütün idarələrdə işlər rus dilində aparılmağa başladı. Əvvəllər yerli əhalidən olan çinovniklər rus məmurları ilə əvəz olundu. Vergilər artdı.

Knyaz Vorontsovun dövründə də torpaqlar və kəndlər keçmiş xanların yaxın adamları tərəfindən idarə olunurdu. Böyük torpaq sahibləri olan bəylər bir qayda olaraq, şəhərdə yaşayırdılar. Kəndlərdə isə təsərrüfatı idarə edən darğalar və kəndxudalardı. Kəndli şəhərdə yaşayan bəyin ehtiyac duyduğu hər şeyi araba ilə və ya ulaq belində şəhərə daşıyırdı. Bəyin payını verəndən sonra yerdə qalan məhsulunu isə bazarda satırdı.

Bu illərdə İçərişəhərdəki bazar Şərq bazarlarından heç də geri qalmırdı. Bazar Cümə məscidinin yanından başlayaraq, Qız qalasınadək uzanırdı. Bu bazarın üstü örtülü olduğu üçün örtülü bazar adlanırdı. Örtülü bazarın bir qolu qoşa karvansaranın yanından Çuxur karvansarasına tərəf gedirdi. Varlı tacirlərin dükanları əsasən örtülü bazarda idi. Qız qalasının yanından başlayan ikinci bazar isə şimal qala qapısınadək uzanırdı. Burada taxtadan düzəldilmiş dükanlar yerin darısqallığından göbələk kimi sanki bir-birinin böyründə bitmişdilər. Bəziləri isə mallarını küçənin ortasında yerə sərərək, satırdı. Bu bazarlarda can dərmanı desən tapılardı. Adi paslı mıxdan tutmuş bahalı zər-baftayadək hər şey vardı. Aleksandr Düma Bakıda olarkən bu bazarda gəzmiş və bu barədə qeydlərini çap etdirmişdi. Düma Bakı bazarının təsvirini belə verir: "Burada hər bir şey bir-birinə qarışıb: bir

yanda toz-torpaq, bir yanda tarakanlar, o yanda çirkab içində sürünən uşaqlar, başqa bir tərəfdə isə mis qabda dəmlənən, buğlanan xörəklərin ətri ətrafa yayılır.

Bəli, Şərq belədir. Ətirli yeməklər, daş-qaş, çirkab, toz-torpaq hamısı bir-birinin yanında.

Biz bazara yollandıq. Orada bir alış-veriş gedirdi ki, gəl görəsən. İran bəzəkləri, türk məxmərləri, Qarabağ xalıları, Lənkəran balışları, gürcü tikmələri. Tiflis baftaları, nə bilim daha nələr. Hər şey adama "gəl, gəl" deyirdi. Hər şey adamı valeh edirdi. Dayanıb hər şeyə baxmaq istəyirsən".

Bakı bazarından Dümanın gözləri qamaşmışdı. Burada satılan ləl-cavahir, əlvan ipək parçalar və məxmərlər, şöhrəti dünyaya yayılmış Qarabağ və Şirvan xalıları, dəstəyi qızıl suyuna və gümüşə tutulmuş xəncərlər, o biri tərəfdən müştəri səsləyən satıcıların çığırtıları, minarədən müəzzinin günorta duasına çağıran qüssəli avazı bir-birinə qarışıb Dümanın xəyalında "Min bir gecə" əfsanələri kimi əlvan xəyallar doğurmuşdu. Bakı bazarında gözəlliklə çirkinlik doğrudan da bir yerdə idi. Belə bir yerdə satılan ən zərif incəsənət əsərləri fransız yazıçısını valeh etmişdi.

"Bizə "Min bir gecə" nağıllarında təsvir olunan piyalələr göstərdilər. Mən hələ qadınlar üçün baş örtüklərini, yalnız cənnət gözəllərinin - hurilərin taxa biləcəyi bel kəmərlərini demirəm. Bütün bunlar sadə alətlərlə - çəkic, biz və qayçı ilə gözəl sənətkarlar tərəfindən düzəldilmişdi. Əlbəttə, bu incəsənət nümunələrini Janize və Lemenyenin sexlərində hazırlanan məmulatla müqayisə etmək olmaz. Bununla belə burada gördüklərim nə qədər təzə və təkrarolunmazdır".

1884-cü ildə Bakıda olarkən İçərişəhərin küçələrini gəzmiş Skalkovski də şəhərin bazarlarında eyni mənzərəni görmüşdü. O, 1885-ci ildə Sankt-Peterburqda çap edilmiş "Yol qeydləri"ndə yazırdı: "Bakı bir neçə məhəllədən başqa tipik Şərq şəhəridir. O mənə Misirin ərəb məhəllələrini xatırlatdı. Bazarları da Şərq bazarları kimidir. Hədsiz-hesabsız xırda dükanlarda nəinki mal satılır, habelə müxtəlif dəmir, mis, dəri və şirniyyat məmulatı da hazırlanır. Bütün mallar göz qabağında, toz-torpaq içindədir. Dükanlar o qədər darısqaldır ki, bardaş qurub oturmuş tacir dükanın bütün sahəsini tutur. Bir sözlə, alver dükanın içində deyil, bayırda, qapının ağzında gedir".

Günorta namazının vaxtı çatdıqda, müəzzinin minarədən səsi eşidilən kimi dükanların çoxu bağlanır, bəziləri də satdıqları malları yerli-yerində qoyub şəhərin böyük məscidi hesab edilən Cümə məscidinə namaza gedirdilər.

O dövrdə bu kiçik şəhərdə 23-dən çox məscid vardı. Bunların içərisində ən məşhurları bunlardı: Cümə məscidi, Şah məscidi (bu Şirvanşahlar sarayının məscidi idi), Sınıq qala məscidi, Giley məscidi, Qasımbəy məscidi. Bu məscidlərdən başqa demək olar ki, hər məhəllədə təkyələr vardı ki, onlarda mərsiyə oxunardı. Mollalar və seyidlər məscidlərdən toplanan vəsaitin hesabına

dolanırdılar. Onların əksəriyyəti İrandan gəlmə idi. Mollalar məscidlərdən aldıqları puldan başqa ətrafda olan kiçik mədrəsələrdə uşaqlara dərs də deyirdilər. Şəhərdə yuxarı zümrədən sayılan bəylər komendantlıq yanında xüsusi hörmətdə idi. O zaman şəhərdə 25 bəy ailəsi yaşayırdı. Bunlardan çoxu keçmiş xanların yaxın adamları idi. Tiyul sahibi kimi ətraf kəndlərdə böyük torpaq sahibləri vardı. Şəhərdə yaşasalar da, əsas gəlirləri kəndlərdən idi.

Bu illərdə Bakıda olmuş alim və səyyahlar şəhərin nəinki iqtisadi və ictimai vəziyyəti ilə maraqlanmış, habelə əhalisi ilə də yaxından təmasda olaraq, onlarla ünsiyyət bağlayaraq, xasiyyət və təbiətlərini yaxından öyrənmişdilər. Hamı bir ağızdan bakılıların qonaqpərəst olduqlarını dönə-dönə qeyd etmişdilər.

V. L. Veliçko 1904-cü ildə S. Peterburqda çap edilmiş külliyyatının birinci cildində azərbaycanlıların həyat və xarakterinə aid geniş yer ayırmışdır. O yazırdı: "Azərbaycanlıların qanı, şübhəsiz ki, nəcib qandır. Onlar təbiətcə xeyirxah, cəsur, alicənab, ağıllı, əməyə, əxlaqi inkişafa müqtədir olublar.

Azərbaycanlıları tatar adlandırırlar, bu tamamilə səhvdir. ...Əsas mənşəyi etibarilə azərbaycanlılar türkdürlər, qədim oğuzların, səlcuqların... qan qohumudurlar...".

Daha sonra V.L. Veliçko Zaqafqaziyada müsəlmanlara (azərbaycanlılara - Q. İ.) qarşı münasibətdən söhbət açaraq yazırdı: "Tatarlar (azərbaycanlılar - Q. İ.) ağıllı idarə olunan qüvvəni başa düşür və onu qiymətləndirirlər. Təriqətçilərin səyi nəticəsində rus adı tatarların yerləşdikləri yerlərda həmişə uca tutulmuşdur. Tatarlar indi Zaqafqaziyada yerləşmiş ruslarla başqa qonşulardan daha yaxşı yola gedirlər, hətta ruslarla bir dindən olan gürcülər də bəzən müsəlmanlara nisbətən ruslarla pis yola gedirlər. Bu məhz ona görədir ki, müsəlmanlar təbiətən və tarixən aldıqları dərslərin nəticəsində ruslara qarşı xeyirxah olmuşlar. Lakin bizim hakimiyyətimiz dövründə azərbaycanlıların bəxti gətirməmişdir. Hətta canişin knyaz Vorontsov öz şəxsi görüşləri baxımından təhkimçilik olmayan yerdə təhkimçilik hüququnu bərqərar etmək və tatar qəbilə dvoryanlığını irəli çəkməklə səhvə yol vermişdir. Savadlı müsəlmanlar hər cür fanatizmə yaddırlar. Bununla belə mətbuatda, xüsusilə erməni və Avropa mətbuatında müsəlmanlara qarşı lazımi ədalətli münasibət yoxdur. Heç bir əsas olmadan onlara çatdırırlar ki, guya ögeydirlər. Məsələn, onlar nə səbəbə öz vətənlərində bütün hüquqlar cəhətdən şübhəli və bəzən saxta yollarla gəlmiş xristianlarla, məsələn, siyasi və ictimai cəhətdən o qədər də etibarlı olmayan ermənilərlə bir gözdə tutulmasınlar. Nəyin xatirinə Qafqaz mətbuatında müsəlmanların ən müqəddəs etiqadlarına istehza etməyə icazə verilir, ermənilərin fitnəkarlığını ifşa etmək isə çətin olur? "Tiflisski listok"da təxminən aşağıdakı məzmunda belə bir məqalə dərc edilmişdi: "Yelizavetpol quberniyasının harasında isə rusların məskənləşməsi üçün boş torpaqlar vardır. Əvvəllər bu torpaqda ermənilər yaşayırdılar. İndi isə müsəlmanlar

onları sıxışdırıb, aradan çıxarmış və özləri yaşayırlar. Bu torpaqlara rus kəndlilərini köçürmək olar". Bu məqalə başdan ayağa cəfəngiyat idi. Çünki rus təbəəsi olan müsəlmanların yaşadıqları torpağı boş torpaq adlandırmaq olmaz. Açıq görünür ki, məqalə... müsəlmanlara nifrət doğurmaq məqsədilə yazılmışdı".

Bu sözlər ona görə xarakterik və qiymətlidir ki, Qafqazda müsəlmanlara qarşı baş vermiş bu hadisələri Veliçko burada işlədiyi müddətdə öz gözləri ilə görmüş və yaxından duymuşdu.

Böyük fransız yazıçısı Aleksandr Düma da Bakıda və Azərbaycanda olduğu zaman azərbaycanlıların insanpərvərlik və xeyirxahlığını yaxından duymuşdu. O "Qafqaz səfəri" kitabında yazırdı: "Bu xalq (Azərbaycan xalqı - Q. İ.) vaxtı ilə müzəffər olmuş və indinin özündə də daxilən döyüşkən olaraq qalır... Azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etməyə ehtiyac yoxdur".

1856-cı ildə Bakıda olmuş məşhur rus yazıçısı A. F. Pisemski də azərbaycanlılar haqqında xoş sözlər yazmışdı: "Onlar (bakılılar - Q. İ.) Həştərxan tatarlarına oxşamadıqları halda mənə dedilər ki, tatardırlar. Dağlı, ləzgi xarakteri onların geyimlərində, bədən quruluşlarında və sifətlərinin nəcib hərbiçi cizgilərində ifadə olunurdu". A. Anisimovanın 1906-cı ildə çapdan çıxmış "Qafqaz" kitabında azərbaycanlılar barədə aşağıdakı sözləri oxuyuruq: "Bunlar (azərbaycanlılar - Q. İ.) öz əxlaq və adətləri ilə gürcülərdən fərqlənirlər... Çox müstəqil xalqdırlar. Hamının sifəti ciddidir. Öz ləyaqətlərini başa düşəndirlər. Bir-birlərinə hörmətlə yanaşırlar. Onlarda elə düzlük görərsən ki, buna heç yerdə rast gəlməzsən. Qonaqpərvərdirlər. Bir bağban, bostançı, bir əkinçi kimi Qafqaz əhalisinin hamısından üstündürlər. Çölü və bağı səylə işləyirlər".

Vaxtı ilə şəhərin ən hündür yerində tikilmiş və öz əzəməti ilə buraya gələn səyyahların diqqətini cəlb edən Şirvanşahlar sarayı artıq öz cah-cəlalını itirmişdi. Sarayın bəzi yerləri uçub tökülmüşdü. Bakı xanları sarayı bərpa etmək əvəzinə özləri üçün Şamaxı darvazası yaxınlığında imarət tikdirmişdilər.

Axırıncı dəfə bu imarətdə - xan sarayında Bakı xanı Hüseynqulu xan yaşamışdı. Xan sarayının məhz burada tikilməsi təsadüfi deyildi. Vaxtı ilə Xəzər dənizi şəhərin şərqində olan bu yerədək uzanırdı. İndiki Əziz Əliyev küçəsinin böyük bir hissəsi hələ də suyun altında idi. Su qalanın divarını yuyurdu. Beləliklə, xan sarayından birbaşa dənizə yol açmaq mümkündü. Bərk ayaqda həm su yolu və həm də quru ilə şəhərdən geri çəkilmək mümkündü. O zaman xan sarayı kompleksi yüzə yaxın otaqdan ibarət idi. Xana məxsus otaqlarla yanaşı xanın yaxın müqarribləri əmisi oğlu Əbdürrəhimbəy və qardaşı Mehdiqulu bəyin də otaqları bu kompleksə daxildi. İmarət iki mərtəbəli idi. Həyətin ortasında böyük bir bağ və bağın ortasında isə iri su hovuzu vardı. Komendantlıq dövründə şəhər komendantı və şəhərin başqa hakimləri bu binada yaşayırdılar.

18-ci əsrin əvvəllərində şəhərin maraqlı yerlərindən biri zorxana idi. 1796-cı ildə rus qoşunları ilə birlikdə Bakıda olmuş A. Araratski öz xatirələrində belə yazırdı: "Şəhərin küçələri ilə gəzişərkən birinci dəfə olaraq, şəhərin ehtiyac və yoxsulluğunu duydum. Sobaları qızdırmaq üçün odun və təzək çəki ilə satılırdı. Sonra şəhərin başqa bir binasından İran mahnısı eşitdim. Adamlar bir-birinin dalınca oraya girib-çıxırdılar. Maraqlanıb, soruşdum ki, ora nədir? Dedilər ki, zorxanadır. Oraya daxil olanda gördüm ki, hərə yaxınlaşıb, müxtəlif çəkilərdə olan daşları qaldırıb, musiqi təranələri altında yorulunca onları oynadırlar. Məni başa saldılar ki, bu əyləncə əzələlərin möhkəmlənməsinə, qanın təmizlənməsinə səbəb olur. O biri tərəfdən də hərə öz güçünü başqalarının yanında nümayiş etdirirdi. Bir saat burada qalıb küçəyə çıxanda soyuq küləkdən tüklərim ürpəşdi".

İçərişəhərdə hamar yer çox az idi. Bir-birinin böyrünə sığınmış evlərə, ensiz, darısqal küçələrə bir qayda olaraq, yoxuşla qalxmaq lazım gəlirdi. Torpağın qiyməti baha olduğu üçün evlərin demək olar ki, həyətləri yoxdu. "Jivopisnaya Rossiya" jurnalının "Xəzər gözəli" adlı məqaləsində yazılırdı: "Həyətlər və küçələr o qədər dar idi ki, atlı araba burada dönə bilməzdi. Bəzi evlərdə həyət yerli-dibli yoxdu. Yalnız zibil yeşiyi üçün ayrılmış kiçik bir yer vardı. Belə darısqallıq torpağın bahalığı ilə izah olunur. Şəhər idarəsi torpağı xüsusi adamlara satır və onlar da çalışırdılar ki, torpaqdan daha çox mənfəət götürsünlər. Buna görə də həyətə kiçik bir sahə ayırırdılar".

Çoxu ev tikərkən çalışırdı ki, küçə üçün ayrılmış sahədən də bir hissə qopartsın. Bunun nəticəsində küçələr daha da daralırdı. 1840-cı ildə Bakıda olmuş Berezin yazırdı: "Küçələr elə darısqal və dolaşıqdır ki, bir ay Bakıda yaşamağıma baxmayaraq, hər hansı bir küçəyə girərkən ondan necə çıxacağımı bilmirdim".

Berezindən on altı il sonra Bakıda olmuş görkəmli rus yazıçısı A.F. Pisemski də Bakı haqqında olan təəssürat dəftərində yazırdı: "Asiya şəhərlərində olmayan adam Bakı küçələrini təsəvvür edə bilməz... Bu pəncərəsiz divarların arası ilə ikilikdə gedirdik. Üçüncü adam olsaydı, küçəyə sığmazdıq. Başımızın üstündə ancaq bir parça səmanı, ayaqlarımızın altında isə peyin görürdük.

1887-ci ildə bir günlüyə Bakıya gəlmiş P.İ. Çaykovskiyə də şəhər kədərli bir təsir bağışlamışdı. Bakıya gəlmiş A.P. Çexov da şəhəri tez tərk etməyə çalışırdı. O şəhərin neft qoxuyan havasından, əlli dərəcəyə çatan istisindən, suyun şorluğundan, yaşıllığın olmamasından gileylənərək yazmışdı: "Mənə bir milyon da versələr burada yaşamağa razılaşmaram".

Şəhər su sarıdan əvvəlki kimi yenə də əziyyət çəkirdi. Evlərdə və bazarlarda natəmizlik artırdı. Əhalidən çoxu yağış suyunu yığıb istifadə edirdi. Yağışlar da az yağırdı. O biri, tərəfdən tozlu-torpaqlı xəzri küləklərinin tez-tez əsməsi nəticəsində əhali içərisində göz xəstəlikləri çoxalırdı.

İran hakimiyyəti altında qalmaq bakılılara az qala öz mənşələrini də unutdurmuşdu. XIX əsrin əvvəllərinədək çoxu bakılıları İranlılardan fərqləndirmirdi. Hamıya İranlı deyilirdi. İran hakimləri onların dillərini əllərindən almaq üçün ciddi tədbir görürdülər. Bütün fərmanlar və qanunlar ancaq fars dilində verilir, inzibati idarələrdə yazışmalar ancaq fars dilində aparılır, əhalidən ərizələr də fars dilində qəbul edilirdi. Yeri düşəndə azərbaycanca danışmaq da qadağan olunurdu. Xanlıq dövründə divanlarda işləmək üçün İranın başqa şəhərlərindən məmurlar dəvət olunurdu. Məişətdə işlənən adi əşyaların adları belə farsca idi. Məsələn: nəməkdan-duz qabı, xəkəndaz-torpaq götürən, dud-keş-tüstüçəkən və s. Bu təsiri daha əyani görmək üçün Bakı kəndlərinin adlarını çəkmək kifayətdir. Bir neçə kənddən başqa bütün kəndlərin adları fars dili tərkibi ilə düzəlmişdi. Balaxana, Novxana, Zirə və s. Bunu ancaq onunla izah etmək olar ki, Bakı əsrlər boyu öz daş çanağına sığınıb, Azərbaycanın başqa şəhər və kəndlərindən ayrı düşmüşdü.

"İrşad" qəzetinin 1906-cı il 8 iyun tarixli nömrəsində Bakı müsəlmanları barədə belə yazılırdı: "Bakı müsəlmanları İran nüfuzu altında o qədər olmuşlar ki, ləhcələri, paltarları da büsbütün İranlı kimi olmuş, mərasim və adətləri də başdan-ayağa İranlı mərasim və adətidir. Toylarında, yaslarında, sair ümumi məclislərində, ailələri içərisində İranlıca davranırlar".

Skalkovski 1885-ci ildə nəşr edilmiş "Yol qeydləri" kitabında yazırdı: "Bakı Zaqafqaziyanın başqa şəhərlərindən tamamilə fərqlənir. Bakıda aşağı təbəqədən olan qadınlara rast gəlmək olar ki, onları bizim sözlərimizlə gözəl adlandırmaq olar. Onların üz cizgiləri çox düzgündür. İri gözləri sürmədən daha da canlanır. Ancaq onların gözəlliyi yalnız üzlərindən ibarətdir. Qızlar 13-14 yaşlarında artıq öz gözəlliklərini hifz edə bilmirlər. 20 yaşlarında çox oturmaqdan və qapalı həyat sürməkdən kökəlməyə başlayırlar. Bu qadınların çox orijinal geyimləri vardır və bu geyimlər onların gözəl sifətlərinə çox yaraşır. Hər şeydən qabaq onların əsas qüsurlarını - köklüklərini gizlədir. Geyimləri olduqca qısa tumandan və bellərindən azca aşağı salınmış qara qoftadan ibarətdir. Bunu köynəyə oxşatmaq olmaz. Üstündən də muncuqla bəzədilmiş qoşa kəmər bağlayırlar. Ayaqlarına qalın corab və dabanlarının yarısını örtən qaba başmaq geyirlər ki, bu da onların geyiminə uyğun gəlir. Başlarında isə çoxlu örtük olur. Qırmızı yelənli ipək örpəkləri qatran kimi qara şivə saçlarına çox yaraşır. Örpəyin altından bez yaylıq bağlayırlar. Nəhayət, bunların da üstündən dabanlarınadək uzanan yüngül örtük-çadra salırlar ki, bununla da kişi görəndə üzlərini gizlədirlər. Onu da sezdik ki, üzünü qırış basmış yaşlı qadınlar sifətlərini cavan qızlara nisbətən daha çox gizlədirlər".

Bakıda ticarət şəhəri kimi çoxlu peşə sahibləri yaşayırdı. Ən çox yayılmış peşələr bunlardı: malakeş, rəngsaz, daşyonan, daşçıxaran, baqqal, bəzzaz, kababçı, dəmirçi, qırçı, başmaqçı, dərzi, keçəçi, zərgər, dabbağ, nalbənd, xalçaçı, boyaqçı,

saatsaz, papaqçı, minasaz, kənkan, dəllək, dulusçu, cümədar, şatır, çayçı, halvaçı, suçu, sərraf.

Bakının yerli adətlərindən biri də adamlara təxəllüs verməkdi. Bunu da çox zaman ona görə eləyirdilər ki, eyni adda olan adamları bir-birindən fərqləndirsinlər. Məsələn, o illərdə dəbdə olan təxəllüslər bunlardı: Şirdan Ağadadaş, Şeytan Bağır, Axmaq nəvəsi İsrafil, Pota Bəxşəli, Xır-xır Əzim, Hapış Məmmədəli, Palto Abasqulu, İt Abutalıb, Part-part nəvəsi Hüseynbala, Şombulum Ələkbər, Xingəl nəvəsi İsmayıl, Şır-şır Dadaş, Mırığ Ağabala, Hoppataran nəvəsi Məcid, Tazı Hənifə, Cühud Zeynəlabdin, Çəkçəki Süleyman, Malbaş Yusif, Naqqal Seyfulla, Zıqqı Nəcəf, Gəvəzə Nuru və sairə.

Ruslar Bakıya gələndən sonra yerli şəhər əhlinin dili ilə fars dili arasındakı fərqi görür, onların fars olmadığını başa düşür və Azərbaycan dilinin tatar dilinə daha çox oxşarlığına görə azərbaycanlıları tatar adlandırmağa başlayırlar. İstər I Pyotr dövründə, istərsə də ondan sonra tatar və çuvaşlar Bakıya göndərildikdə isə onlara məlum olur ki, Azərbaycan dili tatar dili deyildir və onların arasında xeyli fərq vardır. Buna görə yerli tatarları, yəni azərbaycanlıları əsl tatarlardan fərqləndirmək məqsədilə onları Qafqaz tatarları və bir az sonra isə türk tatarları çağırırlar. Bakılıların azərbaycanlı adlandırılması sonrakı illərə - XIX əsrin ortalarına aiddir. Məsələ burasında idi ki, o zaman müxtəlif xanlıq və sultanlıqlara bölünmüş Azərbaycan torpaqları da Azərbaycan adlandırılmırdı. Bütün rus tarixi sənədlərində bu yerlər ancaq xanlıqların adları ilə tanınırdı. Şirvan torpaqları, Muğan düzü, Xəzər sahili torpaqları və s. bu kimi adlarla vahid bir ölkənin əsl adı silinib aradan çıxmışdı. Xanlıqlar arasındakı daimi çarpışmalar da bunun üçün şərait yaradırdı. Xanlıqlar və ondan sonra ruslar tərəfindən vahid torpağın quberniyalara bölünməsi indiyədək aramızda qalmış yerliçilik kimi yoluxucu və təhlükəli bir xəstəliyin də yaranmasına səbəb olmuşdur.

Şimali Azərbaycan torpaqları İran şahları tərəfindən də Cənubi Azərbaycanın ayrılmaz bir hissəsi kimi qəbul edilmirdi. Ağa Məhəmməd şah Qacar Azərbaycan xanlıqlarına göndərdiyi bir fərmanında yazırdı: "İranın ali hakiminin bu fərmanı ondan ibarətdir ki, mənim artıq İranda şahlığa layiq görüldüyümü və Azərbaycanın bütün xan və hakimlərinin mənə tabe olduğunu və indi də düşmənlərimə cəza vermək üçün qoşunla bu tərəflərə gəldiyimi sizə bildirim və nəzərinizə çatdırım". Ağa Məhəmməd şah Qacar bu fərmanı Şamaxını tutduqdan sonra başqa xanlıqları qorxuya salmaq üçün göndərmişdi. Buradan görünür ki, Şimali Azərbaycan torpaqlarını "bu tərəflər" adlandırmaqla onu Azərbaycanın bir hissəsi kimi qəbul etmirdi. İran hakim dairələri ta 1918-ci ilədək belə təsəvvürdə idilər. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası elan edildikdə İran hakim dairələri etiraz edərək bildirdilər ki, sizin özünüzü Azərbaycan adlandırmağa ixtiyarınız yoxdur. Əsl Azərbaycan İran torpağıdır, siz

qafqazlısınız. Rus mənbələrində də Azərbaycan sözünə ilk dəfə Burnaşovun 1786-cı ildə yazdığı məktubunda rast gəlirik. Polkovnik S. D. Burnaşov Gürcüstan şahı II İraklinin yanında rus dövlətinin səfiri olmuşdu. O yazırdı: "Hazırki vəziyyətə görə Azərbaycan adlanan torpaqlar şimaldan Gürcüstandan, daha doğrusu, Kaxetiya və Kartli şahlığından, şərqdən isə Xəzər dənizi və Gilan əyalətindən başlayıb, qərbdən Türkiyəyə, cənubdan İraq vilayətinədək uzanır...".

Azərbaycan rus çarizmi tərəfindən istila ediləndən sonra Bakıda bütün inzibati orqanlarda, kontorlarda və rəsmi yazışmalarda rus dili dövlət dili kimi qəbul edildi. Ərizələr rus dilində yazılır, qanun və fərmanlar rus dilində verilirdi. Beləliklə, Azərbaycan dili yenə də inkişaf edə bilmədi. Əksinə rus dilindən bəzi sözlər jarqon şəklində gündəlik danışığa daxil oldu. Məsələn, Becid-bejit sözündən, birkes-bereqis sözündən, Atmaral-Admiral sözündən və sairə.

Beləliklə, Bakıda danışılan Azərbaycan dili xalq qaynaqlarından istifadə edilmədiyindən leksikon cəhətdən inkişaf etməmiş, zəngin çalarlardan məhrum və ifadəsiz bir dil olaraq qalmışdı. Yalnız 1905-ci il inqilabından sonra mətbuat və mədəniyyətin inkişafı ilə əlaqədar olaraq, xalqın zəngin dili ilə qaynaqlaşaraq, inkişaf etməyə başlamışdı.

O vaxtlar şəhər divarlarından xaricdə üç tikili vardı ki, bunları Bakı ilə əlaqəsiz təsəvvür etmək çətindi. Bunlar şəhərlə sanki bir kompleks təşkil edirdi. Hər üç tikili şəhərin tarixi ilə sıx bağlı idi.

Bunlardan biri Bibiheybətdir. Bu tikili Bakının 5-6 kilometrliyində, dəniz sahilindən təxminən yarım kilometr aralıdakı dağın döşündə, Şıx kəndində inşa edilmişdir. Rəvayətə görə, burada 800-ci ildə Bağdadda xəlifə Harun əl-Rəşid tərəfindən öldürülmüş yeddinci imam Musayi Kazımın qızı Hökümənin qəbri vardır. Guya Hökümə atasının ölümündən sonra təqib olunduğu üçün qaçıb, burada məskən salmışdır. Burada ölmüş və burada da dəfn edilmişdir. Hökümənin Heybət ədlı bir xidmətçisi varmış. O, Höküməni bibi çağırdığı üçün bura o zamandan Bibiheybət adını almışdır. Sonralar onun qəbri yanında məscid tikilmiş və bu yer şiələrin ibadət yerinə çevrilmişdir. Təkcə Bakıdan deyil, başqa yerlərdən də adamlar axışıb, buraya səcdəyə gəlirlərmiş. Bu məqbərəni şeyxlər idarə edirdilər. Şeyxlərin məqbərə ətrafında saldıqları məskən sonralar Şıx kəndi adlanmağa başlayır. Şeyxlər əsasən məqbərənin gəliri hesabına yaşayırdılar.

Burada bir-birinin böyründə tikilmiş iki məscid vardır. Birincisinin cənub divarında olan yazısından məlum olurdu ki, o 1302-ci ildə ustad Mahmud İbn Saad tərəfindən tikilmişdir. Məqbərənin sol tərəfindəki məscidi isə sonralar, XX əsrdə Bakı varlılarından Ələkbər Dadaşov tikdirmişdir. Dəniz yolu ilə buraya ziyarətə gələnlər qayıqları sahildəki körpünün yanında saxlayır və yoxuşla salınmış pillələrlə yuxarı qalxırdılar. Bakılılar Bibiheybət burnunu Qırxqız da adlandırırdılar. Qədim bir əfsanəyə görə vaxtı ilə burada qırx nəfər qız qeyb olub.

Guya o vaxtdan sakit havalarda onların ağlamasını eşitmək olur. Qayaların arası ilə süzülən su da deyilənə görə onların göz yaşlarıdır.

Bibiheybət məqbərəsini adamlar, xüsusilə qadınlar ildə iki-üç dəfə cümə axşamı və cümə günləri ziyarətə gələrdilər. O zaman Çəmbərə kəndinin yuxarısında Pirvönzəli deyilən iri bir daş parçası da varmış. Yerlilər bu daşı müqəddəs hesab etdiklərindən dəstə-dəstə, xüsusilə qadınlar, buraya gəlib onu ziyarət edir və sonra buradan təpənin yuxarısı ilə salınmış cığırla Bibiheybətə gedirdilər. Bibiheybətə nəzir aparan qadınların çoxu uşağı olmayan qadınlardı. Buraya gəlib gedəndən sonra doğurdularsa, ertəsi il məqbərəyə öz nəzirlərini gətirərdilər.

1877-ci ildə "Bakinski izvestiya" qəzeti özünün 77-ci nömrəsində Bibiheybəti ziyarətə gəlmiş bir nəfərin qeydlərini dərc etmişdir. Həmin qeydlərdə deyilir: "Hələ uzaqdan ətrafa səpələnmiş iri qaya parçaları arxasında gizlənən uzun minarə görünməyə başladı. Burada faytonumuz dayandı. İrəli getmək mümkün deyildi. Faytondan düşüb, daşların arası ilə aşağıya, dənizə tərəf enməyə başladıq. Burada Bibiheybət kəndi yerləşir. Cəmi 25 həyətdir. Kənddə 100 nəfərədək adam yaşayır. Kəndin qurtaracağında uçurum dəniz sahilində Bibiheybətin məscidi ucalır. Kəndin içərisinə gedən yolun hər iki tərəfinda üstü yazılı baş daşları ucalır. Alaqapının yanındakı qəbrin böyründə bir dərviş yerə dəsmal sərib, durmuşdu. Onun əlində təbərzin vardı, belindən isə kəşkül asılmışdı. Alaqapını bizə göstərib dedi: "Buyurun içəri". Daşdan səliqə ilə yonulmuş qapı tağ şəklində idi. Ucları tağa bağlanmış iki yoğun zəncir yerdən azca hündürdə dururdu. Zəncirə çoxlu əski-üskü bağlanmışdı. Dərviş bizi başa saldı ki, bibiyə gətirilən nəziri içəri apararkən, bu zəncirdən nişan asırlar. Nəziri verəndən sonra nişanı çıxarmalıdırlar. Dərvişin müşayiəti ilə qapıdan içəri keçdik. İçəridə də zəncirli tağ vardı. Qarşıda hasarla əhatə edilmiş meydançada kiçik bir məscid vardı. Məscidə qədər olan yol qəbirlərlə dolu idi. Məscid dörd künclü bir bina idi. Sivri günbəzi vardı. Cənub-şərq tərəfində minarə ucalırdı. Məscidin pəncərələri daş şəbəkələrdən düzəldilmişdi. Nəhayət məscidin kiçik qapısından içəri girdik. Yarım dairəvi bir tar məscidi iki yerə ayırırdı. Girən kimi sağ tərəfdə bibinin qəbri idi. Məscidin ikinci böyük hissəsi isə dua və namaz üçün idi. Qarşıdakı divarda kiçik bir qapı görünürdü. Bu qapıdan dövrə pillələrlə minarəyə qalxırdılar. Məscidin yerliyinə qırmızı xalı döşənmişdi. Məscidin tən ortasında daş bir sandıqça vardır. Deyilənə görə, bir xanın qəbir daşıdır. Meyidin sümükləri isə çoxdan Kərbəlaya aparılmışdı. Tağın arxasındakı ikinci hissə daha qaranlıqdı. Ora zəif bir şam işığı ilə işıqlanırdı. Alaqaranlıqda dörd künclü hündür bir yer görünürdü ki, onun da üstü qara parça ilə örtülü idi. Bu, bibinin qəbri idi.

Haqqında söhbət gedən daş sandıqca A. A. Bakıxanovun qardaşı general-leytenant Cəfərqulu ağanın qəbir sandıqçası imiş. Onun sümükləri Kərbəlada dəfn edilmişdi. Fətəli xanın qəbri isə məscidin həyətində idi.

Bibiheybət yuxarıda deyildiyi kimi, bakılıların və uzaqdan ziyarətə gəlmiş azərbaycanlıların ibadət yeri idi. Buranı ömürlük seçilmiş on şeyx idarə edirdi. Onların başçısı mütəvəlli adlanırdı. Tarixdən bizə məlum olan ilk mütəvəlli Şeyx Bünyad olmuşdur. Ondan sonra isə bu vəzifəyə onun övladları və nəvələri keçmişdir. Keçmiş əsrlərdən qalmış sənəd və fərmanlardan görünür ki, Şirvanşahlardan başlayaraq, (Səfəvilərədək bütün hakimlər Bibiheybət məqbərəsini həmişə himayə altında saxlamışlar. Bu fərmanlardan biri I Şah Təhmasib tərəfindən 1547-ci ildə verilmişdir. Bu fərmanda Abşeron yarımadasının cənub-şərqində, Bakı şəhəri yaxınlığında yerləşən Zığ kəndinin əmlak və sərvətinin keçmiş dövrlərdən etibarən Bibiheybət məqbərəsinə vəqf olunması təsdiq edilir və həmin fərmanların hələ də öz güçünü itirmədiyi təsdiq olunur. I Şah Abbasın 1607-ci ildə verdiyi fərmanda isə deyilirdi: "Zığ kəndinin sərvət və əmlakını, asitanə dərvişlərinin 1000 baş və Zığ kəndi rəiyyətlərinin 500 başdan ibarət qoyunlarının çobanbəyliyini, malibağ vergisini, pambıq əkininin, habelə asitanə dərvişlərinin Duldərədəki taxıl əkininin üşürünü və üç neft quyusunun vergisini məbləğli və məbləğsiz olaraq, keçmiş qayda üzrə adı çəkilən idarəyə bağışladıq, mərhəmət buyurduq". Başqa bir sənəd 1667-ci ildə şah Süleymanın verdiyi fərmandır. Bu fərmanda şah Şirvan vilayətinin bəylərbəyisi və Bakı hakiminin nəzərinə çatdırır ki, Bibiheybət məqbərəsinin mütəvəlli və dərvişlərinin vəqf yerlərinə və hüquqlarına təcavüz edilməsin".

Mərdəkan kəndində də Bibiheybət şıxlarının vəqf yerləri vardı. Bu yerlər Mərdəkandakı dairəvi qalanın ətrafındakı üzüm bağlarından ibarətdi. O vaxtdan burdakı girdə qala mərdəkanlılar tərəfindən Şıx qalası adlanır.

1845-ci ildə Bibiheybəti ziyarətə gələnlərdən biri də Xurşud Banu Natəvan idi. O uşağı olmadığı üçün əri Xasay bəy Usmiyevlə birlikdə buraya duaya gəlmişdi. 1858-ci ildə Natəvan ikinci dəfə Bakıya gələndə artıq iki uşağı vardı. Həmin ildə onlar Bakıda olan Aleksandr Düma ilə də görüşmüşdülər. A. Düma bu görüş səhnəsini çox geniş təsvir edir: "Səbirsizliklə gözlənildiyimiz, hörmətlə qəbul olunduğumuz bu məclisdə bizi görmək istəyən iki azərbaycanlı xanım və onlardan birinin - gənc xanımın əri də iştirak edirdi. Çadra örtmüş bu xanımlardan biri Qarabağın axırıncı xanı Mehdiqulu xanın arvadı, o biri isə qızı idi. Anaya qırx, qızına isə iyirmi yaş vermək olardı. Hər ikisi milli geyimdə idi. Qəşənglikdən daha çox bahalı olması ilə seçilən nazik paltarda cazibədar görünən gənc xanımın yanında iki uşağı da vardı. Anası kimi milli geyimdə olan üç-dörd yaşlı qız uşağı maraq dolu böyük qara gözlərini bizdən çəkmirdi. Beş-altı yaşlı oğlan uşağı isə

nənəsinin dizlərinə sıxılmış və sövq-təbii ilə əlini belindən asılan xəncərin üstünə qoymuşdu".

Natəvan bu görüşdə, görünür ki, şair olduğunu A. Dümadan gizlətmişdi. Belə olmasaydı, Düma onun şairliyi və şerləri barədə də mütləq yazardı.

Natəvanın ikinci dəfə əri ilə Bakıya gəlişindən məqsəd iki uşaq anası olduğu üçün Bibiheybət məscidinə öz borcunu vermək idi. Məscidi ziyarətdən sonra iki övlad anası olması münasibətilə o məscidin narahat daşlıq yolunun bir hissəsini öz hesabına sahmana saldırmışdı.

Beləliklə, Bibiheybət dərvişləri, Şıx kəndi əhalisi əsrlər boyu onlara vəqf edilmiş torpaqlardan istifadə etmiş və hər cür vergilərdən azad edilmişdilər. Bakı xanları da Bibiheybətə köməklərini heç zaman əsirgəməmişdilər.

Şəhər divarları xaricində ikinci belə bir tikili Əbu Səid Əbülxeyir məqbərəsidir. Bu məqbərə indi yoxdur, uçub-dağılmış və yerlə yeksan edilmişdir. Bu məqbərə təxminən indi Respublika Prokurorluğunun yerləşdiyi binanın yerində idi. O zamanlar bu yerdə bakılıların qəbiristanlığı idi. Bu məqbərə şəhər əhalisi içərisində o zamanlar Xəlifə dam və ya da Xəlifə damı adlanırdı. Əbu Səidin şəxsiyyəti barədə A. A. Bakıxanov yazırdı: "Əbu Səid Bakuvi yoxsul olmasına baxmayaraq, kəramətlə tanınmış və son dərəcə əliaçıq bir dərviş olmuşdur. Bakı şəhərinin xaricində bir soməədə oturub, ibadətlə məşğul idi. Azacıq olan mədaxili ilə yanına gələnləri qonaq edərdi. Sultanların fərmanı əsasında Şübani neft və əkin yerləri onun türbəsinin məsarifinə məxsusdu. Axırda bu ölkənin vəziyyətində əmələ gələn iğtişaş nəticəsində onun məscid və mehmanxanası xarab olub, qəbri və itaət etdiyi yer torpaq altında qalmışdır. Bu yerdə olan bir neçə ev "Xəlifə damı" adı ilə məşhurdur".

Əbu Səid öləndən sonra onun yaşadığı bu yer müqəddəs yer hesab olunmuşdur. Şahlar tərəfindən buraya mütəvəllilər təyin edilmiş və məqbərə üçün vəqf yerləri ayrılmışdır. Həmin məqbərə ilə əlaqədar fərmanları T. M. Musəvi özünün "Bakı tarixinə dair orta əsr sənədləri" kitabında geniş izah edir. Hələ 1491-ci ildə Şirvanşah Fərrux Yasar Abşerondakı bir sıra mülklərini Əbu Səid Əbülxeyrin məqbərəsinə vəqf etmişdir. Vəqfnamədə deyilirdi: "Bu xoş saatlı vaxtlarda xeyir-dua etmək məqsədilə öz xalis malım hesabına Şübani əkinəcəyini, oradakı qatı neft quyusu ilə birlikdə Şüvəlandakı beş üzüm bağı sahəsini və meşə yerini, habelə Bilgəhdəki üzüm bağı sahəsini satın alıb, abad edərək, Badkubə yaxınlığında dəfn olunan seçilmiş pəhrizkar rəhmətlik Şeyx Əbu Səidin müqəddəs məzarına şəriətə müvafiq qayda üzrə vəqf və açıqcasına dini mühafizəyə verdim".

Fərrux Yasardan sonra Bakıya gəlmiş başqa hakim və şahlar da məqbərəyə verilmiş həmin vəqf yerlərini təsdiq etmişlər. Məqbərənin mütəvəllisi Şeyx Zahid öldükdən sonra onun yerinə 1673-cü ildə Xəlifə Şeyx Məhəmməd təyin edilir. Buna əsasən də məqbərə ətrafındakı tikili "Xəlifə dam" adlandırılmışdır. Xəlifə

Şeyx Məhəmməd də öləndən sonra məqbərəni onun övladları idarə edirdilər. XIX əsrin əvvəllərinə doğru, Bakıxanovun yazdığına görə, bu tikili tamam uçub dağılmışdır.

Bakı qala şəhəri ilə əlaqədar üçüncü tikili şəhərdən çox uzaqda olsa da, Suraxana atəşgahıdır. Bu atəşgah, ya da atəşgadə XVIII əsrdə Hindistanın Moltanı vilayətindən olan tacirlər tərəfindən tikilmişdir. Yazılana görə, Suraxanada özbaşına yanan qazların olduğunu eşidən hindlilər Qanqa və İnqa sahillərindən axışıb buraya ibadətə gəlirdilər. Bakıya ticarətə gəlmiş hind tacirləri geri döndükdə Suraxana atəşgədələrinin tərifini yaydıqca buraya gələn zəvvarların sayı daha da artırdı. Bu əsrdə hind tacirləri Həştərxan şəhərində də özlərinin xüsusi ticarət məhəllələrini yaratmışdılar. Hətta XVII əsrin əvvəllərində hind tacirləri Həştərxanda daşdan örtülü bazar da tikmişdilər. Tarixçi S. Aşurbəylinin fikrincə, Suraxana atəşgahı atəşpərəstlərin qədim məbədi yerində salınmışdır. Guya Abşeron əhalisi İslam dinini qəbul etdikdən sonra bura hindlilərin müqəddəs yerinə çevrilmişdir. Müəllif hətta Suraxana sözünün də qədim Hindistanın sanskrit dilində təbərrük mənasında işlədilən "surakşam" sözündən alındığını qeyd edir. Əlbəttə, bu, ehtimaldır. Çünki Balaxana, Kürdəxana, Novxana kəndlərinin adlarından, göründüyü kimi, Suraxana adının da fars sözlərindən yarandığına şübhə ola bilməz.

Atəşgah beş künclü hasarla əhatə edilmişdi. Giriş qapısının üstündə ikinci mərtəbədə bir otaq vardı. Bu, balaxana adlanırdı. Bu otaqda qonaqlar qəbul edilirdi. Bu otaqdan içəri tərəfə, yəni həyətə 14 pilləli daş pilləkənlə enirdilər. Balaxanın dörd tərəfində daş borular vardı ki, bunlardan alov çıxırdı.

Həyətin tən ortasında məbəd yerləşirdi. Bu da dörd künclü günbəzli bir tikili idi. Məbəd həyətin səthindən azca hündur olduğu üçün oraya üç-dörd daş pillə ilə qalxırdılar. Məbədin dörd küncündə kvadrat şəklində borular vardı. Bunlardan alov çıxırdı. Həyətdə divar boyu 22 hücrə vardır ki, hamısının qapısı içəri açılırdı. Deyilənə görə bu hücrələr əvvəllər bir-birindən ayrı-ayrılıqda olan otaqlardı. Ancaq sonralar vahid bir hasarla birləşdirilmişdir. Hücrələr adama köhnə bir karvansaranı xatırladır. Həyətdə baş məbəddən başqa bir çox kiçik atəşgahlar da vardı. 1754-cü ildə Bakıda olmuş ingilis səyyahı Qonvey yazırdı ki, bu məbədlərdən ən böyüyündə hindlilər ibadətlə məşğuldular. Burada 40-50 nəfərədək yoxsul hindli vardı. 1780-ci ildə Reyneqqs Bakıda səfərdə olarkən Suraxana atəşgahını gəzmişdir. Onun yazdığına görə torpaqdan alov çıxan bu yerdə hindlilər - gebrlər və başqa yoxsul adamlar özlərinə kiçik daş evlər tikmişdilər. Bu mənzillərdə torpaq döşəmə qalın gillə şirələnmişdir ki, qaz bayıra çıxmasın. Od yandırmaq lazım gəldikdə mənzil sahibi gildə deşik açır və qazı yandıraraq, qazanı həmin deşiyin üstünə qoyur. O zaman qazdan həm də mənzili işıqlandırmaq üçün istifadə edirdilər. Bunun üçün deşiyə içərisi gillə şirələnmiş qamış trubalar qoyur və oradan çıxan qaz şam kimi yanırdı. Reyneqqsin yazdığına

görə o zamanlar burada Hindistandakı öz əyalətlərinin adı ilə adlandırılan moltanılar yaşayırdılar. Onlar bu mənzillərindən ötrü Bakı xanına hər il 50 tümən pul verirdilər. Hindlilər əsas etibarilə öz ölümlərinin yaxınlaşmasını gözləyən qocalar və özlərini dinə həsr etmiş gənclər idi. Burada onlar özlərini sınaqdan çıxarırdılar. Onlardan bəziləri on illər müddətində bir və yaxud hər iki qolunu qabağa uzatmış halda hərəkətsiz vəziyyətdə dururdular.

Suraxana atəşgahı Bakıda olmuş bütün səyyah və yazıçıların diqqətini həmişə cəlb etmişdir. Hətta ən qısa müddətə gəlmiş adamlar belə bu atəşgahı görməmiş Bakıdan getməzdilər.

1796-cı ildə Bakıda olmuş A. B. Araratski atəşgahı seyr edərkən hindlilərin sayı xeyli azalmışdı. Bununla belə, o, atəşgahın geniş təsvirini verə bilmişdir. "Artemi Araratskinin həyatı" kitabında oxuyuruq: "Bu yer şəhərdən azı 20 verst aralı olsa da, gecələr onun alovu həmişə görünur. Yanar torpaq Avşaran adlanan ada ilə üzbəüz olan bir kəndin yaxınlığındakı təpələrdən birinin üstündədir. Avşaranın qayalıq və dayaz yeri dənizçilər üçün tez-tez fəlakət yerinə çevrilirdi. Çünki onlar gecə vaxtı torpaqdan qalxan bu alova aldanaraq ona yaxınlaşır və fəlakətə uğrayırdılar. Yolboyu rast gəldiyimiz gölməçələrdə suyun üstündə neft görünürdü. Neft Bakının bütün ətrafında çıxarılır və şəhərin başlıca sənayesidir. Odlu yer, yaxud yanan torpaq uzunluğu azı yüz sajenə çatan divarla hörülmüşdür... Hasarın içərisində qədim zamanlarda atəşpərəstlər tərəfindən düzəldilmiş hücrəyə oxşar otaqlar vardır ki, kəndin adamları qış vaxtı bu otaqlara köçüb, baharadək burada qalırlar. Hər hücrənin ortasında çuxur qazılıb. Çörək və xörək bişirmək üçün içinə gildən qayrılmış təndir qoyurlar. Çörək və ya xörək bişirmək lazım gəldikdə təndirin dibindəki torpağı azca eşələyib, yandırırlar. Böyük alov əmələ gəlir. Təndir qızandan sonra xəmiri kiçik kömbə şəklində onun divarlarına yapışdırırlar. Və beləliklə çörək tez bir zamanda bişir. Xörək bişirəndə isə təndiri yandırıb, torpağın üstünə qazan qoyurlar. Alov lazım olmayanda onun üstünə bir az torpaq töküb söndürürlər. Hücrənin tavanında nəfəslik - deşik açılmışdır ki, buradan içəri həm işıq düşür, həm də ocağı yandıranda bacanı əvəz edir. Həmişə yanan yerin dövrəsi dörd sajen olar. Burada torpaq ağ gildən ibarətdir. Alov ondan sanki küləklə üfürülub çıxır. Alovun yalnız yuxarı hissəsi görünür, o torpağın rəngini qətiyyən dəyişmir. Bir sözlə, divar arasına alınmış yerin yanma təbiəti var. Burada da alov yuxarıda deyildiyi kimi yandırılıb söndürülür. Bundan əlavə, gilli yer kimi onda da çat və yarıqlar əmələ gəlir. Bu nazik yarıqlardan həmişə odlu hava çıxır. Yerlilər bizə danışdılar ki, əgər otaqda nəfəsliyi və qapını bağlayıb od yandırsan, otaq o dəqiqə partlaya bilər. Bunu əyani olaraq, bizə göstərdilər: hasarın içərisində dərinliyi 7 sajın olan bir quyu qazılmışd, içərisində azca suyu vardı. Quyunun ağzı lay daşla örtülmüşdü. Daşın ortasında bir arşın uzunluğunda deşik vardı. Deşiyi keçə ilə tutdular və uclarını daşa mıxladılar. Sonra azı bir pud

ağırlığında olan bir daşı onun üzərinə qoyub, yanan bir talaşanı keçənin altından quyuya tulladılar. Bərk gurultu eşidildi. Gurultu getdikcə şiddətləndi və bir-iki dəqiqə davam etdi. Sonra keçə parçalanıb, üstündəki daş hasarın o tərəfinə atıldı. Onların göstərişi ilə biz quyudan uzaqda təhlükəsiz bir yerdə durmuşduq. Bundan sonra orada oda sitayiş edən hindliləri bizə göstərərək, dedilər ki, onlar buraya gələrək, müqəddəs saydıqları bu oddan, yəni yuxarıda dediyimiz çatlaqlardan qalxan od nəfəsli havanı dərilərə doldurub, öz yerlərinə aparırlar. Orada dərini nazik bir şeylə deşir və deşiyə od yaxınlaşdırdıqda deşikdən nazik alov dili qalxmağa başlayır. Bununla da öz dini ayinlərini yerinə yetirirlər. Bunu isbat etmək üçün onlar bir dəriyə od nəfəsli havanı doldurub, iynə ilə deşdilər və yandırdılar. Dərinin gözlə sezilməyən deşiyindən nazik bir alov qalxmağa başladı. Və dəri boşalanadək yandı.

1770-ci ildə akademik Qmelin də atəşgahda olmuşdur. O yanar odlardan bəhs edərkən yazırdı ki, suraxanalılar burada odun üstündə xörək hazırlayırlar. Bundan başqa, əhəng yandırılmasında da oddan istifadə edirlər. Qədim gebrlərin nəslindən olan bəzi hindlilər burada özlərinə məskən salmışlar. Onlar burada daim yanan odların ətrafında daş ibadətgahlar tikiblər... İbadətgahlarda mehrablar vardır. Hazırkı zamanda ancaq bir ibadətgahdan istifadə edirlər. Mehrabın yanında iki fut hündürlüyündə boru vardır ki, onunla göy-qırmızı alov qalxır. İbadətgahın yanında yaşayış mənzilləri tikilmişdir.

Qmelinin orada olduğu vaxtlarda bu mənzillərdə skeletə oxşayan üç hindli yaşayırmış. Qmelinin çəkdiyi şəkildən görünürdü ki, bu tikililər hələ ümumi bir hasarla birləşməmişdi.

1803-cü ildə Suraxanada olmuş S. Bronevski daha maraqlı məlumatlar vermişdir. O yazırdı ki, o vaxtfar burada 63 nəfərədək adam toplaşmışdı. Bunlar 25 yaşından tutmuş 70 yaşınadək olan hindlilər idi. Onların hamısı başdan-ayağa çılpaq idilər. Ancaq qabaq hissələrini əski parçası ilə örtmüşdülər. Onların dediyinə görə 70 yaşlı qoca bir hindli 30 il imiş ki, əllərini qabağa uzadaraq, hərəkətsiz vəziyyətdə durub. Bir dəfə də olsun qollarını yanına salmayıb. Bunun nəticəsində qolları elə qurumuşdu ki, özü istəsəydi də onları yanına sala bilməzdi.

Başqa birisi sinəsinin dərisini kəsib, oraya qıfıl keçirmişdi. Qıfıl oradan asıla-asıla yarası qurumuşdu, Üçüncüsü isə boynunun hər iki tərəfindən dərisini sinəsinədək kəsərək, oraya məftil keçirmişdi. Məftil bəzi yerlərdə dərinin altında qalıb, örtülmüş, bəzi yerlərdə isə üzə çıxmışdı. Onlardan hər biri nəinki öz şəxsi günahlarından ötrü, hətta başqalarının da yerinə əzaba qatlaşırdılar.

1820-ci ildə fransız səfiri atəşgahda olmuş və sonralar Parisdə 1826-cı ildə çap etdirmiş kitabında öz xatirələrini yazmışdı. Kitabın bir yerində belə qeydə rast gəlirik. Bina (atəşgah - Q. İ.) dişli hasarla dövrəyə alınmışdı. İçəri atəşə sitayiş

edənlərin monastırı idi. Həyətin ortasında məbəd ucalır. Oraya üç-dörd pillə ilə qalxmaq lazımdır. Monastırın divarlarında iyirmiyədək hücrə vardır".

Onun yazdığına görə o zamanlar burada bir hissə hindli və bir hissə İran geberləri yaşayırdı".

Fransız səfirindən beş il sonra Suraxanada olmuş alman Eyxvald burada cəmi on iki nəfər hindli görmüşdü. Onun yazdığına görə elə bu qədər hindli də Bakıda yaşayırmış. Səyyah burada atəşə ibadət edənlərin gebr, ya da əsl hindli olmaları ilə maraqlanmış və belə nəticəyə gəlmişdi ki, sitayiş edənlər istər öz milliyyətləri və istərsə də dilləri etibarilə əsl hindlidirlər. Hətta məbədin şimal qapısı üstündə 1810-cu ildən bəri hind dilində yazının da olduğunu qeyd edirdi.

Başqa səyyah və tarixçilərin xatirələrində Suraxana atəşgahında parsların da yaşadığı göstərilir. 1842-ci ildə atəşgahda Kazan darülfününun professoru Berezin də olmuşdur. O öz qeydlərində atəşgahın təsvirinə daha geniş yer vermişdir. O yazırdı; "Həyətin şimal-qərb tərəfində dərin, susuz bir quyu vardır. Onun dövrəsinə ehtiyat üçün daşdan çəpər çəkilmişdir. Deyildiyinə görə çəpər çəkilməmişdən ev heyvanları buraya düşüb tələf olurmuşlar. Quyunun dibində cürbəcür rəngli alovlar oynaşır, kahada isə qaz görünür ki, daha güclüdür və bu qaz qırmızı rəngdə olur. Gecələr bu alov quyunun ağzından bayıra çıxır. Bu zaman daş çəpərin yanında durmaq qorxulu olur... Yanar odların yanından keçib, hindlilərin mənzilinə keçdim. Bu mənzilləri öyrənmək mənim buraya səfərimin əsas məqsədini təşkil edirdi. Mən burada bu abidlərin bizə məlum olmayan cəhətlərini öyrənməli idim ki, onlar İran atəşpərəstlərinin - gebrlərin nəslidir, ya da Qanqa sahilindən gəlmiş hindlilərdir? Artıq gec idi. Gecə yarı olardı. Buna görə elmi tədqiqatlarımı sabahadək təxirə salmalı oldum... Bir başqa giriş qapısının üstündə olan Balaxanaya yollandım... Bura olduqca rahat yer idi. Bütün həyət özünün sönməz alovları ilə, hücrələr buradan apaşkar görünürdü... Mürgü vururdum. Birdən həyətdə gördüyüm iyrənc bir kabus gözlərimdən yuxunu vurub çıxardı. Hücrələrdən birinin qapısı açıldı, ölüyə oxşar uca, arıq, iyrənc bir kabus ağır addımlarla müqəddəs oda yaxınlaşdı və çömbəlib oturaraq, qızınmağa başladı. Ən iyrənc cəhət orası idi ki, bu canlı məxluq həyətdə anadangəlmə lüt gəzirdi. Xeyli müddət ona baxdım... Ertəsi gün yuxudan oyandıqda hər şeydən qabaq həyətə baxdım. Kabus çəkilib getmişdi. Ətraf sakitlikdi. Hücrələrin qapıları örtülü idi.

Hücrələrin çoxunda adam yaşamırdı. Başqa hücrələrin isə qapıları açılmışdı. Hücrələrin hamısı içəri tərəfdən ağardılmışdı. Bayır tərəfdən də təmiz və səliqəli idilər... Qonşu otaqlardan birinə baxarkən, gecəki kabusu eyni lüt vəziyyətdə orada gördüm... Bu qoca çoxdan könüllü olaraq özünü axtalatdırmışdı".

Berezin dərin tədqiqatdan sonra belə nəticəyə gəlmişdi ki, Abşeron yarımadasında heç zaman gebr olmamışdır. Atəşgahdakıların hamısı hindlilərdir. Onların təlim etdikləri adət-ənənələr, bütə sitayiş etmələri, dilləri, nəhayət,

görkəmləri də bunu təsdiq edirdi. Atəşgahda yaşayan hindlilər gebrlərdən fərqli olaraq öz ölülərini yandırırdılar ki, bu da onların hindli olmalarını bir daha sübut edirdi. 1671-ci ildə Şamaxıda olmuş səyyah Krüys belə bir əhvalatı təsvir edirdi: "Varlı hindlilərdən biri Şamaxıda ölür. Qardaşı pul verib, xandan icazə alır ki, meyiti yandırsın. Bundan başqa o qul olan yaşlı xristian bir qadını pulla alır ki, qardaşının meyiti ilə birlikdə yandırsın. Zavallı qadın bundan xəbər tutan kimi çığırmağa başlayır. Lakin buna əhəmiyyət verməyərək, onu şəhərdən kənarda yandırılmış tonqala qoyub, meyitlə birlikdə yandırırlar. Meyitlər tamam yanıb, qurtarandan sonra brahmanlar külü yığıb, çaya səpələyirlər. Bu hadisə 1671-ci ilin 16 yanvarında baş vermişdi. Həmin ilin 1 martında isə başqa bir hindlinin cəsədini yandırmaq lazım gəlir. Bu zaman gənc bir qız könüllü olaraq, özünün meyitlə birlikdə yandırılmasına icazə verir.

Gebrlər isə ta qədim zamanlardan öz ölülərini yandırmazdılar. Onların fikrincə, ölü murdar olduğu üçün onu yandırmaq olmaz.

Tarixdə çox zaman gebrləri hindlilərlə ona görə dolaşıq salıblar ki, onların hər ikisi odu müqəddəs sanıb, ona səcdə ediblər. Gebrlər əslən İranlılardır. İslam dinini qəbul etməzdən qabaq hamı atəşpərəst olublar. Lakin sonralar ərəb hakimiyyətinin təzyiqi altında atəşpərəstlik - Zərdüşt dini aradan qalxır. Atəşpərəstlikdən əl çəkmək istəməyənlər isə təqib olunurlar. Onlardan bir hissəsi, yəni parslar gebr adı altında 15-ci əsrdə Hindistana köçürlər. Gebr - kafir deməkdi. Bombey şəhəri yaxınlığında indiyədək yüz minədək gebr-pars yaşayır. Belə bir ehtimal da vardır ki, Hindistandan Suraxanaya odlara səcdə etməyə gələnlərin əksəriyyəti keçmiş pars atəşpərəstlərinin nəslidir. Lakin səyyahların qeydlərindən görünür ki, onların içərisində elələri varmış ki, hind dilindən başqa heç bir dildə danışa bilmirlərmiş. Hər halda bu bir həqiqətdir ki, burada hindlilərlə yanaşı gebrlər də yanar odlara səcdə edirlərmiş.

Qmelinin yazdığından görünür ki, Suraxanada hindlilərin sayı getdikcə azalırmış. O yazırdı ki, burada hindlilərdən cəmi üç nəfər qalmışdır. 1856-cı ildə rus yazıçısı A. F. Pisemski də Suraxana atəşgahında olmuşdur. Bu zaman hindlilər ona öz rəqslərini nümayiş etdirmişlər. Pisemski yazırdı ki, hindli zahidlərin rəngləri sapsarı, arıq və ayaqyalın idilər. Onlardan biri artıq bir neçə il idi ki, saçlarını daramamağı əhd etmişdi. Belə halda onun başının nə olduğunu təsəvvür etmək çətin deyildi.

Suraxana atəşgahının ən geniş təsvirini 1858-ci ildə Bakıda olmuş Aleksandr Düma vermişdir. O bir yazıçı kimi burada gördüklərinin hamısını təfərrüatı ilə verməyə çalışmışdı. Yazıçının "Qafqaz səfəri" kitabında oxuyuruq: "Biz indi atəşpərəstlərin müqəddəs məbədinə-atəşgaha gedirik. İki saat yol gedəndən sonra (yolun birinci hissəsi dəniz sahilindən keçirdi) bir təpənin başına çatdıq. Oradan bütün atəşgah, onun odu-alovu ovuc içi kimi aydın görünürdü.

Yüzlərcə əyri-üyrü deşikdən alov qucaq-qucaq havaya püskürür, külək onu parçalayır, o yan-bu yana səpələyir, yerə sərir, göyə qaldırırdı. Ancaq bununla belə onu söndürə bilmirdi. Orada böyük dördkünc bir bina görünürdü. Bina da alovla işıqlandırılmışdı. İşıq divarlara düşdükcə titrəyir və adama elə gəlirdi ki, bina özü də hərəkət edir. Əhənglə ağardılmış bina içərisində qaz alovlanan buxarılarla əhatə olunmuşdur. Qaz elə gur yanırdı ki, buxarıların hər biri adama nəhəng qaz borularını xatırladırdı. Buxarıların arxasında isə günbəz ucalırdı. Günbəzin hər dörd küncündə gur alov şölə saçırdı. Lakin bu alov şərqə tərəf baxan qapının yanındakı alovdan zəif idi.

Qərb tərəfdən gəldiyimizə görə şərq tərəfdəki yeganə qapıdan içəri girmək üçün ibadətgahın başına fırlanmalı olduq. Qarşımızda qeyri-adi və çox gözəl bir mənzərə açıldı. Deyirdilər ki, buralar yalnız bayram vaxtı belə çıraqban olur. Sən demə bizim gəlişimiz barədə onlara xəbər verilmiş, iki min ildən artıq təqiblərə məruz qalmış atəşpərəstlərin bu yazıq nümayəndələri də əmrə müntəzir duraraq, əllərindən gələni etmişdilər.

Məndən sonra atəşpərəstləri görmək istəyən həmvətənlərim tələsməlidirlər. Çünki ibadətgahda yalnız bir qoca və otuz-otuz beş yaşlı iki cavan adamdan başqa atəşpərəst qalmayıb. Cavanlardan biri Hindistandan altı ay əvvəl gəlmişdi. Deməli ona qədər atəşgahda ibadət edən ikicə nəfərmiş. Biz tamamilə alova bürünmüş qapıdan həyətə girdik. Böyük dördkünc həyətin ortasında günbəzli səcdəgah ucalır, səcdəgahın tən ortasında əbədi alov şölələnir. Günbəzin hər dörd küncündə yerin altından qaz alovu püskürür. Səcdəgaha çatmaq üçün beş-altı pillə qalxmaq lazım gəlir. Çöl divarı boyu tikilmiş iyirmiyə qədər hücrənin hamısı içəri açılırdı. Onlar zərdüştlüyə hazırlaşan tələbələr üçün inşa edilmişdir. Hücrələrdən birinin divarında taxça düzəldilib və ona iki büt qoyulub.

Atəşpərəstlərdən biri kahin paltarını geyindi. Başqa birisi demək olar ki, tamamilə çılpaq əyninə köynək kimi bir şey keçirdi. Və ibadət başlandı. İbadət səslərin qeyri-adi şəkildə dəyişməsindən, dörd-beş xromatik qamma notundan artıq olmayan so və mi arasında təkrarlanan və tez-tez Brahmanın adı çəkilən nəğmədən ibarət idi. Hərdən kahin üzüstə yerə yıxılanda, digər atəşpərəst əlində tutduğu sincləri bir-birinə vururdu. Hündürdən cingiltili bir səs çıxırdı.

Mərasim qurtaranda kahin hərəmizə bir parça nabat uzatdı, biz də əvəzində hərəmiz ona bir manat verdik".

III Aleksandrın arvadı Mariya Fyodorovna öz uşaqları ilə birlikdə 1888-ci ildə burada tamaşaya gələrkən atəşgahda cəmi üç nəfər hindli varmış.

XIX əsrin hələ qırxıncı illərində burada olmuş Koxun yazdığına görə atəşgahın hücrələrində 14 nəfərədək hindli yaşayıb. "İndi isə, - deyə yazırdı, - onlardan ancaq üç nəfər qalıb. Biri öz qarşısına məqsəd qoyub ki, ömrünün axırınadək qıc vəziyyətdə yaşasın".

Kox orada olarkən, həmin hindli artıq on altı ilmiş ki, belə yaşayırmış.

1888-ci ilin axırlarına doğru Suraxana atəşgahında artıq bir nəfər də hindli qalmamışdı. Onların axırıncı nümayəndələri knyaz Baratinskinin Qafqazda canişin olduğu vaxt qırılmışdı. Əhvalat belə olmuşdu. Bir gün dağlardan hücum çəkib gələn qaçaq dəstəsi hindlilərdə qızıl axtarmaq məqsədilə onların hamısını qırırlar. Ondan sonra atəşgah səcdəgah kimi öz əhəmiyyətini itirir. 1898-ci ildə B. Brandt da bunu təsdiq edir. O yazırdı: "Suraxanada olan atəşgah indi bomboşdur. Çünki rus höküməti burada ibadət etməyi qadağan etmişdir".

Atəşgahda axırıncı alovlar 1902-ci ilin 6 yanvarında söndürulür. Bundan bir az sonra atəşgah yaxınlığında Mirzəyev - Benkendorfun Bakı Neft Şirkəti mədənində ilk qaz fantanı vurur. 1903-1904-cü illər-də daha 15 quyu qazılır və Suraxanadan Balaxanaya, daha sonra Ramana və Qara şəhərə qaz kəmərləri çəkilir. Burada sutkada 500 min kubmetr qaz çıxarılırdı. Getdikcə qaz çıxarılması daha da artırdı.

Suraxana kəndinin şimal-şərqində qayalıqlar vardır. O zamanlar qayalıqların arasından da qaz çıxırdı. Suraxanalılar burada əhəng yandırardılar. Bakıda olmuş Kempfer əhəngin yandırılmasını təsvir etmişdir. Onun yazdığına görə, yerli əhali ətrafdan əhəng daşını toplayaraq, qayalıqların yarğanı üstündə bir-birinin üstünə düzür və onları əhəng olanadək üç gün yandırırdılar. O zaman Suraxana Bakıda əhəng yandırılan yeganə yer idi. Sonra hazır əhəng Bakıya, buradan da gəmilərlə başqa yerlərə göndərilirdi. Əhəng inşaat materialı kimi çox əhəmiyyətli idi. Komendantlıq dövründə əhəngdən gələn gəliri nəzərə alaraq, şəhər komendantı burada əhəng bişirmək üçün xüsusi saldatlar ayırmışdı. Onlar ancaq bu işlə məşğul olurdular.

Bakıya səyahətə gəlmiş adamlar üçün şəhərin daha iki görməli yeri vardı. Bunlardan biri Bayıl yaxınlığında suyun altından çıxan qaz sahəsi, o biri isə "Qurd darvazası" ("Volçi vorot") idi. Hər iki yer həmişə şəhərin qonaqlarına göstərilirdi. Bayıl burnu yaxınlığında dəniz səthinin kiçik bir kibrit odu ilə alovlanıb yanması, gözəl bir mənzərə təşkil edirdi. Bakıda olmuş hər bir adam bu səhnədən böyük təəssüratla ayrılırdı. Təkcə Aleksandr Dümanın qeydləri buna gözəl sübutdur. Bakıda olarkən onu hörmət əlaməti olaraq, qayıqda Bayıl burnuna aparmış və dənizin yanan səthini ona göstərmişdilər. Bu barədə yazıçı özü belə yazırdı: "...Bizi gözləyən qayıqlara minib Bayıl burnuna yollandıq. Sakit və zil qaranlıq bir gecə idi. Dəniz astaca ləpələnirdi. Bu, küləyin yenidən başlayacağından və görəcəyimiz mənzərənin daha təsirli olacağından xəbər verirdi. Lakin biz tələsməli idik. Külək güclənsə, möcüzəni görmək imkanını əldən verərdik. Su qaynayan yeri axtarmağa başladılar və oranı tapmaq çox da çətin olmadı. Neft və mazutun iyi elə bil bizə yol göstərirdi. Tezliklə dənizçilərdən biri dedi:

Kapitan, elə buradır. Çatmışıq.

Lap yaxşı. Məharətini göstər. Dənizçi hər əlinə bir ovuc lif alıb, yoldaşlarından birinin hazır tutduğu fanarla yandırdı və gəminin hər iki tərəfinə atdı. O saat ətrafımızda 250 metrə qədər məsafəni alov bürüdü. Buradan keçən nabələd bir adam kağızla papiros yandırsa, yanan kağızı dənizə atması ilə dəniz dərhal alovlanar. Onun qorxudan düşdüyü halı gözlərimin önünə gətirirəm. Biz alovun içərisi ilə irəliləyirdik. Xoşbəxtlikdən alov zəif idi. Onun istiliyini zorla hiss edirdik. Bizi çulğalayan həyəcan azaldıqdan sonra bu qəribə mənzərəni daha diqqətlə müşahidə edə bildik. Dəniz talacıqlar şəklində yanırdı. Bu talacıqların bəzisi ətrafında on iki nəfər otura biləcək dəyirmi stol boyda, o birilər isə nohur boyda idi. Biz talacıqların yanından ötüb keçirdik. Lakin avarçəkənlər kapitanın əmri ilə hərdən bizi bu alov nohurunun içərisi ilə aparırdılar. Məncə, bu maraqlı və sehrli mənzərəyə dünyanın heç bir yerində rast gəlmək mümkün deyil. Küləyin və ləpələrin get-gedə gücləndiyini duymasaydıq, bəlkə də bütün gecəni burada keçirə bilərdik. Külək gücləndikcə əvvəlcə xırda alov talacıqları, sonra isə böyüklər sönməyə başladı...".

Aleksandr Dümadan başqa bir çox səyyahlar da Bakıda olarkən bu mənzərənin füsunkarlığından dönə-dönə danışmışlar.

Səyyahlar üçün Bakının ikinci maraqlı bir yeri "Qurd darvazası" ("Volçi vorot") adlandırılan yerdir. "Qurd darvazası" o zamankı Bakının 5 kilometrliyində yerləşirdi. Buranın "Qurd darvazası" adlandırılması təsadüfi deyildi. İndiki Alatavanın üstündə dərəyə gedən sıldırım yoxuşun başlanğıcında o zaman iri bir qaya varmış. Müttəsil əsən xəzri külləkləri bu qayanın içərisini sovurub, kiçik bir ovuq açmışdı. Bu ovuq aşağıda uzanan vadiliyə baxırdı. Ovuq o qədər kiçikmiş ki, oradan ancaq canavar keçə bilərmiş. Buna görə də xalq içərisində onun adı "Qurd darvazası" qalır. İndi bu qaya yoxdur. Onu uçurub, sıldırım enişin sinəsindən üzü aşağı yol salmışlar. "Qurd darvazası" indi Qaradağ rayonun başlandığını göstərən lövhənin vurulduğu yerdə imiş. Aleksandr Düma 1858-ci ildə bu yeri belə təsvir edirdi: "Qurd darvazası"na gəldikdə isə deməliyəm ki, bu başqa aləmdir. Bu qəribə kaha Bakıdan 5 kilometr aralıda bir qayanın döşündə yerləşir. Etna vulkanının xarabazara çevirdiyi Siciliya çökəkliyinə çox oxşayan bir dərəyə baxır. Təkcə Etna ətrafa yayılan lavaları ilə bu qəmgin, ürəksıxıcı mənzərəni andıra bilər: boz və çılpaq torpaq, durğun su gölməçələri, iki dağ arasında vadi, uçurum, heç bir bitki izi görünməyən yerlər. Budur "Qurd darvazası"nın başından görünən mənzərə".

* * *

Bakı Şamaxı quberniyasının qəza mərkəzinə çevrildikdən sonra şəhərdə inzibati idarələrin sayı gündən-günə artmağa başladı. Qala divarları içərisində gözəl binalar ucaldı. Lakin şəhərin sahəsi yeni binaların tikilişi üçün çox darısqal idi. Buna görə alçaq, yastı-yapalaq evlər sahiblərindən çox ucuz qiymətə alınıb,

sökülür, əvəzində inzibati idarələrin binaları ucalırdı. Evsiz-eşiksiz qalmış adamlara qala divarlarından xaricdə yaşamaq təklif olunurdu.

Hələ 1839-cu ildə Sahil küçəsində açılmış gömrükxana üçün xüsusi taxta körpü quruldu. Bu, gömrükxananın binası ilə üzbəüz idi. Gömrükxanadan dövlət xəzinəsinə böyük gəlir daxil olurdu. İranla ticarət əlaqələri genişləndikcə xəzinənin gəliri də artırdı. Gömrükxana təşkil olunduğu ilk illərdə İran tacirləri gömrükxana haqqının çoxluğundan narazı qaldıqları üçün mallarını Bakıya çox zaman gizli yollarla gətirirdilər.

Bakı gömrükxanasının heyəti gömrükxananın işlər müdirindən, üzvlərindən, nəzarətçi və katibdən ibarət idi. Bakıda eyni zamanda karantin idarəsi də yaranmışdı. Bu müəssisə təxminən indiki Qoqol küçəsi ilə Həzi Aslanov küçəsinin kəsişdiyi yerdə yerləşirdi. 1847-ci ildə isə karantin ləğv olundu, daha doğrusu, gömrükxana ilə birləşdi.

Şəhərdə qəza məhkəməsi vardı. Burada şəhər əhlindən Hacı Süleyman Məşədi Qurbanəli oğlu, kənd əhlindən isə praporşik Həsənbəy Səlimxanov iclasçı idilər. Qəza rəisinin nəzdində bir sıra inzibati idarələr vardı ki, bunlar şəhərin müxtəlif yerlərində yerləşmişdilər. Şəhərdə birinci sima qalabəyi hesab edilirdi. Qəza prokuroru da onun nəzdində idi. Bunlardan başqa qəza hakiminin yanında qəza həkimi, qəza xəzinədarı və qəza yerölçəni vardı. Xüsusi pristavlar şəhərin duz mədənlərinə nəzarət edirdilər. Suraxana və Balaxana neft quyularına nəzarət edən pristavlar isə ayrıca idi.

## İÇƏRİ ŞƏHƏRDƏN BAYIR ŞƏHƏRƏ

Əhalinin artımı nəticəsində şəhər böyüməyə və qala divarlarından xaricə çıxmağa başlamışdı. Hökümət şəhərdən kənara, qala divarları ətrafındakı forştatda torpaqları satmağa başladı. Torpaq ucuz satıldığı üçün çoxları çalışırdı ki, bir parça torpaq sahəsi alıb, özünə ev-eşik tiksin. Əgər əvvəllər qala divarlarından xaricdə cəmi bir neçə tikili vardısa, indi bir-birinin böyründə tikilmiş palçıq binaların sayı gündən-günə artırdı. Əhalinin bəzi qismi isə qala divarlarından xaricdə yaşamağa çəkinirdi. Çünki kənardan hücum və basqın edilərsə, qorunmağa və daldalanmağa heç bir istehkam yoxdu. Buna görə çoxları İçərişəhərin darısqal, rütubətli daxmalarında yaşamağı daha üstün tuturdular. Xüsusilə varlı təbəqələr qala divarları ilə qorunan həyət-bacasını tərk edib, sərvətlərini təhlükə altında buraxmaq istəmirdilər. Bütün qala divarları boyu qoyulmuş çuqun toplar və əsgərlər tərəfindən qorunan möhkəm darvazalar onların dinc həyatı və sərbəst ticarətləri üçün möhkəm təminat verirdi. Hava qaralanda isə darvazalardakı taxta körpülər qaldırılır və dəmir üzlü qapılar möhkəm bağlanır və şəhər şirin yuxuya gedirdi.

1820-ci ildə Bakıda olmuş fransız səyyahı Qamba qala divarlarından xaricdə salınmış tikililərin başlıca olaraq, palçıq evlərdən ibarət olduğunu qeyd edirdi. Evləri hərə öz bildiyi kimi tikmişdi. Şəhərin yenidən qurulması, onun inkişafı üçün, hələlik heç bir layihə yoxdu. Sonralar şəhər salmaq barədə layihələr tutulmuşdusa da, onların həyata keçirilməsi ləngiyirdi. Rus çarizmi İran tərəfindən hələ də təhlükə gözləndiyindən bu işə möhkəm girişmirdi. 1826-cı ildə Hüseynqulu xanın Bakı üzərinə hücumu və şəhəri iki aya qədər mühasirədə saxlaması rus çarizminin bu ehtimalını doğrultdu.

Azərbaycan xanlıqlarının bəzi hakimləri keçmiş xanlıqlarını geri qaytarmaq niyyətilə İrana qaçaraq, Fətəli şaha pənah aparmışdılar. Rusiya ilə İran arasında bağlanmış Gülüstan müqaviləsindən Rusiyanın rəqibi olan İngiltərə də bərk narazı qalmışdı. O İranı təzədən Rusiyaya qarşı müharibəyə təhrik etmək üçün 1814-cü ildə İranla Rusiyaya qarşı çevrilmiş bir müqavilə bağladı. İran ordusunu möhkəmlətmək məqsədilə İngiltərə öz zabitlərini İrana göndərməyə başladı. İranı hər cür silahlarla təchiz etdi. İran hökuməti Rusiya ilə müharibəyə başlamaq üçün bəhanə axtarırdı. Nəhayət, İngiltərənin təhriki ilə Talış xanlığını və Muğanı geri qaytarmağı Rusiyadan tələb etdi. Rus imperatoru bu tələbi rədd edərək, bildirmişdi ki, "Zaqafqaziya vilayətlərini biz müharibə ilə almamışıq. Bu vilayətlərin əhalisi özləri bizimlə birləşməyi xahiş etmişdilər. Onların arzusunu yerinə yetirməmək və onları sizin əlinizə vermək ədalətsizlik olardı".

Fətəli şah İrana qaçmış keçmiş Azərbaycan xanlarının köməyi ilə Azərbaycanın əyalət və qəzalarında üsyanlar törətməyə də böyük səy göstərirdi. Bu məqsədlə Azərbaycan vilayətlərinə gizli casuslar göndərirdi ki, müharibə başladıqda rusların üzərinə arxadan zərbə endirsin. 1825-ci ildə Peterburqda dekabristlər üsyanının başlandığını eşidən kimi Fətəli şah Rusiyaya qarşı müharibəyə hazırlaşmağa başladı. İraqın müsəlman ruhaniləri ruslara qarşı fitva elan etdilər. Nəhayət, 1826-cı ilin 16 iyulunda İranın 60 minlik qoşunu vəliəhd Abbas Mirzənin başçılığı altında Şimali Azərbaycana basqın etdi. Qoşunla birlikdə Azərbaycanın keçmiş xanları da öz silahlı qoşunları ilə hücuma keçmişdilər. Hüseynqulu xan da ispanların və ingilislərin köməyi ilə üç min qoşun toplayıb, Bakı üzərinə yeridi. Şəhər divarlarını mühasirəyə alıb gözlədi. Bu zaman Bakını cəmi bir batalyon rus əsgəri qoruyurdu. Batalyon komandiri şəhər əhalisi içərisində satqın ola biləcəyindən ehtiyat edərək, əhalini ucdantutma şəhərdən kənara çıxardı və öz əsgərləri ilə qala divarları üstündə möhkəm mövqe tutdu. Həmin günlərdə dəniz vasitəsilə onun köməyinə iki rota əsgər göndərildi. Hüseynqulu xan qalaya bir neçə dəfə həmlə etsə də, heç bir nəticə vermədi. Qarnizon onların həmlələrini hər dəfə bacarıqla dəf edirdi. Şəhərin qala divarları və qapıları möhkəm müdafiə olunurdu. Qalanın sirlərinə yaxşı bələd olan Hüseynqulu xan başqa vasitəyə əl atdı. O ətraf təpələrdən şəhərə axıdılan su kəmərinin qabağını kəsmək fikrinə düşdü.

Güman edirdi ki, qaladakıları ancaq susuz qoymaq yolu ilə özünə təslim etdirə biləcəkdir. Qoşun yeri qazıb, su kəmərinin istiqamətini dəyişməyə çalışdı. Lakin Hüseynqulu xan bununla da öz məqsədinə nail ola bilmədi. Sentyabrın 3-də İran qoşunlarının Şamxor ətrafında məğlubiyyəti və Gəncə döyüşlərində Abbas Mirzənin qoşunlarının darmadağın edilməsi vəziyyəti tamamilə dəyişdi. Hüseynqulu xan rus qarnizonunun köməyinə gələ biləcək yeni qüvvələr tərəfindən mühasirəyə alınacağını düşünüb öz qoşunlarını tez geri çəkməyə başladı. Beləliklə, Hüseynqulu xanın son ümidi də puça çıxdı. Və bu onun Bakıya axırıncı gəlişi oldu. Geri çəkilən İranlıları Təbrizə qədər təqib etdilər. İran təslim olmaq məcburiyyəti qarşısında qaldı. 1828-ci ilin 10 fevralında Təbriz yaxınlığındakı kiçik Türkmənçay kəndində Rusiya ilə İran arasında məşum Türkmənçay müqaviləsi bağlandı. Müqavilənin bağlanmasında A.S. Qriboyedov bir diplomat, A. A. Bakıxanov isə tərcüməçi kimi iştirak edirdi. General Paskeviçlə Abbas Mirzə arasında gedən danışıqlarda ruslar tələb edirdilər ki, Azərbaycan bütövlüklə, yəni şimal hissəsi ilə birlikdə cənub hissəsi də Rusiyaya birləşdirilsin. Bunu xüsusilə tələb edən A.S. Qriboyedov idi. O, Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların öz hökümətlərindən narazı olduqlarını əsas tutaraq, Təbriz, Marağa, Xoy və Urmiyə xanlıqlarının Şimali Azərbaycanla birlikdə Rusiyanın himayəsinə keçməsini vacib və ədalətli hesab edirdi. Heç şübhə yoxdur ki, bu danışıqlarda tərcüməçi kimi iştirak edən A. A. Bakıxanovun Qriboyedova böyük təsiri olmuşdu. Lakin danışıqlar zamanı Qriboyedovu müdafiə edən və ona tərəfdar çıxan olmadı. Rusiyanın xarici işlər naziri də bu təklifin tərəfdarı deyildi. Rus höküməti Türkiyə ilə yeni müharibə gözlədiyindən İranla danışıqları uzatmayıb, tez qurtarmağa çalışırdı. 1828-ci ilin 10 fevralında Türkmənçay müqaviləsi imzalandı və beləliklə, bütöv bir ölkə, vahid bir xalq ədalətsizcəsinə iki yerə parçalandı. Bu, tarixin böyük səhvi idi...

Türkmənçay müqaviləsindən sonra camaat təzədən bayır şəhərdəki ev-eşiklərinə qayıtdılar, forştadtda dinc inşaat işləri vüsət almağa başladı. Zəfəran əkilən sahələr yeni tikililərlə sıxışdırılır, inzibati və ticarət mərkəzi olan İçərişəhərin divarları da artıq bu tikililərin sürətinə mane ola bilmirdi. Qəza rəisliyi əhalini qala divarlarından xaricə çıxmağa həvəsləndirirdi. Bəzən onları məcbur edirdilər. Əhali də bu dəfə etirazını bildirmirdi. Çünki əvvəla torpaqlar onlara çox ucuz başa gəlirdi, İran tərəfdən basqın təhlükəsi də artıq sovuşmuşdu.

1840-cı ilin əvvəllərində forştadtın təxminən 45 hektarlıq sahəsində yeni binalar salınmışdı. Buralar İçərişəhərə nisbətən daha genişlikdi, küçələr enli, evlər gözəl və bəzi yerlərdə bağçalarla dövrələnmişdi. Bir sözlə, Bayır şəhər əsl şəhər görkəmi alırdı.

Əsas binalar qalanın Şamaxı darvazasının qabağından başlayaraq, Şamaxı yolu ilə (indiki Hüsü Hacıyev küçəsi) qərbə tərəf uzanırdı. Bu küçənin hər iki

tərəfində yaşayış evləri ilə yanaşı çoxlu karvansara, hamam va məscid də tikilmişdi. Yeni küçə indiki Füzuli meydanının yerində (o zaman bu meydan Poçt meydanı adlanırdı) Bakı kəndlərindən gələn yolla (indiki Dilarə Əliyeva və Füzuli küçələri) kəsişirdi. Bu meydanın yaxınlığında hələ xanlıq dövründən qalma bəzi tikintilər vardı ki, onlar Şamaxı yolu ilə Abşeron yollarının kəsişdiyi yerdə düzəlmiş kazak keşikçi məntəqəsinin istifadəsinə çevrilmişdi. Quru yolla şəhərə gələn və şəhərdən çıxan bütün nəqliyyat vasitələri bu keşikçi məntəqəsindən keçirdi. Keşikçi məntəqəsində bir müddət Xəzər donanmasının zabit və matrosları da xidmət etmişdi. Onlar Bakıda Dəniz stansiyası adlanan bir müəssisənin xidmətçiləri idi. Bu stansiyanın işinə bir hərbi brandvaxt (limanda saxlanılan keşikçi gəmisi) başçılıq edirdi.

Stansiyanın bir hissəsi İçərişəhərdə Qız qalasının yanında, o biri hissəsi isə burada, Poçt meydanında yerləşirdi. Bura sahildə işləyən dənizçilər üçün əsas mərkəzə çevrilmişdi. Bir rus jurnalının yazdığına görə mərkəzin ətrafında çoxlu alçaq evlər tikilmiş, dar küçələr salınmışdı. Bu evlərdən biri də keşikçi məntəqəsinin yanında, polkovnik Bakıxanovun evi idi.

Bizim fikrimizcə, bu ev ancaq Abbasqulu ağanın kiçik qardaşı Cəfərqulu ağanın oğlu, qvardiya polkovniki Əhmədağa Bakıxanovun imiş. O, Abbasqulu ağanın kiçik qızı Tuğra xanıma evləndikdən sonra burada yaşayırlarmış. İnqilabdan qabaq Füzuli meydanındakı beş mərtəbəli binanın yerində Xanım karvansarası adlanan qədim bir karvansara varmış. Görünür ki, o, Abbasqulu ağanın qızı Tuğra xanımın olub. Qvardiya polkovnikinin evi indiyədək durur (Təbriz Xəlilbəyli küçəsi, ev 38). Yaxınadək bu evdə Bakıxanovlar nəslindən olan adamlar yaşayırdılar. Kazak keşikçiləri və dənizçiləri üçün yaxınlıqda (indiki Zərgərpalan küçəsi, ev 38) ayrılmış binanın həyətində həm yataqxana və həm də kilsə tikilmişdi. Kilsə Donanma kilsəsi adlanırdı. Bu kilsə də indiyədək durur.

İçərişəhərdən Şamaxıya gedən bir magistral yolun köhnə Poçt meydanına qədər olan hissəsi yeni salınmış şəhərin ilk küçəsi hesab edilirdi. Küçənin eni 10 sajından az deyildi. Magistral yolun qalaya yaxın hissəsinin sol tərəfindəki passajın yeri bakılıların qəbiristanlığı idi. Qəbiristanlıq ta indiki M. Muxtarov küçəsinədək uzanırdı. Kazak keşikçi məntəqəsindən başlayan küçə Şamaxı darvazasına çatar-çatmazda üç yerə haçalanırdı. Biri indiki İstiqlaliyyət küçəsinin yeri ilə qala divarlarını hərləyib, indiki Niyazi küçəsi ilə, o biri isə darvazanın yanında şərqə tərəf üzü aşağı burulub, hazırki Ə. Əliyev küçəsilə dənizə çıxırdı. Üçüncü yol isə Şamaxı darvazasından İçərişəhərə daxil olurdu. Bu yol da şəhərin ticarət cərgələrinin içərisindən keçərək, Qız qalasının yanından dənizə çıxırdı. Esplanadada* hələlik heç bir bina tikilməmişdi. Əslinə baxsan iki qala divarı

* Qala divarları ilə yaxın şəhər tikintiləri arasında olan boş sahə.

arasında olan ensiz zolaqda da hökümət tikinti işləri aparmağa icazə vermirdi. Görünür ki, bununla şəhərin yenə müdafiə əhəmiyyəti nəzərdə tutulurdu.

Bir müddət keçdikdən sonra Esplanadada tikinti işləri başladı. Lakin tikintilər yaşayış binaları deyildi. Bunlar indiki Niyazi küçəsi ilə dənizə tərəfə enən yerdə, daha doğrusu, Salyan darvazasından (qalanın bu darvazası cənub-qərb tərəfdəki dağlara açıldığından ona bəzən dağ darvazası da deyirdilər) başlayan yolun Bayıla gedən yolla kəsişdiyi yerdə tikilmiş neft anbarları idi. Balaxana və Suraxanadan buraya arabalarla daşınan neft bu anbarlarda saxlanılır, sonra gəmilərlə İrana və Rusiyanın başqa şəhərlərinə göndərilirdi. Şamaxı darvazalarından şərqə tərəf enən Esplanadada isə (indiki Ə. Əliyev küçəsinin yerində) bir sıra cərgə ilə salınmış dükanlarda ancaq duz satılırdı. Bu yer dənizə çox yaxın olduğundan dükanların böyründə gölməçələr və qamışlıqlar hələ də dururdu. Hətta Bakı əhalisi bu yerlərdə quş ovuna da çıxırdılar...

Bayıl yolu ilə Salyan yolunun birləşdiyi yerdə, təxminən indiki həkimlər evi binası ilə üzbəüz taxta körpülərlə yanaşı yeganə daş bir körpü tikilmişdi. Xəzər dənizində yelkənli gəmilərin sayı artdıqca liman da cənub-şərq istiqamətində genişlənirdi.

O zaman sahildə qala divarı ilə dəniz arasında təxminən 10 metr enində quru bir sahə vardı. Burada körpülərin və habelə daş körpünün yanında çoxlu yük anbarları tikilmişdi. İrandan və Həştərxandan gələn yüklər çox zaman bu anbarlara vurulurdu. Limanda başqa tikinti işləri əsasən cənub-şərq istiqamətində getdiyindən Bayıl burnunun və Bayıla gedən yolun əhəmiyyəti artmışdı. Bayıl burnunda liman salınması üçün əlverişli təbii şərat vardı. Burada yeni liman rayonu salınması nəzərdə tutulduğundan 1839-cu ildə məsələ qaldırılmışdı ki, Həştərxandakı Admiralitet Bakıya köçürülsün. Bunun nəinki yalnız coğrafi, habelə böyük siyasi əhəmiyyəti də vardı. Tezliklə Qafqaz ölkəsi rəisliyindən xahiş edildi ki, dəniz qulluqçularının xidmətinə verilmək üçün Bayılda istifadə edilməyən örüş yerlərində xüsusi bir rayon təşkil edilsin. 1858-ci ildə Qafqaz rəisliyinin əmri ilə bu xahiş yerinə yetirildi və Bayıl burnunda Admiralitet və buraya köçəcək dəniz xidmətçilərinə bağ-bağat salınmaq üçün örüş yerlərində xüsusi bir sahə ayrıldı. Həmin ildən başlayaraq, bu sahədə tikinti işləri genişləndi. Bu, şəhərlə Bayıl arasında əlaqəni daha da möhkəmlətdi. Sahil boyu ilə Admiralitetə qədər olan yol boyunca da binalar salındı. 1863-cü ilin 6 aprelində Bayıl üçün təsdiq edilmiş plan əsasında Bayıl burnu ayrıca bir rayon kimi dəniz idarəsinin sərəncamına verildi. Burada dəniz idarəsi üçün inzibati binalar, zabitlər üçün yaşayış evləri ilə yanaşı dəniz idarəsi məmurları üçün pravoslav kilsəsinin də əsası qoyuldu. Bu, Bakıda say etibarilə üçüncü pravoslav kilsəsi idi. Birinci kilsə 1815-ci ildə qala divarları içərisində tikilmişdi. Bu kilsənin avadanlığı Tiflisdən gətirilmiş və kilsə ruhanisi gürcü David İvanov da Tiflisdən dəvət olunmuşdu. Kilsənin tikintisi xərcini

azaltmaq məqsədilə o, şəhərin mərkəzində, bazarın böyründəki köhnə bir məscidin yerində açılmışdı. Bu məscid binası əvvəllər həbsxana, sonra isə ərzaq mağazası olmuşdu. Kilsənin yaradılması ilə əlaqədar olan rəsmi sənədlərdən birində belə yazılırdı: "1815-ci ildə yerli xristianların səyi ilə köhnə tatar (azərbaycanlı) məscidi xristian məbədinə çevrilmişdir".

Bir müddət sonra Bakıda xristian əhalisinin çoxalması ilə bu kilsə darısqallıq elədi. Yeni və daha geniş bir kilsə tikilməsi üçün 1821-ci ilin 29 iyununda xüsusi bir komitə təşkil olundu. Bu komitəyə şəhər komendantı polkovnik Melikov başçılıq edirdi. Komitə bina tikmək üçün əvvəlcə şəhərdə torpaq sahəsi almaq fikrində idi. Lakin torpaq sahəsindən ötrü çoxlu pul tələb olunduğundan kilsəni Şirvanşahlar sarayında düzəltmək qərara alınır. Buna isə baş komandanlıq icazə vermir. Çünki saray dövlət idarələrinə lazımdı. Komandanlıq ona icazə verir ki, kilsədən ötrü yararlı olub-olmamasını yoxlamaq üçün sarayın nəzdindəki Şah məscidi və Şirvanşahların türbəsi nəzərdən keçirilsin. O zaman bu binaların hər ikisi cəbbəxanaya çevrilmişdi. Komitə binaların heç birini kilsə üçün yararlı hesab etmir. 1828-ci ildə rus-türk müharibəsinin başlanması ilə əlaqədar kilsənin tikilməsi məsələsi təxirə salınır. Bundan başqa Qafqazda başlamış vəba xəstəliyi də bu işin başlanmasına mane olur.

Yalnız 1850-ci ilin 15 aprelində kilsənin tikilməsi məsələsi təzədən irəli sürülür. Bu vaxt komendantlıq sistemi artıq ləğv olunmuş və Bakı qəza mərkəzinə çevrilmişdi. Kilsənin qala divarlarından kənarda tikilməsi məsələsi müzakirə zamanı qəti rədd olunur. Qərara alınır ki, Şamaxı darvazasından içəri girilən yerdə, qaupvaxtın yanında köhnə bir müsəlmən hamamının yerində tikilsin. Sonralar kilsə təmir olunarkən müsəlman hamamına gedən yeraltı bir yol üzə çıxır. Məlum olur ki, bu yol xan sarayından qalanın xaricinə çıxırmış.

Kilsənin günbəzi qurularkən divarlar davam gətirməyib, çat verir. Buna görə də 1852-ci ilin 17 oktyabrında inşaat işləri dayandırılır. Bir müddət sonra günbəzin daşdan deyil, taxtadan tikilməsi qərara alınaraq, iş davam etdirilir. Taxta günbəzin üstü isə dəmirlə örtülür. 1858-ci ilin 4 mayında kilsə keçmiş komendant binası qarşısındakı meydanda, Şimal qala qapısının yanında Nikolay kilsəsi adı ilə işə başlayır. Bu kilsə Bakıda Sovet hakimiyyəti yaradılanadək fəaliyyət göstərirdi.

## BAKI - QUBERNİYANIN PAYTAXTIDIR

1859-cu ildə Şamaxıda baş vermiş dəhşətli zəlzələ şəhəri viran qoymuşdu. Bütün daş binalar və o cümlədən qubernatorluğun inzibati binaları da uçub dağılmışdı. Belə bir hadisədən sonra quberniya paytaxtının Şamaxıda qalıb-qala bilməməsi məsələsi Qafqaz canişinliyini düşündürməyə başladı. Canişin imperator Aleksandr qarşısında məsələ qaldıraraq, bildirdi ki, belə dəhşətli təbii fəlakətdən

sonra quberniya mərkəzinin Şamaxıda qalması məqsədəuyğun deyil. 1859-cu il dekabrın 6-da imperator Aleksandrın fərmanı əsasında Şamaxı quberniyası ləğv olunub, əvəzində Bakı quberniyası yaranır ki, bunun da mərkəzi Bakı şəhəri elan edilir. Həmin fərmandan sonra keçmiş quberniyanın bütün əmlakı Bakıya daşınır. Şamaxı isə qəza mərkəzi olaraq qalır.

Aydın məsələdir ki, qala divarları içərisinə sığınmış kiçik Bakı şəhəri quberniyanın mərkəzinə çevrilmək üçün hazır deyildi. Quberniya müəssisələrini yerləşdirmək üçün şəhərdə bina çatmırdı. Keçmiş quberniya məmurlarının Şamaxıdan Bakıya köçmələri ilə şəhər əhalisinin sayı da artmışdı. Bütün bunlar forştatdın məskənləşdirilməsini daha da sürətləndirirdi.

Qala divarlarından kənarda salınmış yeni məhəllələri su ilə təchiz etmək şəhərdən ötrü ən çətin problemlərdən biri idi. İçərişəhərdən bayır şəhərə su daşımaq yolu ilə bunun öhdəsindən gəlmək çox çətindi. Buna görə İçərişəhərdəki Xan su kəmərindən xüsusi yeraltı bir yol ayrılıb, Sisianov bağının aşağısında düzəldilmiş iri daş su hovuzu ilə birləşdirildi. Bu iş şəhər memarı Qippiusun şəxsi nəzarəti altında keçirilmişdi.

Qippiusdan sonra şəhər memarı vəzifəsində işləmiş ilk azərbaycanlı memar Qasımbəy Hacıbababəyov Sisianov bağının yanında memarlıq cəhətdən son dərəcə gözəl bir su fantanı tikdirərək, əhalinin sərəncamına vermişdi.

Bundan əlavə Qasımbəy Hacıbababəyov indiki Karl Marks adına bağın (Parapetin) salınmasında da böyük səy göstərmişdir. Bu bağda ağaclar əkilsə də, vaxtlı-vaxtında suvarılmadığından, ya da suyun azlığından yarpaqlanıb, qol-budaq ata bilmirdi. Bu səbəbdən əhali içərisində Parapet bağı Quru bağ adlanırdı. Rəsmi idarələr tərəfindən bu bağa Kolyabakin bağı adı verilmişdi. Guya bu bağın salınmasında Bakı qubernatoru Kolyabakinin də xidməti az olmamışdır.

Parapetin yanında 1870-ci ildə iki karvansara tikilmişdi. Bu karvansaralardan birinin binası indiyədək durur. Hazırda bu binanın birinci mərtəbəsində "Araz" kinoteatrı yerləşir. Karvansaranın qərbində indiki Mərkəzi univermağın yeri bazar idi. Sonralar bu bazar Qəssab bazarı adı ilə məşhur olmuşdu. İki cərgə üzbəüz dükanlarda ət satılırdı. Qəssab bazarı iki paralel küçəni: Bazar (Hüsü Hacıyev) küçəsi ilə Vorontsov (Əzizbəyov) küçələrini birləşdirirdi. Qəssab bazarından başlayaraq, bu iki paralel küçə arasında bir küçə də salınmışdı. O zaman bu küçə Sisianov (indiki Təbriz Xəlilbəyli) küçəsi adlanırdı. Küçə Quba meydanınadək uzanırdı. Həmin küçələrlə yanaşı olaraq, Erməni (M. Qorki) küçəsi salınmışdı. O Parapetdən, burada tikilmiş erməni kilsəsindən başlayaraq, o biri küçələrlə yanaşı, Balaxana (Füzuli) küçəsi ilə kəsişərək, Kömür meydanınadək uzanırdı. Hərtərəfdə tikinti işləri gedirdi. Yeni evlər, qabaqlarında yaşıllıqlar salınırdı. Beləliklə, 1843-cü ildə İçərişəhərin forştatdla birlikdə ümumi sahəsi 63,3 hektar idisə, bundan təxminən 45 hektarını forştadt təşkil edirdi. 1843-cü ildən yeni

şəhərin sahəsi xeyli genişlənmişdi. Təzə binaların əksəriyyəti Avropa üslubunda tikilir və bayır tərəfdən Bakının məşhur ağ daşı ilə bəzədilirdi. Varlı evlərinin damında mütləq günbəz olurdu. Bundan başqa evlərin fasadında ev sahiblərinin insialı (vensel) həkk olunurdu. Bakıda varlılara məxsus elə bir ev tapmazdın ki, o günbəzsiz və venselsiz olsun. Bu iki əlamət uzaqdan binanın varlı adama məxsus olduğunu bildirirdi.

İnşaat işlərini qaydaya salmaq məqsədilə şəhər ərazisi əvvəllər iyirmi, sonra isə aşağıdakı qaydada doqquz rayona ayrıldı: 1. Çənbərəkənd. 2. Şamaxinka və Təzə Pir. 3. Kərpicxana və Qanlı Təpə. 4. Zavağzal. 5. Qara şəhər. 6. Sahil. 7. Mərkəzi rayon. 8. İçərişəhər. 9. Erməni və müsəlman məhəllələri.

Adları çəkilən rayonların hamısında inşaat işləri eyni qaydada getmirdi. Elə rayon vardı ki, yaradılmış çətinlik üzündən orada inşaat işləri aparmaq qeyri-mümkündü. Məsələn, indiki Sabunçu vağzalı ətrafında neft sahibkarları tərəfindən salınmış zavod və emalatxanalar o qədər çox idi ki, burada bir arşın da boş yer qalmamışdı. 1870-ci ildən tikilməyə başlayan zavodların əksəriyyəti vağzaldan başlayaraq, ta Skobelevin dəyirmanınadək (Xaqani və Azadlıq prospekti küçələrinin) vağzala yaxın hissələrini Mövsümov, Krasilnikov, Mirzəyev, Velzep və başqalarının zavodları işğal etmişdi. Ətraf mazut və çirkab içində idi. 1873-cü ildə Bələdiyyə idarəsi əhalinin təkidi ilə bu yerdən 147 zavodun şəhər kənarına çıxarılması barədə qərar qəbul etdi. Zavodlar indiki Qara şəhərin yerinə köçürüldü. Beləliklə də 1873-cü ildən Qara şəhərin əsası qoyulmuş oldu. Köçürülmüş zavodların qara tüstüləri ətrafı bürüdüyü üçün bura camaat arasında Qara şəhər kimi tanınırdı. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Qara şəhərdəki zavodların ocaqlarında əsas yanacaq olan neft farsunkasız yandırıldığından qara tüstü verirdi. Bir müddətdən sonra Zığ tərəfə uzanan təzə zavodlarda ocaqlar forsunka ilə işlədiyindən bacalardan qara tüstü əvəzinə ağ tüstü qalxırdı. Çünki forsunkada neft tamamilə yandığından qara tüstü olmurdu. Buna əsasən də yeni zavodların salındığı sahə Ağ şəhər adlanmağa başladı.

Bələdiyyə idarəsinin qərarına baxmayaraq, bəzi sahibkarlar öz zavodlarını emalatxana adı altında yenə şəhərin daxilində saxlaya bilmişdilər. Xüsusilə 70-ci illərin qolu güclü neft maqnatı Mirzəyev öz zavodlarından bir neçəsini emalatxana adı altında şəhərdə saxlaya bilmişdi.

Şəhərin cənubunda, xüsusilə Mixail (indiki İnqilab) bağının sağ tərəfindəki, sonralar, yəni Mixail bağı salınandan sonra Sadovı adlandırılmış Dağaltı küçəsində də inşaat işləri zəif gedirdi. Buna da səbəb bu küçədəki neft anbarları və neft satan dükanların olması idi. Eyni ləngliyi Qala divarının şimalında, yəni indiki Ə. Əliyev küçəsində də görmək olardı. Buralar o zaman bataqlıq və qamışlıq olduğundan inşaat işləri aparmaq mümkün deyildi.

Qoşa Qala qapısından və Quru bağdan (Parapet) başlayaraq indiki Hüsü Hacıyev, Təbriz Xəlilbəyli küçələri ilə yanaşı uzanan küçədə bir-birinin dalınca uca evlər tikilmişdi. Sahilə yaxın Milyutin (Əliyarbəyov), Qorçakov (Tağıyev), Merkuryev (Azərbaycan prospekti) Polis (Məmmədəliyev) küçələrində inşaat işləri çox sürətlə gedirdi. Bu küçələrdə illərlə inşaat materiallarının yığılıb qalması üzündən hərəkət çətinləşmişdi. Bələdiyyə idarəsi, binalar tikilib qurtarandan sonra belə inşaat zibillərini yığışdırmayan ev sahibləri ilə daima mübarizə aparırdı. Mərkəzi rayona arabalar və dəvələrlə daşınan inşaat materiallarının ardı-arası kəsilmirdi. Daş əsas etibarilə ətrafdakı daş karxanalarından daşınırdı. O dövrdə karxanaların sayı o qədər çox idi ki, istehsal olunan daş nəinki Bakının tikintilərini təmin edir, hətta Tiflisə də aparılırdı. Ən iri daş karxanaları bunlar idi:

1. Alatava karxanaları. Bunlar ən qədim karxanalar idi və Saray şose yolunun ətrafında yerləşirdi. Karxanaların ümumi sahəsi 35000 kv. sajına bərabərdi. Alatavada daş təbəqələrinin qalınlığı 1 sajından 3 sajına çatırdı.

Alatava karxanalarında çıxarılan daş çox möhkəm olub, hər kv. düyümü 2 pud ağırlığına davam gətirirdi. Karxanalar 14 sahəyə ayrılmışdı və hamısı da podratçılar tərəfindən idarə olunurdu.

2. Sallaqxana karxanaları. Bu karxanalar sallaqxana yanında yerləşdiyindən belə adlanırdı. Burada çıxarılan daş çox möhkəm idi. Rəngi də qırmızıya çalırdı. Hər kv. düyümü 2 pud ağırlığına davam gətirirdi. Əsasən özül və üz üçün istifadə olunurdu. Karxanaların uzunluğu bir verstə yaxın idi. Buralarda daş təbəqələri çox güclü idi. Qalınlığı üç sajına çatırdı. Karxanalar ayrı-ayrı podratçılara məxsus 16 sahədən ibarət idi.

3. Çəmbərəkənd karxanaları. Burada çıxarılan daş da çox möhkəm idi. Özül üçün və düm ağzı kimi istifadə edilirdi. Lakin onu yonub hazırlamaq çox çətin idi. Buna görə də ondan çox zaman yonulmamış istifadə edirdilər. Sahəsi təxminən 3000 - 3200 kv. sajın idi. 3 sahəyə ayrılmışdı. Karxanalarda 30 nəfərədək bənna və daşyonan işləyirdi. Yonulmamış daşın bir qalağı 3,5-4 manata satılırdı. Dümağzının bir ədədi isə 10 qəpik idi.

4. Ermənikənd karxanaları. Erməni qəsəbəsinin şimal-qərbində yerləşirdi. Çıxarılan daş əhəng daşı olsa da çox möhkəm idi. Yatağın dərinliyi 1 arşına yaxındı. Buna görə də burada karxanaların sayı saysız-hesabsız idi. Daşın hər min ədədi 12 manata satılırdı. Bu sahələrdə podratçılar üçün işləyənlərdən başqa özləri üçün daş çıxaranlar da vardı.

5. Biləcəri karxanaları. Bu karxanalar Erməni qəsəbəsindən cənub-qərbə tərəf uzanırdı. Qayalıqlar torpağın üstünə çox yaxın idi. Çıxarılan daş möhkəm idi. 18 kiçik sahələrdən ibarət olan Biləcəri karxanaları podratçılar və əksərən fəhlə artelləri tərəfindən idarə olunurdu. Sahəsi çox genişdi. 3000 kv. sajından da çox idi.

6. Doğranmış daş karxanaları. Bunlar nisbətən sonralar açılmışdı. Burada daş xüsusi üsulla, demək olar ki, yalnız ruslar tərəfindən çıxarılırdı. Çıxarılan daş yumşaq olduğu üçün yüksək təzyiqə davam gətirə bilmirdi. Karxanalar ayrı-ayrı 18 hissəyə bölünmüşdü. Karxanaların ümumi sahəsi 35000 kv. sajındı.

7. Badamdar daş karxanası. Bu karxana qismən sonralar açılmışdı. Çıxarılan daş isə üzlük ağ daş idi.

Göründüyü kimi, bütün karxanalar xüsusi adamlar tərəfindən idarə olunurdu. Hər kəs şəxsi karxana açmaqda və ondan istifadə etməkdə sərbəst idi. Bundan ötrü şəhər idarəsindən ancaq icazə almaq lazım idi. Kim harda istəsəydi karxana aça bilərdi. Əlbəttə, hamı çalışırdı ki, karxanası şose yoluna yaxın olsun. Elələri də vardı ki, karxananı dərinləşdirməklə özlərini əziyyətə salmaq istəmirdilər. Üst qatdan daşı çıxarandan sonra sahəni dəyişirdilər. Bunun nəticəsində idi ki, kiçik bir sahədə başlı-başına buraxılmış saysız-hesabsız karxanalar qalmışdı.

Daşlar karxanadan inşaat sahəsinə arabalarla və dəvə belində daşınırdı. Daşın uzaq karxanalardan daşınması çox çətindi və həm də baha başa gəlirdi. Bakının ağ daşı qonşu ölkələrdə də şöhrət tapmışdı. Tiflisdə uca imarətlərin tikilişində Bakının ağ daşından çox istifadə edilmişdir.

Xəzərin sahilində, indiki Neftçilər prospektində inşaat işləri 1834-cü ildə, şəhərin ikinci hasarı söküləndən sonra geniş vüsət tapdı. Bu daşlardan bir hissəsi hündür hasarın təmir edilməsinə sərf edildi. Bir hissəsi isə xüsusi adamlara satıldı. Sahil küçəsi memar Qasımbəy Hacıbababəyov tərəfindən səliqəyə salındı. Burada yüksək binalarla yanaşı olaraq, ağac əkilir, yaşıllıqlar salınırdı. Lakin suyun çatışmamazlığından ağaclar boy ata bilmirdi. Bununla belə Sahil küçəsi bakılıların yeganə gəzinti və istirahət yeri idi. Bu illərdə yazıçı Şirvanzadə Sahil küçəsini belə təsvir edirdi: "Gəzinti üçün yeganə yer Sahil küçəsi və onun lap qurtaracağında salınmış bağ idi ki, burada ağaclar adama aclıqdan zəifləmiş adamları xatırladırdı. Zaqafqaziyanın uzaq bucaqlarından gəlmiş fırıldaqçılar, qazanc axtaran səfillər səhərdən axşamadək Sahil küçəsində gəzişirdilər. Onların içərisində elələri vardı ki, istədikləri adamları muzdla o biri dünyaya göndərməyə hazırdılar. Belə adamların toplaşdığı yer küçənin lap qurtaracağında açılmış çayxana idi. Polisin, əlbəttə, bu çayxanadan xəbəri vardı, ancaq oraya getməyə çəkinirdi.

Neft sənayesinin inkişafı ilə əlaqədar nəinki səfil və fırıldaqçılar özləri Bakıya axışıb gəlir, bəzən hökümət özü belə adamları buraya sürgün edirdi. Keçən əsrin əllinci illərində Bakı sürgün məskəni olmuşdu. 1852-ci ildə Qasım bəy Zakir də Bakıya sürgün edilmişdi. O üç ay qışı burada keçirmişdi. Bakıdan M. F. Axundova yazırdı:

Olmuşam Bakıda sakin, farağat,

Zövqi tamaşası misali cənnət.
Ziyada dərdi-sər, dəxi nə hacət
Feramuş eyləmə müxtəsər məni.

İsmayıl bəy Qutqaşınlıya yazdığı məktubunda Bakının sərt soyuqlarından şikayətlənərək, ona qalın bir kürk göndərməsini xahiş edirdi:

Əgərçi var Dağıstani kürkü Zakirin, amma,
Cənabından dəxi bir sarı kürki-Ərdəbil istər.

Lakin Q. B. Zakir Bakıda çox qalmır. Dostlarının, birinci növbədə M. F. Axundovun köməyi sayəsində sürgündən azad olunub, Qarabağa qayıdır.

50-ci illərdə Bakıda cinayətkar və səfillərin sayı o qədər artmışdı ki, Şəhər idarəsi onları zorla gəmilərə oturdub, şəhərdən çıxarmağa məcbur olmuşdu.

1865-ci ildə qala divarlarının sahil tərəfdə olan üç darvazalı hissəsi sökülür. Çünki bu hissənin artıq heç bir əhəmiyyəti qalmamışdı. Divar şəhərin limanla əlaqəsinə mane olur və dənizdən qalxan təmiz havanın qarşısına sədd çəkirdi.

Bu iş Bakının ilk memarı Qasımbəy Hacıbababəyovun başçılığı altında keçirilmişdi. Sökülmüş divarın daşları xüsusi şəxslərə satılaraq, 44 min manat pul əldə edilmişdi. Bələdiyyə idarəsi həmin pula təzə körpülər quraşdırmış və Sahil küçəsini xeyli sahmana salmışdı. Buna baxmayaraq, küçə hələ də natəmiz saxlanılırdı. Küçənin künc-bucaqlarında zibil aylarla yığılıb qalırdı. Küçənin bu vəziyyətini yazıçı Şirvanzadə belə təsvir edirdi: "Təbiətən şəhərin gözəlliyi üçün yaradılmış dənizin sahilində zibildən qalaq vurulmuşdu. Gilavar gəmilərin dənizə tökdüyü mazutu sahilə vuraraq, suyun üstündə qara ləkələr buraxırdı.

Payızın yağışlı günlərində küçədə palçıqdan keçmək olmurdu. Tezliklə Şəhər idarəsinin qərarı ilə küçəyə əhəng daşı döşəndi. Bir müddətdən sonra araba və fayton çarxları, at dırnaqları ilə əzilib xırdalanmış daşlardan qalxan toz adamların ağız-burnuna dolaraq, nəfəs almağı çətinləşdirdi. Xüsusilə bərk xəzrilərdə bu küçədən keçmək mümkün deyildi. Buna görə Şəhər idarəsinin qərarı ilə küçəyə həftədə bir dəfə neft çiləməyə başladılar. Doğrudur, Sahil küçəsində və şəhərin bir sıra iri küçələrində bununla tozanağın qabağını almaq mümkün olurdu. Ancaq neftin çilənməsindən şəhər küçələri elə miskin bir görkəm alırdı ki, adamın ürəyi sıxılırdı. Ən böyük bəla isə orasındaydı ki, canına neft hopmuş torpaq bərk yağışlarda suyu buraxmadığından küçələrdə keçilməz gölməçələr əmələ gəlirdi. Doğrudur, suyun axıdılması üçün küçənin hər iki tərəfində xəndəklər qazılmış olsa da heç bir köməyi olmurdu.

Bundan sonra Sahil küçəsi və habelə başqa mərkəzi küçələr Biləcəri çaylaq daşı və Krasnovodskdan gətirilən qtorfiritlə örtülməyə başlandı. Hər ikisi möhkəm

daşlardı. Əsrin əvvəllərindən isə Bakının əksər küçələrinə çaylaq daşı və yerlilərin dili ilə desək, qənbər döşənməyə başlandı. Asfalt şəhərin bəzi küçələrində ancaq müəyyən yerlərə, birinci növbədə Sahil küçəsində qubernator binasının qabağına döşənmişdi.

Sahil küçəsi bir müddətdən sonra II Aleksandrın adı ilə adlandırıldı: II Aleksandr Sahil küçəsi. Hətta uzun müddətdən bəri Daş körpünün yanına atılıb qalmış 12 top lüləsindən II Aleksandra heykəl qoymağa hazırlaşırdılar. Ancaq vəsait ayrılmadığından abidənin qoyulmasına başlanmamışdı.

Bakının görkəmli milyonçu və varlılarından Dadaşovlar, H. Z. Tağıyev, İsa bəy Hacınski, Hacı Nemət Seyidov və başqaları bu küçədə uca binalar tikdirmişdilər. Bələdiyyə idarəsi bu küçədə qubernator üçün uca bir bina tikdirmək fikrində idi. Maddi vəsait olmadığından qubernatorun iqamətgahı üçün Hacı Nemət Seyidovun mülkü (indiki həkimlər evi) icarəyə götürüldü.

Hacı Hacıağa və Şıxəli Dadaşovların bu küçədəki karvansaraları İrandan və Orta Asiyadan gələn qonaqlarla həmişə dolu olardı.

Sahil küçəsinin sağ tərəfində başdan-başa qapıları dənizə tərəf açılan dükanlar salınmışdı. Burada sübh tezdən, bəzən axşamdan xeyli ötmüşədək qızğın alver gedirdi. Satılan əsasən baqqaliyyə malları idi. İrandan gəmilərlə gətirilən düyü, kişmiş, quru meyvə, püstə, badam, cürbəcür ədviyyat və şirniyyat burada satılırdı. Payız aylarında isə Ənzəlidən və Rəştdən sitrus meyvələri-portağal, narıncı, limon, nar, yerbadamı daşınardı. Ədviyyat və sitrus bitkilərinin ətri ətrafa yayılırdı. Dükanların qapısı ağzında hamballar bardaş qurub oturar, biri bazarlıq elədiyi şeyləri evə daşımaq üçün hambal çağırdıqda on nəfəri birdən yerindən sicrayıb, alıcıya tərəf yüyürərdilər. Payızda, yəni sitrus meyvələri satılan zaman dükanların qabağı portağal, püstə, badam qabıqları ilə dolu olardı. Dükan sahibləri gündə üç-dörd dəfə dükanlarının qabağını süpürtdürərdilər. Xoş havalarda rəngbərəng paltarlarda gəzintiyə çıxmış xanımların al-əlvan paltarlarından Sahil küçəsi güllü-çiçəkli çəmənzara oxşardı. Bu vaxtlar küçədə dənizin sərin nəfəsi xüsusilə duyulardı. Bayıla gedən konka da bu küçədən keçirdi. Körpülərdə yük daşıyan hambalların səs-küyü də küçəyə yayılıb, konkanın zəng səslərinə qarışır, küçə elə bil arı pətəyi kimi uğuldardı. Yalnız körpüyə yan alıb durmuş gəmilərdən qəflətən eşidilən fit səsi bu uğultunu bir anlığa batırardı. Küçədə faytonu dördnala çapdıran da olurdu. Bir sözlə, şəhərin nəbzi sanki məhz bu küçədə vururdu.

"Qafqaz və Merkuri" emalatxanalarından başlayaraq, üzü Qara şəhərə tərəf taxta-şalban anbarları uzanırdı. 1915-ci il məlumatına əsasən sahilə yaxın bu yerlərdə "Qafqaz və Merkuri" şirkətinin, Tumayev və Mirzəyev qardaşlarının, İsrafil Hacıyevin, H. Z. Tağıyevin, Adamov qardaşlarının, Musa Nağıyevin, Şəmsi Əsədullayevin, Ağ şəhərdə "Nobel qardaşları" şirkətinin, Mantaşevin, Şibayevin,

Bibiheybətdəki körpülərin yanında Rotşildin, Zubalovun, vağzala yaxın ərazidə Ələkbər Hacıyev və Cabbarovun böyük taxta-şalban anbarları olub. Bunlardan əlavə Merkuryev küçəsinin vağzala yaxın hissəsində M. Rəsul Babayevin, Aydəmir Nəcəfovun, Teymur Əliyevin, Ağabala Əzimov və başqalarının odun anbarları böyük bir sahəni tutardı. Taxta-şalban arabalar və dəvələrlə şəhərin mərkəzinə daşınardı. Şəhərdə genişlənmiş inşaatı vaxtında təmin etmək məqsədilə taxta-şalban çox zaman gecə də daşınırdı.

Şəhər ərazisində əzəmətli uca binalar əvvəlcə sahilə yaxın yerlərdə ucaldılırdı. Qalanın boynuna dolanan Nikolay (indiki İstiqlaliyyət) küçəsində salınmış evlər öz əzəməti ilə fərqlənirdi. Küçənin başında Sadıqov qardaşlarının mülkü, onunla üzbəüzdə filarmoniyanın binası, bir az aşağıda realnı məktəbin binası, daha aşağıda "İsmailiyyə" binası və nəhayət, Lalayevin "Qrand-Otel" mehmanxanası. Bu mehmanxana küçəyə sanki nöqtə qoymuşdu. Sadovı (indiki Niyazi) küçəsində H. Z. Tağıyevin 1885-ci ildə tikdirdiyi Mariya qız məktəbinin binası, qonşuluqda isə Deborun 1888-ci ildə mühəndis Nonnenin layihəsi əsasında tikilmiş yaşayış mənzili (indi burada incəsənət muzeyi yerləşir) küçəyə xüsusi yaraşıq verən binalardı. Qalanın şərqində, xüsusilə indiki Ə. Əliyev küçəsindən tutmuş Pyotr meydanınadək bir-birindən gözəl binalar ucaldılmış və düzgün küçələr salınmışdı. Bu arada H. Z. Tağıyevin bütöv bir kvartalı əhatə edən yaşayış evi öz monumentallığı ilə fərqlənirdi. Şəhərin bu bərbəzəkli küçələri Romanov ailələrinin və habelə görkəmli rus nazir və sərkərdələrinin adlarına qoyulmuşdu. Şəhərin baş küçəsi I Nikolayın şərəfinə olaraq, Nikolay küçəsi adlanırdı. Azərbaycan Demokratik höküməti dövründə isə küçənin adı dəyişilərək, Parlaman küçəsi adını alır. Bu təsadüfi deyildi. Çünki Dövlət parlamenti burada, Tağıyevin qız məktəbi binasında yerləşirdi. Sahil küçəsi yuxarıda deyildiyi kimi II Nikolayın babası II Aleksandrın adına idi. Hazırki Ə. Əlizadə küçəsi Qafqaz çanişini Baratınskinin adını daşıyırdı. M. Ə. Rəsulzadə adına olan küçə o zaman Olqa, Təbriz Xəlilbəyli küçəsi Sisianov, Cəlil Məmmədquluzadə adına küçə II Nikolayın qardaşı Georginin, R. Rza adına olan küçə Nikolayın anası Mariya Fyodorovnanın hazırda H. Z. Tağıyev adına olan küçə Qorçakovun, Əliyarbəyov adına küçə çar Rusiyası hərbi naziri Milyutinin, hazırki Əzizbəyov adına olan küçə knyaz Vorontsovun, Əhməd Cavad küçəsi hərbi sərkərdə general Vrangelin, hazırki Engels küçəsi vaxtı ilə Bakıda qubernator olmuş Pozenin, N. Rəfibəyli küçəsi Bakıda qubernator olmuş Kolyubakinin, Qasım İsmayılov küçəsi Bakıdakı Aleksandr Nevski kilsəsinin hamisi, təbiətşünas, ruhani Spasskinin adını daşıyırdı və s. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar Telefon küçəsinə "Romanovlar" adı verilmişdi. Şəhər əhalisi isə bu küçəni Sovet hakimiyyətinin ta ilk illərinədək Telefon küçəsi kimi tanıyırdı (indiki 28 may küçəsi).

Təzə salınmış elə küçələr də vardı ki, orada yerləşən məktəb, müəssisə və ya kilsənin adı ilə adlanırdı. Məsələn, gimnaziya binasının yerləşdiyi küçə (indiki L. Tolstoy küçəsi) Gimnaziya küçəsi, dənizçilərə məxsus kiçik rus kilsəsinin yerləşdiyi küçə Serkovnı küçəsi adlanırdı. Elə küçələr də vardı ki, orada olan emalatxana və ya sexlərin adını almışdı. Məsələn: Bondarnı (çələkçi deməkdir) adlanan küçədə çoxlu çəlləkçi dükanları vardı. Hazırkı Ü. Hacıbəyov küçəsi Birja küçəsi adlanırdı. Çünki Birjanın idarəsi bu küçədə yerləşirdi. Buna müvafiq olaraq, 26-lar bağı da ta 1918-ci ilədək Birja meydanı kimi tanınırdı. Dəvəçilərin yaşadığı küçə Dəvəçi, faytonçuların yaşadığı küçə Faytonçu, tatarların yaşadıqları küçə Tatar (indiki Təbriz Xəlilbəyli) küçəsi, ermənilərin yaşadığı küçə Erməni (indiki M. Qorki) küçələri adlanırdı.

Beləliklə, çar hökümətinin şovinist siyasəti bu sahədə də özünü göstərirdi. Şəhərin küçələrindən heç birinə Azərbaycanın görkəmli şəxsiyyətlərindən birinin də adı verilməmişdi.

Şəhərin yuxarı yoxsul küçələrinə heç ad da verilməmişdi. Onlar məhəllələrlə tanınırdı. Hazırki B. Səfəroğlu (Şors) küçəsinin yuxarı hissəsində əsasən yoxsul İranlılar yaşadığı üçün Həmşəri palanı (məhəlləsi) adlanırdı. Şors və M. Sübhi küçələrinin kəsişdiyi yer Qara küllük adlanırdı. Bura şəhərin ucqarı hesab olunurdu. Camaat zibilləri daşıyıb, burada yandırırdı. Buna görə də Qara küllük adlanırdı. Yalnız Şamaxı zəlzələsindən sonra buraya köçüb gəlmiş şamaxılılar ətraflarda məskən salmış və beləliklə də Qara küllük adı unudulmuşdu. Şamaxılılar burada məscid də tikdirmişdilər ki, sonra Şirvanlılar məscidi kimi tanınırdı. Şəhərin yuxarı hissəsində, indiki Nərimanov küçəsi ilə 1 may küçələrinin kəsişdiyi yerdə Hacı Əbülhəsən və ya da çolaq Əbülhəsən adlı qaniçən, qəddar bir masazırlı yaşayırmış. Məhəllə də onun adı ilə Əbülhəsən məhəlləsi adlanırdı. Biraz bəridə, Şors küçəsinin yuxarısında Nərimanov və Şors küçələrinin kəsişdiyi yer Hüseynbala açıqlığı adı ilə məşhurdu. Burada yaşayanları ancaq bu açıqlığın adı ilə axtarıb, tapmaq olardı.

Şəhər Çəmbərəkənd istiqamətində və Şamaxı yolu adlanan küçələrdə (buraya indiki H. Hacıyev, M. Qorki və Təbriz Xəlilbəyli küçələri daxil idi) böyüməyə başladı. Şimal-şərq tərəfdə Poxlu dərə (indiki Mərkəzi kolxoz bazarı) istiqamətində və Təzə Pir məscidi ətrafında da inşaat işləri vüsət tapmışdı. Təzə Pir ətrafında tikilmiş monumental binalardan biri "Xəzər və Qara dəniz" neft cəmiyyətinin binası idi (1898-1899-cu illərdə tikilib). İndiki 26-lar bağından şimal-qərbdən tutmuş Poxlu dərəyədək bir cərgə uca evlər inşa edilirdi. Sisianov (Quba) və Vorontsov (Kömür) meydanları ətrafında da binalar salınmışdı. Bu tərəflərdə, yəni indiki C. Cabbarlı küçəsində yaraşıqlı binalardan İsrafil Hacıyevin mülkünü (bu yaxınlaradək Oktyabr rayon partiya komitəsinin yerləşdiyi bina) və onun yaxınlığındakı Adamovun imarətini göstərmək olar. Hazırki Mərkəzi kolxoz

bazarından azca aşağıda Balaxana (indiki Füzuli) küçəsində yerləşən 2-ci kişi gimnaziyasının möhtəşəm binası küçəyə xüsusilə bəzək vururdu. Təzə Pirin ətrafında bir mərtəbəli evlərlə yanaşı uca binalar da tikilirdi.

Şəhərin ayrı-ayrı yerlərində memarlıq cəhətdən elə nəfis binalar ucaldılmışdı ki, uzaqdan diqqəti cəlb edirdi. Bunlara misal olaraq hazırki Məmmədəliyev küçəsində tikilmiş Rılskilərin imarətini (bu bina 1912-ci ildə mühəndis Ploşkonun layihəsi əsasında tikilmişdi). Hazırki Həzi Aslanov küçəsi ilə Əzizbəyov küçələrinin kəsişdiyi yerdə mühəndis Qosiavskinin layihəsi ilə tikilmiş yaşayış binasını və başqalarını göstərmək olar. Bir sözlə, Bakı əsl kapitalist şəhərinə çevrilirdi. Bir tərəfdən yüksək, əzəmətli binalar, zəngin aynalı mağazalar, o biri tərəfdən yoxsul, miskin daxmalar. Sərvətlə yoxsulluq burada qoşa yeriyirdi.

## BAKI ARXİPELAQI VƏ BAKI KÖRFƏZİ

Bir-birinə yaxın adalar qruppasına arxipelaq deyilir. Bakı arxipelaqına daxil olan adalar və bankələr bunlardır: Adalar - Böyük Zirə, Daş Zirə, Kiçik Zirə (və yaxud Qum adası), Zənbil, Səngi Muğan, Çikil, Qara Su, Xərə Zirə, Çilov, Pirallahı, İqnat Daşı və sairələri. Bankələr - Savenko, Bezimyannı, Kornilov-Pavlov, Makarov, Borisov və başqaları.

Bankə - dənizin nisbətən dayaz yerlərinə deyilir. Bunlar dənizdə gəmiçilik üçün çox təhlükəlidir.

Bu ada və bankələrdən əksəriyyətinin adları rus işğalından sonra dəyişilmişdir. Məsələn, Böyük Zirə - Nargin, Daş Zirə - Vulf (bu adaya kiçik Zirə və ya da Qum adası deyilir), Zənbil - Duvannı, Səngi Muğan - Svinoy, Çikil - Oblivnoy, Qara Su - Los, Gil - Qlinyanı, Xərə Zirə - Bulla, Çilov, Pirallahı - Artyom adlandırılmışdır.

Bakı arxipelaqının ən böyük adası Xərə Zirədir (Bulla) ki, sahəsi 3,5 kvadrat kilometrdir. Böyük Zirə (Nargin) adası Bakı körfəzini dənizdən ayıran ən böyük adadır. Abşeron yarımadasının cənubundadır. Uzunfuğu 3,1, eni isə 0,9 kilometrdir. Şimal-qərb tərəfdən dik və sıldırımdır. Bitkisi azdır. Körfəzi dənizdən ayıran ikinci ada Daş Zirədir (Vulf). Böyük Zirə ilə Kiçik Zirə (yaxud Qum) adalarının yaxınlığındadır. Ətrafı dayazlıqdır. Bitki örtüyü çox seyrəkdir. Zirə sözü Cəzirə (ada) sözündən əmələ gəlmişdir. Cəzirə sözündən cə atılmış, təkcə Zirə qalmışdı.

Bu iki adaya verilən Nargin və Vulf adları Pyotrun adı ilə bağlıdır. Pyotr, xəritədə onları Fin körfəzindəki eyni adlı adalara oxşatdığı üçün belə adlandırmışdı.

Kiçik Zirə (Qum adası) - körfəzi dənizdən ayıran üçüncü adadır. Ərazisi başdan-ayağa qum və balıqqulağı ilə örtülüdür. Uzunluğu təxminən 900, eni isə

600 metr olan Qara Su (Los) adası vulkan mənşəlidir. Burada güclü qaz yatağı vardır. Zənbil adasının Duvannı adlandırılması Xəzər sularında üzərək, dənizin qərb sahilindəki yaşayış məntəqələrini talanla məşğul olmuş Stepan Razinin adı ilə bağlıdır. Onlar öz qənimətlərini bu adada bölüşdüklərinə görə (Duvanit rus dilində bölüşdürmək deməkdir) Duvannı adlandırılmışdır.

Qədim zamanlardan bakılılar bu adalarda balıq və suiti ovlayar və adalarda düzəltdikləri kiçik daxmalarda yaşayırlarmış. Bu adalar eyni zamanda dəniz quldurlarının da məskəni olmuşdu. Həştərxandan və İrandan gələn ticarət gəmiləri həmin adaların yaxınlığında dəfələrlə quldur basqınlarına məruz qalmışdı.

Adalardan bəzilərində hətta vəhşi heyvanlar da doğub törəmişdi. "Kaspi" qəzeti 6 avqust 1893-cü il tarixli nömrəsində yazırdı ki, adamlar yaxın adalardan ətcəbala meymunlar gətirib bazarda hərəsini bir qəpiyə satırlar.

Cənub tərəfdən Bakıya daxil olduqda Puta körfəzindən qərbdə iki dağ zirvəsi nəzərə çarpır. Onlar dəniz səthindən - 1395 fut (təxminən 400 metr) hündürlükdədir. Bu dağ zirvələri Bakının qulaqları adlanır.

Bakı arxipelaqı balıqçılığın inkişafı üçün çox əlzerişli idi. Balıqçılıq nəinki bu adalarda, habelə Xəzərin bütün sahillərində də genişlənmişdi. Sahildə yerləşən Bakı kəndlərinin əksəriyyətində balıqçılıqla məşğul olurdular. Bilgəh, Pirşağı, Buzovna və Mərdəkan kəndlərində tutulan balıqlar zənbillərdə at və ulaq belində şəhərə gətirilib satılırdı. İndiki passajın yanında xüsusi örtülü bir bazar vardı ki, (indi burada toxuculuq sexi yerləşir) Balıq bazarı adlanırdı. Bazarda axşama yaxın balığın qiyməti ucuzlaşardı. Balıqları geri qaytarmamaq üçün hərə malını ucuz qiymətə satıb, kəndlərə qayıdardılar. Bəziləri öz malını tez xırıd eləmək məqsədilə, ya ulaq belində, ya da öz arxasında şəhərdə qapı-qapı gəzərdi.

19-cu əsrin axırlarında Salyandan tutmuş, Dərbəndədək Xəzər dənizi sahillərində iri vətəkələr yaradılmışdı. Bu vətəkələrin əksəriyyəti Hacı Zeynalabdin Tağıyevin idi. Kür çayı sahilindəki vətəkələri də o, hökümətdən icarəyə götürmüşdü.

İran, Həştərxan və bütün Yaxın Şərq ölkələri ilə ticarətin genişlənməsi şəhərdə möhkəm dəniz bazasının yaradılmasını tələb edirdi. Hələ Birinci Pyotr Bakı limanının Şərq ilə ticarətdə böyük əhəmiyyətini başa düşərək, buranı möhkəm dəniz limanına çevirmək üçün bir sıra ciddi tədbirlər qəbul etmişdi. 1840-cı illərdə Xəzər dənizi vasitəsilə Rusiya ilə ticarət xüsusilə genişlənmişdi. Rusiyadan Azərbaycana dəmir, mis, dəmir məmulatı, saxsı qablar, dəri, xəz gətirilir, buradan isə Rusiyaya neft, ipək və başqa mallar daşınırdı. İranla xüsusilə qızğın ticarət gedirdi. 1829-cu ildə İrandan Bakıya 2097 min manatlıq mal gətirilmiş, İrana isə 876 min manatlıq mal göndərilmişdi.

1864-cü ildə Xəzər dənizinin mərkəzi limanı Həştərxandan Bakıya köçürülür. II Yekaterina I Pyotrun başladığı siyasəti davam etdirir. Bakı limanının

hərbi donanma üçün yararlı hala salınması barədə layihə hazırlanır. Bu məqsədlə Peterburqdan Bakıya mütəxəssis ustalarda göndərilir. Lakin rusların 1796-1797-ci illər üçün nəzərdə tutulmuş tədbirləri II Yekaterinanın ölümü ilə əlaqədar olaraq, həyata keçirilə bilmir.

Bununla belə çarizm Bakı limanından ümidini üzməmişdi. Yermolovun 15 mart 1818-ci il tarixli sərəncamına görə Bakı əhalisinə icazə verilirdi ki, Həştərxan tacirlərindən gəmi ala bilsinlər, ya da özləri gəmi düzəltsinlər. Ancaq şərt qoyulurdu ki, gəmilərin heç birində silah olmamalıdır və onlar ancaq rusların şkout gəmiləri tipində olmalıdır. Bütün gəmilər mütləq rus bayrağı altında üzməlidirlər. Həmin illərdən Bakı körfəzində yelkənli gəmilərin sayı xeyli artmağa başladı. Bunun ardınca buxarla işləyən gəmilər də qurulub Xəzər sularına buraxıldı.

Bir müddətdən sonra Bakı neft sahibkarları nefti daşımaq üçün xüsusi gəmilər sifariş edirlər. 1891-ci ildə Şəmsi Əsədullayev belə bir Şxun düzəltdirib Xəzər sularına buraxır və nefti Xəzər və Volqa vasitəsilə Rusiya bazarlarına göndərir. Həmin illərdə Nobel qardaşlarının sifarişi ilə İsveçdə neftdaşıyan tanker düzəldilir. Bu, dünyada neftdaşıyan ilk tanker idi.

1907-ci ildə artıq Xəzər sularında 102 buxar və 65 yelkənli gəmi üzürdü. Bundan əlavə Bakı limanında irili-xırdalı 13 yelkənli gəmi, 15 buxar gəmisi, 93 barj (bunlardan 41 quru yük daşımaq üçündü), 23 barkas yedəkləri körfəz sularında bir-birinin böyrünə sığınırdı.

Dənizçilərin iş şəraiti çox ağırdı. Şirkət başçıları və habelə ayrı-ayrı gəmi sahibləri onlarla pis rəftar edirdilər. Belə vəziyyət 1907-ci ildə dənizçilərin böyük tətilinə səbəb oldu. Bu tətil "Qafqaz və Merkuri" şirkətində başlasa da tezliklə o biri dənizçilərə də sirayət etdi. Tətilçilər aşağıdakı tələbləri irəli sürürdülər: Dənizçiləri qış zamanı işdən qovmaq olmaz, noviqasiya zamanı bekar qaldıqları ayların əmək haqqı ödənilməlidir, dənizçilərlə nəzakətlə rəftar olunmalıdır.

Tətilin uzanması çar məmurlarını çox narahat edirdi. Xüsusilə Romanovlar xanədanından çoxlu üzvü olan "Qafqaz və Merkuri" aksioner şirkəti hökümətdən təcili tədbirlər görülməsini tələb edirdi. Tətili yatırtmaq üçün Peterburqdan general Taube dəvət olundu. Onun gördüyü təcili tədbirlər nəticəsində tətil qısa müddət ərzində yatırıldı və dənizçilərin həmkarlar ittifaqı da ləğv olundu.

Xəzər gəmilərində işləyənlərin əksəriyyəti bakılılardı. Onlar istər yelkənli və istərsə də buxar gəmilərində matros, losman və başqa vəzifələrdə işləyirdilər. Ümumiyyətlə o dövrdə dənizçilərə Gəştiban deyilirdi. Losman isə Pişgah adlanırdı.

1881-ci il 21 noyabrda Bakıda “Dənizçilik klasları” adlı bir məktəb açılır. Burada təhsil alanların əksəriyyəti gəmilərdə işləyən yaşlı dənizçilər idi. Bu məktəb hər il 25-30 nəfər şturman, 15-18 nəfər şkiper (ticarət gəmisi kapitanı) hazırlayırdı. Bu məktəbin ilk məzunlarından biri İçərişəhərli Süleyman İsmayıl oğludur. 1896-cı ildə isə Dənizçilik məktəbində gəmi mexanikləri kursları açıldı.

Kurslarda istehsalatdan ayrılmadan təhsil alırdılar. 1900-cü ildə bu məktəbi bitirənlərdən biri də nəslən dənizçi olan Süleymanın oğlu Məhərrəm İsmayılov idi. O atasının ənənəsini davam etdirərək düz 55 il Xəzərdə gəmi kapitanı işləmişdir. Hazırda Baltik dənizində bu qoca dənizçinin adını daşıyan "Kapitan İsmayılov" buzqıran gəmisi vardır.

Məhərrəm Süleyman oğlu İsmayılov Bakıda böyük bir dənizçi sülaləsinin fəxridir. İsmayılov-Süleymanovlar dənizçilər sülaləsi Xəzər dənizində məşhur dənizçilər kimi tanınır. Xəzərin qocaman kapitanı Hacıağa Rəcəbov da 1904-cü ildə bu məktəbi bitirmişdir.

1 iyul 1902-ci ildə “Dənizçilik klasları” “Bakı uzaq səfərlər” dəniz məktəbinə çevrilir.

Dənizçilər nəslinin artması ilə Xəzər sularında yelkənli və buxar gəmilərinin də sayı artırdı. Xüsusi gəmi sahiblərinin də sayı xeyli çoxalmışdı. Sahibkarlar içərisində ehtiraslar qızışırdı. Hər gəmi sahibi çoxlu yük daşınmasına çalışırdı. Çox zaman onlar gəmi kapitanlarını məcbur edirdilər ki, gəmiyə həddindən artıq yük vurulsun, bu da nəticədə böyük fəlakətlərə səbəb olurdu. Keçən əsrin 80-ci illərində Xəzər sularında çoxlu gəmi batmışdı.

Dənizdə baş verən fəlakətlərin əsas səbəbi gəmilərin sualtı daşlara toxunması və dayaz yerlərdə saya oturmaları idi. Xəzərdə gəmiçiliyin inkişaf tapması, Xəzər sahillərində və böyük adalarda mayaqların tikilməsi zərurətini irəli sürürdü. Məsələn, Bakı limanına cənubdan gələn gəmilər Nargin adasını görə bilmədikləri üçün burada mayaq yaradılmasına böyük ehtiyac duyulurdu. Mayaq yaradıldı və üstəlik Qız qalasının başına da güclü fanarlar qoyuldu ki, Bakıya yaxınlaşan gəmilərə yol göstərsin. Sonralar isə Sahil küçəsində işıqların çoxalması ilə əlaqədar olaraq, bu mayaq ləğv edildi. Çünki Sahil işıqlarının arxasından mayağın işığı görünmürdü.

Xəzərin ən qədim və qocaman mayağı "Abşeron" mayağıdır. O, Şüvəlanda dəniz sahilində, Şimal Dövlət Elektrik Stansiyasının yanındadır. Qapısının üstündə "1860" yazılmışdır. Mayağın məhz burada tikilməsinin səbəbi vardı. 1857-ci ildə Xəzər dənizinin şərq hissəsində hidroqrafik təhqiqat aparan "Quba" gəmisi Bakıya qayıdarkən fırtınaya tutulub istiqamətini itirmiş və qaranlıqda qayalıqlara dəyərək parçalanmışdı. Heyəti isə sahildə dəfn edilmişdi. Mayağın optik sistemi Parisin "Soter" zavodunda hazırlanmışdı. 1957-ci ilədək 750 şam güçündə olan kerosin lampası ilə işləyirdi. Həmin ildən etibarən isə elektrik işığına keçir.

İkinci mayaq Amburan (Bilgəh) burnundan qərbdə yerləşir. İki qardaş daşları və Balaxnin, Abşeron və Opasnaya bankələri Bilgəh sularının altında idi. 1910 - 1912-ci illərdə burada bir neçə gəmi toqquşmuş və suya oturmuşdu. "Mazut" şirkətinin "Limberq" gəmisi quma oturaraq, 4 ay burada qalmışdı. Onu çıxarmağa gələn "Kastroma" və "Kalomna" paroxodları da burada suya oturmuşdu.

1910-cu il martın 21-də noviqasiya açılan kimi "Cəfərabad" yelkənli gəmisi də burada 45 min ton mazutla batmışdı. Amburan mayağının vəzifəsi gəmilərə Abşeron körfəzinə daxil olduqlarını göstərmək və iki qardaş daşlarının yerini bildirmək idi. İki qardaş daşları çox gəmilərin fəlakətinə səbəb olmuşdu. Qədim bir əfsanədə deyilirdi ki, Xıdır Nəbi və Xıdır İlyas adlı iki qardaş olub. Onlar daimi həyat bulağından su içdikləri üçün müsəlmanlar onları peyğəmbər hesab edirdilər. Onların qəbirləri guya Beş Barmaq dağında olduğu üçün dindarlar oraya səcdəyə gedirdilər. Bilgəh burnu yaxınlığındakı bu iki qardaş qayaları da onların adı ilə şöhrət tapmışdı. Lakin mayağın işığı həmişə görünmürdü. Gah zil qaranlığa qərq olur və gah da cənub-qərb küləklərinin Balaxanadan gətirdiyi tüstüyə bürünürdü. Belə hallarda gəmilər buradan çox ehtiyatla keçirdilər.

Abşeronda daha bir mayaq Pirallahı adasının quru ilə birləşdiyi yerdədir. Bu mayak da 1950-ci illərədək kerosin lampası ilə işləmiş və sonralar elektrik işığına keçmişdir.

Mayaqlarda xidmət edənlər üç-dörd nəfərdən artıq olmur. Şəhərdə dəniz körpüləri Bibiheybət-Şıx burnundan başlayaraq, Soltan burnunadək (Zığ) uzanırdı. Bu məsafədə 75 taxta və bir daş körpü vardı. Bunlardan iyirmi beşi şəhər Sahil küçəsində, on səkkizi Qara şəhərdə, iyirmi biri Ağ şəhərdə və on biri Bayılda idi. Qara şəhərdəki körpülərin sahəsi 9 verst uzunluğunda idi. Demək olar ki, ancaq neft yüklərini daşımağa xidmət edirdi. Sonralar bu körpülərin sayı 43-ə çatmışdı. 1 körpü isə xarici malları daşımaq üçün idi. Burada "Nobel qardaşları" şirkətinin 1 Ellinqi vardı. Bütün neftayıran zavodlar və neft anbarları limanın bu hissəsində idi.

Fabrik və zavod sahiblərinin neft və neft məhsulları yüklənən körpülərində işlər çox səmərəli qurulmuşdu. Gəmilər 2-5 saat ərzində neftlə doldurulurdu. Burada nə gözətləmə olurdu, nə də növbə. Körpülər bir-birindən 15-30 sajın aralı tikilirdi. Əksəriyyəti xüsusi adamların idi. Bəziləri də körpünü tikib, icarəyə verirdi. Üç körpü vardı ki, bunlar ümumi istifadə üçündü. Daş körpü, Tamojna körpüsü (bu körpü Sahil küçəsində Tamojna idarəsi ilə üzbəüzdə idi) və Pyotr meydanındakı körpü idi. Şəhər sahəsindəki 25 körpüdən 18-i yük vurmaq və yük boşaltmaq üçündü. Bir körpü isə "Saruxanov-Kür" aksioner şirkətinin idi. Burada Kürdən gəmilərlə gətirilən su boşaldılırdı. Yerdə qalan 6 körpü isə gəmilərin yan alması üçündü. Daş körpü və Tamojna körpüsündə odun, kömür və şəhər küçələrinə döşənmək üçün gətirilən çay daşları (qənbər) boşaldılırdı. Pyotr meydanı ancaq taxta-şalban üçün idi. Körpülərin çoxunda yükləmə və boşaltma əl ilə aparılırdı. Yalnız bir neçə körpüdə yüklər əl arabaları və relsli vaqonetkalarla daşınırdı. Əl əməyi ucuz əmək olduğundan bütün sahibkarlar ondan istifadə etməyi üstün tuturdular. Küçələrdə, körpülərdə, dəmir yolu vağzalında yükləri daşıyan hamballar idi. Bunlar Cənubi Azərbaycandan Bakıya işləməyə gələn yoxsul adamlardı. Onları "həmşəri" çağırırdılar. Bir qarnı ac, bir qarnı tox, sübhün gözü

açılandan, qaranlıq düşənədək ağır yüklərin altında belləri ikiqat olmuşdu. Arazın o tayında oğul-uşaqları onların yolunu gözləyirdilər. Yağışlı havalarda şəhərin küçələri ilə sel axarkən adamları dallarında bir qəpiyə bu səkidən o səkiyə keçirirdilər. O zaman Cənubi Azərbaycandan Bakıya gəlib burada bir peşənin ətəyindən yapışanlar çox idi. İçərilərində tacirləri də vardı, alverçiləri də. Lakin camaat onları "həmşəri" yox, İranlı çağırırdılar. "Həmşəri" adı yoxsul hamballara əbədi vurulmuş damğa idi. Tacirlər, zəngin mağaza sahibləri onları nəinki amansızcasına işlədir, hətta üstəlik döyürdülər də. Hamballar şəhərin indiki Ostrovski küçəsinin yuxarısında, Həmşəri palanında yaşayırdılar. Onları hər axşam ayaqlarını sürütdəyə-sürütdəyə, yorğun-yorğun Həmşəri palanına qalxan görərdin. Üst-başları yamaq-yamaq, cır-cındır idi.

Günəşli havalarda özlərini divar dibinə verib, yaxalarının bitini təmizləyərdilər.

Zeynalabdin Marağayi əsrin əvvəllərində Bakıda olarkən şəhərdə belə bir hadisənin şahidi olmuşdu: "Mehmanxanadan çıxan kimi dəniz kənarına yollandıq. Ətrafıma baxırdım. Bir yerdə Batumda gördüyüm eyni mənzərəyə rast gəldim. Bir neçə nəfər həmyerlimiz yerdə, qızmar günəşin altında oturub yaxalarını və şalvarlarının nifələrini bitləyirdilər. Başqa bir yerdə camaat hay-küy qoparıb birlikdə kimi isə döyür və çığırırdılar: "Vurun, bu məlun İranlını!". Və hər yaxınlaşan onun üstünə düşürdü.

Bu zavallının günahı nədir ki, döyürlər, - soruşdum, - nə eyləyib axı?

Bu İranlı muzdla müsəlman bir kişinin gəmisində işləyir. Döyənlər də onunla bir yerdə işləyənlərdir" (Zeynalabdin Marağayi. "İbrahimbəyin səyahətnaməsi").

1900-cü ildə Bakıda olmuş B. Brandt öz xatirələrində yazırdı: "Yerlilərin hambal adlandırdığı bu adamlardan daha zavallı bir məxluq dünyada tapa bilməzsən. Onlar müztərib bir mütiliklə öz ağır yüklərini çiyinlərində daşıyırlar. Onlardan biri elə bil gözlərimin qabağında ağır yük altında durmuş heyvan tək itaətkarlıqla belini büküb gözləyirdi. Onun kimi başqa bir zavallı da ağır yükləri bir-bir onun palanı üstünə yükləyir. O, yükün altında belini düzəltmədən bəzən ən uzaq bir məsafəyə yola düşür. Mənə nəql elədilər ki, belə cılız məxluq bəzən arxasında piano kimi ağır bir yükü daşıyır. Bunlar adamda xüsusilə ona görə təəccüb oyadır ki, bizim enli kürəkli, sağlam rus fəhlələrinə oxşamayır, çox cılız və məzlumdurlar. Yedikləri ancaq çörəkdir. Ömürlərində içməzlər. Qazandıqları cüzi qazancı qəpik-qəpik toplayır, bir neçə ay Bakıda qaldıqdan sonra, topladıqları qazancla vətənlərinə qayıdırlar. Bir sözlə, fəhlənin vəziyyəti çox ağırdır. Xüsusilə neft mədənlərində işləyən fəhlələrin vəziyyəti".

İndiki Azərneftin yanından uzanan Sahil küçəsi "Fenomen" kinoteatrının (indiki kukla teatrı) yanında bağlanırdı. Burada "Qafqaz və Merkuri" gəmiçilik aksioner şirkətinin 1859-cu ildə tikdirdiyi ellinq Sahil küçəsini iki hissəyə bölmüşdü. Pyotr meydanı və onun körpüləri Sahil küçəsinin o biri başında qalırdı. Ellinq dənizin lap sahilində gəmi təmiri üçün tikilmiş emalatxanalar idi. Şəhərin mərkəzində belə bir müəssisənin mövcud olması Şəhər idarəsini narahat etdiyi üçün onun sökülməsi barədə dəfələrlə məsələ qaldırılmışdı.

Şəhər duması ilə "Qafqaz və Merkuri" şirkəti arasında birinci danışıq 13 oktyabr 1882-ci ildə olmuşdu. Lakin bir nəticə verməmişdi. 1900-cü ildə danışıq təzədən başlayır. Duma ellinqin sökülməsi üçün 40 min pul təklif edir. Şirkət isə 65 min tələb edir. Yenə qəti bir razılığa gələ bilmirlər. 1911-ci ilin axırında onların arasında təzədən danışıq başlayır. Duma Sahil küçəsinin planlaşdırılmasını başa çatdırmağa tələsirdi. Ellinqi sökdürmək isə heç cür, mümkün olmurdu. Əvvəla bu şirkət çox arxalı idi. Romanovlar xanədanından bir çoxları bu şirkətin üzvü idilər. Burada payları vardı. O biri tərəfdən şirkət çox varlı bir müəssisə idi. Məsələn, 1908-ci ildə "Qafqaz və Merkuri" gəmiçilik şirkəti aşağıdakı 13 gəmiyə sahib idi: "İmperator I Nikolay", "İmperatoriçə Aleksandra", "Veliki knyaz Aleksey", "Admiral Kornilov", "General Kropatkin", "Skobelev", "Saveliç Aleksandr", "Veliki knyaz Mixail", "Kaspi", "Türkmən", "Tamara", "Tehran".

Yalnız Sovet hakimiyyəti illərində "Qafqaz və Merkuri" ellinqi sökülərək, Sahil küçəsi Pyotr meydanınadək uzadıldı və emalatxanaların yerində dənizçilər üçün yüksək bir yaşayış binası ucaldıldı. Belə bir ellinq də Qara şəhərdə "Nobel qardaşları" şirkəti tərəfindən tikilmişdi.

Keçən əsrin axırlarında Bakıda sənayenin sürətlə inkişafı ilə əlaqədar olaraq Bakıya çoxlu material, xammal daşınırdı. Habelə Bakı neftini Həştərxana və Volqa boyu ilə Rusiyanın şəhərlərinə daşımaq lazım gəlirdi. Buna görə sənaye nəqliyyatına tələb çoxalmışdı. 1880-1904-cü illər arasında Xəzərlə yük daşınması 50 faiz artmışdı.

Sıradan çıxmış gəmiləri təmir edib, təzədən istismara buraxmaq da vacib bir məsələ idi. O vaxtadək Bakı körfəzində gəmilərin təmiri ilə məşğul olan bircə müəssisə də yoxdu.

Yalnız 1887-ci ildə Bayılda ilk tərsanə quruldu. Bu, "Bakinski dok" adlanırdı. Bu şirkətin yaradılmasında Bakının bir çox ticarət şirkətləri iştirak edirdi. Bunlardan "Kussis və Teofimantovlar ticarət evi"ni, "Pitoyev və onun kompaniyası ticarət evi"ni, "Kaspi" gəmiçilik şirkətini göstərmək olar. Ancaq tərsanədə təmir qiyməti çox baha idi. Birinci dərəcəli gəminin tərsanəyə qaldırılıb, salınması 320 manata başa gəlirdi. İkinci dərəcəli gəmilərin təmiri üçün isə 240 manat alınırdı. "Bakinski dok" qısa müddətdə böyük sərmayə əldə etmişdi.

Əlbəttə, təkcə bir tərsanə ilə gəmiçiliyin böyük ehtiyacını təmin etmək mümkün deyildi. Buna görə 1894-cü ildə şirkət payçıları belə qərara gəldilər ki, ikinci bir tərsanə də tiksinlər. Bu tərsanə 1895-ci ildə işə salındı. Bundan sonra Bakı varlılarından Şıxəli Dadaşov və Əliabbas Dadaşov da Bayılda torpaq sahəsi alıb, 1898-ci ildə təzə bir quru tərsanə tikdilər.

İnqilabdan sonra tərsanələr milliləşdirildi. "Bakinski dok", Əliabbas Dadaşovun tərsanəsi və başqa xırda emalatxanaların bazasında "Paris kommunası" gəmi təmiri zavodu yaradıldı

## BAKI NEFT SƏLTƏNƏTİDİR

Bakını bütün Şərq ölkələrində, habelə Avropada, bir sözlə, bütün dünyada tanıtdıran onun nefti və yanar torpaqları olmuşdur. Bakıda neft hələ qədim zamanlardan çıxarılırdı. Çox dayaz quyulardan əllə çıxarılan neft həm şəhərin özündə yanacaq və müxtəlif xəstəliklərə qarşı dərman kimi istifadə edilir və həm də tuluqlara doldurularaq, karvan-karvan uzaq ölkələrə aparılırdı. Sonrakı əsrlərdə, xüsusilə xanlıqlar dövründə neft şəhərin iqtisadiyyatında böyük rol oynamağa başlamışdı. Bakı xanlarının iki əsas gəlir mənbələri vardı: neft və duz yataqları. Neft, əlbəttə, çox ibtidai üsulla çıxarılırdı: əllə və dolamaçarxla. Quyular çox dayaz idilər. Balaxana neft quyularından birində tapılmış daş parçasının üzərindəki yazıdan məlum olmuşdur ki, quyu hələ 1594-cü ildə Allahyar Məmmədnur tərəfindən qazılmışdır. Şəhərdə evlər içərisinə neft doldurulmuş qara çıraqlarla işıqlandırılırdı. 1733-cü ildə Bakıda olmuş rus akademiki İ. J. Lerx Bakıda 52 neft quyusu olduğunu gözləri ilə görmüşdu. 1771-ci ildə Bakıda olmuş akademik S. Q. Qmelin isə neft quyularının necə qazılmasını təsvir etmişdir.

Ruslar Bakını işğal edəndən sonra neftin çıxarılmasına o qədər də əhəmiyyət vermirdilər. Quyular başlı-başına buraxılmışdı. Bakı xanı Hüseyn Qulu xan ruslar tərəfindən neftin çıxarılmasına qarşı belə laqeydliyi görəndən sonra neft mədənlərini təzədən öz əlinə keçirdi və onların istismarına başladı.

1820-ci ildə Bakının bütün neft quyuları dövlət xəzinəsinin ixtiyarına keçdi. Həmin ildən də quyular ayrı-ayrı xüsusi adamlara dörd illiyə icarəyə verildi. İcarədarlardan bunun əvəzində hər il 96 min kirayə haqqı alınırdı. İcarədar Tarumovu sonralar Yaqubov və Əhmədağa Məmmədov əvəz etdi. Bu dəfə icarə haqqı 97 minə qaldırılmışdı. Sonralar, yəni 1850-ci ildən həmin quyular Ter Qukasovun ixtiyarına verildi. Ondan sonra isə quyuları Mirzəyev icarəyə götürmüşdu. General Qolovinin 16 avqust 1825-ci il tarixli təliqəsinə əsasən Tarumovun dövründə Bakıda neft hasilatı 16 min xalvara çatmışdı. Bir müddətdən sonra quyuların istismarını hökümət təzədən öz əlinə aldı. Hökümət sərəncamına

keçəndən sonra quyulardan cəmi 12 min xalvar neft alınmışdı. Buna da əsas səbəb baxımsızlıq üzündən quyuların uzun müddət təmir olunmaması idi.

Qraf Vorontsovun Qafqaza canişin təyin edilməsi ilə neft hasilatı sahəsində böyük bir canlanma başlayır. Canişin neftdən dövlət xəzinəsinə böyük gəlir gələcəyini düşünərək, neft çıxarılması ilə yaxından maraqlanır və bu işə rəvac verir. O 1847-ci il 14 iyulda imperator Nikolaya göndərdiyi təliqəsində yazırdı: "Neft quyularının azlığını və neftə olan tələbatı nəzərə alaraq, Şamaxı Dövlət palatasına icazə vermişəm ki, Bakı qəzasında Xəzər dənizi sahilində Beybad (yəqin ki, Bibiheybət nəzərdə tutulur - Q.İ.) və Balaxanada quyular qazıb neft çıxarsınlar. Lakin Beybadda neft çıxsa da gələcəyi yoxdur. Balaxana meydançasında qazılmış iki quyudan isə təmiz neft çıxmışdır. Bu iki quyu təkcə fevral ayında 600 pud neft vermişdir. Bunu nəzərə alaraq, palataya təklif etmişəm ki, Balaxana meydançasında quyu qazmağı davam etdirsinlər".

Lakin neft ietehsalı sahəsindəki mövcud icarə sistemi neft hasilatının artmasına çox mənfi təsir bağışlayırdı. Əvvəla icarəçilərlə bağlanan müqavilə əsasında onlar neftin pudunu 45 qəpikdən artıq satmamalı idilər. Əslində 45 qəpik özü də baha idi. Bununla da müştərilərin sayı getdikcə azalırdı. Bundan başqa icarə sisteminin ən böyük qusurlarından biri ondan ibarət idi ki, icarəçi dörd il müddətinə icarəyə götürdüyü quyuları, amansızcasına istismar edirdilər ki, icarə pulunu tezliklə çıxara bilsin. Quyularda heç bir təmirat işləri aparılmırdı. İcarəçini ancaq qazanc düşündürürdü. Bunun nəticəsində də quyular gücdən düşür və ya torpaqla dolurdu. Nəticədə neft hasilatı sürətlə aşağı düşürdü. Məsələn, 1825-ci ildə bütün quyulardan 200 min ton neft çıxarılmışdısa, 60-cı illərdə rəqəm dəyişmədən eyni ilə qalmışdı. Belə vəziyyət, əlbəttə, uzun müddət davam edə bilməzdi. Nəhayət, 1872-ci ildə icarə sistemi ləğv edildi. Hökümət neft mədənləri barədə təzə qayda yaratdı. Bu qaydaları həyata keçirmək məqsədilə Qafqaz canişinliyinin Baş idarəsi Bakıda olan bütün neft quyularının miqdarı və onların məhsuldarlığı barədə geniş məlumat topladı. Bununla əlaqədar xüsusi komissiya da ayrıldı. Komissiya toplanmış məlumatların əsasında bütün neft sahələrini hərəsi 10 desyatindən ibarət olmaqla 48 qrupa ayırdı. Belə sahələr əsasən Suraxana, Balaxana, Bibiheybətdə idi. Sahələrindəki torpaqlar birlikdə 322 desyatindən ibarət idi. Qərara alındı ki, bu torpaqlardan 180 desyatinə satılsın. 180 desyatin torpağa 552,221 manat qiymət qoyulmuşdu. Hərrac yolu ilə satışda isə torpaqlar bir milyon manata satıldı. Balaxanadakı 15 sahə cəmi 6 adam - Mirzəyev, Kokorev, Qubonin, Benkendorf, Vermişev və Leonozov tərəfindən alındı. Ən çox sahəyə Mirzəyev yiyələnmişdi. Bibiheybətdəki zəngin torpaqlar isə başlıca olaraq H. Z. Tağıyev, Zubalov tərəfindən alınmışdı. Yerdə qalan 142 desyatin torpaq barəsində isə belə qərarə alındı ki, bu yerlər Balaxana kəndlilərinə pay kimi ayrılsın. Ancaq bundan

qabaq hökümət həmin torpaqları general-leytenant Lazereva, knyaginya Qaqarinə və Qafqaz canişini Vorontsov-Daşkova pulsuz hədiyyə vermişdi.

İcarə sisteminin ləğvindən sonra xüsusi neft sahibkarları üçün geniş imkanlar açılmışdı. Neft hasilatı gündən-günə artmağa başlayırdı. Sahibkarlar güclü pul sərf edərək, neft hasilatını artırmaq üçün yeni üsullar axtarıb tapırdılar. 1870-ci ildə quyuların əl ilə qazılması vurma qazma üsulu ilə əvəz edildi. Buruqların sayı yağışdan sonra göbələk kimi artmağa başladı. 1872-ci ildə vurma üsulu ilə qazılmış cəmi 2 quyu vardısa 1878-ci ildə onların sayı 301-ə çatdı. Neft hasilatı da artdı. 1878-ci ildə 9.895,125 puda çatdı. Hasilatın çoxalması ilə neftin qiyməti də 45 qəpikdən 30 qəpiyə düşdü. Ümumiyyətlə 1877-1878-ci illər Bakı nefti tarixində fantanlar dövrü idi. Quyular o qədər fantan vururdu ki, sahibkarlar özləri bundan narazı qalmışdılar. "Bakinskaya izvestiya" qəzeti özünün 1878-ci il 47-ci nömrəsində yazırdı: "Neft çay kimi axır, böyük gölməçələr əmələ gətirir, hətta başqalarının sahələrini, çölləri də bürüyürdü". Fantanlar adi sahibkarları da birdən-birə milyonçuya çevirirdi. Məsələn, Balaxanada Vermişevin "Xələfi" şirkətinə məxsus bir quyu elə güclü fantan vurmuşdu ki, dörd bir yanı gölməçələr bürümüşdü. Sahibkar həmin ildə Bakıya gəlmiş Qafqaz canişinini qayıqla bu göllərdə gəzdirmək fikrinə düşmüşdü. Lakin külək olduğundan bunu həyata keçirə bilməmişdi.

Fantanlar Bakının şöhrətini Avropa ölkələrində daha da yüksəltdi. Bu xarici kapitalistlər üçün əsl sensasiyaya çevrilmişdi.

Beləliklə 70-ci illərin ortalarından xarici kapital Bakıya axışmağa başladı. İri maqnatlar və bankirlər Bakının zəngin yataqları hesabına daha da varlanmaq məqsədilə bir-birinin arxasınca böyük kapitalla Bakıya gəldilər. Birinci gələn İsveçli Nobel qardaşları idilər. Onlar 1879-cu ildə bərqərar olub "Nobel qardaşları" şirkətini təşkil edərək, fəalliyyətə başladılar. Birinci növbədə Balaxana və Sabunçuda ucuz qiymətə çoxlu torpaq sahələri aldılar. Onlardan sonra Parisdən bankir Rotşild gəldi. O da Nobel qardaşları kimi Bakı kəndlilərini aldatmaq yolu ilə çoxlu torpaq ələ keçirdi və "Kaspi-Qara dəniz" neft şirkətini təşkil etdi.

90-cı illərin axırında başda Cems Vişau olmaqla bir neçə ingilis maqnatı Bakıya gəldi. O zaman Vişaunun arxasında məşhur ingilis bankının direktoru E. Qubbard dururdu. Vişaunun Bakı nefti ilə bağlılığı H. Z. Tağıyev ilə başlayır. Hacı özünün Bibiheybətdəki neft mədənlərini 5 milyon manata Vişauya sataraq, özü də onların təşkil etdikləri şirkətdə payçı kimi, yəni şirkətin direktorlarından biri kimi qalır. Hacının mədənlərini almış ingilis şirkəti təkcə iki il içərisində 7250 mindən çox qazanır. Baxçasarayda çap olunan "Tərcüman" qəzeti 1898-ci ilin aprel ayında yazırdı ki, neftli torpaq almaq üçün Bakıya 30 nəfər ingilis sahibkarı gəlmişdir. Guya Peterburqdakı Amerika səfirinin arvadı da onların içərisindədir. O iki nəfər mühəndislə birlikdə çoxlu pul gətirmişdir.

Hələ 1878-ci ildə Amerika neft sahibkarları da Bakıya yol tapmışdılar. Birinci növbədə Rokfellerin "Standart Oyl" neft şirkətinin nümayəndəsi Herbert Tvidl guya Bakıda neft kəmərlərinin çəkilişini konsesiyaya götürmək bəhanəsi ilə Bakıya gəlir. Lakin o öz məqsədinə nail olmadıqda neftli torpaqlar almağa başlayır.

Xarici kapitalın Bakıya yol açması ilə neftli torpaqların qiyməti xeyli artdı. 1890-cı ildə Bakıda artıq 6 ingilis şirkəti, 3 fransız şirkəti, iki alman şirkəti, iki Belçika şirkəti və 1 yunan neft şirkəti fəaliyyət göstərirdi. Neftdən gələn gəlir ətrafında ehtiraslar təzədən qızışdı. Hərə çoxlu torpaq ehtiyatı ələ keçirməyə, neft hasilatını artırmağa can atırdı. Qızğın rəqabət başlamışdı. Bir tərəfdən xarici inhisarçılar, o biri tərəfdən yerli neft sahibkarları arasında əsl didişmə gedirdi. Fantanların sayı çoxaldıqca sahibkarlar elə bil quduzlaşırdılar. Yerli milli kapitalistlərdən-neftxudalardan H. Z. Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev, Murtuza Muxtarov, Səlimov və habelə erməni sahibkarlarından Mirzəyev, Montaşev, Şibayev, Leonozov, Şagedanov və başqaları əcnəbi neft sahibkarları ilə sanki yarışa girişmişdilər. Bu işdə iradə və dözümü olanlar udur, zəif və iradəsizlər isə güclülər tərəfindən udulurdu. Bəzən elə hallar olurdu ki, xüsusilə yerli əhalidən olan sənayeçilər bütün varını neft quyularının qazılmasına qoyur, lakin quyu neft vermirdi, ya da qazma zamanı böyük çətinliklərə rast gəlir, dəzgah sınır və qazmanı daha davam etdirmək mümkün olmurdu. Sahibkar da müflis düşürdü. Mayaları əldən çıxdığı üçün çoxunun başına hava gəlirdi. Psixi xəstəxanalara düşürdülər. Hətta özünü öldürən də olurdu. Ancaq möhkəm iradəli, səbatlı, dözümlülər öz məqsədlərinə əvvəl-axır nail ola bilirdilər. Belələrinə H. Z. Tağıyevi misal göstərmək olar. O 1873-cü ildə Bibiheybətdə aldığı torpaq sahəsində şərikləri ilə birlikdə böyük xərc töküb quyu qazıtdırmağa başlayırlar. Lakin nə qədər qazırlarsa, neft çıxmır. Günlər, aylar keçir, neftdən heç bir əsər görünmür, Hacının şərikləri neftdən əllərini üzür və paylarını alaraq aradan çıxırlar. Hacı isə neftin çıxacağına dərin inamla qazmanı davam etdirir. Çox çəkmir ki, quyu böyük fantan vurur və Hacı birdən-birə milyonçuya çevrilir. Zaman və dövr ancaq belə möhkəm, dözümlü adamların idi.

Bakıya neft iyinə gələn təkcə Avropa maqnatları deyildi. Böyük Rusiyanın da hər bucağından qazanc məqsədilə Bakıya gələnlərin sayı hesabsızdı. Onların içərisində dələduz və fırıldaqçılar da çoxdu. Rus dilində çap olunan "Bakı əxbarı" qəzeti 1878-ci il tarixli 15-ci nömrəsində dərc etdiyi "Torpaq əldə etmək" adlı məqaləsində yazırdı: "Hamı bu fikirlə razılaşar ki, son 5-6 il içərisində neft işləri sahəsində böyük qələbələr əldə edilmiş, istehsal olunan məhsul, demək olar ki, birə on qat artmış və ciblərində bir qəpiyi olmayanlar burada varlanmış və bunu görən fırıldaqçılar Rusiyanın hər tərəfindən dəstələrlə Bakıya axışıb gələrək, burada neft və neft məhsullarını istehsal etməklə məşğuldurlar. Qızğın fəaliyyət başlamışdır.

Yüngül qazanc ehtirası ilə Bakıya axışan Rusiyanın ən müxtəlif ünsürləri öz məqsədlərinə çatmaq üçün hər bir qanunvericilikdə nəzərdə tutulmamış ən müxtəlif cinayət yoluna qədəm qoymuşlar".

Belə adamlar Bakının neftli torpaqlarından özlərinə bir parça qoparmaq üçün, doğrudan da min bir fırıldaqdan çıxırdılar. Məsələn, gələn adam bir nəfərə 200 manat pul verərək, xahiş edir ki, torpaq almaq üçün kəndli ilə müqavilə bağlanmasında ona kömək etsin. O da buna əməl etməyə çalışır. Ancaq kənd əhalisinin yarıdan çoxu buna razılıq vermir. Müqavilə də o zaman qüvvəyə minirdi ki, əhalinin heç olmasa üçdə iki hissəsi razılıq versin. Gələn adam arada gəzən adamların vasitəsilə cinayətə əl atır. Neçə il qabaq ölmüş adamların, ya da xaricdə olanların əvəzinə imza edilir və beləliklə də müqavilə qüvvəyə minirdi. Bəziləri isə torpağı açıqdan-açığa zəbt edirdilər. Bir başqası isə torpaq sahəsini icarəyə götürür sonralar onu öz əmlakı hesab edirdi. Torpağı zəbt edənlərin şahidi də olurdu. Bu şahidlər özləri də torpaqları vaxtı ilə zəbt etmiş işğalçılardı. Ancaq bununla belə qonşuları üçün şahid dururdular ki, bu torpaq guya ata-babasından ona miras qalmışdır. Sonralar zəbt edilmiş bu torpaq sahələri qızıl pulla dövlətə satılırdı. Neftli torpağın müştəriləri artdıqca torpaqların qiyməti də bahalaşırdı. Həsən bəy Zərdabi Bakı torpaqları üstündə gedən didişmələri "Əkinçi" qəzetinin 1877-ci il tarixli 14-cü nömrəsində geniş təsvir etmişdir. O yazırdı: "...neft yerlərinin qiyməti həddən çıxıb. Məsələn bir şəxs keçən il 5 desyatin yeri 2 min 5 yüzə almışdı, 2 ay bundan əqdəm isə o şəxs zikr olunan yeri 8 adama 8 min manata satıb. İndi deyirlər ki, o 8 adamdan birisi öz hissəsini, yəni torpağın səkkizdən birini 18 min manata satır və yenə deyirlər ki, bir kəs bir desyatinin dörddən bir hissəsini icarəyə verib: yer sahibi 2 min manat verib, o yeri 12 ilə ona versin və bəşərti ki, bu 12 ilin müddətində o yerdən nə qədər neft çıxsa, onun nisfi (yarısı) yer sahibinin olsun və 12 ildən sonra o yer orada olan maetiyacları ilə yer sahibinə qalsın. Xülasə yer alan, yer satan həddən çıxıb, küçə və bazarlarda 1 neft və cövhər sözü danışılır. Natariusxanalarda neftli yeri aldı-satdı kağızlarını yazmağa növbət çatmayır. Badkubədə sakin olanlar keşişdən tutmuş qulluq əhlinədək, tacirlərdən tumuş ədna papaqçıya, şam tökənədək öz işlərini tullayıb, bir neçə adam şirkət edib Molla Nəsrəddin torba götürüb, Sarı qayaya bostan uruya gedən kimi olan-olmazlarını yığıb Sabunçu bəylərinin yanına yer almağa və Qara şəhərə şəhərdən kənar o zavodlar olan yerdə zavod tikdirməyə gedir ki, bir, ya iki ilə sahibi milyon olsun".

Kəndlilər bəzən öz torpaqlarını o şərtlə satırdılar ki, əgər satdığı torpaqdan neft çıxarsa, sahibkar onu mədəndə işə götürsün. Sahibkarlar isə öz vədlərinə həmişə xilaf çıxardılar. Bununla belə pula aldanan kəndlilər öz torpaqlarını satmaqdan çəkinmirdilər. O illərdə Balaxana kəndliləri o qədər torpaq satmışdılar ki, pula pul demirdilər. Kağız əskinazları hətta arabalarının böyrünə yapışdıraraq, fəxr edirdilər.

Yuxarıda göstərildiyi kimi 1872-ci ildə icarə (iltizam) sisteminin ləğvindən sonra əmələ gəlmiş neft bolluğu böyük böhrana səbəb oldu. Nefti dəniz və başqa vasitələrlə başqa şəhərlərə göndərmək də çətinləşdi. Neftin çoxusu neft anbarlarında yığılıb qalmışdı. Mədənlərdə qazılmış xəndəklər ağzınadək neftlə dolu idi.

Xaricə neft və kerosin daşınması gec-tez qaydaya düşdü. Hətta qısa müddət ərzində Bakı nefti dünya bazarlarında Amerika neftini sıxışdırmağa başladı. Bunu aşağıdakı cədvəldən görmək olar. Rusiyaya daşınan Amerika nefti ildən-ilə azalmağa başlayır, onun yerini Bakı nefti tuturdu:

| **İllər** | **Amerika nefti** | **Bakı nefti** |
|---|---|---|
| 1864 | 100 | 0 |
| 1865 | 100 | 0 |
| 1868 | 100 | 0 |
| 1869 | 88 | 12 |
| 1870 | 86 | 14 |
| | | 55 |
| 1879 | 20 | 80 |
| 1881 | 10 | 90 |
| 1882 | 4 | 96 |

1883-cü ildə isə Amerikadan Rusiyaya neft və kerosin daşınması tamamilə dayandırılır.

Bu illərdə Bakı neftinin Amerika neftinə nisbətən üstün cəhətləri çox idi. Əvvəla o daşlıq yerdə deyil, qum-gil yataqlarında idi. Buna görə onu çıxarmaq daha asan idi. İkincisi Bakıda neft ehtiyatı Amerika neftinə nisbətən daha çox idi. Fantan zamanı yataqlar daha çox neft verirdi. Bakı nefti Amerika neftinə nisbətən ağırdı. 30 faiz neft verməkdən başqa ondan çoxlu miqdarda ağır yağlar-solyar, astrolin və başqa müxtəlif sürtgü yağları alınırdı.

Neft istehsalı və emalı sahəsində iltizam sistemi ləğv olundusa, 1875-ci ildə aksiz (əlavə vergi) sistemi tətbiq edildi. Bunun nəticəsində neftin çıxarılması sahibkarlara baha başa gəlirdi. Araya çıxan çətinlikləri sahibkarlar ancaq aksiz sistemində görürdülər. Buna görə qəzetlər sahibkarların səsinə qoşularaq, aksiz sisteminə qarşı öz etirazlarını bildirirdilər. 1877-ci ildə aksiz sistemi ləğv edildi. Neft sahibkarları təzədən əl-qol açdılar.

Bakı torpaqlarından xarici kapitalın qoyuluşundan sonra neftin çıxarılması sahəsində əsl mənada dirçəlmə yarandı. Əski üsullarla neft çıxarılması yeni

texnologiya ilə əvəz edildi. Mədən sahələri genişləndi. Neftin emalı yeni vüsət aldı. Neftin emalı, yəni distillə edilməsi hələ qədimdən məlumdu. Sonralar 1837-ci ildə N. İ. Voskoboynikovun Balaxanada icad etdiyi neftayırma qurğusunda üç il müddətində 19.4 ton neft distillə edilmişdi. Voskoboynikovdan sonra bakılı C. Məlikov tərəfindən neft emalında yeni texnologiya tətbiq edilsə də, alınan məhsulun miqdarı, yəni kerosin, benzin və sürtgü yağlarının istehsalı çox az idi. Lakin cüzi miqdarda istehsal olunan neft məhsulları artmaqda olan neft sənayesini qətiyyən təmin etmirdi. 1860-cı ildə rus tacirləri Kokorev və Qubonin tərəfindən Suraxanada Atəşgah yaxınlığında neft emalı zavodu təşkil olundu. Kokorev əvvəllər kerosini çox ibtidai üsulla neftli torpaqdan və qırdan alırdı. Alınan yeni məhsul yəni kerosin o zaman fenuqen adlanırdı. Zavodun dəzgahlarını Kokorev qonşuluqda olan Atəşgahın qazı ilə isidirdi. Lakin qırdan və neftli torpaqdan kerosin almaq o qədər də lazımi nəticə vermirdi. Zavodda iş ləngiyirdi. Bu zaman Kokorev Moskva universitetinin magistri Enxleri köməyə çağırdı. Enxler ona təklif etdi ki, kerosin almaq üçün Suraxananın ağ neftinə keçmək lazımdır. Çünki qıra və neftli torpağa nisbətən neftdən kerosin almaq daha asan və xeyirlidir. O da qeyd edilməlidir ki, Suraxana nefti cəmi 25 faiz kerosin verirdi. Enxlerin məsləhətindən sonra zavodda kerosin ağ neftdən alınmağa başlandı. Ancaq bununla belə Kokorevin işi yenə də irəli getmirdi. Çünki emal çox ibtidai şəkildə aparılırdı. Zavod zərər çəkirdi. Hətta onun bağlanması təhlükəsi vardı. Kokorev bu dəfə Sankt-Peterburq universitetinin dosenti Mendeleyevi 1863-cü ilin payızında Bakıya çağırır. Məşhur kimya alimi zavodda neftin emalı ilə ətraflı tanış olduqdan sonra zavodda neft emalının yaxşılaşdırılması və zavodu zərərdən qurtarmaq üçün bir sıra təkliflər irəli sürür. Bu təkliflərdən biri ondan ibarət idi ki, zavod ancaq gündüzlər deyil, ardı kəsilmədən gecəli-gündüzlü işləməlidir. Neftin emalına tənəffüs verilməməlidir. Bundan başqa neftin taxta çəlləklər və barjlarla daşınması zamanı itkiyə yol verməmək üçün onların möhkəmlənməsində emallı yapışqandan istifadə edilməlidir. Ümumiyyətlə Mendeleyev məsləhət görmüşdü ki, zavod neft quyularına yaxın olmalıdır ki, neftin arabalarla daşınması zamanı itkiyə yol verilməsin.

Mendeleyevin təklifləri nəticəsində Kokorevin zavodunda kerosin istehsalı xeyli artır. Zavod mənfəətlə işləməyə başlayır. Ancaq bu müvəqqəti bir hal idi. Çünki zavod sahibkarının hökümətlə bağladığı müqavilədəki maddələr zavodun işinə hələ də mənfi təsir bağışlayırdı. İcarə müqaviləsi zavod sahiblərini məcbur edirdi ki, neft emal olunandan sonra neftin qalığını hökümətə versin. Hökümət sonra bu qalıqlara azca neft əlavə edib, təzədən xam neft kimi zavodlara satırdı. Qalqının pudunu 15 qəpiyə alır, 45 qəpiyə satırdı. Müqavilə şərtlərinə görə zavodlar (belə zavodlardan üç-dördü vardı) kerosini onlar üçün müəyyən edilmiş qiymətdən artıq sata bilməzdi. Aksiz sistemi də sahibkarların qazancına böyük

ziyan vururdu. Ancaq bununla belə Bakı kerosini Amerika kerosininə görə keyfıyyətcə aşağı olmasına baxmayaraq, rus bazarlarında satılırdı. Bu illərdə baş vermiş iki böyük hadisə Bakı kerosininin Rusiya bazarlarında daha geniş satılmasına kömək etdi. Bu hadisələrdən biri 1877-ci ildə aksiz sisteminin ləğvi, o biri isə Amerikadan gətirilən kerosinə böyük gömrük xərci qoyulması idi. Həmin ildən gömrük xərci qızılla ödənilməyə başladı. Bu da Amerika neftinin Rusiyaya daşınmasının qarşısını aldı. 1883-cü ildə Amerikadan kerosin daşınması tamamilə dayandırılmışdı.

Kokorevlə demək olar ki, eyni zamanda aptekçi N. İ. Vitte də Pirallahı adasında neft emalı zavodu açmışdı. Zavod boş, susuz, hər cür yaşıllıqdan məhrum çılpaq adada təşkil olunmuşdu. Adaya su qayıqlarla Abşeron mayağının yanındakı şirin sulu quyudan daşınırdı. Vitte şirkətinin neftdən aldığı başlıca məhsul parafin idi. O parafin yağından şam və başqa məhsullar düzəldirdi. Böyük məharət və səliqə ilə düzəldilmiş bu məhsullar sonralar 1864-cü ildə Moskvada keçirilmiş Ümumrusiya sərgisində yüksək qiymətə layiq görülmüşdü. Bir müddətdən sonra Qafqaz canişini Aleksandr İvanoviç Baratınskinin xahişi ilə Pirallahı adasındakı bu zavod ömürlük onun sərəncamına verilmişdi. Bütün sahə 100 desyatin torpaqdan ibarət idi. Bu torpaqdan ötrü Baratınski hər desyatinə görə hökümətə 25 qəpik pul verirdi. Bundan başqa üstəlik adadakı neft quyuları, qır və başqa yanacaq yataqları da ona icarəyə verilmişdi. Bu sonuncular üçün knyaz hökümətə hər il 1000 manat gümüş pul verirdi. Bu da o zaman üçün çox cüzi bir məbləğ idi.

Əcnəbi kapitalistlər və habelə yerli Azərbaycan və erməni burjuaziyası da neftin emalı ilə məşğul olmağa başladılar. Hələ 1868-ci ildə Bakıda 23 kiçik neftayırma zavodu işləyirdi.

1875-ci ildə isə neft emalı zavodlarının sayı artıq 62-yə çatırdı. Bununla yanaşı neftin emalı zamanı alınan məhsulun keyfiyyətini yaxşılaşdırmaq üçün sahibkarlar yeni emal üsulları və vasitələr axtarmaqla məşğuldular. Kerosin artıq daxili bazar hədlərini aşaraq, xarici dünya bazarlarına yol tapırdı. Bundan ruhlanan neft sahibkarları buraxılan məhsulun; kerosinin, sürtgü yağlarının keyfiyyətini daha da artırmaq, nefti daha da artırmaq, nefti daha yaxşı təmizləmək üçün Avropa ölkələri ilə iş əlaqəsinə girişirdilər. Məlumdur ki, emal zamanı daha təmiz məhsul almaq üçün kükürt turşusu lazımdır. Zavodlar onu xaricdən alırdılar. Onu xaricdən daşımaq isə böyük xərclə əlaqədar idi. Buraya onun nəqliyyatla daşınması və gömrükxana xərcləri də daxil idi. Bu bir tərəfə qalsın, kükürt turşusunun daşınması təhlükəli idi. Buna görə gəmi sahibləri bundan imtina edirdilər. Bir çıxış yolu tapmaq lazım idi. Neft sahibkarları məcbur oldular ki, Qara şəhərdə öz xüsusi zavodlarını yaratsınlar. Belə zavod 1879-cu ildə ilk dəfə S. Şibayev tərəfindən yaradıldı. Zavodun layihəsini alman mühəndisi Tiss vermişdi. Ondan sonra başqa sahibkarlar da özləri üçün kükürt turşusu zavodları tikdilər. 1883-cü ildə "Nobel

qardaşları" şirkəti, 1885-ci ildə Skvortsovlar, 1889-cu ildə Adamov və başqaları belə zavodlar inşa etdilər. Qısa müddət ərzində Qara şəhər əsl kimya mərkəzinə çevrildi. Təkcə "Nobel qardaşları" şirkəti tərəfindən Qara şəhərdə kükürt turşusu zavodu, kerosin zavodu, benzin zavodu, parafin zavodu, sürtgü yağları zavodu, geniş mexaniki zavodlar, qaz zavodu, taxta doğrayan zavod və sairə çəllək emalatxanaları tikilmişdi. Bunlardan sonra işlənmiş kükürt turşusundan təzədən istifadə etmək qərarına gəldilər, çünki tikilmiş zavodlar hələ də artan tələbi ödəyə bilmirdilər. Zavodda yığılıb qalmış qalıqları təzədən işlədib, mənfəət almaqdan başqa zavodun ətrafı da zibillərdən təmizlənirdi. Həmin illərdə mühəndis Y. Estlyander daha səmərəli bir təklif irəli sürdü. Bu da turşu qalıqlarının sobalarda qızdırılması idi. Bu proses zamanı qara qətran kütləsindən ibarət qara turşudan qətran ayrılır və qara turşu alınırdı. Bu əsasda 1888-ci ildə "Kianda" firması xüsusi zavod da tikdirmişdi. Firma bir il ərzində 3334 ton qalığını yenidən işləyərək, 2500 tonadək "qara turşu" almışdı. Ayrılmış qətrandan da asfalt kimi istifadə edilirdi. Birinci Cahan müharibəsi ərəfəsində Bakıda yeddi kükürt turşusu zavodu vardı. Zavodların nəzdindəki laboratoriyalarda neftdən daha çox məhsul almaq üçün gecəli-gündüzlü iş gedirdi və tanınmış kimyaçılar bu işə çəlb edilmişdi.

O illərdə neft emalında soda istehsalının da böyük əhəmiyyəti vardı. Keçən əsrin 80-ci illərində yalnız susuzlaşdırılmış təbii sodadan istifadə edilirdi. Bunu şoran torpaqlarda yetişən və tərkibində natri birləşmələri olan bitkidən alırdılar. Bu sodadan əsas etibarilə sabun bişirilməsində istifadə olunurdu. Neft emalı meydana çıxandan sonra istehsalatda xam nefti təmizləməyə lazım olan natrium hidroksid alınmasında ondan istifadə edilirdi. Kükürt turşusunun qalıqlarını neytrallaşdırmaq üçün lazım olan natrium hidrokisid o zaman İngiltərədən gətirilirdi ki, bu da sahibkarlara çox baha başa gəlirdi. Buna görə onu Bakının özündə hazırlamaq ehtiyacı meydana çıxdı. Bakıda bunun üçün lazımi şərait olduğundan qələvi tullantılarından natrium hidroksid almağa başladılar. 1885-ci ildə "Nobel qardaşları" şirkətində mühəndis K. Friç ixtira etdiyi bir aparat vasitəsilə neft qalıqları qələvisindən kalium-natri almağa başladı. Çox çəkmədi ki, Bakıda ilk dəfə olaraq, qələvi qalıqlarını emal edən zavod açıldı. Sonralar belə zavodların sayı çoxaldı və 1890-cı ildə H. Z. Tağıyev də belə bir zavod tikdirdi. Daha sonra S. Şibayev, S. Dembo və başqaları da Qara şəhərin müxtəlif yerlərində bu tipli emal zavodlarının sayını artırdılar.

19-cu əsrin axırlarında və 20-ci əsrin əvvəllərində Bakıda kimya zavodlarının sayı daha da artdı. Məsələn, 1896-cı ildə kuporos zavodu, 1898-ci ildə rəng zavodu, 1906-cı ildə tartarat turşusu zavodu, 1910-cu ildə his zavodu, 1914-cu ildə zəy zavodu, 1915-ci ildə karbid zavodu, 1916-cı ildə neft quyuları suyundan yod və brom alan zavod və başqaları Qara şəhərin simasını tamamilə dəyişdi. Bu zavodların siyahısına 1906-cı ildə açılmış Bakıda ilk azot turşusu zavodunu da

əlavə etsək, Qara şəhərin nəhəng bir kimya şəhərinə çevrildiyini təsəvvür etmək olar. Zavodların bacalarından qalxan qucaq-qucaq tüstülər qara bir bulud kimi şəhərin üzərini bürüyürdü. M. Qorkinin dediyi kimi burada əsl cəhənnəm mənzərəsi yaranmışdı. Müxtəlif kimyəvi maddələrin iyindən zavodların ətrafından keçmək mümkün deyildi.

Neft istehsalı sahəsində əcnəbi kapitalistləri ilə yanaşı milli Azərbaycan burjuaziyası da neftin çıxarılması və emalı işinə yaxından girişmişdi. 1889-cu ildə cəmi 3 müsəlman firması vardısa, 1899-cu ildə 8-ə, 1905-ci ildə isə 11-ə çatmışdı. Sonrakı illərdə neft çıxarma firmalarının sayı daha da artır. Lakin bunların içərisində bir çox kiçik firmalar vardı ki, iri şirkətlərlə rəqabətə dözə bilmir, ya birləşməli olur ya da tamamilə iflasa uğrayırdılar. Meydanda "Nobel qardaşlarının", Rotşildin, Şibayevin, ingilis Cems Vişaunun, Belçikanın, Almaniyanın, Amerikanın iri güclü neft şirkətləri mövcud olduğu illərdə belə firmalar çox miskin görünürdülər. Yalnız Ş. Əsədullayevin, H. Z. Tağıyevin, Aşurbəyovların, Musa Nağıyevin, Murtuza Muxtarovun neft şirkətləri əcnəbi və iri erməni şirkətləri ilə rəqabət apara bilirdilər. Neftin çıxarılması sahəsində yeni üsullar tətbiq olunurdu. 1871-ci ildə Balaxanada mexaniki üsulla 64 metr dərinliyində qazılmış quyu fantan vurdu. Bununla da sözün əsl mənasında neft sənayesinin əsası qoyuldu. Neft quyuları əvvəllər vurma üsulu ilə ştanqla qazılırdı. Mexanikləşdirilmiş ştanqla vurma üsulu 1884-cü ildə Bakıda neft sahibkarı Lents tərəfindən tətbiq edilmişdi. Bu üsul sonralar xarici ölkələrdə də Bakı qazma üsulu adı ilə şöhrət tapmışdı. Çox çəkmədi ki, 1896-cı ildə ştanqların endirilib, qaldırılması kimi əsas və köməkçi işləri icra edən dəzgah yaradılmaqla Bakı qazma üsulu daha da təkmilləşdirildi. Dəzgahın ixtiraçısı olan Bakı milyonçusu Murtuza Muxtarova bundan ötru patent verildi.

80-ci illərin sonunda dünyada ilk dəfə olaraq, ABŞ-da fırlanma rotor qazma üsulu tətbiq olundu. Rotor qazma üsulu əvvəla qazmanın sürətini xeyli artırırdı. O biri tərəfdən quyuların diametrini nisbətən kiçiltməyə, sərf olunan metalın azalmasına və qazma müddətini qısaltmağa imkan yaratdı. 1901-ci ildə Suraxanada ilk dəfə olaraq, bu üsulla qaz quyusu qazıldı. 1901-ci ildən Bakının neft mədənlərində buxar maşınlarını əvəz edəcək elektrik mühərriklərindən istifadə olunmağa başlandı. 1920-ci ilədək Bakıda fırlanma üsulu ilə 35 neft quyusu qazılmışdı.

Neft istehsalı artdıqca onun xarici bazarlara göndərilməsi sahibkarlar qarşısında ən mühüm məsələ kimi dururdu. Xüsusilə aksiz sisteminin ləğvindən sonra Volqa boyu ilə o qədər neft göndərilmişdi ki, bazarlar neftlə dolmuşdu. Fenuqenin qiyməti də aşağı düşmüşdü. Bu ondan əmələ gəlmişdi ki, başları neft çıxarılması ilə məşğul olan sahibkarlar çıxarılan neftin vaxtında xarici bazarlara daşınması üçün nəqliyyatın qeydinə qalmamışdılar. Onlar unudurdular ki,

istehsalın çoxalması ilə məhsulun daşınma vasitələri də inkişaf etdirilməlidir. Sənaye sürətlə inkişaf edir, daşınma vasitələri isə ibtidai şəkildə qalmışdı. Hətta neftin çıxarıldığı yerlə onu emal edən zavodların da arasında böyük məsafə vardı. Neft zavodlara at arabası ilə daşınırdı. Bu yolla da neftin daşınması hava şəraitindən asılı olaraq qalırdı. Həm də daşınma çox baha başa gəlirdi. H. B. Zərdabi "Əkinçi" qəzetinin 1877-ci il 1 yanvar tarixli nömrəsində yazırdı: "Balaxanadan zavodlara arabaçılar, 7-8 verst yoldur, pudu bir şahıdan - neft daşıyıb, bol pul qazanırlar. Deyirlər arabaçılar zavod sahiblərindən yarım milyon manat pul alıblar".

Belə daşınma xərclərini aradan qaldırmaq və zərəri azaltmaq məqsədilə iri firma sahibləri neftin mədənlərdən zavodlara daşınması üçün yeni nəqliyyat vasitələri düşünməyə başladılar. Bu işdə ilk addımı "Nobel qardaşları" şirkəti atdı. O Balaxanadan Qara şəhərə neft kəməri çəkdirdi. Çox çəkmədi ki, kerosinin xarici bazarlara boçkalarla daşınması da Nobellər tərəfindən ləğv edildi, əvəzində neftdaşıyan gəmilər-tankerlər yaradıldı. Neftin sisternlərdə dəmir yolu vasitəsi ilə daşınması və neftin dəmir rezervuarlarda saxlanması da Nobel qardaşları tərəfindən tətbiq edilmişdi. Nobellər Bakı neft sənayesi sahəsində bir sıra yeniliklər yaratmışdılar ki, bunlar barədə "Nobel qardaşları" şirkətinə həsr olunmuş xüsusi fəsildə məlumat veriləcəkdir.

Balaxana-Qara şəhər neft kəmərinin çəkilməsi neft daşımaqla böyük gəlir əldə edən Balaxana arabaçılarını çıxılmaz vəziyyətə saldı. "Nobel qardaşları" firmasına qarşı etiraz səsləri ucaldı. Hətta neft kəmərlərini partlatmaq təhlükəsi də meydana çıxdı. Qorxuya düşən "Nobel qardaşları" firması Balaxanadan başlayaraq, Qara şəhərədək kəmər boyu kazak keşikçi dəstələri qoydular. Kəmərdən neft oğurlamaq halları da tez-tez baş verirdi. Oğurluqda təqsirləndirilən iki nəfər Maştağa və Keşlə əhli məhkəməyə də verilmişdi. Bu adamlar gizli yollarla kəmərdən deşik açaraq, min pudlarla neft oğurlamışdılar.

Sonralar neftin müntəzəm olaraq, xarici ölkələrə daşınması bütün Bakı sənayeçilərini düşündürməyə başlamışdı. Mendeleyev hələ 1860-cı ildə belə bir nəticəyə gəlmişdi ki, sənaye istehsalı istehlakçılara mümkün qədər yaxın olduğu zaman daha çox tərəqqi tapır. Buna görə zavodlar xammalın çıxarıldığı mərkəzdə deyil, istehlakçıların yaxınlığında olmalıdır. Buradan da nəticə çıxarırdı ki, neft kəməri olmasa, Bakıda neft sənayesi öz inkişafını dayandırmalıdır.

## BAKI-BATUM NEFT KƏMƏRİ

Kəmərin çəkilişi ərəfəsində bəziləri belə bir iddia irəli sürürdülər ki, çəkiləcək kəmər Bakı neft sənayesinin iflasına səbəb olacaqdır. Bu əlbəttə səhv fikir idi. Çünki Bakıda çıxarılan neftin ancaq kiçik bir hissəsi Batum zavodlarına

göndəriləcəkdi. Qalan neft isə Xəzər dənizi və Volqa vasitəsilə Volqaboyu vilayətlərə və Sibirə göndərilə biləcəkdi. Bunu nəzərə alaraq, imperator 1887-ci ilin aprelində kəmərin çəkilməsinə fərman verir. 1897-1906-cı illər arasında kəmər rus mühəndisi və alimi V. Q. Şuxovun rəhbərliyi altında çəkilmiş və 1907-ci ildə daimi istismara verilmişdir. 840 verst uzunluğunda olan Bakı-Batum neft kəməri 21 milyona başa gəlmişdi. Bəzi mənbələrdə kəmərin uzunluğu 867, başqa bir mənbədə isə 833 verst göstərilir.

Əlbəttə bu uzunluqda kəmərin çəkilməsi böyük məsuliyyət tələb edirdi. Buna görə əcnəbi mühəndisləri onun çəkilişindən imtina etmişdilər. Hətta o illərdə amerikanlar da bu uzunluqda kəmər çəkilişinə cəsarət etməmişdilər. Yalnız məşhur rus mühəndisi bu məsuliyyəti öz üzərinə götürmüşdu.

Sonralar Sovet hakimiyyəti illərində neft ixracatının artması ilə əlaqədar olaraq, 1928-ci ildə Bakı ilə Batum arasında on düyməli ikinci bir kəmər də çəkildi. Bu kəmər 1930-cu ilin fevralında istismara verildi. Lakin 1942-ci ildə kəmər söküldü. Çünki Böyük Vətən müharibəsi illərində ölkənin cənubunda olan neftayırma zavodlarının məhsullarını daha təhlükəsiz bir yerə, yəni Həştərxandan Saratova vurmaq lazımdı. Bu məqsədlə kəmərin sökülüb, borularından istifadə edilməsi qərara alınmışdı.

## QURULTAYLAR SOVETİ

19-cu əsrin 80-ci illərində Bakı sənayeçilərinin inzibati orqanı yaradılmışdı. Bu orqan Bakı neft sənayesi qurultaylarıdır. 1884-cü ilin əvvəllərində təşkil olunub. Cəmi 35 qurultay keçirilmişdi. Qurultaylara ən iri neft şirkətlərinin nümayəndələri seçilirdi. Qurultayların daimi orqanı isə 1-ci qurultayda seçilmiş Qurultaylar Soveti idi. Sovetə 1890-cı ildən başlayaraq, iri neft sahibkarları olan iki qardaş P. O. və A. O. Qukasovlar rəhbərlik edirdilər.

Təşkilat əsasən neft mədənlərində texniki nəzarətin möhkəmləndirilməsi, qazılan və istismar edilən neft quyularının texniki avadanlıqla təmin edilməsi, fəhlələr üçün yataqxanalar tikilməsi, fəhlə qəsəbələrinin salınması, mədənlərdə və sənaye müəssisələrində səhiyyə işlərinin təşkili və qaydaya salınması ilə məşğul olurdu. Təşkilatın vəsaiti ilə mədən polisi və kazak dəstələri də saxlanılırdı. Mədən və zavodlardakı tətillər zamanı bu silahlı dəstələrdən tez-tez istifadə olunurdu. Səhiyyə müəssisələri ilə yanaşı Qurultaylar Soveti fəhlə və qulluqçuların uşaqları üçün məktəb və kursların açılması ilə də yaxından məşğul olurdu. Fəhlələrin özləri üçün də gecə kursları təşkil olunurdu. Bayıl və Bibiheybətdə, Qara şəhər və Balaxanada el (narodnı) evlərinin tikilməsi də Qurultaylar Sovetinin sərəncamı ilə olmuşdur.

Qurultaylar Soveti öz fəaliyyəti barədə vaxtlı-vaxtında qurultaylara hesabat təqdim edirdi. Hökümət qarşısında neft sənayeçilərinin mənafeyini müdafiə etməyi Sovet özünün birinci dərəcəli vəzifəsi hesab edirdi. Neft maqnatlarının yüksək gəlirlərini təmin etmək Sovet üçün ali məqsəd idi. 1899-cu ildən Sovetin "Neftyanoye delo" adlı rəsmi orqanı dərc edilirdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Sovetin fəaliyyəti dayandırılmışdır.

## ERMƏNİ NEFT SAHİBKARLARININ HƏYASIZLIĞI

Bakı neft sənayesində erməni sahibkarlarının həyasızlığı son həddini aşmışdı. Onlardan Mirzəyev, Sarkisov, Qukasov, Şakedanov və onlarca başqaları Bakının Balaxana, Sabunçu, Ramana, Zabrat kəndlərində yerli əhalini aldatmaq yolu ilə çoxlu torpaq sahələri ələ keçirmişdilər. Ancaq iştahları bununla da azalmamışdı. Bu kəndlərdə yaşayan əhalini tamamilə köçürmək və kəndlərin bütün torpaqlarına yiyələnmək üçün Qafqaz canişinindən tutmuş imperatoradək ard-arası kəsilmədən ərizələrlə müraciət edirdilər. 1905-ci ilin sentyabr ayında Peterburqda neft sənayeçilərinin Bakı fəhlə nümayəndələri ilə (qeyd edilməlidir ki, Peterburqa gedən fəhlələrin əksəriyyəti menşevik şendirikovçulardan ibarət idi) birlikdə müşavirə çağırılmasına nail olmuşdular. Bu müşavirədə Azərbaycan ziyalılarından Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, İsrafil Hacıyev də iştirak edirdi. Qəribə orası idi ki, torpaqlarının alınması nəzərdə tutulmuş kənd əhlindən isə bircə nəfər də dəvət edilməmişdi. Erməni neft sənayeçiləri tələb edirdilər ki, Balaxana, Ramana, Sabunçu, Zabrat kəndlərinin əhalisi başqa yerə köçürülsün və onların bütün torpaqları neft istismarı üçün ayrılsın. Azərbaycan ziyalılarının qəti etirazı nəticəsində sənayeçilərin təklif və tələbləri rədd edildi. Bir il sonra, yəni 1906-cı ildə sənayeçilər bu dəfə Qafqaz canişininə müraciət etdilər. Onlar şikayətlənərək, iddia edirdilər ki, mədənlərdə baş vermiş yanğın və təxribat həmin bu kəndlərin əhalisi tərəfindən törədilir. Erməni sahibkarlarının həyasızlığı o dərəcəyə çatmışdı ki, torpaqları əllərindən alınmış kəndliləri mədənlərində işə də qəbul etmirdilər. "Həyat" qəzetinin 1906-cı il tarixli 80 və 81-ci nömrələrində Əliağa Həsənzadənin "Bakı neft mədənləri ətrafında olan kəndlərin köçürülməsi" barədə olan məqaləsində deyilirdi: "...mədən sahiblərinin tamamilə erməni olması və kənd camaatlarının tamamilə müsəlman olması cəhətdən bu məsələyə həddindən artıq əhəmiyyət vermək lazım gəlir. Çünki ixtilaf və iğtişaş hələ sönməmişdir.

Bu cürə xilaf təkliflərlə yaranmış fitnə və fəsadı oyadıb, cəmi Qafqaza od vurub, yandırmaq kimidir".

Həmin ildə Tiflisdə çap olunan "Arç" erməni qəzeti adları yuxarıda çəkilmiş dörd kənd əhalisinin hamısını quldur, soyğunçu, qaniçən kimi qələmə verib, hökümətdən təkidlə tələb edirdi ki, gərək həmin kəndlər köçürülsün.

Bəzi kəndlilər güc-bəla erməni sahibkarlarının mədən və zavodlarında işə düzələ bilsələr də sahibkarlar tərəfindən həmişə sıxışdırılırdılar. Ümumiyyətlə fəhlələrin vəziyyəti ağır idi. Azərbaycanlı fəhlələrin vəziyyəti isə iki qat çətin idi. O illərdə, yəni 1900-cü illərdə Bakı fəhləsinin əsas tərkibini yerli azərbaycanlılar (bunların da əksəriyyəti Bakı kəndlərindən idi), həmşərilər (o zaman Cənubi Azərbaycandan işləməyə gəlmiş adamları belə adlandırırdılar), ləzgilər, ruslar və tatarlar təşkil edirdi. Tatarlar ümumi fəhlələrin cəmi 7 faizini təşkil edirdi. Onlar bir qayda olaraq, açarçı, dartalçı, ocaqçı, əksər hallarda isə mehtər, nökər, arabaçı, suçu və süpürgəçi işləyirdilər. İranlı fəhlələr (həmşərilər) isə Bakıda çox qalmırdılar. Azca miqdarda pul əldə edən kimi İrana öz ailələrinin yanına qayıdırdılar. İşlədikləri yerdə məzuniyyətdən heç cür istifadə edə bilmirdilər. Çünki məzuniyyətdən qayıtdıqları zaman bəzən onları işə qəbul etmirdilər. Ya da əvvəlki vəzifəsindən xeyli aşağı vəzifəyə qəbul olunurdular. Əvvəllər əgər ayda 22-24 manat maaş alırdılarsa, indi 17-19 manat alırdılar. İranlılardan sonra Bakıya işləməyə gələnlər ləzgilər idi. 1897-1899-cu illərdə Bakıda fəhlələrin 13-15 faizini təşkil edirdilər. Əksəriyyəti mədənlərdə keşikçi işləyirdi. Bəzi hallarda isə sahibkarların sadəcə olaraq, silahlı dəstələrinə çevrilirdilər. Bu ancaq onların əksərən savadsız olmaları və həyatda gerilikləri ilə izah olunurdu.

Yaşayış mənzilləri və kazarmalar acınacaqlı vəziyyətdə idi. Bir kazarmada 30-40-ı yatırdı. Gecələr də kazarmalar ancaq hisli çıraqlarla işıqlandırılırdı. Qış aylarında pəncərələrin şüşələri həmişə sınıq olardı. Böyük kazarmalar adətən manqalla isinirdi. Neft firmalarının əksəriyyətində hamam yox idi. Su ya çatışmır, ya da çirkli olurdu. Bibiheybətdə Xetisovun kazarmalarında, Balaxanada Məlikovun, Aşurbəyovun mədənlərində, Rus "Neft" şirkətində, Ramanada "Molot" firmasında, Sabunçuda Mantaşovun firmasında vəziyyət daha ağırdı. O zaman şirkətlərin dükanlarında fəhlə nəqd pulla mal alanda ona nisbətən ucuz başa gəlirdisə, nisyə alanda bahalaşırdı. Məsələn, nəqd alanda ətin girvənkəsi 12 qəpiyə, nisyə alanda isə 15 qəpiyə başa gəlirdi.

Fəhlələrin iş şəraiti də çox ağırdı. XX əsrin əvvəllərinədək iş müddəti 10-12 saat idi. Sənayedəki böhran isə fəhlələrin vəziyyətinə xüsusilə ağır təsir bağışlayırdı. Müəssisələrdə fəhlələr kütləvi surətdə qovulur, işsizlik artır və əmək şəraiti daha dözülməz olurdu.

1901-1903-cü illərdə Bakı fəhlələrinin təxminən 30 faizi işdən qovulmuşdu. O biri tərəfdən Rusiyanın mərkəzi quberniyalarından iş axtarmaq məqsədilə Bakıya axışıb gələnlər işsizlər ordusunun sayını daha da artırırdı. Böhran dövründə Bakıya axışıb gələnlərin sayı o dərəcəyə çatmışdı ki, şəhər hakim dairələri

Həştərxan qubernatorundan tələb etməyə başladılar ki, Bakıya gələnlərin qarşısını almaq üçün ciddi tədbirlər görsünlər.

Həmin illərdə mədən və zavodlarda əmək mühafizəsi də acınacaqlı halda idi. Fəhlələr arasında xəstəliklər artmışdı. Xüsusilə göz və mədə xəstəlikləri geniş yayılmışdı. Şəhərdəki işsizlikdən istifadə edərək, sahibkarlar fəhlələri dəqiqəbaşı işdən qovmaqla hədələyirdilər. Fəhlələrlə kobud rəftar adi bir hal olmuşdu. Mirzəbegyansın tütün fabrikində əgər bir işçi bir neçə gün xəstələnirdisə, dərhal işdən qovulurdu.

Böhran əmək ilə kapital arasında ziddiyyəti daha da dərinləşdirdi. Bu da öz növbəsində şəhərdə inqilabi hərəkatın vüsət tapmasına səbəb oldu. 1901- ci ilin 24 martında Ter-Qriqoryevin tənbəki fabrikində, Sabunçuda "Remont" mexaniki emalatxanasında tətil edən fəhlələrin əsas tələbi əmək haqlarının vaxtında verilməməsi idi. Lakin polislər tətili yatırtdılar və onun bəzi iştirakçılarını həbsə aldılar. 1901-ci ilin 6 iyununda Balaxanada Luberskinin mexaniki emalatxanasında, 18-20 sentyabrda Balaxana yolunda olan Xetisovun mexaniki emalatxanasında da fəhlələr tətilə başladılar. Sonrakı aylarda belə tətillər tez-tez təkrar olunur və fəhlələr artıq siyasi tələblər irəli sürürdülər. Bu cəhətdən 1902-ci ildə Bakıda keçirilmiş siyasi nümayiş xüsusilə diqqətə şayan idi. 21 apreldə Bakının bütün rayonlarından 5 min fəhlə şəhərin Parapet meydançasına toplaşmışdı. Nümayişçilərin əllərində "Məhv olsun mütləqiyyət", "Yaşasın azadlıq" sözləri yazılmış şüarlar vardı. Mürtəce qüvvələr nümayişi dağıda bildilər, ancaq fəhlə kütlələrində yaranmış ruh yüksəkliyini və onların öz qüvvələrinə olan inamı qıra bilmədilər. Tətil ruhu hətta ən geridə qalmış şəhər fanarçılarını da ayağa qaldırmışdı. Onların tətili nəticəsində şəhərin çox hissəsi bir neçə gün qaranlıqda qalmışdı.

Hələ 1900-cü ildə Bakıda inqilabi ədəbiyyatı yaymaq məqsədilə Tiflis sosial-demokrat təşkilatı Lado Ketsxoveli adlı bir inqilabçını Bakıya göndərmişdi. O Bakıda mövcud olan sosial-demokrat dərnəklərinin işini qüvvətləndirməklə yanaşı şəhərdə gizli mətbəə də təşkil etməli idi. Lado Ketsxoveli ilə birlikdə bir neçə nəfər mürəttib də gəlmişdi. Ketsxoveliyə kiçik bir çap maşını da verilmişdi. Ancaq o Bakıya gələndən sonra bu maşınla kifayətlənməyib, yerli mətbəə sahiblərindən ikinci kiçik bir maşın da satın almışdı. Lakin bu maşın o dərəcədə kiçik idi ki, onda ancaq şagird dəftərinin iki vərəqi həcmində qəzet və ya inqilabi vərəqə çap etmək olardı. Beləliklə Bakıda gizli mətbəənin əsası qoyuldu. Bu mətbəə sonralar Bakının tarixində "Nina" mətbəəsi adı ilə şöhrət tapdı.

Mətbəə üçün indiki Füzuli küçəsi ilə Əzizbəyov küçələrinin tinində bina kirayə edilmişdi. Mənzil bir neçə otaqdan ibarət idi. Ketsxoveli ev sahibinə bu binada karton emalatxanası açacağını bildirmişdi. Mətbəədə inqilabi vərəqələr çap edilib, gizli yolla fəhlələr arasında yayılırdı. Sonralar Leninin göstərişi ilə "İskra"

qəzetinin matritsaları xaricdən gətirilərək, "Nina"da çap olunurdu. Matritsalar Vyanadan Təbrizə, Təbrizdən isə Bakıya gətirilirdi. Burada çap olunan "İskra" Rusiyanın hər tərəfinə yayılırdı. Polis qəzetin Bakıda çap olunmasından şübhələnərək, onun izinə düşməyə çalışdı. Çar məmurları bərk təşvişə düşmüşdülər. Nə yolla olursa-olsun mətbəənin yerini öyrənmək istəyirdilər. Lakin nə qədər səy edirdilərsə, axtarış heç bir nəticə vermirdi. 1901-ci il dekabrın 31-də baş vermiş hadisə Bakı jandarmasını sanki yuxudan ayıltdı və məlum oldu ki, mətbəə Bakıdadır. Həmin gün Bakı gömrükxanasında yüklər boşaldılarkən gizli gözü olan birqutu sınıb, içindən "İskra"nın oktyabr, noyabr və dekabr nömrələrinin matritsası yerə tökülmüşdü.

Bu hadisədən sonra şəhərdə ciddi axtarış başlanır. Mətbəənin izinə düşmək üçün başqa şəhərlərdən də xəfiyyə və casuslar çağırılır. Aydındır ki, belə şəraitdə mətbəəni əvvəlki yerində saxlamaq olmazdı. Mətbəə üçün Çadrovıda, indiki M. A. Əliyev küçəsində mənzil kirayə edildi və çap avadanlığı buraya daşındı. Həmin aylarda mətbəənin hürufatı Hacıqabul stansiyasında gizlədilmişdi.

Hürufatın Hacıqabul stansiyasından Bakıya daşınması V. Bakradze adlı bir maşinist köməkçisinə tapşırılmışdı. Hürufatın bir hissəsi, təxminən 10 puda qədəri sağ-salamat gətirilib, "Nina" mətbəəsinə verilmişdi. Yerdə qalan 4 pud 16 kirvənkəsi isə Hacıqabul stansiyasında Bakıya göndərilmək üçün parovoza daşınarkən yeşik yerə düşüb, parçalanmış və hürufat platformaya səpələnmişdi. Maşinist köməkçisi elə oradaca, həbsə alınmışdı. Çox keçmədi ki, polis Lado Ketsxovelini də ələ keçirə bildi. Tiflisin Metex həbsxanasında saxlanan Ketsxoveli həbsxana pəncərəsindən güllə ilə vurulub öldürüldü.

Ketsxovelidən sonra mətbəə şəhərin Təzəpir, indiki M. F. Axundov küçəsindəki 77 nömrəli evə köçürüldü. Polis xəfiyyələri hələ də onun yerini axtarıb tapmaq üçün dəridən çıxırdılar. Buna görə mətbəə yenə də yerini dəyişməli oldu. Bu dəfə 1-ci Paralel küçəsindəki 102 nömrəli evə köçürüldü. Bu küçə indi Salatın Əsgərova küçəsi adlanır. Mətbəənin binası isə muzeyə çevrilmişdir.

Bina bir mərtəbəli idi. Qabağında kiçik bir həyəti də vardı. Dal tərəfdən isə bir tövlə binaya bitişik idi. Burada at, fayton və saman saxlanılırdı. Mətbəə işçiləri bu tövlənin altını qazıb, bir yer düzəltmişdilər. Sonra isə tövlənin birtərəfi içəridən kərpiclə hörülmüşdü. Bu iş elə ustalıqla edilmişdi ki, tövləyə girənlər onun yuxarı başında kərpiclə hörülmüş otaq olduğunu heç cür güman etməzdilər. Tövlə tərəfdən isə heç bir şey dəyişməmişdi. Yenə də həmin atlar, həmin fayton və həmin samanlıq dururdu.

Yerin altında qazılmış bu mətbəəyə gizli bir yol gedirdi. Bu yol mətbəə işçilərinin tövlə ilə bitişik olan mənzilinin rəfindən açılmışdı. Camaxatanın iki qat qapısı və taxtadan ləmələri vardı. Camaxatanda qab-qacaq və başqa şeylər

qoyulmuşdu. Aşağıya, yəni gizli mətbəəyə gedən yolun ağzı taxta ilə bağlanmış və üstünə yorğan-döşək yığılmışdı.

Bu gizli qapı ancaq mətbəə işçilərinə məlumdu. Mətbəənin 8 nəfər işçisindən iki-üç nəfəri rəsmi kirayənişin hesab olunurdu. O birilər isə burada gizli yaşayırdılar.

Mətbəədə iş rejiminə ciddi riayət olunurdu. Hər gün azı on saat işləyirdilər. Onlardan heç birinin küçəyə çıxmağa ixtiyarı yox idi. Ancaq həftədə bir dəfə, o da axşamlar tək-tük bayıra çıxa bilərdilər.

Çap olunan ədəbiyyat o zaman D. Əliyeva küçəsində bir nəfər sosial-demokrat fəhlənin dülgər emalatxanasına daşınır və burada yeşiklərə vurulub, dəniz və ya dəmir yolu vasitəsilə Rusiyaya göndərilirdi.

Mətbəənin belə vüsətli və geniş fəaliyyəti şübhəsiz ki, böyük xərc tələb edirdi. Bakı sosial-demokratlarının maddi köməyindən əlavə görkəmli şəxsiyyətlər də bu işdə öz köməyini əsirgəmirdilər. Maksim Qorki və habelə 1903-cü ildə Bakıda qastrolda olmuş məşhur rus aktrisası Komissarjevskaya mətbəəyə böyük maddi kömək göstərmişdilər.

"Nina" mətbəəsi 1906-cı ilin əvvəllərinədək öz fəaliyyətini davam etdirmişdi.

Bakı fəhlələri içərisində görkəmli inqilabçılarla yanaşı bacarıqlı neft mütəxəssisləri də yetişmişdi. Bunlardan Piri Quliyev, Səməd Rzazadə, Zeynal Zeynalov (sonralar Dövlət Dumasına deputat seçilmişdi), Cənnətəli Əliyev, Hacı Şirəli Şərifov, Əsgər Kərimov, Amanulla Əliyev və başqaları neft istehsalı tarixində böyük şöhrət tapmışdılar.

XX əsrin əvvəllərində Bakı neft sənayesi sahəsində mövcud olan 167 neft sənayesi müəssisələrindən cəmi 49-u milli Azarbaycan kapitalistlərinin əlində idi. Ermənilərin isə 55 firması vardı. Qalan 21 firma rusların, 10 firma əcnəbilərin, 17 firma yəhudi kapitalistlərinin, 6 firma isə gürcü sahibkarlarının əlində idi. Azərbaycan milli kapitalistlərinin ixtiyarında əksərən xırda müəssisələr idi, az miqdarda orta səviyyədə duran müəssisələr də vardı. İnhisarçı kapitalın neft sənayesində hakim kəsildiyi illərdə Azərbaycan milli kapitalının mövqeyi çox zəif idi. Neft istehsalı və neft emalı sahəsində fəaliyyət göstərən yerli milli kapitalistlər əsasən aşağıdakılar idi: H. Z. Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev, Murtuz Muxtarov, Manafov, Əliyev, Sultanov, Cəbiyev, Əmir-Aslanov qardaşları, Aşurbəyov qardaşları, İ. B. Hacınski, Məmmədov, Hüseyn Məlikov, Mustafayev, Səlimov, Səlimxanov, N. M. Nuriyev, Mir Tağı Babayev, Məlik Ağamirov və başqaları.

Neftin mədənlərarası daşınması, onun vaxtlı-vaxtında emal zavodlarına çatdırılması sənayeçilər üçün çox mühüm və vacib məsələ idi. Nahayət, 1880-ci ildə Bakıda dar dəmir yolu çəkilib, istismara verildi. 45 verst uzunluğunda olan bu

yol şəhəri Balaxana-Sabunçu-Suraxana neft mədənləri ilə birləşdirirdi. Dar dəmir yolu birinci növbədə neftin zavodlara daşınmasına xidmət etməli idi. Sonralar neft kəmərləri çoxaldıqca dar dəmir yolu ancaq neftçi sərnişinləri daşımaqla məşğul olurdu. Hər gün orta hesabla 6 sərnişin qatarı şəhərə və habelə şəhərdən mədənlərə neftçi daşıyırdı.

1883-cü ildə Bakı ilə Tiflis arasında da dəmir yolu istismara verildi. Beləliklə İrandan, Orta Asiyadan gəmilərlə daşınan yüklərin Tiflisə və Batuma daşınması üçün böyük şərait yaradıldı. Həştərxandan göndərilən yüklər də dəmir yolu vasitəsilə Gürcüstana daşınırdı. Su yolu ilə quru yollar bir harmoniya təşkil etmişdi. İki ölkə arasında əmtəə mübadiləsi gündən-günə artırdı.

1905 inqilabı ərəfəsində kapital tədriclə iri bankların əlində toplaşmağa başladı. Banklar sənaye müəssisələri ilə əlaqələrini möhkəmlədərək, onların fəaliyyətini idarə etməyə başladılar. Bank kapitalı sənaye kapitalı ilə birləşərək, maliyyə kapitalı yarandı. Şəhərdə tezliklə sənaye banklarının şəbəkəsi genişləndi. Keçmiş Vorontsov, hazırki Əzizbəyov küçəsində Bakı şəhər kredit cəmiyyəti açıldı. Bundan sonra Bakı qarşılıqlı kredit cəmiyyəti yaradıldı. Bu Baratınski, indiki Ə. Əlizadə küçəsi ilə Milyutin, indiki Əliyarbəyov küçəsinin tinində Aşurbəyovun mülkündə yerləşirdi. Daha sonra bir-birinin dalınca aşağıdakı kredit cəmiyyətləri və banklar açıldı:

**Volqa-Kama kommersiya bankı.** Qorçakov (Tağıyev) küçəsi.

**Rus xarici ticarət bankı.** Keçmiş Polis (indiki Məmmədəliyev) küçəsi.

**Rus ticarət sənaye kommersiya bankı.** Milyutin küçəsi (indiki Əliyarbəyov).

**Tiflis dvoryan torpaq bankı.** Tağıyev küçəsi.

**Beynəlxalq kommersiya bankı.** İndiki Ə. Əlizadə və Əliyarbəyov küçələri.

**Rus-cənub sənaye bankı.** N. Rəfibəyli küçəsi.

**Şimal bankı.** İndiki Tağıyev küçəsi və Azərbaycan prospekti.

**İran hesab-borc bankı.** İndiki Neftçilər prospekti.

**İkinci Bakı qarşılıqlı kredit cəmiyyəti.** İndiki Məmməd Əmin Rəsulzadə küçəsi və başqaları.

Bu banklarda hər gün böyük pul maliyyə əməliyyatları aparılırdı.

## BAKI BİRJASI

1886-cı ilin ikinci yarısında Bakıda birja açıldı. Birja şəhərdə ticarət işləri ilə məşğul olan ticarət və sənayenin bütün sahələrində qarşılıqlı əlaqələri olan adamların daimi yeri idi. Şəhərdə ticarətin son dərəcə inkişaf etdiyi bir dövrdə birjanın böyük əhəmiyyəti və rolu vardı. Birja maliyyə nazirliyinin sərəncamında idi. Birjanın nəzdində Birja cəmiyyəti yaranmışdı. Birja cəmiyyətində onun üzvlük

haqlarını verməklə birinci və ikinci dərəcəli tacirlər, gəmi və zavod sahibləri yaxından iştirak edirdilər.

## NOBEL QARDAŞLARININ ŞİRKƏTİ

Nobel qardaşları Bakıya gəlmiş ilk əcnəbi iri sənaye sahibləri idi. Nobellər kimdir? Əslən İsveçli olan bu nəslin başında Emanuil Emanuiloviç Nobel dururdu. O rus dövlətinin dəvəti ilə 1837-ci ildə Rusiyaya gəlmişdi. Hələ İsveçdə ikən onun ixtira etdiyi sualtı minalar Rusiya hərbi dairələrinin diqqətini cəlb etmişdi. Rusiyaya köçdükdən sonra Peterburqda inşa etdirdiyi zavodda mina və başqa mexaniki məmulatlar istehsal etməyə başlayır. Krım müharibəsi zamanı hökümətin tapşırığı ilə Kronştadt və Sveaborq qalalarının ətrafını minalamaq kimi mühüm bir işin öhdəsindən müvəffəqiyyətlə gəlir. Ümumiyyətlə 1853-cü ildən 1856-cı ilədək sürən Krım müharibəsində Nobel rus ordusunu silah və mina ilə təchiz etmişdi. Müharibə qurtarandan sonra hökümət və ayrı-ayrı şəxslər tərəfindən sifarişlər azaldığından Emanuil müflis düşür və zavodu bağlayaraq, vətəninə qayıdır. Onun üç oğlu vardı: Lüdoviq, Robert və Alfred Nobel qardaşları. Emanuil Peterburqa gələndə böyük oğlu Lüdoviq 11 yaşında idi. O atasının yanında maşınqayırma sahəsində böyük təcrübə keçmişdi. Atası vətənə qayıtdıqdan sonra o Peterburqda qalıb, maşınqayırma işləri ilə məşğul olurdu. Sonralar Vıborq tərəfdə kiçik bir zavod alaraq, onu qısa müddət ərzində birinci dərəcəli zavoda çevirir. Lüdoviq çox energiyalı, ağıllı və tədbirli bir sahibkar idi. Onun üçün çətin və ağır heç bir iş yoxdu. Hər çətinliyin öhdəsindən məharətlə gəlirdi. Top istehsalı sahəsində onun zavodu tezliklə böyük müvəffəqiyyət qazanmışdı. Ölkənin müdafiəsi sahəsində göstərdiyi xidmətlərinə görə Lüdoviq hökümət tərəfindən ikinci dərəcəli "Anna" ordeni ilə təltif olunmuşdu. Onun hazırladığı top lülələrinin şöhrəti bütün dünyaya yayılmışdı. Mühəndis Pyotr Aleksandroviç Bilderlinqlə birlikdə təşkil etdikləri İjevsk zavodunda Berdanka tipli silahlar hazırlanırdı. 1868-1891-ci illərdə Berdanka rus ordusunun əsas silahı idi. Lüdoviq berdankalara taxta qundaq materialı hazırlamaq məqsədilə qardaşı Roberti Astara və Lənkəran meşələrində möhkəm ağac axtarmağa göndərir. Robert Bakıda olarkən neft istehsalı ilə maraqlanır və sahibkarların neftdən böyük gəlir əldə etdiklərinə şahid olur. Peterburqa qayıdandan sonra qardaşı Lüdoviqi razı salır ki, neftin gəlirli xammal olduğunu nəzərə alaraq, neft istehsalı ilə məşğul olsunlar. Qardaşının razılığını alandan sonra Robert az bir məbləğlə Bakıya qayıdaraq, burada kiçik bir zavod və torpaq sahəsi alır. Lakin vəsaiti az olduğu üçün istehsalatı genişləndirə bilmir. Lüdoviqi həmişəlik olaraq, Bakıya çağırmalı olur.

1879-cu ildə Bakıda "Nobel qardaşları şirkəti" təşkil olunur. Bu şirkətin müəssisləri üç qardaş: Lüdoviq, Robert, Alfred və bir də onların yaxın dostu, Lüdoviqlə İjevsk zavodunun əsasını qoyanlardan mühəndis Pyotr Aleksandroviç Bilderlinq idi. O şirkətin təşkil olunduğu ildən ta 1885-ci ilədək şirkətin idarə heyətinin üzvü, 1885-ci ildən ta ölümünədək, yəni 1901-ci ilədək şirkətdə təşkil olunmuş Sovetin sədri olmuşdu. Şirkətin əsas rəhbərliyi Lüdoviqin əlində toplaşmışdı. Hər şeyi həll edən əsas etibarilə o idi. Alfred təsisçilər siyahısına daxil edilsə də şirkətin işində bilavasitə iştirak etmirdi. O İsveçdə yaşayırdı. Görkəmli alim idi. Elmi əsərlərinə görə kimya elmləri doktoru adını almışdı. Bütün dünyada dinamitin və tüstüsüz barıtın ixtiraçısı idi. "Nobel qardaşları şirkəti"nin idarə heyətində yaxından iştirak etməsə də öz kapitalı və tətbiqi kimyanın böyük mütəxəssisi kimi öz məsləhətləri ilə şirkətə kömək edirdi. Şirkətdə onun da səhmi (payı) vardı. Ölümündən sonra 58 patenti və 50 milyon kapitalı qalmışdı. Bu məbləğin 12,4 faizi "Nobel qardaşları şirkəti"ndən Alfredə çatan pay idi. Öləndə vəsiyyət etmişdi ki, hər beş ildən bir onun kapitalından gələn gəlir insanlara xidmət etmiş şəxslərə mükafat kimi verilsin. İlk mükafat 1901-ci ildə verilmişdi. O vaxtdan "Nobel mükafatı" rəsmən müəyyən edilmişdi. Hər beş ildən bir onun kapitalından gələn gəlir 5 bərabər hissəyə bölünür və mükafat formasında fizika, kimya, fiziologiya, yaxud tibb və ədəbiyyat sahəsindəki nailiyyətlərə görə verilir.

"Nobel qardaşları şirkəti" fəaliyyətə başlamamışdan əvvəl neft çox ibtidai bir şəkildə, ibtidai vasitələrlə xanlıq dövründə olduğu kimi əsasən əllə çıxarılırdı. Neft çıxarılması tamam bərbad halda idi. Qazma işi ilə mükəmməl tanış olan adamlar çox az idi. Neft çıxarılması texnikasını təkmilləşdirmək Lüdoviq Nobeli çox düşündürür və bütün dünyada neft çıxarılması təcrübəsindən istifadə etmək və qazma işini nizama salmaq məqsədilə Pensilvaniyadan təcrübəli qazmaçılar çağırtdırır, habelə avstraliyalıların, amerikalıların iş təcrübəsini öyrənir. Bakının neft sənayesinə yeni nəfəs gətirən Nobel qardaşları burada çox baha başa gələn mürəkkəb təcrübələri sınaqdan çıxarırdılar. İlk dəfə olaraq buxar maşınından istifadə edirdilər. Başqa neft sahibkarları Nobel qardaşlarının bu axtarışlarına, yeniliyə can atmalarına həsədlə baxırdılar. Nobel qardaşları hər sahədə pioner idilər. Bütün işlərini elmi əsaslar və yeni texnika əsasında qurmağa çalışırdılar. Onlar qazma işlərində də ilk dəfə elektrik enerjisindən istifadə etməyə başladılar. Nobellərin təcrübəsindən bəhrələnməyə çalışan yerli, xarici kapitalistlər birinci növbədə onların ilk tətbiq etdikləri buxar maşınlarından istifadə etməyə girişdilər.

Qazma işləri ilə yanaşı olaraq, Nobel qardaşları əvvəlcədən alıb, saxladıqları torpaq sahələrində kəşfiyyat işlərini də davam etdirirdilər. Bu sahədə Nobellərdən irəlidə gedən ikinci bir şirkət yox idi. Çələkən və Pirallahı adalarında, Putada müntəzəm kəşfiyyat işləri aparılır və getdikcə geniş vüsət alırdı. Lüdoviq

Nobel qabağı görən və həmişə axtarışla məşğul olan bir adamdı, bütün maniələri yıxaraq, yorulmadan yeniliyə doğru can atırdı.

Onlar neftin emalı sahəsində də yeni axtarışlarla məşğul idilər. Neft emalının mövcud üsulu onları qətiyyən təmin etmirdi.

Bu illərdə Qara şəhərdə neftayıran zavodlar tikərək kerosin hasilatı ilə məşğul olanlar vardı. 1869-cu ildə artıq 23 zavod açılmış və onların sayı ildən-ilə artırdı.

Lakin icarə sistemi Bakıda neft istehsalının qarşısını alır və məhsuldarlıq azalırdı. İcarə sistemi zamanı neftin istehsalı xeyli aşağı düşmüşdü. Sahibkarlar tələb etməyə başladılar ki, kerosin zavodları və anbarlar üçün icarəyə verilmiş yerlər daimi olaraq, onların xüsusi mülkiyyətlərinə çevrilsin. Nəhayət 1873-cü ildə icarə sistemi ləğv olundu və hökümət böyük neft sahələrinin aksion satışına başladı. 180 desyatin neftli sahələr 3,5 milyon manata xüsusi şəxslərə satıldı. Belə sahələr əsas etibarilə Suraxanada və Bibiheybətdə idi. Suraxana torpaqları uğrunda gərgin rəqabət gedirdi. Əsas rəqabət Mirzəyev ilə Kokorev arasında idi. Bibiheybətdə isə aksion zamanı H. Z. Tağıyev tərəfindən 3 min manatlıq, Zubalov tərəfindən isə 18 min manatlıq torpaq sahələri alındı. Hər desyatin torpaq alıcılara orta hesabla 20-30 min manata başa gəldi.

Bu tədbir ona gətirib çıxardı ki, bu vaxtadək torpaq sahələrini çox qısa müddətə almış və buna görə də müəssisənin texniki quruluşuna böyük xərc çəkmək istəməyən sahibkarlar indi öz şəxsi sahələrinin istismarı üçün əsaslı avadanlıq düzəltməyə başladılar. Görülən tədbirlərin nəticəsində neft hasilatı artmağa başladı. Yeni axtarışlar, səmərələşdirici təkliflər irəli sürüldü. Artıq Amerikadan Rusiyaya nəinki kerosin gətirilmir, əksinə Bakı nefti Amerika neftini sıxışdırmağa başlamışdı. İndi rus kerosini xarici bazarları da təmin edirdi. Məsələn, 1881-ci ildə Rusiyadan xaricə göndərilən neft məhsulları bir milyon puddan artıq deyildi. 90-cı illərin əvvəllərində isə bu rəqəm 63 milyon yarıma çatmışdı.

Neftin istehsal edilməsinə də bunun böyük təsiri oldu. 1892-ci ildə Balaxanada neft quyuları qazma yolu ilə istismar olunmağa başladı. Bir quyudan bir sutka ərzində təxminən 1000 pud neft çıxarılırdı. Fantanların da sayı artmışdı. Məsələn, 1892-ci ildə Nobel qardaşlarının bir fantanı sutkada bir milyon pudadək neft verirdi.

Neft istehsalının artması neftin daşınması məsələsini də vacib məsələ kimi irəli sürürdü. Hər şeydən əvvəl neftin çıxarıldığı yerlərlə onun emal edildiyi yer arasında sərbəst və müntəzəm hərəkət lazımdı. Halbuki, neft mədənlərdən neftayırma zavodlarına arabalarla daşınırdı. Daşınma çox zaman hava şəraiti ilə əlaqədar ləngiyirdi. Neft emalı sürətlə inkişaf edir, daşınma isə ibtidai şəkildə qalmaqda idi. Bu sahədə də ilk addım Nobel qardaşları tərəfindən atıldı. Onlar başqa sahibkarlara müraciət edərək Balaxanadan Qara şəhərə müştərək kəmər

çəkməyi təklif etdilər. Lakin onlardan heç kəs bu təkliflə razılaşmadı. Lüdoviq böyük əziyyət və çətinliklə Balaxanadan Qara şəhərə öz hesabına kəmər çəkdirdi. Ona xərc olunmuş 100.000 manatı bir ildə çıxartdı. Kəmərin çəkilməsi nəticəsində neftin zavoda daşınması çox ucuz başa gəldi.

Bu kəmər hər gün Balaxanadan Qara şəhərə 24 min pud neft vururdu. Bu iqtisadi cəhətdən Nobel qardaşları üçün çox əlverişli idi. Balaxanada neftin pudu 8 qəpik idi. Nobel qardaşları isə onu Qara şəhərdə 14 qəpiyə satırdılar. Neftin kəmərlə daşınması üçün 6 qəpik alırdı. Arabaçılar isə Balaxanadan Qara şəhərə neftin pudunu 8 qəpiyə daşıyırdılar. Deməк pudu 18 qəpiyə başa gəlirdi. Nobellər isə pudunu 14 qəpiyə satırdılar. Bununla belə Nobel qardaşları bundan hər gün 1000 manat pul əldə edirdilər. Nobellərdən sonra "Bakı neft şirkəti" də Balaxanadan Suraxanaya - öz zavodlarına kəmər çəkdirdi. Və çox keçmədi ki, başqaları da bu işə girişdilər. Mədənlərdən zavodlara çəkilən kəmərlərin sayı artdı. Zavodları dəniz sahili ilə birləşdirən daha 37 kəmər çəkildi. Dəniz kənarından kerosin yelkənli gəmilərlə Volqaya taxta boçkalarda göndərilirdi. Bununla əlaqədar olaraq, Bakı şəhərində çəlləkçilik çox inkişaf etmişdi. Şəhərin bir sıra küçələrində çəlləkçilik dükanları açılmışdı. Bu boçkalar əksərən 20 pudluq olurdu və boçkanın pulu da 30 qəpikdən 60 qəpiyədək kerosinin qiymətinin üstünə gəlirdi.

Kerosinin boçkalarla daşınması əlverişli deyildi. Əvvəla neft dolu boçkaları yerləşdirmək çətin olduğu üçün gəminin anbarlarından tam istifadə etmək qeyri-mümkündü. Bununla əlaqədar kerosinin xərci də 25 faiz artırdı. İkinci tərəfdən neftin daşınması Bakı çəlləkçilərinin düzəltdikləri boçkalardan asılı olurdu. Bəzən çatdıra bilmirdilər. Daşınma çox zaman gəmi sahiblərindən və havanın vəziyyətindən də asılı idi.

Kerosinin su yolu ilə daşınması Lüdoviq Nobeli çox düşündürürdü. Nəhayət nefti maye daşıyan gəmilərlə göndərməyi qərara aldı. Belə bir iş o zaman böyük təcrübəsi olan Amerikada da yox idi. Məlum oldu ki, kerosinin axıcılıq xasiyyətinə görə maye daşıyan gəmilər təsis etmək qeyri-mümkündür. Daşınma zamanı gəminin maşın şöbəsində əmələ gələn 30-40 dərəcə hərarət kerosin üçün qorxulu idi. Lakin buna baxmayaraq, dünya bazarında Amerika kerosini ilə rəqabət aparmaq məqsədilə Nobel bunu lazım bildi. O gəmi şirkətlərinə təklif etdi ki, bir neçə gəminin anbarını onun layihəsi əsasında ayrı-ayrı şöbələrə ayırsınlar ki, kerosini onlarda daşımaq mümkün olsun. Bunun müqabilində külli miqdarda pul təklif edirdi. Ancaq gəmi şirkətlərindən heç biri bu işə razılıq vermədi. Lüdoviq Nobel bu çətinliyi də öz çiyinlərində daşımalı oldu. 1877-ci ildə Lüdoviqin öz layihəsi əsasında İsveçdə hazırlanmış "Zaraostra" neftdaşıyan gəmisi-tankeri Xəzər sularına gətirildi. Bu dünyada ilk neft daşıyan tanker idi. Yalnız ondan sonra başqa neft sahibkarları da İsveçdə tanker düzəldilməsi üçün sifariş verməyə başladılar. Zaqafqaziyada dəmir yolunun açılışı və o zaman bütün dünyada ən uzun neft

kəməri olan 865 kilometr uzunluğunda Bakı-Batum neft kəməri çəkiləndən sonra Bakı nefti arası kəsilmədən dünya bazarlarına göndərilirdi. Bu kəmərin çəkilişində görkəmli alim və mühəndis V. Q. Şuxovun böyük xidməti olmuşdur. Tankerlər Xəzər dənizinə buraxılandan sonra neftin boçkalarla daşınması tamamilə ləğv olundu. "Nobel qardaşları şirkəti" neftin dəmir yolu ilə daşınmasını ucuzlaşdırmaq üçün amerikalıların təşəbbüsündən istifadə etdi. Dəmir yolu idarəsinə Amerika sayağı vaqon-çən düzəltməyi təklif etdi. Lakin təklifi rədd edildi. Lüdoviq bu işi də özü təşkil etməli oldu. Öz konstruksiyası ilə 100 vaqon-çən düzəldib Qryaze-Saritsin dəmir yoluna verdi. Hətta özünün dəmir yolu komandasını və vaqonları təmir emalatxanasını təşkil etdi. Sonralar dəmir yolu özü belə vaqon-çənlər hazırlayıb bütöv qatarlar düzəltdi.

Lüdoviq Nobeli düşündürən bir məsələ də neft ticarəti sahəsində yeni qaydaların yaradılması idi. Saysız-hesabsız neft ticarəti vasitəçilərindən yaxa qurtarmaq, bilavasitə alıcılarla əlaqə saxlamaq məqsədilə böyük şəhərlərdə, dəmir yolu stansiyalarında nefti saxlamaq üçün iri dəmir rezervuarlar düzəltdi. Bu böyük xərcə başa gəlsə də bundan çəkinmədi. Volqa boyu şəhərlərində belə dəmir çənlərin sayı ildən-ilə artdı.

Neft istehsalının ayrı-ayrı sahələrində böyük irəliləyişə baxmayaraq, neft sənayesinin vəziyyəti bir o qədər də yaxşılaşa bilməmişdi. Çünki icarə sistemi ləğv olunsa da, 1875-ci ildə aksiz sistemi tətbiq olunmuşdu. Bu neft məhsullarına qoyulan əlavə vergi idi. Doğrudur, neftli torpaqların xüsusi əllərə keçməsindən sonra neft istehsalı sürətlə inkişaf etsə də bazarlarda kerosin pis satılırdı. Sahibkarların fəaliyyətində böhran başlamışdı. Neft sahibkarları bunun səbəbini aksiz sistemində görürdülər. Böhrandan bircə çıxış yolu vardı. O da aksiz sisteminin ləğvi idi. Qəzetlər də sahibkarların səsinə qoşularaq, aksiz əleyhinə öz etirazlarını bildirirdilər. 1877-ci ildə aksiz sistemi ləğv olundu. Neft hasilatı daha da artdı.

Neft zavodlarında isə neftayırma hələ də ibtidai üsullarla aparılırdı. Bunun nəticəsində də alınan kerosin aşağı səviyyədə olub, bazarlarda Amerika kerosini ilə rəqabət apara bilmirdi. 1873-cü ildə Təbrizov tərəfindən neft ayırmaq üçün yeni aparat kəşf edildi. Bu aparat Nobel qardaşlarının zavodunda quruldu və o vaxtdan neft fasiləsiz olaraq, distillə olunmağa başladı. Alınan məhsul Amerika kerosinindən heç də əskik olmayıb, bəlkə də öz təmizliyi ilə ondan üstün idi. 1886-cı ildə Şibayevin zavodunda da yeni bir aparat quruldu. Bu distillə qurğusu V. Q. Şuxov və F. A. İnçik tərəfindən ixtira olunmuşdu.

Nobel qardaşları neft emalını texniki cəhətdən təkmilləşdirmək üçün işə lap ibtidaidən başladı. Başqa sözlə desək Bakı neftini elmi-laboratoriya yolu ilə tədqiq etmək niyyətilə böyük hazırlıq işləri apardı. Əvvəlcə Bakıda, sonra isə Peterburqda kimya laboratoriyaları təşkil etdi. Əlbəttə, bu işdə ona İsveçdə yaşayan kimyaçı

qardaşı Alfred öz məsləhətləri ilə yaxından kömək edirdi. Əldə edilən hər bir kəşf dərhal mədən və zavodlara tətbiq olunurdu. Kerosinin keyfiyyəti barədə bu dərəcədə qayğı və fasiləsiz nəzarət şirkətin məhsullarına ümumdünya şöhrəti qazandırdı. 1895-ci ilin mart ayında neftin emalı səviyyəsini yoxlayan komissiya şirkətin zavodunda bir pud kerosini belə keyfiyyətsiz hesab etməmişdi. Yorulmaq bilməyən Lüdoviq bir sıra laboratoriya təcrübələri nəticəsində Amerikada və Avropada hələ məlum olmayan neftin fasiləsiz emalına nail oldu.

Əsrin axırında neft istehsalının 20 faizini, kerosin emalının 40 faizini "Nobel qardaşları şirkəti" verirdi, 18-ci ildə "Nobel qardaşları şirkəti" Rotşildə məxsus "Mazut cəmiyyəti" ilə birləşib "Nobel-Mazut" inhisar birliyi yaratmışdılar. Rusiyanın bütün daxili bazarlarında birlikdə hegemonluq edirdilər. Xəzər dənizi vasitəsilə Rusiyanın bazarlarına daşınan duru yanacağın 57 faizi, sürtgü yağlarının 57,5 faizi və ixrac olunan neftin 60 faizi bu şirkətlərin əlində idi. A. M. Mantaşov, K. S. Şibayev Oleum, "Q. M. Leonozovun oğlanları" kimi şirkətlər çıxardıqları bütün yanacağın satın hüququnu "Nobel-Mazufa verməyə məcbur olmuşdular.

1908-ci ildə "Nobel qardaşları şirkəti" müxtəlif sənaye sahələrini birləşdirən iri kapitalist konsernınə çevrilmişdi. Nobellərin neft imperiyasında 25 mindən artıq adam işləyirdi. Tərkibinə əsas kapitalı 150 milyondan çox olan 25 müxtəlif müəssisə daxil idi. Dünyanın kerosin bazarında bölüşdürülməsində Rotşild və Rokfeller ilə bərabər fəal iştirak edirdilər.

Lüdoviq işgüzar və eyni zamanda maarifpərvər bir sahibkar idi. İmperator rus texniki cəmiyyəti Bakı şöbəsinin əsasını qoyanlardan biri idi. Cəmiyyətin işlərində yaxından iştirak edirdi. Onun irəli sürdüyü təşəbbüslər və təkmilləşdirmələr çox çəkmədən ictimaiyyətin malı olurdu. O öz yeni ideyalarından heç zaman yalnız özü üçün istifadə etmirdi. O əməklə qazanılmayan pulları sevməzdi. Bu onun təbiətinə müğayir idi O adətən deyirdi: "O gün ki, işləmək istəmirsən, o gün də yeməməlisən". Lüdoviq birja alveri ilə heç zaman məşğul olmazdı. Ona hər dəfə öz işini əlverişli şəraitdə xaricə satmaq təklif olunduqda deyərdi: "Siz istəyirsiniz ki, mən pullarımı faizli kağızlara çevirib, kupon kəsmək üçün qayçı alım və onları satmaq üçün birjaya girim? Mən bunu istəmirəm. Mənə pul yox, iş də lazımdır". O işlədiyi sahədə rəqabət aparmağı sevir və yorulmadan yeni yollar axtarırdı. Lüdoviqin əsas prinsiplərindən biri də çalışan adamların taleyini müəssisənin taleyi ilə bağlamaq idi. Çoxlu qazanc əldə etmək üçün xidmətçi və fəhlələrin qayğısına qalmağı vacib hesab edirdi. Uğurlu işdən ötrü kontorun xidmətçilərinə, müəssisənin fəhlələrinə mükafatlar verirdi. Onlara yataqxanalar tikdirmiş və bu yataqxanaları isti su və xörəklərlə təchiz edirdi. Bakıda yaşayan fəhlələr hər səhər Pyotr meydanında olan körpüdən barjlarla Qara şəhərə işə daşınır və axşam evlərinə qaytarılırdı. Qara şəhərin neft qurğuları içərisində böyük torpaq sahəsi alıb, park saldırmışdı. Bu parkda istirahət

guşələrindən başqa klub da vardı. İndi Nizami adına olan park o zaman Villa Petrolea adlanırdı. Lüdoviq ilin çox ayını Peterburqda keçirirdi. Daimi axtarışlar, məhsuldarlığı artırmaq üçün gecəli-gündüzlü çalışmalar nəhayət onu yorur. Buna görə Peterburqu tərk edərək Avropanın cənubuna gedir və 1886-cı il martın 31-də orada 57 yaşında ikən ölür. Lüdoviqin ölümündən hələ çox əvvəl şirkət onun böyük oğlu Emanuilin əlinə keçmişdi.

1904-cü ildə şirkətin 25 illiyi qeyd edilərkən onu təsis edənlərdən heç biri sağ deyildi. Şirkətin heyəti aşağıdakılardan ibarət idi.

1. Emanuil Lüdoviqoviç Nobel (sədr), 2. İ. O. Olsen. 3. M. M. Belyamin. 4. Y. Q. Krussel. 5. Xaqelin.

**25 illik yubiley günündə şirkət aşağıdakıları qərara almışdı:**

1.Yubiley günləri üçün nəzərdə tutulmuş 100 min manat hərbi zamanın ehtiyacları üçün əlahəzrət imperatoriçə Aleksandra Fyodorovnanın sərəncamına verilsin.

2.Bakıda şirkət işçilərinin uşaqlarından ötrü məktəb tikilməsi üçün 100 min manat ayrılsın. Məktəb də belə adlansın: ”Nobel qardaşları neft istehsalı şirkətinin 25 illiyinə xatirə məktəbi”.

3.Şirkət işçilərinin ali məktəblərində oxuyan övladları üçün 250.000 manat ayrılsın.

4.Şirkətdə tam 25 il işləyən xidmətçilər üçün 360 min manat ayrılsın.

5.Şirkətdə 25 il işləyən fəhlə və matroslara bir aylıq maaşları miqdarında əmək haqqı verilsin.

6.Şirkətin bütün fəhlə və xidmətçilərindən əsgərliyə çağırılanı varsa, onlara bir dəfəlik bir aylıq maaşları miqdarında pul verilsin və əsgəri xidmətdə olduqları müddətdə maaşlarının 50 faizi ailələrinə verilsin və əsgərlikdən qayıtdıqda işə qəbul edilsinlər.

1877-ci ildə Nobellər tərəfindən tutulmuş layihəyə görə müəssisədən gələn təmiz gəlirin 50 faizi xidmətçilər arasında bölünürdü: 1905-ci ildə qanunda olan nizamnaməyə görə gəlirin 40 faizi əməkçilər və fəhlələr arasında bölünürdü. Bu nizamnamənin necə həyata keçirildiyini deyə bilmərik. Çünki əlimizdə heç bir sənəd yoxdur. Lakin bir faktı göstərmək lazımdır ki, o illərdə başqa neft şirkətlərində işləyən fəhlə və qulluqçuların Nobel qardaşlarının müəssisələrində işləməyə can atmaları bəlkə buna görə də təsadüfi deyildi. Etiraf etmək lazımdır ki, Bakıda neft istehsalının inkişafında, neftin emal edilməsində, daşınmasında və saxlanılmasında Nobellərin böyük xidməti olmuşdur. Neft sahəsində texniki yeniliklərin demək olar ki, əksəriyyəti onlara aid idi.

## ŞƏHƏR BƏLƏDİYYƏ İDARƏSİ VƏ DUMA

Rusiyada təhkimçilik sisteminin ləğv edilməsindən sonra şəhərlər inkişiaf etməyə başlayır. Əhalinin sayı çoxalır. Bununla əlaqədar şəhərlərin büdcələri də artırdı. Buna görə keçmiş şəhərlərin idarə edilməsi sistemi daha yaramırdı. Şəhərləri idarə etmək sistemində mütləq reforma yaradılmalı idi. Bu reformanın yaradılması hazırlığı 8 il çəkdi. Nəhayət 1870-ci ilin 16 iyununda təsdiq edildi. O əvvəlcə Rusiyanın daxili quberniyalarında həyata keçirildi. Zaqafqaziyada isə onun həyata keçirilməsi ləngiyirdi. Buna da bəhanə o idi ki, guya yerlilərin şəhər özünü idarə işində səriştələri yoxdur. Qafqaz canişini və qubernatorlar da bu fikirdə idilər. Bakı qubernatoru Kolyubakin də isbat etməyə çalışırdı ki, bu məsələ nə qədər uzansa yaxşıdır. Guya yerli əhali bu məsələnin həlli üçün hələ lazımınca inkişaf eləməmişdir. Qubernatorların etirazının səbəbi məlum idi. Bilirdilər ki, şəhərlərdə dumaların yaradılması müəyyən ictimai fikirlərin yaradılması ilə əlaqədardır. Bu iddialar şübhəsiz ki, onların müstəmləkəçilik siyasəti ilə əlaqədardı. Həmin səbəbdən şəhər özünü idarə sistemi haqqında fərman yalnız 7 ildən sonra Bakıda həyata keçirilməyə başladı. Bakı qubernatoruna təklif olunurdu ki, dumaya qlasnıların seçilməsinə hazırlıq aparılsın. Qlasnıların sayı yarısınadək xristian olmayanlardan, yəni yerlilərdən seçilməlidir.

Əvvəla dumaya hər adam seçilə bilməzdi. Ancaq müəyyən varidatı olanlar: böyük mülk sahibləri, ticarət və sənaye müəssisələri başçıları, şəhərdə iki ildən az olmayaraq yaşayanlar seçilə bilərdilər. Bundan başqa şəhər vergisi verən müəssisə və şirkətlərin, monastır və kilsələrin də nümayəndələri seçki hüququndan istifadə edə bilərdilər. Bir sözlə bu seçkilər ancaq xüsusi mülkiyyət hüquqlarına əsaslanırdı. Seçicilərin də iştirakı çox məhdud idi. Fəhlələr, pedaqoqlar, müəllimlər, kiçik xidmətçilər, əgər vergi vermək üçün mənzilləri yoxsa seçkilərdə iştirak edilməyə buraxılmırdı. Habelə qadınlar və 25 yaşından kiçik olan gənclər də seçkiyə buraxılmırdı. Belə məhdudiyyət nəticəsində əhalinin yalnız 2-3 faizi seçkilərdə iştirak edə bilərdi. Seçiləcək qlasnıların ümumi sayı seçicilərin sayından asılı olaraq 30 ilə 72 arasında olurdu. Birinci dumaya Bakıdan seçilən 72 nəfərdən 36 nəfəri müsəlman idi.

Səsvermə hər bir namizəd üçün ayrılıqda keçirilirdi. Seçki qutuları iki yerə bölünmüşdü: yarısı ağ, yarısı qara. Hər seçiciyə bir şar verilirdi. Namizədin xeyrinə səs vermək istəyən şarı sağ tərəfdəki ağ qutuya, əleyhinə səs vermək istəyən isə qara tərəfə salmalı idi. Yalnız çox nadir hallarda mütərəqqi ziyalılar dumaya seçilə bilirdilər. Məsələn, 1877-ci il dekabrda Bakı şəhər dumasına seçilən qlasnılar içərisində yalnız iki-üç nəfər ziyalı var idi: Həsən bəy Zərdabi, müəllim Həbib bəy Mahmudbəyov, Ə. M. Topçubaşov. Bunlar seçilmək hüququ qazanmaq üçün başçısı ölmüş varlı ailələrindən birinə qəyyum təyin edilməli idi. Yalnız bu yolla onlar dumaya seçilə bilmişdilər. 1877-ci ildə dumaya seçilmiş 36 nəfər müsəlman qlasnıları içərisində Bakı varlılarından aşağıdakılar da vardı: H. Z. Tağıyev, Şəmsi

Əsədullayev, İbrahim bəy Aşurbəyov, Əliİskəndər Aşurov, İsabəy Hacınski, Ağabala Quliyev, Musa Nağıyev, Nəcəfqulu Sadıqov və başqaları.

Şəhər özünü idarə orqanlarının vəzifəsi əvvəllər yerli təsərrüfat məsələləri ilə məhdud edilmişdi. Şəhər vergilərini toplamaq, küçələri, döşəmələri səliqəyə salmaq, bazarlar düzəltmək, yanğına qarşı tədbirlər görmək və sairə. Lakin təsərrüfat məsələlərində də duma müstəqil deyildi. Vergiləri öz bildikləri kimi müəyyən etməyə, vəsaitlərini xərcləməyə onların ixtiyarları yoxdu. İctimai idarə üzərində qubernator və onun yanındakı quberniya idarəsi tərəfindən daima nəzarət vardı. Duma tam mənada yerli poiis idarəsindən asılı idi. Şəhər idarəsi şəhər təsərrüfatına aid bütün qərarları polis idarəsi ilə razılaşdırmalı idi. Çünki bu qərarları həyata keçirmək üçün güc polisin əlində idi. Şəhər dumasının icraiyyə orqanı şəhər başçısının (qolovası) başçılıq etdiyi idarə (uprava) idi. Şəhər başçısı, idarə üzvləri və katibi də iki qat seçki ilə seçilir və qubernator tərəfindən təsdiq edilirdi. İdarənin üzvləri adətən 3-4 nəfərdən artıq olmurdu. Onun tərkibinə hər millətdən bir nümayəndə seçilirdi. Məsələn, 70-80-ci illərdə idarənin üzvləri aşağıdakılardan ibarət idi: Kamil bəy Səfərəliyev, Arütünov Cümşüd Cavadoviç, Makedonski Boris Aleksandroviç və Məmməd Həsən Hacınski. İdarənin katibi isə bir müddət Nəcəf bəy Vəzirov olmuşdu.

Qlasnıların bəziləri öz vəzifələrindən sui-istifadə edərək qanunu pozur, qanunsuz olaraq torpaqları mənimsəyir və hər yolla varlanmağa çalışırdılar. Onlar şəhərin ancaq varlılar yaşayan hissəsinin qayğısına qalırdılar. Yoxsulların, fəhlələrin yaşadıqları məhəllədə isə həmişə palçıqlı, natəmiz və qaranlıq olurdu. Bunu hətta "Kaspi" qəzeti də etiraf etməyə məcbur olmuşdu. Qəzetin 1895-ci il 19 may tarixli nömrəsində yazılmışdı: "Bizim qlasnılardan kim əhalinin yoxsul təbəqəsinin həyat şəraitinin yaxşılaşdırılması qeydinə qalır, günəş şüalarının onların həyatına daxil olması, palçıq içərisində boğulmamaları, murdar su içməmələri barədə fikirləşməyi özünun mənəvi vəzifəsi hesab edir? Bu barədə hər hansı bir qlasnıya söyləyəndə o gözünü döyəcləyə-döyəcləyə gülümsəyəcək və özünə haqq qazandıracaqdır ki, bütün bunların ona heç bir dəxli yoxdur".

Dumanın iclaslarında yalnız demokratik cərəyana daxil olanlar (bunların sayı çox az idi) haqq və ədalət uğrunda mübarizə aparırdılar: Həsən bəy Zərdabinin dumada tutduğu mövqe xüsusilə qeyd edilməlidir. O maarif və mədəniyyətin inkişaf etdirilməsi, yoxsul adamların qayğısına qalmaq yolunda yorulmadan mübarizə aparırdı. Azərbaycan dilində məktəblərin açılması, mədəni ocaqların təşkili və Azərbaycan dilinin tərəqqisi uğrundakı çıxışları da çox dönməz və qəti idi. Dumanın elə bir iclası olmurdu ki, o çıxış edib, konkret təkliflər irəli sürməsin. O ta 1907-ci ilədək qlasnı seçilmişdi. Dumada təhsil və tibb komisiyonunun üzvü idi. Neft rayonlarında məktəb şəbəkəsinin genişləndirilməsini, müəllimlərin maaşlarının artırılmasını təkidlə tələb edirdi. Tiflis və Bakı varlıları xalq vəsaiti

hesabına Tiflisdə politexnikum açılmasını təklif etdikdə Zərdabi etiraz etmişdi: "Qoy şəhər əhalisinin yoxsul təbəqələri üçün çoxlu ibtidai, professional və kənd təsərrüfat məktəbləri açılsın. Tiflis politexnikumu üçün qoy Montaşev, Xetisov, Qukasov pul versin. Çünki bu texnikumda onların uşaqları oxuyacaqlar".

Həsən bəy Zərdabi dumanı haqsızlıq, cəhalət və geriliyə qarşı tribuna çevirmişdi. Şəhər idarəsinin hər bir ədalətsiz hərəkəti onu qəzəbləndirirdi. O qlasnı olmağı müqəddəs hesab edirdi. Seçicilərə məsləhət bilirdi ki, dumaya namuslu, ədalətli adamları seçsinlər. Elə adamlar seçsinlər ki, şəhərin mədəni tərəqqisi uğrunda mübarizə apara bilsinlər. "Əkinçi" qəzetinin 1877-ci il 1 avqust tarixli nömrəsində yazrdı: "...Biz intixab edici qardaşlarımıza bir az məsləhət edəcəyik. Siz Allah, intixab edən zaman intixab elədiyiniz adamların uzun saqqalına, böyük qurşağına, dəmir sandığının doluluğuna baxmayın. Şəhər divanxanalarında danışıq, yazı-pozu rus dilində olacaq. Ona binaən gərək rus dili bilən doğru adamlar intixab edəsiniz ki, xaçpərəstlər intixab edən calislərin (onlar üçdən iki hissə intixab edəcəklər) arasında bizim adımızı dəxi ziyadə batırmasınlar".

Həsən bəy Zərdabinin dediyi kimi də olmuşdu. Dumaya elə adamlar seçilmişdi ki, iclaslarda gedən mübahisələrdən bir kəlmə də başa düşmürdülər. Bu ucbatdan kvorum olmadığından; iclaslar baş tutmurdu. Şəhər duması qlasnıları seçicilər qarşısında hər cür məsuliyyətdən azad idilər. Seçicilər qlasnılara heç bir təlimat verə bilməzdilər. Buna görə qlasnıların əksəriyyəti özünü idarə orqanlarına çox laqeyd yanaşırdılar. Məsələlərin çox ciddi müzakirəsi zamanı iclası tərk edib, gedirdilər. "Bakinskaya izvestiya" qəzeti 1878-ci il 7-ci nömrəsində yazırdı: "Bizim qlasnılar arasında bir nəfər də universitet təhsilli texnik və mütəxəssis yoxdur. İçərilərində hətta elələri var ki, rus dilini ağıllı-başlı bilmirlər. 36 nəfər müsəlman qlasnısından ancaq 5 nəfəri rus dilində öz fikrini izah edə bilir".

Bəlkə bu səbəbdəndir ki, 1892-ci ildə şəhər bələdiyyəsi haqqındakı yeni qanunun 44-cü maddəsində deyilirdi ki, qlasnıların ümumi siyahısında müsəlman qlasnılarının sayı üçdə bir hissədən artıq olmamalıdır. Bu III Aleksandrın fərmanı idi. Bu fərmanla şəhər özünü idarəsinin hüquqları da azalır, əvəzində qubernatorun nəzarəti gücləndirilirdi. Şəhər əhalisinin artmasına baxmayaraq, seçicilərin sayı daha da azalmışdı. 1891 - 1901-ci illərdəki seçkilərdə əhalinin yalnız 1,5 faizi iştirak etmişdi.

Bundan sonra Qafqaz canişinliyinə və mərkəzi hökümətə çoxlu ərizələr getdi. 1900-cü il dekabrın 1-də imperatorun təzə fərmanı çıxdı. Bu fərmana əsasən əvvəlki qayda bərpa olundu və müsəlman qlasnılarının sayı ümumi sayın yarısından çox olmayaraq, müəyyən edildi.

Dumanın birinci iclası 1878-ci il yanvarın 14-də Bakı şəhər başçısı Cakelinin sədarəti altında açılmışdı.

Şəhər dumasına seçkilərlə yanaşı Bakı quberniyasında Dövlət Dumasına da seçkilər keçirilmişdi. Birinci Dövlət Dumasına seçkilər barədə qanun 1905-ci il 11 dekabrda olmuşdu. Dövlət Duması rus imperiyasının əhalisi tərəfindən seçilən üzvlərdən təşkil olunurdu. Birinci Dumaya Rusiyanın quberniya şəhərlərindən 412 nəfər, Polşanın rus əhalisindən 38 nəfər, Qərbi Sibirdən 14 nəfər, Asiya ölkəsindən 10 nəfər, Qafqazdan, 29 nəfər, Şərqi Sibirdən 7 nəfər, Orta Asiyadan 13 nəfər üzv seçilmişdi. Birinci Dövlət Dumasına Bakı quberniyasından Şamaxı taciri Məmmədtağı Əliyev, Cavad qəzasından qəzada tərcüməçi işləyən müəllim Əsədulla bəy Muradxanov, Bakıdan Əlimərdan bəy Topçubaşov, keçmiş Gəncə quberniyasından Şuşa Bələdiyyə İdarəsinin üzvü Əbdürrəhim bəy Haqverdiyev, Gəncə xanları nəslindən olan Gəncə prokurorunun müavini İsmayıl bəy Ziyadxanov seçilmişdilər.

1906-cı ildə Moskvada çap olunmuş Bonoviçin "Dövlət Dumasının üzvləri birinci çağırış" adlı kitabında adlarını çəkdiyimiz deputatların tərcümeyi-halları və şəkilləri verilmişdir.

İkinci Dövlət Dumasına seçkilər haqqında qanun 1907-ci il 3 iyunda olmuşdu. Dövlət Dumasına Bakıdan H. Z. Tağıyevin oğlu İsmayıl bəy Tağıyev, Əmirhacıyan kəndindən fəhlə Zeynal Zeynalov, müəllim Mustafa Mahmudov, keçmiş Gəncə quberniyasından vəkil Fətəli xan Xoyski, hüquq təhsilli iri mülkədar Xəlil bəy Xasməmmədov seçilmişdir.

Birinci Dövlət Dumasında müsəlman fraksiyası olmadığı üçün azərbaycanlılar kadetlərin tərkibinə daxil edilmişdilər. Əslinə qalarsa, 1907-ci il 3 iyun tarixli seçki qanunu Stolıpin höküməti tərəfindən bir növ sakit çevriliş idi. O İkinci Dumanı qovmuşdu. Çünki İkinci Dövlət Dumasının üzvləri daha sol idilər. Onlar həmin illərdə xalqın çarizm əleyhinə qəzəbli çıxışlarından sonra seçilmişdilər. Dumanın buraxılması Rusiyada yaşayan müsəlman əhalisinə ağır bir zərbə idi. Dumanın buraxılması barədə çarın fərmanında açıq deyilirdi: "Rus dövlətini möhkəmlətmək məqsədilə yaradılmış Dövlət Duması öz ruhu etibarilə rus Duması olmalıdır. Dövlətimizin tərkibinə daxil olan başqa xalqların nümayəndələri yalnız öz ehtiyaclarının nümayəndəsi olmalıdırlar. Onlar xalis rus məsələsinin həll edilməsində qəti səsə malik olmamalı və olmayacaqlar. Dövlət vətəndaşlığının kifayət qədər inkişaf etmədiyi ucqarlarda Dövlət Dumasına seçkilər müvəqqəti olaraq dayandırılır".

Beləliklə Zaqafqaziya üzrə 20 deputat yerindən cəmi 5 yer saxlanmışdı. Bundan əlavə bir yer də Zaqafqaziyanın quberniyaları deputatları müstəqil seçirdilər. İndi isə bütün quberniyalar 6 seçki dairəsində birləşməli idilər. Bakı şəhəri isə seçki hüququndan tamamilə məhrum edilmişdi.

Bu göstərirdi ki, çar mütləqiyyəti Rusiyanın tərkibində yaşayan xalqlardan çəkinirdi. Xüsusilə 1905-1907-ci illərdə bu xalqların inqilabi hərəkatda yaxından

iştirak etmələri Nikolay hakimiyyətini bərk qorxuya salmışdı. İkinci Dövlət Dumasının buraxılmasının başlıca səbəblərindən biri də bu idi.

Bakı Duması 1878-ci ildən Qoşa Qala qapısı yanında olan iki mərtəbəli binada yerləşirdi. Bu bina sonralar fəhlə klubu adı ilə tarixə düşmüşdü. 1900-cü ildə isə duma və şəhər idarəsi üçün yeni binanın əsası qoyulur. Bu, məşhur memar Qoslavskinin layihəsi əsasında tikilmiş (indiki Bakı Sovetinin binası) əzəmətli bir bina idi. Burada sərf olunmuş materialların bir hissəsi xarici ölkələrdən gətirilmişdi. 1904-cü ildə bina hazır olur və duma, şəhər idarəsi Qoşa Qala qapısı ağzındakı iki mərtəbəli binadan buraya köçür. Hazırda binaya tamaşa edənlər onun üstündə yazılmış 1870 rəqəmini gördükdə binanın həmin ildə tikildiyini güman edirlər. Əslində isə 1870 rəqəmi binanın tikilmə tarixi deyil, şəhər özünü idarələr barədə verilmiş fərmanın tarixidir. Dumanın və şəhər idarəsinin xidməti az olmamışdır. Şəhərin abadlaşması, şəhərə su çəkilməsi, atlı dəmir yolunun (konkanın) işə düşməsində və sairədə böyük fəaliyyət göstərmişdir. Şəhər idarəsi bütün tədbirləri ayrı-ayrı varlılara icarəyə vermək yolu ilə həyata keçirirdi. Məsələn, atlı dəmir yolunun çəkilməsi əvvəl başdan H. Z. Tağıyevə, ondan sonra başqalarına icarəyə verilmişdi. İçəri şəhərə giriş yolunun çətinliyni nəzərə alaraq, 1806-cı il oktyabrın yeddisində Şəhər idarəsi icazə verir ki, şəhərin Şamaxı darvazası yanında ikinci darvaza açılsın. Bu iş torq yolu ilə Hacıbaba Haşımova tapşırılır. Birinci dərəcəli tacir olan Hacıbaba Haşımovun həmin meydançada iki mərtəbəli gözəl bir binası da vardı. 1880-ci ilin 14 mayında şəhər duması yeni çəkilməkdə olan dəmir yolunun vağzalı üçün Krasilnikovun üzüm bağında yer ayırır (indiki vağzalın yeri). 1883-cü ildə Tiflisdən gələn ilk qatar, daha sonra 1900-cü ildə Dərbənddən gələn ilk qatar bu vağzala qəbul olunur. 1884-cü ildə şəhərin ikinci alçaq divarı şəhərin baş memarı Hacıbabayevin rəhbərliyi altında sökülür və onun daşlarından birinci divarın möhkəmlədilməsi üçün istifadə edilir. Onu da qeyd edək ki, şəhərin abadlaşdırılması üçün görülən bütün tədbirlər dumanın iclaslarında böyük mübahisələrə səbəb olurdu. Bakıda telefon xəttinin çəkilməsi zamanı yerli əhalinin, xüsusilə böyük mülk sahiblərinin narazılıq ərizələri böyük mübahisəyə səbəb olmuşdu. Mülk və mağaza sahibləri razı olmurdular ki, onların binaları qarşısında iri taxta şalbanlar basdırılsın. Sonralar bu taxta şalbanların bəziləri dəmir dirəklərlə əvəz edildi. Bundan da narazı olanlar vardı. Nəhayət, qərara alındı ki, telefon xətləri divarlara vurulan kronşteynlər vasitəsilə çəkilsin. Telefon şalbanları ancaq Qara şəhərə gedən küçədə qaldı. Bu küçədə telefon dirəkləri meşə ağacları kimi bir-birinin böyründə bitmişdi. O vaxtdan bu küçənin adı Telefon küçəsi qalmışdı. Sonralar, 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar bu küçəyə "Romanovlar" adı verilmişdi. 1890-cı illərin axırlarında Bakı şəhərinin herbi təsdiq olundu. Bu lövhə üzərində rəsm edilmiş üç alovdan ibarətdi. Lakin bu, Bakının ilk herbi deyildi.

Bakının birinci herbi hələ 1840-cı ildə Bakı keçmiş Xəzər oblastına daxil olduğu zaman təsdiq edilmişdi. Məlum olduğu üzrə I Pyotr dövründə nizami qoşun ərzaqla təmin olunmaq üçün quberniya və şəhərlərdə yerləşdirilmişdi. Onlar yerləşdikləri yerin adı ilə adlandırılmış və özlərinə herb də düzəltmişdilər. Bakının herbi dörd hissəyə bölünmüş lövhədən ibarətdi. Yuxarıda sağ tərəfdəki hissədə yerdən çıxan üç qaz şırnağı, sol hissədə isə pələng şəkli həkk edilmişdi. Aşağıdakı hissələrdə isə sağ tərəfdə lövbər, sol tərəfdə isə yüklü dəvə rəsm edilmişdi. Dəvənin üstündəki yükün isə hər tərəfində açmış zəfəran çiçəyi vardı. Bu onu bildirirdi ki, zəfəranın vaxtı çatanda quru yerdə də çiçəkləyə bilər. Yuxarıdakı birinci və ikinci hissələrdəki şəkillər Bakının görkəmli yerlərini, aşağıdakı lövbər və yüklü dəvə isə Bakı əhlinin məişətini əks etdirirdi. Sonralar Bakının ikinci herbindəki üç alov da birinci herbdəki üç yanan qaz şırnağının davamı idi. Üç atəş qədim İran əfsanəsindən götürülmüşdü. M. Ə. Rəsulzadə 1918-ci il 3 dekabr tarixli "Azərbaycan" qəzetində əfsanə haqqında belə yazırdı: "Ən qədim İranlılarda üç atəş əfsanəsi vardır. Bu əfsanə Azərbaycan ənənəsi ilə əlaqədardır".

Herbin üzərində təsvir olunan pələng şəkli çox qədimlərdən Abşeron yarımadasında, xüsusilə Binə düzənliyindən başlayaraq, Zirəyədək uzanan tuğayı meşələrində yaşayan vəhşi heyvanlara işarə idi. Lövbər yerli əhalinin dənizçiliklə məşqul olduğunu göstərirdi. Yüklü dəvə yeganə nəqliyyat vasitəsinin simvolu, çiçəkləyən zəfəran isə Abşeronda bitən qiymətli bitkiyə işarə idi.

Bakının ikinci herbi təsdiq ediləndən sonra şəhər bələdiyyə idarəsi tərəfindən dövlət binaları üstünə vurulurdu. Bu, lövhə üzərində həkk olunmuş üç alovdan ibarət herb idi.

## ŞƏHƏRİN SU DƏRDİ

Qədim zamanlardan başlayaraq, Bakının həyatında su məsələsi ən böyük problem olmuşdur. Şəhəri dövrələyən çılpaq boz təpələr, sinəsi cadarlanmış torpaq, barmaqla sayılası cılız ağaclar şəhərə miskin bir görkəm verirdi. Xəzrinin boz buludları şəhərin üzərinə yayıldığı zaman burada həyatdan bir əsər qalmazdı. Həyətlərdə quyular qazılmışdı. Suyu dəniz suyundan da şor və acı. Bakı hələ ikiqat divar arasına sığınmış İçəri şəhərdən ibarət olduğu zaman şəhərdə cəmi iki su kəməri vardı. Hər iki kəmər öz suyunu ətraf dağlardan alırdı: Şah su kəməri və Cümə məscidi su kəməri, Birinci kəmərlə gələn su Şirvanşahlar sarayı yanındakı su hovuzuna, ikinci kəmərin suyu isə Cümə məscidi yanındakı ovdana tökülürdü (ovdan sözü abdan sözünün təhrif olunmuş forması idi. Abdan isə fars dilində su qabı deməkdir). Bu kəmər öz başlanğıcını şəhərin şimal-qərb tərəfindəki təpələrdən alır və kəhriz üsulu ilə şəhərə axıdılırdı. Şah su kəməri isə öz mənbəyini şəhərin şimal hissəsindəki daha uzaq yaylalardan, eyni zamanda üç bulaqdan aldığı üçün

suyu daha keyfiyyətli idi. O, indiki Bakı Soveti binasının yanından şəhərə daxil olur. Şirvanşahlar sarayını, habelə ətraf yaşayış yerlərini təmin edirdi. Bu sudan həm içmək, həm də xörək bişirmək üçün istifadə edilirdi. Cümə məscidi kəmərinin suyu şorməzə olduğundan ancaq əl-üz yumaq və dəstəmaz almağa yarayırdı.

Bakı xanları dövründə şəhərə daha iki su kəməri çəkildi: Məmmədqulu xan su kəməri və Hüseynqulu xan su kəməri. Məmmədqulu xan su kəməri öz mənbəyini Dağüstü parkın yerindən, Hüseynqulu xan su kəməri isə indiki Hüsü Hacıyev küçəsinin yuxarısındakı iki bulaqdan alırdı. Yolun yarısında bu kəmərə üçüncü bir bulağın da suyu əlavə olunurdu (Hüsü Hacıyev küçəsində yazıçıların evi üçün özül atılarkən, bu kəmərin bir hissəsi aşkara çıxmışdı). Bu kəmər ancaq Bakı xanları sarayının ehtiyacını təmin edirdi.

Şəhərin əsas su kəməri olan Şah su kəməri 15-ci əsrin təxminən iyirminci illərində çəkildiyindən tez-tez gözü tutulur və təmirə saxlanılırdı. Belə hallarda camaat bütün günü susuz qalırdı.

Şəhər böyüdükcə, İçəri şəhərin divarlarını aşıb, forştatda çıxdıqca əhalinin su ilə təmin edilməsi daha da çətinləşirdi. Xüsusilə 1860-cı ildə Bakı quberniyanın paytaxtına çevrildikdən sonra su problemi daha kəskin şəkil aldı. İçəri şəhərdən kənara çıxmış əhalini su ilə təmin etmək məqsədilə Şah su kəmərindən Bayır şəhərə Sisianov meydanına (indiki Azərnəşrin aşağı hissəsinə) bir qol ayrıldı. Şəhərin o zamankı hərbi qubernatoru general-mayor knyaz Mouravovun sərəncamı ilə burada ilk dəfə olaraq su anbarı yaradıldı. Bu anbar Bakıda ilk su fantanı oldu.

1864-cü ildə general Kolyabakin Bakıya hərbi qubernator təyin ediləndən sonra şəhərdə su kəmərinin genişləndirilməsi sahəsində bir sıra yeni tədbirlər görüldü.

Məlum olduğu kimi, bu illərdə Xəzər dənizinin mərkəzi limanı Həştərxandan Bakıya köçürülmüşdü. Yük gəmilərini indi Bakıda su ilə təmin etmək lazım gəlirdi. Bu məqsədlə Sisianov su kəmərindən Sahil küçəsində, qubernator idarəsinin yerləşdiyi (indiki həkimlər evi) binanın qarşısındakı Daş körpüyə (bu körpü Xəzər sahilində daşdan tikilmiş yeganə körpü olduğu üçün belə adlanırdı. Bu təxminən indi Azneftin yerləşdiyi binanın böyründə idi) xüsusi bir qol çəkildi. Bu qol həm gəmiləri, həm də Sahil küçəsində yaşayan əhalini su ilə təmin edirdi. Bununla belə, suya olan tələbat yenə də kifayət dərəcədə ödənilmirdi. Əvvəla, gəmilərə çoxlu su sərf olunurdu. Bundan əlavə Sisianov meydanındakı su kəməri forştatdın mərkəzində olduğundan bundan uzaqda yaşayanlar sudan çox korluq çəkirdilər. Xüsusilə su kəmərləri təmir edildikdə camaat susuzluqdan yanırdı. Məcbur olurdular ki, həyətlərində qazdıqları quyunun şorməzə suyundan içsinlər. Bu da müxtəlif xəstəliklərə səbəb olurdu. Buna görə yeni su mənbələrinin axtarılması və şəhərə əlavə su kəmərləri çəkilməsi üçün Qafqaz canişini general-feldmarşal knyaz Baryatınski tərəfindən şəhər idarəsinə 6 min manat vəsait ayrıldı.

Şəhərin ətrafındakı yaylalarda yeni quyular qazılaraq, suyu köhnə kəmərlərlə axıdılandan sonra Sisianov su anbarında suyun səviyyəsi xeyli çoxaldı. Hətta su boş-boşuna axmağa başladı. Çoxalan sudan səmərəli istifadə etmək məqsədilə 1869-cu ildə Sisianov fantanından Mariya bağına (Malakan bağına) kəmər çəkilməsi qərara alındı. Əvvəlcə daş, sonra isə saxsı borularla çəkilən bu kəmər 1870-ci ildə başa çatdırıldı. Təzə su kəməri Quru bağın (Parapetin) altından keçərək, Mariya və Malakan (indiki R. Rza və Xaqani) küçələrinin tinində tikilmiş fantana tökülürdü. Beləliklə, Sisianov anbarında su daimi bir səviyyədə saxlanıldı. Malakan (Xaqani) və Mariya (R. Rza) küçələrinin tinindəki su anbarında o qədər su ehtiyatı əmələ gəlmişdi ki, hətta gecələr bağın ağaclarını da sulayırdılar.

Yeni su kəmərindən suyun axarı qaydaya düşəndən sonra bu ətrafda yaşayan ev sahiblərinə qadağan edilmişdi ki, su kəmərlərinin həndəvərində, müəyyən məsafədə heç bir quyu qazılmasın və habelə qazılmış quyular dərinləşdirilməsin, çünki bu, kəmərlə axan suyun keyfiyyətini dəyişə bilərdi.

Şəhər böyüyür. Hündür binalar, yaraşıqlı imarətlər ucaldılır, təzə küçələr salınırdı. Təbiidir ki, forştatdakı əhalinin artması suya olan tələbatı da artırmışdı. Suyun azlığından bağlar və küçələr sulanmırdı. Şəhərə kənardan su gətirmək və yeni mənbələr axtarmaq barədə tərtib edilən layihələr şəhər dumasında aylarla gecikdirilir və axırda da baha başa gələcəyi bəhanə edilərək, geri qaytarılırdı. Həmin illərdə duma qlasnısı Həsən bəy Zərdabi "Kaspi" qəzetində yazırdı: "Bizdə içməli su yoxdur. Buna müqəssir bizim Şəhər idarəsinin işçiləridir. Küçələr sulanmır və yanğın söndürmək üçün də su yoxdur. Bu da Şəhər idarəsinin günahı üzündəndir. Şəhər bağlarında ağacları sulamaq üçün də su yoxdur. Bizim başçıların ixtiyarında texnika və milyonlar olduğu halda, su çatışmır. Bu o deməkdir ki, burada nə isə var".

1893-cü ildən dəniz suyundan da istifadə edilməyə başlandı. Sahilə yaxın bir yerdə dəniz suyunu təmizləyib, şirinləşdirmək üçün xüsusi qurğu düzəltdilər. Burada təmizlənmiş su nasosla şəhərin cənubundakı yüksək təpənin üstündə quraşdırılmış su anbarına vurulur və oradan da borularla üzü aşağı şəhərə axıdılırdı. (Bu iri hovuz-anbar bu yaxınlaradək Dağüstü parkın ətəyində qalmışdı). Qurğuda gündə 30 min vedrə dəniz suyu təmizlənib şirinləşdirilirdi. Bununla belə, əhalinin ehtiyacı yenə də ödənilmirdi. Suyun qiyməti də bahalaşmışdı. 1895-ci il martın 11-də duma qərar çıxardı ki, şirinləşdirilmiş suyun qiyməti barədə 1893-cü il 2 dekabr tarixli əmr ləğv edilir və su yarım qəpiyə satılsın.

Eyni zamanda barjlarla Kürdən də su daşınırdı. Bu işlə "Kür suyu" adlanan aksioner şirkəti məşğul olurdu. Şirkət sonralar Bakı varlılarından Saruxanovun əlinə keçərək, "Saruxanov Kür aksioner şirkəti" adı ilə öz fəaliyyətini xeyli genişləndirdi. 1911-ci ildə həmin şirkət vasitəsilə Bakıya 5.644000 vedrə Kür suyu daşınmışdı. Suyun vedrəsi yolun uzaqlığından asılı olaraq, 2 qəpiyə satılırdı.

Kasıblar bu suyu ala bilmirdilər. Buna görə məcbur olurdular ki, hökümət tərəfindən qadağan edilmiş quyu suyunu içsinlər. Çox zaman ovdan suyundan da istifadə edirdilər. O illərdə belə ovdanlar şəhərin üç yerində idi. Onlardan ən dərininin yüzdən çox pilləsi vardı.

Bakını əsaslı surətdə su ilə təmin etmək məqsədilə eyni zamanda üç layihə hazırlanırdı.

Birinci layihədə Kürdən Bakıya su kəmərinin çəkilməsi nəzərdə tutulurdu. İşə Meyniman kəndinin yaxınlığından başlamaq planlaşdırılmışdı. Buradan Bakıya 120 kilometr idi. Bakıya qədər uzanacaq bu yolda iki stansiya tikilməsi nəzərdə tutulmuşdu. Bunlardan biri Hacıqabulda, ikincisi isə şəhərin yaxınlığında "Qurd darvazası"nda olmalı idi. Hacıqabulda suyu təxminən 120 metr hündürlüyündə olan duruldducu çənə qaldırandan sonra kəmər dəmir yolu boyu "Qurd darvazası"nadək uzanacaq və burada qurulacaq stansiyada su təzədən 125 metr hündürlüyə qaldırılaraq, yeraltı yolla şəhərə axıdılacaqdı. Kəmərin çəkilişi fransız mühəndisi Dimona tapşırılmışdı. Layihə dumanın iclaslarında uzun müddət müzakirə olunsa da, nəticə vermədi, qəbul olunmadı. Vedrəsi 0,7 qəpiyə başa gələcək Kür suyu əvəzinə duma Volqadan barjlarla su daşınmasını üstün tutdu. Halbuki Volqa suyunun vedrəsi bakılılara 2 qəpiyə otururdu.

Dadlı suyu olan Zuqulbadan kəmər çəkilməsi fikri də baş tutmadı. 1870-ci ildə Bakının qubernatoru Kolyabakinin sərəncamı ilə mühəndis-hidravlik Şebanov Zuqulbadan çəkiləcək kəmərin keçəcəyi ərazini öyrənmək üçün Zuqulbaya göndərilir. Zuqulbada suyun keyfiyyət və kəmiyyətini yoxlamış və kəmərin keçəcəyi ərazini öyrənmiş olan Şebanov həmin ilin avqust ayında dumaya yazılı məlumat verir. Bu məlumatla deyilirdi ki, Buzovnanın qərb tərəfində, Zuqulbada bir neçə yerdə qayadan su çıxıb, dənizə axır. Bu su camaat tərəfindən işlədilmək üçün çox əlverişlidir. Buradan sutkada 26.849 vedrə su almaq olar. Şebanovun fikrincə, buradan su kəməri çəkilərsə o, 95,5 verst uzunluğunda olmalıdır. Çünki o, Şüvəlan, Zirə, Hövsan və Zığ kəndlərindən keçib, şəhərə daxil olmalıdır. Kəmərin keçəcəyi ərazi qumsallıq və qayalıq olduğu üçün çoxlu xərc tələb olunur. Yolu qısaltmaq da mümkün deyil. Qısaldılarsa daşlıq və qayalıq yerlərdə bir neçə tunel, qazmaq lazım gələcək. Şebanov əlavə olaraq, onu da göstərir ki, Zuqulba suyu dəniz səthindən ancaq 1014 fut hündürdədir. Əgər bu su lazımi hündürlükdə olsaydı da bu uzunluqda kəməri çəkmək 157 min manata başa gələcəkdir. Bunları nəzərə alaraq, Şebanov kəmərin çəkilməsini məsləhət bilmir. Duma da onun fikri ilə razılaşır.

Qəribə orasıdır ki, dumanın bu qərarından sonra Bakı varlılarından Ağabəy Məlikov Şebanovun öz yazılı məlumatında göstərdiyi maniə və çətinliklərə baxmayaraq, öz hesabına Zuqulbadan Sabunçu və Ramanaya su çəkdirdi. Yalnız bundan sonra duma işə girişərək Məlikovun çəkdirdiyi kəməri davam etdirdi.

1903-cü ildə Zuqulba suyu şəhərin Balaxana küçəsinədək gətirildi. Ramana və Sabunçu kəndləri o vaxtadək ancaq quyu suyundan istifadə edirdilər. Mədənlərə su neft sahibkarlarının Qurultaylar Soveti tərəfindən dəmir yolu vasitəsilə gətirilirdi. Sutkada gətirilən cəmi 2.500 vedrə su 40 min əhalisi olan Sabunçunu qətiyyən təmin etmirdi. Daşınan su da antisanitar şəraitdə saxlanılırdı. Su doldurulmuş iri çəlləklərin altı heç bir şeylə örtülməmişdi. Çəlləklərin dibi torpağın səviyyəsindən aşağı olduğu üçün ətrafdakı xəndəklərdən onların altına çirkab su sızırdı. Bunun da nəticəsində o illərdə Sabunçuda qarın xəstəlikləri xeyli çoxalmışdı.

Nəhayət, üçüncü layihə Samurdan Bakıya su çəkilməsi layihəsi idi. Əvvəlcə komissiya yaradılmış və yaxşı layihə üçün konkurs elan edilmişdi. Konkursda ingilis mühəndisi Lindleyin layihəsi bəyənildiyi üçün müəllif Londondan Bakıya dəvət edilmişdi. Mühəndis hesablamadan sonra Bakıya Samurdan su gətirilməsinin Kürdən Bakıya su gətirilməsinə nisbətən baha başa gələcəyini söylədikdə komissiya, onun arxasınca da duma layihəni rədd edirlər. Komissiyanın üzvlərindən təkcə H. Z. Tağıyev təkid edir ki, Samurun suyu təmiz bulaq suyu olduğu üçün kəmər çəkilməlidir. Bu dəfə duma başqa bəhanə tapır: deyirlər ki, Şahdağın ətəyindəki bulaqların suyu kifayət qədər deyildir. Şəhər əhalisinin sudan son dərəcə korluq çəkdiyi bir şəraitdə şəhər dumasının məsələyə laqeyd yanaşdığını görən Tağıyev Şəhər idarəsinə məktub yazaraq bildirir ki, o, Lindleyin fikrinə inandığı üçün kəmərin çəkilişinə təcili başlamaq üçün öz cibindən 25 min manat pul ayırır. Bu şərtlə ki, duma üzvləri göstərilən mənbədə kifayət qədər su olmasına inanandan sonra Şəhər idarəsi onun pulunu geri qaytarsın. Məktubunda daha sonra yazırdı ki, əgər onun təklifi sentyabr ayınadək dumaya təqdim edilməzsə, Şəhər idarəsi su təchizatı komissiyası ilə birlikdə təcili surətdə onun öz hesabına quyu qazmağa başlayacaqdır. Əgər sentyabrda duma Şəhər idarəsi və komissiyanın bu qərarını da bəyənməzsə, o verdiyi 25 min manatdan imtina edəcəkdir. Məktubunun axırında yenə təkidlə bildirirdi ki, Samurdakı yeraltı sular Şahdağın daimi buzlaqlarıtək tükənməz və əbədidir.

1904-cü ildə kəmərin çəkilişi ingilis - Amerika firmasına tapşırıldı və işə başlandı. Lakin 1905-1907-ci illərdə ölkədə baş vermiş ictimai-siyasi hadisələr işə mane olaraq, çəkilişi xeyli ləngitdi. Vətəninə qayıdan Lindley bir də 1909-cu ildə geri dönərək təzədən işə başladı. Həmin ilin axırında hökümət Bakı üçün 27 milyonluq istiqraz buraxılmasına icazə verdi. Bu pulun 23 milyon yarımı su kəmərinin çəkilişinə sərf ediləcəkdi. Sonralar daha 15 milyonluq istiqraz buraxıldı. insafla desək, şəhərin varlılarından Murtuza Muxtarov, Ağabala Quliyev və Aşurbəyovlardan da bəziləri bu işdə öz köməklərini əsirgəməmişdilər.

1916-cı ildə Bakı-Şollar su kəməri başa çatdı və 1917-ci ilin yanvar ayından tam istismara buraxıldı. Şollar suyu Bakıya təxminən 180 kilometr uzaqdan gəlirdi. Xudad dəmir yolu stansiyasının yaxınlığında təxminən 1 metr diametri olan sement

trubalarla Nasosnıyadək öz axarı ilə gəlirdi. Nasosnıdan başlayaraq su hərəsi 600 at gücü qüvvəsində olan güclü dizel vasitəsilə Bakıya vurulurdu.

Kəmərin işə düşməsi ilə şəhərdə su fontanlarının sayı çoxaldı. Ayrı-ayrı məhəllələrdə tikilmiş belə daş fontanlardan bəziləri bu vaxtadək qalmışdır. Fontanlara gündə üç dəfə su buraxılırdı: səhər, günorta və axşam. Fontanlardan uzaq olan evlərə isə xüsusi adamlar çəlləklə arabalar və ya da ulaq belində su daşıyıb, satırdılar. Evlərin çoxunda suyu saxlamaq üçün iri küplər vardı.

Yalnız 1920-ci ildən evlərə də su kranları çəkildi.

## BAKIDA KANALİZASİYA

Bakıda kanalizasiya ilk dəfə təxminən 1880-ci illərdə çəkilmişdir. O vaxtadək həyətlərdən və ictimai yerlərdən, hamamlardan axıdılan sular şəhərin küçələri ilə özbaşına axır, çökək yerlərə, çuxurlara dolur və buradan da ətrafa yayılırdı. 1892-ci ildən isə əhali çirkli suları dənizə axıtmaq üçün kanovlar çəkməyə başladı. Ancaq belə kanalizasiyanın heç bir planı yoxdu. Biri kanov çəkir, o biri də öz həyətinin suyunu ona qoşurdu. Vaxtı ilə doktor V. N. Bequn tərəfindən yazılmış "Bakı şəhərində sanitar işinin inkişafı barədə qısa oçerk" kitabında Bakıda ilk kanalizasiyanın necə yaranması barədə məlumat verir. O yazırdı ki, 34-ə qədər müsəlman və 6 Avropa hamamlarının sahibləri çirkli suyu dənizə axıtmaq üçün kanov çəkmişdilər. Lakin bu kanovlar suyu özündən buraxan materiallardan çəkildiyindən sular dəniz kənarına çatmamış torpağın canına hopurdu. Sonralar həyətlərin də suları bu kanovlara qoşuldu. Beləliklə, şəhərdə kanalizasiya şəbəkəsi genişlənməyə başladı.

Dənizə tərəf uzadılan belə kanovların sayı 12-dən artıq deyildi. Kanovlarla su ancaq dəniz sahilinədək çatırdı. Sahildə çirkab sulardan böyük gölməçələr əmələ gəlirdi. Bərk xəzrilərdə üfunətdən yaxın evlərdə nəfəs almaq çətinləşmişdi. Təxminən keçmiş Tağıyev teatrının yerləşdiyi və kukla teatrının ətrafı həmişə üfunətli gölməçələrlə əhatə olunurdu, bərk küləklərdə Xəzərin sahilə hücum çəkən suları da bu gölməçələrin çirkablı sularına qarışaraq, ətrafı basırdı. Kanovlar çox səliqəsiz tikilirdi. Bunun nəticəsində çirkab sular həyətlərə, evlərin zirzəmilərinə, aşağı mərtəbələrinə sızır, küçədə hərəkət etməyə mane olurdu. Məsələn, 1892-ci ildə Tatar küçəsində bir neçə həyət və mənzilləri su basmışdı. Həyətlərdə ayaq yolları da bərbad halda idi. Şəhərin yuxarı məhəllələrindən, İçərişəhərdən ayaq yollarının zibilli suları açıq kanovlarla dənizə axıdılırdı. Bəzi hallarda isə küçələrin tən ortası ilə süzülürdü. Belə natəmizlik nəticəsində idi ki, 1892-ci ildə şəhərdə vəba xəstəliyi başladı. Şəhər idarəsinin gördüyü tibbi tədbirlərə baxmayaraq, əhaliyə böyük zərər dəydi. Yalnız bundan sonra şəhər idarəsi kanalizasiya işlərini qaydaya salmaq üçün xüsusi komissiyon təşkil etdi. Kanalizasiya dənizə qədər

uzadıldı. Bununla belə çirkab sular yenə sahilə yayılırdı. Həyətləri yenə tez-tez su basırdı. 1904-cü ildə təzədən baş vermiş vəbadan sonra şəhər idarəsi kanalizasiya işləri ilə yenə də ciddi məşğul olmadı. Sonrakı illərdə də Bakı vəba epidemiyasının mərkəzinə çevrilmişdi. O illərdə Bakıda olan ingilis mühəndisi Lindleyə yeni kanalizasiya üçün layihə hazırlanması tapşırıldı. Ancaq onun tikilməsi üçün bir qəpik də pul buraxılmadı.

Həyətlərdə nəcis çalalarının müntəzəm boşaldılmasına fikir verilmirdi. Şamboların miqdarı çox az idi. Vəba xəstəliyi isə əhaliyə gözünü açmağa imkan vermirdi. 1907, 1908; 1909, 1910-cu illərdə baş verən vəba xəstəliyi xeyli insan qırğınına səbəb olmuşdu. Kanalizasiya şəbəkəsi genişlənsə də şəhərdə elə məhəllələr vardı ki, əhali hələ də kanalizasiyanın olmaması üzündən dözülməz əziyyətə düçar olmuşdu. Kanalizasiya işləri ta 1914-cü ilədək ləng gedirdi. Elə məhəllələr vardı ki, kanalizasiyadan tamamilə məhrum idilər. Məsələn, Erməniknddə, Şamaxinkada, Qanlı təpədə, şəhərin Zavağzal hissəsində, Kərpicxanada bircə kanalizasiya xətti də yoxdu. Çəmbərəkənd, Təzə Pirin ətrafı və hətta Bayıl da bu vəziyyətdə idi.

Həyətlərdən nəcis adətən gecələr daşınırdı. Bu iş boçkalı arabalar vasitəsilə görülürdü. Şəhərdə xüsusi müəssisələr vardı ki, bu işlə məşğul idilər. Belə müəssisələr - "Bakı nəcis nəqliyyatı" adlanırdı. 1914-cü ildə cəmi üç belə müəssisə vardı. Şəhərin nəcisi əvvəllər daşınıb, Qanlı təpənin ətəyindəki dərəyə tökülürdü. Bu dərə əhali içərisində "Poxlu dərə" (indiki Mərkəzi kolxoz bazarının yeri) adlanırdı. Bu yerlər o zaman şəhərin kənarı idi. Sonralar şəhər böyüdükcə nəcis daha uzağa daşınırdı.

## KÜÇƏLƏR

Yeni salınmış şəhərin küçələrini qaydaya salmaq üçün şəhər idarəsi bir sıra tədbirlər görürdü. Bakının məşhur xəzrisi əsdiyi zaman (bu bəzən həftələrlə davam edirdi) küçələrdə tozanaqdan göz açmaq olmurdu. Arabaların, faytonların çarxlarından qalxan toz buludları adamların üst-başını, evlərin pəncərələrini boz bir pərdəyə bürüyürdü. Burulğan kimi burulan külək qarşısına çıxan hər şeyi qabağına qatıb sovururdu. Bəzən qadınların çadralarını başından qoparıb, uçururdu. Tozanağın qarşısını almaq üçün ilk tədbir ondan ibarət oldu ki, küçələrə daş döşəməyə başladılar. Bu işə Sahil küçəsindən başlandı. 1878-ci ildə ilk dəfə olaraq, buraya əhəng daşları düzüldü. Bir müddət sonra məlum oldu ki, bu yolla tozanağın qarşısını almaq mümkün deyil, əksinə; fayton çarxlarından, at dırnaqlarından parçalanan daşlar toza dönərək, şəhəri daha eybəcər şəklə salırdı. Bunun qarşısını almaq üçün küçələrə neft çiləməyə başladılar. Doğrudur bu tozanağın qarşısını ala bildi. O biri tərəfdən yağışlı havalarda canına neft hopmuş torpaq suyu

buraxmadığından küçələrdə gölməçələr əmələ gəlirdi. Bəzən elə olurdu ki, bu səkidən o biri səkiyə keçmək də olmurdu. Bundan sonra şəhər idarəsi belə qərara gəldi ki, küçələrə neft səpmək əvəzinə Biləcəridə tapılmış möhkəm çay daşlarından istifadə edilsin. Lakin Biləcəri daş yataqları tez tükəndi. Bu daşlardan ancaq üç il istifadə etmək mümkün oldu. Sonra Krasnovodskdan barjlarla porfiriti daşınmağa başladı. Bu da Biləcəri daşları kimi çox möhkəmdi. Aradan bir müddət keçəndən sonra şəhər idarəsi çay daşlarını (bakılılar bunu qənbər adlandırırırlar) daha üstün tutdular. Çünki qənbər daha möhkəm və daha etibarlı idi. Azərbaycan rayonlarında da istədiyin qədər qənbər ehtiyatı vardı. O vaxtdan bu günədək bu möhkəm çay daşından istifadə edilir. Qənbər də ancaq mərkəzi küçələrdə və dövlət idarələrinin qabağındakı meydançalara döşənirdi. Kərpicxanada, Qanlı təpədə, Təzə Pirin ətraf küçələrinə hələ də neft çilənirdi, Qənbər döşənmiş küçələr qaldırımlı olduğu üçün küçənin ortalarında daha su durmur, qaldırımın hər iki yanı ilə axıb gedirdi.

Bakıda asfaltdan ilk dəfə 1906-cı ildə istifadə edildi. Bu da şəhərdə Qala bəyi (qradonaçalstva) idarəsinin yaranması ilə əlaqədardı. Həmin ildə qubernatorun binası Sahil küçəsindən indiki M. Muxtarov küçəsi ilə Füzuli küçələrinin tinindəki Əmircanovun binasına köçür. Onun keçmiş binası isə qalabəyi Martınovun ixtiyarına verilir. Asfalt da ilk dəfə bu binanın qarşısına salınmışdı.

## ŞƏHƏR ATLI DƏMİR YOLU (KONKA)

Məlumdur ki, Bakıda ta keçən əsrin axırlarınadək şəhər nəqliyyatı başlıca olaraq, fayton, tək-tük ekipaj, kazalaq və arabalardan ibarətdi. Bunlardan başqa evlərə ulaqlarla da yük, su və kerosin daşınırdı. 1893-cü il 18 yanvarda şəhərdə atlı dəmir yolunun (konka) yaradılması barədə şəhər idarəsinin qərarı çıxır. Konkanın təşkili aşağıdakı şərtlər əsasında müəyyən edilirdi: sərnişinlərin rahat minib-düşməsi üçün konka aram hərəkət etməlidir. Uşaqlar və qadınlar minib düşdükdə isə konka mütləq dayanmalıdır. Bir neçə vaqon birlikdə hərəkət etdikdə onların arasındakı məsafə 10 sajından az olmamalıdır. Sərnişin daşıyan atların yerişi yortma olmalıdır, saatda 10 verstdən artıq olmamaq şərtilə. Yoxuş yerlərdə konkaya mütləq üçüncü at qoşulmalıdır. Küçələrin kəsişdiyi yerlərdə, küçələri dönərkən, döngələrdə, eniş yerlərdə atlar mütləq yortma getməlidir. Təhlükəli yerlərdə sürücü zəngi tez-tez basmaqla piyadaları xəbərdar etməlidir. Beləliklə sübh tezdən ta hava qaralanadək küçələri konkanın zəng səsləri bürüyərdi. Yaşlı adamlar konka gedə-gedə minib düşürdülər.

Atlı dəmir yolunda qış üçün örtülü vaqonlar, yay ayları üçün isə açıq vaqonlar ayrılmışdı. Vaqonlar çox kiçikdi. 12 nəfərdən artıq adam tutmurdu. Sürüçünün yanında isə ancaq dörd adamın durmasına icazə verilirdi. Gediş haqqı ta 1918-ci ilədək 20 qəpik idi.

Konka bütün küçələrdən keçmirdi. Onun öz marşrut xətti vardı. Birinci xətt vağzaldan başlayırdı: Telefon küçəsi ilə (indiki 28 may) keçərək Bolşoy morskoy (Bülbül) küçəsinə çıxır, oradan Malakan küçəsinə (indiki Xaqani) dönür, bu küçənin qurtaracağında sağa tərəf burularaq, Musa Nağıyevin uca mərtəbəli binası qarşısından keçərək, Parapetə (Fəvvarələr meydançası çıxır, sonra yenə sağa burularaq, Bazar (indiki Hüsü Hacıyev) küçəsi ilə Quba (Füzuli) meydanına tərəf gedirdi.

Burdan Şamaxı yolu ilə üzü yuxarı qalxaraq, Şah döngəsi yanından qeri dönürdü. Şamaxı yolu ilə aşağı enərək, indiki Füzuli küçəsinə çıxırdı. Buradan da düz gedərək vağzala çatırdı.

Səhərlər vağzala gedərkən konka neft mədənlərinə gedən fəhlələrlə dolu olurdu. Axşam da həmin marşrutla evlərinə qayıdırdılar. İkinci marşrut xətti Azərneft meydanından başlayırdı. II Aleksandr Sahil küçəsilə (Neftçilər prospekti) keçərək, Mixail küçəsinə (indiki Əziz Əliyev) dönür və buradan da Merkuri (indiki Azərbaycan prospekti) küçəsinə burularaq, Mariya (indiki R. Rza) küçəsinədək düz gedir. Tində sağa burularaq, Malakan bağının yanında Malakan (Xaqani) küçəsinə dönür və buradan da Bolşoy morskoy küçəsinə istiqamət alır. Telefon küçəsinə çatarkən sağa burulur, küçə boyu düz gedərək vağzala çıxırdı. Qayıdan baş Füzuli küçəsi ilə gələrək, Quba meydanından keçib H. Hacıyev küçəsinə daxil olurdu. Ta qəssab bazarınadək gedir. Buradan sola aşağı dönərək, qəssabbazarla Əzizbəyov küçəsinə çıxır. Burada Parapetin yanında Əhməd Cavad küçəsinə çıxır, Mixail (indiki Əziz Əliyev) kiiçəsi ilə zəngin mağazaların qabağından ötərək, Sahil küçəsinə burulur və bu küçə ilə qubernator evinin (indiki həkimlər evi) qabağına çıxırdı.

Konkanı səhərdən axşamadək şəhərdə daşımaq atları əldən salırdı. Buna görə də tez-tez sıradan çıxırdılar. Konkadan açılan at daha heç nəyə yaramırdı. O vaxtdan bakılıların arasında arıq, taqətsiz adamları həmişə konkadan açılan atlara oxşadırdılar: "Elə bil konkadan açılıb" deyirdilər.

Şəhərdə konkanın təşkil edilməsi barədə qərardan sonra onun çəkilişi və istismarı həmişə ayrı-ayrı adamlara icarəyə verilmişdi. İlk icarədarlardan biri Hacı Zeynalabdin Tağıyev idi.

## KÜÇƏLƏRİN İŞIQLANDIRILMASI

Şəhər abadlaşdıqca küçələri işıqlandırmaq şəhər idarəsi qarşısında ciddi bir məsələ kimi dururdu. Çünki qaranlıq küçələrdə cinayətlər törənir, adamları tez-tez soyurdular. Bundan əlavə şəhərə gecə daxil olmuş adamlar lazım olan ünvanları tapa bilmirdilər. Buna görə küçələrə dirəklər basdırılıb, fanarlar asıldı. 1878-ci ildə, yəni dumanın təşkil olunduğu ildə şəhərdə cəmi 86 belə fanar vardı. Bu dirəklərdən

72-si çürümüş şalbanlar idi. Yalnız 14 ədədi neft sahibkarı Kokerovun qubernator Kolyubakinə bağışladığı çuqun dirək idi. Aydın şeydir ki, 86 dirəklə şəhərin təzə salınmış və hər tərəfində əzəmətli uca binalar yüksələn küçələrini işıqlandırmaq qeyri mümkün idi. Böyük mərkəzi küçələr işıqlandırılsa da, kənar ucqar küçələr axşam düşən kimi qaranlığa bürünürdü. Fanarlarda adətən 5-lik kerosin lampalar yandırılırdı. Yalnız mərkəzi küçələrdə 7-lik lampalara rast gəlmək olardı. Hər iki məhəllədən birində fanar yanırdı. Lampaların yandırılması və söndürülməsi şəhər idarəsi tərəfindən icarəyə verilərdi. 70-ci illərdə bu iş Ağahüseyn adlı bir nəfərin icarəsində idi. Axşamlar icarədar nərdivanı qoltuğuna vuraraq, fanarları yandırır, səhərlər söndürürdü.

Küçələrin pis işıqlandırılması barədə şəhər idarəsinə gələn şikayətlərin ardı-arası kəsilmirdi. Nəhayət şəhər idarəsi məcbur olur ki, şəhərdə fanar dirəklərinin sayını artırsın. Dumanın icazəsi ilə şəhər idarəsi 1882-ci ildə dirəklərin sayını 698-ə qədər artırdı. Bunlardan 162 ədədi çuqun dirək, 223 ədədi çuqun kronşteyn, 28 ədədi divara vurulan çuqun kronşteyndən ibarət idi.

Bakıya dəmir yolunun çəkilişinə şəhər idarəsi bərk tələsirdi. Onu da bilirdilər ki, yolun çəkilişi ilə şəhərə axın çoxalacaq, onların içərisində oğru və cinayətkarlar da tapılacaqdı ki, Bakının qaranlıq küçələri onların fəaliyyəti üçün əlverişli şərait yaradacaqdı. 1892-ci ildə Bakıda olmuş B. Brandt yazırdı ki, "Bakı ilk nəzərdə adi böyük əyalət şəhəri təsiri bağışlayır. Bir və iki mərtəbəli evlər, çirkin küçə və səkilər. Kerosinlə zəif işıqlandırılan küçələrdə getmək qorxuludur".

Sonralar şəhər əhlinin təkidi ilə şəhər idarəsi Kastroma şəhərinin Şipov zavodunda və Peterburqun Kumberq zavodunda təzə çuqun dirəklər sifariş verdi.

1895-ci ildən kerosin lampaları elektrik çıraqları ilə əvəz olunmağa başladı. 1895-1903-cü illər arasında Bakıda AR şəhəri çıxmaq şərtilə 64 irili-xırdalı elektrik stansiyası yaradılmışdı. Bunların əksəriyyəti ayrı-ayrı sahibkarlar tərəfindən öz istehsalat müəssisələrini işlətmək məqsədilə yaradılmışdı. Məsələn, Musa Nağıyevin, Dadaşovun, Skobelevin, Əsədullayevin və başqalarının stansiyaları. Bunlardan elələri də vardı ki, şəhərə ancaq işıq vermək məqsədilə tikilmişdi. 1899-cu ildə "Elektriçeskaya sila" aksioner şirkəti təşkil olundu. Bu şirkət Bakı şəhərini və mədənləri elektrik enerjisi ilə təmin edirdi. "Elektriçeskaya sila"nın iki stansiyasından biri Bibiheybət rayonunda, o biri isə Ağ şəhərdə idi.

Bibiheybət stansiyası 1901-ci ildən, Ağ şəhər stansiyası isə 1902-ci ildən enerji verməyə başlamışdılar. Bu stansiyaların işə düşməsi nəinki fabrik və zavodların, habelə şəhərin də elektrik enerjisinə olan ehtiyacını təmin edirdi. Məsələn, şəhərin mərkəzi küçələrindən biri hesab edilən II Aleksandr Sahil küçəsinin əvvəllər ancaq yarısı elektrik işığı, qalan hissəsi isə kerosin lampaları ilə işıqlandırılırdısa, stansiyaların işə düşməsindən sonra küçə başdan ayağa çıraqban edilmişdi. İşıqların sayı o qədər çoxalmışdı ki, körfəzə daxil olan gəmilər Qız

qalasının başında olan mayağın işığını sahil işıqlarından ayıra bilmirdilər. Buna görə 1907-ci ildən Qız qalasının mayağı tamamilə ləğv edildi. Şəhərin yuxarı məhəllərindən çoxu isə hələ də qaranlıq içərisində qalmışdı.

1883-cü ildə duma Bakıda yanğın komandasının yaradılmasını müzakirə etmişdi. Lakin bu böyük xərclə əlaqədar olduğu üçün qlasnıların əksər səsi ilə bu işin təxirə salınması qərara alınmışdı. Bir ildən sonra, yəni 1884-cü ildə şəhər idarəsi təzədən bu məsələnin üstünə qayıtmış və komandanın yaradılması üçün lazım olan 10 min manatlıq smetanı dumada təsdiq etdirir. Qanlı təpənin şərq tərəfində komandan üçün bina tikilir. Beləliklə yanğın idarəsi şəhərin ən uca bir yerində yerləşir. Şəhərin hər hansı bir tərəfində baş vermiş yanğın buradan aydın görünürdü. Sonra at, qoşqu alətləri alınır, iri boçkalı arabalar sifariş verilir və işə başlanır. O zaman şəhərdə yanğın tez-tez baş verirdi. Elə gün olmazdı ki, yanğın arabaları zəng çala-çala şəhərin küçələrində görünməsin.

## MƏKTƏB VƏ MAARİF

1834-cü il məlumatına əsasən həmin ildə Bakıda cəmi bir ümumi ibtidai məktəb vardı. Bu məktəb ona görə ümumi məktəb adlanırdı ki, orada Bakıda yaşayan bütün millətlərin uşaqları oxuya bilərdilər. Həmin il 8 fevral təliqəsinə əsasən bu məktəbin cəmi 29 şagirdi vardı. Burada oxuyan uşaqların əksəriyyəti dövlət məmurlarının uşaqları idi. 28 nəfərdən 11 nəfəri bəy, dvoryan, knyaz uşaqları, 11 nəfər isə tacir və varlıların uşaqları idi. Yerli zümrələrdən olan azərbaycanlılar öz uşaqlarını bu məktəbə buraxmırdılar. Bunun da səbəbi o idi ki, bu məktəblərdə ana dili və Quran təlim olunmurdu. Azərbaycanlı uşaqların əksəriyyəti mədrəsələrdə oxuyurdular. Şəhərdə mollalar tərəfindən saxlanılan belə mədrəsələrin sayı 12-dən artıq deyildi. Bunlarda da 142 nəfər uşaq oxuyurdu. Təkcə Maştağa nahiyyəsində 23 mədrəsə vardı ki, burada təhsil alan şagirdlərin sayı 200 nəfərə yaxındı. Məscidlərin nəzdində olan bu mədrəsələrdə dərs deyən mollaların əksəriyyəti İrandan gəlmə idilər. Mədrəsələrin xərcini qismən məscidlər və qismən valideynlər ödəyirdi.

Qafqaz canişininin 1843-cü il 17 may tarixli fərmanı əsasında Bakıda müsəlman məktəbi açılır. Bu məktəbin üç nəfər müəllimi və 50 nəfər şagirdi vardı. Dərslər Azərbaycan, rus, ərəb və fars dillərində aparılırdı. Yalnız rus dili müəlliminin maaşı hökümət hesabına ödənilirdi. O biri müəllimlər isə maaşlarını ayrı-ayrı adamlardan toplanmış ianə hesabına alırdılar.

Yalnız, 1887-ci ildən başlayaraq, Bakıda yeni Avropa tipli məktəblər açılmağa başladı. Bunlar camaat içərisində üsuli-cədid məktəbi adlanırdı. İlk təşəbbüs həmin ildə Tiflisdə Aleksandr institutunu yenicə bitirib Bakıya qayıtmış Sultan Məcid Qənizadə və Həbib bəy Mahmudbəyov tərəfindən irəli sürülür.

Məktəbdə ana dili, fars dili ilə yanaşı rus dili də təlim olunurdu. Buna görə də məktəb "Rus-tatar məktəbi" adlanırdı. Fars dili ona görə keçilirdi ki, ticarətlə əlaqədar bütün müəssisələrdə yazı-pozu fars dilində aparılırdı. Məktəbdə 50 şagird vardı. Hər uşaqdan ayda 3 manat pul alınırdı. Lakin müəllimlər bu şagirdlərin demək olar ki, 25 faizinə pulsuz dərs deyirdilər. "Rus-tatar məktəbi"nin binası cəmi iki dərs və bir müəllimlər otağından ibarət idi. 15 ədəd dörd nəfərlik skamyası, iki dənə yazı taxtası, iki stolu və bir neçə dənə stulu vardı. Dərsləri əsasən Sultan Məcidlə Həbib bəy aparırdı. İlk zamanlar yalnız şəriət müəllimi kənardan çağırılırdi. İkinci il məktəb böyüyür. Məktəbə gələn şagirdlərin sayı 80 nəfərə çatır. Lakin yer olmadığından onlardan ancaq 50 nəfəri qəbul olunur. Məktəb getdikcə böyüyür və onun üçün daha geniş bina kirayə etməli olurlar. Başqa müəllimlər də dəvət olunur. Məktəbin mədaxili isə çox az idi. Kənardan çağırılmış müəllimlərə məvacib vermək, ev kirayəsi, odun, neft və su almaq üçün vəsait çatmırdı. Məxarici ödəmək məqsədilə Sultan Məcid və Həbib bəy evlərdə xüsusi adamların uşaqlarına dərs deməklə də məşğul olurdular. Dərs kitabları yox idi. Özləri dərslik yazmağa məcbur idilər. Hətta məktəbin lövhəsini də Sultan Məcid öz əli ilə yazmışdı. 1889-cu ildə şəhər idarəsi məktəb binasının kirayəsi üçün hər il məktəbə 6000 manat pul ayırdı. Məktəb 1891-ci ilədək davam edir. Bu zaman Bakıda rus dilində aşağıdakı məktəblər vardı; ibtidai məktəblər: Turgenev, Aleksandr, Mixail məktəbləri. Orta məktəblər: Real məktəbi, "Müqəddəs Nina" qız məktəbi, yaxud gimnaziyası, Mariya qız məktəbi, Azərbaycanda cəmi 7 Mariya qız məktəbi vardı ki, bunlarda 1827 nəfər qız, o cümlədən 37 nəfər azərbaycanlı qızı oxuyurdu. Gimnaziyalar 7 əsas və 1 hazırlıq sinfindən ibarət idi. Fənnlər iki cür idi: məcburi və qeyri məcburi. Məcburi fənn cəmi 3 idi və bunlardan ibarətdi: rus dili, matematika, coğrafiya, tarix, təbiət, fizika, rəsmxətt və əl işi. Qeyri məcburi fənnlər: alman dili və bədən tərbiyəsi idi. "Rus-tatar məktəbi"nin məqsədi real məktəbə şagird hazırlamaq idi.

Sultan Məcid Qənizadə və Həbib bəy Mahmudbəyovun "Rus-tatar məktəbi" 1887-ci ildən 1891-ci ilədək 4 il içərisində real məktəb üçün xeyli şagird hazırlamışdı. 1912-ci ilədək savadlı bakılıların 75 faizi həmin məktəblərdən çıxmışdı.

1891-ci ildə "Rus-tatar məktəbi" tamamilə dumanın sərəncamına keçdi. Hətta duma əlavə olaraq, 7 belə məktəb açdı. Açılan bu məktəblərdən biri Çəmbərə kəndində, o biri isə Zərgər palanında idi. Çəmbərə kəndindəki məktəbin müdiri Sultan Məcid, Zərgər palanındakı məktəbin müdiri isə Həbib bəy Mahmudbəyov idi.

Sultan Məcid Qənizadə belə məktəblərdən Türküstan vilayətinin Səmərqənd şəhərində də açılmasını təklif etmişdi. Bu məqsədlə İsmayıl bəy Qaspirinski ilə birlikdə Səmərqəndə gedərək, orada xüsusi cədid məktəbi açmışdılar.

1887-ci ildə, yəni "Rus-tatar məktəbi" açılmamışdan qabaq orta məktəbdə cəmi 10 nəfər müsəlman məktəblisi oxuyurdu ki, bunlardan da çoxu özgə şəhərlərdən gəlmişdi. 1912-ci ildə isə real məktəbdə 200 nəfərdən çox müsəlman uşağı oxuyurdu. Gimnaziyalarda, texniki məktəbdə, ticarət məktəbində oxuyan azərbaycanlı uşaqlarının sayı artmışdı. Bakıda rus və Azərbaycan dilində savadlı olanların 75 faizi rus-tatar məktəblərini bitirmişdilər. Bunlardan M. Ə. Rəsulzadə, M. Əzizbəyov, Hacı İbrahim Qasımov, Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Kazımovski və başqalarını göstərmək olar. Mövcud 7 rus-tatar məktəblərindən ancaq biri - 2 nömrəli rus-tatar məktəbi 6 sinifli şəhər məktəbinə çevrilmişdi. Yalnız sonralar, yəni 1907-ci ildə rus-tatar məktəbləri üç illik təhsildən dörd illik təhsilə keçirlər. Daha sonralar, 1914-ci ildə isə bütün 4 sinifli məktəblər ali ibtidai məktəb sisteminə keçmişdilər.

Rus-tatar məktəblərində dərs deyən müəllimlər mütləq Qori seminariyasını bitirməli idilər. Ancaq müstəsna hal olaraq bəzən real məktəbi bitirənlər də burada dərs deyə bilərdilər.

Xarici dil predmetlərini təlim etmək üçün universitet bitirmək lazımdı.

1901-ci ildə H. Z. Tağıyevin məşhur qız məktəbi açılır. Bu məktəbin nizamnaməsi H. B. Zərdabi tərəfindən tərtib edilmişdi. Məktəbin açılmasına çar hökuməti uzun müddət icazə vermirdi. Bu məsələ II Nikolayın taxta çıxması gününədək uzanır. H. Z. Tağıyev imperatorun taxta çıxması günündən istifadə edərək, təzədən hökümətə müraciət edir və bu dəfə məktəbin açılmasına icazə ala bilir. Məktəbin inşaatını sürətləndirmək məqsədilə qız məktəbinə imperatoriçə Aleksandra Fyodorovnanın adı verilir. Məktəbin tikilişinə 183 min beş yüz otuz iki manat pul xərclənmişdi. Bundan əlavə Hacı məktəbin mənafeyinə xərclənmək üçün 125 min də ayırmışdı. Qız məktəbində 20 nəfər qız məccani oxuyacaqdı. Sonra binanın zirzəmilərindən gələn kirayə haqqı da məktəbə bağışlandı. Bunun sayəsində məktəbdə pulsuz oxuyan qızların sayı 15 nəfər də artdı. Qəbul olunacaq qızların sayı 50 nəfərdən ibarət nəzərdə tutulmuşdu. Lakin arzu eləyənlərin sayı çox olduğu üçün məktəbə birinci il 58 nəfər qız qəbul edildi. Məktəbin müdiri Həsən bəy Zərdabinin arvadı Hənifə xanım idi. Uzaq şəhər və kəndlərdən gələn qızlar üçün məktəbdə pansion vardı. Burada yataqxana, yeməkxana və xəstəxana üçün xüsusi otaqlar ayrılmışdı. Bakı şəhərindən olan qızlar isə öz evlərində qalırdılar. Məktəbin şagirdləri kimi müəllimləri də ancaq müsəlmanlardan ibarət idi.

Qız məktəbinin açılması ilə əlaqədar çətinliklərdən sonra Tağıyev daha yeni bir çətinliklə üzləşdi. Qız məktəbinin açılışı şəhərin ruhani, mürtəce təbəqələri, qoçular, tacirlər tərəfindən qəzəblə qarşılanmışdı. Heç kəs qızını məktəbə buraxmırdı. Guya Hacı müsəlmənlıqdan kənar iş tutmuşdur. Hacının tərəfində olan ruhani üləmalardan Bakı vilayəti qazısı Mir Məhəmməd Kərim, axund Ruhulla,

Mirzə Abuturab və başqalarının elmin qızlara vacib olduğu barədə Quran ayələrindən möuzələr oxusalar da mürtəcə adamları öz rəylərindən döndərə bilmirdilər. Axırda Tağıyev məcbur olur ki, İslamın müqəddəs şəhərlərinə nümayəndələr göndərsin. Qızlara da oğlanlarla birlikdə elm və təhsil almağa icazə verilməsi barədə görkəmli müctəidlərdən rəsmi yazılı sənədlər gətirsinlər, yalnız bundan sonra qız məktəbi ətrafında gedən ehtiraslı danışıqlara son qoyuldu və şəhər əhlindən çoxu öz qızlarını məktəbə buraxdılar. Camaatı sakitləşdirmək məqsədilə adlarını çəkdiyimiz hər üç üləma da qızlarını təhsil almaq üçün Tağıyevin qız məktəbinə qoydular.

Bakıda eyni zamanda texniki məktəb ticarət məktəbi (kommerçeskoe uçilişe) və "Dənizçilik kursları" adı altında dənizçilik məktəbi də fəaliyyət göstərirdi. Sonralar Xəzər dənizinin ticarət gəmilərində işləyən bosman və kapitanlar həmin bu məktəbi bitirmişdilər. Bunlardan əlavə iri sənaye müəssisələrinin nəzdində fəhlə və qulluqçuların uşaqları üçün özlərinin xüsusi məktəbləri də vardı. Xeyriyyə cəmiyyətlərindən "Səadət", "Nəşr və Maarif', "Nicat" və "Səfa" cəmiyyətləri tərəfindən müsəlman uşaqları üçün xüsusi məktəblər açılmışdı. Bu məktəblərdə ehtiyacı olan uşaqlardan çoxu pulsuz oxuyurdu.

İnqilabadək Bakıda rus dilində 5 kişi gimnaziyası vardı: 1 nömrəli gimnaziya (Səməd Vurğun ilə D. Əliyeva küçələrinin tinində (Bədən Tərbiyəsi İnstitutunun keçmiş binasında yerləşirdi), 2 nömrəli gimnaziya (İstiqlaliyyət küçəsində, indiki Xalq Təsərrüfatı İnstitutu binasının ikinci mərtəbəsində idi). 3 nömrəli gimnaziya əvvəllər indiki "Vətən" kinoteatrı binasının ikinci mərtəbəsində yerləşirdi. Sonralar isə Bazar (indiki Füzuli) küçəsində məxsusi bu gimnaziya üçün tikilmiş binaya (indiki 4 nömrəli xəstəxananın binasına) köçmüşdü, 4 nömrəli axşam gimnaziyası 2-ci gimnaziyanın binasında idi. 5-ci gimnaziya isə Yemelyanov gimnaziyası idi.

Rus dilində 3 qız gimnaziyası da vardı: 1. Mariya gimnaziyası (hazırki İncəsənət Muzeyi binasında yerləşirdi). 2. "Müqəddəs Nina" gimnaziyası (hazırki 132 nömrəli məktəbin binasında). 3. 3 nömrəli qız gimnaziyası (hazırki Səməd Vurğun küçəsində yerləşirdi).

Real məktəblər də iki idi: 1 nömrəli Real məktəbi (hazırki Xalq Təsərrüfatı institutu binasının birinci mərtəbəsində), 2 nömrəli Real məktəbi isə Azad Azərbaycan qadını abidəsinin arxasında keçmiş çay fabrikinin binasında yerləşirdi.

## MƏTBUAT

Xeyriyyə cəmiyyəti bağlandıqdan sonra Həsən bəy Zərdabi qəzet çıxarmaq fikrinə düşür. "Həyat" qəzetinin 1905-ci il tarixli 115-ci nömrəsində o yazırdı:

"Bizim "Cəmiyyəti Xeyriyyə" bina tutmadığından aşkar oldu ki, qəzet çıxarmaqdan savayı bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı və pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmazsa doğru söz yerdə qalsın".

O dövrdə Azərbaycan dilində qəzet çıxarmaq çox çətin idi. Həsən bəyin özünün yazdığı kimi "pul yox, yazıçı - yoldaş yox, çapxana yox, hürufat yox. Dövlət tərəfindən izn almaq da ki, bir böyük bəladır".

Bu işdə ona yalnız o zaman Bakının general qubernatoru olan Staroselski yaxından kömək edir. Staroselski rus dvoryanlarından olsa da, arvadı gürcü olduğu üçün Qafqaz əhlinə qarşı çox səmimi idi. O Həsən bəyə məsləhət bilir ki, çıxaraçağı qəzetin adını "Əkinçi" qoysun. Hökümətin icazə verməsi üçün də bu düşünülmüş bir yol idi. Guya "Əkinçi" siyasət məsələlərinə qatışmayacaq, ancaq əkin və əkinçilikdən danışacaqdır. Türk dilində hürufat olmadığı üçün Həsən bəyə məsləhət bilirlər ki, qəzeti daşbasması ilə (litoqrafiya üsulu ilə) çıxarsın. Həsən bəy bu fikirlə razılaşmır. Çünki litoqrafiya üsulu ilə qəzeti həftədə ancaq bir və ya iki dəfə çıxarmaq olardı. O isə qəzeti gündəlik etmək fikrində idi. Uzun müddət düşünüb daşınandan sonra hürufat almaq üçün 1875-ci ilin iyul ayında İstanbula gedir. Hürufatı alıb, qayıdandan sonra əlahiddə bir çapxana açmaq lazım gəlir. Həsən bəyin isə buna gücü çatmır. Staroselski yenə ona kömək əlini uzadır. O Həsən bəyin İstanbuldan gətirdiyi hürufatı quberniya idarəsinin çapxanası üçün satın alır və beləliklə Həsən bəyi çətin vəziyyətdən çıxarır. 1875-ci ilin 22 iyulundan quberniya idarəsinin mətbəəsində "Əkinçi"nin birinci nömrəsi çapdan çıxır. Mürəttib məsələsi də çox çətinliklə həll edilmişdi. O zaman quberniya çapxanasında Minasov adlı bir nəfər erməni mürəttibi işləyirdi. Həsən bəy ondan istifadə etdi. Bir müddətdən sonra Minasov öz bacısı oğlunu da işə qəbul etdirib, ona mürəttibliyi öyrətməyə başladı. Qəzetin üstündə rəsmi olaraq, "iki həftəlik qəzet" yazılsa da, Həsən bəy həmin ilin payızından qəzeti həftədə bir dəfə çıxarırdı. Çünki abunəçilərin sayı 400 nəfərə çatmış və qəzetin ətrafında yazıçıların sayı artmışdı. Staroselski özünü qəzetin senzoru təyin etmişdi. O işdən gedəndən sonra isə senzor vitse qubernator oldu. Əlbəttə, Staroselskinin işdən getməsi, Həsən bəyin özünün dediyi kimi, onun üçün bədbəxtçilik idi. Çünki Staroselski gedəndən sonra qəzetin düşmənləri yer-yerdən hücuma keçib, qəzeti bağlatdırmağa çalışdılar. O biri tərəfdən qəzetdə siyasi xəbərləri çap etməyə icazə verilmədiyindən abunəçilərin də narazılığı artırdı. Qəzet barədə danoslar yazılmağa başladı. Jandarm tərəfindən Həsən bəyin hərəkətlərinə göz qoyuldu. Bu barədə Həsən bəy özü belə yazırdı: "Gündə məndən və "Əkinçi"dən danoslar göndərirdilər. Jandarm tərəfdən üstümə qaraulçular qoyuldu... Bununla belə mən qəzeti vaxtında çıxarırdım. Elə ki, Dağıstanda şuluqluq başlandı "Əkinçi"nin də günü dəxi qara oldu. Bir gün Nəcəf bəy Vəzirovun məqaləsini ki, Moskvadan

göndərmişdi, vermişdim düzülməyə. Məqalədə bir dərviş bazarda dükanların qabağında qəsidələr oxuyub, onları elm təhsil etməyə çağırırdı. Senzor qol çəkib, çap olunmağa icazə vermişdi. Qəzeti çap olunub paylanandan sonra qubernatorun hökmünə görə o nömrəni bağlayıb, məni istədilər. Gedib gördüm ki, mənim Minasovum oradadır. Qubernator buyurdu ki, Minasov deyir ki, dərvişin sözlərinin qeyri mənası var. Ona görə nömrəni bağlayıb, sənə hökm edirəm ki, bir qeyri nömrə çap edəsən. Cavab verdim ki, qeyri nömrə çıxarda bilmərəm. Mən gedəndən sonra qubernator özü bir nömrə çıxardıb, payladı. Nömrə mənim adımla çıxmışdı. Mən təvəqqe elədim ki, mənim adımdan qəzet çıxarmasınlar".

1877-ci üdə başlayan rus-türk müharibəsi qəzetə böyük zərbə oldu. Bütün rus qəzetləri müharibənin gedişindən ətraflı xəbərlər verdiyi halda "Əkinçi"yə müharibə barədə bir sətir də çap etməyə icazə verilmədi. Hətta müharibənin başlanmasını da bildirmək ona qadağan olunmuşdu. Qəzetin üzərində senzor daha da güclənmişdi. Həsən bəy bu barədə belə yazırdı: "Deyil ki müharibənin gedişi, hətta müharibə zamanı Rusiya içərisində vaqe olmuş təbii fəlakətlərə dair məlumatı, Moskvada soyuqdan sərçələrin donub ölməsini də qəzetə yazmağa müsaidə etməmişdilər. Senzorun fikrincə bunu müsəlmanlar "ruslara Allahın qəzəbi keçmişdir" deyə izah edərlər".

Müharibə barədə heç bir məlumatın verilməməsi abunəçilər içərisində qəzeti xeyli nəzərdən salmışdı.

Həmin bu günlərdə Dağıstanda iğtişaş başladı. Üsyan başçılarından bəziləri güllələndi, bəziləri də sürgün edildi. Bununla "Əkinçi"ni bağlamaq üçün hökümətin əlinə yaxşı bəhanə düşmüşdü. Bütün Qafqazda üsyanın başlayacağından qorxuya düşən çar höküməti "Əkinçi"nin də bu işdə böyük rol oynayacağını düşünüb qəzeti bağlatdırdı. Qəzetin axırıncı - 56-cı sayı 1877-ci ilin sentyabrında çıxdı. Qəzet bağlansa da Həsən bəyin özündən əl çəkmədilər. Real məktəbinin direktoru Həsən bəyə təklif etdi ki, o Yekatirinadar və ya Kutaisi gimnaziyasına müəllim getsin. Bu barədə Həsən bəy özü belə yazırdı: "Mən ərizə verib, qulluqdan çıxdım. Çünki mən Bakıdan çıxıb, müsəlman işlərindən kənar olmağı özüm üçün ölüm hesab edirdim.

Dava qurtardı. Amma mənim Bakıda qalmağım müşkül oldu. Padşahlıq qulluğuna məni götürmədilər və bakılılardan da heç kəs məni qulluğa götürmədi. ...Bakıda daha qala bilməyib öz kəndimizə köçüb getdim".

"Bakinskaya izvestiya" qəzeti 1878-ci il 29 noyabr tarixli 25-ci sayında belə bir elan vermişdi: "Real məktəbinin keçmiş müəllimi Həsən bəy Məlikov 20 noyabrdan istefaya çıxaraq xüsusi müəssisələrdə işlər müdiri, kontorçu, müəllim və sairə bu kimi vəzifələrdə işləmək üçün yer axtarır".

"Əkinçi" bütün Zaqafqaziyada ilk türk qəzeti idi. Qəzet səhifələrində Həsən bəyin yazdıqları əsasən kənd həyatından, kənd təsərrüfatından olurdu. Ancaq

bununla belə qəzetin səhifələrində dövrün bir sıra ictimai məsələləri də işıqlandırılır, bu barədə mübahisələr açılırdı. Mollalar, mövhumatçılar, çar çinovnikləri, yalnız öz mənafelərini güdən duma qlasnıları da Həsən bəyin məqalələrində amansızcasına tənqid olunurdu. Azərbaycan dilinin təmizliyi Həsən bəydən ötrü müqəddəsdi. O fars və ərəb sözləri ilə dolu olan və heç kəsin anlamadığı bir dildən sadə Azərbaycan dilinə keçməyi yanar bir ürəklə təbliğ edirdi. O yazırdı: "İstəyirsinizmi türk milləti yaşasın, qabağa getsin, elmi və mərifəti olsun, mədəniyyəti olsun - ona dil verin, türklər öz dillərini itiriblər, sizin sözünüzü onlar anlamazlar. Onların dilini tapın, verin onlar yaşasın, qabağa getsin".

Həsən bəy Zərdabinin "Əkinçi"dən sonrakı həyatı da çox ağır keçmişdir. 16 il Zərdabda qaldıqdan sonra iflic xəstəliyinə tutularaq, Bakıya qayıdır. Yenə qəzetlərdə mühərrirliklə məşğul olur. "Kaspi" qəzeti səhifələrində öz məqalələri ilə müntəzəm iştirak edir. Peterburq qəzetləri də onu öz səhifələrində iştirak etməyə çağırırdılar. Dumaya seçilir və onun komissiyalarında fəal iştirak edirdi. Dumanın iclaslarından birində məsələ qaldırmışdı ki, şəhər yerlərindən keçən neft boruları üçün vergi alınsın. Bu təklif neft sahibkarlarının böyük qəzəbinə səbəb olmuşdu. Onlardan biri öz qəzəbini belə ifadə etmişdi: "Lütün biri lüt. Özünün cibində bir qəpik olmadığı halda bizim cibimizlə oynayır. Biz onu yetimə qəyyum etdik ki, dumaya seçilməyə ixtiyarı olsun. İndi bizimlə belə rəftar edir".

Həsən bəy iflic olmasına, dilinin tutulmasına baxmayaraq, duma komissiyalarının iclaslarında fəal iştirak edirdi. Hətta dumaya təzə seçki başladığı zaman özünə qutu da qoydurmuşdu. Ancaq xəstə olduğu üçün onu seçməmişdilər və seçilmədiyini də heç kəs ona bildirməmişdi. Bununla belə o özünü əvvəlki kimi qlasnı hesab edirdi. Lakin iclaslara nə üçün çağırılmadığına təəccüblənirdi.

1907-ci il 28 noyabrda Həsən bəy Zərdabi gözlərini əbədi yumur. Onun dəfni zamanı natiqlərdən biri demişdi: "Həsən bəy Bakıya ac gəldi, ac da getdi".

"Əkinçi"dən sonra 1873-cü ildə Tiflisdə daş basma üsulu ilə "Ziya" qəzeti çıxmağa başladı. Qəzetin ilk nömrəsi yanvarın 16-da çıxdı. 2 səhifədən ibarət idi. Naşiri Səid Ünsüzadə, müdir və mühərriri isə Cəlal Ünsüzadə idi. "Ziya" 1879-cu ildə 46 ədəd, 1880-ci ildə isə 30 ədəd çıxmışdı. 1880-ci il dekabrin 6-dan qəzet "Ziyayi Qafqaziyyə" adı altında hürufatla çıxmağa başlayır. "Ziyayi Qafqaziyyə" qəzetinin nəşri 1884-cü ilin 1 iyununadək davam edir. 1881-ci ilin sentyabrın 21-dək 31 nömrə, 1882-ci il 26 oktyabrdan 1883-cü ilin 3 yanvarınadək 32 nömrə, 1893-cü ilin 10 yanvarından dekabrın 6-dək 30 nömrə, 1884-cü ilin yanvarından iyunun 1-dək 11 nömrə çıxmışdır. Axırıncı illərdə qəzeti Səid Ünsüzadə redaktə edirdi.

1883-cü ildən Tiflisdə Azərbaycan dilində "Kəşkül" adlı bir jurnal da nəşr olunmağa başlayır. Ta 1891-ci ilədək davam edir. Jurnal türk dilindən başqa fars və

ərəb dillərində də nəşr edilirdi. Jurnalın səhifələrində siyasət, ticarət, sənaye və ədəbiyyat məsələlərindən müntəzəm bəhs olunurdu.

Adlarını çəkdiyimiz mətbuat orqanları Tiflisdə çap olunsalar da daha çox Bakıda satılırdı. Lakin "Əkinçi"dən fərqli olaraq bu mətbuat orqanlarının heç biri Həsən bəy Zərdabinin xalqdan gələn gözəl ənənələrini davam etdirə bilmədi. Xalqa bağlılıq bunlara tamamilə yad idi. Dərc olunan məqalələrdə cəmiyyətin kəskin ictimai məsələləri qətiyyən öz əksini tapa bilmirdi. Qəzet və jurnal bütün bu məsələlərin yanından sovuşub keçirdi.

1905-ci il inqilabınadək çap edilən qəzetlərdən biri də "Şərqi rus" idi. 1903-cü ildən Tiflisdə nəşr edilmiş və 1904-cü ilədək davam etmişdir. 1904-cü ildə qəzet bağlanır və redaksiyası Tiflisdən Bakıya köçür. Burada qəzet əvvəllər "Şərqi rusun teleqramları", sonra 1905-ci ildə "Axşam xəbərləri" adı ilə nəşrini davam etdirir. Qəzet Məmmədağa Şahtaxtinskinin başçılığı ilə çap edilirdi. Qadın məsələsi, xüsusən, hürufat islahı qəzetin səhifələrində görkəmli yer tuturdu.

Keçən əsrin yetmişinci illərində Bakıda rus dilində çap olunan mətbuat başlıca olaraq, üç qəzetdən ibarət idi. Birinci qəzet 1876-cı ildən çap olunan "Bakinskaya izvestiya" qəzeti idi. Bu qəzet rəsmi olaraq, Bakı quberniya idarəsinin orqanı idi. 1881-ci ildən isə İmperator Rus Texniki Cəmiyyətinin Bakı şöbəsinin əlinə keçir. O Naruçev tərəfindən redaktə olunurdu. 1888-ci ildə isə qəzetin adı dəyişib, "Bakı ticarət-sənaye vərəqi" adı ilə öz nəşrini davam etdirir. Bu ad altında o 1888-ci il 15 oktyabradək çap olunur. Redaktor Neruçevin ölümü ilə əlaqədar qəzetin nəşri müvəqqəti saxlanılır. 1889-cu ildən isə qəzet Sokolinskinin redaktəsi altında öz işini davam etdirir. Qəzetin səhifələrində əsasən sənaye, neft istehsalı sahəsi işıqlandırılır, müxtəlif şəhər xəbərləri verilirdi.

Rus dilində ikinci böyük qəzet "Kaspi" idi. Siyasi-ədəbi qəzet idi. Quberniya idarəsinin katibi Kuzmin tərəfindən təsis edilmişdi. 1887-ci ilin mayında Kuzmin qəzetin çap edilmə hüququnu Svinkinə satır və ona müəllim Liçkus-Xomutov müvəqqəti redaktor təyin olunur. Sonra qəzeti 1888-ci ildə Qoryayevski, 1889-cu ildən isə Sokolinski redaktə edirdi.

XX əsrin əvvəllərində H. Z. Tağıyev "Kaspi" qəzetini redaksiyası ilə birlikdə alaraq, Ə. M. Topçubaşovun redaktorluğu ilə çap etdirir. Qəzetin ətrafına H. B. Zərdabi, Əli bəy Hüseynzadə, F. Köçərli, M. A. Şahtaxtlı, M. Mahmudbəyov və başqa azərbaycanlı ziyalılar toplaşaraq öz məqalələri ilə onun həyatında yaxından iştirak edirdilər. Həsən bəy Zərdabi hətta bir müddət qəzetin əməkdaşı kimi işləmişdir.

Qəzetin səhifələrində artıq Azərbaycanın ictimai və ədəbi həyatı işıqlandırılır. Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərindən parçalar çap olunurdu.

## MEYDAN VƏ MEYDANÇALAR

Vaxtı ilə Bakıda 16-ya qədər meydan və meydançalar olmuşdur.

**Quba meydanı** (və yaxud Bazar meydanı). Böyük və tanınmış meydan idi. Şəhərə gələn yollar məhz bu meydanda birləşirdi. Bir tərəfdən Bakı kəndlərindən gələn arabalar və başqa nəqliyyat vasitələri, o biri tərəfdən Quba və Şamaxıdan gələn öküz arabaları əsasən bu meydanda düşərdilər. Qubanın cırıltılı öküz arabaları öz yüklərini məhz bu meydanda boşaldardılar. Buna görə də bu Bazar meydanı Quba meydanı kimi tanınırdı. Sübh tezdən axşam düşənədək burada qızğın alver gedirdi. Qubadan əsasən alma, armud və başqa meyvələr gətirilərdi. Bakı kəndlərindən isə göyərtidən tutmuş yer-yemişədək daşınıb, burada satılardı. Ətrafında bir cərgə dükanlar vardı. Sonralar meydanın mərkəzində də taxtadan dükanlar tikilmişdi. Malakan furqonları ilə meyvə və tərəvəz, xüsusilə kələm daşınardı. Türkmənistandan gətirilən Cərco yemişləri qışın ortalarınadək dükanların qabağında asılıb, satılardı. Meydanda ayaq basmağa yer olmazdı. Buradan keçən konkalar camaatı xəbərdar etmək üçün zənglərini müttəsil çalırdılar. Səs-küydən qulaq batardı. Mallarını tərifləyənlərin çığırtısı, konkanın zəng səslərinə, müəzzinlərin minarələrdən eşidilən azanına qarışaraq, qulaqbatırıcı uğultuya çevrilirdi. Bir az aralıqda iri bir karvansara vardı ki, bazara daxil ola bilməyən Bakı arabaçıları araba və atlarını burada açardılar. İvleydan xüsusilə yağışlı havalarda zığ palçığa bulaşardı. Yeyilmiş meyvələrin qabıq və qalıqları ayaq altına atılardı. Süpürgəçilər bu zibilləri yalnız axşamlar camaatın əl-ayağı bazardan yığışandan sonra süpürməyə imkan tapırdılar. Burada dükan və taxta köşklərdə alver edənlərdən başqa bazara gətirdiyi mallarını kisə-kisə yerə qoyub, satanlar da olurdu. Polisin qadağan etməsinə baxmayaraq, məharətlə onların gözlərindən yayınaraq, öz alverlərini davam etdirərdilər.

İkinci böyük meydan Vorontsov, yaxud Kömür meydanı idi. Vaxtı ilə bu yerdə kömür yandırıldığından meydan camaat arasında Kömür meydanı kimi tanınırdı. Hökümət tərəfindən isə bu meydana rəsmi olaraq, Vorontsov meydanı adı verilmişdi. Bakıya satmaq üçün komür gətirən kömürçülər bir qayda olaraq həmişə buraya düşərdilər. Dəvə karvanları üçün meydanda əlverişli şərait vardı. Yükləri boşaldılmış dəvələr geniş meydanın bir kənarına çəkilərək, köyşək vururdular. Əvvəllər kömür qala divarlarının yanında, burada hələ nə Tağıyevin qız məktəbi, nə də Realnı uçulişe və Bakı Bələdiyyə İdarəsinin binaları tikilməmişdən geniş açıqlıqda satılırdı. Bununla da bu yer Kömür meydanı adlandırılmışdı. Azca aralıda kömür tayalarını çəkmək üçün qapan qoyulmuşdu. Həmin yerə Qapandibi deyirdilər.

Kömür meydanında Quba meydanından fərqli olaraq, alverdən başqa müxtəlif əyləncələr də keçirilirdi. Burada tez-tez pəhləvanlar da güləşərdilər. Xeyli əvvəllərdə isə meydanda taxtadan hündür bir masa düzəldilərək üstündə oğru və

cinayətkarlara cəza verilərdi. Kömür meydanı daha çox köhnə və nimdaş palpaltarların, ayaqqabıların, müxtəlif ev əşyalarının satıldığı yer idi. Hər addımbaşı yerə sərilmiş müxtəlif ev müxəllifatına rast gəlirdin. Burada paslı mıxdan tutmuş bərbəzəkli çil-çırağadək hər şey satılırdı. Bir tərəfdə dərviş oxuyur, o biri tərəfdə camaat hay-küylə xoruz döyüşdürürdülər. Dağıstandan gələn kəndirbazların oyunu daha maraqlı olardı. Kəndirbazlar əsasən üç nəfər olurdu. Biri basdırılmış iki dirək arasında tarım çəkilmiş ipin üstündə oyunbazlıq edir, o biri onun hərəkətini musiqi ilə müşaiət edərdi. "Yalançı pəhləvan" adı ilə məşhur olan üçüncüsü isə əl-qolunu ataraq meydan qızışdırardı. Meydanda adam əlindən tərpənmək olmazdı. Cümə günləri bura xüsusilə basırıq olurdu. Bir adam özünə lazım olan şeyi almaq üçün əldən-ayaqdan düşürdü.

Cızbızxanalar həmişə adamla dolu olardı. Başqa bir tərəfdə kabab bişirib satırdılar. Toyuq-cücə çığırtısından, satılmağa gətirilmiş qoyun mələrtisindən qulaq batırdı. Ancaq bütün bu natəmizlik içində qaynayan həyatın da öz məziyyəti vardı. Şarmanka çalanlar adamları öz bəxtlərini yoxlamağa çağırırdılar. Tutuquşunun qutudan dimdiyi ilə götürduyü paketlərdə adamlar öz talelərini yoxlayırdılar. Belə izdiham içərisində bəzən bir küncdə şirma düzəldib, kukla teatrı göstərənlər də olurdu.

Boyunlarından asılmış kiçik qutularda rəngbərəng kağızlarda konfet satan uşaqlar səhərdən axşamadək bazarda adamların əl-ayağına dolaşırdılar. Xüsusilə şirədən xoruz şəklində düzəlmiş və taxta çöpünə keçirilmiş sorma konfetlər uşaqların çox xoşuna gələrdi. Bamiyə, şərbət, iri mis çayniklərdə səələb satılardı. Bazarın toz-torpağı üstüaçıq satılan bu şeylərin üstünə qonsa da, alıcıların heç biri buna əhəmiyyət verməzdi. Səələb adətən payızın son aylarında satılardı. O öskürəyə və sinə ağrısına qarşı yaxşı dərman idi. Səələb səələb göyərtisi ilə süddən hazırlanırdı. Qışda şəhərin böyük küçələrində olduğu kimi meydanda da şabalıd qovrulub satılırdı.

Birja (Azadlıq) meydanı şəhərin iri meydanlarından biri idi. Təxminən səkkiz hektar ərazini əhatə edən meydan o zamankı birja idarəsinin yaxınlığında yerləşdiyi üçün onun sağ tərəfindəki küçə də (indiki Üzeyir Hacıbəyov küçəsi) Birja küçəsi adlanırdı.

Meydan boş və çılpaq bir düzənlik idi. Bərk xəzrilərdə burada toz-torpaqdan göz açmaq olmazdı.

Sağ tərəfdə Malakan küçəsi ilə (indiki Xaqani) L. Şmidt (indiki R. Behbudov) küçələrinin tinində yerləşən əsgər kazarmasının əsgərləri burada təlim keçərdilər.

Meydan at və arabaların duracaq yeri idi. Lakin dənizə yaxın olduğu üçün havası təmiz olardı. Kömür meydanı və Quba meydanlarında olduğu kimi burada da tez-tez həftə bazarları keçirilərdi. Meydanı abadlaşdırmaq Şəhər Bələdiyyə

idarəsinin imkanı xaricində idi. Buna görə də beş hektar sahə yaşayış binaları tikmək üçün xüsusi adamlara satıldı və tezliklə meydanın dörd tərəfində uca binalar tikildi.

Gözləmək olardı ki, satılmış sahədən əldə edilən pul meydanın abadlaşdırılmasına sərf olunacaqdır. Ancaq pul nəinki başqa yerə xərcləndi, hətta dumanın iclasında həmin ərazidə boş qalmış üç hektarlıq sahədə də binalar tikilməsi məsələsi irəli sürüldü. Bu məsələ 1904-cü ildə dumanın iclaslarında böyük mübahisələrə səbəb oldu.

Qlasnıların varlı sinifləri təmsil edən hissəsi meydanın qalan ərazisində də yeni binalar tikilməsinə tərəfdar çıxır. Həsən bəy Zərdabi bu fikrin əleyhinə olaraq meydanın şəhər əhalisinin dincəlməsi üçün yaşıllaşdırılıb abadlaşdırılmasını təklif etdi və sübut etməyə çalışdı ki, meydan şəhər əhalisi üçün yaxşı istirahət yeri ola bilər, buna görə də orada binalar tikdirmək cinayətdir.

H. Zərdabinin haqlı sözləri nəzərə alınmadı. Duma səs çoxluğu ilə iki hektara yaxın sahəni idarə binası tikdirməkdən ötrü birja komissiyasının ixtiyarına verdi. Lakin komissiya meydanda bina tikdirməkdən imtina etdi. Meydan 1912-ci ilədək əvvəlki vəziyyətində qaldı.

1912-ci ildə Nikitin qardaşlarının Torqovı (indiki Nizami küçəsi) və Bolşoy morskoy küçələrinin (indiki Bülbül) tinində olan sirk binası yandığından yeni bina tikilməsi məsələsi ortaya atılır. Dumanın iclasında qərar qəbul olunur ki, meydanda yeni sirk binasının tikilməsinə icazə verilsin. Bu vaxt Həsən bəy Zərdabi həyatda yox idi; o, 1907-ci ilin noyabr ayında vəfat etmişdi.

1912-ci ildə meydanda taxtadan sirk binası tikilir. 1914-cü ildə həmin bina genişləndirilərək "Rekord" adlı kinoteatr yaradılır. Dairəvi formalı bu bina təxminan iki min tamaşaçı tuturmuş.

1918-ci ildə erməni-müsəlman qırğını günlərində ermənilər ətraf evlərdə yaşayan azərbaycanlıları taxta sirk binasına toplayaraq, yandırmaq istəyirlərmiş. Yaxşı ki, Qızıl qvardiya hissələri vaxtında özlərini çatdırıb, onları azad edir.

Birja meydanı inqilab ərəfəsində fəhlə yığıncaqlarının əsas mərkəzinə çevrilmişdi. Çar mütləqiyyəti devrildikdən sonra, 1917-ci il oktyabrın 28-də (noyabrın 11-də) burada Bakı fəhlə, əsgər və matroslarının izdihamlı mitinqi keçirildi. Mitinqdə yekdilliklə qəbul edilmiş qətnamədə deyilirdi ki, hakimiyyət təxirə salınmadan Sovetlərə verilməlidir. O vaxtdan da bura hüriyyət (Azadlıq) meydanı adlandırılırdı.

1920-ci ilin sentyabrında 26 Bakı komissarının sümükləri Aşqabaddan Bakıya gətirilir. Komissarların cənazələri Şərq xalqlarının birinci qurultayı nümayəndələrinin iştirakı ilə hürriyyət meydanında dəfn edilir. O vaxtdan hürriyyət meydanı 26 Bakı komissarının adını daşıyır.

1923-cü ildə komissarların ölümünün beş illiyi ilə əlaqədar meydan rəssam Q. Yakulovun layihəsi əsasında yenidən quruldu. "Rekord" kinoteatrının taxta binası söküldü, meydanın dörd tərəfində ağaclar əkildi, qəbirlərin üzərində abidələr ucaldıldı. Abidələrin müəllifləri heykəltəraş Y. Tripolski və memar İ. Pavleviç idi. Ortada ucaldılmış divarın şərq və cənub-qərb tərəflərində qəzəblə düyünlənmiş yumruqlarını qabağa uzatmış fəhlə fiqurları qoyuldu.

Eyni üslubda hazırlanmış fəhlə fiqurları meydanın sol tərəfində, Xaqani küçəsindəki sütunlu evin fasadında da vardır. Hazırda bu binada Türk səfirliyi yerləşir. O vaxt isə bura Neft Sənayesi Fəhlələri Həmkarlar İttifaqının sərəncamında idi. Görünür elə buna görə də onun fasadına fəhlə fiqurları əlavə olunmuşdu.

Meydanın dörd tərəfinə iki cərgə yoğun zəncir çəkilmişdi. Buna görə də buranı bəzən "Zəncirli bağ"da adlandırırdılar. Meydanda düzəldilmiş iri hovuzun ortasında yer kürəsinə sarınmış zəncirləri əlindəki linglə qoparmaq istəyən fəhlənin tuncdan tökülmüş fiquru var idi.

1958-ci ildə meydanın abidələr kompleksinə heykəltəraş S. D. Merkuryevin qırmızı qranitdən düzəltdiyi "26 Bakı komissarının güllələnməsi" qorelyefi də əlavə olundu.

1968-ci ildə 26 Bakı komissarı adına bağ əsaslı surətdə yenidən quruldu. Burada kommunarların xatirə ansamblı yaradıldı. Əzəmətli kompleksin müəllifləri memar H. Ələsgərov, Ə. Hüseynov, heykəltəraşlar İ. Zeynalov və N. Məmmədovdur. Dairəvi abidənin ortasında əbədi məşəl yanır.

Böyük meydanlardan biri də Pyotr meydanıdır. Bu meydanın yaranması I Pyotr dövrünə aiddir. Güman etmək olar ki, 1723-cü ilin iyununda Rusiya qoşunlarının sahilə çıxdığı bu yer sonralar I Pyotrun adı ilə adlandırılmışdır. XIX əsrin ortalarından başlayaraq ədəbiyyatda (və o cümlədən "Kavkazski kalendar"da) Petrovski ploşşad ifadəsinə tez-tez rast gəlmək mümkündür.

XIX əsrin əvvəllərində bu yer bataqlıq və qamışlıq olmuşdur. Xəzərdə bərk fırtınalar zamanı dəniz səthindən o qədər də hündürdə olmayan bu yerləri tez-tez su basarmış. Bakı quberniya mərkəzinə çevirildikdən sonra şəhər qala divarlarını aşıb böyüdükcə, görünür, bu yerlər də təmizlənib sahmana salınmışdı. Bakının bütün taxta-şalban körpüləri bu meydançada yerləşirdi. Keçən əsrin ikinci yarısında yaşayış evlərinin əhatəsində qalmış bu boş yerdən müxtəlif məqsədlər üçün istifadə olunurdu. Burada səyyar heyvanxanalar açılır, müxtəlif tamaşalar göstərilirdi. Qarşı tərəfdə - sahildə taxta körpülər tikiləndən sonra meydanda xüsusilə böyük canlanma əmələ gəlir.

Keçən əsrin ortalarında burada taxtadan sirk qurulması barədə mətbuatda xəbər vardır. Sirk Antuaneta Volf familiyalı bir qadına məxsus imiş. Bu o zamanlar Bakıda yeganə ictimai əyləncə müəssisəsi olubdur

"Bakinskaya izvestiya" qəzeti 1877-ci ildə çıxan 15-ci nömrəsində yazmışdı: "Bakıda sirkdən başqa heç bir ictimai əyləncə ocağı yoxdur". Mətbuatdan məlum olur ki, meydan uzun müddət baxımsız qalıbmış.

1918-ci ildə Bakı Xalq Komissarları Sovetinin hakimiyyəti dövründə meydanda tez-tez mitinq və yığıncaqlar keçirilirmiş. Həmin ilin avqust ayında Bakıda Sovet hakimiyyətinin süqüt etdiyi günlərdə Bakı Xalq Komissarları Soveti Həştərxana yola düşmək üçün bütün qüvvələrini bu meydana toplamışdı. Şəhər artıq "Sentrokaspi" hökümətinin əlində idi. Yalnız Pyotr meydanı və ona bitmiş küçələr Bakı Xalq Komissarları Sovetinin hakimiyyəti altında qalırdı.

Avqustun 4-də ingilis qoşunları eser, menşevik və daşnaqların dəvəti ilə şəhərə daxil oldu. Qızıl qvardiya hissələri isə düşmənə qarşı döyüşləri hələ də davam etdirirdilər.

Beləliklə, Bakı Xalq Komissarları Sovetinin fəaliyyətinin son günləri bu meydanla sıx bağ!ı olmuşdur. 1918-ci il avqustun 14-də Bakıdakı Sovet hakimiyyətinin başçıları, Qızıl Ordu hissələri Həştarxana yola düşdülər. 1918-1919-cu illərdə bu meydanda müsavat əsgərlərinin məşqi keçirilirdi.

1920-ci ildə Bakı Sovetinin gördüyü ilk tədbirlərdən biri Pyotr meydanının 26 Bakı komissarının adı ilə adlandırılması oldu. Lakin 1920-ci ilin sentyabrında Bakı komissarlarının cənazələri Bakıya gətirilib Hürriyyət meydanında (indiki 26-lar bağı) dəfn edildiyindən yeni ad həmin meydanın üzərindən götürüldü.

Keçmiş Pyotr meydanı Sovet hakimiyyəti illərində yaşıllaşdırılıb xalqın ixtiyarına verildi. Sahilə yaxın olan meydan istirahət üçün gözəl guşə oldu. Böyük Vətən müharibəsindən əvvəl burada böyük bir tribuna tikilmişdi. Bayramlarda bu meydanda hərbi parad və şəhər zəhmətkeşlərinin nümayişi keçirilirdi.

1955-ci ildən burada V. İ. Lenin Mərkəzi muzeyi Bakı filialının binası yerləşirdi. Hal-hazırda bu bina muzeylər kompleksidir.

Yarmarka meydanı. Meydan indiki S. Vurğun bağının və Dəmir yolu idarəsinin ərazisində yerləşirdi. Şəhərdə işləyən, konkalar burada dövrə vurub, geri qayıdırdılar. Buranı Saldat bazarı da adlandırırdılar. Bu da onunla əlaqədardı ki, saldatlar burada öz köhnə pal-paltarlarını, yırtıq ayaqqabılarını satır, ya da nəyə isə dəyişirdilər. Meydanda Ümumrusiya Nikolay yarmarkası keçirilən günlər xüsusilə izdihamlı olurdu. Rusiyanın böyük şəhərlərindən, məsələn Nijni-Novqoroddan, Yaroslavldan, Saratovdan, Moskvadan, Varşavadan, Tiflisdən buraya mallar daşınır, alver başlardı. Yarmarka günləri meydanda səhərdən axşamadək musiqi çalınır, kəndirbazlar öz məharətlərini göstərir, pəhləvanlar güləşir, kukla tamaşaları göstərilirdi. Camaat ilboyu pul yığırdı ki, Nikolay yarmarkasında pal-paltar, bəzək avadanlığı alsınlar. Belə təntənəli Nikolay yarmarkalarından biri 1902-ci ildə keçirilmişdi. Yuxarıda adları çəkilən meydanlardan başqa şəhərin müxtəlif səmtlərində yerləşmiş bu aşağıdakı meydan və meydançalar da vardı: Belvü

meydanı - Dəmir yolu vağzalının arxasında idi. Batum meydanı, Qolovin meydanı, Vladimir meydanı, Duma meydanı (indiki Gənclik meydanı), Qız qalası meydanı, Peterburq meydanı (Nijni Bulvar küçəsi ilə Səməd Vurğun küçələrinin tinində), Qanlıtəpə meydanı, Kilsə meydanı, Tiflis meydanı, Pavlov meydanı (Uşaq dəmir yolu vağzalından aşağıda), İran meydanı, Sisianov meydanı (Azərnəşrin aşağısında), Keşlə meydanı, Lüksemburq meydanı, Zavod meydanı (Qara şəhərdə), Yasamal meydanı, İnqilabdan qabaqkı mətbuatda Teatr meydanı sözünə tez-tez rast gəlmək olardı. Əslində bu meydanın ömrü çox qısa olub. H. Z. Tağıyev teatrının yanında yaşayış evləri tikilməmişdən boş qalan sahəni hamı Teatr meydanı adlandırırdı. Teatrın dörd tərəfində uca yaşayış binalarının tikilməsi ilə meydan ləğv olunmuşdu.

Yuxarıda adları çəkilən meydanların əksəriyyəti sonralar yaşayış mənzillərinin tikilməsilə ləğv olunmuşdular.

## ŞƏHƏR BAĞLARI

Bakıda bağ salmaq böyük əzab və əziyyətlə başa gəlirdi. Şəhərə xas olan isti və küləkli havalar, suyun çatmaması və bəzi yerlərdə torpağın münbitsizliyi üzündən küçələrdə və meydançalarda yaşıllığı artırmaq çox zəhmət tələb edirdi. Bununla belə bağbanların qayğı və səyi hər şeyə qalib gəlirdi. Görülən tədbirlər nəticəsində şəhər bağlarında yaşıllıq artır və ağacların sayı çoxalırdı.

Şəhərin ən böyük bağı Mixail (Qubernator) bağı hesab olunurdu. Onun əsası hələ 1830-cu illərdə İçəri şəhər iki divar əhatəsində olduğu zaman qoyulmuşdu. Qalanın cənub-qərbində birinci hündür divarla ikinci alçaq divar arasında olan on beş addımlıq ensiz zolaqda 40 sajın uzunluğunda və 5 sajın enində bir bağ salınmışdı. Ayrı-ayrı adamların saldığı bu bağ sonralar Bakı şəhər komendantı R. R. Xoven tərəfindən xüsusi bir qayğı ilə genişləndirilmişdi. Bakıya gələn tacirlər komendant tərəfindən məcbur edilirdi ki, özləri ilə münbit torpaq da gətirsinlər. Bunun sayəsində yaşıl zonada torpaq çox münbitləşmişdi. Sonralar qalanın ikinci alçaq divarı söküldükdə yaşıl zolaq daş qəfəsdən azadlığa çıxır. Onun sahəsi genişləndirilir, əlavə ağac və kollar basdırılır. Lakin ağaclar susuzluqdan gec inkişaf eləyirdi. 1859-cu ildə bağda rəqs üçün meydançalar düzəlir, meyvə ağadarı əvəzinə bəzək ağacları basdırılır. Qubernator evinin qabağında daş körpüyə su kəməri çəkilir və onun suyu ilə ağaclar və kollar vaxtlı-vaxtında sulanır. Çox çəkmir ki, bağda püstə, armud və zeytun ağacları qol-budaq atıb, bağa kölgə salır. Üzüm tənəklərindən kölgəliklər düzəldilir. Bağın cənub-qərb tərəfində böyük hovuz tikilir, xiyabanlarda dincəlmək üçün skamyalar qoyulur. Yayın isti aylarında əhali ağacların kölgəliklərində rahat dincələ bilirdilər. Axşamlar sərin düşdüyü zaman bağda orkestr çalardı.

Beləliklə bağ keçən əsrin axırlarında şəhərin yaşıl bir adasına çevrilmişdi. Bağa II Nikolayın qardaşı Mixailin adı verildi. Lakin bağ qubernatorun evinə bitişik olduğu üçün onu hamı Qubernator bağı kimi tanıyırdı.

Bağda təxminən indiki "Bakı Soveti" metrosunun yanında taxtadan bir klub tikilmişdi. Burada kino göstərilir, konsert verilir və sairə əyləncəli tamaşalar göstərilirdi. Sonralar bu taxta klub ehtiyatsızlıq üzündən alovlanıb yanır.

1907-ci ildə "Obşestvennoe sobranie" cəmiyyətində ağsaqqallar şurası bağda yanmış taxta klubun əvəzinə fundamental bir yay klubu (indiki filarmoniyanın binasını) tikmək qərarına gəlir. Bu məsələ Bakı Bələdiyyə idarəsinin inşaat komissiyasında böyük mübahisəyə səbəb olur. Komissiya bu fikrin əleyhinə çıxaraq göstərirdi ki, klubun tikilməsi bu ictimai bağın bütövlük və gözəlliyinə böyük zərbə ola bilər. Çünki binanı tikmək üçün bağda yüzlərcə ağacı qırmaq lazım gələcəkdir. Lakin duma birinci gündən yay klubunun tikilməsi tərəfdarı idi. O inşaat komissiyasının fikri ilə qətiyyən razılaşmır, hətta şəhərin başçısı N. V. Rayevskinin rəyi ilə də razılaşmadan bağda yay klubunun, tikilişi üçün 3,640 km torpaq sahəsi ayırır. Binanın tikiləcəyi yerdə bütün ağacları qıraraq, memar Q. M. Termikelovun hazırladığı layihə əsasında binanın tikilişinə başlanır.

Bina 1910-cu ildə başlanıb, 1912-ci ildə başa çatdırıldı. Beləliklə, İtalyan intibahı üslubunda tikilmiş bu nəfis, gözəl bina Nikolay (indiki İstiqlal) küçəsindən Sadovı küçəsinə (indiki Niyazi küçəsi) burulan yerdə küçədəki məişət və ictimai binalar ansamblına gözəl bir əlavə oldu.

**Malakan (Mariya) bağı.** Xaqani, Qoqol, Ü. Hacıbəyov və R. Rza küçələrinin arasında yerləşmiş bu bağın vaxtilə Malakan bağı adlandırılması təsadüfi deyil. Bu o zamanlar Bakıya sürgün edilmiş malakanların adı ilə bağlıdır.

XVIII əsrdə Rusiyada yaradılmış malakan təriqəti, məlum olduğu kimi kilsəni, dini ayin və rüsumları inkar edirdi. Buna görə də çarizm həmin təriqətdən olanları - babtisləri, Peşkovçuları Rusiyanın içərilərindən (məsələn, Tavriya, Saratov, Tambov, Orenburq quberniyalarından) uzaqlaşdırırdı. Onlar Sibirə, Amura, Volqaboyuna və Zaqafqaziyaya sürgün olunurdular. 1843-cü ildə Qafqaza sürgün olunmuş ilk malakan ailələri Azərbaycanın Xızı rayonunda, Altıağac kəndində yerləşdirildi. Onların belə ucqar yerə göndərilməsi təsadüfi deyildi. Çar məmurları çalışdılar ki, onlar xristian olmayan yerlərdə məskən salsınlar. Azərbaycana sürgün olunanların sonrakı dəstələri isə Mərəzədə və Astraxanbazarda (indiki Cəlilabad) yerləşdirildi. Təkcə Şamaxı qəzasında o zamanlar doqquz malakan kəndi yaradılmışdı.

Malakan ailələri əsasən əkinçiliklə məşğul olurdular. Ancaq malakan kişilərinin başlıca məşğuliyyəti arabaçılıq idi. Onların dördçarxlı, üstü yarımdairə şəklində örtülü arabaları azərbaycanlılar arasında "malakan furqonu" adlanırdı. 1853-cü il rus-türk müharibəsində onlar öz furqonları ilə cəbhəyə hərbi sursat

daşıyırdılar. Zaqafqaziyada dəmir yolu çəkilənədək Bakıdan Tiflisə, oradan da Qara dəniz sahillərinə yükü malakan furqonları aparırdı.

Malakanlar doğma yurdlarından ayrı düşsələr də güzəranlarını yaxşı qurmuşdular. İçərilərində varlananlar da az deyildi. Hətta XIX əsrin axırları və XX əsrin əvvəllərində Bakı kapitalistləri içərisində malakanların da nümayəndələri var idi.

Xızı malakanlarının Bakı ilə əlaqəsi xüsusilə möhkəm idi. Malakanlar yetişdirdikləri məhsulları satmaq üçün Bakıya gətirirdilər. Bakıya Şamaxıdan yük daşıyan malakan furqonlarının ardı-arası kəsilmirdi. Furqonsürənlər indiki 9 Yanvar bağının yerini (sonralar bura Malakan bağı adı ilə məşhurlaşdı) özlərinə dayanacaq seçmişdilər. O zamanlar Bakı şəhəri qala divarlarından xaricə çıxmağa başlasa da, bura hələ ucqar hesab olunurdu. Sonralar malakan ailələrindən bəziləri köçüb burada özlərinə məskən saldılar. XIX əsrin 50-60-cı illərində isə bu yer malakan qəsəbəsi (slobodası) kimi şöhrət tapmışdı. Sahənin ortasında bağ da salınmışdı.

Bakıda neft sənayesi inkişaf etdikcə neftin başqa şəhərlərə daşınması mühüm məsələyə çevrilirdi. Nefti və neftdən alınan məhsulları uzaq şəhərlərə tuluqla daşımaq mümkün deyildi. Neftin daşınması üçün davamlı qab lazım idi. Taxta və metal çəlləklərdən istifadə olunmağa başlandı. Malakan qəsəbəsində yaşayanlar taxta çəlləklər hazırlamağa başladılar və bu sahədə ixtisaslaşdılar. Bağın ətrafında açılmış dükanlarda və bəzi evlərin qabağında qaynar iş gedirdi. Çəlləklərin böyürlərinə vurulan dəmir çənbərləri düzəltmək üçün dükanların qabağında böyük çalalar qazır və su ilə doldururdular. Bu su aylarla dəyişdirilmirdi.

Şəhər şərqə tərəf genişləndikcə bağın ətrafında uca binalar tikilir, küçələr salınırdı. Buna görə də çəlləkçi dükanlarının, ümumiyyətlə malakan qəsəbəsinin başqa yerə köçürülməsi zərurəti meydana çıxırdı. 1872-ci il yanvarın 31-də Bakı qubernatoru V. M. Pozenin şəhər Bələdiyyə idarəsi rəisinə göndərdiyi sərəncamda Malakan bağı ətrafında yaranmış natəmizlik barədə belə deyilirdi: "Şəhərin şimal-şərq və şərq hissələrində, Marinski bağından başlayaraq bir çox evin qabağında çəlləkçi dükanları açılıb. Bu, şəhərdə ağcaqanad yaranması təhlükəsini artırır. Çənbərləri islatmaq üçün yerdə çalalar ilboyu qalır və şəhərdə malyariya xəstəliyini artırır".

Bağın ətrafını abadlaşdırmaq Bələdiyyə idarəsinin qarşısında ciddi və müşkül bir məsələ kimi dururdu. Çox keçmir ki, malakan qəsəbəsi şəhərin kənarına (indiki Səttarxan adına zavodun yanına) köçürülür. Çəlləkçi dükanları da şəhərin mərkəzinə çevrilməkdə olan bu yerdən indiki Ş. Bədəlbəyli (Dimitrov) küçəsinin yerinə köçürülür. Ora sonralar Bondamı küçəsi adlandırılır. XIX əsrin axırlarında dörd tərəfdən uca binalarla əhatə edilmiş Malakan bağı gəzinti yerinə çevrilir.

1891-ci ilin "Qafqaz kalendarı"nda həmin bağ barədə belə deyilirdi: "Marinski (Malakan) bağı dayələrin körpələrlə gəzişdiyi sevimli bir yerdir".

Sonralar Malakan bağı (Marinski bağı) və onun cənub tərəfində olan küçə (indiki Rəsul Rza küçəsi) Marinski küçəsi adlandırılır. Lakin bağ əhali içərisində yenə də Malakan bağı kimi tanınırdı.

Beləliklə, Marinski (Malakan) bağı şəhər əhalisinin gəzinti və istirahət yerinə çevrilir. Bağda yeni ağaclar əkilir. Lakin su olmadığından bu ağaclar nə boy atır, nə də kölgə salır. Bayır şəhərdə yeganə bir su kəməri (Sisianov su kəməri) var idi. O, İçərişəhərdə olan Xan su kəmərindən ayrılmış bir qol idi. 1869-cu ildə Sisianov su anbarından Marinski küçəsinə xüsusi kəmər çəkilir. Bu kəmərlə su parapetin altından keçərək Marinski və Malakan küçələrinin tinində tikilmiş su fantanına dolurdu. Əsas anbarda suyun azalacağı nəzərə alınaraq bir neçə təzə quyu qazılır və onların suyu da kəmərə axıdılır. Beləliklə, anbarda (o, Azərnəşr binasının arxa tərəfində indi də durur) su çoxalır, Marinski və Malakan küçələrinin tinində tikilmiş fəvvarədə xeyli su ehtiyatı əmələ gəlir. Gündüzlər bu sudan əhali istifadə edir, gecələr isə bağın ağaclarını sulayırdılar. Malakan varlılarından olan Kaşeyev sonralar fantanı öz hesabına bağın ortasına köçürdür.

Şəhərin bu hissəsinə su kəməri çəkilməsi ətraf küçələrdə böyük canlanmaya səbəb oldu. Malakan və Qoqol küçələrinin tinində Mikado və ya Pel-Mel teatrının (indiki Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı) və onunla üzbəüz "Ampir" kinoteatrının açılışı adamları bu yerə daha çox cəlb etməyə başladı.

Əlamətdar hadisələrdən biri də 1903-cü ildə bu ətrafda, Ü. Hacıbəyov küçəsi tərəfdə Hacı Nemətulla Səidovun mülkündə yeni bir qiraətxananın açılması idi. Bu, Bakıda açılmış ikinci qiraətxana idi. O, Nəriman Nərimanov, Həbib bəy Mahmudbəyov, Əsədulla Axundov, Əbdüləli bəy Vəlibəyov və başqalarının təşəbbüsü ilə yaradılmışdı. Onların birgə səyi nəticəsində qiraətxana nəinki yerli qəzetləri, habelə Rusiyanın müxtəlif şəhrlərində nəşr edilən bütün qəzet və jurnalları da alırdı. Ancaq qiraətxana cəmi iki il fəaliyyət göstərdi. 1905-ci ildə çarizm tərəfindən qızışdırılan və fevralın 6-dan 9-dək davam edən erməni-müsəlman qırğınında qiraətxana bir dəstə daşnaq qaragüruhçusu tərəfindən dağıdıldı.

Konka xəttinin də buradan keçməsi Malakan bağının ətrafını gur bir yerə çevirmişdi. Vağzaldan gələn konka xətti bağın yanında iki yerə haçalanırdı: biri Bayıla gedirdi, o birisi isə Şamaxı yoluna qalxırdı.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Malakan bağı 9 Yanvar adlandırıldı, daha sonralar ona Haşım Əliyevin adı verildi.

Bakıda yaşıllığı o qədər əziz tuturdular ki, bir evin və ya bir ictimai binanın qabağında salınmış on-on beş ağacdan ibarət yaşıllığı da bağça kimi qoruyub

qayğısına qalırdılar. Belə kiçik bağçalardan üçünü göstərmək olardı. Bağırov bağçası. Bu bağça indiyədək Səməd Vurğun küçəsi ilə Vidadi küçələrinin arasında Ali Məhkəmənin qarşısında durur. Sisianov bağçası (hazırda Azərnəşrin binasının aşağısındakı bağ) və nəhayət, Şamaxı yolunda Azad Azərbaycan qadını heykəlinin açılışınadək onun yerində olan kiçik Adamov bağçası. Bağırov və habelə Adamov bağçaları ev sahiblərinin yaşadıqları evlərinin qabağında salındıqları üçün ev sahiblərinin adı ilə də adlandırılmışdı. Sisianov bağçası Sisianovun öldürüldüyü yerdə onun xatirəsinə düzəldilmiş abidənin qabağında idi.

**Quru bağ (PARAPET).** Bu bağ şəhərin mərkəzində salınmışdı. Lakin əkilmiş ağaclar sulanmadığından yarpaqlanıb, boy atmırdılar. Buna görə də camaat içərisində Quru Bağ kimi tanılırdı. 1905-1907-ci illərdə Quru Bağda fəhlələrin tez-tez mitinqləri və protest nümayişləri keçirilirdi. 1918-ci ildə Türklər Bakıda olarkən bu bağda cinayətkar və oğrular üçün dar ağacları qurmuşdular.

1920-ci ildə Quru Bağa rəsmi olaraq, Karl Marksın adı verilmişdi. Bakılılar isə ta bizim günlərədək onu Parapet kimi tanıyırlar.

## ŞƏHƏR BULVARLARI

**Staroselski bulvarı.** Bu bulvar indiki Mərkəzi kolxoz bazarından başlayıb, Səməd Vurğun küçəsi ilə M. Nağıyev xəstəxanasınadək uzanırdı, Aleksandr bulvarı - indiki "Naxçıvan" mehmanxanasının yanından başlayıb, Səməd Vurğun küçəsində Staroselski bulvarı ilə kəsişərək, Uşaq dəmir yolu stansiyasından Təbriz (Çapayev) küçəsinədək uzanırdı. Sofiya bulvarı, nəhayət, Sahil bulvarı.

Şəhər Sahil bulvarından başqa o biri bulvarlar adətən küçənin ortası ilə salınmış seyrək ağaclıqlardan ibarət idi.

**Sahil bulvarı** şəhərin ən iri bulvarı idi.

Dəniz havası ilə nəfəs almaq və yayın isti aylarında sərinləmək üçün sahildə bulvar yaradılması Bələdiyyə idarəsini çoxdan düşündürürdü. Bu barədə ilk addım 1909-cu ildə atılmışdır. Bulvarın salınması təşəbbüsçüsü Bakının görkəmli mühəndisi M. H. Hacınski olmuşdur. Hacınski bu illərdə Bələdiyyə idarəsində inşaat şöbəsinə başçılıq edirdi. Onun səyi ilə bulvarın salınması məsələsi dumanın iclasına qaldırıldı. Duma bu iş üçün 60 min manat vəsait ayırmağı qərara aldı, Hacınski şəhər memarlarından Adolf Eyxerin yaxından köməyi ilə bulvarın salınması layihəsinin hazırlanması ilə məşğul oldular. Onlar təkcə bulvarın salınması və orada meyvə və bəzək ağaclarının əkilməsini deyil, qəşəng pavilyon və binaların tikilməsi barədə də müsabiqə elan edirlər. Müsabiqədə 30 nəfərədək memar və mühəndis iştirak edirdi. Müsabiqədə birinci mükafatı memar Q. M. Termikelov almışdı.

Şəhər idarəsi bulvarın salınması, orada yardımçı binaların - pavilyonların, restoran və dəniz hamamının tikilməsi ilə sahilin yalnız özəlləşməsini deyil, eyni zamanda əldə edilən gəliri də nəzərdə tuturdu. Bulvarın yaradılması ilə Şəhər idarəsi daha bir çətin məsələ qarşısında durmuşdu. Bu da çirkab suların axıdılması idi. O vaxtadək şəhərin çirkab suları birbaşa dənizə axıdılırdı. İndi isə bu sular borularla axıdılmalı idi. Tikiləcək dəniz hamamı nümunəvi və şəhər əhlinin istirahəti üçün rahat olmalı idi.

Bulvarın salınması üçün xeyli iş aparılandan sonra dumada qlasnılar təzə məsələ qaldırdılar ki, bulvar sahilindən bütün körpülər yığışdırılmalıdır. Həqiqətdə də bulvarın salınacağı sahədə taxta körpülər çox idi. Xəzərin qərb sahilində olan 75 körpüdən 25-i şəhərin məhz bu mərkəzi hissəsində idi.

Bulvar Daş körpünün yanından, daha doğrusu qubernator evinin qabağından başlayaraq, Sahil küçəsinin bağlandığı "Qafqaz və Merkuri" ellinqinədək küçə boyu uzanmalı idi.

1910-cu ildə hazır olan bulvar və dəniz hamamı Sahil küçəsinə ayrıca bir gözəllik verdi. Yük daşımaq məqsədilə tikilmiş taxta körpülər də bir neçəsindən başqa şəhərin mərkəzi hissəsindən yığışdırıldı. Yalnız bulvardan dəniz hamamına gedən körpü, Tamojnı körpüsü və bir də camaatı dəniz gəzintisinə çıxaran qayıqlar üçün kiçik bir körpü saxlandı. Dəniz hamamının idarə edilməsi də hərrac yolu ilə xüsusi bir adama tapşırıldı.

## BAKI HAMAMLARI

Bakı hamamlarının qədim tarixi vardır. Şirvanşahlar sarayında bizim günlərədək qalmış qədim bir hamamın tikintisi göstərir ki, hələ o dövrlərdə şəhərdə hamam tikintisinə böyük əhəmiyyət verilmişdir. Belə köhnə hamamlara Bakı kəndlərində də rast gəlmək mümkündür. Məsələn, Nardaran kəndindəki hamam 14-cü əsrin 1388-ci ilində tikilmişdir. Mərdəkandakı Məhəmməd hamamı da qədimdir. İçəri şəhərdəki köhnə hamamlardan ən gözəyatımı Qasımbəy hamamıdır

1859-cu ildən sonra, başqa sözlə desək, Bayır şəhər salınandan sonra Bakıda bir-birinin ardınca çoxlu hamamlar tikilmişdi. Hamamların binası əsasən tağlardan və onların üstündə qurulmuş günbəzlərdən ibarət idi. Bu baxımdan şəhərin özündə və Abşeronun ətraf kəndlərində tikilmiş hamamların bir-birinə oxşar cəhətləri çox idi. Hamamlar suya və rütubətə davamlı daşlardan tikilirdi. Su qıtlığına baxmayaraq, bu hamamlar səy və səliqə ilə işlədilirdi. Hamam binası əsasən iki hissədən ibarət olurdu: bayır və içəri hissələr. Bayır hissə soyunub-geyinmək üçün, içəri hissə isə çimməkdən ötrü idi. Bu iki hissəni ensiz bir dəhliz birləşdirirdi. Günbəzlərdə xırda pəncərələr açılmışdı. Bunlardan hamamın içərisinə işıq düşürdü. Hamamın xüsusi ocaqxanası-külxanası vardı ki, burada hamamın suyu odun, ya da neftlə qızdırılırdı. Hamamların içəri hissəsində üstü örtülü böyük

bir hovuz vardı. Burada həmişə isti su olardı. Adamlar alçaq səkilərin üstündə yuyunub, kisələnib sabunlanandan sonra bu hovuzda boğazadək olan suya girib yaxalanırdılar. Bu hovuz xəzinə adlanırdı. Bəzi hamamlarda isə bundan əlavə xırdaca xəlvəti hovuzlar da olurdu ki, orada ancaq hörmətli adamlar yaxalanırdı. Hamamın içərisi möhkəm sal daşlarla döşənmişdi. Bayır hissədə daş döşəmədən təxminən 60 santimetr hündürlüyündə olan səkilərdə soyunmaq üçün çoxlu çaxçalar vardı. Buradan hərə öz paltarını asardı. Burada kasıbla dövlətli öz yerini yaxşı tanıyırdı. Kasıblar bir səkidə, varlılar isə üzbəüzdəki ikinci səkidə soyunardılar. Hamamlarda lüt çimmək ədəb xaricində idi. Lüt çimməyə həya edərdilər. Soyunandan sonra hamam xidmətçisi (buna cumadar deyirdilər) hərəyə bir fitə verərdi. Adamlar da fitələri belində lüt bədəninə sarıyıb, hamamın içəri hissəsinə çimməyə gedərdilər. Fitə iki cür olurdu: darayı və mərcanı. Darayı fitə ipəkdir, mərcanı fitə isə iplikdəndi. Cumadarlar ipək fitələri həmişə varlı, hörmətli adamlara verərdilər. Onu da qeyd edək ki, varlılar çox zaman fitə və qətifələrini özləri ilə evdən gətirərdilər. Səkilərdə geyinmək üçün hər cür şərait yaradılardı. Səkinin üstünə xalça-palaz döşənir, ayaqlarını suya çəkmək üçün laxanlar qoyulardı. Varlıların soyunduğu səkilərə isə bunlardan əlavə uzanıb dincəlməkdən ötrü taxt da qoyulardı. Qəlyan və çay verilərdi. Bəziləri üçün hətta nərd taxtası da gətirilərdi. Hamamda şəhərin qoçuları çiməndə hamı xamuş olardı. Qorxularından heç kəs ağzından artıq söz qaçırmazdı.

Hamam bir gün kişilər, bir gün isə arvadlar üçün idi. Qadınlar üçün olan günlərdə hamamda elə çığır-bağır olardı ki, ağız deyəni qulaq eşitmirdi. Uşaqların ağlaşması, arvadların çığırtısına, bəzən də bərkdən savaşmalarına qarışıb hamamı ağzına alardı. Arvadlar hamama az qala köç-külfətlə gələrdilər. Uşaq əlindən, iri bağlamalardan əl-qol açmaq mümkün olmazdı. Bu bağlamalarda təmiz geyimlə yanaşı hamamda yumaq üçün çirkli pal-paltar, çimməyə lazım olan şeylər; məsələn, rüşul, daraq, ayaqdaşı, ənlik-kirşan, ətirli və paltar sabunu və uşaqlar üçün hamamda yeməyə meyvə, ya da meyvə qurusu olardı. Cavan gəlinlər öz paltarlarını nümayiş etdirmək üçün zərbaftalı don, xara tuman geyib, bəzənərdilər. Qarılar bir gün qabaqdan başlarına qoyduqları xınanı yumaq üçün qırmızı sərqətifələrini açıb, içəri keçərdilər. Arvad yengələri bütün günü hamamda düşüb qalardılar. Onlar kiminsə tapşırığı ilə övladlarına qız axtaran adamların pulu ilə çimərdilər. Peşələri gizli-gizli qızlara göz qoymaqdı.

Hamam sahibi səkilərdən birində bir küncdə oturub, xəzinədarlıq edərdi. Arvadların günündə isə onun yerini arvadı tutardı. O eyni zamanda xına, rüşul, sabun, ayaqdaşı alveri də edərdi.

Hamamda cumadar və külxanaçıdan başqa üçüncü bir xidmətçi də vardı ki, bu da kisəçi idi. Kişilər üçün kişi kisəçi, arvadlar üçün arvad kisəçi hamam açılandan bağlananadək pul qazanırdılar. Kisəçinin necə işlədiyini, adamlara necə

kisə çəkdiyini öyrənmək üçün. A. S. Puşkinin "Ərzruma səyahət" kitabında Tiflis müsəlman hamamlarına aid hissəni oxumaq kifayətdir. O, yazırdı: "... Kisəçi Həsən məni isti daş döşəmənin üstünə uzadaraq, bədənimin bütün əzalarını ovxalamağa başladı. Oynaqlarımı dartışdırdı, bütün bədənimi yumruğu ilə döyüclədi. Mən bundan zərrə qədər ağrı duymurdum, əksinə özümdə qəribə bir yüngüllük hiss edirdim. (Asiyalı hamamçılar bəzən vəcdə gələrək, adamın belinə hoppanır, ayaqlarını adamın qabırqalarının üstü ilə sürüşdürərək, çömbəlib, rəqs edirlər. Əla!) Sonra şal kisə ilə bədənimi xeyli sürtdü, isti su ilə çimizdirib, sabunlu lifin, köpüyü ilə yumağa başladı. Sözlə ifadə edilə bilməyəcək bir zövq duydum! İsti sabun köpüyü adamı hava kimi bürüyürdü. Şal kisə, və köpüklü lifrus hamamında mütləq təşkil edilməlidir".

Tiflisin Şeytanbazar Müsəlman məhəlləsinin hamamında Puşkinin gördüyü mənzərəyə Bakının bütün hamamlarında rast gəlmək mümkündü.

İyirminci əsrədək və əsrin 20-ci illərində Bakıda iki tipli hamam vardı: Asiya tipli və Avropa tipli. Asiya tipli hamamlar bunlardı: Axund hamamı, Mirzə hamamı, Qasımbəy hamamı, Hacı Qurban hamamı, Hacı Aslan hamamı, Ağa Nəzər hamamı, Tatar hamamı, Şor hamam. Bunlardan başqa Xərrat bazarında, indiki Bəşir Səfəroğlu küçəsində, Vidadi küçəsində də hamamlar vardı. Bakı hamamlarından çoxunun divarlarında (əlbəttə, bayır hissənin divarlarında) yağlı, boyalarla müxtəlif əfsanəvi şəkillər rəsm edilərdi. Bu şəkillər daha çox Firdovsi qəhrəmanlarının həyatından, "Leyli və Məcnun" dastanından olurdu. Bəzi hamamlarda isə ancaq yarımçılpaq gözəl qadın şəkilləri çəkilərdi. Bakı hamamlarını bu əfsanəvi qəhrəmanlarsız, Leyli və Məcnunsuz təsəvvür etmək çətindi.

Avropa tipli hamamlar Asiya tipli hamamlardan onunla fərqlənirdilər ki, burada hamılıqla çimmək üçün ayrılmış iri otaqlardan başqa çoxlu xüsusi nömrələr də vardı. Hamam binalarının əksəriyyəti içəri tərəfdən rəngbərəng kaşı daşları ilə bəzədilmişdi. Hər nömrə öz rəngarəngliyi ilə fərqlənirdi. Bakıdakı Avropa tipli hamamlar bunlardı: "Fantaziya", "Ermitaj", "Dekadens", "Moskva", "Mir" və başqaları. Bu hamamlar içərisində "Fantaziya" hamamı öz gözəlliyi, rahatlığı, bərbəzəkli, gül-çiçəkli, fantanlı, hovuzunda qızıl balıqlar üzən zəngin salonu ilə fərqlənirdi. Səqfindən iri çil-çıraqlar asılardı. Əlbəttə, buna görə burada hər nömrənin qiyməti başqa hamamlara nisbətən daha baha idi.

## TAMAŞA MÜƏSSİSƏLƏRİ

Bakının yaşlı əhalisinin yaxşı yadındadır ki, o zaman Bakıda kinoteatr binalarından əlavə müxtəlif tamaşa müəssisələri də fəaliyyət göstərirdi. Doğrudur bu müəssisələrin əksəriyyəti xüsusi adamların əlində idi, bəziləri də hökümət

tərəfindən ayrı-ayrı adamlara icarəyə verilmişdi. Elə tamaşa müəssisələri də vardı ki, onlar icarə yolu ilə şəhərə qastrola gəlmiş truppaların sərəncamına verilirdi. Kinoteatrların əksəriyyəti isə daimi fəaliyyət göstərirdi. 1900-cu ildən sonra Bakıda 15-ə qədər kinoteatr mövcud idi. O zaman kinoteatrlar sinemotoqraf adlanırdı.

Ən məşhur kinoteatr "FENOMEN" idi. O zaman bu kinoteatr indiki Kukla teatrının binasında idi. "RENESANS" indiki "Vətən" kinoteatrının binasında yerləşirdi. "AMPİR" - keçmiş Malakan, indiki Xaqani küçəsində, "Aktyor evi"nin yerində idi. Sovet dövründə burada Gənc Tamaşaçılar Teatrı bina sökülənədək fəaliyyət göstərirdi. "FORUM" - ən məşhur kinoteatr idi. Sovet hakimiyyəti illərində "26" kinoteatrı adlanırdı. Sonralar bu bina sökülmüş, əvəzində böyük yaşayış binası tikilmişdir.

"FORUM" Bolşoy morskoy (Bülbül) küçəsi ilə "Telefonnı" (indiki 28 may) küçələrinin tinində yerləşirdi. "EDİSSON" kinoteatrı Bülbül prospekti ilə Ü. Hacıbəyov küçələrinin kəsişdiyi yerdə indiki "Sahil" metrosunun yerində idi. "KOLLİZEY" - Nizami küçəsində Opera teatrı ilə üzbəüz köhnə bir binada yerləşirdi. Sovet hakimiyyəti illərində bu binanın yerində əvvəllər Musiqili Teatrın binası yerləşirdi, sonra da o söküldükdən sonra onun yerində hazırkı Gənc Tamaşaçılar Teatrının əzəmətli binası ucaldılmışdır. "EKSPRES" kinoteatrı isə indiki M. Ə. Rəsulzadə (keçmiş Olqa) küçəsində (indiki "Azərbaycan" kinoteatrının binasında) yerləşirdi. Sovet hakimiyyəti illərində bu kinoteatr uzun müddət "Qızıl Şərq" adlanırdı. "REKORD" - kinoteatrı Birja, sonralar Hürriyyət adlanan meydanda taxtadan tikilmiş bir binada yerləşirdi. Bu bina həm kino göstərilmək və həm də sirk tamaşaları üçün nəzərdə tutulduğundan dairəvi şəkildə idi.

"MİNYON" kinoteatrı. İndiki "Araz" kinoteatrının binasında yerləşirdi. 30-cu illərdə burada Gənclər teatrı fəaliyyət göstərirdi. Sonralar təzədən kinoteatra çevrildi. "YARDIM" kinoteatrı. Sovet hakimiyyətində də kinoteatr binası olaraq qalırdı. Təkcə adı dəyişdirilib "Ulduz" olmuşdu.

Bunlardan başqa iki kinoteatr da vardı ki, bunlar şəhərin iki böyük ticarət mərkəzləri olan passajlarda yerləşirdi. Bunlardan biri H. Z. Tağıyevin passajında (univermaq) yerləşən "FRANSIZ ELEKTRO BİOQRAFI" kinoteatrı, o biri isə Velikaya knyajskaya (Ə. Əliyev) küçəsində Kələntərovun passajında (indiki AHİŞ-in binasında) yerləşən "MUZA" kinoteatrı idi.

"ODEON" kinoteatrı Merkuri (indiki Azərbaycan prospekti) ilə Milyutin (indiki Əlyarbəyov) küçələrinin tinində hazırki Azərbaycan Səhiyyə Nazirliyi 4-cü idarəsinin 1 nömrəli poliklinikasının yerləşdiyi binada idi.

"MARS" kinoteatrı çox kiçik olub, Qubernski (indiki Nizami) küçəsi ilə Vorontsov (indiki Əzizbəyov) küçələrinin kəsişdiyi yerdə birinci mərtəbədə yerləşirdi. İkinci mərtəbədə isə "Azərbaycan" qəzetinin redaksiyası idi.

"PALATS" kinoteatrı kiçik bir salondan ibarətdi. "İsmailiyyə" (indiki Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin) binasının birinci mərtəbəsində sağ tərəfdə yerləşirdi. Onu bir nəfər bəzzaz icarəyə götürmüşdü.

Teatr binalarına gəlincə qeyd edilməlidir ki, 1911-ci ilədək Bakıda əsasən iki teatr binası vardı. Bunlardan biri 1883-cü ildə tikilmiş məşhur Tağıyev teatrı idi. Bu binada əvvəllər Rusiyanın hər tərəfindən qastrola gəlmiş aktyor dəstələri çıxış edirdilər. Yerli aktyor dəstələri yaradılandan sonra Hacı Zeynalabdin binanı onlara teatr tamaşaları göstərmək üçün bəzi hallarda pulsuz və kirayəyə verirdi. Xüsusilə 1896-cı ildə təşkil olunmuş "Birinci müsəlman truppası" burada tez-tez tamaşalar verirdi. O zaman bu truppaya N. Nərimanov, Cahangir Zeynalov, Mehdibəy Hacinski, Həsən bəy Zərdabi və başqaları daxil idi. 1909-cu ildə baş vermiş yanğından sonra teatr Hacı tərəfindən təmir edilib, daha da gözəlləşmişdi. "Günəş" qəzeti 1910-cu il 24 avqust tarixli nömrəsində yazırdı: "Təzədən tikilmiş şəhər teatrı oktyabrın 1-də qurtarıb, təzə mövsümü açacaqdır. Teatr əvvəlkindən böyük tikilib 1700 nəfərədək adam tutur".

27 sentyabrda həmin qəzet yenə yazırdı ki, təmirdən sonra zalın boyu artırılmışdır. Parterdəki yerlərə 5 sıra əlavə edilmişdir. Səhnə və lojalar genişləndirilib. Təmir 8.300 manata başa gəlib.

Bu teatr binası Azərbaycanda opera sənətinin yaradılması ilə bilavasitə əlaqədardır. 1908-ci ildə məhz bu binada Azərbaycan opera sənətinin ilk görkəmli əsəri - Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operası tamaşaya qoyulmuşdu. Dirijor Ə. R. Haqverdiyev idi. Baş rolda - Məcnun rolunda H. Sarabski çıxış edirdi. Tamaşa müvəffəqiyyətlə keçmişdi. Müəllif tez-tez səhnəyə çağırılıb, gurultulu alqışlarla qarşılanırdı. Bundan həvəsə düşən Ü. Hacıbəyov bir-birinin dalınca operettalar yazıb tamaşaya qoyurdu. Bunların içərisində "O olmasın, bu olsun" və "Arşın mal alan" operettaları bakılıların xüsusilə xoşuna gəlirdi. 1910-cu ildə o "Rüstəm və Söhrab" adlı yeni bir opera yazdı və həmin ilin 12 noyabrında tamaşaya qoyuldu. Dirijor müəllif özü idi.

1918-ci il mart hadisələri zamanı teatr binası ermənilər tərəfindən yandırıldı. O yalnız 1922-ci ildə təmir edildi və Dadaş Bünyadzadənin adına qoyuldu. Teatrın açılışı günü özünün Mərdəkandakı bağında yaşayan Hacı Zeynalabdin Tağıyev teatrın açılışına dəvət olunmuşdu. Hacı öz təəssüratını belə ifadə etmişdi: "Bünyadzadə yoldaş adına müsəlman teatrının açılışı münasibətilə xalqın mədəniyyəti yolunda görülən bu işdə mənim bir pioner kimi xidmətlərimi qiymətləndirən hökümətimizin bu qoca yaşımda mənə iltifatından mütəəssirəm".

İkinci teatr keçmiş Malakan bağının yanında Malakan (Xaqani) küçəsi ilə Qoqol küçələrinin kəsişdiyi yerdə tikilmiş Mikado teatrı idi. Bunun ikinci adı Pel-Mel idi. Bu binanın yapon memarlığı üsulunda tikilişi təsadüfi deyildi. Bakının varlı şəxslərindən birinin oğlu olan Əliheydər Hacı Haşım oğlu Yaponiya və Çinə olan səfərindən qayıdandan sonra bu yerdə torpaq alıb, belə bir bina tikdirmişdi. Pel-Mel teatrı binasında hər cür tamaşalar verilir, Rusiyanın məşhur incəsənət ustaları Bakıya qastrola gələrkən burada çıxış edir və kino göstərilirdi. Bir sözlə Pel-Mel Bakının rus dilli əhalisinin mədəni mərkəzinə çevrilmişdi. Özünün arxitektura quruluşu ilə fərqlənən bu bina yalnız bu yaxın illərdə yenidən təmir edildikdən sonra bütün xarici görkəmini tamamilə dəyişmişdir. Hazırda bu binada Səməd Vurğun adına Rus Dram Teatrı yerləşir.

1911-ci ildə Bakıda üçüncü bir teatr binası inşa edilib qurtarır. Bu Mayılov qardaşlarının keçmiş Torqovı (indiki Nizami) küçəsində ucaltdıqları Opera teatrı binası idi. Bina çox qısa bir müddət, təxminən bir ildə tikilib başa çatdırılmışdır. Deyilənə görə Mayılov qardaşları onu çox hörmət etdikləri bir rus müğənni qadının şərəfinə ucaltmışlar. Opera teatrı 1911-ci ilin 28 fevralında açılmışdı. Birinci gün Musorqskinin "Boris Qodunov" operası göstərilmişdi.

1983-cü ildə teatr binasında yanğın olmuşdu. Yanğından sonra təmir olunub, əvvəlki əzəmətli görkəminə qaytarılmış və daha da gözəlləşmişdir.

Tamaşa müəssisələri içərisində Bakı sirkləri də əhaliyə böyük xidmət göstərirdi. Bakıda ilk sirk binasının əsası hələ keçən əsrin axırlarında Akim və Pyotr Nikitin qardaşları tərəfindən qoyulmuşdur. Nikitin qardaşları 1880-ci ildə Moskvada ilk sirkin binasını qoymuş və bir müddətdən sonra ölkənin başqa şəhərlərində də məsələn: Kiyevdə, Xarkovda, Kurskda, Nijni-Novqorodda, Tiflisdə və o cümlədən Bakıda onun filiallarını açmışdılar. Bakıda Nikitin qardaşları sirkinin binası Torqovı küçə ilə Böyük dəniz küçələrinin tinində, indiki Rəssamlıq texnikumu binası ilə Nizami küçəsindəki Opera teatrı binasına bitişik binaların arasında yerləşirdi. Sirk dairəvi şəkildə, daş və taxtadan tikilib, həm sirk tamaşaları və həm də səhnə əsərləri tamaşaları üçün çox yararlı idi. Bu binada sirk tamaşaları əsasən yay və payız aylarında göstərilirdi. Bu zaman səyyar sirk truppaları Tiflisə, oradan Bakıya gəlir, burada tamaşalarını bitirdikdən sonra dənizlə Həştərxana, oradan da Volqa boyu ilə yuxarılara: Saritsına, Saratova, Samaraya, Nijni-Novqoroda keçərək qastrol tamaşaları göstərirdilər. Başqa vaxtlar isə bina icarəyə verilirdi. Bakıda sirk şəhərin mərkəzində tikildiyindən qış aylarında öz ətrafına çoxlu tamaşaçı toplaya bilirdi. Binada teatr tamaşaları üçün əlverişli şərait olduğundan, yerli Azərbaycan aktyor truppaları burada vaxtaşırı tamaşalar verirdilər. Ərəblinski və başqa azərbaycanlı rejissorların rəhbərliyi ilə burada Azərbaycan yazıçılarının bir çox əsərləri tamaşaya qoyulmuşdu.

1910-cu ildə burada "Nicat" cəmiyyəti tərəfindən Ü. Hacıbəyovun, 1911-ci ildə isə H. Sarabskinin benefisi keçirilmişdi.

1917-ci ildə sirkin binası yanır. Nikitin qardaşları onu təmir etmək əvəzinə keçmiş Birja (indiki 26-lar) meydanında təzə sirk binası inşa edirlər. Bu bina əsasən taxtadan dairəvi şəkildə tikilmişdi. Burada kino göstərilməsi də nəzərdə tutulmuşdu. İçəridə tamaşaçılar üçün maksimum şərait yaratmaq məqsədilə yuxarı cərgələrə qalxan pillələr binanın xaricində düzəldilmişdi. Əlbəttə bina əsas etibarilə kino tamaşaları üçün nəzərdə tutulmuşdu. Binaya təxminən 2 minədək tamaşaçı yerləşirdi. Lakin sirkin taxtaları möhkəm mıxlanmadığından bərk xəzrilərdə bina əsir və az qala uçmaq dərəcəsinə çatırdı. 1915-ci ilin martında Şəhər Abadlıq İcraiyyə Komitəsinin iclasında bu məsələ müzakirə olunaraq göstərilirdi ki, şalbanlar bir-birilə yaxşı bənd edilməmiş və eşik tərəfdən olan pillələrdə də hər dəqiqə yanğın təhlükəsi gözlənilə bilər.

Yefimov qardaşlarının sirki də yaşlı bakılıların yəqin ki, yadındadır. Bu sirk hazırki Ü. Hacıbəyov küçəsində Rabitə evi binasının yerində idi. O da taxtadan tikilmişdi. Onun müxtəlif və zəngin proqramı olurdu. Özünə daha çox tamaşaçı cəlb edən pəhləvanların güləşi idi. Bakılılar güləşi sevirdilər. Buna görə bilet tapmaq, bütün güləşlərə tamaşa etmək hər adama müyəssər olmurdu. Çıxış edən pəhləvanlardan Sali Süleyman və Gəncəli tamaşaçıların sevimlisi idi. Sali Süleymanın güləşdiyi gün sirkin qapısında böyük izdiham yaranırdı.

Yefimov qardaşlarının sirki 20-ci illərin axırlarınadək fəaliyyət göstərirdi. Yalnız Bakıda hazırki sirk binası inşa edildikdən sonra bu taxta sirk sökülmüşdür.

Bakının ən köhnə sirklərindən biri Fürerin sirki idi. Bu Petrov meydanında Fürer adlı bir almanın idi: Sirkdə əsasən gəlmə sirk truppaları və vəhşi heyvan təlimçiləri çıxış edirdilər. Fürer qazanc məqsədilə bəzən heç yerdə tanınmamış zəif truppaları dəvət edirdi ki, bu da tamaşaçıların haqlı narazılığına səbəb olurdu. Belə hallar tez-tez təkrar olunduğundan tamaşaçılar sirk tamaşalarını baykot edirdilər. Yalnız bu vasitə ilə onlar Füreri sirk proqramının keyfiyyətini artırmağa, ona zərərə başa gəlsə də, güclü kollektivlər dəvət etməyə məcbur edirdilər. Sirkin ətrafı da həmişə natəmiz vəziyyətdə olurdu. Aylarla yığılıb qalmış heyvan peyinləri atılmadığından üfunətdən sirkə yaxınlaşmaq mümkün olmurdu. Bu məsələ dəfələrlə şəhər idarəsində müzakirə edilmiş və qərara alınmışdı ki, sirk heyvanlarının peyinləri sirkin yanında açıq havada saxlanmasın. O ya tez-tez tullanmalı, ya da taxta hasar içərisinə alınmalıdır. Fürer öz xəsisliyi ucbatından vaxtaşırı cərimə verməyə məcbur edilirdi. Sirkin dəniz kənarında olmasına baxmayaraq ətraf binalarda yaşayanlar sübhədək kəsif üfunətdən yata bilmirdilər. Petrov meydanı Sovet hakimiyyətinədək ümumiyyətlə natəmiz saxlanılırdı, Bakı sirklərində gəlmə heyvan təlimçiləri ilə yanaşı Bakının özündə yetişmiş Ələkbər Fərrux adlı bir təlimçi də iştirak edirdi.

## MEHMANXANA VƏ RESTORANLAR

Bakıda neft sənayesinin inkişafı ilə əlaqədar şəhər həyatı gündən-günə yeni şəkil alırdı. Zəngin, aynalı mağazalarla yanaşı rahat mehmanxana və gur işıqlı restoranlar şəhərə xüsusi gözəllik, verirdi. Rusiyadan və Avropanın bir çox şəhərlərindən axışıb gələn qonaq və işgüzar adamları qəbul etmək və yerləşdirmək işində mehmanxanalar sanki yarışa girmişdilər. 1840-cı ildə Bakıda cəmi bir mehmanxana olduğu halda əsrin əvvəllərində onların sayı birə on qat artmışdı. Şəhərin ən gözəl mehmanxanaları hesab edilən "Metropol" və "Qrand Otel" mehmanxanalarının sahibi Lalayev idi. Hər iki mehmanxana şəhərin mərkəzi hesab edilən Olqa küçəsində idi. "Qrand Otel" bütöv bir kvartalı əhatə edirdi. Mehmanxanadakı nömrələr mebelli, xalılarla döşənmiş, rahat, işıqlı və baha idi. 1918-ci ildə Bakını işğal etmiş ingilislərin hərbi qərargahı bu mehmanxanaya düşmüşdü. Musa Nağıyevin tikdirdiyi ucamərtəbəli "Yeni Avropa" mehmanxanası da bu arada, yaxınlıqda idi. "Yeni Avropa" mehmanxanası ilə "Metropol" mehmanxanası arasında Lalayev döngəsi adlanan yerdə "Avropa" adlı iki mərtəbəli bir mehmanxana da vardı. Bu mehmanxana əvvəllər "Qafqaz" mehmanxanası adı ilə məşhurdu. Şəhərdə ən ucuz mehmanxana hesab edilirdi. Əsrin əvvəllərində Bakıda olmuş Zeynəlabdin Marağayi özünün "Səyahətnaməyi İbrahimbəy" adlı kitabında bu restoran barədə belə yazırdı: "Ertəsi gün səhər biz Bakıya çatdıq və qatardan birbaşa "Qafqaz" mehmanxanasına yollandıq. Burada nömrə olduqca ucuzdu. Sutkası təxminən bir manata başa gəlirdi. Nömrələr çox çirkli, xidmətçiləri nəzakətsiz olsalar da mehmanxananı dəyişmək istəmədik. Çünki burada cəmi iki gün qalmalı idik.

Mehmanxana sakinlərinin əksəriyyəti müsəlmanlardı. Onlardan çoxu otaqda özlərinə yemək hazırlayır, bəzən də tiryək çəkirdilər".

Musa Nağıyevin uca mehmanxanası hazır olandan sonra Lalayevin "Avropa" mehmanxanası camaat içərisində "Köhnə Avropa", Musa Nağıyevin mehmanxanası isə "Yeni Avropa" adlanırdı. Lalayevin "Avropa" mehmanxanasında hər nömrənin qiyməti sutkada 1 manat 50 qəpikdən 7 manatadək, "Qrand Otel"də 1 manat 50 qəpikdən 8 manatadək, "Metropol"da isə 1 manat 50 qəpikdən 5 manatadək idi.

Bu mehmanxanalardan başqa Lalayevin passajının üst qatında (indiki "Yazıçı" nəşriyyatı) "Bristol" adlı mehmanxana yerləşirdi ki, hər nömrəsinin qiyməti 1 manat 50 qəpikdən 5 manata qədər idi. "Avropa" mehmanxanasında 40 nömrə, "Qrand Otel" mehmanxanasında 60 nömrə, "Metropol"da 38 nömrə, "Bristol"da 35 nömrə vardı. Adları çəkilən mehmanxanaların yaxınlığında şəhərin şimal-qərb hissəsində daha 3 mehmanxana vardı. Bunlar aşağıdakılar idi: "Böyük

Moskva mehmanxanası" 33 nömrədən ibarət olub, hər nömrənin qiyməti 1 manat 50 qəpikdən 3 manatadək. Mehmanxana Qoqol küçəsində yerləşirdi. "Ermitaj" mehmanxanası Merkuri (indiki Azərbaycan prospekti) küçəsində Dadaşovun mülkündə yerləşib, 20 nömrədən ibarət idi. Hər nömrənin də qiyməti 1 manat 50 qəpikdən 3 manata qədər idi. "London" mehmanxanası Torqovı küçəsində (Nizami) yerləşib, 18 nömrədən ibarət idi. Hər nömrənin qiyməti 50 qəpikdən 3 manatadək idi. Malakan (indiki Xaqani) küçəsində Musa Nağıyevin binasında "Yar" adlı bir mehmanxana yerləşirdi. Onunla yanaşı binada isə "Kazino" idi.

Keçmiş Krasnovodsk, indiki Səməd Vurğun küçəsində "Dvortsovıye nomera" adlı bir mehmanxana da fəaliyyət göstərirdi. Onun dəbdəbəli adına baxmayaraq, adi bir mehmanxana idi. Nömrələri də ucuzdu..

"Marsel" və "Madrid" mehmanxanaları da başqa mehmanxanalardan fərqlənmirdilər. Ancaq hər iki mehmanxanada xidmət işi yaxşı təşkil edilmişdi.

Şəhərin Bazar küçəsində (indiki Hüsü Hacıyev) bir cərgə salınmış üç mehmanxana vardı: "İslamiyyə" mehmanxanası, sahibi Hacı Mustafa Rəsulov, "İskəndəriyyə" mehmanxanası, sahibi Hacı Məmməd Sadıq Zərbəliyev və "Dağıstan" mehmanxanası. Onlardan bir az aşağıda qala qapısı ağzında Hacı Hacıağanın "Təbriz" mehmanxanası vardı. Bu mehmanxananın nəzdində olan "Şəms" restoranı bütün şəhərdə şöhrət qazanmışdı. Burada ancaq ləziz şərq yeməkləri hazırlanırdı. Həmin mehmanxana ilə üzbəüzdə, bir mərtəbəli dükanlarda cızbızxanalar yerləşdirilmişdi. Bu dükanlarda ocaq ortada qurulmuş və üstünə iri tava qoyularaq, cızbız hazırlayırdılar. Cızbız qoyunun içalatından və ciyərlərindən hazırlanırdı. Müştərilər də elə oradaca ocağın dövrəsində oturub, nahar edirdilər.

Nəhayət, "Nobel" adlı bir mehmanxana vardı ki, Sahil küçəsi ilə Sadovı (indiki Niyazi) küçələrinin tinində yerləşirdi. İki mərtəbədən ibarət olan bina indi sökülmüş və sahəsi İnqilab bağına qatılmışdır.

Zəngin Bakı restoranlarının şöhrəti bütün Qafqaza yayılmışdı. Axşamlar gecəyədək onların gur əlvan işıqları ətrafa yayılır, xoş musiqi səsləri kəsmək bilmirdi. Neftdən varlanan, cibləri pulla dolu şəhər varlıları gecə yarıyadək işıqlı, rahat, bərbəzəkli, ləziz yeməklər və misilsiz nemətlərlə zəngin olan bu restoranlarda kef çəkirdilər. Çil-çıraqban otaqlarda xoş musiqi sədaları altında zərrin paltarlara bürünmuş yarımçılpaq qız və qadınlar şərqilər oxuyur və rəqs edirdiləyr.  Belə yüksək səviyyəli restoranlarda təkcə içəri daxil olmaq qızıl pulla idi.

Rəngbərəng ipək paltarlar geymiş gözəl rus və yəhudi qızları xörək paylarkən öz naz və qəmzələri ilə çoxlarının ürəyinə od salardı. Sonralar bu qızlardan çoxu sərvətdarların, tacir və neft sahibkarlarının məşuqələrinə çevrilmişdilər. Onların üstündə tez-tez savaşma və atışma da baş verirdi. Bakı varlıları içərisində matişka (məşuqə) saxlamaq dəb idi. Qəribə görünsə də həmin

varlıların kəbin-talaqlı arvadları da bu vəziyyətə dözür və hətta bəziləri ərlərinin matişkası olması ilə fəxr edirdilər. Matişkası olmayanı kişi hesab etməzdilər. Kişilər məşuqələri üçün ayrıca mənzil kirayələyər və dünyanın naz-neməti onların mənzillərinə daşınardı. Öləndə də məşuqələr kişilərin halal, kəbinli arvadları ilə bərabər dərəcədə vərəsəlik payı alırdılar. Məsələn, Musa Nağıyev öləndən sonra onun rus arvadı kəbinli arvadı ilə bir səviyyədə vərəsə hesab olunmuşdu.

Bakı restoran və lokantları içərisində ən zəngin, restoran "Medved" restoranı idi. Burada xörəklər həm ləziz və həm də baha idi. Xidmət isə əla dərəcədə təşkil olunmuşdu. Gələnlərin cibləri gen olmalı idi. Çünki müştərinin hər bir addımı və hər bir hərəkəti qızıl pula başa gəlirdi. Bu restoran şəhərin izdihamlı küçələrindən birində - Milyutin (Əlyarbəyov) küçəsi 14 nömrəli binada yerləşirdi. İçəri girərkən çilçıraqlı işıqlardan və bədənnüma aynalardan göz qamaşırdı. Bundan başqa Vorontsov (Əzizbəyov) küçəsində 5 nömrəli binada, Parapetlə üzbəüzdə "Dardanel" restoranı, əvvəllər "Metropol" mehmanxanasının aşağısında, sonralar isə yerini dəyişmiş Sadıqov qardaşlarının "Çanaqqala" restoranı şəhərin kübar adamlarının daimi yeri idi. "Elbrus" restoranı isə Olqa və Merkuryev küçələrinin tinində Yusif Dadaşovun mülkündə yerləşirdi. Bura şəhərin mərkəz küçəsi olduğu üçün və bulvara yaxın olduğundan həmişə adamla dolu olurdu. "Novıy svet" restoranı Qoqol və Torqovı (Nizami) küçələrinin tinində zirzəmidə yerləşirdi. Bura Dəmir yolu vağzalına yaxın olduğu üçün şəhərə gələn qonaqlarla həmişə dolu olurdu. 1919-cu ilin sentyabrında hümmətçilərdən Mir Fəttah Musəvi və Haşım Əliyev bu restoranda öldürülmüşdü.

Sahil küçəsində Seyid Mirbabayevin mülkündə də "Nord" adlı kiçik bir restoran yerləşirdi.

Bunlardan başqa şəhərin müxtəlif yerlərində ikinci və üçüncü dərəcəli restoranlar, aşpazxanalar, pitixanalar mövcud idi.

## ŞƏHƏR MƏTBƏƏLƏRİ

**"Bakinskaya izvestiya" mətbəəsi.**

Bakıda mətbəə yaradılması haqqında ilk məlumat keçən əsrin 70-ci illərinə aiddir. İlk mətbəə V. V. Neruçev adlı bir şəxsin olub. Həmin mətbəədə ilk çap olunan məhsul Batsı neft sənayeçilərinin orqanı olan "Bakinskaya izvestiya" qəzeti olub. Mətbəə 80-ci illərdə Qoşa Qala qapısı ağzındakı Duma meydanında yerləşirdi, Neruçev qəzetin həm naşiri və həm də redaktoru idi. Həftədə iki dəfə, bazar və cümə axşamı günləri rus dilində çıxırdı.

1890-cı illərdən sonra isə Bakıda mətbəələrin sayı artır. Məsələn, 1894-cü ildə Bakıda 10 mətbəə və bir Xromo-litoqrafiya vardı. Xromo-litoqrafiya indiki Səməd Vurğun küçəsindəki 2 nömrəli mətbəənin yerində yerləşirdi. Sahibi Q. İ.

Demirov idi. 1900-cü ildə təşkil olunmuş "Aror" mətbəəsində ilk dəfə olaraq, Azərbaycan dilində kitablar çap olunmağa başlamışdı.

**"Kaspi" mətbəəsi.**

Ən iri qəzet 1881-ci ildən çap olunan "Kaspi" qəzeti idi. Onun nəşri ta 1919-cu elədək davam etmişdir. "Kaspi" rus dilində çap olunurdu. İlk naşir və redaktoru V. Kuzmin olmuşdur. Ondan sonra qəzetin nəşrini V. Liçkus-Xomukov, N. Sokolinski davam etdirmişlər. 1905-ci ildən sonra H. Z. Tağıyev mətbəəni "Kaspi" qəzetinin redaksiyası ilə birlikdə alıb, onun nəşrini davam etdirmişdir. 1919-cu ilədək qəzet müxtəlif zamanlarda Ə. M. Topçubaşov, Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi və başqaları tərəfindən redaktə olunurdu. Sonralar Tağıyev Azərbaycan hürufatı alaraq, Quranın tərcüməsini Azərbaycan dilində həmin mətbəədə çap etdirmişdir.

**Orucov qardaşlarının mətbəəsi.**

Bakıda ən iri mətbəə Oruc, Qənbər və Abuzər Orucov qardaşlarının elektrik mətbəəsi olmuşdur. Sonralar bu mətbəə əsasında Orucov qardaşları əsl nəşriyyat da yaratmışdılar ki, bu Azərbaycan mədəniyyəti tarixində ilk nəşriyyat hesab olunurdu. Orucovlar mətbəəsi texniki avadanlıqla təmin olunduqca nəşriyyat işi daha çox rəvac tapırdı. Mətbəədə "Miilə" markalı, özüyığan maşın, "Amerikanka", "Aqzburq" və "Frangental" çap maşınları quraşdırılmışdı. Bundan başqa Orucovların öz sinkoqrafiyası vardı. Mətbəə güclü tikən və kəsən maşınlarla da təmin olunmuşdu.

Orucovlar nəşriyyatı Azərbaycan mədəniyyətinin inkişafında, Azərbaycan kitablarının nəşrində və təbliğində də böyük rol oynamışdır. Nəşriyyat təkcə bədii ədəbiyyat deyil, siyasi və tədris ədəbiyyatının da çapına və yayılmasına böyük qayğı ilə yanaşırdı. Nəriman Nərimanovun demək olar ki, bütün əsərləri, Ə. B. Haqverdiyevin, Abbas Səhhətin, Abdulla Şaiqin, Çəmənzəminlinin, Ü. Hacıbəyovun və başqalarının əsərləri müntəzəm olaraq, burada çap olunurdu. Nəşriyyatın buraxdığı kataloqlarda çap olunmuş bütün əsərlərin adları sadalanırdı.

Dünya və rus ədəbiyyatından tərcümələr də nəşriyyatın planında mühüm yer tuturdu. L.Tolstoyun bir sıra xırda əsərlərini, Defonun məşhur "Robinzon Kruzo", Molyerin "Zorən təbib" və başqa əsərləri nümunə göstərmək olar. Bunlardan əlavə Orucovlar dini və şəriət kitablarının çapı ilə də məşğul olurdular. Orucov qardaşları nəşriyyatının fəaliyyət dairəsi ildən-ilə genişlənirdi. Belə ki, kitab nəşri ilə yanaşı bir sıra qəzetlər də, məsələn: "Kəlniyyət", "Həqiqət", "Günəş" kimi qəzet və jurnallar da burada çap olunurdu. Çap olunmuş kitabların yayılması və satışı ilə də nəşriyyat özü məşğul olurdu.

Orucov qardaşlarınm mətbəə və nəşriyyatı Tağıyevin qız məktəbinin zirzəmisində yerləşirdi.

**"Səfa" mətbəəsi.**

Bu mətbəə müəllim Qəfur Rəşad Əfəndiyev tərəfindən təşkil olunmuşdu. Əsasən "Məktəb" adlı uşaq məcmuəsini çap etməklə məşğuldu. Keçmiş Vorontsov və Vrangel küçələrinin tinində yerləşmiş kiçik bir mətbəə idi. Məcmuə məktəblilərin və habelə müəllimlərin dərin hörmətini qazanmışdı. Lakin həmin mətbəədə "Məktəb" məcmuəsi ilə yanaşı "Kəblə Yaftuməlinin" antimoral qəzəllərinin dərc edilməsi Qəfur Rəşadı da, mətbəəni də nəzərdən salmışdı.

**"Turan" mətbəəsi.**

Ələkbərovların "Günəş" və əvvəllər Haşım bəy Vəzirovun olub, sonralar "Məktəb" məcmuəsinin sərəncamına keçmiş "Səfa" mətbəəsi ilə birləşməsi nəticəsində "Turan" mətbəəsi yaradılmışdı. Mətbəə keçmiş Vrangel və Spasski küçələrinin tinində, indiki urologiya xəstəxanasının yerində yerləşirdi. Burada başlıca olaraq, afişalar, elanlar çap olunurdu.

**"Novruz" mətbəəsi.**

İndiki passajın yuxarı tərəfində yerləşmiş kiçik bir mətbəə idi. Sahibi Cahangir Həsənov idi. O vaxtı ilə Tbilisidə "Molla Nəsrəddin" jurnalının ilk çapçılarından olub. Sovet hakimiyyəti illərində uzun müddət Azərnəşr mətbəəsində texnoloq və ofsetçi kimi işləyib.

**Vermişev mətbəəsi.**

İnqilabdan əvvəl "Baku" və "Bakinets" qəzetləri burada çap olunurdu. Bakıda rus dilində çap olunan ədəbiyyatın əksəriyyəti bu mətbəənin məhsulu idi. Keçmiş Lenin adına kitabxananın binasında yerləşirdi. 1920-ci ildən sonra "Kommunist" və başqa qəzetlər burada çap olunurdu. Mətbəə o zaman "III İnternasional" mətbəəsi adlanırdı Bina da Vermişevin xüsusi mülkü idi. Azərbaycan Demokratik hökuməti illərində rus və Azərbaycan dillərində "Azərbaycan" qəzetləri bu mətbəədə çap olunurdu.

Bundan başqa Demokratik hökumətin Birja küçəsində 1 nömrəli mətbəəsi vardı. Demokratik hökumətin bütün sənədləri həmin bu mətbəədə çap edilirdi.

**"Açıq söz" mətbəəsi.**

Bu mətbəə çox kiçik bir mətbəə olub, "Kaspi" mətbəəsinin sağ tərəfındə yerləşirdi. 1915-ci ildə Məmmədəmin və Məmmədəli Rəsulzadələr bu mətbəəni alıb, birlikdə "Açıq söz" qəzetini nəşr etməyə başlayırlar. O zamandan da mətbəə "Açıq söz" mətbəəsi adlanırdı.

## XEYRİYYƏ VƏ MAARİF CƏMİYYƏTLƏRİ

Hələ keçən əsrin 70-ci illərində Həsən bəy Zərdabi Azərbaycanda ilk dəfə xeyriyyə cəmiyyəti yaratmaq fikrinə düşmüşdü. Güman edirdi ki, yoxsul uşaqlarının təhsil və tərbiyəsində, onların məktəblərə qəbul edilərək, pulsuz oxumalarına bu cəmiyyətin böyük xeyri dəyəcəkdir. Bu məqsədlə xeyriyyə

cəmiyyətinin proqramını tərtib edib, hökümətə təqdim edir. Böyük çətinlik və süründürmədən sonra onu təsdiq etdirə bilir. Hər şey hazır olandan sonra Zərdabi Bakı varlılarından bir dəstəsini qazi molla Cavad axundun evinə toplayaraq, proqramı onlara oxuyur. Hamı bəyənir. Lakin cəmiyyətin yaranması üçün maddi yardım lazım olduğunu söyləyərkən, məclisdəkilər bir nəfər kimi aradan çıxırlar. Bu Həsən bəyi qətiyyən ruhdan salmır. 1812-ci ildə Qafqazı şəhər-şəhər gəzərək, cəmiyyətə üzv toplamağa başlayır. Üzv yazılanlar ona üzvlük haqqından başqa əlavə ianə də verəcəklərini vəd edirlər. Beləliklə Həsən bəy Zərdabi Azərbaycanda ilk Xeyriyyə cəmiyyətinin əsasını qoyur. Bakıya qayıdan Həsən bəy Cəmiyyətin başqa işlərini də sahmana salmaqla məşğul olur. Bu müddətdə Qafqaz şəhərlərindən cəmiyyətin xəzinəsinə xeyli pul daxil olur. Hətta Bakıda məktəbə düzəlmək üçün onun yanına iki uşaq da göndərirlər. Həsən bəy çətinliklə olsa da, onları şəhər məktəblərinə düzəldə bilir. Ancaq təəssüf ki, bu vəziyyət çox davam etmir. Bir müddətdən sonra göndərilən üzvlük haqları xeyli azalır. Hətta iş o dərəcəyə çatır ki, cəmiyyətin xərci gəlirindən çox çıxır. Nəticədə Həsən bəy cəmiyyəti bağlamalı olur. Cəmiyyətdən xatirə olaraq, Həsən bəyə ancaq üzvlərin siyahısından ibarət qaytanlı bir dəftər qalır.

Zərdabinin arzusu yalnız 1905-ci il inqilabından sonra çar hökümətinin verdiyi Oktyabr bəyannaməsinin yaratdığı şərait nəticəsində yerinə yetir. H. Z. Tağıyev Xeyriyyə cəmiyyətinin yaradılması barədə hökümət qarşısında təşəbbüsdə olur. Birinci təşəbbüs nəticə verməsə də ikincidə, nəhayət, cəmiyyətin yaranmasına icazə ala bilir. 1905-ci ildə yaranmış bu "Müsəlman Xeyriyyə cəmiyyətinin" məqsədi fəqir və möhtac müsəlmanlara kömək etmək, məktəblərdə oxuyan fəqir və yetim uşaqlara müavinət göstərmək, taqətdən düşmüş qoca müsəlmanlara himayə etmək, yoxsul uşaqlarını sənət məktəblərində oxutmaq və sairdən ibarət idi. Cəmiyyət əsasən Bakı varlılarının və varlı ziyalıların cəmiyyəti idi. Onun müəssisələri H. Z. Tağıyev, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, İsmayıl bəy Səfərəliyev, Hacı Aslan Aşurov, İsa bəy Hacınski, Kamil bəy Səfərəliyev, Əbdülxalıq Axundov, Məmmədrza Vəkilov, Həsən bəy Ağayev Nəcəfqulu Sadıqov, İsrafil Hacıyev, Həsənağa Həsənov, Mirzə Əsədullayev, Əsəd bəy Səlimxanov, Ağabala Quliyev, Əsədullah Əhmədov, Hacı Həsən Ağamalıyev, Nəcəf Əmiraslanov olmuşlar. Birinci iclasda H. Z. Tağiyev sədrliyə, İsrafil Haciyev müavinliyə, Haci Mustafayev xəzinədarlığa, Əhməd bəy Ağayev katibliyə, İsmayil bəy Səfərəliyev, Əlimərdan bəy Topçubaşov və Əsədullah Əhmədov idarə heyəti üzvlüyünə seçilirlər.

Birinci Cahan müharibəsi illərində "Müsəlman Xeyriyyə cəmiyyətinin" fəaliyyəti xeyli genişlənmişdi. Qaçqın və acları yedirmək, pal-paltarla təmin etmək sahəsində onun böyük xidməti olmuşdu. Cəmiyyət Nargin adasında saxlanılan əsir

türk əsirlərinə də öz köməyini əsirgəmirdi. "Müsəlman Xeyriyyə cəmiyyətinin" kontoru "İsmailiyyə"nin binasında idi. Onun yardımçı təsərrüfatları da elə burada yerləşirdi.

Bu illərdə, daha doğrusu, 1906-cı ildə yaranmış "Nəşr və maarif" cəmiyyəti də xeyriyyə məqsədilə təşkil edilmişdi. Bu cəmiyyətin də əsas tərkibini Bakı varlıları və görkəmli varlı ziyalılar təşkil edirdi. Çox zaman "Müsəlman Xeyriyyə cəmiyyəti" ilə əlbir fəaliyyət göstərirdi. Cəmiyyət tərəfindən Bakı kəndlərində 17, şəhərdə isə 3 məktəb açılmışdı. Yoxsul və yetim uşaqlar bu məktəblərdə pulsuz təhsil alırdılar. "Nəşr və maarif"də neft sahibkarları əksəriyyət təşkil edirdilər. Onların məqsədi öz müəssisələrində işlətmək üçün savadlı fəhlələr yetişdirmək idi.

Dövrün qabaqcıl demokratik şəxsiyyətləri Həsən bəy Zərdabi, bolşeviklərdən Nəriman Nərimanov, Məşədi bəy Əzizbəyov və başqaları elmi-siyasi bilikləri, inqilabi ideyaları yaymaq üçün bu cəmiyyətdən tez-tez istifadə edirdilər. "Nəşr və maarif' cəmiyyətinin fəaliyyəti 1917-ci ilədək davam edir.

"Nicat" mədəni-maarif cəmiyyəti 1906-cı il mart ayının 8-də təşkil olunub. Bəzi qəzetlər isə yazırlar ki, guya avqustun 22-də yaranmışdır. Həmin gün cəmiyyət üzvləri Bakının M. Muxtarov küçəsində Əjdər bəy Aşurbəyovun evini icarəyə götürüb, işə başlayırlar. Cəmiyyətin üzvləri Üzeyir Hacıbəyov, Məmmədəmin Rəsulzadə, Cahangir Zeynalov, Mirzəağa Əliyev, Hüseynqulu Sarabski, Murad Muradov, Hüseyn Ərəblinski, Mehdi bəy Hacinski, Bədəl bəy Bədəlbəyov, Həbib bəy Mahmudbəyov, Abbasqulu Kazimzadə, Məmmədəli Rəsulzadə, Qulam Mirzə Şərifov, Soltan Məcid Qənizadə, ƏliİskəndərCəfərov, Mirmahmud Kazimov, İbrahim Əbilov, Sidqi Ruhulla, Məmmədəli Sidqi, İmran Qasimov elə o gün idarə heyətini seçdilər. Cəmiyyətin sədrliyinə Məmmədəlibəy Səlimxanov seçilir, başqa bir mənbədə isə göstərilir ki, doktor X. B. Ağayev seçilib. Sonra ianə toplanmağa başlanır. H. Z. Tağıyev beş min manat verib, Musa Nağıyevi də beş min yazdırır və əlavə olaraq bildirir ki, əgər Musa Nağıyev beş min verməkdən imtina edərsə, onun əvəzinə verməyə hazırdır. "Nicat"ın ən fəal üzvlərindən biri İmran Qasımov olmuşdur. Cəmiyyətə "Nicat" adını da o vermişdir. İmran Qasımov əslində podratçılıqla məşğul olurdu. Murtuza Muxtarovun Əhməd Cavad və M. Muxtarov küçələrinin tinindəki əzəmətli sarayını tikdirərkən yıxılıb, ayağını sındırmış və sonra bundan da ölmüşdür. 1907-ci il martın 9-da idarə heyətinin sədrliyinə doktor Həsən bəy Ağayev seçilir. Noyabrın 12-də onun İrana getməsi ilə əlaqədar olaraq, sədri Məmmədəmin Rəsulzadə əvəz edir.

"Nicat"ı təşkil edənlərin əksəriyyəti göründüyü kimi ziyalılar idi. Əlbəttə, içərilərində varlı və sahibkarlar da vardı. Cəmiyyətin əksəriyyəti azərbaycanlıları savadlandırmaq və maarifləndirmək, yoxsul uşaqlarına kömək etmək, onları məktəblərə cəlb etmək, ehtiyacı olanlara maddi kömək göstərməkdi. Cəmiyyət

Bakıda və Bakı kəndlərinin bəzisində kitabxana və qiraətxanalar açmışdı. Bakıdakı kitabxana və qiraətxananın müdiri Məmmədbağır Axundov idi. Kəndlərdə açılmış bir və iki sinifli məktəblərin sayı otuza çatmışdı. Belə məktəblərdən biri də Balaxana kəndində açılmışdı, M. Ə. Sabir həmin məktəbdə bir neçə il dərs demişdi.

Cəmiyyət fəhlələr üçün gecə kurslarının, gecə məktəblərinin açılmasına da xüsusi fikir verirdi. Binalar kirayələyir, ictimai-siyasi mövzularda leksiyalar təşkil edirdi. Bəzi vaxt "Nəşr və maarif" cəmiyyəti ilə əlbir işləyir, birgə tədbirlər həyata keçirirdilər.

"Nicat"ın teatr bölməsi xüsusilə böyük həvəs və enerji ilə işləyirdi. Cəmiyyət gənc aktyor truppaları yaradır və onların ətrafına teatr həvəskarlarını cəlb edirdilər. Dövrün tanınmış aktyorlarından Hüseyn Ərəblinski, A. M. Şərifzadə, Mirzəağa Əliyev, Sidqi Ruhulla və başqaları bu truppalarda nəinki yaxından iştirak edir, eyni zamanda truppaya rəhbərlik də edirdilər. Benefislər təşkil edilərək, yığılan pullar ehtiyacları olan məktəb uşaqlarına verilirdi. Görkəmli yazıçı və dramaturqlar da bu cəmiyyətin ətrafına toplaşmışdılar. N. B. Vəzirov, Ə. B. Haqverdiyev, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov və başqaları həm öz əsərlərini və həm də rus və dünya ədəbiyyatından tərcümə etdikləri dram əsərlərini səhnəyə çıxarır və onların məşqlərində yaxından iştirak edirdilər. Milli musiqi mədəniyyətinin inkişafında da "Nicat"ın böyük xidməti olmuşdur. Məsələn 1908-ci ildə Bakıda "Leyli və Məcnun" operası məhz "Nicat"ın təşəbbüsü ilə göstərilmişdir.

"Nicat" cəmiyyəti eyni zamanda həftədə bir dəfə "Nicat" adlı qəzet də buraxırdı. Qəzet İsa bəy Aşurbəyovun vəsaiti və redaktorluğu ilə dərc olunurdu.

Cəmiyyətdə maliyyə və habelə siyasi fikir və ideya məsələləri üzrə tez-tez ixtilaflar baş verirdi. Bu başlıca olaraq, cəmiyyətin demokratik əhval-ruhiyyəli qabaqcıl nümayəndələri ilə varlı təbəqə nümayəndələri arasında gedirdi. Belə ixtilaf və toqquşmalar 1917-ci ilədək, yəni cəmiyyətin bağlanmasınadək davam etmişdi. Belə ixtilaflardan birini göstərmək olar. İsa bəy Aşurbəyov özünü maarifpərvər kimi göstərsə də fəaliyyətində sinfi mənafeyi həmişə üstün gəlirdi. 1916-cı il mart ayının 24-də "Nicat" cəmiyyətinə yeni seçkilər keçirilirdi. Aşurbəyov seçkilərdə qalib gəlmək üçün seçiciləri pulla satın almaq yolu ilə özünün bütün yaxın adamlarını idarə heyətinə seçdirə bilmişdi. Mart ayının 24-də "Açıq söz" qəzetində "Nicat" cəmiyyətinə seçilənlərə açıq məktub" adlı məqalə çap edilmişdi. Məktubu imzalayanlar içərisində Nəriman Nərimanovun, Məşədi Əzizbəyovun, Əsədulla Axundovun da imzaları vardı. Məktubda İsa bəyin və onun yaxın adamlarının idarə heyətinə hansı yollarla seçildikləri ifşa olunurdu. Həmin məqaləyə Aşurbəyov küçə söyüşləri ilə cavab vermişdi.

"Nicat" cəmiyyəti vəsait əldə etmək üçün başqa vasitələrə də əl atırdı. Məsələn, şəhər bağında arabir gəzintilər təşkil edir və toplanan vəsaiti xeyriyyə işlərinə sərf edirdi. Bir dəfə də belə bir gəzinti düzəltmiş və toplanmış dörd min manat pulu Cənubi Azərbaycana mücahidlərə göndərmişdi. Əlbəttə, bunu açıq edə bilməzdilər. Çünki polis hər dəfə toplanmış pula nəzarət edir və onun haraya göndərilməsini yoxlayırdı. Nicatçılar vəziyyətdən çıxış yolunu pulun oğurlanmasında gördülər. Pulu toplayan Əsədulla Axundov əldə edilmiş bütün vəsaiti gizlətdikdən sonra hay-küy salmışdı ki, pulu oğrular çalıb apardılar. Ara sakitləşəndən sonra həmin vəsaiti özü aparıb, Cənubi Azərbaycanda mücahidlərə təhvil vermişdi.

"Bakıda Müsəlman maarif cəmiyyəti "Nicat"ın 1907-1908-ci illər hesabatı" kitabında "Nicatın fəaliyyətinə qiymət verilərək deyilirdi: "Nicat maarif cəmiyyəti Bakıda olan cəmiyyətlərin ən köhnəsi olub, yerdə qalan bütün cəmiyyətlərin müvəllidi adını almağa müstəhəqdir". "Səadət" cəmiyyəti Bakı tacirləri və ruhanilərinin cəmiyyəti idi. 1906-cı ildə təşkil olunmuşdur. Əsas baniləri bunlar idi: Kərbəlayi Məhəmmədəli Salayev, Molla Əliəkbər mərdəkanlı, axund Molla ağa, Hacı Mustafa Rəsulov, doktor Əbdülxalıq Axundov, Məmmədəli bəy Səlimbəyov, Əliəsgər Dadaşov və başqaları. Sədri mərdəkanlı axund Əliəkbər idi. Cəmiyyət 1907-ci ildə "Səadət" adlı təkcə bir məktəb açmışdı. Lalayevin iki mərtəbəli kiçik bir binasında yerləşirdi. 14 otağı vardı. Əli bəy Hüseynzadə 1910-cu ildən 1916-cı ilədək, yəni Türkiyəyə gedənədək bu məktəbdə direktor işləmişdir. "Səadət müdiriyyəti sonralar köhnə müsəlman qəbiristanlığında (indiki göz xəstəxanası) böyük bir bina tikdirir. Ancaq bina tikilib qurtarmamış Birinci Cahan müharibəsi başlayır. Hökümət üstünü tələm-tələsik örtərək, onu hərbi xəstəxanaya çevirir. Bu zaman "Səadət"in dərsləri onun şöbələrində keçirilirdi. Onun bir şöbəsi Suraxana küçəsi ilə Tatar küçələrinin tinində Hacı İmamverdi məscidinin nəzdindəki "Nur" adlı məktəb idi. Müdiriyyət "Nur"un üstündə ikinci bir mərtəbə tikdirərək, uşaqların oxuması üçün geniş imkan yaradır. "Səadət"in ikinci şöbəsi isə Aşağı priyut küçəsində bakılı Hacı Səmədin binası idi. Bu binanı Hacı Səməd Heydərov 55 minə tikdirib, kupçisi ilə birlikdə məktəbə bağışlamış və vəd etmişdi ki, yenə iki mərtəbəli bir bina tikdirib, məktəbin ixtiyarına verəcəkdir. ("An" jurnalı №6, 1911).

Yuxarıda adları çəkilən cəmiyyətlərdən "Müsəlman Xeyriyyə cəmiyyəti", "Səadət və "Səfa" cəmiyyətlərinin öz xüsusi binaları vardı. "Müsəlman Xeyriyyə cəmiyyəti" İsmailiyyədə, "Səadət" göz xəstəxanasında, "Səfa" cəmiyyəti böyük Çəmbərəkənd küçəsindəki imarətində yerləşirdi. "Nəşr və maarif" cəmiyyəti ilə "Nicat" cəmiyyətlərinin binaları yoxdu. "Nicat bir neçə dəfə dumaya müraciət edib, yer istəmişsə də nəticəsiz qalmışdı.

Bunlardan başqa hələ 1904-cü ildə general-qubernator Fadeyevin icazəsi ilə Bakıda "Hidayət" adlı bir cəmiyyətdə yaradılmışdı.

Bu cəmiyyətin təşkilatçıları əsasən ruhanilər və ziyalılardan ibarətdi. Bakıda qaniçən qoçular və qatillər ilə mübarizə aparmaq, dini fanatizmin qarşısını almağı "Hidayət" cəmiyyəti öz qarşısına əsas məqsəd qoymuşdu. Camaatı incidən, küçələrdə qadınları təhqir edən quduz qoçular cəmiyyət tərəfindən müəyyən edilir və onların barəsində cəza tədbirləri görülməsi üçün adları general-qubernatora təqdim olunurdu. Cəmiyyətin nizamnaməsi Əhməd bəy Ağayev tərəfindən tərtib edilmişdi.

Bakı qoçularının harınlığı o dərəcəyə çatmışdı ki, şəhərin mərkəzində xüsusi kontorlar açaraq, pulla adam öldürmək üçün sifarişlər qəbul edirdilər. Belə kontorlardan biri indiki Kukla teatrının qabağında olan iki mərtəbəli evin birinci mərtəbəsindəki dükanlardan birində yerləşirdi. Camaat arasında bu kontorlar "adam öldürən kontor" adlanırdı. Belə azğın qoçularla mübarizə "Hidayət"in məramnaməsində əsas yer tuturdu.

"Hidayət"in on nəfərdən ibarət idarə heyəti vardı. Onun üzvlərindən H. Z. Tağıyev, İsa bəy Hacınski, şəhərin hörmətli ruhanilərindən Bakı qazisi Mir Məhəmməd Kərim, ruhani-alim, axund molla Ruhulla, ziyalılardan Əhməd bəy Ağayev, Mustafa bəy Əlibəyovu göstərmək olar. Bu sonuncu sonralar cəmiyyətin katibi seçilmişdi. 1906-cı ilin 17 noyabrında "Hidayət" cəmiyyətinin üzvləri bakılılara divan tutan qoçuların siyahısını tutub, general-qubernatora təqdim edirlər. Bu qoçuların içərisində axund molla Ruhullanın kəndlisi - novxanalı Məşədi Hacı oğlunun da adı vardı. Qoçuluqla məşğul olmaqdan başqa Məşədinin Binəqədidə neft mədənləri də vardı. Cəmiyyət üzvləri qubernatordan xahiş edirdilər ki, Məşədi Hacı oğlu da qatil qoçu kimi Qafqazdan sürgün edilsin. Qubernator onun həbs edilməsi barədə sərəncam verir. Məşədi adının siyahıya düşməsində axund molla Ruhullanın barmağı olduğunu başa düşərək ondan intiqam almağa hazırlaşır. Axund üç il yayı Novxanada olan bağına köçə bilmir. Məşədi güclü vəsait qoyaraq, Qafqazdan sürgün edilmək əvəzinə Hökməli kəndinə (bu kənd Novxanadan cəmi 10 verst aralıda idi) sürgün edilməsinə nail olur. Məşədi axund Ruhulladan intiqam almaq üçün fürsət axtarır. Nəhayət 1912-ci il yanvarın 16-da günün günorta vaxtı axundun Poçtovaya (indiki S. Tağızadə) küçəsində olan 151 nömrəli evinə soxulub, onu namaz üstündə öldürür.

Dövrünün qabaqcıl maarifpərvər ruhanilərindən olan axund Ruhulla eyni zamanda ərəb və fars dillərindən gözəl tərcüməçi idi. O məşhur "İngilis xanımı" və "Zərgüzəşti yetiman" romanlarını fars dilindən Azərbaycan dilinə tərcümə etmişdi.

"Hidayət" cəmiyyəti dini fanatizm adətlərinə qarşı çıxırdı. Müsəlmanların şaxsey-vaxsey və sair bu kimi xürufat və din mərasimlərinin insanlara zərərdən

başqa heç bir şey vermədiyini Cəmiyyət camaata olan müraciətnaməsində açıq qeyd edirdi. Müraciət şəhərin əyyan və əşrəfi tərəfindən imzalanmışdı. Cəmiyyətin katibi Mustafa bəy Əlibəyov isə bu barədə "İrşad" qəzetində məqalə ilə çıxış etmişdi. Müraciət şəhərin fanatik dindarları tərəfindən qəzəblə qarşılanmışdı. Hətta qərarə gəlmişdilər ki, qazi Mir Məhəmməd Kərimin və Mustafa bəy Əlibəyovun başı kəsilsin. Qəzəblənmiş qara kütlə Mir Məhəmməd Kərimin ev qapısına od vurub, yandırırlar Əlibəyov isə evdən bayıra çıxa bilmirdi.

"Səfa" mədəni-maarif cəmiyyəti 1910-cu ildə təşkil olunmuşdu.

Hələ 1909-cu ilin mart ayında "Kaspi" qəzeti Çəmbərə kəndində və köhnə müsəlman qəbiristanlığında məscid və məktəb binası tikilməsi üçün ianə toplanması barədə xəbər verirdi. Məscidin tikilməsini Əjdər bəy Aşurbəyov öz üzərinə götürmüşdü. Murtuza Muxtarov isə məktəbin tikilməsi üçün 10 min manat pul ayırmışdı. Həmin məktəb binası "Səfa" cəmiyyəti üçün tikilmişdi. Onun təşkilatçıları əksərən maarifpərvər ziyalılar idi. Cəmiyyət milli mədəniyyəti və maarifi inkişaf etdirmək məqsədi daşıyırdı. Onlar şəhərdə və bir neçə kənddə kitabxana və qiraətxana açmışdılar. Bakıda "Səfa" yeganə bir məktəb idi. İki mərtəbəli bu məktəb binası 1910-cu ildə varlı ziyalılardan Əlibala Zərbəliyev tərəfindən tikilmişdi (hazırda Lermontov küçəsində bu məktəbin yerində bağ salınmışdır).

"Səfa" milli teatrın inkişafı ilə daha çox maraqlanırdı. Özünün xüsusi teatr truppası vardı. Dövrün görkəmli aktyorları və tanınmış yazıçı və dramaturqlar bu truppa ətrafında toplaşmışdılar. Verdikləri tamaşalara "Nicat" cəmiyyətinin ayrı-ayrı aktyorlarını da dəvət edirdilər. Cəmiyyətin fəaliyyətində Səməd Mənsur, Dadaş Bünyadzadə, M. Ə. Rəsulzadə, Əliabbas Müznib, H. Ərəblinski, A. M. Şərifzadə, Cahangir Zeynalov və başqaları yaxından iştirak edirdilər.

Bəzən görkəmli aktyorları cəlb etmək üstündə "Səfa" ilə "Nicat" cəmiyyətləri arasında tez-tez ixtilaf baş verirdi. Hərə istəyirdi ki, məşhur aktyorları öz tərəflərinə çəksinlər. Lakin "Səfa" cəmiyyətinin aktyorlarını hər vasitə ilə şirnikləşdirib öz tərəflərinə çəkmək istəyən "Nicat" cəmiyyətinin cəhdləri hər dəfə puça çıxırdı. Məsələn, "Nicat" çox çalışirdı ki, Səməd Mənsuru öz tərəfinə çəksin. Səməd Mənsur isə "Səfa"ya sadiq idi. Səməd Mənsurun getməməsi "Səfa"nın mövqeyini daha da möhkəmlətdi. Bundan əlavə "Səfa" görkəmli aktyor Abbas Mirzə Şərifzadənin də tez-tez baş rollarda çıxış etməsinə nail oldu. Doğrudur, A. M. Şərifzadə "Nicat"ı həmişəlik tərk etməmişdi. Lakin onun "Səfa" qruppasında baş rollarda çıxışı və hətta rejiosorluq etməsi tamaşaçılar qarşısında "Səfa" truppasının nüfuzunu xeyli qaldırmışdı.

"Səfa" cəmiyyəti 1917-ci ildə öz fəaliyyətini bitirir. Adları çəkilən cəmiyyətlərdən əlavə Bakıda "Müqəddəs Nina" xeyriyyə cəmiyyəti də vardı.

Cəmiyyətin əsas təşkilatı Tiflisdə yerləşirdi. Onun nizamnaməsi də hələ 1846-cı il dekabr ayının 17-də Tiflisdə təsdiq edilmişdi. Bakıda isə onun şöbəsi vardı.

1848-ci ilin 30 aprelində Şamaxı şəhərində şöbəsi açılıb. 1859-cu ildə Bakı şəhəri quberniyanın paytaxtı olandan sonra "Müqəddəs Nina" xeyriyyə cəmiyyəti və onun eyni adlı məktəbi də Bakıya köçür.

"Müqəddəs Nina" qadın xeyriyyə cəmiyyətinin Bakı şöbəsi idarəsinin sədri keçən əsrin 80-ci illərinin əvvəllərində Bakı qubernatoru işləmiş D. S. Staroselkinin arvadı Yekaterina Staroselskaya idi. Üzvlüyünə isə qubernator Dmitri Semyonoviç Staroselski, Çimnaz xanım Səlimxanova, H. Z. Tağıyev, Hacı Mirzə Qulu, Hacı Hüseyn Qulu, Səfər Əli oğlu, Məlikməmməd Əliyev, Ağahüseyn Tağıyev və başqaları daxildi.

## ŞƏHƏR BƏLƏDİYYƏ İDARƏSİ
## BAKI KƏNDLƏRİ

Bakı şəhəri ətrafında salınmış kəndlərin sayı ayrı-ayrı zamanlarda müxtəlif miqdarda göstərilirdi. I Pyotrun səfəri ərəfəsində Bakıda olmuş katolik missionerlərindən birinin yazdığına görə, Bakı əyalət şəhəridir və onun 34 kəndi vardır.

1870-ci il siyahısında isə Bakıda 41 kənd olduğu qeyd edilir: Bibiheybət, Keşlə, Əhmədli (bəzi mənbələrdə isə bu Qulam Mahmud, ya da Küley Mahmud da adlanır), Zığ, Hövsan, Türkan, Zirə, Qala, Binə (yaxud Kürkənd), Suraxana, Əmirhacıyan, Ramana, Balaxana, Sabunçu, Bülbülə, Dərnəgül, Binəqədi, Digah, Məhəmmədli, Zabrat, Fatmayı, Novxana, Saray, Masazır, Corat, Goradil, Pirşağa, Kürdəxana, Maştağa, Nardaran, Bilgəh, Buzovna, Şağan, Mərdəkan, Güzdək, Hökməli, Xırdalan, Xoca Həsən, Pirəköşkül, Biləcəri, Qobu.

Bunlardan başqa 1865-ci ildə Bakı - Quba poçt yolu üstündə Mixail kənd adında təzə bir kənd də salınmışdı. Bu kənd o illərdə Bakı general-qubernatoru olmuş Mixail Petroviç Kolyubakinin şərəfinə belə adlandırılmışdı. Sonralar baxımsızlıq üzündən bu kənd dağılmışdı.

1813-cü ilin məlumatına əsasən o zaman Bakı kəndlərində aşağıdakı miqdarda əhali yaşayırdı: Bakının ən böyük kəndi olan Maştağada 582 nəfər, Sarayda 183 nəfər, Novxanada 202 nəfər, Fatmayıda 777 nəfər, Əmirhacıyanda 276 nəfər, Balaxanada 286 nəfər, Qalada 332 nəfər, Qobuda 735 nəfər, Buzovnada 263 nəfər, Mərdəkanda 94 nəfər, Şağanda 57 nəfər, Binəqədidə 738 nəfər, Qulam Mahmudda (Əhmədli) 77 nəfər.

Bakı kəndlərində yaşayanların xeyli hissəsi tatlardı. Tatlar İrandan çıxmadırlar. Daha çox talışlara yaxın idilər, onlar pozuq fars dilində danışırdılar. Hələ sasanilər dövründə İranın cənubundan Şərqi Azərbaycana köçürülmüşdülər.

İran hökuməti İranın şimal hüdudlarının köçəri türk tayfalarından qorunmasında onlardan istifadə edirdi. Öz köçəri həyatları ilə öyünən türk tayfaları sonralar tatları öz hakimiyyətləri altına alaraq, onlara "tat" adını vermişdilər. Şah Abbas da tatlardan cəngavər, döyüşkən adamlar kimi istifadə edərək, onlara hətta Şahsevən adını da vermişdi. Beləliklə, əsl şahsevənlərlə sonralar şahsevən adlandırılmış tatları bir-birindən fərqləndirmək lazımdır. Bir vaxt Fətəli xan öz xanlığını qorumaq üçün şahsevən tayfalarının bir hissəsini Quba torpaqlarına köçürmüşdü.

Tatlar Azərbaycana köçdükdən sonra başqa xırda millət və tayfaları güclü təsirləri altına ala bilmişdilər. Onlara təkcə dillərini deyil, öz milli adət və ənənələrini də qəbul etdirmişdilər. Vaxtilə Massakit tayfası da (Maştağa kəndi əhalisi) bu yolla tatlaşdırılmışdı.

Qədim zamanlardan bəri Azərbaycanda yaşayan yerli yəhudilər də (bunların Qafqaza nə vaxt köçdükləri barədə heç bir sənəd yoxdur) öz yaxalarını tatlaşmadan qurtara bilməmişlər. Ancaq o məlumdur ki, ərəblər Azərbaycanı işğal etdikləri zaman tatlar və yəhudilər İslam dinini qəbul etmişdilər. Bəziləri isə Musa dininə sadiq qalaraq "dağ cühudu" adı ilə tanınmışdı. "Qafqaz şöbəsinin əxbarı kitabında" (X cild, səh. 62) göstərilir ki, təxminən 1670 - 1671-ci illərdə onlar 21 min nəfər idi. Dağıstanda, Terek və Kuban oblastlarında, Bakı və Yelizavetpol quberniyasında yaşayırdılar. Onlardan çoxu, yəni 6,282 nəfəri Azərbaycanda - Qubada yaşayırdı. Sonralar Rusiyadan, Avropadan, Ukraynadan da Azərbaycana yəhudilər köçüb gəlmişdilər.

Adları çəkilən tayfalardan başqa ermənilərin də bir qismi tatların təsiri altına düşərək, onların dillərini qəbul etmişdilər. Fətəli xan tərəfindən Qubaya və Xaçmaza köçürülmüş ermənilər 19-cu əsrin axırlarınadək ancaq tat dilində danışırdılar. Ermənicə bir kəlmədə bilmirdilər. Bu yaxınlaradək Şamaxı və Mərəzə tərəflərdə erməni ailələrinə rast gəlmək olardı ki, hamısı öz aralarında tat dilində danışırdılar. Ancaq bununla belə qeyd edilməlidir ki, tatlar başqa tayfa və millətlərə öz dillərini qəbul etdirsələr də, onları öz dillərindən döndərə bilməmişdilər. Bakıda tatların yaşadıqları kəndlər əsasən bunlardır: Balaxana, Suraxana, Zirə, Qala. Lakin Balaxana və Suraxana kəndləri istisna edilərsə, tatlar bu kəndlərdə öz hegemoniyalarını axıradək hifz edə bilməmişdilər. Bu kəndlərdə onlar müxtəlif tayfalarla qaynayıb, qarışmış və birgə həyat şəraitində öz dillərini yadırğamağa başlamışdılar. Məsələn, Zirə, Türkan, Qala kəndlərində hazırda ancaq qocalar tatca danışırlar. Balaxana və Suraxana kəndlərində isə tat dili dərin kök ata bilmişdi. Balaxanada bu axır illərə qədər uşaqlar Azərbaycan dilini ancaq məktəb skamyası arxasında öyrənirdilər. Bu onunla əlaqədardır ki, Balaxanada, Suraxanada tatlar başqa tayfalarla az təmasda olublar. Vaxtilə tatlaşdırılmış massakitlər (indiki maştağalıların babaları) onların təsirindən xilas ola bilmişdilər.

Bunun nəticəsindədir ki, Maştağada tat dilini bu yaxınlaradək ancaq qocalar bilirdilər.

Bakı kəndlərinin adları da əsasən tat dili əsasında yaranıb.

***

**Maştağa kəndi.** Maştağa Bakının ən böyük kəndidir. 1813-cü il məlumatına görə həmin illərdə bu kənddə 582 nəfər əhali yaşayırmış, daha sonra, 19-cu əsrin əllinci illərində Bakı qəzası təkcə bir ucastokdan - Maştağa uçastokundan ibarət imiş ki, bu da qırx kəndi əhatə edirmiş. Maştağa (və ya Məşqətə) toponimi vaxtilə burada məskən salmış massakit tayfasının adı ilə bağlıdır. Eramızdan 5 əsr əvvəl yaşamış herodot massakit tayfaları barədə xəbər verir. Onlar ilk əvvəllər türk tayfalarının beşiyi olan Türküstanda yaşayırdılar. Sonralar Aralıq və Xəzər dənizinin şimalını və Qırğızıstan torpaqlarını işğal etmişdilər. Bir müddətdən sonra yeni türk tayfaları tərəfindən sıxışdırılan massakitlər Azərbaycana yayılmışdılar.

A. A. Bakıxanov özünün "Gülüstani-İrəm" kitabında Maştağa kəndi əhalisinin massakitlərdən qaldığını təsdiq edir. Abşeronda tatlar arasında yaşayan massakitlər, tatlaşaraq öz doğma dillərini unutmuşdular. Buna da əsas səbəb uzun müddət İran hakimiyyəti altında olmaları idi. Keçmiş əsrin axırınadək vəziyyət belə idi. Sonralar tat dili sıxışdırılıb aradan çıxarıldı. İndi Maştağada tat dilini bilən tək-tük adam tapılar, bəlkə də heç yoxdur. Maştağa bir müddət Bakı xanlarının babası olan yüzbaşı Dərgahqulu xanın iqamətgahı olmuşdur. Dərgahqulu xanla başlayan yüzbaşılar nəsli sonralar Bakının ictimai həyatında böyük rol oynamışlar. Onlar əslən İrandan gəlmə idilər. 1592-ci ildə Gilan xanı Əhməd xanın şah Abbas birincinin əleyhinə olan uğursuz üsyanından sonra bu nəsil Gilan mühacirləri ilə birlikdə Şirvana gəlmişdilər. Onların içərisində ən görkəmli sərkərdə Dərgahqulu xan idi. Bakı yüzbaşıları nəsli Abşeronun bir neçə kəndini və o cümlədən Ramananı da ələ keçirərək, orada məskən salmışdılar. Vaxtilə A. A. Bakıxanov da bunu təsdiq edirdi.

Bakı xanlarından Mirzə Məhəmməd xan ikinci ilə Hüseynqulu xan arasında xanlıq üstündə mübarizə getdiyi illərdə Hüseynqulu xan Bakıda, Mirzə Məhəmməd xan isə Maştağada yaşamışlar. Tarixdən məlum olduğu uzrə Mirzə Məhəmməd xan ikinci Maştağada özünə möhkəm bir qala da tikdirmişdir. Təəssüf ki, indi bu qaladan heç bir əsər qalmamışdır. Tarixi mənbələrin göstərdiyinə görə maştağalılar çox zəhmətkeş və mərd olmuşlar. Onlar başlıca olaraq, əkinçilik, maldarlıq və bağçılıqla məşğul olurlarmış.

"Gülustani-İrəm" kitabında Bakıxanov maştağalıların massakitlərdən törədiklərini təsdiq edir. Maştağa sözünü səhvən Maştağı yazırıq. Bakı kəndlərindən bəzilərinin adları kimi Maştağa sözündəki A saitinin I ilə əvəz

edilməsi rus dilinin təsirindən əmələ gəlib. Biz bu tələffüzə ancaq 19-cu əsrin ortalarından rast gəlirik. Həmçinin Balaxana və Suraxana sözləri də rusların tələffüz etdiyi şəkildə, yəni Balaxanı və Suraxanı kimi yazılır. Əslində iki sözdən əmələ gəlmiş bu adlar xana sözü ilə bitir.

***

**Buzovna** - Maştağa ilə qonşu kənddir. Burada yaşayanlar əsasən əkinçilik və bostançılıqla məşğul olurlar. Vaxtilə balıqçılıqla da məşğul olublar. Yerlilər öskürəyə qarşı burada buzovna adlı otdan istifadə etdikləri üçün kəndin adı da Buzovna qalmışdır. 1861-ci ildə çap olunmuş "Qafqaz şöbəsinin qeydləri" (rus diljndə) kitabında Buzovna kəndi "Bezouqnan" adlanır.

Maştağadan sonra Bakının ikinci böyük kəndi **Balaxanadır.** Yuxarıda deyildiyi kimi Balaxana xalis tat kəndidir. Kəndin adı iki sözdən əmələ gəlmişdir: Bala (yuxarı, hündür deməkdir) və xana (ev) sözlərindən. Balaxana qədim zamanlarda karvansaraların giriş qapısı üstündə olan kiçik otağa deyərdilər. Bunlar yarım mərtəbə şəklində olardı (mezonin, yaxud antrosol). Görünür ki, o zamanlar Balaxanada mərtəbə yarım evlər tikildiyindən kəndin adı da Balaxana qalmışdı. 1813-cü ilin məlumatına görə o zamanlar bu kənddə 286 nəfər əhali yaşamışdır. Sonralar Bakının başqa kəndlərinə nisbətən Balaxananın əhalisi sürətlə artmağa başlayır. Təbiidir ki, bu ancaq Balaxanada neft yataqlarının tapılması ilə əlaqədar idi. Balaxanada qədim tikililərdən yalnız dörd künclü bir qala olmuşdur. Bakı xanları arasında gedən mübarizə illərində Bakı xanı Mirzə Məhəmməd ikinci bir müddət bu qalada yaşamışdır. İndi o qaladan bir daş belə qalmayıb. Görunür ki, sonralar neft quyularının divarlarını möhkəmlətmək üçün qalanın daşlarından istifadə edilmişdir.

Balaxana kəndinin yaxınlığında Qırməki deyilən bir yer vardır. Bunu kənd adlandıranlar da vardır. Əslində burada heç bir kənd olmayıb. Bu yerdə neftin torpaqla qarışıb möhkəmlənməsindən torpağın üstündə qalın möhkəm təbəqələr əmələ gəlmişdir ki, bundan Bakının yastı damlarını yağışdan qorumaq üçün istifadə edirdilar. Bu qır idi. Yer də ona görə Qırməki adlanırdı ki, buradan qır çıxarırdılar. Qırməki qır məkanı mənasındadır. Uzun illər müddətində Qırməki şəklinə düşmüşdür.

Əhalisinin tərkibinə görə tat kəndi hesab edilən Suraxana kiçik bir kənd olsa da öz ağ nefti və daimi yanar odları ilə bütün Şərqdə şöhrət tapmışdı. Kəndin adı da iki sözdən düzəldilmişdir. Sürx - qırmızı və xana-ev. Bəs qırmızı sözü haradan əmələ gəlib? İnqilabın ilk illərində Suraxana atəşgahını tədqiq etmiş V. Sısoyev atəşgahdakı hücrələrin divarlarını yoxlarkən qəribə bir mənzərə ilə rastlaşır: bir neçə hücrənin uçub-tökülmüş malası altında qırmızı rənglərlə çəkilmiş ornamentlər görür. O biri hücrələrdə də eyni omamentlərə təsadüf edir. Bu qırmızı suvaq divarlara vurulmuş ilk suvaq idi. Sonralar görünür, təmir zamanı birinci suvağın

üstünə bir neçə dəfə təzə suvaq vurulmuş və beləliklə ilk qırmızı suvaq altda qalmışdır. İlk zamanlarda hücrələr hələ ümumi bir hasarla birləşməmiş və ayrı-ayrı otaqlar şəklində mövcud idilər. O da bizə məlumdur ki, suraxanalılar soyuq qış aylarında qazla isidilən bu otaqlara köçür, havalar qızanadək bu hücrələrdə yaşayırdılar. Ehtimal etmək olar ki, o zamandan bu mənzillərə yerlilər tərəfindən Sürx-xana (qırmızı ev) adı qoyulmuş və kənd də bu adla adlandırılmışdır. Belə bir fərziyyə vardır ki, guya Suraxana adı qədim Hindistanın sanskrit dilində olan Surak-şanı (relikviya deməkdir) sözündən əmələ gəlmişdir. Əgər Balaxana, Novxana, Kürdəxana kimi kənd adları olmasaydı, bu fikirlə bəlkə də razılaşmaq olardı. Lakin adları çəkilən ətraf kəndlərin mövcud olması Suraxana sözünün də iki sözdən düzəldiyini söyləməyə haqq verir.

Qədim zamanlardan suraxanalılar əhəng yandırmaqla məşğul olmuşlar. İnqilabdan qabaq bişirilən əhəngləri eşşəklərə yükləyib, Bakının ətraf kəndlərində satırdılar. Kəndin şimal-şərqində əhəngbişirən karxanalar indi də mövcuddur.

Suraxanadan şərqə tərəf bir eniş başlayır. Bu enişin adı Künəsəngidir. Mənası daş uçurum deməkdir. İndi buradan rahat şose yolu keçir. Enişin qurtardığı yerdən başlayan düzənlik isə Təmənis düzü adlanır. Bu düzün bir ucu Binə kəndinədək, o biri ucu isə şimalda Maştağayadək uzanır. Təzə Suraxana, Binə kəndi və habelə şəhər aerodromu Təmənis düzündə yerləşir. Künəsəngi enişinin başqa bir adı vardır: usta-şagird, Suraxana enişi ilə Təmənis düzünə enəndə diqqət yetirilərsə, sağ tərəfdə iri bir qaya parçası üzərində tikilmiş kiçik bir soməə görmək olar. Bu soməə bir əfsanə ilə əlaqədardır. Guya usta bir bənnanın fərasətli bir şagirdi varmış. Bir gün onlar yarışa girişirlər. Yarışın şərti bu imiş ki, hərə bir soməə tiksin və onun möhkəmliyi illərin sınağından çıxsın. Ustanın tikdiyi soməə bir müddətdən sonra uçur, şagirdin qaya parçası üzərində tikdiyi soməə isə bu günədək durur.

Mərdəkana gedən yolun sağında yerləşən **Binə** kəndi Bakı kəndləri içərisində ən təzəsidir. Bu kənd qədim Kürkənd kəndinin xərabələri yanında salınmışdır. Kəndin yeri vaxtilə nardaranlıların binələri olub. Bir müddətdən sonra isə yaşayış məskəninə çevrilmişdir. Sonralar Kür qırağından, xüsusilə Lənkərandan buraya xeyli adam köçüb gəlmiş və burada yerli nardaranlılarla qaynayıb, qarışmışlar.

Abşeron burnunun cənubunda isə yuxarıda dediyimiz kimi Türkan, Zirə, Qala və Hövsan kəndləri yerləşir.

***

**Qala kəndi:** Kəndin adı hələ qədim əsrlərdə burada tikilmiş qala ilə bağlıdır. Bu qala Abşeronda ilk qala olub. Burada habelə 17-ci əsrdə tikilmiş dörd künc bir türbə, ovdan, köhnə məscid və çoxlu sərdabalar mövcuddur.

***

**Türkan kəndi.** Monqolların Azərbaycana hücumundan əvvəl türkmən tayfaları Xəzər dənizinin cənub və şimal sahilləri ilə irəliləyərək, Xəzərin qərb sahillərinə və Azərbaycana yayılmışdılar. O zaman türkmənlər sadəcə olaraq, türkan adı ilə də məşhurdular. Bu tayfalardan bəziləri Xəzərin qərb sahillərində daimi məskən salmışdılar. Türkan kəndinin adı da, görünür, bu yerlərdə olmuş türkmənlərin adı ilə bağlıdır. Türkmənlər əsasən səlcuqlardı. Onlardan bəziləri 962-ci ildə İslam dinini qəbul etmiş, bəziləri isə bütpərəst olaraq, qalmışdılar. Türkmənlər onuncu əsrdən başlayaraq, rus knyazlıqları üzərinə də basqın edirdilər.

***

**Hövsan kəndi.** Bu kəndin Hövsan adlandırılması vaxtilə bu yerdə mövcud olan iki böyük su hovuzu ilə əlaqədardır. Hövsan hovuzlar deməkdir. Əhalisi əsasən bostançılıqla məşğul olub. Burada yetişdirilən uzunbaş soğanın şöhrəti hər tərəfə yayılmışdı.

***

**Zirə kəndi.** Abşeron burnunun qurtaracağında salınmış axırıncı yaşayış məskənidir. Vaxtilə buradan dəniz sahilinədək uzanan cəngəlliklərdə vəhşi heyvanlar yaşayıb. Buralar o zaman Şirvanşahların ovlaq yerləri idi. Şahlar ova başlamamışdan əvvəl indiki Zirə kəndinin yerində düşərgə salırlarmış. Ov əmiri öz xidmətçiləri ilə birlikdə heyvanları hürküdərək, aşağılara, burnun ensizləşdiyi yerlərə qovarlarmış ki, onları ovlamaq asan olsun.

Zirə sözünün etimologiyasını öyrənməkdə Bakı körfəzi akvatoriyasında mövcud olan adalar (ərəbcə-cəzirələr) köməyə çatır. Məlumdur ki, akvatoriyada olan adalardan Nargin və Vulf adaları I Pyotrun qoşunları Bakıya gələnədək başqa cür adlanırdılar. Narginin adı Böyük Zirə, Vulf adasının adı isə Kiçik Zirə idi. Pyotr qoşunlarının dənizlə Bakıya səfəri zamanı dənizçilər bu adaları görüb təəccüblənirlər. Çünki o zaman Xəzər dənizinin xəritəsində bu adalar göstərilməmişdi. I Pyotr hər iki adanın Fin körfəzində olan Nargin və Vulf adalarına oxşarlığını görüb, onları da eyni adla adlandırmışdı. Fin körfəzindəki Nargin adası hazırda Nayssar adlanır.

Beləliklə, bu adaların adlarına əsaslanaraq "zirə" sözünün necə yarandığı barədə qəti fikir söyləmək mümkündür. Adaların (cəzirələrin) adlarını canlı dildə asan tələffüz etmək məqsədilə, görünür ki, "cəzirə" sözündəki ilk "cə" hecası atılmış, təkcə "zirə" qalmışdır. Adaların adları da sadəcə olaraq "zirə" kimi tələffüz olunmağa başlayıb. Buna əsasən Zirə kəndinin adının da necə yarandığını söyləmək mümkündür. Ancaq burada haqlı olaraq, belə bir sual meydana çıxa bilər. Zirə kəndi ki, cəzirə, yəni ada deyildir. Doğrudur, Zirə kəndi cəzirə deyildir, o nimcəzirədə, yəni yarımadada yerləşir. Demək burada bir heca deyil, "cə" hecası ilə birlikdə bütöv bir söz, yəni "nim" sözü də atılmışdır. Nimcəzirədən təkcə zirə qalmışdır. Sözlərin belə ixtisarla deyilməsi o dövrlərdə bakılılar üçün çox

səciyyəvi idi. Məsələn, "Səbayil" sözündən təkcə "Bayıl" qalmışdır. Bakılıların məişətində də belə hallara tez-tez rast gəlmək olur. Zirənin və habelə Zirədən sahilədək uzanan yerlərin vaxtilə cəngəllik olduğu adama qəribə görünə bilər. Halbuki həqiqətdə də belədir. 18-ci əsrin əvvəllərində Bakı şəhərinin gerbində rəsm edilmiş pələngə oxşar heyvan şəkli də bu dediklərimizə dəlil ola bilər. Sonralar Abşeronda yaşayış məskənlərinin artması ilə bu cəngəlliklər qırılmış, vəhşi heyvanlar da tələf edilmişdir.

Zirədən şimal-şərqdə **Şüvəlan** yerləşir. Bura çox sonralar məskən yerinə çevrilmişdir. Buna görədir ki, keçən əsrin əvvəllərindən heç bir yerdə Şüvəlan yaşayış məskəni kimi qeyd edilmir. O zamanlar Şüvəlan otlaq yerləri olub. Sonralar burada pambıq əkilməyə başlayıb

1924-cü ildə yazıçı Seyid Hüseyn Bakı kəndləri barədə yazdığı məqaləsində Şüvəlanı belə təsvir edirdi: "Burada bəzi əski binaların və qalaların xərabələri mövcuddur ki, bunlar Şüvəlan bağlarının çox qədim zamanlardan bəri bağ və yaylaq olduğunu, orada heç bir kənd olmadığı halda ətraf kəndlilərin gəlib, yayda heyvan və mal-qaralarını otardıqlarını qəti surətdə söyləmək mümkündür. Qoca kişilərin söylədiyinə baxılarsa, Şüvəlan vaxtilə otlaq yeri olmuşdur".

**Şüvəlan toponimi haqqında.** Qədim zamanlarda Şüvəlanda bahar aylarında o qədər gölməcə yaranarmış ki, burada dəniz quşları, vəhşi ördəklər əlindən tərpənmək olmazmış. Bəziləri buna əsaslanaraq, iddia edirdilər ki, Şirvanşahlar tez-tez buraya ova gələrlərmiş. Guya o vaxtdan bu yer "Şaholan" adlanmış və zaman keçdikcə "Şüvəlan"a çevrilmişdir. Bu ehtimal əlbəttə, əsassızdır. Çünki tarixdən bizə məlumdur ki, Şirvanşahların, onlardan sonra isə Bakı xanlarının ov məskəni Zirə tərəf olmuşdur. Bundan başqa Bakı kəndlərinin adları bir qayda olaraq ancaq fars, yaxud tat dili tərkibi ilə düzəldilirdi. Əslində isə "Şüvəlan" sözü buranın coğrafi şəraiti ilə əlaqədar olaraq, yaranmışdır. Şüvəlanda olanlar yəqin fikir veriblər ki, bu yerdən dənizə tərəfə enişlər başlayır, həmin enişlərə görə də bu yer Şüvəlan adlanır. Farsca "şivə" sözünün mənası eniş deməkdir. Həmin sözün axırına məkan bildirən "lan" hecasını artırmaqla Şüvəlan sözü yaranmışdır.

Vaxtilə içmək üçün ən yararlı su Mərdəkanla Şüvəlanda idi. Burada su qayanın altından çıxırdı. Buna görə də burada çoxlu pambıq əkilərdi. Abşeronda əkilən pambığın çox hissəsi Şüvəlanın hesabına düşürdü. Pambıqla birlikdə bu yerdə zəfəran da əkilərdi. Şüvəlanın təmiz iqlimi, şirin suyu sonralar adamların bu yerlərdə məskən salmalarına səbəb oldu. Xüsusilə 19-cu əsrin ortalarından başlayaraq, bakılılar bu yeri özlərinə yaylaq yeri seçdilər. Hələ Bakı xanlıqları dövründə burada salınmış üzüm bağlarının şöhrəti tarixdən də bizə məlumdur. İndiki Elmlər Akademiyasının Dendroparkının yeri vaxtilə xan bağı olub. Bakı milyonçularından Murtuza Muxtarov bu yeri alanda bağın dörd dövrəsində kiçik

bürclər varmış. Keçən əsrin axırlarından başlayaraq, bu yerlərdə bağ salmaq qızğın bir ehtirasa çevrildi. Bakı milyonçularından Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Səfərəliyev, İsa bəy Hacınski və başqaları sanki bəhsə girişərək, bir-birindən gözəl villalar tikdirdilər. Burada torpağın qiyməti birə üç qat bahalaşdı. Varlılarla ayaqlaşa bilməyənlər isə sal qayalıqların üstünə torpaq tökdürərək, bağ salırdılar. Şüvəlan yaxınlığında Ağdaş deyilən yerdən çıxarılan möhkəm ağ daşlar tikilən binalara yaraşıq verirdi. Varlıların bağları bir-birindən əzəmətli daş darvazalar, arkalarla fərqlənirdi. Bu bağlarda tikilmiş dərin, nəhəng hovuzlarda bəzən varlılar qayıqla üzürdülər.

"Ət Ağa" kimi tanınan seyid övladı bakılı Mir Mövsüm Ağa Şüvəlan qəbiristanlığında dəfn edildikdən sonra Şüvəlan müqəddəs yer sayılır. Qəbrin üstündə içərisi ayna qırıntıları ilə göz qamaşdıran əzəmətli bir günbəz inşa edilmişdir. O vaxtdan qəbri ziyarətə gələnlərin ardı-arası kəsilmir. Ziyarətə gələnlərə səliqəli xidmət də təşkil edilmişdir. Ziyarətgah xidmətinə başçılıq edən Hacı Nizamın səyi ilə qəbrin yaxınlığında böyük xidmət binası inşa edilmişdir. Burada dəstəmaz almaq, namaz qılmaq, uzaqdan gələnlər üçün istirahət etmək və hətta gecələmək üçün səliqəli-sahmanlı otaqlar vardır. Binanın yeməkxanasında yetimxanaların uşaqlarına tez-tez pulsuz yeməklər verilir.

***

**Mərdəkan kəndi.** Bu kənd keçmişdə çox kiçik olmuşdur. Burada 19-cu əsrin başlanğıcında cəmi yüz nəfərədək adam yaşamışdır. Şirvanşah I Axsitanın dövründə, yəni 1175-ci ildə Şüvəlan və Mərdəkan sahillərindən Şirvan torpaqlarına basqın etmiş düşmənin 70 gəmidən ibarət donanmasının darmadağın edilməsində mərdəkanlılar da böyük mərdlik göstərmişdilər. Mərdəkanda qədim zamanlardan iki qala mövcuddur. Bunlardan biri dörd künclü olub, 12-ci əsrdə Şirvanşah Mənuçəhrin oğlu Axsitan tərəfindən tikilmişdir. Görünür ki, bu qala Axsitanın düşmən üzərindəki parlaq qələbəsi şərəfinə ucaldılmışdır. Qalanın hündürlüyü təxminən 22 metrdir. Bundan başqa onun ətrafında təxminən 6-7 metr hündürlüyündə hasar da olmuşdur. Qala divarının qalınlığı aşağıda 2,10 yuxarıda isə 1,60 metrdir. İçəri tərəfdən qala beş yarusa bölünür. Qalanın ətrafında otuza qədər qayada qazılmış quyu tapılmışdır ki, bunlar qalanın müdafiəçiləri üçün taxıl anbarları imiş. Qalanın yuxarısına daş pillələrlə qalxılır. Aşağıdakı pilləkən yerdən təxminən 2 metr hündürdədir. Qala 12-ci əsrdə tikilmişdir.

İkinci qala dairəvi qaladır. Yerlilər bu qalanı Şıx qalası adlandırırlar. Bunun da səbəbi odur ki, qalanın ətrafındakı bağ Bibiheybət məqbərəsinin vəqf yeridir. Qalanın hündürlüyü 12 metr yarımdır. İçərisi üç yarusdan (mərtəbədən) ibarətdir. Qalanın üstündəki ərəb dilində olan tarixdən məlum olur ki, o 1232-ci ildə tikilmişdir. Qalanın üstündəki ikinci yazılı daş isə onun memar Əbdülməcid Məsud oğlu tərəfindən inşa edildiyini göstərir. İkinci mərtəbəyə olan qapı yerdən üç metr

hündürlüyündədir. Belə vəziyyətə Abşeronun başqa müdafiə qalalarında da təsadüf etmək mümkündür. Görünür ki, qalanın müdafiəçiləri kəndir və taxta pilləkənlə ikinci mərtəbəyə qalxandan sonra pilləkəni də özləri ilə bərabər yuxarıya qaldırırlarmış.

Hazırda Mərdəkan kəndində olan qədim Tuba Şahi məscidi də 15-ci əsrin görkəmli abidələrindən biridir.

Daha sonra, yəni 13 və 14-cü əsrlərdə Abşeronun şimal-şərq və şərq hissələrində və habelə az da olsa cənubunda qala, qüllə və istehkamlar şəklində ucaldılan tikililər zəncir kimi bir-birilə bağlanıb, sanki ön müdafiə xəttini təşkil edirdi. Əgər düşmən bu müdafiə xəttini yara bilərdisə, yarımadanın içərilərində Qala, Ramana, Maştağa, Keşlə, Biləcəri, Fatmayı kəndlərindəki istehkamlarla üzləşməli olurdu.

Şəhəri dövrələyən dağlarda yerləşdirilmiş istehkamlar isə şəhərə giriş yollarını qoruyurdu. Çünki Bakı bütün Abşeronun müdafiə sisteminin mərkəzini təşkil edirdi. Belə istehkamlardan biri də Əmirhacıyanla Keşlə arasında idi. Bu istehkam hundür bir yerdə salındığından qalalar arasındakı siqnallaşmada böyük rol oynayırdı. Dəniz tərəfdən təhlükə baş verdikdə, ya Mərdəkan və ya da Bilgəh qalasının başında tonqal qalanırdı. O biri qalalar da bu işarəni bir-birinə; Şağana, Ramanaya, Bilgəhə, Balaxanaya, Keşləyə ötürməklə Bakıya çatdırırdılar.

***

**Əmirhacıyan kəndi** - Bakının qədim kəndlərindən biridir. Kəndin Əmirhacıyan adlandırılması isə 14-cü əsrdə Şirvanşahlar dövrünə aiddir. O zaman Şirvanşahlar tərəfindən buraya Nizaməddin adlı birisi əmir təyin edilmişdi. O Əmirhac adlanırdı. Əmirhacın əsas vəzifəsi Məkkəyə həccə gedənlərə başçılıq etmək idi. Nizaməddin Əmirhacı adı ilə yerli əhali içərisində böyük şöhrət qazanmışdı. Hazırda bu kənddə qalmış qədim Nizaməddin məscidi də 1329-1330-cu illərdə tikilmişdir. Məscidin üstündəki kitabədə aşağıdakı sözlər yazılmışdır: "Bu Allah evinin tikilməsini həşəmətli Fəxrəddin oğlu əmir Nizaməddin Əmirhac əmr etmişdir".

Əmirhacıyandakı qədim abidələrdən biri də Əmirhacın türbəsidir. Türbə kiçik tağlı bir binadan ibarətdir. Bu kənddə A. Bakıxanovun yaşadığı evin uçuq hasarı qalmışdır. Kənddəki iki minarəli əzəmətli məscidi Bakı milyonçusu və əslən əmirhacıyanlı olan Murtuza Muxtarov tikdirmişdir. Məscidi məşhur memar-usta Mirzə Məlik Abbas oğlu tikmişdir.

Əmirhacıyanın əsl qədim adı Xilədir. "Xilə" bəlkə də bu yerlərdə məskən salmış tayfanın adı ilə bağlıdır.

Suraxanada və Əmirhacıyan ətrafında neft çıxarıldığından kənd əhlindən çoxu əkinçiliyi tərk edərək, mədənlərdə fəhləlik edirdilər. Neft və təbii qazdan

istifadə edərək, Əmirhacıyanda əhəng bişirən karxanalar açılmışdı. Burada bişirilən əhəng ulaq və arabalarla daşınaraq, ətraf kəndlərdə satılırdı.

Bundan başqa kəndin Şor adlanan yerində ağ duz istehsal olunurdu. Əhali yay aylarında göldən duzu toplayıb, bazarlarda satardılar. Əmirhacıyanın duzu Yaxın Şərq və qərb ölkələrində də şöhrət qazanmışdı. Bu kənddə kərpic də bişirilirdi. Kərpic üçün xammalın - gilin mənbəyi Zığ ilə Xilə dağı arasındakı düzənlik idi.

Əmirhacıyanda kustarçılıq ta qədimdən çox inkişaf etmişdi. Kənddə xüsusilə xalçaçılıq daha geniş yayılmışdı. Kənddə, demək olar ki, hər evdə hana qurulmuşdu. Burada butöv bir xalçaçı nəsli yaradılmışdı. Əmirhacıyan qadınlarının toxuduqları xalça və xalılar, xüsusilə Xilə puta və Xilə əfşan xalıları daha məşhurdu. Kənddə xalı toxuyan qadınlardan Nur Şərəf, Umnisa, Mehri və başqaları ətraf kəndlərdə də şöhrət qazanmışdılar.

Sovet hakimiyyəti illərində bu kənddən güclü ziyalı dəstəsi: mühəndis, texnik, alim yetişmişdir. Bunların içərisində elmlər doktorundan tutmuş akademikə qədər görkəmli adamlar fəaliyyət göstərirlər. Neft istehsalı sahəsində ən güclü mühəndis və alimlərin əksəriyyəti bu kənddən çıxmışdır. Bütün dünya şöhrəti qazanmış rəssam Səttar Bəhlulzadə də bu kənddəndir.

***

**Bülbülə kəndi.** - Əmirhacıyana bitişik kənddir. Bir rəvayətə görə Bülbülə adı palçıqlı vulkanların üstündə əmələ gələn pilpilələrdən (qabarcıq) götürülmüşdür. Görünür ki, o zamanlar bu yerlərdə palçıqlı vulkanlar çoxmuş. Bülbülələr də yaxın qonşuları əmirhacıyanlılar kimi neftə bağlı olmuşlar.

***

**Keşlə kəndi.** - Kəndin əsl adı Qışladır. Zaman keçdikcə bu söz Keşlə şəklini almışdır. Bu kənd Bakı xanları ilə sıx bağlı olmuşdur. Xanların atları, qaramal və qoyun sürüləri bu qışlada saxlanırdı. Xan öz ilxısını yoxlamaq üçün ara-sıra Keşləyə gəlirmiş. O vaxtdan xalq içərisində belə bir zərb-məsəl yaranmışdır. Birini bir yerə tələsən və qaçan gördükdə deyərdilər: Haraya tələsirsən, Keşləyə xan gəlir, nədir?

***

**Ramana kəndi.** Əsl adı Rəhmanidir. Burada rəhmanilər tayfası yaşadığından kənd də Rəhmani adlandırılmış və çox sonralar bu Ramana şəklində işlədilmişdir. Əslinə baxsan Ramana sözü rus deyilişi əsasında yaranıb.

***

**Nardaran.** Dənizsahilində düşmüş kəndlərdən biridir. 1813-cü il məlumatına əsasən Bilgəhə nisbətən Nardaranda əhali çox olub. Həmin illərdə Bilgəhdə cəmi 93 nəfər adam yaşadığı halda, Nardaranda əhalinin sayı 139 nəfər idi. Bilgəh xan hüququnda olan Qayib bəy tərəfindən, Nardaran isə Kərim bəy

tərəfindən idarə olunurdu. Bu iki qonşu kənd öz coğrafi şəraiti və əhalisinin məşğuliyyəti etibarilə də bir-birinə yaxın idilər. Hər iki kənd başlıca olaraq, zəfəran əkirdi. Bu kəndlərdə xəzri küləkləri hündürlüyü üç-dörd metrə çatan narın qum təpələrini tez-tez bir yerdən başqa yerə sovururdu. Yay aylarında yerlilər bağlara köçdükləri zaman evləri demək olar ki, qazıb, qumun altından çıxarırdılar. Xəzri küləkləri Abşeronun bu kəndlərində xüsusilə böyük fəğan qoparırdı. Bu kəndlərin balıqçılıqla məşğul olan əhalisi dənizdə həmişə ölümlə əlbəyaxada idilər. Lakin bu kəndlərin fərqi orasında idi ki, Nardaranda çoxlu nar ağacları əkildiyi halda Bilgəhdə barama bəsləməklə məşğul olan əhali tut və çəki ağacları əkməyə məcbur idilər. Kəndlərin adları da əhalisinin məşğələsinə müvafiq olaraq adlanırdı. Nardaran iki sözdən: "nar" və "daran" sözlərindən düzəlmişdi. "Daran" farsca olan mənasında işləndiyindən kəndin adı nar olan yer kimi tanınmışdı. Bəziləri "nar" sözünü od mənasında izah edirlər. Əlbəttə, bu səhvdir. Bakı kəndləri əksər hallarda orada istehsal olunan məhsullar, ya da həmin yerə məxsus xarakterik hadisə ilə adlandırılmışlar. Badamdar buna gözəl sübutdur. İndiki Badamdar (səhvən onu Patamdar adlandırırlar) Badam və daran sözlərindən düzəldilmişdir. Yəni badam olan yer.

1301-ci ildə Nardaranın şimal hissəsində dairəvi bir qala tikilmişdi. Qala dörd bucaqlı və hər küncündə bürcü olan hasar içərisinə alınmışdı. Üç yarusdan (mərtəbədən) ibarət təxminən 12 metr hündürlüyündə olan bu qala usta Mahmud ibn Səad tərəfindən tikilmişdir. Biz usta Mahmud ibn Səadın adına Şıx kəndinin məscidi və İçərişəhərdəki "Molla Əhməd məscidi" divarlarında da rast gəlirik. Bu tikililər eyni ustad tərəfindən inşa edilmişdi.

Bundan başqa Nardaranda təxminən 13-14-cü əsrlərə aid "Xan bağı" adlanan bir tikili də vardır. Binanın ətrafında geniş üzüm bağları da salınmışdır. Görünür ki, yay aylarında bura Bakı hakimlərinin istirahət yeri olmuşdur. Bağın cənub-qərbində 10 metr dərinliyində bir quyu vardır ki, onun dibində şərqə və qərbə tərəf ayrılan iki yol görünür. Yerlilər arasında belə bir rəvayət yaranmışdır ki, guya quyunun dibindəki yollar Nardaran qalasına və məşhur Nardaran pirinə gedib çıxır.

***

**Bilgəh.** Bu kənd Xəzərin səfalı sahilində yerləşir. Burada vaxtilə çoxlu tut ağacları əkildiyi və əhali baramaçılıqla məşğul olduğu üçün etnoqraf N. Zeytants iddia edirdi ki, Bilgəh sözü "pilə" (barama) və "gah" sözlərindən əmələ gəlib. O vaxtlar Bilgəhdə baramaçılıq doğrudan da inkişaf etmişdi. Hasil edilən ipək Bakı və Şamaxı şəhərləri vasitəsilə bazarlara çıxarılır, ya da bilavasitə olaraq, gəmiləri Bilgəh sahillərinə yan alan tacirlərə satılırdı. Bilgəhdə Həftəxor piri olmuşdur. Guya bu pirdə yaşayan qoca həftədə ancaq bir dəfə yeyirmiş.

***

**Novxana kəndi**. Bu kənd nisbətən sonralar salındığı üçün Novxana (yəni təzə kənd) adlanırdı. Nov- tatca yeni deməkdir.

***

**Kürdəxana** - Bakıda çox az miqdarda kürd yaşayırdı. Onlar tamamilə türkləşmiş və öz dillərini unutmuşdular. Onlar indiki Kürdəxananın sahəsində yaşamış və kənd də Kürdəxana adlandırılmışdır.

***

**Pirşağı** kəndinin əsl adı Pir Şikakdır. Kənd burada olan Şikak adlı və sonralar Pirə çevrilmiş bir qəbrin adı ilə adlandırılmışdır.

***

**Saray**. 1771-ci ildə Bakıda olmuş Qmelin Quba xanının nökərləri və süvarilərinin yaşadığı bu kəndi Saray adlandırır.

***

**Digah** - hündür yer, təpə deməkdir. Əhalisi əkinçiliklə məşğul olurdu. Digah kəndi nəinki özünü, habelə yaxın kəndləri də taxılla təmin edirdi.

***

**Güzdək kəndi.** Güzdək payız binələrinin olduğu yerə deyilir. Sonralar bu binələrin ətrafında yaşayış məskəni salınmışdır.

***

**Binəqədi**. (Bu kəndə Binəqazi də deyirlər.) Sonralar bu torpaqlarda da neft yataqları tapılmışdır. Binəqazi sözundən məlum olur ki, bura bir nəfər qazinin binəsi olub.

***

**Biləcəri** kəndində də əkinçilik və daha çox maldarlıqla məşğul olmuşlar. Biləcəri toponiminə gəlincə demək lazımdır ki, bəzi tədqiqatçılar bunun türk sözü olduğunu iddia edirlər. Tarixçi Əli Hüseynzadə isə "Biləcəri toponiminin etimologiyasına aid" məqaləsində isbat etməyə çalışırdı ki, bu söz xəzərlərin "Biləzzəri" sözü ilə, yaxud da qədim bolqar etnonimi ilə əlaqədardır. Bakı kəndi adlarının bir qayda olaraq, fars tərkibi əsasında düzəldiyini nəzərə alaraq, görərik ki, Biləcəri əslində iki fars sözündən düzəldilmişdir: "Bala" - hündür, yüksək, "Cər" - uçurum, çuxur sözlərindən, yəni hündür, yaxud dərin çuxur. Məlum olduğu üzrə Biləcəri dərin bir çuxurdadır. Bakıdan çıxarkən, Biləcəriyə enən eniş buna sübut ola bilər. Biləcəri vaxtilə bakılılann mal-qara saxladıqları ağıl olub.

***

**Dərnəgül** kəndi əvvəllər ağıl olub. Sözün əsli də Dərnəgül deyil, Dərinağıldır. Bu yer sonralar yaşayış məskəninə - kəndə çevrilmişdir.

***

**Qobu kəndi.** Qobu sözü yarğan deməkdir. Kənd də yarğanda salındığı üçün Qobu adlanır.

***

**Şağan kəndi.** Əsli Şağan bağdır. Belə bir adda Bibiheybət yaxınlığında bir yer vardır. Şağan sözünün əsl mənası isə indiyədək tədqiq edilməmişdir. Bu kənddə yaşayanlar Abşeron əhlindən tamamilə fərqli olaraq təmiz türk dilində danışırlar. Dillərində tatların təsiri qəti hiss olunmur. Bağçılıq və bostançılıqla məşğul olublar.

***

**Zabrat kəndi.** Bakının vaxtilə əkinçiliklə məşğul olan kəndlərindən biri də Zabrat kəndidir. Bəziləri Zabratın rus sözü olduğunu iddia edirlər. Əslində isə belə deyil. Bu Xəzərin qərb sahillərinə gəlmiş və bir müddət burada köç salmış Sabir tayfasının adı ilə bağlı sözdür. Zabrat - Sabir sözünün axırına ərəbcə "at" cəm şəkilçisini əlavə etməklə düzəldilmişdir. Sonralar S hərfi Z hərfi ilə əvəz edilmiş və sabir sözundəki İ hərfi düşərək Zabrat kimi tələffüz olunmağa başlamışdır.

Xəzər sahillərinə gəlmiş köçəri türk tayfaları bir qayda olaraq düşdükləri yerləri öz adları ilə adlandırırdılar. Xəzər dənizinin adı da hun tayfalarından olan xəzərlərin adı ilə bağlıdır. Bu tayfaların bir qolunu da zığlar təşkil edirdi. Onlar Zığ kəndi torpaqlarında yaşamış və öz adlarını da bu yerə vermişlər. Yuxarıda adını çəkdiyimiz sabirlər də hun tayfalarından çıxma idilər. Bir müddət sonra, yəni 11-ci əsrin əvvəllərindən yeni səlcuq qəbilələri Azərbaycana köçməyə başladılar. Köçüb gəlmiş axırıncı qəbilələrdən biri də əhmədlilər idi. Onlar başlıca olaraq, indiki Əhmədli, qəsəbəsinin ərazisində yerləşmişdilər. Bu yerin başqa bir adı da Küləy Mahmud və ya Qulam Mahmuddur (Mahmudun nökərləri deməkdir). O zaman Azərbaycana səpələnmiş əhmədlilərin izləri indiyədək qalmışdır. Onların adları ilə adlandırılmış Əhmədli kəndlərinə indi də rast gəlmək olar, hazırda Göyçayda, Cəbrayılda, Qubada, Lənkəran və başqa rayonlarda Əhmədli kəndləri mövcuddur.

***

**Xırdalan kəndi.** Bakı ilə Sumqayıt arasında yerləşir. Bakı kəndlərinə nisbətən daha sonralar təpələrin ətəyində salınmışdır. Qədim zamanlardan burada karvansaralar, hamam və ovdan qalıb. Əhalisi əksəriyyətlə əkinçiliklə məşğul olmuşdur. Bizim günlərdə Xırdalanın siması tamamilə dəyişmişdir. Bir rəvayətə görə Xırdalan Xırd və Alan sözlərindən əmələ gəlmişdir.

***

**Pirəkəşkül kəndi.** Kəndin Pirəkəşkül adlanması təsadüfi deyildir. Çünki bu kənddə yaşayanlar əksəriyyətlə köçərilərdir. Buna əsasən bəzi tarixçilər onu kənd hesab etmirlər. Lakin köçərilər ilin çox vaxtını burada keçirdiklərindən 1870-ci il siyahısına kənd kimi daxil edilmişdir. Bir ehtimala görə Pirəkəşkülün əsl adı Parakəşkül olmuşdur.

Bu kəndlərdən başqa Bakı ətrafında bir para kəndlər də olmuşdur ki, onların indi ancaq adları qalıb. Onlardan biri Kürkandır. Zirə kəndi yaxınlığında olub,

dənizə tərəf uzanan qayalıqların üstündə qalmış araba çarxlarının izləri bunu deməyə haqq verir. Bu çarx izləri birbaşa dənizin içərisinə tərəf, yəqin ki, Gürkana gedirmiş. Sonralar dənizin səviyyəsi qalxdığından kənd suyun altında qalmışdır.

Hazırda adı qalmış kəndlərdən biri də Şubanıdır. Vaxtı ilə Şubanı dağlarının ətəyində Suraxanadakı kimi atəşgah varmış. Adamlar da bu atəşgahın ətrafında məskən salmışdılar, Sonralar atəşgah dağıldığından adamlar da pərən-pərən düşmüş və Şubanı yaşayış məskəni kimi öz əhəmiyyətini itirmişdir.

## BAKI MİLYONÇULARI

19-cu əsrdə Bakı şəhəri öz milyonçularının sayı etibarilə Rusiyanın şəhərləri içərisində görkəmli yerlərdən birini tuturdu. Neft bu şəhəri iri sərmayədarlar yurduna çevirmişdi. Lakin Bakı milyonçuları başqa şəhərlərin milyonçularından onunla fərqlənirdilər ki, onlar bu sərmayə və sərvəti irsi olaraq, öz ata və babalarından almamışdılar. Bir qayda olaraq, əksəriyyəti fəhləlikdən, yoxsulluqdan öz zəhmətləri ilə milyonçu dərəcəsinə yüksəlmişdilər. Əvvəllər öz zəhmətləri, kamal və səyləri onları irəli aparmış, sonralar isə güclü neft fantanları onları sərvətin yüksək dərəcəsinə qaldırmışdı. Biz Bakının bu milyonçularından bir neçə nəfəri haqqında danışacağıq.

## HACI ZEYNALABDİN TAĞIYEV

"Baku" qəzeti 1912-ci il 18 mart tarixli nömrəsində yazırdı: "Tağıyev bütün Qafqaz müsəlmanlarının fəxridir. Onun adı həmişə ehtiram və məhəbbətlə çəkilir. Müsəlmanlar arasında Tağıyevdən də xeyli varlı olanlar vardır. Lakin onlar deyil, məhz Tağıyev Qafqaz müsəlmanlarının mərkəz dayağı olmuşdur. Şübhəsiz onda elə bir keyfiyyət vardır ki, xalq kütləsini öz tərəfinə çəkə bilir, öz ləyaqəti ilə zəbt edə bilir. Qoy elə bilməsinlər ki, yalnız xoşbəxtlik onu yüksəklərə qaldırmış, milyonlara çatdırmışdır. Doğrudur xoşbəxtlik və uğur da böyük işdir. Lakin uğurdan başqa ağıl da, güc də lazımdır, dəmir inadkarlıq, insan əməyi də lazımdır. Tağıyev həmişə belə olmuşdur".

Bu, Bakı varlısı, məşhur mesenat Hacı Zeynalabdin Tağıyev barəsində verilmiş ən dolğun xasiyyətnamədir. Tağıyev adi bir palçıq daşıyandan, savadsız bir bənnadan yalnız parlaq ağılı, aydın kamalı, tükənmaz energiyası nəticəsində yüksək sərvət qatlarına yüksələrək, bütün Bakı kapitalistlərini kölgədə buraxmışdı. Hacı savadsızdı, imzasını belə ata bilmirdi. İmza əvəzinə yalnız Zeynalabdin sözündəki onbir hərfə uyğun olaraq, onbir cızıq çəkərdi. Məhz belə bir adam yalnız Azərbaycanda, Rusiyada deyil, bütün Avropada iri iqtisadi və ticarət əlaqələrində mərkəzi bir simaya çevrilmişdi. Tağıyev Şərq aləminin ilk mesenatı idi. Sərvət və

sərmayədarlıq onu heç zaman doğma xalqından ayırmamışdı. Xalqı da doğma Vətəni kimi ona əzizdi. O, vaxtilə "Qolos Moskvı" qəzetinin müxbirinə verdiyi müsahibədə bu suala sanki cavab verərək demişdi: "Mən öz vətənimi buraxa bilmərəm. O vətəni ki, mən orada doğulmuşam, mən orada işləmişəm, mən orada bəqədrqüvvə dövlətə, vətənə və camaata xidmət etmişəm. Mən öz vətənimi sevirəm. Gələcəkdə keçirəcəyim imtahanlar nə qədər ağır olsa da, mən vətənimdən əl çəkmərəm. Burada mənim atamın qəbri vardır. Mənim qəbrim də burada olmalıdır" ("İqbal" №167, 21 sentyabr 1912-ci il).

Vətənə belə bağlılıq nəticəsindədir ki, bolşevik istilası zamanı başqa Bakı milyonçularından fərqli olaraq Hacı xaricə qaçmadı.

Tağıyev uşaqlığından zəhmətin ağırlığını öz çiyinlərində daşımış və buna görə də ömrünün axırınadək zəhməti həmişə yüksək qiymətləndirmişdir.

Tağıyev 1838-ci ildə Bakıda başmaqçı ailəsində anadan olmuşdur. On yaşına çatanda atasından xahiş edir ki, onu bir ustanın yanında şagird düzəltsin. Atası da onu bir bənnanın yanında palçıq daşımağa düzəldir. Zeynalabdin palçıq daşımaqla yanaşı gözlərini bənnaların əlindən çəkməzdi. Daş yonanlara da diqqətlə göz qoyardı. 12 yaşına çatanda artıq daş yonurdu. 15 yaşında ikən bənnalıq etməyə başlamışdı. Bir sözlə qazanc yollarında iri addımlarla özünə yol açırdı. Bir müddətdən sonra podratçılıqla məşğul olmağa başlayır. Zeynalabdinin bacarıq və istedadı hamını heyrətdə buraxmışdı. O, sözün əsl mənasında oxumamış mühəndis idi. Podrata götürdüyü tikintilərdə mühəndislərdən geri qalmırdı. Hətta bəzən onlara məsləhətlər də verir və kiçik binaları öz layihəsi ilə tikdirirdi.

Bu dövrlərdə Bakı əsl neft səltənətinə çevrilmişdi. Bakı ətrafındakı kəndlərdə torpaqlar Rusiyadan və xaricdən gəlmiş sərmayədarlar tərəfindən alınıb, onlarda neft buruqları ucaldılırdı. Bu Hacını da maraqlandırır və podratçılığı buraxaraq, neft işinə qurşanır. Bu işə başlarkən onun risqli olduğunu da bilirdi. Adamlar vardı ki, ətək-ətək pul töküb, quyu qazdırır, lakin quyu neft vermirdi. Hacının da qazdırdığı dörd quyudan heç biri neft verməmişdi. Mayası əlindən çıxırdı. Ancaq səbr və inam onu heç zaman tərk etməmişdi. Bilirdi ki, qazdırdığı quyular gec-tez neft verəcəkdir. Ağır borca girsə də məqsədindən dönmür, gecə-gündüz quyunun üstündən çəkilmirdi. Az qala fəhlələrlə birgə əlbir işləyirdi. Onları ruhlandırır, gec-tez quyunun fantan vuracağına onlarda da inam yaradırdı.

Nəhayət, Tağıyev istədiyinə nail olur. Quyulardan biri fantan vurur. Bundan həvəslənən Hacı Bayılda daha yeni quyular qazdırır. Bir-birinin dalınca vuran fantanlar Hacını başqa sərmayədarlarla bir səviyyəyə qaldırır. O, neft quyularından əlavə zavodlar da tikdirir, başqa sənaye müəssisələri inşa etdirirdi. Yenə də əvvəldə olduğu kimi vaxtının çox hissəsini fəhlələrin yanında keçirərdi. Onlardan iş tələb etsə də, qayğılarına da yaxından qalırdı. O zaman Hacının zavodunda işləyənlər deyirdilər: "Biz bu şəxsin səbrinə təəccüb edirik. Bilmirdik ki, Hacı 24

saatda nə vaxt dincəlir". Hacının başqa bir müəssisəsində işləyənlər də belə deyirdilər: "Hərçənd bizə rahatlıq yoxsa da bununla belə Hacının mülayimliyi və insaniyyəti bizim ona can-dillə xidmət etməyimizə səbəb olmuşdu. Bizə heç bir yaman söz deməyir, təqsirimizdən keçirdi" (N. Nərimanov, "Hacı Zeynalabdin Tağıyevin əlli illik mənşəti və camaata xidmətləri". 1900-cü il).

Hacı kapitalist olsa da, məhz bu insani keyfiyyətləri ilə başqalarından fərqlənirdi. Varlandıqca onun daxili və mənəvi keyfiyyətləri daha da durulurdu. Hər şeydən qabaq qeyd etmək lazımdır ki, Tağıyev özünü heç zaman cəmiyyətdən xaric, cəmiyyətin fövqündə hiss etməmişdi. O ətrafında baş verən hadisələrin həmişə içərisində, bəlkə də mərkəzində olmağa çalışmışdı. XX əsrin əvvəllərində Bakının tarixində elə bir hadisə olmamışdır ki, Tağıyev onda birinci şəxsiyyət kimi iştirak etməmiş olsun. Hər sahədə Tağıyevin səyi, Tağıyevin qayğısı hiss olunurdu. Maarif və mədəniyyət məsələləri onu hökümətdən daha çox narahat edirdi. Şəhərin abadlaşdırılması, onun su ilə təchiz edilməsi Tağıyevi hər zaman narahat etmiş və düşündürmüşdü. "Təzə həyat" qəzetinin 10 aprel 1907-ci il tarixli 8-ci nömrəsində Haşımbəy Vəzirov Hacının fəaliyyətindən danışaraq, yazırdı: "Hacı Zeynalabdin Tağıyevin müsəlman milləti üçün elədiyi xidmətlərini durub, burada bir-bir saymaq fikrinə düşsək, heç olmasa bir ay qəzetimizi ancaq bu təfsilatla doldursaq, yenə hamısını deyə bilmərik".

Tağıyev böyük şəxsiyyət idi, ona görə ki, onda əməyə olan düzgün münasibətlə ağıl və zəka da birləşmişdi. Şəxsi ləyaqəti ilə Hacı hamının nəzərində yüksəlmişdi.

Tağıyevin Rusiyanın hər bucağında belə tanınması onun milyonları sayəsindəmi olmuşdu? Qətiyyən yox. Təsadüfi deyil ki, Hacının haqqında rəy söyləyənlər birinci növbədə onun milyonları barədə deyil, insanpərvərlik və maarifpərvərliyi, xalqa əl tutması haqqında ağız dolusu söhbət açırdılar.

Tağıyev insan şəxsiyyətinə və insan ləyaqətinə həmişə ehtiramla yanaşmışdır. İnsan qüruru, insan mənliyi ondan ötrü nəcib bir keyfiyyətdi. "Baku" qəzeti 56 nömrəli 9 mart 1912-ci il tarixli nömrəsində öz müxbirinin Tağıyevlə müsahibəsini vermişdir. Paris şəhərindən yenicə qayıtmış Hacı müxbirə qəribə bir əhvalat danışmışdı:

- Mən bir faytonçudan danışacağam. Küçədə faytonla gedərkən qabaqda mənə sağa burulmaq lazımdı. Faytonçu isə sola burulurdu. Mən çətirin ucu ilə onun kürəyinə toxunub dedim: "Sola dön".

Nə olsa yaxşıdır. Faytonçu qəzəblənmiş halda yerə atılıb qollarını ölçə-ölçə çığırmağa başladı.

Ona nə oldu? - mən tərcüməçidən soruşdum.

O qəzəblənib. Deyir ki, nə cəsarətlə siz çətirlə onun kürəyinə toxunmuşsunuz. Bununla onu təhqir etmişsiniz,

Mən oradakı camaata təəccüb qaldım və hər şeyi başa düşdüm... Bizdə adamın lap boynuna da vursan sənə səcdə edəcək. Bizdə də belə camaat olandan sonra başqa həyat olacaq.

Müxbir sonra əlavə edərək yazırdı:

- Mən ömründə bircə kitab da oxumayan, güc-bəla rusca danışan dünənki fəhləyə, cizgilərlə imza edən bu qocaya heyrətlə baxdım.

Tağıyev Azərbaycan burjuaziyasını təmsil etsə də, cəmiyyətdə tutduğu mövqeyi, ölkənin ictimai-iqtisadi və mədəni-maarif sahəsindəki misilsiz xidmətləri ilə başqa kapitalist və milyonçulardan fərqlənirdi. Onu fəaliyyətində elə hallar olmuşdur ki, xalqın ehtiyacını öz şəxsi mənafe və qazancından qat-qat yüksək tutmuşdu. Məsələn, 1896-cı ildə Hacı Bayıldakı 20 milyon dəyərində olan zavod və mədənlərini beş milyon yarım zərərinə satıb, bez fabriki tikdirmək qərarına gəlmişdi. Hacının bu hərəkətləri Bakı varlılarının və hətta ən yaxın dostlarının rişxəndli atmacalarına səbəb olmuşdu. Bundan Hacının məqsədi nə idi? O belə düşünürdü ki, zavod və mədənlərində cəmi yüz nəfər adam özünə çörək pulu çıxarırsa, bez fabrikində minlərcə adamın əli çörəyə çatacaqdır.

Bununla belə Tağıyevin hər bir təşəbbüsü həmişə asanlıqla yerinə yetirilmirdi. Onun düşmənləri olan əcnəbi və erməni kapitalistləri, yerli çar çinovnikləri Hacının hər bir təşəbbüsündə elə bil qorxuya düşüb, hər vasitə ilə ona pəl vurmağa çalışırdılar. Bez fabrikinin tikilişi də başqaları tərəfindən narazılıqla qarşılandı və ona yer-yerindən maniələr törədildi. Bu milli burjuaziyanın dirçəlməsinin qarşısını almaq üçün görülmüş tədbirlərdən biri idi. Tağıyev fabrik üçün Xəzərin şimal-qərb hissəsində yer seçdi və Əhmədli, Zığ kəndləri icmalarından torpaq icarə etməyə başladı. Lakin torpaqlar Hacıdan qabaq ayrı-ayrı adamlar tərəfindən icarəyə götürüldüyündən o torpağı ikinci və üçüncü adamdan icarəyə götürməyə məcbur oldu. Həmin bu yerlərdə Hacıdan qabaq Nobel, Şibayev, Mantaşev və başqaları da torpaq sahələri icarəyə götürmüşdülər. Hacının qarşısına çıxan bir çətinlik də ondan ibarət idi ki, kəndlilərin öz torpaqlarını ancaq 30 illiyə icarəyə verməyə ixtiyarları vardı. Bu müddət isə iri sənaye müəssisəsi üçün çox az müddət idi. Buna baxmayaraq, Hacı müqavilələri şəhər idarəsinə təqdim edir, onların 99 illiyə vahid bir müqavilə ilə əvəz edilməsi barədə Ziraət nazirliyi qarşısında təşəbbüsdə olmasını xahiş edir. Hacı əleyhinə qızışdırılan kompaniya nəticəsində ərizə yarım il hərəkətsiz qalır.

Tağıyev şəxsən Ziraət nazirliyinə müraciət edir. Nazirlik fabrikin tikilməsinə icazə verir. 1900-cü ildə fabrik hazır olub işə başlayır.

Fabrik nəhəng bir tikili idi. Dənizdə 150 sajın uzunluğunda körpü salınmış və bu körpünün üstü ilə dəmir yolu və su kəməri keçirdi. Əsas korpusun uzunluğu 100 sajına yaxındı.

Bundan əlavə fəhlə və qulluqçular üçün şəhərcik də salınmışdı. Fəhlələr üçün 9 korpus tikilmişdi ki, burada da 2.200 nəfər yerləşə bilirdi. Bundan başqa fəhlə uşaqları üçün məktəb binası da tikilmişdi. İlk zamanlar fabrikdə 969 nəfər fəhlə işləyirdi ki, bunların da 10 faizi azərbaycanlılar idi. Fabrikdə fəhlənin orta əmək haqqı 154 manat 80 qəpik idi.

Fabrik hazır olandan sonra respublikanın bir sıra maqnatları narahat olmağa başladılar. Morozov və başqa fabrikantlar qorxuya düşdülər. Rus və dünya bazarlarına təzə rəqib çıxacağı fikri onları məcbur etdi ki, bu işə Peterburqun yüksək inzibati başçılarını cəlb etsinlər və onların vasitəsilə Tağıyevin qarşısına sədd çəkilsin. Onlar öz istəklərinə nail ola bildilər. Peterburq Tağıyevə ancaq bez buraxmağa icazə vermişdi. Nə bu, nə də ilk illərdə fabrikin zərərlə işləməsi Tağıyevi ruhdan salmadı. Bütün Şərq ölkələri, xüsusilə öz ölülərini dəfn etmək üçün ancaq Tağıyevin bezini alırdılar.

Zaqafqaziyada ilk toxuculuq fabriki olan bu müəssisədə bezin pudu 24 manat 63 qəpiyə başa gəlirsə də, Hacı onu ancaq camaatın xeyrinə olaraq, 18 manat 70 qəpiyə satdırırdı.

Toxuculuq fabrikinin tikilməsilə Tağıyev Azərbaycan yüngül sənayesinin fundamentini qoydu. Ölkənin iqtisadiyyatını yüksəltmək məqsədilə Tağıyev xalq təsərrüfatının bütün sahələrində böyük kapital qoydu. O, öz pullarını başqa kapitalistlər kimi banklarda saxlamırdı. İri ticarət mərkəzlərinin, un dəyirmanlarının, balıq vətəgələrinin yaradılmasında Tağıyevin kapitalı böyük rol oynayırdı. O hətta Rusiyanın başqa şəhərlərində də kontorlar açmış, mal mübadiləsinin genişlənməsinə böyük təkan vermişdi.

Bir faktı xüsusilə qeyd etmək lazımdır. Ona görə ki, həmin fakt Hacının bədxahları tərəfindən başqa cür yozulurdu. Bu 1909-cu ildə Bakı şəhərində Hacı tərəfindən qazamatın tikilməsi idi. Hacının əleyhdarları çığır-bağır salmışdılar ki, guya o qazamat tikdirməklə, xalqın oğullarının qazamat küncündə çürüməsində çarizmə xidmət etmişdir. Guya Tağıyev bununla şəhərdə qazamatın sayını artırmışdır. Əslində isə məsələ başqa cür idi. Qazamat tikdirmək Hacının heç fikrindən də keçməmişdi. O dəyirman tikdirmişdi. Binanın hazır olduğu ərəfədə Bakı əhlindən bir dəstə Hacının yanına gələrək gileylənirlər ki, onların həbs edilmiş adamlarını polis idarəsi dənizin ortasında, Nargin adasında saxlayır. Onlar üçün Narginə gedib-gəlmək çətindir, məhbuslara yemək apara bilmirlər. Bunu deyərkən Hacıdan kömək istəyirlər. Onların yanıqlı şikayətlərini dinləyən Hacı, bu ağır vəziyyəti aradan qaldırmaq üçün indi də "Tağıyevin qazamatı" adı ilə tanınmış bu binanın, yəni dəyirmanın içərisində dəyişiklik apararaq, onu 1910-cu ilin fevralında qazamat kimi hökümətə icarəyə verir, bununla da şəhər əhlini Narginə gedib-gəlmək əziyyətindən xilas edir.

Bakı şəhər təsərrüfatının inkişafında Tağıyevin xidmətləri xüsusilə böyükdür. Bakının həyatında elə bir hadisə yoxdur ki, Tağıyevin adı ilə bağlı olmasın. Kür suyunun Bakıya daşınması, şəhərdə atlı nəqliyyat vasitəsinin (konka) yaranması, ilk teatr binasının tikilməsi, qız məktəbinin yaranması və sairə Tağıyevin pulu və ya yaxından köməyi ilə edilmişdir. Camaatın xeyrinə olan tədbirlərdən Tağıyev yaxasını heç zaman kənara çəkməmişdi. Şəhərin və camaatın ehtiyacını təmin etmək məqsədilə o bəzən rəsmi hökümət orqanlarının və dumanın qərarını gözləmədən şəxsən özü işə girişirdi. Belə tədbirlərdən biri şəhərin su ilə təchiz edilməsi məsələsi idi. Əhalinin bu böyük ehtiyacına Şəhər Bələdiyyə idarəsinin etinasız yanaşdığını gördükdə yaxından işə girişir. Öyrənir ki, Rusiyada su kəməri çəkilişi uzrə D. İ. Şipov adlı bir mütəxəssis yaşayır. Tağıyev teleqram vuraraq onu Bakıya dəvət edir. 1904-cü il 24 fevralda D. İ. Şipov və Londondan bu məsələ ilə əlaqədar dəvət edilmiş mühəndis Lindleylə birlikdə Bakı-Şollar su kəmərinin çəkilişi barədə danışıqlar başlayır və Tağıyev şəxsən bu danışıq. larda yaxından iştirak edir. Bakı-Şollar su kəmərinin çəkilişi məlum olduğu kimi ingilis-amerikan firmasına tapşırılmışdı.

Hələ 1901-ci ildə Lindley Şah dağının ətəyində güclü su mənbəyi tapmış və oradan su çəkilməsi proyektinin təsdiq olunmaq üçün dumaya təqdim etmişdi. Lakin duma qlasnılarının əksəriyyəti Şah dağının ətəyindəki mənbədə kifayət qədər su olmasına şübhələnərək, layihəni rədd etmişdilər. Amma Hacının təkidi və köməyi ilə 1904-cü ildə ingilis-amerikan firması kəmərin çəkilişinə başlayır. Bakı-Şollar su kəməri 1916-cı ildə işə düşür.

Hacı Zeynalabdin Tağıyev bütün Rusiyada birinci növbədə öz mesenatlığı və maarifpərvərliyi ilə tanınmışdır. Onun maarifpərvər xidmətləri əsasən XX əsrin əvvəllərindən başlayır. Bu da təsadüfi deyildi. 1905-ci il inqilabından sonra hökümətin Oktyabr bəyannaməsi ölkədə mədəni-maarif işlərinin canlanmasına səbəb oldu. Ölkənin hər yerində xeyriyyə məqsədi ilə bir sıra cəmiyyətlər yarandı, qəzet və jurnallar çap edilməyə başladı. Bu cəmiyyətlərin yaradılması, qəzet və jurnalların çap edilməsi birinci növbədə Tağıyevin adı ilə bağlıdır. Bu işdə Tağıyev bir növ təşkilatçı rolunu oynayırdı. Xeyriyyə məqsədilə yaradılan cəmiyyətlər ya Tağıyevin şəxsi iştirakı və vəsaiti ilə, ya da onun yaxından köməyi ilə yaradılmışdı. İlk xeyriyyə cəmiyyəti 1905-ci ildə yaranmış "Müsəlman xeyriyyə cəmiyyəti" idi. Bundan başqa "Nəşr və maarif", "Nicat" cəmiyyətlərinin yaranmasında da Hacının yaxından köməyi olmuşdur.

Tağıyev xalqın məişətdə və mədəniyyətdə geri qalmasının əsas səbəbini savadsızlıq və elmsizlikdə görürdü. Bir kapitalist kimi hələ öz fəaliyyətinin başlanğıcında yetim uşaqları oxutdurub, ərsəyə gətirmək üçün 38.848 manat pul xərcləmişdi. Yoxsul uşaqların savadlanmasına orta hesabla ildə 3.000 manat sərf edirdi. Yetim və yoxsul uşaqlara kömək məqsədilə 4 məktəbə hami-müdir olub.

Həmin məktəblərə ildə iki min vəsait ayırırdı. 1894-cü ildə Mərdəkan və ətraf kəndlərin uşaqları üçün kənd təsərrüfat meylli məktəb tikdirərək, onun inşasına 31.440 manat vəsait qoymuşdu. Bundan başqa ildə həmin məktəbin 5 min manatlıq məsarifini də ödəyirdi.

1901-ci ildə 300 min manatlıq vəsait sərf edərək, Bakıda ilk qız məktəbi tikdirir. Bu bütün Zaqafqaziyada yeganə qız məktəbi idi. Burada qızlardan 20 nəfəri Hacının hesabına pulsuz təhsil alırdı. Lakin ərizə verənlər çox olduğu üçün Tağıyev əlavə olaraq, 3 nəfər qızı da binanın zirzəmilərindən gələn gəliri hesabına məktəbə qəbul etdirir.

Qız məktəbi hazır olandan sonra mövhumatçı Bakı varlıları öz qızlarını məktəbə göndərməkdən imtina etdilər. Guya qızın təhsil alması İslamiyyətdə günah hesab olunur. Fanatizm nümayəndələri ilə üz-üzə gələn Tağıyev Nəcəf müctəidlərinə məktub göndərərək, qızların məktəbdə təhsil almalarına İslamın icazə verib-vermədiyini öyrənmək istəyir. Nəcəf müctəidlərindən müsbət cavab gələndən sonra fanatiklər öz qızlarını məktəbə buraxırlar.

Bir müddət sonra Tağıyev yazırdı: "İyirmi il bundan əqdəm gecə və gündüz qapı-qapı gəzib, bu zəlalətdə qalan müsəlmanlardan xahiş edirdim ki, onlar mənim pulumla evladlarını oxutsunlar. Amma əfsus ki, heç biri razı olmurdu. Mən də güc və üzə vurmaqla bir neçə həmşəhərlimi məktəbə gətirib, oxumağa vadar elədim. İndiki halda isə evimdə rahatlıq ilə çörək yeməyə macal verilmədiyinə, hər yerdən, hər şəhərdən və hər kənddən hər gün neçə müsəlman uşağı gəlib, göz yaşı ilə elm arzu eləməyinə artıq dərəcədə xoşlanıram".

Bakıdan başqa nəinki Azərbaycanın qəza və kəndlərində - Şamaxı, Naxçıvan, Şəki, Quba, Salyanda, habelə Rusiyanın şəhərlərində də, məsələn, Həştərxan, Tiflis, Vladiqafqaz, Dərbənd və Peterburqda da Hacı bir çox mədəniyyət ocaqları tikdirmişdir. Təkcə 1896-cı ildə Peterburqda "Müsəlman xeyriyyə" cəmiyyəti binasının tikilişi üçün on bir min manat pul göndərmişdi.

Ölkədə orta texniki ziyalıların yetişməsi məsələsinə isə Tağıyev xüsusi bir qayğı ilə yanaşırdı. Bakıda ilk texniki məktəbin əsası onun tərəfindən qoyulmuş və onun sonrakı inkişafı, yəni onun orta məktəbə çevrilməsi üçün də Tağıyev öz köməyini yenə əsirgəməmişdi.

Tağıyev başa düşürdu ki, texniki biliklər rəvac tapmadan ölkədə texniki tərəqqini təmin etmək mümkün deyil. Bu məqsədlə ali təhsilli texniki kadrlar hazırlamaqdan ötrü Hacı öz vəsaiti hesabına azərbaycanlı cavanları Rusiyanın və xarici ölkələrin ayrı-ayrı şəhərlərində ali texniki və humanitar biliklər almağa göndərirdi. Bu gənclər sırasında N.Nərimanov, M.Əzizbəyov, Mehmandarov, F.Rüstəmbəyov və başqaları da vardı.

Azərbaycanda mətbuatın yayılması və tərəqqi etməsini də Tağıyevin adı ilə bağlasaq səhv etmərik. O, XX əsrin əvvəllərində "Kaspi" qəzetini mətbəəsi ilə

birlikdə alaraq qəzeti öz hesabına çap etdirməyə başlayır. Habelə onun vəsaitilə 1905-ci il iyunun 7-dən Əlibəy Hüseynzadə və Əhmədbəy Ağayevin redaktorluğu altında "Həyat" qəzeti, 1906-cı il noyabrın 1-dən Əlibəy Hüseynzadənin redaktorluğu ilə "Füyuzat" jurnalı çap edilirdi. Bunlarla yanaşı olaraq, o Azərbaycan yazıçılarından Seyid Əzim Şirvani, Nəriman Nərimanov, S. M. Qənizadə və onlarla başqalarının kitablarını çap etdirmişdi.

Tağıyev dini fanatizmin düşməni olmuşdur. Fırıldaqçı din xadimləri ilə qətiyyən əlaqə saxlamazdı. Bununla belə böyük din xadimlərinin, üləmaların, açıqgöz ruhanilərin hörmətini həmişə saxlardı. Dövrünün qabaqcıl maarifpərvər ruhaniləri olan Mir Məmməd Kərim Mircəfərzadə, Mirzə Axund Əbu Turab, Axund Molla Ruhulla ilə həmişə məsləhətləşərdi. Hacının pulu ilə Quranın azərbaycancaya tərcüməsində bu üç nəfərin böyük xidməti olub. Tərcüməçi rəsmən Axund Mirməmməd Kərim olsa da, Axund Əbu Turab və Axund Ruhulla öz məsləhətləri ilə ona yaxından kömək etmişdilər. Bu üç nəfər ruhani dövrünün ən hörmətli üləmalarından idilər. Hətta Tağıyev ölərkən vəsiyyət etmişdi ki, onu Axund Əbu Turabın ayağı altında basdırsınlar: "Çünki onun ayağının bildiyini mənim başım da bilmir" demişdi. Elə də dəfn olundu. Mərdəkanda Pirhəsən deyilən yerdə Bakı milyonçusu Muxtarovun tikdirdiyi əzəmətli günbəz altında dəfn olunmuş Axund Əbu Turabın ayağı altında basdırıldı.

Köhnə bakılılardan çoxu musiqili komediya teatrının binasını indiyədək Tağıyev teatrı adlandırırlar. Bu sözlərdə böyük həqiqət vardır. Teatrın binası 1883-cü ildə doğrudan da Tağıyev tərəfindən qoyulmuşdur. Mədəni xalqlarda teatr sənətinin böyük idrakı və tərbiyəvi əhəmiyyətini dərk edən Tağıyev xalqının mənafeyinə olaraq, belə bir addım atmışdı. Bu binada əvvəllər Rusiyanın hər tərəfindən gəlmiş aktyor dəstələri çıxış edirdilər. Yerli aktyor dəstələri yaradıldıqdan sonra Hacı binanı onlara teatr tamaşaları göstərmək üçün bəzi hallarda pulsuz da verirdi. 1900-cü ildə baş vermiş yanğından sonra bina təmir edilərək, daha da gözəlləşmişdi.

Teatr binası xalqımıza böyük bir hədiyyə idi. 1918-ci ildə teatrın binasında ikinci dəfə yanğın baş verir. Yalnız Sovet hakimiyyəti yaradıldıqdan sonra 1922-ci ildə təmir edilərək, işə başlamış və ona Dadaş Bünyadzadənin adı verilmişdi. Bu illərdə Mərdəkandakı bağında yaşayan Tağıyev də teatrın yeni açılışına dəvət olunur. Hacı özü bu barədə belə yazırdı: "Bünyadzadə yoldaş adına müsəlman teatrının açılışı münasibətilə xalqın mədəniyyəti yolunda görülən bu işdə mənim bir pioner kimi xidmətlərimi qiymətləndirən hökümətimizin bu qoca yaşımda mənə iltifatından mütəəssirəm".

Hacı Zeynalabdin iki dəfə evlənmişdir. Birinci arvadı öz əmisi qızı Zeynəb xanım idi. Zeynəb xanımdan onun iki oğlu, bir qızı olmuşdu. Oğlanları: İsmayıl, Sadıq və qızı Xanım. İkinci arvadı məşhur general-leytenant Balakişi Ərəblinskinin

qızı Sona xanım idi. Ərəblinski əslən Zaqatalanın Tala kəndindəndir. Ərəblər məhəlləsindən. 50 illik hərbi xidməti müddətində rus ordusunun bütün yürüş və vuruşmalarında iştirak etmişdi. General-mayor İsmayıl bəy Qutqaşınlı və general-mayor Cəfərqulu ağa Bakıxanovla yaxın dost və döyüş yoldaşı olmuşdu. 1898-ci ildə istefaya çıxaraq, Dərbəndə gəlmiş və imperator tərəfindən ona bağışlanmış torpaqda ömrünün axırınadək yaşamışdır. Dərbənd yaxınlığındakı kənd və stansiya indiyədək onun adı ilə adlandırılır.

Sona xanımdan Tağıyevin üç qızı və iki oğlu olmuşdur. Qızları: Leyla (sonralar Şəmsi Əsədullayevin oğluna ərə getmişdi), Sara və Sürəyya. Oğlanları Məhəmməd və İlyas. Məhəmməd "Dikaya diviziya"nın zabiti olarkən özünü öldürmüş, İlyas isə xəstəliyə tutularaq ölmüşdür. Qızı Sara isə bu yaxınlarda vəfat etmişdir.

Ərəblinskinin iki qızından böyüyü Hacının oğlu Sadığın arvadı idi. Hacı oğlugildə olarkən, kiçik bacı Sonanı görüb, bəyənmiş və onunla evlənmişdi.

Tağıyev Sovet hökümətinin ona ömrünün axırınadək təhkim etdiyi Mərdəkandakı bağında 1924-cü il sentyabrın 1-də, axşam səkkizin yarısında, 86 yaşında vəfat etmiş və sentyabrın 4-də dəfn edilmişdir.

## ŞƏMSİ ƏSƏDULLAYEV

Bakıda neft sənayesinin görkəmli nümayəndələrindən olub. Onun adı həmişə Nobel qardaşlarının adı ilə qoşa çəkilirdi. Neftin Rusiyaya daşınmasında buxar gəmisindən birinci istifadə edən neftxüdadır.

Şəmsi Əsədullayev də bir çox Bakı milyonçuları kimi yoxsul ailədən çıxmışdır. Nəslən bakılıdır. 1840-cı ildə Bakının Əmirhacıyan kəndində anadan olmuşdur. Cavanlıqda kənddə atasının əkin-biçininə kömək edir, araba ilə biçilmiş taxılı daşıyır, xırman salır, bir sözlə, hər şeydə atasına kömək edirdi. Bu illərdə əmirhacıyanlıların əsas taxıl yerləri Suraxana torpaqlarında idi. 19-cu əsrin əvvəllərində neft sənayesinin inkişafı ilə əlaqədar olaraq, bu torpaq sahələrinin mühüm bir hissəsi Suraxanada neft çıxarılması və kerosin emalı ilə məşğul olan rus tacirlərindən Kokorev və Qubonin tərəfindən ucuz qiymətə alınmışdı. Onlar Suraxanada Atəşgahın yanında kerosin emal edən bir zavod tikdirmişdilər. Əvvəllər kerosini qırdan alırdılar. Sonralar quyular qazılmağa başladı. Tezliklə Suraxana ağ neftinin şöhrəti bütün Rusiyaya yayıldı. Torpaqsız qalan Suraxana və Əmirhacıyan kəndliləri neft mədənlərində işləməyə məcbur oldular. Bəzisi zavodda fəhlə işləyir, bəzisi də arabalarla quyulardan zavoda neft daşıyırdılar. Şəmsi Əsədullayev də əkinçiliyi buraxaraq, neft işinə qurşanır. O, öz bacarığı sayəsində qısa müddətdə, yəni 1860-cı ildə Kokorevin yanında işlər müdiri (prikazşik) vəzifəsinə yüksələ bilir. Bir müddətdən sonra o neft və duz podratçılığı

ilə məşğul olur. 15 il müddətində o xeyli qazanc əldə etdikdən sonra podratçılığı buraxaraq, kerosin zavodu açır. Rusiyanın bazarları ilə əlaqə saxlayaraq, onlara kerosin satmağa başlayır. Neftin Rusiyaya daşınması onu daha çox düşündürürdü. 1890-cı illərdə neft işi ilə məşğul olan bir neçə nəfər ilə birlikdə şirkət təşkil edir. Əldə edilən neftin Rusiya bazarlarına çıxarılması onu daha çox düşündürürdü. Nəhayət, 1891-ci ildə neftin Xəzər vasitəsi ilə daşınması sahəsində Bakı neft kapitalistləri içərisində ilk dəfə olaraq, buxar şxunu (iki və üç dorlu yelkənli gəmi) sifariş verir. Neftin çıxarılması və emalı sahəsində də o Nobel qardaşları ilə ayaqlaşmağa çalışırdı. Volqada noviqasiya bağlananda xırda neft sahibkarlarından ucuz qiymətə neft alaraq anbarlara doldurur və noviqasiya açılan kimi onu baha qiymətə Rusiyanın şəhərlərində satdırırdı. Bu məqsədlə o çoxlu neft anbarları tikdirmişdi. Bundan əlavə Volqa boyu şəhərlərində də anbarları vardı. Bir çox şəhərlərdə onun anbarları Nobel qardaşlarının anbarları ilə yanaşı dururdu.

1895-ci ildə təzə aldığı torpaq sahələrindən birində böyük fantan vurur. Fantan 56 gün davam edir. Fantan hər gün 1 milyon altı yuz min pud neft verirdi. Bu Bakı neft sənayesi tarixində ən məşhur fantanlardan biri idi.

Əsədullayevin neft hasilatı artdıqca onun Volqa boyu şəhərlərində, Moskvada, Polşada, habelə Orta Asiyada, İranda neft anbarlarının sayı artırdı. Orta Asiya və İranda neft anbarlarının sayı 36-ya yaxın idi.

Şəmsi Əsədullayev ikinci dəfə Mariya Petrovna adlı bir rus qadınına evlənəndə arvadı Ümsəlmə, oğlanları Mirzə, Əli və qızları Sara, Xədicə və Ağabacı ilə onun arasında narazılıq baş verir və Şəmsi 1903-cü ildə Moskvaya köçməyə məcbur olur. Peterburqda və Moskvada bir neçə yerdə mülklər tikdirir, Xeyriyyə işləri ilə məşğul olur. Yoxsul uşaqlar üçün məktəb açdırır. Hazırda Moskvada Kiçik Tatar döngəsində olan 8 nömrəli evi də Əsədullayev tikdirib, o zaman təzə yaradılmış olan Tatar Mədəniyyət cəmiyyətinə bağışlamışdı. Vaxtilə bu binada tatar məktəbi, tatar kitabxanası, konsert salonu və yetimlər üçün uşaq evi olub.

Əsədullayev, demək olar ki, bütün qış aylarını Moskvada və Peterburqda keçirirdi. Bakıda onun neft işləri ilə böyük oğlu Mirzə Əsədullayev məşğul olurdu. Volqada noviqasiya açılan kimi Bakıya gələr və neçə ay müddətində anbarlarda toplanmış nefti Rusiyaya öz müştərilərinə göndərməyə başlardı.

Bakıda olan ailəsi onun Tolstoy və Qoqol küçələrinin tinində tikdirdiyi əzəmətli binada yaşayırdı. Şəmsi Mariya Petrovna ilə 20 il ömür sürür. Mariya xeyriyyə işlərində əri ilə birlikdə inam və energiya ilə işləyirdi. O, bu 20 il içərisində şəxsən özü 20 milyon pul toplamışdı. Mariya Petrovna əri Şəmsi ilə birlikdə xarici ölkələrdə olmuş və Avropanın məşhur kurort şəhərlərində dincəlmişdilər. Şəmsi 1913-cü ildə Romanovlar xanədanının 300 illiyi ilə əlaqədar Tiflis Müəllimlər İnstitutunda öz adına iki təqaüd təyin etdirir.

Əsədullayev 1913-cü il 21 apreldə Yaltada günvurmadan 72 yaşında vəfat etmişdir. Onun meyiti Bakıya gətirilərək dəfn edilmişdir.

Əsədullayevin böyük oğlu Mirzə Musa Nağıyevin qızına, kiçik oğlu Əli isə H. Z. Tağıyevin Leyla qızına evlənmişdilər. Qızı Sara atasının işlər müdiri Zal Həsənovun arvadı olub.

Bu yaxın zamanda Paris şəhərində vəfat etmiş azərbaycanlı yazıçı Ümmülbənin Mirzə Əsədullayevin qızıdır. Əsərlərini fransız dilində yazırdı. O iki milyonçu babanın - Şəmsi Əsədullayevlə Musa Nağıyevin nəvəsidir.

Şəmsi Əsədullayevin Mərdəkanda əzəmətli bir bağı vardı. Bu bağ özünün çox böyük sahəsi və əzəmətli arka qapısı ilə fərqlənirdi. Bağ 19-cu əsrin axırlarında salınmışdı.

Sovet hökuməti bu bağı müsadirə edib, sanatoriyaya çevirmişdi.

## AĞABALA QULİYEV

Ağabala Hacıqulu oğlu Quliyev Bakının Keşlə kəndindəndir. 1862-ci ildə burada anadan olmuşdur. Atası yoxsul bir tənəkçi olub. Tənəkədən müxtəlif ev əşyaları düzəldir və qazandığı pulla ailəsini çətinliklə dolandırırdı. Yaxın kəndlərdə aftava ustası kimi tanınırmış. Üç oğlu varmış: Ağabala, Sadıq və Baba. Arvadı öz xalası qızı Mələknisa evdə qutab bişirər və böyük övladı Ağabala ilə küçələrdə və bazarda satdırardı.

Bir müddətdən sonra Hacıqulu Keşlədən Bakı şəhərinə köçür. Ehtiyac içərisində yaşayan ata böyük övladı Ağabalanı erməni Tatausovun buxar dəyirmanında işə, fəhləliyə düzəldir. Uşaqlıqdan çox fərasətli olan Ağabala burada işlədiyi müddətdə də dəyirmanın hər işi ilə maraqlanırmış. Buğda kisələrinin dəyirmana daşınmasından tutaraq, buğdanın üyüdülməsinədək dəyirmanda bir iş qalmadı ki, onunla maraqlanmamış olsun. Hər şeyi diqqətlə izləyir, bilmədiklərini yaşlı fəhlə yoldaşlarından öyrənirdi. O öz işində də çox səliqəli idi. Kontor müdiri Ağabalanın işindən o qədər razı idi ki, elə bir gün olmazdı ki, onu dəyirman sahibinə tərifləməmiş olsun. Belə səyi və çalışqanlığı nəticəsində idi ki, Ağabala çox keçmədən birdən-birə sex müdiri təyin olunur.

O dəyirmanın həyatında öz qənaətcilliyi ilə tanındığı kimi şəxsi həyatında da qənaətçillik onun üçün həyati bir zərurət olmuşdu. Dəyirmanda hələ fəhlə işlədiyi günlərdən qazandığının yarısını atasına verir, qalanını yığıb saxlardı. Onu da deyək ki, fəhlə işlərkən kiçik bir ehtiyatsızlığı üzündən sağ əlinin bir neçə barmağını itirmişdi.

Ağabala sex müdiri işlədiyi müddətdə xeyli sərmayə toplamışdı. Heç zaman israfçılığa uymazdı. Qəpiyin qiymətini bilirdi. Nəhayət, varlanandan sonra dəyirmanı pulla dəyirman sahibindən aldıqda hamı təəccüb qalmışdı ki, bu qədər

pul Ağabala üçün hardandır. Dəyirmanın işini yenidən qurmaq üçün o xüsusi plan hazırlamışdı. Köhnə avadanlığı yenisi ilə əvəz etdikdən sonra dəyirmanın istehsal qüvvəsi xeyli artdı. Əgər aldığı dəriyman vaxtı ilə onunla bir küçədə olan Malakan varlısı Skobelevin dəyirmanı ilə (indiki Xaqani küçəsində) rəqabətdə geri qalırdısa, indi avadanlığın sazlığı və buraxılan məhsulun keyfiyyəti ilə nəinki Skobelevin, hətta Sadıxov qardaşlarının, H. Z. Tağıyevin, Kretingen və Qlaz qardaşlarının dəyirmanlarını da geridə buraxmışdı. Bir müddətdən sonra onun fəaliyyəti daha da genişlənir. O Şimali Qafqazda da un, düyü təmizləyən, kraxmal dəyirmanları tikdirib işə salır. Vladiqafqazda, Stavropolda, Samarada, Qroznıda, Beslanda, Keorkiyevskdə tikdirdiyi dəyirmanlar ona bütün Rusiyada şöhrət qazandırdı. Camaat içərisində o, dəyirmanlar kralı kimi ad çıxarmışdı. İstehsal həcmi etibarilə Skobelevdən savayı heç kəs onunla rəqabət apara bilmirdi.

Ağabala Quliyev artıq Rusiyada dəyirman işinin ən böyük bələdçisi kimi tanınmışdı. Şimali Qafqaz xalqları arasında böyük hörməti vardı. Hətta bu yaxınlaradək Keorgiyevskdə onun adına küçə var idi. Dəyirmanların bir gün də dayanmaması üçün əvvəlcədən taxıl ehtiyatı görüb, anbarlara vurdurardı. Qabağı görən adamdı. 1916-cı ildə Bakıda baş vermiş aclıq zamanı onun bu işi özünü doğrultdu, həmin ildə Şimali Qafqaz yolunun bağlanması nəticəsində Bakı dəyirmanları böyük çətinliklə üzləşdilər.Taxılın daşınmaması nəticəsində bir neçə dəyirman öz işini saxladı. Bu, Ağabala Quliyevin dəyirmanına isə bir o qədər təsir etməmişdi. O biri tərəfdən taxılın dəniz vasitəsilə daşınmasına da nail olmuşdu. O Rusiyanın taxıl istehsal edən rayonları ilə daima əlaqədə idi.

1916-cı ilin fevral ayının 15-də Bakıda qadınların qiyamı oldu. Çörəyin çatışmamazlığı üzündən qadınlar zəngin mağazalara, ərzaq anbarlarına və dəyirmanlara hücum çəkərək, qapıları sındırır, şüşələri qırır və əllərinə keçənləri evlərinə daşıyırdılar. Polis də onların öhdəsindən gələ bilmirdi. Bu hadisə Bakının tarixində "Babıy bunt" kimi tanınır. Bazarlar tamamilə talan edilmişdi. Dəyirmanlara da, o cümlədən A. B. Quliyevin dəyirmanına da az ziyan dəyməmişdi. Yalnız qiyamın ikinci günü polis qiyamı yatırda bildi.

Doğrudur, A. B. Quliyev şəhərdə uca binalar ucaltmağı o qədər sevmirdi. Lakin Bakının Poluxin küçəsində tikdirdiyi yaşayış binası şəhərin ən əzəmətli binalarından biri hesab olunurdu. Bu bina hazırda da şəhərə xüsusi gözəllik verir. Necə deyərlər, az olsun, yaxşı olsun. O bu binaya istər xaricdən və istərsə də içəridən arxitektura elementləri ilə elə bəzəklər vurdurmuşdu ki, ondan göz ayırmaq mümkün deyil. Binanın layihəsini o zaman şəhərdə bir çox əzəmətli binaların layihəsini vermiş memar E. Y. Skibinski vermişdi. Binanın içərisini, otaqları bəzəmək üçün rəssam Malov dəvət olunmuşdu. Malovun otaqlardakı yağlı boya ilə çəkdiyi şəkillər içəri girəni heyran qoyurdu.

Ağabalanın üç qız övladı və bir oğlu olmuşdur. Oğlu Ağa İsmayıl, qızları: Rübabə xanım, Səriyyə xanım və Sara xanım, dördü də həmin bu binada boya-başa çatmışdılar.

Ağabala dəyirmanlar kralı kimi tanınmaqdan savayı həm də ictimai xadim olmuşdur. O zamankı Bakının həyatında elə bir hadisə olmazdı ki, Ağabala Quliyev onda öz maddi və mənəvi köməyi ilə iştirak etməmiş olsun. Ölkənin dövlət quruculuğunda, ictimai və mədəni tədbirlərdə, xalq təsərrüfatının sair sahələrində onun xidmətlərini qeyd etməmək insafsızlıq olardı.

Məlumdur ki, 1878-ci ildə Bakıda ilk dəfə olaraq, şəhər dumasına seçkilər keçirilmişdi. Bütün Rusiyada dumaların və bələdiyyə idarəsinin yaradılması barədə hələ 1870-ci ildə imperatorun fərmanı olmuşdur. O zamandan da Rusiyanın iri şəhərlərində dumalar yaradılıb fəaliyyətə başlamışdılar. Bakıda isə bu fərman səkkiz il sonra həyata keçirilməyə başlamışdı. Belə ləngiməni o zamankı şovinist rus dairələri onunla izah edirdilər ki, guya azərbaycanlılar özlərini idarə etmək üçün hələ yetişməmişlər. Fərmanda göstərilirdi ki, başqa şəhərlərdə xristian olmayanlar əksəriyyət təşkil etdikdə dumaya həm xristianlardan və həm də yerli qeyri xristian millətlərdən bərabər miqdarda qlasnı nümayəndə seçilməlidir. Buna görə də Bakıda da dumaya ümumi sayın yarısı qədər, yəni 36 nəfər qlasnı seçilmişdi. Seçilənlər içərisində H. Z. Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev, Əjdər bəy Aşurbəyov, İsa bəy Hacınski ilə yanaşı Ağabala Quliyev də vardı. Dumanın iclaslarında Quliyev heç zaman passiv mövqe tutmazdı. Müzakirə olunan, xüsusilə ərzaqla əlaqədar məsələlərdə həmişə xalqın mənafeyi baxımından çıxış edərdi.

A. B. Quliyev həm də böyük xeyriyyəçi idi. 1905-ci ildə təşkil olunmuş Müsəlman xeyriyyə cəmiyyətinin ilk müəssislərindən biri olmuşdur.

Birinci Cahan müharibəsi başlanandan sonra Bakı Müsəlman xeyriyyə cəmiyyətinin fəaliyyəti daha da genişlənmişdi. 1917-ci ilin aprel-may aylarında Bakıya Turkiyədən, Rum elindən çoxlu qaçqınlar gəlmişdi. Onları yerləşdirmək, yedirmək, isti pal-paltarla təmin etmək sahəsində cəmiyyət xeyli iş görmüşdü. Xeyriyyə cəmiyyətinin ümumi fondundan başqa Bakı varlıları və o cümlədən A. B. Quliyev qaçqınlar üçün ərzaq: un, düyü ayırırdılar. Sonralar Qafqaz cəbhəsindən də çoxlu türk və alman əsirləri gətirildi. Onların da qayğısına qalmağı cəmiyyət unutmurdu.

1878-ci ildə Bakıdan Batuma neft kəməri çəkilməsi məsələsi meydana çıxdı. Lakin bu fikrin həyata keçirilməsi xeyli ləngiyirdi. Əcnəbi mühəndisləri kəmərin çəkilməsi məsuliyyətini üzərlərinə götürməkdən imtina etdilər. Sonralar məşhur rus mühəndisi V. Q. Şaxov bu işi boynuna çəkdi. Bakı varlılarından bir neçəsi və o cümlədən A. B. Quliyev Şaxova dayaq çıxdılar. Kəmərin çəkilməsi üçün təşkil olunmuş şirkətin sədrliyini də A. B. Quliyev öz üzərinə götürdü.

1905-ci il rus inqilabından sonra A. B. Quliyevin görüşlərində qəribə bir dəyişiklik əmələ gəlmişdi. O qatı mürtecə olan Hacı Aslan Aşurbəyovun təsiri altına düşərək, qaragüruhçulara meyl edirdi. 1905-ci ilin noyabrında Bakıda yaranmış "Yakor" təşkilatına daxil olmuşdu. Bu, Rusiyada yaranmış "Rus xalqının ittifaqı" adlı qaragüruhçu təşkilatın bir qolu idi. Quliyev Azərbaycanda müstəqil respublika yaradılandan sonra da onların təsirindən qurtara bilməmişdi. Bu iş üstündə o hətta həbs edilib, bir neçə ay həbsxanada qalmışdı. 1920-ci ilin martında A. B. Quliyev İrana gedir. O İranda olarkən Bakıda çevriliş olur. Bolşeviklər hakimiyyət başına gəlirlər. Şəhərdə bir həftə talan gedir. Varlıların əmlakı müsadirə olunur, özlərini isə həbsə alırlar. Onlardan gizlənib, sonra xaricə qaçanlar da olmuşdu. Quliyevin də ev-eşiyi talan edilir, arvad-uşaqları çölə atılır. Quliyev İrandan öz gürcü dostlarına xəbər göndərir. Onların vasitəsilə arvadına və uşaqlarına cır-cındır paltar geyindirərək, Tiflisə aparılır və oradan İrana keçirlər. İrana çatdıqdan sonra bir müddət Təbrizdə yaşayırlar. Sonra ailəsi ilə birlikdə Türkiyəyə gedir. Bir müddətdən sonra, iki qızı: Sara və Rübabəni təhsil almaq üçün İstanbulda qoyur, özü isə arvadı və oğlu Ağa İsmayıl və bir qızı Səriyyə ilə birlikdə Təbrizə qayıdırlar. Onların hər üçü Təbrizdə ölmüş və orada dəfn olunmuşlar. Türkiyədə qalmış qızları Rübabə və Sara isə orada ərə getmiş və oğul-uşaq sahibi olmuşdular. Hazırda Sara və Rübabə həyatda olmasalar da onların nəsli İstanbulda yaşayır və çalışırlar. Sara xanımın bir oğlu olub. Adı Teumandır, musiqişünasdır. Bir müddət İtaliyada yaşayıb. Hazırda harada, yaşadığı məlum deyil. Rübabə xanımın da iki övladı olub: biri oğlan, biri qız. Qızı, yəni A. B. Quliyevin nəvəsi Mələk xanım hazırda İstanbul banklarından birində işləyir.

## MURTUZA MUXTAROV

H. Z. Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyevdən sonra milli Azərbaycan burjuaziyasının və neft sənayesinin görkəmli nümayəndəsi Murtuza Muxtarovdur. Öz millətinin tərəqqisi naminə heç bir şeyini əsirgəməyən, keçmiş Bakının abadlaşmasına çar məmurlarından qat-qat artıq diqqət yetirən, qayğısına qalan milyonçulardan biri idi. Muxtarovun adı daha çox Bakıda neft çıxarılması texnologiyasının inkişafı ilə bağlıdır. Ali texniki təhsili olmasa da neft maqnatları içərisində neft yataqlarının sirrini və qazma işlərini onun kimi dərindən bilən ikinci bir sahibkar, çətin ki, tapılaydı. Muxtarov diplomsuz neft mühəndisi kimi şöhrət tapmış, Azərbaycan neft sənayesi tarixinə özünün ixtirası ilə daxil olmuşdur. 1896-cı ildə o qazma və ştanqların endirilib qaldırılması kimi əsas və başqa köməkçi işləri icra edən xüsusi bir dəzgah yaratmış və bundan ötrü patent də almışdı. 1890-cı ildə yaratdığı "Podrat qazma" kontoru Bakının Balaxana, Suraxana, Ramana və Sabunçu neft rayonlarında neft quyularının qazılmasında böyük rol oynamışdır. Bu

sahələrdəki quyuların əksəriyyəti onun "Podrat qazma" kontoru tərəfindən qazılmışdır. Bundan əlavə özünün xüsusi mədənləri də vardı. Elektrik qatarı ilə Bakıdan Buzovnaya gedərkən Sabunçudan sonra birinci dayanacaq onun adı ilə "Muxtarovk a" adlanır. Bu dayanacağın ətrafındakı bütün neft quyuları vaxtilə ona məxsusdu.

Murtuza Muxtarov Bakının Əmirhacıyan kəndində anadan olmuş və əmək fəaliyyətinə də bu kənddə başlamışdır. O da Bakının bir sıra milyonçuları kimi adi fəhlədən neft maqnatı səviyyəsinə yüksəlmişdir. Uzun müddət malakeşlik etdikdən sonra araba ilə neft daşımış, xırda podratçılıqla məşğul olmuşdur. Qara qızıl fantanları nəhayət onun da üzünə gülərək, əlini milyonlara çatdırmışdır.

M. Muxtarov bizə əzəmətli binalar miras qoyub getmişdir. Bakı şəhərində, onun ətraf kəndlərində, Rusiyanın şəhərlərində və Avropanın bəzi ölkələrində hazıradək hifz olunub qalmış bir çox binalar onun adı ilə bağlıdır. 1910-cu ildə Əmirhacıyan kəndində tikdirdiyi məscid binası indiyədək öz memarlıq quruluşu və əzəməti ilə göz oxşayır. Məscidin günbəzini başa çatdırmaq üçün o dövrün ən görkəmli memarı olan Zivər bəy Əhmədbəyov dəvət edilmişdi. İctimai binalar, məktəblər inşa etmək üçün Muxtarov vəsaitini heç zaman əsirgəməmişdi. Muxtarovun şəhərdə olan binaları içərisində ən əzəmətlisi 1911-1912-ci illərdə indiki Muxtarov küçəsi ilə Əhməd Cavad küçəsinin tinində fransız qotikası üslubunda ucaldılan binadır. Mühəndis Ploşkonun layihəsi əsasında tikilmiş bu bina indi də şəhərimizə bəzək verir. 1913-cü ildə Abşeronun qumsal dəniz sahilində mayaq qülləsi (indi bu mayaq işləmir), Mərdəkanın Pirhəsən adlanan yerində Axund Mirzə Abu Turabın qəbri üstündə günbəz, Vladiqafqaz şəhərində məscid, Kislovodskda, İtaliyanın Florensiya şəhərində mövcud olan gözəl, yaraşıqlı binalar M. Muxtarovun pulu ilə tikilmişdir.

Müxtarov Bakının demək olar ki, bütün xeyriyyə cəmiyyətlərində yaxından iştirak edir və maddi köməyini əsirgəmirdi. O da H. Z. Tağıyev kimi xeyriyyəyə bəşəri məqsədlərə çatmaq üçün bir vasitə kimi baxır, onda fəlsəfi bir məna görürdü.

Muxtarov sözün həqiqi mənasında bir ziyalı idi. Mətbuat işlərinə qayğı ilə yanaşması, tələb olunan vəsaitdən heç vaxt boyun qaçırmaması buna sübutdur. İncəsənət xadimlərinin maddi və mənəvi ehtiyaclarına da biganə deyildi. 1913-cü ilin yayında belə bir hadisə olmuşdu. Azərbaycan səhnəsinin böyük artisti Hüseyn Ərəblinski vərəm xəstəliyinə tutulmuşdu. Vəziyyəti gündən-günə ağırlaşırdı. "Sədayehaqq" qəzeti 1913-cü il 21 avqust tarixli nömrəsində yazırdı: "Müsəlman səhnəsinin ən adil, məşhur və köhnə artistlərindən biri Ərəblinskinin cavan ömrü ümumsəhnə artistlərinin, səhnə həvəskarlarının gözü qabağında şam kimi əriyib getməkdədir".

Təkcə "Sədaye haqq" deyil, Bakının demək olar ki, bütün demokratik əhvali-ruhiyyəli qəzetləri bu məsələ ətrafında həyəcan təbilləri döyərək, şəhər varlılarını xəstə artistə kömək əli uzatmağa çağırırdılar. Lakin çağırış cavabsız qalır, Bakı varlılarından haray verən olmurdu. Təkcə Murtuza Muxtarov xəstə artistin halına acıyaraq, ona 700 manat verib, müalicə olunmaq üçün Abastumana göndərmiş və tapşırmışdı ki, müalicə olunmayınca geri dönməsin və lazım olarsa ona əlavə vəsait göndərəcəkdir. Müalicə olunmuş H. Ərəblinski sonra "Baku" qəzeti vasitəsilə öz minnətdarlığını belə bildirmişdi: "Cənab redaktor! İcazə verin sizin qəzet vasitəsilə, xəstə artistin halına qalaraq, pozulmuş səhhətimi düzəltmək üçün 700 manat pul vermiş və habelə sonrakı xərcləri də öz üzərinə götürmüş yeganə adam kimi cənab Murtuza Muxtarova öz dərin minnətdarlığımı bildirim. Bundan ötrü mən də, mənim ailəm də dərin təşəkkürümüzü bildiririk.

**Artist Hüseyn Ərəblinski"**

("Baky" №194, 31 август 1918).

Muxtarovun incəsənət xadimlərinə göstərdiyi qayğıya ikinci bir misal: O, Saratovda olduğu zaman (burada onun neft məhsulları kontoru vardı) küçədə qaraçıya oxşayan qara saçlı bir qızın şarmankada çalıb, oxuduğunu eşidir. Qızın səsi ona xoş gəlir. Xüsusilə qızın azərbaycanlı olduğunu biləndən sonra onu konservatoriyaya aparır, onun vokal şöbəsinə daxil olmasına kömək edir və xərcini çəkir. Bu, sonralar məşhur opera artisti olmuş Fatma Muxtarova idi. Belə misallardan çox göstərmək olar. Adamların elmə, biliyə yiyələnmələri üçün Muxtarov əlindən gələni edirdi. Bakının Xalq Təhsili muzeyində görkəmli qadınlarımızdan Məryəm xanım Bayraməlibəyovanın xatirə dəftəri saxlanılır. Bu xatirə dəftərinin bir yerində Məryəm xanım yazır ki, Bakıda "Müqəddəs Nina" məktəbini bitirdikdən sonra Moskvaya gedib, tibb institutuna daxil olur. Lakin maddi vəziyyəti ağır olduğundan Murtuza Muxtarova müraciət edir. Muxtarov tərəfindən dərhal ona təqaüd müəyyən edilir.

Bakıda üzvü olduğu "Səadət" xeyriyyə cəmiyyəti üçün məktəb binasını da Murtuza Muxtarov tikdirmişdir. Muxtarovun mətbuat sahəsindəki xidmətlərinə gəlincə demək lazımdır ki, bu sahədə o hər şeydən qabaq dövrünün qabaqcıl maarifpərvərlərindən biri idi. Maarifpərvərliyin məhz qəzet və mətbuat vasitəsilə yayılıb inkişaf etməsinə dərin inamla baxırdı. 1908-ci il iyun ayının 3-dən fəaliyyətə başlamış "Tərəqqi" qəzeti "İrşad" mətbəəsində Muxtarovun pulu ilə çap edilirdi. Qəzetin baş mühərriri Əhməd bəy Ağayev idi. O İstanbula getdikdən sonra qəzet bir müddətə bağlanır. Muxtarov yenə mətbuat işlərindən geri çəkilmir. O, "İrşad" mətbəəsini pulla alır, daimi istifadə üçün Haşım bəy Vəzirovun sərəncamına verir. Milli mətbuatın yayılmasına olan bu qayğısı ilə yanaşı o milli azadlıq hərəkatını da alqışlayır və imkan düşdükcə ona maddi yardım da göstərirdi.

1905-1911-ci illərdə Cənubi Azərbaycanda davam edən milli-azadlıq hərəkatı və onun başçıları Səttar xan və Bağır xana öz rəğbətini açıq ifadə edə bilməsə də onlara gizli yollarla kömək etməkdən çəkinmirdi. Əlimizdə olan bir sənəd bunu sübut edir. 1908-ci il 10 oktyabrda Qafqaz canişini əvəzinin mülki işlər üzrə müavininin Bakıya göndərdiyi gizli məktubda belə deyilirdi: "Canişin əvəzinin aldığı məlumata görə Qafqazın inqilabi əhvali-ruhiyyəli müsəlmanları İran inqilabçılarına pul və silahla kömək edirlər. Həmin məlumatda göstərildiyi kimi böyük maddi vəsaitə malik Bakı əhli Muxtarov və Tağıyev də belələrindəndir. Canişin əvəzinin göstərişi ilə yuxarıda adları çəkilən şəxslərin üzərində gizli nəzarət qoyulmasını xahiş edirəm".

Onu da göstərək ki, Bakı xeyriyyə cəmiyyətləri də bu işdə geri qalmamışdılar. Bu cəmiyyətlər benefislər təşkil edir, toplanan pulları gizli yollarla İrana göndərirdilər. "Nicat" cəmiyyəti bir neçə dəfə belə təşəbbüsdə olmuşdu.

Son zamanlar M. Muxtarov barədə bir sıra ötəri qeydlərə təsadüf olunur. Bu qeydlərin üstündən ona görə ötüb keçmək olmaz ki, bunlar Muxtarovun şəxsiyyətini oxucuların nəzərində hörmətdən sala bilər. Məsələn yazırlar ki, guya Muxtarov milyonçuluğa qoçuluqdan gəlmişdir. Hətta onu qoçuların qoçusu da adlandırırlar. Əlbəttə, bu səhvdir. Muxtarov qoçu olmamışdır. Bəs bu şayiə haradan doğub? Bu bir həqiqətdir ki, Muxtarov çox zəhmli bir adam olub. Qoçulardan heç kim cürət edib ona yaxın düşməzmiş. Başqa milyonerlərin xüsusi qoçuları olduğu halda Muxtarovun buna ehtiyacı yoxdu. Onun təkcə zəhmi, vahiməsi kifayət imiş ki, qoçular ondan yan gəzsinlər.

Təbiətcə çox məğrur olan bu şəxsin həyatı faciə ilə bitmişdir. Bakıda Aprel inqilabının ilk günləri idi. Bu günlərdən birində Muxtarov Vrangel (indiki Əhməd Cavad) və Persidski (indiki Muxtarov) küçələrinin tinindəki mənzilinə iki silahlı hərbçi gəlir. Muxtarov qapını açıb, onları gördükdə atəş açıb, onlardan Anosov adlı birisini öldürür, ikinci gülləni də öz alnına çaxır. İnqilabın ilk günlərində şəhərdə talan başlanmış və bir neçə gün davam etmişdi. Bakılılar davam edən bu talanı "Talan həftəsi" adlandırmışdılar. Aranın qarışmasından istifadə edən soyğunçular evlərə, idarələrə basqın edir, arvadların qulaqlarından, boyunlarından qızıl bərbəzəyi güclə çıxarır, qiymətli avadanlığı aparırdılar. Bu soyğunçuların içərisində bolşeviklərə də rast gəlmək olardı. Köhnə bakılıların dediklərinə görə bu talanlara başçılıq edən Mikoyan ilə Sərkis idi. Şəhərdəki bu özbaşınalığı Muxtarov eşidir və görürdü. Muxtarovların ailə həkimi olan Fingilişteynin dediyinə görə onsuz da son hadisələrdən əsəbləri pozulmuş Muxtarov evinə soxulmuş bolşeviklərə əsəbi vəziyyətdə atəş açmışdır.

## MUSA NAĞIYEV

Nobel qardaşları istisna edilərsə, Bakı milyonçuları içərisində ən varlısı Musa Nağıyev idi. Parisdə yaşamış nəvəsi Ümmülbəninin yazdığına görə babasının Bakıda 70-ə yaxın imarəti vardı. Şəhərin ən gözəl imarətləri Musa Nağıyevə məxsusdu. Xalq içərisində onun xəsisliyi barədə çoxlu rəvayətlər yayılmışdı. Əslində Nağıyev deyildiyi dərəcədə də xəsis deyildi. Bəzən qəpiyə xəsislik eləyirdisə, böyük kapital qoyuluşunda başqa milyonçulardan, hətta Tağıyevdən də geri qalmırdı. Məsələn, 28 may küçəsindəki qoşa imarətlər, yenə həmin küçədə qırmızı kərpicdən tikilmiş əzəmətli bina, Nizami küçəsində Opera teatrının yanındakı yaşayış evi, Azərbaycan prospektində köhnə Mərkəzi poçt binası, Nigar Rəfibəyli küçəsindəki əzəmətli yaşayış binası, İstiqlaliyyət küçəsindəki məktəbin üçüncü mərtəbəsi, Krasnovodsk (indiki Səməd Vurğun) küçəsində Qış klubu (indiki Zabitlər evi), "Astoriya" və "Yeni Avropa" mehmanxanaları və sair bu kimi şəhərin gözə gəlimli binaları Musa Nağıyevin pulu ilə tikilmişdir. Nəhayət, şəhər memarlığının tacı hesab edilən məşhur "İsmailiyyə" binası. Musa Nağıyev bunları bizə miras qoyub getmişdir. Kimsə nə vaxtsa ona demişdi ki, ucaldılan hər bir bina sahibinin ömrünü bir az da uzadır. Buna görə imarət vurğunu olmuşdu. Hazırda Musa Nağıyev xəstəxanasının geniş işıqlı otaqlarına daxil olarkən Musa Nağıyevin xeyriyyə sahəsindəki böyük xidmətlərini istər-istəməz iftixarla xatırlayırsan. Bu xəstəxananı o 1913-cü ildə tikdirmişdi. Həmin ildə Bakıda xəstəxanaya olan böyük ehtiyacı duyan Musa Nağıyev şəhər dumasına müraciət edərək, bildirmişdi ki, öz pulu hesabına 225 çarpayılıq xəstəxana tikdirmək fikrindədir və indidən onun xərcini şəhər kassasına verməyə hazırdır. Ancaq bir şərtlə ki, xəstəxana gərək üç ilə hazır olsun. Bundan əlavə xəstəxanada müsəlmanlar üçün 50 çarpayılıq ayrıca bir şöbə olmalıdır.

Şəhər Bələdiyyə İdarəsi Staroselski və Aleksandr bulvarlarının arasında yer ayıraraq inşa işlərinə başlayır.

Musa Nağıyev 1842-ci ildə Bakı quberniyasının Biləcəri kəndində anadan olmuşdur. Onun atası saman satmaqla məşğul idi. İbtidai təhsilini kənd mollaxanasında aldıqdan sonra 25 yaşınadək kənddə atasına kömək edir. 25 yaşına çatanda atası ölür. Öləndə atasının 300 manat borcu qalır. Ruhdan düşməyən Musa 200 manat da borc eləyib, özünə kiçik bir dükan açır. Beləliklə cibində bir qəpik olmadan 500 manat borcla müstəqil fəaliyyətə başlayır. İki ildən sonra Musa Nağıyev borcunu qaytarır və parça alverinə başlayır. 5 ildən sonra 2.000 manat qənaət toplayır. Çoxdan bəri arzuladığı bir peşə vardırsa o da neft işləri ilə məşğul olmaqdı. Topladığı pula Qara şəhərdə əl ilə işləyən kiçik bir kerosin zavodu alır. Bu zavod onun qazanc yolunda atdığı ilk addım oldu. Sonra neftli torpaq sahələri alaraq, böyük bir energiya ilə neft istehsalına başlayır. Xüsusilə Bibiheybətin mədənlərində bir-birinin dalınca vuran neft fantanları başqaları kimi onu da milyonçu dərəcəsinə qaldırır. Ramana və Sabunçu rayonlarındakı mədənlərindən

gəliri gün-gündən artır. Həmin bu illərdə o müsəlman arvadını boşayıb, Yelizaveta Qriqoryevna adlı bir gürcü qadına evlənir. Müsəlman arvadından olan İsmayıl adlı oğlu vərəm xəstəliyinə tutulur. Halı ağırlaşdığı zaman onu İsveçrəyə müalicəyə göndərir. Ancaq müalicə gecikdiyi üçün İsmayıl İsveçrədə ölür. Onun ölüsünü gətirib Bakıda dəfn edirlər. İstiqlaliyyət küçəsində tikdirdiyi bina da İsmayılın xatirəsinə "İsmailiyyə" adlandırılır.

Bakı qəzetlərindən biri yazırdı ki, Ağa Musa Nağıyev müsəlman xeyirxahlarından ən səxavətlisidir. Bu sözlərdə Nağıyevin xeyirxahlığı şişirdilmiş olsa da, hər halda bir həqiqət də vardı. Nağıyev xeyriyyə cəmiyyətlərinin əksərində Tağıyevlə yanaşı iştirak edirdi. Yenə həmin qəzetin yazdığına görə nəinki Bakıda və habelə başqa şəhərlərdəki xeyriyyə cəmiyyətlərinin iri ianə xəzinəsinə üst-üstə yarım milyona qədər pul daxil etmişdir. Yuxarıda deyildiyi kimi, 1913-cü ildə şəhər xəstəxanası tikintisi üçün üç yüz min manat, Bakı real məktəbinin abadlığı, 3-cü mərtəbənin tikilişi üçün, qiraət otağı, kimya kabineti və məktəbin parket döşəməsi üçün 30 min, Gəncədə müəllimlər seminariyası üçün 15 min, Şamaxı real məktəbinə 1.300 manat, "Səfa" cəmiyyətinə ildə 500 manat, Tiflis məktəbinə 500 manat, "Nur" mədrəsəsinə 500 manat, Semireçinsk əyalətində zəlzələdən zərər çəkənlərə 1.000 manat pul ayırmışdır. 1913-cü ildə müsəlman xeyriyyə cəmiyyətlərinin kassasına 253 min manat pul köçürülmüşdür. Musa Nağıyev 20 il Bakı şəhər dumasının qlasnısı olub. 1908-ci ildən ölümünədək Bakı real məktəbinin hamisi idi. Bakı milyonçularından bəziləri öz həyatlarını qorumaq üçün yanlarında həmişə muzdlu qoçu saxlayırdılar. Bu bir qayda idi. Musa Nağıyev isə xəsislik edərək, bunu əlavə xərc hesab edirdi. Bu da Nağıyevdən pul qoparmaq üçün onu oğurlayanlar üçün yaxşı şərait yaradırdı. Hətta bir dəfə başda Stalin olmaqla Bakı bolşevikləri də Nağıyevi oğurlayıb, ondan külli miqdarda pul almışdılar.

Məlum olduğu kimi 1912-ci ildə mühəndis Lütfəli bəy H. Z. Tağıyevi məhkəməyə vermişdi. Bu xəbər o dövrdə fövqəladə bir hadisə kimi böyük hay-küyə səbəb olmuşdu. Məhkəməyə şahid kimi çağırılmış Musa Nağıyev düzgün şəhadət vermək üçün Qurana əl basmaqdan imtina etmişdi. Məlum olmuşdu ki, o bəhaidir. Buna görə Quran əvəzinə bəhailərin müqəddəs kitabı hesab edilən "Kitabi Əqdəs"ə and içmişdi. Bəhaizm mahiyyət etibarilə yeni bir din idi. Bəhailər onu İslamda bir təriqət kimi deyil, müstəqil din kimi qəbul edirdilər.

Nağıyev öləndən sonra ondan qalmış zəngin mirasın bölünməsi zamanı Ruhani idarəsi də onun irsindən pay umurdu. Nağıyevin yaxın adamları isbat etmişdilər ki, o Qurana inanmadığı üçün Ruhani idarəsinə pay düşmür. Öz fikirlərini isbata yetirmək üçün Tağıyevin məhkəməsində Musa Nağıyevin Qurana and içmədiyini dəlil kimi göstərirdilər.

1912-ci ildə Musa Nağıyev Hacı Zeynalabdinin yaxın dostu kimi Hacının əfv edilməsi məqsədilə çarın yanına gedən nümayəndə heyətinə daxil edilmişdi.

Musa Nağıyev 1919-cu ilin mart ayında 67 yaşında vəfat etmişdir.

Nağıyevin ölümündən sonra məhkəmə onun mirasını aşağıdakı qaydada varisləri arasında bölüşdürmüşdür: 1. İki dul arvadı: Ümmülsəlmə və Yelizaveta Qriqoryevnaya mirasın altıdan bir hissəsi. 2. Nəvələri: Kübra xanım, Səriyyə xanım və Ümmülbəninə və qızı Gülsara Həsənovaya hər birinə otuz ikidən yeddi hissəsi.

## AŞURBƏYOVLAR SÜLALƏSİ VƏ ƏJDƏR BƏY AŞURBƏYLİ

Aşurbəyovlar Bakının qollu-budaqlı varlı sülaləsi olub. Öz başlanğıcını keçən əsrlərdən alan bu sülalə getdikcə şaxələnmiş və böyük bir nəslə çevrilmişdir. Hətta elə şaxələnmişdir ki, sonralar eyni nəsildən olan Aşurbəyovlar qohum olduqları halda bir-birini tanımırdılar. Hazırda Bakıda qalan Aşurbəyovlar da, köhnə nəsildən başqa, bir-birinə necə qohum olduqlarından tamamilə bixəbərdirlər.

Ən görkəmli qol-budaqlı Aşurbəyovlar bunlardır: Hacı Əjdər bəy Aşurbəyov, Bəşir bəy Aşurbəyov, Teymur bəy Aşurbəyov, Hacı Mehdiqulu bəy Aşurbəyov, Əliabbas bəy Aşurbəyov, Ağa Şərif bəy Aşurbəyov, Ağasi bəy Aşurbəyov, Mehdixan bəy Aşurbəyov, Əzizbəy Aşurbəyov, Hacı Əhməd bəy Aşurbəyov, İsa bəy Aşurbəyov, Kərim bəy Aşurbəyov. Nəsrulla bəy Aşurbəyov, Rüstəm bəy Aşurbəyov və başqaları.

Aşurbəyovların Bakıda böyük imarətləri, bəzilərinin Rusiyanın şəhərlərində mülkləri, Mərdəkanda geniş sahəni əhatə edən bağları olmuşdur. Teymur bəyin Qoqol və Dimitrov küçələrinin kəsişdiyi yerdə böyük, əzəmətli imarəti, İsa bəy Aşurbəyovun Muxtarov küçəsində mülkü, Bəşir bəyin Ə. Cavad küçəsindəki iki mərtəbəli evi arxitektura cəhətdən nəzəri dərhal cəlb edir.

Əjdər bəy Aşurbəyov, Mehdixan bəy Aşurbəyov və Abbas bəy qardaşdırlar. Teymur bəy Əli bəylə Bala bəy Aşurovların atasıdır. Balabəy isə hörmətli tarixçi - alimimiz Sara xanımın atasıdır. Ağa Şərif bəylə Ağasi bəy də qardaşdırlar. Qalan Aşurbəyovlar da əksəriyyətlə bir-biri ilə ya əmioğlu, ya da bibioğlu və xalaoğludurlar. Aşurbəyovlar nəslən sabunçuludurlar. Onların neft yataqları başlıca olaraq, Sabunçuda və Zabratda olub. Onların ulu babaları Aşurxan Əfşardır. 1740-cı illərdə Nadir şah Bakıda olarkən Bakıda və ətraf kəndlərdə özünə arxa yaratmaq üçün Əfşar türk tayfalarından bir çoxunu sürgün edərək, Sabunçu, Zabrat və qismən Keşlə kəndlərində yerləşdirmişdi. Köçürülmüş tayfaların içərisində Nadirin ən yaxın adamı sərkərdə Aşur xan idi. 1743-cü ildə Ağsu yaxınlığında şirvanlıların qaldırdığı üsyanın yatırılmasında Aşur xanın yaxından iştirakına görə Nadir şah Sabunçu və Zabrat torpaqlarını həmişəlik ona bağışlamışdı. Aşurbəyovlar sülaləsi

içərisində Əjdər bəy Aşurbəyov öz sərvəti və nüfuzu ilə xüsusilə fərqlənirdi. O hökümət dairələrində böyük hörmət sahibi idi. Təsadüfi deyildir ki, 1883-cü ildə Bakıya gəlmiş imperator III Aleksandrı Bakının seçmə zadəganları adından məhz təbrik etmişdi.

Əjdər bəy Aşurbəyov Sabunçu kəndində anadan olmuşdur. İbtidai təhsilini evdə alıb. Sonra kənd təsərrüfatı ilə məşğul olur. Keçən əsrin axırlarında neft istehsalı sahəsində ilk addımlarını atır. 1893-cü ildə Sabunçudakı mədənlərində bir quyusu fantan vurur. Bu onu dərhal milyonçular sırasına qaldırır. Sonralar Sabunçuda beş mədənin sahibi olur. Bunlardan ikisini özü işlədir, ikisini Nobel qardaşlarına, birini isə Şibayevə icarəyə verir. 1915-ci ildə onun Nobellə müqaviləsinin müddəti bitir və Əjdər bəy mədənləri özü idarə etməyə başlayır. Onun işlərində oğlu İsmayıl yaxından iştirak edirdi, indiki Səməd Vurğun küçəsindəki Göy məscidi Əjdər bəy tikdirmişdir. O on il şəhər dumasının qlasnısı olub. Qradonaçalnikin yanındakı neft işləri üzrə komissiyanın üzvü idi. Uzun illər Sabunçu şəhər məktəbinin hamisi olmuşdur.

## HACI HACIAĞA VƏ HACI ŞIXƏLİ DADAŞOVLAR SÜLALƏSİ

Hacı Hacıağa və Şıxəli Dadaşovlar qardaş olublar. Hər ikisi Bakıda birinci dərəcəli tacir kimi tanınırdı. 1876-cı ildə Azərbaycan tacirləri üçün birinci və ikinci dərəcəli tacirlik dərəcəsi təyin edildikdə bu rütbəni Bakıda ilk dəfə Hacı Hacıağa almışdı. Hacı Hacıağa ancaq öz fərasəti, işgüzarlığı, tədbirliliyi nəticəsində qısa müddətdə milyonçu səviyyəsinə yüksəlmişdi. Onun neft mədənləri demək olar ki, olmayıb. Bütün meylini ancaq mülk tikdirməyə və dəniz ticarəti ilə məşğul olmaq üçün gəmilər inşa etdirməyə salıb. Bakı şəhərində 40-dək mülkü və Xəzər dənizində çoxlu gəmiləri olmuşdur. Gəmiçiliklə ticarətindən çoxlu gəlirlər əldə etmişdi. Bütün Yaxın və Uzaq şərq ölkələri ilə ticarət əlaqəsi vardı. Təbiətcə xəsis olsa da xeyriyyə işlərinə yaxından köməyi olub. Şəhərə su kəmərinin çəkilişində onun da payı vardı. Qatı dindardı. Rus imperatoru III Aleksandrın tac qoyma mərasimində iştirak edib. Çar tərəfindən mülki müşavir (statski sovetnik) rütbəsinə layıq görülmüşdür. Uzun müddət Bakı Dumasının qlasnısı (nümayəndəsi) olub. iki oğlu vardı: Yusif ağa və Əliabbas hələ sağlığında Yusif Ağanı özünə varis təyin etmişdi. Uca boylu, xarici görkəmcə çox gözəl olan Yusif Ağa bədxərc bir adammış. Qumara çox meyilli olub. Bu işdə ona öz cangüdənləri Dağlı Abbas və Malbaş Yusifin böyük təsiri olub. Yusif Ağa Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar çarı təbrik etmək üçün Azərbaycandan Peterburqa getmiş yeganə milyonçu idi. O çar tərəfindən Mülki müşavir titulu və gözəl kişi kimi xüsusi ordenlə təltif olunmuşdur. Peterburqda olarkən Buxara əmiri ilə görüşür və ona

bildirir ki, Peterburqda tikdirdiyi məscidin nəfinə 20 min manat ianə edir. Bu pulun 10 mininə qırx çıraqlı çilçıraq, 10 mininə isə məscid üçün xalça alacaqdır. Buxara əmiri bunun əvəzində Yusif ağanı Birinci dərəcəli "Ulduz" nişanı ilə təltif edir.

Hacı Hacıağanın ikinci oğlu Əliabbas 1898-ci ildə Bayılda əmisi Hacı Şıxəli ilə şərikli gəmi təmiri tərsanəsi tikdirir. Bundan başqa Hacı Şıxəlinin özünün də gəmi təmiri emalatxanası vardı. Xəzər dənizində onun da gəmiləri üzüb. Qədim Cümə məscidinin yerində yenisini tikdirib. Öləndə həmin məscidin qapısı yanında dəfn olunub. Bu məscid indi Xalça muzeyidir. Həmin illərdə Yusif Ağa da Bibi-Heybət məscidini təmir etdirmişdir. Hacı Şıxəlinin də iki oğlu olub. Ələkbər və Ələskər. Ələkbərin oğlu podpolkovnik Şıxəli sağdır, hazırda Moskvada yaşayır. Yusif Ağanın da nəslindən bir neçə nəfər sağdır. Onlardan biri Yusif ağanın nəvəsi, Ağadadaş qızı Ofelya xanımdır.

Yusif Ağanın ölümü çox müəmmalı olub. Deyilənə görə guya 1918-ci ildə Zirə kəndində düşmənləri tərəfindən öldürülüb. Qəbri yoxdur. Başqa ehtimala görə o 1920-ci ildə ölmüşdür.

Dadaşovlar nəslindən çoxlu alim və mütəxəssis yetişmiş və ölkənin xalq təsərrüfatında və mədəniyyəti tarixində böyük xidmətləri olmuşdur. Hacı Ələkbər Dadaşovun oğlu Sadıx Dadaşov tanınmış memar idi. Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü idi.

Hacı Ələbkər Dadaşovun oğlu Şıxəli Dadaşov isə tanınmış neftçi, SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi qəhrəmanı idi.

## İSA BƏY VƏ KAZIM BƏY HACINSKİ QARDAŞLARI

Hər ikisinin böyük kapitalı vardı. Neftdən gəlirləri sayəsində milyonçu dərəcəsinə yüksəlmişdilər. Xəzər dənizindəki Çələkən adası bu qardaşların ixtiyarında idi. Zəngin neft yataqları olan Çələkəndən böyük gəlir götürürdülər. İnqilabdan sonra İsa bəy Hacınskinin xaricə qaçmış övladları adanı əcnəbi kapitalistlərə satmışdılar. İsa bəyin Bibiheybətdə mədənləri vardı. Bakı şəhərinin bir neçə yerində onun və qardaşı Kazım bəyin imarətləri ucalırdı. İsa bəyin ən əzəmətli binası Sahil küçəsindəki Qız qalasının yanında Roma və qotik üslubunda tikilmiş əzəmətli bina idi. Bu imarət Sahil küçəsinə xüsusi yaraşıq verirdi. Bu binadan qabaq Balaxana (indiki Füzuli) və Mariya (indiki Rəsul Rza) küçəsində də üç mərtəbəli əzəmətli bir yaşayış binası tikdirmişdi. Onun kontoru da bu binanın birinci mərtəbəsində yerləşirdi.

1912-ci ildə İsa bəy Mərdəkanda dövrələmə hasar içərisinə alınmış saxta alman və modern üslubunda bir imarət tikdirmişdi. Əsas binadan başlayaraq, qərb tərəfə uzanan xiyaban bütün sahəni əhatə edirdi. Xiyabanların kəsişdiyi yerdə alçaq

dairəvi bir hovuz vardı. Aşağı terrasdan şam ağaclarına tərəf gözəl bir mənzərə açılırdı. Kazım bəyin bağı isə Mərdəkan kəndinin içərisində idi. O da dörd hasar içərisində idi. İndi burada "Qərənfil" sanatoriyası yerləşir. Bina bağın ortasında iki mərtəbəli idi. İkinci mərtəbəyə - aynabəndli eyvana ortadan pilləkənlə qalxırdılar. Bağda hər cür meyvə və bəzək ağacları əkilmişdi. Darvazadan başlayaraq, uzanan xiyaban binanın pilləkənləri qabağında qurtarırdı. Bağın şimal-şərq hissəsi eniş yerdə idi. Burada üzüm tənəkləri basdırılmışdı.

Bakı varlılarından Sadıxov qardaşları da tanınmış kapitalistlərdən idi. Sadıxov qardaşlarının "Fid" adlı çəltiktəmizləyən dəyirmanları vardı. Teyyub və Mütəllib Sadıxov qardaşlarının bu dəyirmanından indi heç bir əsər qalmamışdır. A. Quliyev və Skobelevin dəyirmanları isə indi başqa məqsədlə istifadə olunur. Sadıxov qardaşlarının indiki İstiqlaliyyət küçəsi ilə Niyazi küçəsinin tinində gözəl yaşayış binası vardır. Onların bu evi milli üslubda memar E. A. Termikelov tərəfindən inşa edilmişdir.

Seyid Mirbabayev, Kəblə Abdulla Zərbəliyev, Binəqədili Səlimov, Teymur Qulubəyov, Nəcəfqulu Məmmədov da Bakının tanınmış varlılarındandır. Seyid Mirbabayev xanəndəlikdən milyonçu dərəcəsinə yüksəlmişdi. Milyonçu olandan sonra keçmiş sənətindən birdəfəlik üzülüşmək məqsədilə vaxtilə Polşada yazılmış bütün vallarını mağazalardan və ayrı-ayrı adamlardan alıb sındırırdı. Milyonçu olandan sonra erməni Aramyansın mülkünü (indiki Azneftin binasını) baha qiymətə almışdı. Kəblə Abdulla Zərbəliyev həm qoçu və həm də neft sahibkarı idi. Onun bir neçə neft mədəni və yalnız şəhərin bir yerində təkcə bir mülkü vardı. O atasından qalmış kerosin zavodu əsasında varlanmışdı. 1876-cı ildə Sabunçuda torpaq sahələri alaraq, şəriki ilə birlikdə neft istehsal etməyə başlayır. Nefti xam şəkildə mədəndə satırdı. Bir neçə il şəhər dumasının qlasnısı olub.

Binəqədili Səlimov uzun müddət əziyyət və həyəcan keçirəndən sonra nəhayət buruqları fantana düşmüş və pula pul deməmişdi.

Teymur bəy Qulubəyov və Nəcəfqulu Məmmədov 1909-cu ildə "T. Qulubəyovun və N. Məmmədovun ticarət evi"ni təşkil edirlər. Ticarət evinin Balaxanada və Sabunçuda neft mədənləri, kerosin və benzin zavodları olub. Neft mədənlərinin istismarına 1913-cü ildə başlayıblar. Ayda 30 min pud neft çıxarırdılar. Öz neftlərindən əlavə kerosin zavodları üçün bir il müddətində 10 milyon pud neft almışdılar. İldə iki milyon yarımadək benzin emal edirdilər. Ticarət evinin Xəzər dənizində gəmiləri, neft məhsullarını daşımaq üçün özlərinin xüsusi vaqon-sistemləri vardı. Bakıda, Petrovskda, Tiflisdə, Vladiqafqazda, Yekaterinadarda, Stavropol quberniyasında, Varşavada, Lodzda, Minskdə kontor və anbarları vardı.

Bakı milyonçularından İsrafil Hacıyev çox savadlı adamdı. Rus dilini mükəmməl bilirdi. Dumanın iclaslarında şəhər təsərrüfatı barədə tez-tez odlu

çıxışlar edərdi. Şəhərin bir neçə yerində gözəl binaları və Mərdəkanda (indiki elektrik dəmir yolu stansiyasının arxasında) əzəmətli villası vardı.

Bakı varlıları içərisində İsmayıl bəy və Tağı bəy Səfərəliyev qardaşlarının da öz mövqeləri vardı. Onların Rəsul Rza küçəsi ilə Nizami küçəsinin tinindəki hündür və yaraşıqlı imarətləri indiyədək durur və Nizami küçəsinə xüsusi bəzək verir. Tağı bəyin Mərdəkanda "Qoşa Qalayçalı" adlandırılan böyük bir bağı vardı. Hazırki kolxoz bazarının yanında olan bu bağda indi Azərbaycan Səhiyyə Nazirliyi dördüncü idarəsinin sanatoriyası yerləşir. İsmayıl bəyin bağı isə Pirşağıda idi. O Pirşağıya şose yolu və telefon xətti çəkdirmişdi. Ruhulla Axundov bir müddət onun yanında telefonçu işləmişdi.

Bakıda elə varlılar yaşayırdı ki, Xəzər dənizində hərəsinin beş-altı, azı üç-dörd gəmisi vardı. Belə varlılar içərisində Ramazanovlar xüsusilə fərqlənirdi.

## BAKI XX ƏSRDƏ

1905-ci ilin yanvarında Peterburqda Putilov zavodu fəhlələrinin tətili bütün Rusiyanı elə bil yuxudan ayıltdı. Yanvarın 8-də tətilçilərin sayı artıq 150 minə çatmışdı. Keşiş Qaponun təhriki ilə yanvarın 9-da öz dərdlərini söyləmək üçün Qış sarayına gedən silahsız fəhlələr II Nikolayın əmrilə güllələbaran edildi. Min nəfərdən çox fəhlə öldürüldü. Bu xəbər ildırım sürəti ilə bütün Rusiyaya, hətta ölkənin ən ucqar yerlərinə də yayıldı. 9 yanvar hadisəsinə ilk səs verən Bakı fəhlələri oldu. Hələ 4 yanvardan burada başlayan tətillər təzədən vüsət tapdı və ta 20 yanvaradək davam etdi. Tətilçilərin sayı artıq 3 mini ötmüşdü. Qubernatorun hədə-qorxusuna, cəza tədbirlərinə baxmayaraq tətillər əksinə daha geniş miqyas alırdı. Bundan qorxuya düşən çar hökuməti çıxış yolunu ancaq millətlər arasında qırğın törətməkdə gördü. Bakı qubernatoru Nakaşidze müvafiq göstəriş almaq üçün Peterburqa dəvət edildi. Peterburqdan qayıtdıqdan sonra qubernator təcili olaraq öz agentləri və polis vasitəsilə əhali arasında şayiə yaymağa başladı ki, guya ermənilər dövlət çevrilişi eləmək fikrindədirlər və onların hazırladıqları bombaların çoxu müsəlmanların üstünə atılacaqdır. Bunu praktiki olaraq həyata keçirmək üçün ermənilər çar nökərlərinin fitvası ilə fevralın 6-da erməni kilsəsinin yanında Parapet meydanında günahsız Sabunçu əhli Ağarza Babayevi öldürdülər.

Babayevin öldürülməsi şəhərdə bomba kimi partladı və bütün müsəlmanları ayağa qaldırdı. Tezliklə küçələrdə müsəlmanların silahlı dəstələri göründü və onlar rastlarına çıxan erməniləri qırmağa başladılar. Axşama yaxın qırğın daha da qızışdı. Həmin gün 18 nəfər adam öldürüldü və 27 nəfəri yaralandı. Bunlardan 6 nəfəri rus, 25 nəfəri erməni, 6 nəfəri azərbaycanlı, 5 nəfəri isə başqa millətdən idi.

7 fevralda isə sübh tezdən şəhərdə sakitlik idi. Dükanlar açılmış, bazarlarda alver gedirdi. Saat 10-dan şəhərin müxtəlif yerlərində birdən-birə atışma səsləri

eşidildi və getdikcə şiddətləndi. Şəhərə vahimə yayıldı. Dükan-bazar bağlandı və adamlar evlərdə gizləndilər. Malakan bağının yaxınlığında yaşayan ermənilər azərbaycanlıları qırmağa başladılar. Bunun əvəzində azərbaycanlılar da küçələrdə ermənilərə açıq hücuma keçdilər. Günün ikinci yarısında Bazar küçəsində ermənilərin mağazaları talan edildi. Lalayevin karvansarasında bəzzaz dükanları tarmar edildi. Suraxana və Kilsə küçələrində də ermənilərin evlərinə hücum başlandı. Bütün bu hadisələrdə polislər küçələrdə boş-boşuna gəzişir, qatillərə qarşı heç bir cəza tədbiri görmürdülər. Onlardan soruşanda ki, niyə tədbir görmürsünüz, cavab verirdilər ki, bu barədə heç bir göstəriş almayıblar. Qubernatorun gördüyü tədbir isə yalnız ondan ibarət oldu ki, H. Z. Tağıyevlə erməni varlısı Ambarsum Melikovu yanına çağıraraq, tapşırıq verdi ki, hərə öz millətinə təsir etsin.

Bakıda fevralın 6-dan 9-nadək davam etmiş qırğında 185 nəfər adam öldürülmüşdü. Bunlardan 66 nəfəri erməni, 83 nəfəri azərbaycanlı, 36 nəfəri başqa millətdəndi. Çar hökuməti bu qırğınla 19 fevralda Bakıda gözlənilən böyük siyasi nümayişin qarşısını almaq istəyirdi. Qırğının qarşısının alınmasında Bakının qabaqcıl fəhlələri, hətta şəhərin hörmətli adamları, birinci növbədə H. Z. Tağıyev böyük səy göstərdilər. Bakı fəhlələri çarizm siyasətinə qarşı siyasi tətillər təşkil edir və bütün mədənlərin neftçilərini bu mübarizəyə səsləyirdilər. Qorxuya düşmüş hökumət təcili cəza tədbirləri görməyə başladı. Fevralın 15-də müvəqqəti Bakı general-qubernator vəzifəsi müəyyən edildi. II Nikolayın fərmanı ilə Bakıda və Bakı quberniyasında hərbi vəziyyət elan edildi. Lakin hər cür qadağan tədbirlərinə baxmayaraq, tətillərin ardı-arası kəsilmirdi. Martın ikinci yarısında yalnız Bakıda deyil, bütün Azərbaycanda yeni tətil dalğaları gücləndi. Gəncədə dəmiryolçuların tətili hökumət dairələrini xüsusilə qorxuya saldı. Aprelin birində Bakı dəmiryolu işçiləri də gəncəlilərin səsinə səs verdi. Dəmiryolçular üzərində "Məhv olsun mütləqiyyət", "Yaşasın azadlıq" sözləri yazılmış qırmızı bayraqlarla tətilə qalxdılar. Bakı dəmir yolunda hərbi vəziyyət elan edildi. Tətilçilərdən 400 nəfəri həbs edildi. Hökumət dəmir yolu xəttinə qoşun çıxartdı. Beləliklə dəmiryolçuların tətili yatırıldı. Lakin bununla belə şəhərdə tətillərin arası kəsilmədi. Bu dəfə neftçilər tətilə başladılar. Mayın 10-da tətil hərəkatı artıq yüzdən çox neft şirkətinin fəhlələrini əhatə etmişdi. Tətilçilər hökumətə 26 siyasi və iqtisadi tələb vermişdilər. Tələblər başlıca olaraq, bunlardan ibarətdi: təşkilat, mətbuat, ittifaq, yığıncaq və tətil azadlığı, 8 saatlıq iş günü, maaşların artırılması, illik məzuniyyət və s.

Neft fəhlələrinin tətili də yatırıldı. Lakin fəhlələr 8 saatlıq iş gününə nail ola bilmişdilər.

Bundan sonra dəniz donanması işçiləri, onların ardınca Bibiheybət, Qara şəhər, Ağ şəhər mədən və emalatxana işçiləri, daha sonra 17 avqustda mətbəə və atlı dəmir yolu fəhlələri də tətili davam etdirdilər.

Atlı dəmir yolunda fəhlələr saldatlarla əvəz edildi. Lakin fəhlələr konkanın hərəkətinə mane olmaq üçün bütün küçələrdə relslərin üstünə daş düzdülər, polis və saldatlar onları atəşə tutsa da öz əməllərindən geri çəkilmədilər. Hökümət fəhlələri qorxutmaq üçün yeni fitnəkarlıqlara əl atdı. Bakıda və Azərbaycanın ayrı-ayrı rayonlarında təzədən erməni-müsəlman qırğını düzəltdilər. Avqustun 2-də eser və şendrikovçular tərəfindən mədənlərdə partlayış və yanğınlar təşkil edildi. Bununla da onlar Bakı fəhlələrinin tətilini yatırmaq üçün hökümətin əlinə yeni bəhanə vermiş oldular.

Yanğınlar nəticəsində neft sənayesinə böyük ziyan dəymişdi. Balaxana-Sabunçu rayonunda buruqların dörddə üç hissəsi yanmışdı. Bibiheybətdə 600 buruqdan cəmi 120 buruq qalmışdı. 68 neftayıran zavoddan 24-ü öz işini dayandırmışdı. Kerosin emalı 77,7 faiz aşağı düşmüşdü. Bütün bunların nəticəsində Bakıda işsizlik xeyli artmışdı. Bakı general-qubernatoru Fadeyevin əmri ilə avqust və sentyabr aylarında minlərlə işsiz Bakıdan sürgün edildi.

Avqust tətillərindən sonra Bakıda polis terroru daha da güclənmişdi. Tətil iştirakçılarından çoxu həbs edilmiş, həbsxanalar ağzınadək dolmuşdu. 1905-ci ilin 22 sentyabrında Bakı quberniya jandarması Qafqaz canişininə göndərdiyi məktubda yazırdı ki, Bakı həbsxanalarında daha boş yer qalmadığından məhbuslar ayrı-ayrı xüsusi evlərdə saxlanılır.

İnqilabi hərəkatdan qorxuya düşən Bakı sənayeçiləri maliyyə nazirinə teleqram vuraraq, mədən və zavodlara dəymiş ziyanı ödəmək üçün təcili tədbirlər görməyi xahiş etdilər. 1905-ci il 22 sentyabrda çar hökümət Peterburqda neft sənayeçilərinin yığıncağını çağırdı. Burada sənayeçilər tələb edirdilər ki, hökümət tərəfindən onlara mütləq kömək göstərilməli, mədən və zavod rayonlarında polis qarnizonu möhkəmləndirilməli, mədənlərdə özlərinin xüsusi silahlı keşikçi dəstələrini təşkil etməlidirlər.

Hökümət onların tələblərindən çoxunu təmin etdi. Fəhlə tətilləri və fəhlə çıxışlarına qarşı mübarizə üçün hərbi-səhra məhkəməsi yaradıldı. Mədənləri bərpa üçün hökümət neft sənayeçiləri üçün 22 milyon vəsait ayırdı.

Bununla belə xalq kütlələrinin təzyiqi nəticəsində çar hökümət məşhur 17 oktyabr manifestini verməyə məcbur oldu. Bu manifestdə vəd edilirdi ki, xalqa söz, mətbuat, yığıncaq, ittifaq azadlığı verilir. Azərbaycan burjuaziyası da rus burjuaziyası kimi bu manifesti böyük sevinclə qarşıladı.

Manifestin verilməsi barədə xəbər Bakıya oktyabrın 18-də saat 10-da çatmışdı. Şəhər təntənə ilə bəzənmiş, idarələrdə iş, məktəblərdə məşğələlər kəsilmişdi. Camaat dəstə-dəstə küçələrə axışırdı. Həmin gün şəhərin bir neçə yerində zəhmətkeş kütlələri əllərində qırmızı bayraqlarla nümayişə çıxmışdılar. İkinci gün isə təntənə çox həyəcanlı keçdi. Camaat siyasi məhbusları azad etmək üçün həbsxanalara hücum etdilər. Qoşunlar coşmuş kütlələrə atəş açdı. Bir nəfər

həlak oldu, 15 nəfər yaralandı. Şəhərin başqa bir yerində isə camaat üzərində "Azadlıq" yazılmış qırmızı bayraqlarla nümayişə çıxmışdı. Şəhərin müsəlman əhalisi də onlara qoşulmuşdu. Hərtərəfdə milli sazəndə və qaval səslənirdi. Nümayişçilər saat 11-də general-qubernator Fadeyevin mənzilinə yaxınlaşaraq onun balkona çıxmasını tələb etdilər. Qubernator balkona çıxaraq, camaatı alqışladı və qısa nitq söylədi. Nümayişçilərə qoşulmuş ordu orkestri "Marselyoza" marşını ifa etdi. Sonra nümayişçilər Sadovı küçəsi ilə Nikolay küçəsinə tərəf hərəkət etdilər və burada "Kaspi" mətbəəsinin yanında şagird nümayişçiləri ilə birləşdilər. Birlikdə Parapet bağına endilər və orada böyük bir mitinq keçirildi. Təntənənin üçüncü günü şəhərin küçələrində monarxist və çernosotençilər göründü. Bu rus xuliqanlarının məqsədi aydın idi. Onlar təxribat törətmək məqsədilə üstündə "Yaşasın rus çarı", "Çara eşq olsun" yazılmış bayraqlarla küçələrdə gəzişməyə başladılar. Günortaya yaxın hamı Aleksandr Nevski kilsəsinin həyətinə toplaşdı. Burada keşiş və general-qubernator onları alqışladı.

Onlarla yanaşı inqilabçı fəhlələr də nümayişə çıxaraq, çara və manifestə öz münasibətlərini bildirirdilər. Onlar başa düşürdülər ki, bu azadlıq ancaq sözdədir, çardan heç zaman əsl azadlıq gözləmək olmaz. Nümayişçilər Olqa küçəsi ilə Parapet və oradan da Telefon küçəsinə keçərkən, Böyük dəniz küçəsinin tinində erməni Saqatelyansın evindən nümayişçilərə atəş açılır. Nümayişi müşayiət edən saldatlar da dərhal cavab atəşi açırlar. Camaat pərən-pərən düşür. Haçandan-haçana, atəş ara verəndən sonra nümayişçilər öz yollarına davam edirlər. Ermənilərin hərəkəti hamını qəzəbləndirir.

Təntənənin dördüncü günü də sakit keçmişdi. Nümayişçilər Nikolay küçəsində Mirzəbekyansın evi qarşısından keçərkən üst mərtəbədən atəşə tutulurlar. Qoşun da adəti üzrə atəşə atəşlə cavab verir. Bu ermənilərin ikinci fitnəkarlığı idi. Müsəlmanlar elə nümayiş zamanı ermənilərin fitnəkarlığına cavab olaraq, Mirzəbekyansın evini və onunla bitişik daha 11 erməni evinə od vurub yandırırlar. Təntənənin beşinci günü monarxist və çernosotençilər manifestasiya düzəltmişdilər. Kazaklar camaata xəbərdarlıq etmişdilər ki, vəziyyəti gərginləşdirməmək üçün evlərinə dağılsınlar. Həmin axşam 17 oktyabr manifestində verilən vədlərə baxmayaraq, hər cür nümayişin keçirilməsi qadağan edildi. Camaatın axşam saat 8-dən sonra küçəyə çıxmaları da qadağan olunurdu. Altıncı gün nümayişçilər Stanislavski küçəsindən Balaxana küçəsinə burularkən ermənilərin yaşadığı evlərdən birindən atəş açılır. Qoşun cavab atəşi açarkən, ev od alıb yanmağa başlayır. Bu ermənilərin daha yeni bir fitnəkarlığı idi. Yaralanan və ölənlər olmuşdu. Beləliklə oktyabr günlərində manifestlə əlaqədar Bakıda keçirilən yığıncaq və nümayişlər həmişə qurbanla qurtarırdı. 17 oktyabr manifestindən sonra Bakıda bir çox təşkilatların yaradılmasına hökümət rəsmi icazə vermişdi. Bu təşkilatlardan biri eserlərin təşkil etdikləri "İttifaq" təşkilatı idi. İnqilabi hərəkatda

milli təfriqə siyasəti yürütmək təşkilatın əsas məqsədi idi. Ona görə də ittifaqçılar xalq kütlələri arasında nüfuz qazana bilməmişdilər. İttifaqçılar tez-tez terrora əl atırdılar. Xüsusilə Bakının məşhur qoçusu Ağakərimlə "İttifaq" üzvlərinin yaxınlığı "İttifaqı" nəzərdən salmışdı. Şərifzadə, Cüvarlinski, M. Məlikov onun fəal üzvləri idi. "İttifaq" 1906-cı il erməni-müsəlman qırğınından sonra tamamilə dağıldı.

1906-cı ildə Bakı kapitalistlərinin köməyi ilə təşkil edilmiş cəmiyyətlərdən biri də "Yakor" cəmiyyəti idi. Bu qatı çemosotençi bir təşkilat idi. Onlar rus monarxistləri ilə həmişə əlbir işləyirdilər. Bakı varlılarından Ağabala Quliyev və Hacı Aslan Aşurov onun ən fəal üzvləri idilər.

Bu illərdə hələ 1904-cü ilin axırlarında yaranmış "Hümmət" təşkilatı Azərbaycan zəhmətkeşlərinin ən mübariz təşkilatı idi. Sonralar M. Ə. Rəsulzadə "Açıq söz" qəzetinin 1917-ci il tarixli 313-cü nömrəsində "Hümmət" təşkilatının orqanı olan "Hümmət" qəzetinin məqsəd və idealını "Hümmət" təşkilatının ümumi məqsədindən ayrılıqda təsəvvür edə bilməyərək yazırdı: "Hümmət" məsləki sosializm tərəfdarı olub, fəhlə və əmələ qisminin mənafeyini gözləməkdir. Bu ideal hamı millətləri qardaşlığa dəvət edir. Bu müqəddəs nöqtəyə çatmaq üçün hər bir millət öz yolu ilə getməlidir". "Hümmət" sonralar Azərbaycan zəhmətkeşlərinin mənafeyini qoruyan müstəqil Azərbaycan partiyasına çevrilmişdi.

İlk müəssislərindən S. M. Əfəndiyevi, Nəriman Nərimanovu, M. Ə. Rəsulzadəni, M. Əzizbəyovu, Mir Həsən Mövsümovu və başqalarını göstərmək olar. Fəhlələrin mənafeyi və işi yolunda yorulmaz mübarizə aparan "Hümmət" getdikcə öz sıralarını fəhlə sinfi və zəhmətkeş ziyalılar hesabına qüvvətləndirirdi. N. Nərimanov yazırdı: "İnqilab illərində "Hümmət" Bakı rayonunun və Qafqazdakı başqa yerlərin fəhlələri arasında məşhur idi. O artıq tam bir təşkilat olmuşdu".

"Hümmət"in ən fəal yaradıcısı və "Dəvət-Qoç" qəzetinin banilərindən biri, Azərbaycanın ilk proletar yazıçısı, demokrat, məşhur "Mis mədənləri" pyesinin müəllifi Mir Həsən Mövsümovun öldürülməsi o dövr demokratik hərəkat üçün böyük itki idi. Lakin üzərindən xainlik ləkəsi hələ də silinməmiş bu inqilabçının ölümü indiyədək müəmmalı hesab olunur. Halbuki Qafqaz canişini dəftərxanasının xüsusi şöbəsinin yazılı məruzəsində açıq deyilirdi ki, Mövsümov "Erməni yaşıl yüzlüyü" adamları tərəfindən öldürülmüşdür. Soltan Məcid Əfəndiyev kimi demokrat-inqilabçı da bu barədə gah nala döyürdü, gah mıxa. Bir tərəfdən Mövsümov (onun inqilabi təxəllüsü Seyid idi) kimi etiqadlı bir adamın, fəhlə həyatından yazılmış "Mis mədənləri" kimi pyesin və bir sıra inqilabi ruhlu publisist məqalələrin müəllifinin mühafizə şöbəsinin casusu ola biləcəyinə inanmır, o biri tərəfdən mühafizə şöbəsinin rəisi rotmistr Orlovskinin nə məqsədlə dediyi hələ məlum olmayan sözünə əsasən dərin tədqiqat aparmadan onu casus adlandırır, lakin sonradan sonraya menşevik Gürcüstanın zirehli qatarının rəisi olmuş məşhur

Volodya tərəfindən öldürüldüyünü bildirir. Bir sözlə, Mövsümovun müəmmalı ölümü indiyədək üstü açılmamış qalmışdır. Hər halda 1907-ci il hadisələrinin dərindən təhlili Mövsümovun nə məqsədlə öldürüldüyünü və ona ləkə atıldığını aşkara çıxaracaqdır.

Sonrakı illərdə "Hümmət"in tərkibində müxtəlif dəyişikliklər olsa da, bu təşkilat Azərbaycan fəhlə sinfinin mübariz dəstəsi kimi öz şərəfini qoruyub saxlaya bilmişdir.

1905-ci ildə fəaliyyət göstərən mürtəce partiyalardan biri, bəlkə də birincisi "Daşnaksutyun" partiyası idi. Yarandığı gündən qatı erməni millətçiliyi, terrorizm təbliğ edən "Daşnaksutyun" Qafqaz xalqları arasında ədavət və nifrət toxumu səpməyə başlamışdı. Əslində 1890-cı ildə təşkil olunsa da 1905 inqilabı ərəfəsi və günlərində sosializmə və fəhlə hərəkatına qarşı qəti mübarizə aparırdı. 1905-ci ilin axırlarında özünü sosialist partiyası kimi elan etsə də, onun proqramında sosializmdən qətiyyən əsər yox idi. Zaqafqaziyada dəfələrlə baş vermiş erməni-müsəlman qırğınlarının və gürcü-erməni münaqişələrinin əsas səbəbkarı "Daşnaksutyun" partiyasının üzvləri idi. Onlar zəhmətkeş erməni əməkçiləri içərisində "Böyük Ermənistan" ideyasını yayaraq, cavanların beynini zəhərləyir, ermənilər üçün əsl vətənin Böyük Ermənistan olduğunu az qala bütün dünyaya car çəkirdilər. 1918-ci ilin yayında eser və menşeviklərlə birlikdə İngiltərə imperializminin nökərinə çevrilmişdilər. Buna baxmayaraq, ingilis generalı Tomson onlara xəbərdarlıq etmişdi ki, "Böyük Ermənistan" fikrindən birdəfəlik əl çəksinlər. Erməni fitnəkarlığı tariximizin bütün dövrlərində mövcud olmuşdur.

1906-cı ildə təşkil olunub, 1912-ci ilədək davam etmiş partiyalardan biri də "Difai" partiyası idi. Əsas fəaliyyət sahəsi yerli Yelizavetpol (Gəncə) quberniyası idi. Qaryagin, Cavanşir, Şuşa və başqa qəzalarda da şöbələri vardı. Bu partiyanın məqsədi guya müsəlmanları daşnakların hüçumundan qorumaq idi. Ara-sıra terrordan da istifadə edirdilər. Partiyanın rəhbərləri Ə. Rəfibəyov, Ə. Ağayev, K. Mehmandarov, M. Hacınski və başqalarından ibarət idi.

1905-ci ildə Bakı fəhlə hərəkatının təzyiqi nəticəsində neft sənayeçiləri bəzi güzəştlərə getməyə məcbur oldu. Fəhlələrə mədən, zavod və fabriklərdə fəhlə komissiyalarının yaradılmasına icazə verildi. Bir müddət sonra isə Bakı fəhlələri fəhlə deputatları sovetləri yaratmağa nail oldular. 25 noyabrda mədən komissiyalarının ümumi yığıncağında 226 nəfərdən ibarət Bakı fəhlə deputatları Soveti yaradıldı. Sovet indiki F. Əmirov küçəsində Texniki Cəmiyyətin binasında yerləşirdi. Sovetin tərkibindəki müxtəlif fəhlə qruplaşmalarının ixtilaf və çəkişməsinə baxmayaraq, fəhlələrin ən vacib məsələlərinin həllində böyük rol oynadı. Noyabrın 28-də Sovet neft sahibkarlarına belə bir tələb verdi ki, tətillərdə iştirak etmiş fəhlələrin həmin günlər üçün olan əmək haqları tamamilə ödənilməlidir. Əks təqdirdə şəhərdə siyasi tətil elan ediləcəkdir. Fəhlə təşkilatları

da Sovetin tələblərini müdafiə edirdilər. Həmin günlərdə polis rəisi öz məlumatında təsdiq edirdi ki, fəhlə deputatları Soveti şəhərdə demək olar ki, hakimiyyəti öz əlinə almış və müvəqqəti inqilabi hökümətə çevrilmişdir. Sovetin "Bakı şəhəri fəhlə deputatları Sovetinin əxbarı" adlı qəzeti də nəşr edilirdi. Doğrudur bu qəzetin ömrü çox qısa olmuşdu: O 1905-ci ilin 16 dekabrından 1906-cı ilin yanvarınadək ancaq yaşaya bilmişdi,

Bakıdakı bütün inqilabi təşkilatlar dekabr ayında silahlı üsyan keçirməyi qərara almış və ona ciddi hazırlıq aparırdılar. Hətta fəhlə döyüş dəstələri təşkil olunurdu. Qara şəhərdə, Ağ şəhərdə, Balaxanada, Bibiheybətdə bu dəstəyə yazılanların sayı gündən-günə artırdı. Bu işdə M. Əzizbəyovun, M. Məmmədyarovun, Ağasiyev və M. B. Axundovun böyük xidməti olmuşdu. Əldə edilmiş silahlar şəhərdə M. Əzizbəyovun mənzilində, Maştağada isə B. Dadaşovun evində gizlədilmişdi.

İnqilabi hərəkat təkcə, Bakıda deyil, Azərbaycanın başqa bir sıra şəhər və kəndlərində də geniş əhali kütləsini əhatə edirdi. M. B. Qasımov və Əzizbəyov şəhər və kənd əhalisi içərisində üsyana hazırlıq üçün qızğın təbliğat aparırdılar. RSDRP yanında xüsusi bir komissiya da yaradılmışdı ki, təbliğat vasitəsilə şagirdləri də inqilabi hərəkata cəlb etsinlər. Bu komissiya "Nabat" adlı qəzet də buraxırdı. Bütün millətdən olan gəncləri inqilabi hərəkata cəlb etməyi bu qəzet öz qarşısına əsas məqsəd qoymuşdu.

Hazırlanan tətilin qarşısını almaq üçün hökümət dairələri erməni daşnakları ilə əlaqəyə girərək, özlərinin əvvəlki metodlarını yenə işə salaraq yeni milli qırğın törətməyə çalışdılar. Noyabrın 26-da belə bir qırğının Bakıda törədilməsini qərara aldılar. Sübh tezdən atışma səsləri şəhəri bürüdü. Lakin Bakı fəhlələri şəhər ictimaiyyəti ilə birlikdə fitnəkarlara layiqli cavab verdilər. Noyabrın 17-də bakılılar 10 min nəfərdən ibarət mitinq təşkil edərək, çıxış və nitqlərində çar məmurlarının fitnəkar siyasətini açıqladılar.

İnqilabi hərəkatdan qorxuya düşən çar höküməti yeni vasitələrə əl atdı. Qafqaz canişininin 1905-ci il 2 dekabr tarixli fərmanı ilə şəhər rəisliyi təşkil olundu, Bakı və Bakı qəzası Bakı quberniyasından ayrılıb, müvəqqəti zaman üçün Bakı general-qubernatorunun sərəncamına vrildi. Fəhlə və zəhmətkeşlər içərisində təqiblər başlandı. Fəal fəhlələrdən Əli Mikayılov və Pyotr Montin qətlə yetirildi. Təqib və həbslər, xaincəsinə qətllər Bakı zəhmətkeşlərinin qəzəbini daha da coşdurdu. Həmin günlərdə Moskvada baş vermiş silahlı dekabr üsyanı Azərbaycanda və o cümlədən Bakıda yeni inqilabi yüksəliş üçün bir siqnal oldu.

10 dekabrda Bakı və Azərbaycan dəmiryolçuları Zaqafqaziya dəmiryolçularının çağırışına qoşularaq, ümumi siyasi tətilə çıxdılar. Tezliklə Bakı-Tiflis və Bakı-Petrovsk dəmir yolları tamamilə tətilçilərin sərəncamına keçdi. Dekabrın 14-də canişinin əmri ilə Zaqafqaziya dəmiryolunda hərbi vəziyyət elan

edildi. Ertəsi gün isə Bakı stansiyası qoşunlar tərəfindən tutuldu. Dekabrın 20-dən başlayaraq 23-nədək kütləvi həbslər keçirildi. Tətilçilərdən 100 nəfərədək fəhlə işdən qovuldu. Bu vəziyyətlə əlaqədar dekabrın 14-də Bakıda və onun neft və zavod rayonlarında tətillər elan edildi və bu tətillər dekabrın 24-dək davam etdi. Tətil nəticəsində yerli hakim dairələrin mərkəzi Rusiya ilə telefon və teleqraf əlaqələri tamam kəsildi. Mərkəzi hökümət yalnız Xəzər dənizi vasitəsilə əlaqə saxlaya bilirdi. Tətil günlərində Bakıda hakimiyyət demək olar ki, tətilçilərin əlində idi. Silahlı üsyan üçün əlverişli şərait yaradılmışdı. Ancaq bu baş tutmadı. Çünki Bakı Sovetinin şendrikovçu rəhbərliyi qəti döyüşdən yayınırdı. Tətildən silahlı üsyana keçməyi ləngidirdilər. Silahlı üsyanın ləngiməsinə əsas bir səbəb də Xəzər Hərbi Dəniz Donanması matrosları arasında möhkəm həmrəyliyin olmaması idi. Matroslar tətilçilərlə sıx əlaqə saxlaya bilməmişdilər. Matrosların içərisindəki çara sadiq matroslar vaxtında təcrid olunmamışdılar. Bundan istifadə edən komandanlıq tətilin yatırılması üçün çar qoşunlarına şərait yarada bilmişdi. O biri tərəfdən hərbi komandanlıq çarizmə sadiq olan hərbi qoşun hissələrini Bakıya yeritmişdi.

Beləliklə, Bakı proletariatı bütün Rusiya proletariatının qabaqcıl dəstəsi olsa da, Bakıda və habelə Azərbaycanda dekabr tətilini silahlı üsyana çevirə bilmədi.

## 1905-1906-CI İLLƏRDƏ MƏTBUAT

1905-ci ildən başlayaraq, Bakıda mətbuat sürətlə inkişafa başladı. Şübhəsiz ki, bu işdə çarın 17 oktyabr tarixli manifesti az rol oynamamışdı. Mətbuat sahəsində senzura qismən zəifləmişdi. Bu illərdə Bakıda 63-ə qədər qəzet və jurnal çap olunurdu ki, bundan yalnız bir neçəsi Bakıdan xaricdə nəşr olunurdu. Qəzetlərdən çoxunun ömrü qısa olsa da elə qəzetlər vardı ki, istər ölkə daxilində və istərsə də xarici ölkələrdə öz yüksək professionallığı və intellektuallığı ilə özünə çoxlu abunəçilər toplaya bilmişdilər. Məsələn, "Molla Nəsrəddin" məcmuəsi Uzaq və Yaxın Şərqdə geniş yayılırdı. Habelə "Füyuzat" məcmuəsi, "Həyat" və "İrşad" qəzetlərinə də Şərq ölkələrində çoxlu abunəçi tapılmışdı. Savadsız abunəçilər "Molla Nəsrəddin" məcmuəsini bəzən onun səhifələrində çap edilən kəskin siyasi karikaturalarına görə alırdılar. H. Z. Tağıyev "Kaspi" qəzetini pulla almış və Türkiyədən çoxlu hürufat gətirdərək qəzetin nəşrini davam etdirmişdi. Bundan başqa Bakıda iki əsas nəşriyyat yaranmışdı. Bunlardan biri Oruc, Qənbər, Abuzər Orucov qardaşlarının, o biri isə Haşımbəy Vəzirovun nəşriyyatı idi. Hər iki nəşriyyatın özünün xüsusi mətbəəsi vardı. Orucov qardaşlarının elektrik mətbəəsi daha təkmilləşmiş mətbəə idi. Burada hər cür mətbəə maşınları mövcuddu. Qəzetlərdən çoxu Bakı milyonçularının imtiyazı ilə çıxırdı. Məsələn, Tağıyev "Kaspi" qəzetindən başqa "Füyuzat" məcmuəsi və "Təzə həyat" qəzetinin də

imtiyaz sahibi idi. İsabəy Aşurbəyov "Hümmətçilərin" bir neçə mətbuat orqanını, "İrşad" qəzetini və "Şəlalə" məcmuəsini maliyyələşdirirdi. "Tərəqqi" qəzeti milyonçu Murtuza Muxtarovun vəsaiti ilə çap olunurdu.

Bir tərəfdən mətbuat azadlığı, o biri tərəfdən onların nəşri üçün maliyyə-pul vəsaitinin olması Bakıda jurnalistlərin sayını xeyli artırmışdı. Hətta Turkiyədən, İrandan və Krımdan da jurnalistlər gələrək, Bakı qəzetlərində işləyirdilər. Qəzet və məcmuələrdən əlavə mətbəələrdə kiçik tirajlarla olsa da Azərbaycan yazıçılarının əsərləri kitab şəklində çap edilib yayılırdı.

Azərbaycanda çap edilən qəzet və məcmuələrin siyahısını 1918-1919-cu illərin görkəmli mühərriri Mirzəbala Məmmədzadə "Azərbaycan türk mətbuatı" adlı əsərində çox yığcam şəkildə vermişdir.

1905-ci ildə Azərbaycan dilində çıxan ilk qəzet "Həyat" oldu. Bu təzetin birinci nömrəsi 1905-ci il iyun ayının 7-də çıxmışdı. Qəzet Topçubaşovun imtiyazı, Əhmədbəy Ağayev və Əlibəy Hüseynzadənin müdirliyi ilə çap olunurdu. Bir müddətdən sonra Əhmədbəy Ağayev qəzetdən gedir və qəzet 1906-cı ilin payızınadək Əlibəy Hüseynzadənin müdirliyi ilə çıxır. "Həyat"ın səhifələrində dövrün qabaqcıl ziyalılarından Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Nəcəf bəy Vəzirov, Ə. B. Haqverdiyev, Həsən Səbri Ayvazov, Məhəmməd Hadi, Mehdibəy Hacınski, görkəmli ruhanilərdən Axund Mirzə Abu Turab, Axund Molla Ələkbər və başqaları çıxış edirdilər.

Məlum olduğu üzrə o dövrlərdə xarici xəbərləri çap etmək bütün yerli türk qəzetlərinə qadağan edilmişdi. Vaxtı ilə "Əkinçi" qəzeti səhifələrində də dünya xəbərlərini yayınlamağa H. Zərdabiyə icazə verilməmişdi.

"Həyat" qəzeti isə dünya xəbərlərini müntəzəm olaraq dərc edirdi.

**"İrşad" qəzeti**. - Əhmədbəy Ağayev "Həyat" qəzetindən gedəndən sonra "İrşad" adlı yeni bir qəzet çıxarmağa başlayır. "İrşad" siyasi, ictimai, iqtisadi və elmi bir qəzet idi. Əhmədbəy Ağayev dövrünun görkəmli ədib və mühərrirlərini qəzet ətrafına toplaya bilmişdi. Bunlardan Haşımbəy Vəzirovu, M. Ə. Rəsulzadəni, Üzeyir bəy Hacıbəylini, Ə. A. Müznibi və başqalarını göstərmək olar. Qəzet birinci il həftədə üç dəfə, ikinci il həftədə 4 dəfə və bəzi hallarda isə həftədə 5 dəfə çıxırdı.

**"Tərəqqi" qəzeti**. - "İrşad" qəzeti bağlandıqdan sonra Əhmədbəy Ağayev tərəfindən çıxarılırdı. Birinci nömrəsi 1908-ci il iyun ayının 3-də çıxmışdır. İmtiyaz sahibi M. Muxtarov idi. Qəzetin adı "Tərəqqi" sözünün altında "Hürriyyət, müsavat, ədalət" sözləri yazılmışdı. Siyasi, ədəbi, ictimai və iqtisadi bir qəzet idi. "Tərəqqi" əvvəllər həftədə 5 dəfə, ilin axırına doğru gündəlik çıxırdı. Əhməd bəy Ağayev İstanbula gedir, qəzet də bir müddətdən sonra bağlanır. Bundan sonra Muxtarov "Tərəqqi" mətbəəsini alıb Haşım bəy Vəzirovun sərəncamına vermişdi.

**"Füyuzat" məcmuəsi**. - "Həyat" qəzeti bağlandıqdan sonra Əlibəy bu məcmuənin nəşrinə başlamışdı. İlk nömrəsi 1906-cı il 1 noyabrda çıxmışdır.

İmtiyaz sahibi H. Z. Tağıyev idi. Ədəbi, siyasi, fənni və ictimai həftəlik məcmuə idi. Onun səhifələrində əsasən Ə. B. Hüseynzadə özü, M. Hadi, Abbas Səhhət, Əhməd Kamal, M. Ə. Rəsulzadə, Sabir, Həsən Səbri Ayvazov və başqaları çıxış edirdilər. Məcmuənin nəşri 1 noyabr 1907-ciilədək davam etmişdir.

**"Dəbistan" məcmuəsi**. - Məktəblilər üçün idi. Birinci nömrəsi 1906-cı ildə çıxmışdır. Məcmuənin səhifələrində o dövrun görkəmli müəllimləri iştirak edirdilər. Naşiri Məhəmməd Həsənbəy, mühərriri isə Əliİskəndər Cəfərzadə idi. Məcmuə 1908-ci il martın 10-dək davam etmişdir. Lakin çapa başlandığı gündən məcmuənin sayı ildən-ilə azalırdı. Məsələn, birinci il 18 nömrə, ikinci il, yəni 1907-ci ildə 7 nömrə çıxmışdısa, üçüncü ildə - 1908-ci ildə cəmi 2 nömrə çıxmışdı.

**"Təkamül" qəzeti**. - Həftəlik sosialist qəzeti idi. 1906-cı ildən nəşrə başlayıb və həmin ildə də bağlanıb. Qəzetdə iştirak edən mühərrirlər: Soltan Məcid Əfəndizadə, M. Ə. Rəsulzadə, Seyid Musəvi, Əsədulla Axundov və başqaları idi.

**"Molla Nəsrəddin" məcmuəsi.** - 1906-cı ildə Tiflisdə çap olunmağa başlayan siyasi, ictimai, ədəbi, satirik məcmuə idi. 1915-ci ilədək müntəzəm çıxmışdır. Ondan sonra məcmuənin nəşri dayandırılmış, sonra təzədən çıxmışdı. 1920-ci ildə Təbriz şəhərində 8 nömrəsi çıxmışdır. Nəşri Sovet hakimiyyəti illərində də davam etmişdir.

**"Təzə həyat" qəzeti.** - Birinci nömrəsi 1907-ci il 1 apreldə çıxmışdır. Naşiri H. Z. Tağıyev, mühərriri isə Haşımbəy Vəzirov idi. Gündəlik ədəbi, siyasi qəzet idi. 1908-ci il 7 oktyabrda hökümət tərəfindən bağlanmışdır. Qəzetin səhifələrində Haşımbəy Vəzirov, Seyid Hüseyn Sadiq, Əliabbas Müznib, Məhəmməd Hadi, Hacı İbrahim Qasımov və başqaları çıxış edirdilər.

**"Bəhlul" məzhəkə məcmuəsi**. - Ömrü çox qısa olmuş məcmuələrdən biridir. 1906-cı ildə çap olunmağa başlamış, bir-iki nömrə çıxandan sonra bağlanmışdır. Müdiri Ələsgər Əliyev idi.

**"İttifaq" qəzeti**. - Bu qəzet "Təzə həyat" qəzeti bağlandıqdan sonra Haşımbəy Vəzirov tərəfindən buraxılmışdır. Qəzet artıq "Kaspi" mətbəəsində deyil, yeni təşkil olunmuş Orucov qardaşları mətbəəsində nəşr edilirdi. Qəzetin birinci nömrəsi 1908-ci il dekabrın 1-də çıxmışdı. 1909-cu ildə isə hökümət tərəfindən bağlanmışdı. Qəribə idi ki, qəzetin mühərriri H. B. Vəzirovu cəzalandırmaq əvəzinə Rəşid bəy Yusifzadə Türküstana sürgün edilmişdi.

**"Dəvət-Qoç" qəzeti.** - Azərbaycan və erməni dillərində çıxırdı. Qəzet əsas etibarilə erməni-müsəlman qırğınının qarşısını almaq uğrunda mübarizə aparırdı. Qəzet İsabəy Aşurbəylinin müdirliyi altında çıxsa da qəzetin təşkilində mühüm rolu Mir Həsən Mövsümov oynamışdı. Qəzetin səhifələrində onun bir sıra felyetonları dərc edilmişdi.

**"Zənbur" məzhəkə məcmuəsi**. - Həftədə bir dəfə şəkilli çıxırdı. Birinci nömrəsi 1906-cı il 13 martda çıxmışdır. Naşiri Əbdülxalıq Axundov idi. Birinci

ilin ikinci yarısında məcmuəyə Əzim Əzimzadə müdirlik etmişdir. 1907-ci ildə Əzimzadəni knyaz Murtuz Palavandov əvəz etmişdir. 1967-ci il iyun ayının 25-dən məcmuənin baş mühərriri Əliabbas Müznib olmuşdur.

**"Rəhbər" məcmuəsi**. - Birinci nömrəsi 1906-cı ildə buraxılmışdı. Aylıq məcmuə idi. Məcmuənin naşiri və müdiri müəllim Mahmudbəy Mahmudbəyov idi. Cəmi 3-4 nömrə çıxmışdır. Ən fəal müəlliflər Mirzə Ələkbər Sabir ilə Abbas Səhhət idi.

## RUS DİLİNDƏ MƏTBUAT

**"Baku" qəzeti**. - 1902-ci ildən çıxırdı. 1907-ci il 20 apreldə Bakı qradonaçalniki Konevski tərəfindən bağlanmışdır.

**"Bakinskaya izvestiya"** adı altında 1876-cı ildən başlayaraq müxtəlif zamanlarda eyni adda üç qəzet çıxmışdır: 1. Rusiya texnika cəmiyyəti Bakı şöbəsinin həftədə iki dəfə çıxan qəzeti (Redaktor və naşiri V. Neruçev idi). 1876-87-ci illərdə çap edilmişdir. 2. Gündəlik ictimai, siyasi və ədəbi qəzet idi. 1902-1907-ci illərdə çap edilirdi. (Naşiri və redaktoru Qrinyov və başqaları idi). 3. Gundəlik axşam qəzeti idi. 1915-ci ildən çıxırdı. (Redaktoru Koçarov idi).

**"Mayaq"** - həftəlik dənizçilik, ticarət və sənaye və ədəbi qəzet idi.

**"İzvestiya Soveta raboçix deputatov".**

**"Yakor"** gündəlik, ictimai, siyasi ədəbi qəzet idi. Birinci nömrəsi 1906-cı il 1 yanvarda çıxıb.

**"Qafqazskoye slovo"** gündəlik ictimai, siyasi, iqtisadi və ədəbi qəzet idi.

**"Bakinskaya jizn"** gündəlik ictimai, siyasi, ədəbi qəzet idi. Birinci nömrəsi 1906-cı il 13 yanvarda çıxıb. Həmin ilin 12 martında bağlanıb.

**"Bakinskiye otqoloski"** gündəlik qəzet idi. Birinci nömrəsi 1906-cı il 25 yanvarda çıxmışdır.

**"Trud"** gündəlik qəzet idi. İlk nömrəsi 1906-cı il 14 apreldə çıxıb. Sənaye və kənd təsərrüfatı fəhlələrinin mənafeyini qorumağı öz qarşısına məqsəd qoymuşdu.

**"Trudovaya jizn"** qəzetinin ilk nömrəsi 1906-cı il 11 iyunda, 26-cı nömrəsi isə 12 iyulda çıxmış və sonra general-qubernator Fadeyev tərəfindən bağlanmışdır.

**"Prizıv"** - axşam qəzeti idi. Fəhlə sinfinin mənafeyini qorumağı öz qarşısına məqsəd qoymuşdu. İlk nömrəsi 1906-cı il 12 iyunda, 3-cü nömrəsi isə həmin ilin 14 iyulunda çıxmışdır.

**"Bakinskaya qazeta" -** gündəlik qəzet idi. Sənaye və kənd təsərrüfatı fəhlələrinin mənafeyini qoruyurdu. İlk nömrəsi 1906-cı ilin 13 iyulunda çıxmış və bununla da qəzet öz fəaliyyətinə son qoymuşdu.

**"Bakinets" qəzeti** - həftəlik ictimai, siyasi, ədəbi qəzet idi. 1907-ci ildən çap edilməyə başlamış, 1920-ci ilədək davam etmişdir.

**"Bakinski raboçi"** qəzeti neft sənayesi fəhlələrinin həftəlik ictimai, siyasi, ədəbi orqanı idi. İlk nömrəsi 1906-cı ildə gizli şəraitdə çap olunmuşdur. Lakin polis təqibləri nəticəsində sonrakı nömrələri çıxmamışdır. 1908-ci ilin 6 sentyabrından həftəlik qəzet kimi təzədən leqal çap edilməyə başlamışdır. 1908-ci ilin oktyabrında hökümət tərəfindən bağlanmışdır. 1917-ci ilin 22 aprelindən RSDFP-nın Bakı komitəsinin orqanı kimi yenidən çap edilməyə başlamışdır. Qəzetin axırıncı 267-ci nömrəsi (Bakıda Sovet hakimiyyəti devrildikdən sonra) 1918-ci ilin 11 avqustunda gizli şəraitdə çap edilmişdir.

1920-ci il iyulun 15-dən "Azerbaydjanskaya bednota" adı ilə öz nəşrini davam etdirmişdir. 1920-ci il noyabrın 7-dən təzədən "Bakinski raboçi" adı ilə çıxmağa başlamışdır.

**"Bakinski dosuq"** - 1906-cı il 18 dekabrdan 1907-ci il martın 12-dən çıxan həftəlik menşevik qəzeti idi.

**"Nabat"** - təxminən 1906-cı ilin mart-aprel aylarında cəmi iki nömrə çıxmış tələbə demokrat təşkilatının inqilabi məcmuəsi idi. Lakin onun nüsxələrindən heç biri bizə gəlib çatmamışdır

## ZİYALILAR

XX əsrin əvvəllərində Azərbaycanda maarif və mədəniyyətin inkişafına çar məmurları hər vasitə ilə mane olmağa çalışırdılar. Çar mütləqiyyətinin məhz qatı müstəmləkəçilik siyasəti nəticəsində idi ki, Azərbaycanın nəinki ucqar guşələrində, hətta Bakının özündə də əhalinin əksəriyyəti savadsız qalmışdı. Maarif və məktəblərin tərəqqisi üçün dövlət xəzinəsi hər adam başına ancaq 64 qəpik vəsait ayırırdı. Azərbaycanda ana dilinin təlimi isə demək olar ki, qadağan olunmuşdu. Rus dilində oxuyan azərbaycanlılara öz ana dillərində bir kəlmə də danışmağa icazə verilmirdi. Azərbaycan dilində dərsliklər yox dərəcəsində idi. 1906-cı il avqustun 15-də Bakıda çağırılmış müsəlman Qafqaz müəllimlərinin 1-ci qurultayında bu məsələ çox ciddi şəkildə qoyulmuşdu. Qurultayda Azərbaycan məktəblərinin genişləndirilməsi, Azərbaycan dilinin tam hüquqlu dil kimi təlim edilməsi, Qoridə olan müəllimlər seminariyası Azərbaycan şöbəsinin Azərbaycanın şəhərlərindən birinə köçürülməsi məsələləri ilə yanaşı olaraq, xalqlar arasındakı nifaqı aradan qaldırmaq üçün bütün müəllimləri səfərbər olmağa çağırmışdı. Qurultay hətta erməni müəllimlərinə müraciət də qəbul etmişdi. Qurultay çıxardığı

qərarda yuxarıda göstərilən məsələlərin və Azərbaycan dilinin təlim edilməsi məsələsinin həll edilməsini hökümətdən xahiş edirdi. Qərarın mətni iclasın sədri Həsən bəy Zərdabi tərəfindən yazılmışdı. Müzakirə zamanı Nəriman Nərimanov qərarın hakim dairələrə bu şəkildə göndərilməsinə etiraz edir. O təklif edir ki, qərarda "qurultay xahiş edir" əvəzinə "qurultay tələb edir" yazılsın. Nərimanovun bu təklifi səsə qoyulur və əksəriyyət səslə qəbul olunur. İclasın sədri Həsən bəy Zərdabi bu məsələni H. Z. Tağıyevə çatdırır. Ertəsi gün Tağıyev qurultaya gəlir və qurultaydakılardan xahiş edir ki, qərarı dəyişdirsinlər. Burada onunla Nərimanov arasında ilk dəfə olaraq, münaqişə baş verir və Tağıyev hətta Nərimanovu təhqir edir. Əlbəttə bu məsələyə bir tərəfli yanaşmaq səhv olardı. Buradan o çıxmasın ki, Tağıyev məktəblərdə Azərbaycan dilinin təlimi əleyhinə idi. Əksinə, uşaqların öz ana dillərində təlim almaları Tağıyevin çoxdankı arzusu idi. Tağıyevi narazı salan məsələnin qoyuluş tərzi idi. Tağıyev çar mütləqiyyəti qarşısında həmişə ehtiyatla hərəkət edirdi. Öz əməllərini həyata keçirmək üçün demokratik ziyalılardan fərqli olaraq çarizmə özünə xas bir etidallıqla yanaşırdı və bununla da xalqın mənafeyinə olan tədbirlərin həyata keçirilməsinə həmişə müvəffəq olmuşdu. O çarizmlə ixtilafa girişmək istəmirdi. Məsələn, Bakıda qız məktəbinin açılmasında çarizm məmurları tərəfindən maneçilik törədiləcəyini qabaqcadan bildiyi üçün məktəbin Nikolayın arvadı Aleksandranın adına qoyulduğunu elan edir. Beləliklə də məktəbin yaradılmasına çar mütləqiyyəti tərəfindən heç bir maneə törədilmir. Tağıyev bilirdi ki, bu məktəb heç zaman Aleksandra məktəbi kimi tanınmayacaq, o ancaq gözdən pərdə asmaq üçün idi. Elə də oldu. Sonralar hamı məktəbi Aleksandra məktəbi kimi yox, sadəcə olaraq, Tağıyevin qız məktəbi kimi tanıyırdılar.

1905-ci il inqilabından sonra Azərbaycan dilinin təlimi Azərbaycan ziyalıları qarşısında ən vacib məsələ kimi dururdu. Həmin illərdən Azərbaycan dilinin imlası, qrammatikası, qiraəti barədə əsərlər yazılmağa başladı. Demokratik ziyalı qüvvələr H. Zərdabi, Həbibbəy Mahmudbəyov, S. M. Qənizadə, Üzeyir Hacıbəyli, Rəşid bəy Əfəndiyev xalq maarifinin inkişafı uğrunda, proqressiv üsullar əsasında yeni məktəblərin yaradılması uğrunda mübarizəyə girişdilər. 1907-ci ildə Üzeyir Hacıbəyli "Türk-rus və rus-türk lüğəti" kitabını yazdı. Abdulla Şaiq "Uşaq çeşməyi", Mahmudbəy Mahmudbəyov Abbas Səhhətlə birlikdə "Yeni məktəb", "Türk ədəbiyyatına ilk qədəm" dərsliklərini yazdılar. Məktəblərdə təlimin yeni üsulla keçilməsi sahəsində tezliklə böyük addımlar atıldı.

Ötən əsrin axırlarında Azərbaycan ziyalılarından bəziləri hələ 1883-cü ildən Krımda (Baxçasarayda) çap olunan "Tərcüman" qəzetinin böyük təsiri altında idi. Bu qəzet H. Z. Tağıyevin maddi müavinəti ilə çap olunurdu. Qəzet Rusiyada yaşayan müsəlmanların bir növ qeyri-rəsmi orqanı idi. Qəzetin redaktoru İsmayılbəy Qaspirinski Rusiya imperiyasına özünün bitərəf münasibətini

bildirməklə bərabər ona müsəlmanların tərəqqi və inkişafına kömək edən bir dövlət kimi baxırdı. Bununla belə o çarizmin ruslaşdırma siyasətinin təhlükəsini yaxından duyurdu. Buna görə Rusiya imperiyasının daxilində yaşayan müsəlmanların türkçülük və İslamçılığa münasibətinin proqramını hazırlamaqla məşğul olurdu. Rusiya müsəlmanlarının əksəriyyətlə türklərdən ibarət olması və onun proqramında pantürkizm və panislamizm ünsürlərinin dərin kök atması ilə əlaqədar müdafiə etdiyi cərəyan panislamizm və pantürkizm adlanırdı. Lakin Qaspirinski türk xalqlarının birləşməsindən danışarkən onları heç zaman siyasi fəaliyyətə çağırmırdı. Başa düşürdü ki, belə bir təşəbbüs mövcud şəraitdə əvvəlcədən uğursuzluğa məhkum edilə bilər. Onun fikrincə birləşmək ancaq, ruh, dil və mədəniyyət baxımından olmalıdır. Buna görə "dildə, fikirdə, işdə birlik" onun əsas şüarı olmuşdu. Bu məqsədə nail olmaq üçün Balkan ölkələrindən tutmuş Çinədək türk xalqlarının hamısının anlayacağı vahid bir dilin yaradılmasına çalışırdı. "Tərcüman"ın səhifələrində doğrudan da belə bir dil yaradılmışdı. Bu dilin də əsasını Osmanlı türk dili təşkil edirdi.

Bakıda Qaspirinski ideyalarının davamçısı Əli bəy Hüseynzadə idi. Onun Peterburqda tibbi təhsil almasına baxmayaraq, Bakıya qayıtdıqdan sonra vahid türk millətinin yaradılması ideyasının ancaq Türkiyədə mümkün olacağını düşünərək, 1889-cu ildə İstanbula gedir. Lakin o zaman II Əbdülhəmid hakimiyyəti dövründə pantürkizm ideyalarının yayılmasında çətinlik çəkirdi. Həmin bu vaxt 1905-ci il inqilabından sonra Bakıda əlverişli şərait yarandığını eşidən kimi Bakıya qayıdır. Burada həm mühərrir və həm də müəllim işlədiyi illərdə pantürkizm və panislamizm ideyalarının yayılması ilə məşğul olur.

Birinci cahan müharibəsi başlandığı zaman Əlibəy Hüseynzadə Türkiyədə idi. 1915-ci ildə o bir dəstə mühacirlə birlikdə Avstriya-Macarıstana gedir və Rusiya müsəlmanlarının nümayəndəsi kimi almanlardan xahiş edir ki, bütün müsəlman əyalətlərinin Rusiyadan ayrılmasında onlara kömək etsinlər.

Pantürkist Azərbaycan ziyalılarının ikinci görkəmli nümayəndəsi Əhməd bəy Ağayev idi. Əhməd bəy ali təhsilini Fransada almışdı. Orada olduğu müddətdə panislamizm barədə bir sıra risalələr də çap etdirmişdi. Əhməd bəyin görüşlərində Hacı Seyid Cəmaləddin Əfqaninin böyük təsiri vardı. Əslən İrandan olan Əfqani XIX əsr İslam modernizminin bariz nümayəndəsi idi. Onun fikrincə İslamla zəka və azadlıq vəhdət təşkil etməlidir. Buna görə İslam dininə xas olan ehkamçılıq və təriqətçilikdən uzaqlaşmağı tövsiyə edirdi. Ancaq bununla belə müstəmləkəçiliyə qarşı mübarizə aparmaqdan ötrü millətçilikdən kəskin bir silah kimi istifadə etməyi lazım bilirdi. Əhməd bəy Ağayevi Əfqaniyə yaxınlaşdİran məhz bu cəhətlərdi. Ancaq qəribə görünsə də onun əsərləri açıqdan-açığa İran meyilli idi. Bununla belə o türk millətçisi kimi böyük şöhrət qazanmışdı. 1885-ci ildə Türkiyədən Azərbaycana qayıtdıqdan sonra belə qənaətə gəlir ki, İran deyil, məhz Türkiyə

böyük müstəqil İslam dövləti hesab olunmalıdır və bütün dünyada İslam dövlətlərinin ən mötəbər dayağı Turkiyə olacaqdır. Bakıda işlədiyi müddətdə qəzet və məcmuə səhifələrindəki bütün çıxışları bu ruhda idi.

Azərbaycan ziyalılarının əksəriyyəti Rusiyada təhsil alıb gəlmiş liberal ziyalılardı. Onlardan bəziləri Peterburqda, Odessada və başqa şəhərlərdə H. Z. Tağiyevin müavinəti ilə təhsil almışdılar. Onların içərisində hüquqşünaslar, həkimlər, hərbçilər, texniki ziyalılar, müəllimlər və jurnalistlər də vardı. Hüquqşünaslardan Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Xan Xoyski, Aslanbəy Səfikürdski, Xəlil bəy Xasməmmədov, İsmayıl bəy Ziyadxanov və başqalarını göstərmək olar. Həkimlərdən Nəriman Nərimanov, Həsənbəy Ağayev, Qarabəy Qarabəyov, müəllimlərdən Həbib bəy Mahmudbəyov, S. M. Qənizadə, Mahmud bəy Mahmudbəyov, Bədəl bəy Bədəlbəyov, Əbdüləli bəy Əmircanov, Fərhad Ağazadə, Əbdüləli bəy Vəlibəyov, Abdulla Şaiq, Hənifə xanım Məlikova, Şəfiqə xanım Əfəndiyeva və başqaları qeyd edilməlidir. Müəllimlərdən çoxu Tiflis Aleksandr müəllimlər institutunda və Qori seminariyasında təhsil almışdılar.

Azərbaycanda gənc maarifçilərin, müəllimlərin yetişməsi və tərbiyəsində Abdulla Şaiqin xüsusi ilə böyük xidməti olmuşdur. Hazırda yaşlı nəsil içərisində tək-tək adam tapılar ki, Şaiq məktəbini keçməmiş olsun.

Əlimərdan bəy dövrünün ən görkəmli hüquqşünaslarından idi. 1888-ci ildə Peterburq universitetinin hüquq fakültəsini bitirdikdə ona xristian dinini qəbul etdiyi təqdirdə universitetdə qalmaq təklif olunmuşdu. Lakin Topçubaşov bununla razılaşmayaraq, Bakıya qayıdır. 1898-ci ildə H. Z. Tağıyev "Kaspi" qəzetini mətbəəsi ilə birlikdə alaraq, Topçubaşovun sərəncamına verir. Onun "Kaspi"yə gəlməsilə qəzetin həyatında böyük dəyişiklik yaradılır. Hər şeydən əvvəl Azərbaycan ziyalıları qəzet ətrafına cəlb edilir. Qəzetin tematikası genişlənir. Azərbaycan xalqının tarixinə və soyuna aid ciddi məqalələr dərc edilməyə başlanır. Bakıda incəsənətin və teatrın inkişafına diqqət artır. 1904-cü ildə Topçubaşov Bakının həvəskar aktyorlarını yanına çağıraraq, onlara yeni bir teatr kollektivi yaratmağı təklif etmişdi.

Topçubaşov eyni zamanda böyük ictimai xadim idi. O birinci Dövlət Dumasına üzv seçilmişdi. Dumanın iclaslarında cəsarətlə çıxış edərək, müstəmləkə xalqlarına milli muxtariyyət verilməsini tələb edirdi.

1918-ci ilin 28 mayında Azərbaycan Demokratik Respublikası yaradıldığı zaman Xan Xoyskinin başçılıq etdiyi ilk hökümət kabinetində Topçubaşov xarici işlər naziri olmuşdur. Bir müddətdən sonra Topçubaşov Türkiyə hököməti ilə danışıqlar aparmaq üçün Gəncədən İstanbula gedir. Türkiyə dövrü Topçubaşov üçün çox məhsuldar keçmişdi. İstanbulda keçirdiyi danışıqlarla yanaşı olaraq, Azərbaycan dövlətinin başqa, ölkələr tərəfindən tanınmasına çalışır və "Azərbaycanın təşəkkülü" adlı kitab da çap etdirir. Topçubaşov hələ Türkiyədə

ikən 1918-ci ilin 7 dekabrında Bakıda açılmış Azərbaycan parlamentində parlamentin sədri seçilir. 1919-cu ildə Versal sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinə sədr təyin olunur.

Bakı zorla sovetləşəndən sonra Topçubaşov vətəninə qayıda bilməmişdi. 1934-cü il noyabr ayının 8-də qürbətdə, Fransada ölmüş və orada dəfn edilmişdir. Onun yazıb, yadigar qoyduğu "Qafqaz Azərbaycanı respublikası" və "Qafqaz Azərbaycanı respublikasının Paris sülh konfransına memorandumu" əsərləri diqqətəlayiq kitablardır.

Azərbaycan ziyalılarından memar Zivərbəy Əhmədbəyov (1873-1925) Azərbaycanın memarlığı tarixində görkəmli yer tutan bir şəxsiyyət idi. O ali memarlıq təhsili almış ilk azərbaycanlıdır. 1902-ci ildə Peterburq Mülki Mühəndislər İnstitutunu bitirmişdir. O vaxtdan Bakıda memar kimi işləmişdir. 1918 - 1922-ci illərdə Bakının baş memarı olmuşdur. Onun layihəsi ilə Bakıda və Bakı ətrafında bir çox gözəl binalar ucaldılmışdır. Cümə məscidi, Göy məscid, Mixail xəstəxanası (indiki Əzizbəyov adına doğum evi), "Səadət" məktəbinin binası, Uşaq xəstəxanası (indiki elmi-tədqiqat ana və uşaq mühafizəsi institutunun binası) onun layihələri əsasında tikilmişdir.

Bakıda neft sənayesinin inkişafı ilə əlaqədar texniki biliklər sahəsində də ziyalılar yetişmişdi. Onlar bir qayda olaraq, Peterburqda ali təhsil alandan sonra Bakıya qayıdır və Bakı neft istehsalının müxtəlif sahələrində çalışırdılar. Belə texniki ziyalılardan Fətəli bəy Rüstəmbəyov, Məşədi bəy Əzizbəyov, Behbudov və başqalarını göstərmək olar.

Neft sənayemizin inkişafı tarixində F. Rüstəmbəyovun (1867-1946) xüsusilə böyük xidməti olmuşdur. F. Rüstəmbəyov Bakıda realnı məktəbi bitirdikdən sonra Peterburq Texnoloji İnstitutuna daxil olmuşdur. 1893-cü ildə institutu bitirib Bakıya gəlir və 1893-cü ilədək neft sənayesinin müxtəlif sahələrində mühəndis kimi işləmişdir. 1898-1920-ci illərdə isə Bakı milyonçusu Musa Nağıyevin neft müəssisələrini idarə etmişdir. O, Musa Nağıyevi həmişə şəhərdə uca, yaraşıqlı binalar tikdirməyə həvəsləndirmiş və binaların tikilməsində yaxından iştirak etmişdir. "İsmailiyyə" kimi əzəmətli binanın tikilişi Nağıyevin xəsisliyi ucbatından arada yarımçıq qalmışdı. Məsələ belə olmuşdu: "İsmailiyyə"nin tikilişi layihəsində Nağıyevi qorxuya salmamaq üçün smetada xərc az göstərilmişdi. Binanın birinci mərtəbəsi tikilib başa çatanda smetada göstərilmiş vəsait qurtarır. Nağıyev bunu eşitdikdə hirslə deyir ki, gerisini tikdirməyəcəyəm. Məni müflis elədiniz. Rüstəmbəyov onu nə qədər dilə tutursa, bir nəticə vermir. Axırda Rüstəmbəyov H. Z. Tağıyevə müraciət edir. Tağıyev Nağıyevi bir təhər razı salandan sonra binanın tikilişi davam etdirilir. İndiki Semaşko xəstəxanası binasının tikilməsində də Rüstəmbəyovun xeyirxah köməyi olmuşdur. Musa Nağıyevin işlər müdiri işlədiyi müddətdə bir nəfər də ondan narazı qalmamışdı. O

bütün fəaliyyəti boyu neft quyularının amansızcasına istismar edilməsi əleyhinə olmuşdur.

1922-ci ildən 1935-ci ilədək Azərneft rəisinin birinci köməkçisi olmuşdur. Sonralar Azərneftin Dəniz komitəsinə başçılıq edirdi. Rüstəmbəyovun rəhbərliyi ilə neft çıxarma və neft emalı texnikası təkmilləşdirilmiş, neft mədənlərində vurma qazması üsulundan rotorla qazma üsuluna keçilmişdir. Xəzər sualtı neft sahələrinin işlənməsinə aid yazdığı elmi məqalələri dəniz neft mədənlərinin genişlənməsinə böyük kömək etmişdir.

F. Rüstəmbəyov eyni zamanda ali texniki məktəbdə müəllimliklə məşğul olmuşdur.

1905-ci ildən 1920-ci ilədək mətbuat ətrafında toplaşmış yazıçı və şairlərin, mühərrir və jurnalistlərin ictimai, milli düşüncənin oyanmasında böyük xidmətləri olmuşdur. M. Ə. Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Azərbaycan milli operasının banisi Üzeyir Hacıbəyov, böyük satira ustaları M. Ə. Sabir, Cəlil Məmmədquluzadə, Azərbaycan dramaturgiyasının görkəmli nümayəndələri Ə. Haqverdiyev, Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, şairlərdən Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, nasirlərdən Abdulla Şaiq, Seyid Hüseyn Sadiq, Yusif Vəzirov (Çəmənzəminli) milli ədəbiyyatımızın fəxri idilər.

"Füyuzat", "Şəlalə" və başqa mətbuat orqanlarında öz şerləri ilə yaxından iştirak edən şair Məhəmməd Hadinin həyatı faciəli keçmişdir. Şair 1902-ci il Şamaxı zəlzələsindən sonra Kürdəmirə köçmüş və orada məktəb açaraq, müəllimliklə məşğul olmuşdur. 1905-ci ildən sonra Həştərxana gedir və orada "Bürhani tərəqqi" məcmuəsində çalışır. Bir müddətdən sonra məcmuənin redaktoru olur. Həştərxandan qayıtdıqdan sonra Bakıda "Füyuzat" məcmuəsi redaksiyasında işləmiş, "Təzə həyat", "Həqiqət", "İttifaq", "Tərəqqi" qəzetlərinin səhifələrində öz odlu şerləri ilə çıxış etmişdir. 1911 - 1914-cü illərdə Türkiyədə olur. İstanbulda çap olunan "Tənin" və "Sərvətifünun" redaksiyasında işləyir. Əbdülhəmid zülmünə qarşı yazdığı şerləri üstündə həbs edilib, Saloniki şəhərinə sürgün olunur.

Birinci cahan müharibəsi başlayanda şair Bakıya qayıtmışdı. Bu zaman Bakıda təşkil olunmuş müsəlman alayı ilə birlikdə müharibəyə yola düşür. Sonra o müsəlman alayına imam təyin olunur. Alayla birlikdə Karpatlardakı döyüşlərdə iştirak edir. 1918-ci ildə müharibədən qayıtdıqdan sonra bir müddət Gəncədə yaşayır, sonra Bakıya qayıdır. Xalqının böyük ehtiyac içərisində keçirdiyi güzəranı, ölkədə yaranmış ağır siyasi, iqtisadi böhran onun üçün ağır bir dərd olur. Bədbin, düşgün bir əhvali-ruhiyyəyə qapılır. Vətən övladlarının ağır vəziyyəti onu dərindən düşündürür, xəyallarını alt-üst edir. Xalqını həmişə başqa mədəni xalqlarla bir sırada görmək arzusu ilə çırpınır:

İmzasını qoymuş miləl övraqi həyatə,

Yox millətimin xətti bu imzalar içində.

Böyük şairin faciəli günləri başlayır. Maddi ehtiyac onu öz məngənəsində boğur, dolanmaq üçün şerlərini yaxın dostları vasitəsilə vərəqələrdə çap etdirib, özü küçə və meydanlarda satırdı. Nəhayət Gəncədə həyatı səfilanə bir ölümlə bitir.

Azərbaycan ziyalıları içərisində Abbas Səhhət (1874-1918) öz tərcüməçilik fəaliyyəti ilə fərqlənirdi. O ixtisas üzrə həkim idi. 1900-cü ildə Tehranda tibb institutunu bitirmişdi. Vətəni Şamaxıya qayıtdıqdan sonra orada həkimliklə məşğul olmuş və eyni zamanda Bakı mətbuatında öz lirik şerləri ilə çıxış edirdi. Səhhət incə qəlbli lirik bir şair idi. "Şair və şeir pərisi" şerində şairi xalq həyatına bağlanmağa, ilhamını məhz həyatdan almağa çağırırdı. Bir tərcüməçi kimi misilsizdi. Tərcümələri öz emosionallığı və dəqiqliyi ilə orijinalla eyni səviyyədə dururdu. Rus, fars, ərəb və fransız dillərinə yiyələndiyi üçün tərcüməni birbaşa orijinaldan edirdi. Puşkindən, Lermontovdan, Krılovdan, M. Qorkidən, V. Götedən, A. Mussedən etdiyi tərcümələr ona böyük şöhrət qazandırmışdı.

Yaradıcılığının ilk dövrlərinə xas olan ziddiyyətlər, yəni bir tərəfdən maarifə, mədəniyyətə çağırış, o biri tərəfdən bədbinlik, sonralar dünyagörüşü genişləndikcə realizmə qüvvətli meyllə əvəz olunur.

Səhhət 1918-ci ildə Gəncədə vəfat etmişdir

## BAKILI ZİYALILAR

19-cu əsrin axırları və 20-ci əsrin əvvəllərində Bakı şəhərinin özündən görkəmli ziyalılar yetişmişdi. Bunlar köklü-əsilli bakılılar idi: burada doğulmuş, burada böyümüşdülər. Azərbaycan ziyalıları ilə əl-ələ verib, ölkənin ictimai həyatında xidmət göstərmişlər. Onlar kimlərdi?

**ƏBDÜLXALİQ CƏNNƏTİ (1855-1931).** Bakı şəhərində anadan olmuşdu. "Məcməə üş Şüəra" cəmiyyətinin fəal üzvlərindəndi. Klassik üslubda Azərbaycan və fars dillərində şer və qəzəllər yazmışdır. 1905-1907-ci illərdən sonra şerlərində ictimai motivlər meydana çıxmış və müasir həyat məsələləri şairi maraqlandırmağa başlamışdır. Onun yeni ruhda yazdığı şerlər o zaman "Təkamül" qəzeti səhifələrində dərc olunurdu. "Qız qalası", "Qılınc və qələm" poemaları maraqla oxunur.

**ƏLİABBAS MÜZNİB MÜTƏLLİBZADƏ (1883-1938).** Bakıda anadan olmuşdur. Yazıçı, jurnalist və ədəbiyyatşünas idi. Ədəbi yaradıcılığa "Molla Nəsrəddin" jurnalının təsiri altında başlamışdı. Çarizmin müstəmləkəçilik siyasəti, haqsızlıq, ictimai ətalət, dini fanatizm şerlərində tənqid olunurdu. Ə. Müznibin Azərbaycan mətbuatında xidməti xüsusilə böyük idi. "Babayi əmir", "Zənbur", "Şəhabi-saqi" satirik jurnallarının redaktoru olmuşdur. Elə bu ucbatdan polis

məmurları tərəfindən həmişə təqiblərə məruz qalmışdı. Bir müddət hətta Sibirə sürgün edilmişdi. Ə. Müznib tərcüməçiliklə də məşğul olmuşdur. 1910-cu ildə "Min bir gecə" nağıllarından tərcümə etdiyi bir parçanı "Əlifleyla" adı ilə çap etdirmişdir. "Ürək yanğısı" və "Tikan kolu" əsərləri oxucularının çox sevdiyi kitablardandı. Öz fəaliyyəti boyu el ədəbiyyatını toplamaqla da məşğul olmuşdur. Uzun illər ərzində topladığı el aşıqlarının, xalq söz sənətkarlarının əsərlərini 1926-cı ildə "Aşıq Pəri və müasirləri" adı ilə kitab şəklində çap etdirmişdir.

**MƏŞƏDİ ƏZİZBƏYOV (1876-1918).** Bakıda anadan olmuşdur. Mühəndis və ictimai xadimdir. İnqilabçıdır. 1896-cı ildə Bakı realnı məktəbini bitirdikdən sonra Peterburq Texnologiya İnstitutuna daxil olmuş və 1908-ci ildə oranı bitirmişdir. Bakıya qayıtdıqdan sonra az müddət mühəndisliklə məşğul olmuşdur. Sonra inqilabi hərəkata qoşulmuş, peşəkar inqilabçı kimi fəaliyyət göstərmişdir. Bakı fəhlələrinin çarizmə qarşı çıxışlarında yaxından iştirak etmişdir. "Nicat" maarif cəmiyyətinin fəal üzvlərindən biri olub. "Dəvət-Qoç" qəzetinin yaranmasında yaxından iştirak edib. 1911-ci ildə Bakı Şəhər Dumasına üzv seçilir. 1918-ci ildə Bakı Xalq Komissarları Sovetində quberniya komissarı, sonra xalq daxili işlər komissarının müavini işləmişdir. 1918-ci il 20 sentyabrda Bakı komissarları sırasında güllələnmişdir.

**MƏMMƏD ƏMİN RƏSULZADƏ** - Axund Hacı Molla Ələkbər oğlu 1884-cü il yanvarın 31-də Novxana kəndində anadan olmuşdur. İbtidai təhsilini mədrəsədə almış, sonra təhsilini ikinci "Rus-müsəlman" məktəbində davam etdirmişdir. Daha sonralar Bakı Texniki məktəbini bitirmişdir. Məktəbdə oxuyarkən inqilabi hərəkata meyl göstərmişdir. Bu illərdə Azərbaycanın siyasi-iqtisadi həyatında böyük dəyişiklər əmələ gəlmişdi. Bakıda neft sənayesinin inkişafı onu bütün dünyada tanıtdırmışdı. Azərbaycanın milli burjuaziyası təşəkkül tapmışdı. Sinfi mübarizə qüvvətlənmiş, milli hərəkat qüvvətlənmişdi. Milli şüur, milli düşüncə qabaqcıl gəncləri vahid bir qüvvədə birləşdirirdi. 1904-cü ildə "Hümmət" demokratik təşkilatı yaradıldıqda Məmməd Əmin onun ən fəal üzvlərindən olur. "Hümmət" qəzeti səhifələrində iştirak edir. "Hümmət"in arxasınca "Təkamül", "Tərəqqi", "İrşad" qəzetləri də çap edilməyə başlayır. Bu qəzetlər Məmməd Əminin bir publisist və jurnalist kimi püxtələşməsinə kömək edir. Təbiidir ki, gənclər içərisində demokratık, inqilabi əhvali-ruhiyyənin artması çarizmi narahat etməyə bilməzdi. Bu səbəbdən demokratik ruhlu ziyalılar polis tərəfindən təqib olunmağa başlayır. Məmməd Əmin daha Bakıda qala bilməyib, İrana gedir. Həmin illərdə, yəni 1909-1910-cu illərdə bütün İranda, o cümlədən Cənubi Azərbaycanda milli azadlıq uğrunda mübarizənin qızğın illəri idi. Səttarxanın başçılıq etdiyi hərəkat bütün ölkəni bürümüşdü. Məmməd Əmin də dərhal bu hərəkata qoşulur və hətta "İrani nou" adlı qəzet buraxır. 1910-cu ildə İran demokratik partiyasına daxil olur. Bu partiyanın rəhbəri Seyid Həsən Tağızadə ilə

dostlaşır və birlikdə əməkdaşlıq edirlər. Tezliklə partiyanın Mərkəzi komitəsinə üzv seçilir.

Səttarxan hərəkatı yatırıldıqda Rəsulzadə daha İranda qala bilmir. Yaxın silahdaşı Tağızadə ilə birlikdə Türkiyəyə mühacirət edir. Onun Türkiyəyə gəlişi, burada da milli oyanış hərəkatına təsadüf edir. O zaman Türkiyədə təşkil edilmiş "Türk ocağı" Türkiyənin qabaqcıl ictimai xadimi Ziya Göyalpla birlikdə Azərbaycan ziyalılarından Əli bəy Hüseynzadəni, Əhməd bəy Ağayevi də öz ətrafına toplamışdı. Məmməd Əmin Rəsulzadə də onlara qoşulur. Həmin illərdə çap olunmağa başlayan "Türk yurdu" qəzetində Məmməd Əmin türkçülüyə aid bir sıra məqalələri ilə çıxış edir.

Həmin illərdə Məmməd Əminə xəbər çatır ki, Bakıda "Müsavat" adlı bir partiya yaradılmışdır. Bu xəbər onu çox sevindirir və 1913-cü ildə Rusiyada Romanovlar sulaləsinin 300 illiyi ilə əlaqədar əfv-ümumi elan edildikdə Rəsulzadə dərhal Bakıya qayıdır. Burada qısa müddət içərisində partiyanın lideri olur, onun siyasi istiqamətinin düzgün ifadə edilməsində böyük rol oynayır. Partiyanın məqsəd və vəzifələri barədə məqalələrlə çıxış edir. O illərdə "İqbal" qəzeti və "Şəlalə", "Dirilik" jurnalları səhifələrində onun məqalələrinə tez-tez rast gəlmək olardı. 1915-ci ildə o "Açıq söz" adlı qəzet nəşr etdirir və onun redaktoru olur. Bu illərdə o Azərbaycanın gələcəyinə dərin inam və möhkəm ümidlə baxırdı. İnanırdı ki, Azərbaycan xalqı tezliklə öz istiqlaliyyətinə qovuşacaqdır. 1917-ci ildə fevral inqilabı baş verdikdə, bu inam onda daha da qüvvətləndi. Bununla belə məsləhət bilirdi ki, bu günü yaxınlaşdırmaq üçün bütün qüvvələri birləşdirmək lazımdır. Çox keçmir ki, Gəncə şəhərində Nəsib bəy Yusifbəylinin başçılığı ilə yaradılmış "Türk ədəmi mərkəziyyət partiyası" ilə Bakıda mövcud olan "Müsavat" partiyası, "Türk ədəmi mərkəziyyət partiyası Müsavat" adı altında birləşərək, vahid bir partiya şəklində fəaliyyət göstərməyə başlayır. Partiyanın sədri M. Ə. Rəsulzadə seçilir. Birləşmiş partiya əsas vəzifəsini milli-ərazi federasiyası üzrə demokratik respublikaların yaradılması məsələsində görürdü. Çar taxtdan salındıqdan sonra 1918-ci ildə Tiflis şəhərində yaradılmış Gürcüstan, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət Seym Zaqafqaziyanın ali dövlət orqanı hesab edilirdi. Lakin Seym özünü doğrultmadı. 26 may 1918-ci ildə Seym buraxıldı. Gürcüstan özünü müstəqil respublika elan etdi. Bir gün sonra isə Seymin keçmiş müsəlman üzvlərinin yığıncağı çağırıldı. Bu yığıncaqda müxtəlif partiya nümayəndələrindən ibarət Milli Şura yaradıldı. M. Ə. Rəsulzadə Şuranın sədri seçildi. Eyni zamanda Nəsib bəy Yusifbəylinin başçılığı ilə Azərbaycan hökuməti yaradıldı. Hökumətə Məmməd Yusif Cəfərov, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Həsən bəy Ağayev, Məmməd Həsən Hacınski və başqaları daxildi. Bu müddətdə türklər artıq Gəncəyə daxil olmuşdular. Bakı isə hələ də bolşeviklərin əlində idi. Hökumət

müvəqqəti olaraq, Gəncə şəhərində yerləşdi, ta 1918-ci ilin 16 iyunundan sentyabrın 15-nədək fəaliyyətini burada davam etdirdi.

Vəziyyət çox gərgin bir şəkil almışdı. Yeni təşkil olunmuş hökümət təhlükə qarşısında idi. Bakı kommunası ordusu Gəncə üzərinə hücuma keçmişdi. Onun tərkibində daşnaklarda vardı. Belə şəraitdə bəzi səbəblərdən Milli Şura istefa verdi.

Xan Xoyski 12 nəfərdən ibarət yeni kabinetin tərkibini elan etdi və Milli Şura onu təsdiq etdikdən sonra öz fəaliyyətini dayandırdı. M. Ə. Rəsulzadə isə gənc Azərbaycan hökümətinin taleyini aydınlaşdırmaq məqsədilə İstanbula gedən nümayəndə heyətinə başçı təyin olundu. O İstanbulda olarkən Bakı türklər tərəfindən artıq azad edilmişdi. Hökümət də Gəncə şəhərindən Bakıya köçmüşdü. Lakin türklər gedəndən sonra onların yerinə gəlmiş ingilis komandanlığı Azərbaycan hökümətini tanımaq istəmədi. O bildirdi ki, respublika guya Azərbaycan xalqının ümumi istəyi ilə yaradılmamış, türk komandanlığı tərəfindən təşkil edilmişdir. Bununla əlaqədar olaraq, 7 dekabr 1918-ci ildə Azərbaycan parlamenti çağırıldı. Parlamenti M. Ə. Rəsulzadə açaraq, bildirdi ki, bir kərə yüksələn bayraq bir daha enməz. O bununla demək istəyirdi ki, Azərbaycan xalqını heç vaxt və heç nə həqiqi azadlıq yolundan döndərə bilməyəcəkdir.

M. Ə. Rəsulzadə nə hökümətdə, nə də parlamentdə vəzifə tutmasa da parlamentdə milli rəhbər kimi böyük nüfuz və ehtirama malikdi. Parlamentdə müzakirə edilən məsələlərin düzgün va real həll edilməsində onun həmişə böyük rolu olmuşdur.

1920-ci ilin 27 aprelində Azərbaycan Demokratik Respublikası süquta uğradı. M. Ə. Rəsulzadə də parlamentin bir çox üzvləri kimi xarici ölkələrə getməyə məcbur oldu.

Uzun müddət Türkiyədə yaşadı. 1955-ci il mart ayının 6-da Ankarada vəfat etdi. Deyilənə görə son nəfəsində üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan" deyərək, gözlərini əbədi yummuşdu.

**SEYİD HÜSEYN SADİQ (1887-1937).** Bakının İçərişəhər hissəsində dənizçi ailəsində doğulmuşdur. Atası Mir Kazım ticarət gəmilərindən birində kapitan işləmişdir. Seyid Hüseyn dörd yaşında ikən atasını itirir. Ailə ağır maddi ehtiyac içində qalır. Seyid Hüseyni babası böyüdür. Babası onu əvvəlcə mollaxanaya qoyur, sonra onu rus-tatar məktəbinə göndərir. Məktəbi bitirdikdən sonra ailənin maddi vəziyyəti onu işləməyə məcbur edir. Əvvəllər "Kaspi" mətbəəsində mürəttib işləyir. Bir müddətdən sonra korrektor olur. Seyid Hüseynin ədəbiyyata meyli də həmin illərdən başlayır. 1903-cü ildən tənqidi məqalələrlə dövrün qəzetlərində çıxış etməyə başlayır. Azərbaycanda Demokratik hökümət zamanı onun fəaliyyəti daha da genişlənir. Mahir bir jurnalist və ədib kimi tanınır. Keçirilən bütün ədəbi disputlarda fəal iştirak edir. Sovet hakimiyyəti illərində Bakı məktəblərində müəllimlik etməklə yanaşı jurnal və qəzetlərdə həm əməkdaşlıq

edir, həm də məqalə, hekayələri ilə çıxış edir. Onun bu illərdə yazdığı "Yeni həyat yollarında" və "İki həyat arasında" romanları Azərbaycan oxucularının ən çox sevdikləri kitablardı. Məhz bu illərdə Seyid Hüseyn incə, lirik hekayələr ustası kimi şöhrət tapmışdı.

1937-ci ildə Seyid Hüseyn repressiya edilmiş və güllələnmişdir. Qəbri yoxdur.

**HÜSEYN ƏRƏBLİNSKİ** - Azərbaycanın görkəmli tragik aktyoru Hüseyn Ərəblinskinin əsl adı Hüseynbala, familiyası isə Xələfovdur. O 1881-ci ildə Bakı şəhərində anadan olmuşdur.

Ərəblinski Azərbaycan professional teatr sənətinin banilərindəndir. Özünün gur səsi, böyük aktyorluq istedadı ilə bütün tamaşaçıların qəlbini ələ ala bilmişdi. Adı afişalarda elan edildiyi gün teatr salonları ağzınadək tamaşaçı ilə dolu olurdu. Tamaşanın axırında onun şərəfinə ucaldılan səslər susmaq bilməzdi. Onun səhnədən eşidilən hər bir sözü tez-tez alqışlarla qarşılanırdı. Ərəblinski ürək və zəka sənətkarı idi. Buna görə ta ölənədək teatr həvəskarlarının sevimlisi idi. Bəzən hələ səhnəyə daxil olmamışdan səhnə arxasından səsi eşidildikdə salonda elə gurultu qopardı ki, aktyor susub tamaşaçıların sakitləşməsini gözlərdi. Roldan çıxmadan başının hərəkəti ilə onlara öz təşəkkürünü çatdırardı.

Hüseyn də bakılıların çoxu kimi dənizçi ailəsində doğulmuşdu. İlk təhsilini mollaxanada aldıqdan sonra rus-müsəlman məktəbinə daxil olmuşdur. Hələ skamya arxasında ikən teatrla maraqlanmış, tez-tez Bakı həvəskarlarının və habelə başqa yerlərdən Bakıya qastrola gəlmiş tanınmış aktyorların oyunlarına tamaşa edər, onların oyunlarından böyük zövq alardı. Beləliklə, teatra olan marağı, nəhayət, onu səhnəyə gətirib çıxarır. 1897-ci ildə ilk dəfə səhnəyə qədəm basır. Dövrünün tanınmış aktyoru və rejissoru olan Cahangir Zeynalov M. F. Axundovun "Lənkəran xanının vəziri" komediyası əsasında hazırladığı tamaşada ona kiçik bir rol verir. Bu adicə bir mehtər rolu idi. Lakin Ərəblinski bu kiçik rolu elə məharətlə oynayır ki, Zeynalovun diqqətini cəlb edir. Sonralar Ərəblinskinin bu kiçik rolla səhnəyə açdığı yol, getdikcə genişlənir. Zeynalov artıq onun qüvvəsinə inandığı üçün ona daha mürəkkəb rollar tapşırır, hətta əsərlərdə qəhrəman rollarını da ona həvalə etməkdən çəkinmirdi.

1905-ci ildə Zeynalovun truppası Lənkəranda qastrolda olarkən Ərəblinski N. B. Vəzirovun "Müsibəti Fəxrəddin" pyesində ilk dəfə çıxış etdi. Bu, Ərəblinski üçün bir növ sınaq idi və o bu sınaqdan məharətlə çıxdı. Sanki bu oyunundan sonra Ərəblinski böyük tragik aktyor kimi parladı.

Xeyriyyə cəmiyyətlərinin aktyor truppaları hər tərəfdən Ərəblinskini öz kollektivlərinə dəvət etməyə başladılar. Beləliklə o əvvəllər "Nicat", sonralar "Səfa" xeyriyyə cəmiyyətlərinin və habelə Ü. Hacıbəyov qardaşlarının truppalarında həm aktyor və həm də rejissor kimi çıxış etməyə başlayır. İndi o

ölkədə yeganə tragik aktyor sayılırdı. Onun repertuarı getdikcə genişlənir və zənginləşirdi. O, Ə. B. Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" pyesində Qacar, Ş. Saminin "Gaveyi ahəngər" pyesində Gavə, F. Şillerin "Qaçaqlar" pyesində baş rolları böyük ustalıqla ifa edir. Tamaşaçıların haqlı məhəbbətini qazanırdı. Qəzetlər onun misilsiz oyunlarını ağız dolusu tərifləyirdilər.

1910-cu ildə Ərəblinski Şekspirin "Otello" faciəsində Otello rolunu oynaması ilə özünə yüksək şöhrət qazandı. Onun yüksək romantik bir pafosla ifa etdiyi Otello Ərəblinski yaradıcılığının yüksək zirvəsi oldu.

H. Ərəblinski yuxarıda dediyimiz kimi eyni zamanda bacarıqlı rejissor idi. 1908-ci ildə "Leyli və Məcnun" operasının ilk quruluşçu rejissoru Ərəblinski olmuşdur.

Ərəblinski bir kino aktyoru kimi də sənətimizin tarixinə daxil olmuşdur. 1916-cı ildə Bakıda çəkilmiş "Neft və milyonlar səltənətində" filmində Lütfəli bəy rolunu məharətlə ifa etmişdir.

Hüseyn Ərəblinski təxəllüsünü Azərbaycanın görkəmli generalı Ərəblinskinin familiyasından götürmüşdür.

**SƏMƏD MƏNSUR KAZIMOV** - 1879-cu ildə Bakıda anadan olmuşdur. Şair, jurnalist və mədəniyyət işçisi idi. Bakı xeyriyyə cəmiyyətlərinin ən fəal üzvlərindən olub. "Bəsirət", "Tuti", "Molla Nəsrəddin" jurnal və qəzetlərində şair kimi çıxış edirdi. Kəskin siyasi qələmə malik idi. Şerlərinin əksəriyyəti ictimai haqsızlığa, ədalətsizliyə, yalana, riyaya qarşı yonəldilmişdi. Eyni zamanda "Şeypur" adlı satirik bir jurnal da çap etdirirdi. "Rəngdir" şeri onun yaradıcılığında bir növ proqram bir şeirdir. Şeir başdan-ayağa bədbin və həyatdan küsgün bir əhvali-ruhiyyə ilə dolu olsa da şair həyatda təsadüf etdiyi xəyanət və riyakarlığı, mədəniyyətsizlik və yalanı güclü satirik qələmi ilə ifşa etmişdir. Yuxarı dairələrə, yüksək vəzifəli adamlara yaxın olduğundan onların iç üzünü dərindən duymuş, əməllərinə bələd olmuşdu. "Rəngdir" şeirinin gücü də buradan əmələ gəlirdi.

Səməd Mənsur 1927-ci ildə vəfat etmiş və Bakıda dəfn edilmişdir.

**ƏZİM ƏZİMZADƏ** - Azərbaycanın görkəmli rəssamıdır. 1880-ci ildə Bakının Novxana kəndində dünyaya gəlmişdir. Heç bir rəssamlıq məktəbi qurtarmayıb. Azərbaycanda satirik qrafika və siyasi plakat janrları sahəsində ölməz əsərləri ilə tanınmışdır. 1906-cı ildən "Molla Nəsrəddin" jurnalında öz satirik rəsmləri ilə çıxış etməyə başlamışdır. Onun özünə məxsus yaradıcılıq üslubu, təsvir tərzi vardı. Bu cəhətdən o heç kimə oxşamırdı.

1910-cu ildən Bakının bir sıra məktəblərində rəsm müəllimi kimi çalışmışdır. Pedaqoji fəaliyyəti ilə yanaşı o zamanlar Bakıda çap olunan "Zənbur", "Tuti", "Babayi əmir", "Məzəli", "Kəlniyət" satirik jırnallarda öz karikaturaları, yumoristik şəkilləri ilə çıxış edirdi. Onun üslubunda mövcud olan xalq yaradıcılığına xas obrazlılıq, yığcamlıq Əzimzadəni öz oxucularına sevdirmişdi.

Yaratdığı bütün satirik və yumoristik əsərləri xalq həyatından gəlirdi. Bu əsərlərdə satirik fikirlə yanaşı xalq həyatının, xalq məişətinin gözəl, zəngin təsvirləri də vardı. Çünki onun fırçasından çıxan həyatda tez-tez təsadüf olunan insanların həyatındandı. Həyatda və məişətdə gördüyü eybəcərlik, dözülməz hallar, qırmızı saqqallı hampalar, zalım hökmdarlar, müftəxor bəylər, yalançı mollalar, bütün xürufat əhli Əzimzadə satirasının hədəfinə çevrilmişdi. Əzimzadə karikatura sahəsində, demək olar ki, M. Ə. Sabir idi. Sabir "Hophopnamə"sinə çəkdiyi karikaturalar Sabirin satirik şerləri ilə birləşib, çox təsirli bir harmoniya təşkil edirdi.

Əzimzadə teatr tamaşaları sahəsində də fəaliyyət göstərirdi. Ayrı-ayrı dram və opera əsərlərinə verdiyi quruluş, bədii tərtibat və geyim eskizləri ilə tamaşaların bədii və estetik təsirini xeyli artırırdı.

1920-ci ildən sonra, Sovet hakimiyyəti illərində Əzimzadə yaradıcılığı üçün daha geniş imkanlar açılmışdı. Əvvəla o Bakıda ilk dəfə olaraq, Rəssamlıq məktəbi təşkil etmiş və uzun müddət onun direktoru olmuşdur. İndiki rəssamların yaşlı nəsli əsas etibarilə Əzimzadənin yetirmələridir.

Sovet hakimiyyəti illərində Əzimzadə ictimai və pedaqoji fəaliyyəti ilə yanaşı olaraq, satirik karikatura sahəsində də fəaliyyətini davam etdirirdi. İstər "Molla Nəsrəddin" məcmuəsinin və istərsə də respublikanın başqa mətbuat orqanlarının səhifələrindən onun çəkdiyi şəkillər əskik olmurdu. O, Azərbaycan Respublikasının xalq rəssamı adına layiq görülmüşdü.

Əzim Əzimzadə 1943-cü ilin 15 iyununda 63 yaşında vəfat etmişdir.

**ƏLİİSKƏNDƏR CƏFƏRZADƏ (1875-1941).** Bakı şəhərində doğulmuşdur. Görkəmli maarifpərvər, publisist, tərcüməçi olmuşdur. İbtidai təhsilini rus-müsəlman məktəbində, sonra Mixaylov sənət məktəbində almışdır. Sonralar N. Nərimanovun təşkil etdiyi və o vaxtlar üçün böyük mədəni bir hadisə olan kitabxanada işləmişdir. 1906-1908-ci illərdə çap olunan "Dəbistan" jurnalının redaktoru olmuşdur. O zaman dövrün qabaqcıl ziyalılarından H. B. Zərdabini, N. Nərimanovu, M. Ə. Sabiri, M. Hadini, A. Şaiqi, S. M. Qənizadə və başqa maarif xadimlərini jurnalın ətrafında toplamışdı. "Dəbistan" demokratik istiqamətli jurnal idi.

Əliiskəndər Azərbaycanda ilk dəfə olaraq, divar təqviminin əsasını qoyanlardandır. O Sovet hakimiyyəti illərində də bu nəcib işi davam etdirmişdir. Sovet hakimiyyəti illərində Azərbaycan Maarif Komissarlığında Nəşriyyat İdarəsinin müdiri olmuşdur. "Füqəra füyuzatı" və "Maarif" jurnallarında da əməkdaşlıq etmişdir.

**MİRZƏAĞA ƏLİYEV** - Azərbaycanın görkəmli komik artisti 1883-cü ildə Bakının Hövsan kəndində kəndli ailəsində dünyaya gəlmişdir. İbtidai təhsilini mollaxanada almış, sonra Bakı rus-müsəlman məktəbini bitirmişdir. Hələ ilk

gəncliyindən teatrla maraqlanmağa başlayır, həvəskar teatr truppalarında iştirak edir. Səhnəyə ilk addımını 1902-ci ildə N. B. Vəzirovun "Müsibəti Fəxrəddin" pyesinin tamaşasında atmışdır. O Şahmar bəy rolunda çıxış etmişdi. Tamaşada gənc aktyorun gözəl oyununu görən o dövrün görkəmli aktyor və rejissoru Cahangir Zeynalov və dramaturq N. B. Vəzirov sonralar onun bir aktyor kimi yetişməsinə böyük təsir göstərmişlər. Xüsusilə komik aktyor olan C. Zeynalov onun istedadını yüksək qiymətləndirərək, tamaşalarda komik rolları cəsarətlə ona tapşırırdı.

Əvvəllər, yəni 1906-1907-ci illərdə həvəskar "Həmiyyət" truppasının həm rəhbəri olmuşdu, həm də baş rollarda çıxış edirdi. 1907-1912-ci illərdə isə M. A. Əliyev artıq yetgin bir aktyor kimi "Nicat" cəmiyyətinin aktyor truppasında öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirirdi. Bu illərdə o eyni zamanda ölkənin ictimai həyatında da yaxından iştirak edirdi. Məhz bu fəaliyyətinə görə M. A. Əliyev 1912-ci ildə Həştərxana sürgün edilmişdi. Sürgün şəraitində də o səhnədən ayrılmamışdı. Bu müddətdə o bütün Volqaboyu şəhərlərində, sürgündən qayıtdıqdan sonra da Tiflisdə, Yerevanda, habelə Türkiyə və İranın bir sıra iri şəhərlərində tamaşalar vermişdir.

O artıq bir çox şəhər və ölkələrdə görkəmli aktyor kimi tanınmışdı. Ü. Hacıbəyovun "O olmasın, bu olsun", "Arşın mal alan", "Ərlə arvad", Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan", "Evli ikən subay" musiqili komediyalarında yadda qalan parlaq obrazlar yaratmışdı.

1920-ci illərədək M. A. Əliyevin, oynadığı rollar içərisində C. Məmmədquluzadənin "Ölülər" komediyasında oynadığı İskəndər obrazı uzun müddət xatirələrdən silinməmişdi. M. A. Əliyev bu obraza sanki elə möhür basmışdı ki, ondan sonra çoxları bu rolda çıxış etməyə cəsarət etməmişdilər. İskəndər obrazı ilə M. A. Əliyev Azərbaycan teatrı tarixində ölməz bir obraz yaratmışdı.

Sovet hakimiyyəti illərində M. A. Əliyevin fəaliyyəti daha da genişlənmişdi. M. Əzizbəyov adına Akademik Dram Teatrında bir-birinin arxasınca bir silsilə parlaq obrazlar yaratmışdı, İstər klassik və istərsə də müasir yazıçıların əsərlərində yaratdığı obrazlar silsiləsi Azərbaycan teatr sənətinin qızıl fonduna daxil olmuş birər incilərdi.

M. A. Əliyev kino sənəti sahəsində də həmişə uğurla çıxış etmişdir. İlk çəkildiyi "Bismillah" filmindən sonra "Hacı Qara", "Almas", "Bakının işıqları" və başqa filmlərdə M. A. Əliyev öz oyun orijinallığı ilə həmişə fərqlənmişdir. O sözün əsl mənasında böyük gülüş ustası idi.

SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı M. A. Əliyev 1954-cü ildə 71 yaşında vəfat etmişdir.

**SÜLEYMAN RÜSTƏM** - Azərbaycan SSR-in xalq şairi. Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın əməkdar incəsənət xadimi, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatıdır.

1906-cı ildə Bakıda dəmirçi ailəsində anadan olmuşdu. N. Nərimanov adına Sənaye Texnikumunda, sonra Bakı darülmüəllimində oxumuşdur. 1925-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinə daxil olmuşdur. 1929-cu ildə Moskvada 1-ci Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir.

Bakıya qayıdandan sonra "Gənc işçi", "Komsomol", "Gənc bolşevik", "Maarif və mədəniyyət" qəzet və jurnallarında çalışmışdır. 1937-1938-ci illərdə Azərbaycan Dövlət Dram Teatrının direktoru olmuşdur. 1955-1956-cı illərdə "Ədəbiyyat qəzeti"nin redaktoru olmuşdur.

Süleyman Rüstəm respublikanın böyük, görkəmli şair və dramaturqudur. Ədəbi fəaliyyətə sənaye texnikumunda oxuduğu illərdə başlamışdır. İlk şeiri 1925-ci ildə "Maarif və mədəniyyət" jurnalında dərc edilmişdir. Bundan sonra o respublikanın ədəbi qəzet və jurnallarında bir-birinin ardınca gözəl lirik şeirlər yazmağa başlamışdır. Cəsarətlə demək olar ki, 20-ci illərdən sonra yeni Azərbaycan şerinin banilərindən biridir. O Azərbaycan şeirinə yeni nəfəs, yeni mövzu gətirmişdi. Həmin vaxtdan respublikanın ədəbi-ictimai həyatında fəal iştirak etmiş və mübariz bir şair kimi tanınmışdır. Şeirlərində yeni həyatı coşğun bir həvəslə tərənnüm edir, köhnə cəmiyyətin qalıqlarına qarşı kəskin qələmlə çıxış edirdi. Şeirlərindən birində deyirdi ki, "İnqilab oğlu inqilabam mən". Bu doğrudan belə idi. Köhnə cəmiyyətə qarşı nifrət yağdıran, yeni həyatın xoş duyğularını ürək dolusu ilə tərənnüm edən şair yeni şairlər nəslinə bir örnək olmuşdu. Şerə dövrün ictimai-siyasi hadisələrini gətirmək Süleyman Rüstəm poeziyasının səciyyəvi cəhəti idi.

Süleyman Rüstəm 1925-ci ildə təşkil edilmiş "Gənc Qızıl Qələmlər" İttifaqının əsas qurucularından biri idi. Sonra, yəni 1928-ci ildə Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin məsul katibi vəzifəsində işləmişdir. 1927-ci ildə çap edilmiş "Ələmdən nəşəyə" şerlər kitabı köhnə cəmiyyətdən yeni azad cəmiyyətə keçidin ən parlaq inikası idi. O yeni cəmiyyətdən kənarda qalan, onun qaynar həyatına qatılmayan bədbin şairlərə həmişə ikrah hissi ilə yanaşırdı. Adamları böyük həvəslə qurub-yaratmağa səsləyirdi.

1930-cu ildə dərc etdirdiyi "Addımlar" kitabı, 1932-ci ildə çapdan çıxmış "Səs" və "Atəş" kitabları onun mübariz bir şair kimi püxtələşdiyini sübut edirdi. Daha sonralar yazdığı "Gecənin romantikası", "Çapayev", "Ulduzlar" şeirləri ilə Azərbaycan poeziyasına yeni çalarlar əlavə etmişdi.

1941-ci ildə Böyük Vətən müharibəsi başladığı zaman Süleyman Rüstəm əyninə şinel geyərək, komissar kimi cəbhəyə getmişdi. Onun vətənpərvərlik

hissləri ilə qaynayan şeirləri müharibə illərində döyüşçüləri düşmən üzərində qələbəyə, cəbhə arxasındakı adamları daha fədakarcasına işləməyə səsləyirdi. Xalqların faşizmə qarşı ölüm-dirim mübarizəsi S. Rüstəm üçün tükənməz bir mövzuya çevrilmişdi. Müharibə illərində yazdığı "And", "Gün o gün olsun ki", "Qafqaz ordusu", "Ana və poçtalyon" şeirləri elə bil şairin odlu ürəyinin parçaları idi.

O müharibə illərində Cənubi Azərbaycanda da olmuşdur. Bu illərdə Cənubi Azərbaycandan yazdığı şeirlərində şairin ürəyində çoxdan köz bağlamış yaraları sanki təzələnmişdi. O rus çarizmi tərəfindən ikiyə bölünmüş hər iki Azərbaycanın yanıqlı sinələrindən qopan fəryadları bağıra-bağıra dünyaya səs salmışdı. Bir millətin iki doğma övladının bir-birindən ayrı düşməsi şairi ədalətsizliyə qarşı üsyana qaldırmışdı.

Cənubda olarkən Süleyman Rüstəmə elə bil ikinci nəfəs gəlmişdi. Bu illərdə heç bir şair Cənubun dərdini belə ürək ağrısı ilə tərənnüm edə bilməmişdi. Cənubluların Şimal həsrəti şair üçün böyük dərd olmuşdu. Həmin illərdə şairin sinəsindən qopan odlu misralar sonralar onun "Təbrizim" kitabında toplanmışdı.

Süleyman Rüstəm eyni zamanda böyük dövlət xadimi idi. O VIII - XI çağırış Azərbaycan Ali Sovetinin sədri olmuşdur.

Süleyman Rüstəm 1992-ci ildə Bakıda vəfat etmişdir. Qəbri Fəxri xiyabandadır.

Süleyman Rüstəmi hər iki Azərbaycan özlərinin şair oğlu kimi həmişə yad edəcəkdir.

**HƏNƏFİ ZEYNALLI** - Görkəmli ədəbiyyatşünas, folklorşünas və ədəbi tənqidçi olan Hənəfi Baba oğlu Zeynallı əsl-nəsəbli bakılıdır. 1896-cı ildə Bakı şəhərində anadan olmuşdur. İbtidai təhsilini Bakıda aldıqdan sonra 1916-cı ildə Moskva Ali Texniki İnstitutuna daxil olmuş, lakin təhsilini başa vura bilməmişdir. O inqilabi fəaliyyəti üstündə tezliklə institutdan xaric edilmişdi. Bakıya qayıtdıqdan sonra bir müddət müəllimlik etmişdir. Bununla yanaşı inqilabi fəaliyyətini davam etdirərək, 1917-ci ildə Bakıda inqilabi proletar gənclər təşkilatının yaradılmasında yaxından iştirak etmişdir. Bu illərdə eyni zamanda folklorşünaslıqla məşğul olmağa başlayır, ədəbi-tənqidi məqalələr yazır.

1924-cü ildə Hənəfi Zeynallı Azərbaycan Dövlət Nəşriyyatında baş redaktor işləyir. 1929-cu ildən SSRİ EA Azərbaycan filialında dil, ədəbiyyat və folklor şöbələrinin müdiri olmuşdur. O Azərbaycanı Tədqiq və Tətəbbə Cəmiyyətinin folklor komissiyasına da başçılıq etmişdir. Həmin illərdə Azərbaycan folklor nümunələrinin toplanması, nəşri və tədqiqi sahəsində xidmətləri ilə Azərbaycanda görkəmli folklorçu kimi tanınmışdır. "Azərbaycan atalar sözü və məsəlləri", "Azərbaycan tapmacaları", "Ağız ədəbiyyatı", "Azərbaycan folkloru" kitablarının müəllifidir. Onun görkəmli bir ədəbiyyatşünas kimi klassik və müasir Azərbaycan

ədəbiyyatına həsr edilmiş əsərləri də diqqətə şayandır. Zeynallının yarım əsr bundan qabaq yazdığı "20 əsr Azərbaycan ədəbiyyatı", "Oktyabr və ədəbiyyatımız", "Oktyabr və gənc qələmlər", "M. F. Axundovun ədəbi və ictimai fəaliyyəti" adlı məqalələri bu gün üçün də öz əhəmiyyətini itirməmişdir. Hənəfi Zeynallı Hüseyn Cavid yaradıcılığını da diqqətlə izləmişdir. Böyük dramaturq barədə yazdığı "Şeyx Sənan", "Peyğəmbər", "Maral" məqalələri buna sübutdur.

Zeynallı da bir çox ziyalılarımız kimi repressiya dövrünün qurbanı olmuşdur. 1937-ci ildə həbs edilib, güllələnmişdir. Qəbri yoxdur.

AXUNDOV RUHULLA ƏLİ OĞLU (1897-1938). Görkəmli ictimai, dövlət xadimi, publisist olmuşdur. Bakının Şüvəlan kəndində müəllim ailəsində doğulub. İbtidai təhsilini mədrəsədə almışdır. Sonra realnı məktəbdə oxumuş və daha sonra ticarət məktəbini bitirmişdir. İngilis, fransız, rus və fars dillərini mükəmməl bilirdi.

1916-cı ildən Bakı qəzetlərində korrektor və tərcüməçi işləmişdir. Tərcüməçilik sahəsində xüsusilə fəaliyyət göstərmişdir. Müstəsna hafizəyə malikdi. 1919-cu ildən jurnalistika və publisistika sahəsində çalışmışdır. Kəskin siyasi məqalələrlə çıxış edirdi. "Kommunist", "Hürriyyət" qəzetlərinin redaktoru olmuşdur. 1928-ci ildən sonra bir sıra partiya və dövlət işlərində çalışmışdır. Azərbaycan Kommunist Partiyası MK katibi, Azərbaycan SSR maarif naziri, Azərnəşrin direktoru olmuşdur. Sonralar SSRİ EA Azərbaycan filialında, partiya tarixi institutunda işləmiş, Azərbaycanın XKS yanında İncəsənət İşləri İdarəsinin rəisi olmuşdur.

K. Marks, F. Engels, V. İ. Leninin əsərlərinin Azərbaycan dilinə tərcüməsinə rəhbərlik etmişdir. İlk Rus-Azərbaycan lüğətinin yaradıcısıdır. Tarix, ədəbiyyat və incəsənətə aid bir sıra ciddi məqalələrin müəllifidir.

**ƏMİN ABİD GÜLTƏKİN (1898-1937).** Bakıda anadan olmuşdur. Ədəbiyyatşünas və tənqidçidir. Azərbaycan klassikləri barədə bir sıra dərin elmi-tədqiqat əsərləri vardır. Milli şüurun oyanmasında onun əsər və çıxışlarının böyük rolu olmuşdur. 1919 - 1925-ci illərdə İstanbul universitetində oxumuşdur. 1926-cı ildə Bakıya qayıtdıqdan sonra müəllimlik və elmi-tədqiqat işləri ilə məşğul olmuşdur. Türkiyədə təhsil alarkən arxivlərdən Füzulinin "Söhbətül əsmar" əsərini tapıb, ilk dəfə aşkara çıxarmışdır. Əmin Abid eyni zamanda şer də yazmışdır. O da başqa görkəmli sənətkarlarımız kimi 1937-ci ildə repressiyanın qurbanı olmuşdur.

Adları çəkilən bakılı ziyalılardan əlavə şəhər və kəndlərdə yaşayan bir sıra ziyalılarımız və şairlərimiz də olmuşdur ki, onların barəsində C. Rəmzi "Deyilən söz yadigardır" adlı tərtib etdiyi kitabında daha geniş məlumat verir.

**FEYZULLA QASIMZADƏ.** Azərbaycan EA-nın akademiki (həqiqi üzvü), filologiya elmləri doktoru, professor, respublikanın əməkdar elm xadimi və əməkdar müəllimi idi.

1898-ci ildə Bakının Mərdəkan kəndində anadan olmuşdur. Azərbaycan ziyalılarının böyük bir ordusunun müəllimi olmuş, bir neçə nəsl onun dərslikləri ilə təlim-tərbiyə, təhsil almışdır. O uzun müddət M. Ə. Rəsulzadə adına BDU-da və N. Tusi adına Pedaqoji universitetdə Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri olmuşdur. Şəxsən 30 elmlər doktoru və 120 elmlər namizədi yetişdirmişdir. Keçmiş Sovet orden və medalları ilə, o cümlədən üç dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunub. 600-dək çap edilmiş elmi əsərlərin, onlarla dərslik və monoqrafiyaların müəllifidir.

Feyzulla Qasımzdə 1976-cı ilin 29 martında vəfat etmiş və doğma Mərdəkan kəndində dəfn edilmişdir.

**ATABABA DAŞDƏMİR OĞLU MUSAXANLI** - 1905-ci il, dekabrın 20-də Bakıda sənətkar ailəsində anadan olmuşdur. İbtidai təhsilini rus-tatar məktəbində almışdır.  1920-ci ildə Sovet hakimiyyəti dövründə təhsilini davam etdirərək, şəhər orta məktəbini bitirmişdir. 1921-ci ildə Azərbaycan Ali Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olmuşdur. İnstitut tələbələri içərisində öz ağıl və fərasəti ilə fərqlənən Atababa 1924-cü ildə institutu fərqlənmə diplomu ilə qurtarmışdır. Həmin ildən Bakı Pedaqoji Texnikumunda dil və ədəbiyyat müəllimi işləmişdir. O eyni zamanda dil və ədəbiyyat fənləri üzrə tədqiqat işləri ilə də məşğul olmuşdur. Məktəblər üçün dərsliklər yazmış və proqramlar hazırlamışdır. Ədəbi fəaliyyətə şeir və hekayələr yazmaqla başlamışdır. Lakin sonralar ədəbi tənqid sahəsinə keçmiş və bu sahədə bir-sıra yüksək səviyyəli məqalələr çap etdirmişdir. Sonralar ədəbi tənqidi özünə daimi peşə seçmişdir. 1930-1940-cı illər onun ədəbi fəaliyyətinin ən məhsuldar dövrləri idi. Ədəbi mövzular üzrə keçirilən mübahisə və disputlarda, həmçinin ayrı-ayrı ədəbi əsərlərin müzakirəsində fikir və mülahizələrini təmkin və ardıcıllıqla izah edərdi. Astadan danışardı, onun hündürdən danışdığını heç kəs eşitməmişdi. O zamanlar ədəbi disputlar adətən Müəllimlər evində keçirilərdi. Elə vaxt olmazdı ki, Atababa ədəbi əsərlərin müzakirəsində iştirak etməmiş olsun. Onun ədəbi-tənqidi fəaliyyətində "Ədəbiyyatımızın tarixində Sabir", "Mirzə Fətəlinin ictimai-tərbiyəvi mülahizələri", "Şaiq sair və müəllim", "Aran köçü və müəllifi" və sair ədəbi problemlərə həsr olunmuş məqalələri o dövrdəki ədəbi tənqidin ən gözəl nümunələri idi.

Xüsusilə H. K.S anılının "Aran köçü" kitabı barədəki çıxış və məqaləsi ədəbi ictimaiyyət tərəfindəi rəğbətlə qarşılanmışdı.

Musaxanlının "Kitabi-Dədə Qorqud" və başqa klassik əsərlərə aid məqalələri də ədəbi tənqid tariximizi zənginləşdirmişdir. Atababa Musaxanlı 1941-ci il avqustun 14-də, yaradıcılığının ən bəhrəli dövründə 36 yaşında vəfat etmişdir.

**ƏLİAĞA VAHİD** - 1895-ci il oktyabrın 15-də Bakıda xarrat ailəsində doğulmuşdur. İbtidai təhsilini mədrəsədə almışdır. Ailəsinin ağır maddi vəziyyəti

ilə əlaqədar kiçik yaşlarından fəhləliyə başlamışdır. Sonralar atası ilə birlikdə xarratlıq etmişdir. 18-19 yaşlarında ikən onda şerə həvəs oyanır. Füzulinin, Seyid Əzimin, M. Ə. Sabirin təsiri altında xırda-xırda şeirlər yazır və bir müddətdən sonra onları Bakının qəzet və jurnallarında çap etdirir. Beləliklə orta təhsili belə olmayan Ə. Vahid öz şeirləri ilə Bakıda çap olunan "İqbad", "Bəsirət", "Babayi əmir" qəzet və jurnallarının səhifələrində çıxış etməyə başlayır. Onda fitri bir istedad vardı. Sinədən şeir demək qabiliyyətinə malik idi. Buna görə də yaradıçılığının ilk illərində meyxanalarda da iştirak edirdi. Lakin Vahid tezliklə öz yolunu tapır. Özünü bütünlüklə qəzəl janrına həsr edir. Bu sahədə çox keçmir ki, müasirləri tərəfindən qiymətləndirilir. "Tuti", "Məzəli" jurnallarının səhifələrində öz fəaliyyətini davam etdirir.

Sovet hakimiyyəti illərində bir qəzəl şairi, qəzəlxan kimi tanınır. Qəzəl janrı sahəsində getdikcə püxtələşir. Füzuli və Seyid Əzim ondan ötrü əsl məktəbə çevrilir. Qəzəllərindəki rəvanlıq və axıcılıqla oxucularının ona rəğbət və məhəbbətini artırır. Onun qəzəlləri xanəndələrin ağzından düşmürdü. Vahid qəzəlini oxumaq xanəndələr üçün bir növ sınaq olmuşdu. O, ədəbiyyatda Füzulinin məktəbini davam etdirən yeganə şair hesab olunurdu. Vahidi həmişə xalqın içərisində görərdin. Pərəstişkarları onun qəzəllərini əzbərdən bilirdilər.

Ə. Vahid Böyük Vətən müharibəsi illərində öz kəskin satirik qələmi ilə düşməni ifşa edir, döyüşçüləri yeni qələbələrə ruhlandırırdı.

Vahid Azərbaycan klassiklərindən Nizaminin, Xaqaninin, Fələki və başqalarının əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. O, demək olar ki, bütün Bakı kəndlilərinin sevimlisi idi.

O 1965-ci il sentyabrın 30-da Bakıda vəfat etmişdir. Xalq öz sevimli şairini böyük ehtiram və hörmətlə Fəxri xiyabanda torpağa tapşırmışdır. Hazırda İnqilab bağında ona abidə ucaldılmışdır.

**İKİ BAKILI ADMİRAL**. Bakı liman şəhəri olduğu üçün burada gəmiçilik çox inkişaf etmişdi. Nadir şahın öldürülməsindən sonra özünü Bakı xanı elan etmiş Dərgahqulu oğlu Mirzə Məhəmməd əyalətin bərbad hala düşmüş iqtisadiyyatını qaydaya salıb, inkişaf etdirmək üçün birinci növbədə Xəzərdə gəmiçiliyin inkişaf etdirilməsi qayğısına qaldı. Bu məqsədlə Avropa dənizçilik ölkələrinə səyahətə gedir və orada gəmi inşası ilə yaxından tanış olurdu. Həmin illərdə Bakıda olmuş səyyah Lerx yazırdı ki, admiral Bakı xanı Mirzə Məhəmməd tez-tez Langertə gedərək orada sifariş verdiyi gəmilərin inşasına rəhbərlik edirdi. Beləliklə o Bakıda admiral kimi tanınmağa başlamışdı. Özü şəxsən zəhmli olduğu üçün camaat onu Atmaral adlandırırdı. Bu söz indiyədək işlənir. Zəhmli və iş bacaran bazburudlu adamlara atmaral deyirdilər.

İkinci bakılı admiral İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyovdur. O sözün həqiqi mənasında ali dənizçilik təhsili almış admiral idi. Aslanbəyov 1822-ci

il sentyabrın 10-da Bakıda anadan olmuşdur. 1837-ci ildə Peterburqda dənizçilik məktəbini bitirmişdir. Məktəbi qurtarandan sonra əvvəllər "Aleksandr Nevski", "Prozergin" freqatlarında miçman işləmişdir. Sonralar dənizçilik məktəbinin zabitlər sinfinə daxil olur. 1842-ci ildə oranı bitirdikdən sonra Qara dəniz hərbi nəzarət gəmilərində işləməyə başlayır. O öz vəzifəsində getdikcə yüksəlir və 1854-cü ildə "Elbrus" hərb gəmisinə komandirlik etməyə başlayır. Komandanlığın diqqətini cəlb edən Aslanbəyov həmin ilin avqust ayında desant gəmisinin döyüşən batareyasına komandir təyin olunur. Burada göstərdiyi xidmətlərə görə ona kapitan-leytenant rütbəsi verilir. 1854-cü ilin sentyabrında döyüşən Sevastopol qarnizonunda olmuş və döyüşlərdən birində kontuziya almışdı.

1860-cı illərdə Aslanbəyov Aralıq dənizində üzən "Sokol" hərb gəmisinə komandanlıq etmişdir. Sonralar həmin gəmini Kronştadta gətirmişdi.

1878-ci ildə Aslanbəyova kontr-admiral rütbəsi verilərkən o 8-ci donanma ekipajının rəisi idi.

Aslanbəyov eyni zamanda dənizçiliyə aid bir sıra əsərlərin müəllifi idi. O rus dənizçilik elminə çox şeylər əlavə etmişdir.

1887-ci ildə ona misilsiz xidmətlərinə görə vitse-admiral rütbəsi verilmişdir.

Aslanbəyov 1900-cü il 7 dekabrda Peterburqda vəfat etmişdir. Ölümündən sonra Saxalində bir yarımada onun adı ilə adlandırılmışdır. Oxot dənizində də bir boğaz onun adınadır.

## BAKI LƏHCƏSİ

Qədim zamanlardan Bakı bir şəhər kimi İranın təsiri altında olmuşdur. Bu təsir ta keçən əsrin ortalarınadək davam edib. Belə vəziyyət o dövrə təsadüf edir ki, az qala bütün türk aləmi az-çox İranlıların təsiri altında idi. M. Ə. Rəsulzadə "Əsrimizin Səyavuşu" adlı əsərində həmin dövrü belə xarakterizə edirdi: "Bir çox zaman azərbaycanlılar kəndi türklüklərini, türk soyundan gəldiklərini bilməyərək, xalis İranlı kimi kəndilərin hiss etdilər. İranlı kimi düşünüb, İranlı kimi yaşadılar. Bu o zaman idi ki, bütün türk aləmi az-çox İran təsirində bulunurdu. O zaman idi ki, soltan Səlim farsca şeirlər yazıb, oxuyur, az qalsın ki, bunu rəsmi lisan elan ediyordu".

M. Ə. Rəsulzadənin bu sözləri elə bil bakılılar barədə deyilmişdi. Daş hasarlar içərisinə sığınıb qalmış bakılılar İran təsirinə elə qapılmışdılar ki, bəzən özlərinin türk olduqlarını belə unudurdular. Nəinki geyimdə, hətta danışıq tərzində də onları iranlılardan çox çətinliklə ayırmaq olurdu. Keçən əsrin ortalarınadək Bakının bütün hökümət dairələrində rəsmi dil fars dili idi. Hələ bundan xeyli qabaq xanlıqlar dövründə bütün fərmanlar ancaq fars dilində verilirdi. Xanların saraylarında işləmək üçün İrandan xüsusi mirzələr dəvət olunurdu. Rəsmi dil fars dili hesab olunurdu. Küçələrdə, bazarlarda camaat fars dili qarışıq azərbaycanca

danışırdı. Bir-birinə müraciət və mülaqatlar da ancaq farsca idi. Məişətdə və evdarlıqda işlənən qab-qacaqların adları da ancaq farsca idi. Məsələn: xakəndaz (xak-torpaq, əndazə-ölçü, yəni torpaq ölçən, torpaq götürən), nəməkdan (nəmək-duz, dan-qab, yəni duz qabı), qənddan və sairə onlarca belə əşya göstərmək olar ki, İranda da, Bakıda da eyni cürə adlanırdı. Bu ondan əmələ gəlmişdi ki, qala divarları ilə Azərbaycanın başqa şəhər və kəndlərindən təcrid edilmiş bakılılar Azərbaycanın zəngin söz leksikonundan istifadə edə bilmirdilər. Onların dili və danışığı zəngin Azərbaycan dili hesabına zənginləşə bilmirdi. Bakılılar o zaman gözünü açandan İranı və İranlıları görmüşdülər. Millətini də, dilini də soruşanda ancaq "müsəlman" deyə cavab verərdilər. Azərbaycan leksikonunda təbiətə, meşəyə, hətta maldarlığa aid zəngin söz ehtiyatından bakılılar məhrum idilər. Bunun əvəzində isə elə terminlər vardı ki, ancaq Bakıda işlənirdi. Bakıda dənizçiliyə aid sözlərə Azərbaycanın heç bir rayonunda rast gəlməzdin. Bakının ticarət mərkəzi kimi ruslar, türkmənlər və başqa millətlərlə daimi ticarət əlaqələri saxlaması nəticəsində sözsüz ki, onların dili də, danışıq tərzləri də bakılıların gündəlik danışıqlarına öz təsirini göstərmişdi. Bakı bir müddət türklərin işğalı altında olduğu müddətdə türk dilinin də Bakı danışığına təsiri az olmamışdır. Ruslarla daimi əlaqə nəticəsində bir sıra rus sözləri Bakı leksikonuna təhrif edilmiş şəkildə daxil olmuşdur. Bunlardan becid (rusların bejit sözündən törəmişdir). Yaxud Bakıda faytonçular atları sürərkən camaatı xəbərdar etmək üçün "Birqes" deyə çağırırdılar. Bu, rusun bereqis sözünən gəlmə idi. Bakıda bir vaxt çox işlənən "Atmaral" sözü də admiral sözünün təhrif edilmiş forması idi. Başqa bir misal: keçmişlərdə bakılılar rusları "ştottı" deyə çağırardılar. Bu rusların "Çto tı" sözlərinin təhrif edilmiş şəklidir. Ruslar bu sözləri öz danışıqlarında tez-tez işlətdikləri üçün bakılılar da onları bu sözlərlə tanıyırdılar.

Türkmənlərlə də bakılıların daimi ticarət əlaqələri olmuşdur. Bakı limanında türkmən qayıqlarının sayı-hesabı olmazdı. Bu daimi yaxınlıq bizcə bakılıların danışığına öz təsirini göstərmişdir. Bəlkə elə bunun nəticəsindədir ki, bakılılar bəzi sözləri Azərbaycanın başqa şəhər və kəndlərində yaşayanlardan fərqli olaraq, türkmənlər kimi tələffüz edirlər. Məsələn, "bunun", "bunun üçün" sözlərini türkmənlər də, bakılılar da eyni şəkildə tələffüz edirdilər: "Munun", "Munun üçün". Göründüyü kimi B səsi M səsi ilə əvəz olunur. Daha başqa bir misal olaraq "darmadağın" sözünü alaq. Türkmən də, bakılı da bunu "dərbədağın" kimi işlədirdi. Biz bu sözün deyilişində türkmən dilinin açıq təsirini görürük. Başqa bir sıra sözlər də vardır ki, türkmənlərdə də, bakılılarda da eyni tərzdə tələffüz olunur.

Türk qoşunlarının Bakıda qısa müddət qalmalarına baxmayaraq bakılılar bəzi sözləri türklər kimi tələffüz etməyə alışmışdılar. Belə bir təbir o zamandan indiyədək davam edib, gəlmişdir. Məsələn, türklər, "Verdim" sözünü həmişə "Vərdim" kimi tələffüz etdikləri kimi bakılılar da bəzən indiyədək "verdim"

sözünü "vərdim" kimi tələffüz edirlər. "Verdim" sözünün bu cür tələffuz edilməsinə Azərbaycanın heç bir rayonunda təsadüf edilmir. Bundan başqa "sirr" sözünü də bakılılar türklər kimi "sırr" deyə tələffüz edirlər.

Yuxarıda dediyimiz kimi bakılıların danışığına farsların daha böyük təsiri olmuşdur. Bir qayda olaraq, bakılılar O səsini farslar kimi U kimi tələffüz edirlər. Məsələn: "Onun üçün" əvəzinə "unun üçün", "Onun yanına getdim" əvəzinə "unun yanına getdim" kimi deyərək, O səsini U səsi ilə əvəz edirlər. Bu da şübhəsiz ancaq fars dilinin təsiridir.

Bakılılar bəzi sözlərdə A səsini O kimi tələffüz edirlər. Xüsusilə Abşeronun cənub kəndlərində bu daha çox inkişaf tapıb. Məsələn, bacı əvəzinə bocı, daban əvəzinə doban, baş əvəzinə boş deyirlər. Eyni şeyi Ə səsi ilə E səsinin də dolaşıq salınmasında görürük. Məsələn, "geriyə döndüm" əvəzinə "gəriyə döndüm", "gen pencək" əvəzinə "gən pəncək", "belə-belə işlər" əvəzinə "bələ-bələ işlər" deyirlər.

Bakılıların əksəriyyəti "gətirmək" sözü ilə "götürmək" sözlərini bir qayda olaraq, dolaşıq salırlar. Hətta indiyədək Bakı ziyalılarından bəziləri də bu xəstəlikdən yaxa qurtara bilməyiblər. "O kitabı gətir mənə" və yaxud "bu vedrəni götür apar", "o kitabı götür mənə", "bu vedrəni gətir apar" kimi ifadə edirlər. Siz birinin bakılı olub-olmadığını öyrənmək üçün ona bu iki sözdən tərtib olunmuş bir cümlə dedirdin. Dərhal görəcəksiniz ki, o bu sözlərin yerini dolaşıq salır.

Bakılılar sözləri bir qayda olaraq, qoşa-qoşa işlədirlər: gedə-gedə, gülə-gülə, qaça-qaça və sairə. Hətta belə bir lətifə də vardır: bir bakılıdan soruşurlar ki, siz niyə sözləri qoşa-qoşa işlədirsiniz? Cavabında deyir ki, onu biz yox, kənti-küttü deyir.

## RUHANİLİK VƏ ÜLƏMALAR

Bakı quberniyasında ruhani işləri Bakı vilayəti qazısının əlində toplanmışdı. 1904-cü ildən 1918-ci ilədək bu işə Axund Mir Məmməd Kərim Mircəfərzadə başçılıq edirdi. O, həm Bakı quberniyasının qazısı və həm də Bakı quberniya şiə məclisinin sədri idi. Bakı quberniyasına daxil olan Bakı, Quba, Şamaxı, Lənkəran, Göyçay və Cavad qəzalarında din, ruhani işlərini idarə etmək çox çətin bir iş idi. Məscidləri idarə etmək, prixod molla işləmək istəyənləri imtahandan keçirmək və onların əhali içərisində rəftarına nəzarət etmək qazıdan gərgin iş tələb edirdi. Vəqf işləri, kəbin-talaq bu idarə vasitəsilə aparılırdı. Məlum olduğu üzrə o zamanlar hər məscidin öz axundu vardı. Bunlardan başqa mollalar da vardı ki, bunlar məscidlərdə mərsiyə oxuyur, mədrəsələrdə uşaqlara şəriət dərsi öyrədirdilər. O zaman Bakıda aşağıdakı məscidlər vardı: İçərişəhərdəki məscidlər: Gileh məscidi, Xıdır məscidi, Sınıq Qala, yaxud Məmmədyar məscidi - ən qədim məsciddir. 12-ci əsrdə şəhər hələ hasar içərisinə alınmamışdan qabaq tikilmişdi. Buna bəzən Sınıq Qala məscidi ona görə deyirdilər ki, I Pyotrun qoşunu şəhəri işğal etmək istədikləri

zaman yaylım top atəşindən məscid minarəsinin başı uçub parçalanmışdı. Şıx İbrahim məscidi, Ləzgi məscidi, Mirzə Əhməd məscidi və ya Hacı Ağaməli məscidi, Molla Əhməd məscidi, Molla Mirzə və ya Məktəb məscidi, Cümə məscidi. - Bu qədim məscid sonralar 20-ci əsrin əvvəllərində Hacı Şıxəli Dadaşov tərəfindən sökülüb, təzədən tikilmişdir. Köhnə məscidin ancaq minarəsi saxlanmışdır. Şah məscidi - qədim Şirvanşahlar sarayı kompleksinə daxildir. Bunlardan başqa İçərişəhərdə bir neçə təkiyə də olmuşdur ki, bunlar minarəsiz və günbəzsiz binalardı. Burada ancaq namaz qılınır və mərsiyə oxunurdu.

Bayır şəhərdəki məscidlər: Hacı Cəbrayıl məscidi, Hüseynqulu məscidi, Məhəmmədli məscidi, Kərbəlayi Əbdülhüseyn məscidi, Hacı Cabbar məscidi, Hacı Cavad məscidi, Hacı Bağı məscidi, Hacı Əbdül məscidi, Seyidlər məscidi, Hacı İmaməli məscidi, Hacı Hacıbabalı məscidi, Hacı Qasım məscidi, Hacı Zərbəli məscidi, Hacı Ağababa məscidi, Nəzər məscidi, Hacı Heybətqulu məscidi, Hacı Qurban məscidi, Çəmbərəkənd məscidi, Dağlı məscidi, Hacı Hüseyn məscidi, Hacı Pirverdi məscidi, Sultanəli məscidi (bu məscid 1910-cu ildə şəhərin Poluxin və Sverdlov küçələrinin tinində Balaxana varlısı Hacı Sultanəli Haşımov tərəfindən inşa edilmişdir. Bu məsciddən başqa o doğma kəndi Balaxanada və Ləhişdə də məscid tikdirmişdir), Bibiheybət məscidi, İranlılar məscidi. Bunlardan əlavə iki böyük məscid vardı ki, onları xüsusilə qeyd etmək lazımdır. Bunlardan biri Təzə Pir məscidi idi. Bu məscidi məşhur Aşurbəyovlar nəslindən olan Nabat xanım tikdirmişdi. Nabat xanımın Sabunçuda neft mədənləri vardı. O görkəmli Bakı tacirlərindən Rzayevin arvadı idi. Təzə Pir şəhərin yuxarı hissəsində qədim pir - dərviş Əbu Səidin qəbri yerində tikilmişdi. Məscidin inşasına başlamazdan əvvəl şəhərin mülki memarı Zivər bəy Əhmədbəyov İstanbul və Qahirə şəhərinə göndərilir ki, oraların görkəmli məscid və camələri ilə tanış olsun. O geri qayıdandan sonra tərtib etdiyi layihə əsasında işə başlayır. Məscidin ilk özül daşı 1905-ci ildə qoyulur. 1911-ci ildə tikilib, qurtarır. Nabatxanım və oğlu Hacı Abbasqulu ağa məscidin əzəmətli bina olması üçün əllərindən gələni əsirgəmirlər. Məscidin günbəzinin layihəsini memar, polşalı Skibinski vermişdi. Məscidin tikilişində şəhərin ən məşhur bənna və ustaları Məmməd Hənifə, usta Hacı Xeyrulla, Hacı Abbas və başqaları iştirak etmişdilər. Məscidin daxili tərtibatı məşhur ustalardan Kərbəlayi Sadıq ilə Kərbəlayi Məcidindir.

Nabat xanım və oğlu Hacı Abbasqulu ağa - hər ikisi məscidin həyətində dəfn edilmişlər.

Şəhərin ikinci böyük məscidi Əjdər bəy Aşurbəyovun "İttifa" məscididir. Camaat arasında bu məscid "Göy məscid" adlanır. 1912-ci ildə tikilmişdir. Məscidin layihəsi Zivər bəy Əhmədbəyovun, ornament və naxışlar Kərbəlayi Sadıq ilə Kərbəlayi Məcidindir.

Məscidlərdən əlavə Bakıda daha bir dini müəssisə vardı. Bu da Bəhailərin mədrəsəsi idi. Üç, dörd otaqdan ibarət olan mədrəsə indiki Mirzəağa Əliyev küçəsində 216 nömrəli evdə yerləşirdi. Bu dini müəssisə bir neçə nəfər tərəfindən idarə olunduğu üçün "Heyəti mədrəsəyi bəhaiyan" adlanırdı.

Bəhaizm keçən əsrin axırlarında yaradılmışdı. Onun əsasını qoyan Mirzə Hüseyn Əli idi. Sonralar o Bəhaulla təxəllüsu ilə şöhrət tapmışdı. Bəhaulla Babın müridlərindən biri idi. O babilik içərisindən çıxsa da tamamilə yeni dünya görüşü təlqin edirdi. Babilərin üsyankar əhvali-ruhiyyəsindən fərqli olaraq, Bəhaulla itaəti və mübarizədən imtina etməyi təlqin edirdi. Bəhailiyin əsas qanunları Bəhaullanın 1872-ci ildə tərtib etdiyi "Kitabi Əqdəs" adlı kitabında geniş izah edilir. Bu kitab bəhailər üçün Quranı və habelə Babın məşhur "Bəyan" əsərini əvəz edirdi. "Kitabi Əqdəs"ə görə qardaşlıq ilə sinfi mübarizə bir araya sığmır. Bəhaullanın oğlu və onun işini davam etdirən Əbdül Bəha isə tətil və üsyanları qadağan hesab edir və fəhlələri itaəta çağırırdı. Əbdül Bəha Bəhaullanın təlimini davam etdirərək, babilərin cəmiyyətin dəyişdirilməsi uğrunda silahlı mübarizə kimi babilik ənənələrindən imtina edirdi.

Bəhaizm mahiyyət etibarilə yeni, müasir din idi. Nə bəhailər özləri və nə də müsəlmanlar onu İslamın bir hissəsi kimi qəbul etmirdilər. Buna görə də onlar dəfələrlə təqiblərə məruz qalmışdılar.

Bəhaizmin etik tərəfi başqa müsəlman təriqəti kimi L. N. Tolstoy tərəfindən müdafiə olunurdu. Tolstoy 1909-cu ildə M. M. Krımbayevə göndərdiyi məktubunda belə yazırdı: "Bu hərəkət Məhəmməd dininin ölü xarici fərmanlarından azad edilməsinə doğru irəliləyişdir".

Bəhaizmin vətəni əsasən Qərbi Avropa və Amerika idi. Rusiyada və onun ucqar ölkələrində də yayılmışdı. Bəhaizm dini ideyaları təbliğ etməklə adamların və xalqların ümumi qardaşlığına nail olmağa, bəşəriyyət üçün vahid dil və vahid din yaratmağa çalışırdı. Bir sözlə, bəhaizm İslamın islah edilməsi formalarından biri idi.

İnqilabdan qabaq ta 1920-ci illərədək Azərbaycanda da bəhailər öz tərəfdarlarını tapmışdılar. Yuxarıda adını çəkdiyimiz mədrəsə də bəhailərin qızğın təbliğat mərkəzinə çevrilmişdi. Hətta yeni iqtisadi siyasət dövründə də onlar öz təbliğatlarından əl çəkməmişdilər. Azərbaycanda daha çox yurd saldıqları yer Bərdə rayonu idi. Bakının Balaxana kəndində də bəhailər güclü idilər. Köhnə balaxanalıların dediklərinə görə burada evlərin çoxunda vaxtı ilə Bəhanın şəklini divardan asardılar. Bəhailər inqilabın ilk illərində yüksək vəzifəli adamlara da yol tapa bilmişdilər. Bakının qocaman müəllimlərindən Əli Raqib Qasımov, Məmməd və Qulam Ələkbərov qardaşları da vaxtı ilə bəhai olmuşdular. Bakı milyonçularından Musa Nağıyev də bəhai təşkilatının üzvü idi. Yeni iqtisadi

siyasət dövründən sonra bəhailər hökümət orqanları tərəfindən təqib olunurdular. Onların Bakıdakı mədrəsələri də bağlanmışdı.

Müəllim Əli Raqib Qasımovun Amerikada bəhailər barədə xüsusi kitabçası çap olunmuşdu.

Bakıda və quberniyanın başqa qəzalarında bir çox görkəmli müsəlman üləmaları yaşamışdır. Onların əksəriyyəti ruhani təhsillərini, Məkkədə, Mədinədə, İraqda, İranda və başqa İslamın müqəddəs şəhərlərində almışdılar. Vətənə döndükdən sonra iri məscidlərdə axundluq etmişdilər. Bu üləmalər hətta ağır irtica illərində də xalqın mədəniyyəti və maariflənməsi sahəsində dövrün maarifpərvər ziyalıları ilə çiyin-çiyinə durmuşdular. Onlardan hərəsinin öz mövqeyi, öz çəkisi vardı. 1920-ci ilədək Azərbaycanda nəşr olunan mətbuatı səhifələrkən belə üləmaların din və mədəniyyət barədə, elm və maarifin tərəqqisi, ictimai əxlaq və tərbiyə barədə bir sıra gözəl publisist məqalələrinə rast gələrsən. Onlar qəzetlərdə bir mühərrir kimi çıxış edir, cəmiyyətin gündəlik ictimai-əxlaqi məsələlərinin həllində yaxından iştirak edirdilər. Bəzilər tərcümə sahəsində də fəaliyyət göstərərək, Şərq dillərindən ayrı-ayrı əsərlərin Azərbaycan dilinə tərcüməsi ilə məşğul olmuşlar. Bakının üləmaları içərisində dörd üləmanı xüsusilə qeyd etmək lazımdır. Azərbaycanda ilahiyyat elminin inkişafında, habelə elm və maarifin tərəqqisində, onların böyük fəaliyyət və xidmətləri olmuşdur. Kim idi bunlar? Axund Mirzə Əbu Turab Axundzadə, Axund Mir Məhəmməd Kərim Mircəfərzadə, Axund Molla Ağa Əlizadə. Hər dördü Bakıdandır, hər dördü ərəb və Şərq ölkələrində ali ruhani təhsili alıb, Vətənə qayıtmış və Bakı məscidlərində axund kimi fəaliyyət göstərmişlər. Bunların içərisində nisbətən yaşlı nəslə mənsub olanı Axund Mirzə Abu Turab idi.

**Axund Mirzə Əbu Turab** Bakı şəhərinin İçəri şəhər hissəsində anadan olmuş və fəaliyyəti də əsasən Bakı ilə bağlı olmuşdur. O, dövrünün bütün ictimai və mədəni hadisələrində yaxından iştirak etmişdir. Məsələn, 1905-ci ildən nəşr olunan "Həyat" qəzetinin mühərriləri: Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev kimi yazıçı və ictimai xidmətlər sırasında Axund Mirzə Əbu Turabın da imzasına tez-tez rast gəlmək olur. O, təhsilini Mədinədə alaraq, ərəb dilinə mükəmməl yiyələnmişdi. Əmirhacıyan məscidində və habelə şəhərin bir çox məscidlərində öz moizələrini bəzən ərəb dilində oxuyurdu. Öz dövründə ilahiyyat elminin ən görkəmli nümayəndəsi hesab olunurdu. Elmin, maarifin dostu, mövhumatın, dini fanatizmin qatı düşməni idi. Şəbeh çıxarmaq, baş yarmaq, zəncir vurmaq, şaxsey-vaxsey kimi dini adətlərə qarşı çıxaraq, müsəlmanları İslamiyyətə dəxli olmayan belə zərərli adətlərdən çəkinməyə çağırırdı. Həm minbərdən və həm də mətbuat səhifələrindən. Buna görə də fanatik qara qüvvələr onu sevmirdilər. Onu açıq-açığına hədələyərək, deyirdilər ki, bu axund bizi bidətə çağırır. Axundun öz qızını Tağıyevin qız

məktəbinə qoyması onun düşmənlərini daha da qəzəbləndirmişdi. Həyatı bir neçə dəfə təhlükə qarşısında qalmışdı. Belə hallarda o, Mərdəkandakı bağında gizlənirdi. Moizələrində həmişə sünni-şiəçiliyin əleyhinə çıxırdı. İslamda təfriqə salanlarla mübarizədə silahını heç zaman yerə qoymamışdı. Cəmiyyətin mütərəqqi ziyalıları ilə onun arasında bəzən münaqişə və mübahisələr də baş verirdi. Xüsusilə "Həyat" qəzetində dərc edilmiş və sonralar 1907-ci ildə Tiflisdə kitabça şəklində nəşr edilmiş "Bizə hansı elmlər lazımdır?" məqaləsində irəli sürülən məsələlər ətrafında qızğın mübahisələr getmişdir. Söhbət hansı elmlərin vacibliyi barədə idi. Bəzilərinin düşündüyü kimi müəllif elm ədyanla elm əbyanı heç zaman bir-birinə qarşı qoymamışdı. O, yalnız hansı elmi əvvəlcə öyrənməyin əhəmiyyətindən danışır və özünün bütün mülahizələrini də bunun əsasında qururdu. Axund Əbu Turab ilk növbədə insanın daxili aləminin paklığını, təmizliyini və zənginləşməsini lazım bilirdi. Mənəvi daxili aləmi zənginləşdirmədən təbii elmlərin öyrənilməsi fayda verməz - deyirdi. İnsanda insaniyyəti tərbiyələndirmək üçün onun fikrincə birinci növbədə ilahiyyata yiyələnmək lazımdır. Bu barədə belə yazırdı: "Hikməti təbiini bilməklə insan olmaq olmaz. Hikməti ilahi ilən kamil olmaq insanı insan edər". Söhbət ancaq bu barədə gedirdi. Bəziləri isə Axund Əbu Turabı düzgün başa düşməyərək, belə nəticə çıxarırdılar ki, guya o, dünyəvi elmləri inkar edir, yalnız dini elmlərə, ilahiyyata rəvac verir. Əslində Axund Əbu Turabın məqsəd və məramı hər şeydən əvvəl insanın daxili aləmini zənginləşdirmək idi. Belə olmadıqda onun fikrincə insanın məşğul olduğu təbii elmlər heç bir səmərə verməz. "Bəs lazımdır insan əvvəl dəyanət elmini təhsil edib, sonra sair ülum və maarifə iştiqal etsin".

Məlum olduğu üzrə elmlə din arasındakı mübahisəyə hələ qədim zamanlarda Əbu Əli Sina, Fərabi, İbn Rəşad kimi üləmalar da girişmişdi. Axund Mirzə Əbu Turabın məqaləsi ətrafında gedən mübahisələrdə Əli bəy Hüseynzadə bu məsələ ilə əlaqədar çıxış edən Ömər Faiq Nemanzadə və "Molla Nəsrəddin" jurnalından fərqli olaraq, məsələyə daha mötədil və ehtiyatla yanaşırdı. O, yazırdı: "Russo ülum və fənnin ziddinə, əleyhinə idi. Lakin Əbu Turab bu qədər irəli getmir. O, ancaq buyurur ki, ülum və fünun təhsil etməməkdə, onlardan məhrum olmaqda bir zərər yoxdur. Yetərki ülum diniyəyə və məzhəbiyəyə, nəqliyəyə həqq ilə vaqif olaq. Elm və din, ixtilafi din və məzhəb... qorxulu sözlər deyilmi? Lakin heç qorxmayın. Çünki həqiqət halda niza və ixtilaf elm ilə din arasında deyildir. Çünki nə haqq və mubin (aşkar) olan din elmdən qorxar və nə də elmi həqiqət din və məzhəbə düşməndir. İxtilaf bunların arasında deyildir". Əli bəy Hüseynzadə ixtilafı özlərini din bilicisi hesab edən mollalarla din elmindən xəbəri olmayan elm və maarif xadimləri arasında görürdü. Beləliklə söhbət nə dinin və nə də elmin inkarından deyil, onlardan birinin üstünlüyündən gedirdi. Şübhəsiz ki, Axund

Mirzə Əbu Turab üstünlüyü dinə verirdi. "Tibb elmində - yazırdı - bədənin xəstəliklərinə əlac etmək olar, lakin onunla insanlıq kəsb etmək olmaz".

Axund Əbu Turab fəal publisist idi. Hansı mövzuda yazırsa-yazsın, insanları həmişə maarifə və birliyə çağırırdı. Öz dərin biliyi, mərifəti və xeyirxahlığı ilə hamının hörmətini qazanmışdı. H. Z. Tağıyevin ona xüsusi ixlası vardı. Axund Mirzə Əbu Turabın ölümündən sonra 1914-cü ildə Orucov qardaşlarının nəşriyyatı tərəfindən onun "İslamın təfriqəsi səbəbləri" adlı kitabı nəşr edilmişdir. Bu kitabda İslamiyyət içərisindəki təfriqənin əsas səbəbləri geniş izah olunurdu. Axund Mirzə Əbu Turab 1910-cu ildə vəfat etmişdir.

Bakının ikinci görkəmli ruhanisi Bakı Vilayət qazısı, camaat içərisində "Kəşf-ül həqayiq" adı ilə Quranın üç cilddən ibarət azərbaycanca təfsirini vermiş **Axund Mir Məhəmməd Kərim Mircəfərzadədir.** Təfsirin hər cildi 800-1000 səhifədən ibarətdir. Quranın tərcüməsi də, çap edilməsi də H. Z. Tağıyevin pulu ilə başa çatdırılmışdır. O dövrdə Bakıda çətin elə bir ev tapılaydı ki, orada "Kəşf-ül həqayiq" müqəddəs bir kitab kimi əziz tutulmasın. Bakılılar bir qayda olaraq, dünyaya gəlmiş övladlarının ad və yaşlarını bu müqəddəs kitabın cildinə yazırdılar. Hazırda bəziləri təfsirin özünün də mürəkkəb, çətin bir üslubda yazıldığını haqlı olaraq, qeyd edirlər. Ancaq nə edəsən ki, təfsirin meydana çıxdığı illərdə Azərbaycanda bütün dini və ilahiyyat ədəbiyyatı yalnız bu üslub tərzində yaradılırdı. Quranın təfsiri kimi mühüm bir işdə Axund Mirzə Əbu Turab və Axund Molla Ruhulla Məmmədzadə də öz məsləhət və köməyini əsirgəməmişdilər.

"Kəşf-ül həqayiq"in ikinci cildi çapdan çıxdıqdan sonra mollanəsrəddinçilərlə Axund Mir Məhəmməd Kərim arasında bir narazılıq baş vermişdi. "Molla Nəsrəddin" bu narazılığını 1911-ci il 10 iyul tarixli 25-ci nömrəsində çap etdirdiyi "Zina" adlı felyetonunda bildirmişdi. Məlumdur ki, Quranın hər bir ayəsini açmaq və təfsir etmək məqsədilə müəllif müxtəlif Ərəb tarixçi və yazıçılarının əsərlərindən də istifadə etmişdir. Mir Məhəmməd Kərimin müraciət etdiyi belə kitablardan biri də İbn Xəldanın "Fiyat əla əyyan" adlı əsəri idi. Həmin kitabdan götürülmüş əhvalatın bəzi yerləri açıq-saçıq yazıldığından mollanəsrəddinçilərin qəzəbinə səbəb olmuşdu.

Mir Məhəmməd Kərim Bakıda çıxan bir sıra qəzetlərdə mühərrir kimi çıxış edirdi. Məqalələrində dini fanatizmi qamçılayır, mövhumat qalıqlarına qarşı çıxaraq, müsəlmanları haqq yolunda birləşməyə və düzgünlüyə çağırırdı. Ancaq ciblərini güdən müxtəlif yalançı və riyakar din xadimlərini məhşər ayağına çəkirdi. 1910-1911-ci illərdə Nəcəf uşaqları adı ilə tanınmış dörd qardaş Bibiheybət ziyarətgahını özlərinin gəlir mənbəyinə çevirmişdilər. Onlar müxtəlif yollarla topladıqları sərmayəni ziyarətgahın təmirinə, onun ətrafındakı ərazini, ziyarətgaha gedən yolu abadlaşdırmaq əvəzinə öz keflərinə xərc edirdilər. Bunu Axund Mir

Məhəmməd Kərim gördükdə şəhər Bələdiyyə idarəsinə müraciət edir, ancaq heç bir nəticə vermir. Əksinə, hökümət ziyarətgahı müzaidə yolu ilə təzədən Nəcəf uşaqlarına verir.

Axund Mir Məhəmməd Kərim Bakının bir sıra xeyriyyə cəmiyyətlərinin üzvü idi. Üzvü olduğu "Hidayət" cəmiyyətinin camaata olan müraciətnaməsinə o da imza etmişdi. İslam xürufatına qarşı çevrilmiş bu müraciətnamədən qəzəblənmiş qaragüruh dəstələr Mir Məhəmməd Kərimlə cəmiyyətin katibi Əlibəyovu öldürməyi qərara alırlar. Əlibəyov qorxudan həftələrlə evdən bayıra çıxa bilmir. Axundun yaşadığı evin qapısına neft töküb yandırmaq istədikdə xəbər tutan qonşular tez yanğını söndürə bilirlər.

Axund Mir Məhəmməd Kərim 1853-cü ildə Bakıda anadan olmuşdur. Burada mədrəsə məktəbini bitirdikdən sonra 17 yaşında ikən atası tərəfindən Bağdad şəhərinə göndərilir. On il burada təhsil alıb Bakıya qayıdır və İçərişəhərin Şah məscidində axundluq eləyir. Bakı Vilayət qazısı təyin edildikdən sonra şəhərin ictimai və mədəni həyatında fəal iştirak etməyə başlayır. Onun əsas fəaliyyəti tərcüməçilik idi. Şərq dillərindən - xüsusilə ərəb dilindən bir sıra əsərləri Azərbaycan dilinə tərcümə etmişdir. Misir yazıçısı Gürcü Zeydanın İslam tarixinə aid məşhur romanlarının Azərbaycan dilinə tərcüməsi onun qələminin məhsuludur. Bu romanların tərcüməsi üzərində xeyli vaxt sərf edilmişdir. Həmin romanlar bunlardır: "Ərmənusa" 470 səhifə, "Üzərayi Qüreyş" 534 səhifə, "On yeddi Ramazan" 374 səhifə, "Kərbəla yanğısı" 537 səhifə.

Beləliklə Axund Mir Məhəmməd Kərim ömrünün böyük bir hisəsini Quranın və adlarını çəkdiyimiz romanların tərcüməsinə sərf etmişdir. 1913-cü ildə onun çap edilmiş "Səlib müharibəsi" adlı kitabı tarixi əsərdir. Kitab iki hissədən ibarətdir. Şam və Fələstində müsəlmanlarla xristianların arasında baş verən iki yüziliik Səlib müharibəsinin təsviri kitabın əsasını təşkil edir. Məlum olduğu üzrə bu müharibə 490-cı il hicridə başlamış, 690-cı ildə qurtarmışdır. 690-cı ildə müsəlmanlar böyük tələfatdan sonra xristianları məmləkətlərindən çıxara bilmişdilər.

Axund Mir Məhəmməd Kərimin çap edilməmiş bir sıra əlyazmaları da qalmışdır. Bunlardan "Harunəlrəşid bacısı Abbasiyə", "Əbülmüslim Xorasani", "Əmin və Mömin qardaşları" və "İran kəndlilərinin halı, yaxud Təbrizdə gördüklərim" və sairə. Bu axırıncı realist tərzdə yazılmış xatirələrdən ibarətdir.

Axund Mir Məhəmməd Kərim 1938-ci ildə 85 yaşında şəxsiyyətə pərəstiş dövrünün qurbanı olmuş, yalnız ölümündən sonra bəraət qazanmışdır.

Elm və maarifin yayılmasında, qadın rolunun təbliğində mühüm rol oynamış ruhanilərdən biri də **Axund Molla Ruhulla Məmmədzadədir.** O, 1850-ci ildə Novxana kəndində anadan olmuşdur. On beş yaşında ikən Qəzvin şəhərinə gedir. Burada üç il təhsil aldıqdan sonra 28 yaşında Novxanıya qayıdır. Əvvəllər

Novxanada, sonralar isə 18 il Bakının Hacı İmaməli məscidində prixod mollası işləyir. Camaatın xahişi ilə eyni zamanda rus-müsəlman məktəblərində şəriət dərslərini aparırdı.

Axund Molla Ruhulla millətin həyat və məişətində zərərli mövqe tutan din xadimlərinin ilahiyyatla əlaqəsi olmayan moizələrinin mahiyyətini təhlil edərək, belə qərara gəlmişdi ki, millətə yalnız tərəqqi və mədəni inkişaf baxımından yanaşan, öz moizə və çıxışları ilə yalnız insan qəlbinin saflığına çalışan ruhanilər zəmanəmizdə düzgün həqiqət yolunu tuta bilərlər. Xürufata uyan mollalardan, onların düzgün insanlıq yolundan saparaq, camaata ancaq zərərli fikirlər təbliğ etməsindən bilmərrə narazı idi. Çünki məhz belə mollalar camaatın əbədüldəhr cəhalətdə qalmasına səbəb olur. 1324 hicridə köhnə dumanın binasında düzəldilmiş ümumi təziyə zamanı çıxış edərək, demişdi: "Milləti bu hala salanlar dəxi biz olmuşuq. Bir para mollalar olubdur".

Bu fikirlər onun fəal bir publisist kimi M. R. Məmmədzadə imzası ilə çıxış etdiyi "Həyat", "İrşad", "Tərəqqi", "Dəbistan" kimi qəzet və jurnallarda, Hindistanın Kəlküttə şəhərində nəşr edilən "Hübbül vətən", İstanbulun "Məlumat" qəzetlərində tez-tez çap olunan məqalələrində öz əksini tapırdı. Din Axund Molla Ruhulla üçün müqəddəsdi. Lakin quru dindarlığın heç bir fayda verməyəcəyini qeyd edərək, insanlara və həyata işıq gətirməyi ruhaniliyin əsas və müqəddəs vəzifələrindən hesab edirdi. O insanları həyatda fəal mübarizəyə çağırırdı. "Günəş" qəzetində "Axundların xidməti" məqaləsində yazırdı: "Qeyrət budurmu ki, xalqlar sənin torpağını arayıb, faydalar götürsün, sənin çırağın ilə işıqlansın, amma sən zülmətdə otur, acından öl. Bunun axırı nədir? Dinə də zəəf gəlir, dünyaya da. Quru dindarlıq fayda verməz, para gətirməz. Parasız da iş aşmaz. Şəhərlərdə məscidlər dolusu fəqirlər quru dindarlıq edənlərdir. Bu gün bu fəqirliyin bəlasından bütün məmaliki İslamiyyə fəlakətə düşmüşdür".

Axund Molla Ruhulla ürək ağrısı ilə məsləhət bilirdi ki, boş-boş sözlərdən bir iş aşmaz, qollarını çırmayıb həyat mübarizəsinə girişmək lazımdır. Xalqlara işıq və nur yolunu göstərmək lazımdır, elmin və maarifin ətəyindən yapışmaq gərəkdir. Cəhalət bütün bəlaların ümdə səbəbidir. Ona uymayın, amanın bir günüdür - deyirdi. "İrşad" qəzetinin 1906-cı il tarixli 134-cü nömrəsində dərc etdirdiyi "Hamımıza dair" məqaləsində bu fikrini daha da genişləndirərək, yazırdı: "Hamıya məlumdur ki, nə qədər maarifin çıraqları sönübsə, cəhalət çoxalırsa, səfil millət o qədər zillət və zəlalətə səbəb olur. Bu dünyada bundan da alçaq, dəni və rəzil adam bulunarmı ki, əbnay növünü deyil, öz qardaşını, övladını bu səfalətdə, bu cəhalətdə mülahizə edib, mükatib qapıların mıxladıb, maarif məşəllərin torpaqlasın, bu fəqir, pəristar millətin halı günbəgün pərişanlığa üz qoyduğuna bais olsun... Qeyrət, qardaşlar, qeyrət... Allah eşqinə bir qeyrət edin. O səfalı və pak yaradılmış

qəlbinizi alçaq və dini qərəzlərlə məşğul edib, binəva millətin yetim balalarını cəhalət yoluna yaxmayın".

Axund Molla Ruhulla elm və maarifə bir tərəfli yiyələnmənin əleyhinə idi. Onun fikrincə elmə yiyələnən adamlar qollarını çırmayıb, həyat mübarizəsinə girməyincə öz məqsədlərinə nail olmayacaqlar. 1906-cı il "Günəş" qəzetinin 103-cü nömrəsində "Bizlər-bizimkilər" adlı məqaləsində yazırdı: "Kamallı mühərrirlərimiz bizə "Ülum və maarif gərəkdir" - deyirlər. Mən isə bizə vücudlu kişilər, hümmətli şəxslər, qəyyur rəislər gərəkdir - deyə fəryad edirəm. Əvət bizə nər kişilər, ər kişilər" gərəkdir ki, vücudların xalq faydasına, ümum mənafeyə həsr etsin, maarif və mədəniyyəti müsəlmanlar arasında nəşr etməyə qeyrət etsin. Bizim üçün qəvaid, üsul bilən mürəbbilər, müəllimlər, alimlər cəlb etsin. Bütün şəhərlərdə, kəndlərdə köhnə üsul və məktəb və mədrəsələrimizi yeni üsuli təlimə təbdil etsinlər".

Bəli, Axund Molla Ruhulla maarif və mədəniyyəti yayan belə fəal mübarizlər arzulayırdı. Elə mübarizlər ki, elmin inkişafında, yenilik yaradılmasında canlarını əsirgəmədən meydana atılsınlar. Bu işdə zülm və təzyiq olsa da ona dözə bilsinlər. 1910-cu ildə oğlu Məmməd Sadıq Axundov həbsdə ikən* ona göndərdiyi məktubda haqq işi uğrunda mübarizədə dözümlü olmağı, təzyiqə davam gətirməyi ona məsləhət bilirdi. Bu, ruhani atanın öz publisist oğluna ən birinci məsləhəti idi. Məktubda yazırdı: "İnsanlığın birinci pilləsinə təzə qədəm basdın. Məlul olma. Bəhhəmdulla səndə xilaf əməl yoxdur... Sənin yazdığın məqalələr də biltamam ülum və maarif, insaniyyət qəsd olunmuşdur... Ancaq bizlərə yetişən zülmləri deməkdən və bu barədə yazıb, danışmaqdan çəkinməyəcəyik... İstintaq zamanı özünü itirmə. Fikirləş, insan üçün öz həyatına çalışmaq eyib deyil, "Panislamizm töhməti ilə biçarə müəllimləri də bədbəxt etmək istəyirlərmiş. Bu da bəzi fitnəkar casusların əlində bir sərmayə, maaş olubdur".

1904-cü ildə Bakıda "Hidayət" adlı bir cəmiyyət yaradılmışdı. Bu cəmiyyətin təşkilatçıları əsasən ruhanilər və ziyalılar idi. Bakıda qaniçən qoçular və qatillərlə mübarizə aparmağı, dini fanatizmin qarşısını almağı bu cəmiyyət öz qarşısına məqsəd qoymuşdu. Məhərrəmlikdə camaatın dəstə-dəstə şəhərin küçələrini gəzib, baş vurmaları, zəncir vurmaları cəmiyyət tərəfindən pislənir, məscid minbərlərində Axund Molla Əbu Turab, qazı Mir Məhəmməd Kərim

* 1910-cu ildə hökümət dairələrində belə bir xəbər alınmışdı ki, guya müsəlmanlar arasında "İttihad İslam" fikri yayılmışdır. Bununla əlaqədar martın 19-da qəzet və jurnallar bağlanmış, müdir və mühərrirləri də həbsə alınmışdı. Axund Ruhullanın oğlu Məmməd Sadıq Axundov da o cümlədən həbs edilmişdi.

tərəfindən İslam dininin əsl mahiyyəti camaata başa salınırdı. Quduzlaşmış qoçuların qabağını almaq işində də cəmiyyət hökümətə yaxından kömək edirdi. Qoçuların siyahısı tutularaq, onların barəsində cəza tədbirləri görmək üçün hökümətə təqdim olunurdu.

"Hidayət"in on nəfərdən ibarət idarə heyəti vardı. Onun üzvlərindən H. Z. Tağıyev, İsa bəy Hacınski, Bakı qazısı Mir Məhəmməd Kərim, Axund Molla Ruhulla, Əhməd bəy Ağayev, Musafa bəy Əlibəyovu qeyd etmək olar. Cəmiyyətin məramnaməsi camaata müraciət şəklində elan edildikdə qaragüruh qüvvələr onun üzvlərinə qarşı təərrüzə keçdilər. Cəmiyyətin katibi Əlibəyov həftələrlə evindən bayıra çıxa bilmədi, Axund Mir Məhəmməd Kərimin evini yandırmaq istədilər. Yaxşı ki, qonşular həyət qapısının yandığını görüb, yanğını tez söndürə bilmişdilər. Axund Molla Ruhullanın isə taleyi daha faciəli oldu. Onun həmkəndlisi novxanalı qoçu Məşədi Hacı oğlu Bakıdan sürgün edilmək üçün adının qubernatora təqdim edilməsində Molla Ruhullanın barmağı olduğunu öyrənib, onu öldürmək üçün fürsət axtarmağa başladı. Nəhayət, 1912-ci ilin yanvarında onu namaz qılan yerdə öldürdülər. Axundun öldürülməsi bütün Bakını sarsıtmışdı. Dəfnində 10 minədək adam iştirak etmişdi. H. Z. Tağıyev dəfn mərasimində çıxış edərək demişdi: "Həzarət, mən neçə ildir dad-fəryad eləyirəm ki, camaat, oxuyun, balalarınızı oxudun ki, belə müsibətlərə düçar olmayaq. Bu gün həmin elmsizliyin nəticəsidir ki, belə qanlı vaqiəni görürük".

Axund Ruhullanın ölümü dövrün qabaqcıl ziyalılarını xüsusilə kədərləndirmişdi. Məşhur publisist Hüseyin Minasazov "Kaspi" qəzetinin 1912-ci il 15-ci nömrəsində yazırdı: "Molla Ruhulla xeyirxahlıq və həqiqətin dönməz və cəsur müdafiəçisi idi. Ruhani ata, publisist və müəllim-ictimai fəaliyyətin bu üç sahəsində o özünü xalq mənafeyinin alovlu müdafiəçisi kimi göstərmişdi. Minbərlərdən onun birliyə, işə, işığa-səsləyən gurultulu çağırışlarını tez-tez eşitmək olardı. Qəzet səhifələrində onun fanatizmə, qüvvələrimizin pərakəndəliyinə qarşı, bizim vaxtı keçmiş xürufat və zehniyyətimizə qarşı etirazlarına tez-tez rast gəlmək olardı. Bu həqiqi mənada qəhrəmanlıq idi. Bu parlaq zəka bir dəqiqə də olsun unutmurdu ki, həyatımızın quruluşunda başlıca ünsür qadınlardır. Qadın təhsili ideyası, müsəlman qadınlarının taleyi onun simasında özünün parlaq müdafiəçisini tapmışdı".

M. Ə. Rəsulzadə isə onun haqqında belə yazırdı: "Zənn etmə ki, sənin maarif yolunda etdiyin fədakarlıqlar həpsi əfsanədir. Xeyr, olamaz".

Şeyxülislam Axund Molla Ağa Əlizadə Azərbaycanın görkəmli din xadimlərindəndir. Azərbaycanın ilk Şeyxülislamı olub 1870-ci ildə Bakının Pirşağı kəndində anadan olmuş, 1954-cü il dekabr ayının 19-da Bakı şəhərində vəfat etmişdir.

Axund Molla Ağa ilk təhsilini evdə almışdır. Atası Axund Hacı Məhəmməd Cavad övladlarının dünyəvi təhsil almalarını vacib bilərək, Bakı şəhərində ev tikdirmiş və ailəsi ilə birlikdə şəhərə köçmüşdür. Qısa bir müddət gənc Ağa İçərişəhərdəki Məhəmməd məscidinin nəzdindəki mədrəsədə oxumuşdur. Sonra atası onu o dövrdə maarifpərvər bir müəllim kimi tanınmış şair Həsib Qüdsinin yanına aparır. Ağa burada astronomiya, riyaziyyat və təbabət elmləri ilə tanış olur. Başqa dünyəvi elmlərə də yiyələnir, təbabət elminə xüsusi maraq göstərir. Bu maraq, deyilənə görə ona dayısı həkim Mirzə Xalıq Axundovdan keçmişdi. Bununla bərabər o ərəb və fars dillərini də səy ilə öyrənir, Quranı öyrənərkən onun bütün incə mətləblərinədək nüfuz edir.

Bundan sonra təhsilini davam etdirmək məqsədilə atası onu İraqa göndərir. O burada Nəcəfül-Əşrəf universitetinə daxil olur. Təhsil müddətində çox şeyləri özünə haram edib, özünü tamamilə elmə həsr edir. Bunun nəticəsidir ki, o təhsilini ləyaqətlə başa vurub, axund rütbəsi alır və vətənə qayıdır.

O zaman bir qayda olaraq, ərəb ölkələrində təhsil alıb qayıtmış gənclər məhəllə məscidlərinə axund təyin olunurdular. Ağa da təyinatını Bakı şəhərinin məscidlərindən birinə alıb, orada fəaliyyətə başlayır. 1904-cü ildə o Qafqaz Müsəlmanlarının Şiə Ruhani İdarəsinə üzv seçilir.

1905-1906-cı illərdə Bakıda erməni-müsəlman qırğını günlərində Axund Molla Ağa o dəhşətli hadisələrə laqeyd qala bilmir. Həm minbərdən moizələrində, həm də camaatla söhbətlərində bu qantökmənin qarşısını almağa çalışırdı. Quranı başı üstünə qaldıraraq, hamını qardaşlığa, Quranda yazılanlara əməl etməyə, düz yola, Allah yoluna çağırırdı.

1918-ci ildə Azərbaycanda Demokratik hökümət yarandıqda öz moizələrində indi yalnız Quran ayələrindən deyil, Azərbaycan Demokratik Respublikasının vəziyyətindən də bəhs edir, camaatı bu respublikanı möhkəmlətməyə, onun ətrafında sıx birləşməyə və ona kömək etməyə çağırırdı. Camaatı başa salırdı ki, istiqlaliyyət böyük qənimətdir, onun qədrini bilmək lazımdır. Gənc höküməti möhkəmləndirmək üçün adamları öz övladlarını ordu sıralarına göndərməyə təşviq edirdi. O deyirdi: "Allah-taalanın buyruqlarını yalnız ölkənin istiqlaliyyəti şəraitində intişar etdirmək olar".

Axund öz dini fəaliyyətini, demək olar ki, gənc dövlətin möhkəmləndirilməsinə tərəf istiqamətləndirmişdi. Məhz belə fədakar fəaliyyətinə görə o Maverayi-Qafqaz Müsəlmanlığının Ruhani İdarəsinin sədri seçilmiş və Şeyxülislam təyin edilmişdi.

Axundun bu nəcib fəaliyyəti 1920-ci ilədək davam edir. Azərbaycan XI bolşevik ordusu tərəfindən zəbt edildikdən sonra ruhanilik üzərinə qara bir xətt çəkildi. Ruhani idarələri, məscidlər bağlanıb binaları anbara çevrildi. Hətta ruhanilərin bəziləri həbs edildi.

Ruhanilərin təqibi, din əleyhinə kompaniya, allahsızlar hərəkatı 1941-ci ilədək davam etdi. Müharibənin qanlı-qadalı illərində camaat sanki dinə, Allaha tərəf qayıtdı. Dini mərasimlərin dövlət tərəfindən qadağan edilməsinə baxmayaraq, camaatın zorla əllərindən alınmış dini etiqadları özlərinə qayıtdı. Bu elə kütləvi bir hal almışdı kl, hökümət özü də istər-istəməz buna göz yummalı oldu. Nəinki göz yumuldu, hətta dini mərasimlərin rəvacına icazə verildi. Məscidlərin bağlı qapıları açıldı. Din xadimləri üstündən, təbir çaizsə, veto götürüldü.

Axund Molla Ağa Əlizadə ikinci dəfə Şeyxülislamlığa təyin olundu.

Artıq bu böyük ruhani şəxsiyyətin minbərdən əsl vətənpərvər kimi səsi eşidilməyə başladı. O öz moizələrində Vətəni qorumağa gedən cavanlara xeyir-dua oxuyur, cəbhə arxasında çalışan adamları yeni qələbələrə ruhlandırırdı.

Müharibə qurtarandan sonra da Axund Molla Ağa Əlizadə susmamışdı. İndi o bütün dünyada sülhün carçısı kimi çıxış edirdi. Səsi xarici ölkələrin kürsülərindən eşidilirdi. Xarici ölkələrdə keçirilən sülh konqreslərinə tez-tez dəvət olunan axund sülhün mübariz qorucusuna çevrilmişdi. Vyanada keçirilmiş sülhü müdafiə konqresində çıxış edərək demişdi: "Bütün Qafqaz və dünya müsəlmanlarına, bütün namuslu adamlara üzümü tutaraq, deyirəm: sülhü müdafiə uğrunda aparılan müqəddəs işə qoşulun, müharibəyə qarşı öz səsinizi qaldırın".

1954-cü il dekabr ayının 19-da Bakı və bakılılar öz böyük ruhani atasını ləyaqətlə son mənzilinə yola saldılar.

Bakıda yaşayan başqa millətlərin də öz məbədgah və kilsələri vardı. Pravoslavların ən böyük kilsəsi Zərgərpalan küçəsi ilə Muxtarov küçəsinin arasında köhnə müsəlman qəbiristanlığının yerində tikilmiş Aleksandr Nevski kilsəsi idi. O Sovet hakimiyyəti illərində uçurulanadək bakılılar içərisində "Qızıllı kilsə" adlanırdı. Kilsənin özülü 1888-ci ildə qoyulmuşdu. Bu zaman çar III Aleksandr öz ailəsi ilə birlikdə Bakıya gəlmişdi. O kilsənin özülünün qoyulmasında şəxsən iştirak edir və hətta özülə iki qızıl kərpic qoyur. Buna qədər kilsənin burada tikilməsi dumada böyük mübahisələrə səbəb olmuşdu. Müsəlman qlasnıları buna heç cür razılıq vermirdilər. Çünki qəbiristanlıq müqəddəs yerdir və yaxın zamanlaradək şəhər əhli orada öz ölülərini basdırırdılar. Lakin onların çığır-bağırlarına baxmayaraq, çar məmurları öz bildiklərini elədilər və kilsənin tikilməsini III Aleksandrın Bakıya gəlməsi ilə əsaslandırdılar. Əlbəttə, belə əzəmətli bir tikilinin başa çatdırılması çar müstəmləkə siyasətinin qələbəsi idi. Kilsə hazır olandan sonra müsəlmanlar o zaman, Tağıyev qız məktəbinin yeri hələ boş olduğu vaxtlarda orada Cümə məscidi tikməyi qərara aldılar. Lakin Bələdiyyə idarəsi və çar məmurları isə buna mane oldular. Onların dəlili bu idi ki, orada belə bir məscid tikilərsə, Aleksandr Nevski kilsəsinin əzəmətinə xələl yetirə bilər. Beləliklə müsəlmanların arzusu ürəklərində qaldı. Şəhərin ən uca yerlərindən belə görünən kilsə bütöv bir kvartalı, işğal etmiş, dörd tərəfi dəmir çəpərlə əhatə

edilərək, həyətin yerliyinə asfalt döşənmişdi. Gündə üç dəfə nəhəng zənglərin səsi şəhərin üzərinə yayılırdı. Kilsənin içərisində divarlar və haşiyələr də qızıl suyuna çəkilmişdi. İri büllur çılçıraqlardan göz qamaşırdı.

İkinci kilsə bundan qabaq, 1858-ci ildə İçərişəhərdə Qoşa qala qapısının yanında tikilmiş Nikolay kilsəsi idi. Bu kilsə də iyirminci illərədək fəaliyyət göstərirdi.

Üçüncü kilsə Zərgərpalan küçəsi ilə Vidadi küçəsinin tinindəki Donanma kilsəsi idi. Bu kilsə Donanma idarəsi tərəfindən tikildiyindən belə adlanırdı. Daha bir kilsə Dəmir yolu kilsəsi idi. Kilsə 1898-ci ildə dəmir yolu vağzalı arxasındakı Belvü meydanında əvvəlcə taxtadan, sonra sökülüb, daşdan tikilmişdi. Azadlıq prospekti ilə Ş. Əzizbəyov küçəsinin tinində olan bu kilsə hazırda da fəaliyyət göstərir.

Bakı liman kilsəsi 1868-ci ildə tikilməyə başlayıb. Kilsəni tikdirən Dəniz nazirliyi idi. Rəsmi açılışı 1871-ci il 28 noyabrda olmuşdur.

Salyan polku kilsəsi isə 1873-cü ildə tikilmişdir. Kaspi donanmasına məxsus olan bu kilsə, Bayılda yeni kilsə tikiləndən sonra Bakı Salyan polkuna bağışlanmışdır.

Bakı həbsxana kilsəsi 1898-ci il 8 martda Bayıldakı həbsxananın içərisində açılmışdır. Bakı general-qubernatoru Roqte də onun açılışında iştirak edib.

Bunlardan başqa Şibayovun, Xatisovun, Nobelin Turşu zavodları yanında, III Aleksandr gimnaziyası nəzdində də kilsələr təşkil olunmuşdu. Ermənilərin Bakıda erməni - Qriqoryan kilsələri olub: İçərişəhərdə ən qədim kilsə, 1898-ci ildə Parapetin yanında tikilmiş kilsə, keçmiş Bondarnı, hazırki Ş. Bədəlbəyli küçəsində Budaqovun tikdirdiyi kilsə də ermənilərin olub. Bu axırıncı Sovet hakimiyyəti illərində sökülüb yerində indi konservatoriyanın qabağında Ü. Hacıbəyovun heykəli qoyulmuşdur.

Torqovı (indiki Nizami) və Kaspiyski (indiki R. Behbudov) küçələrinin tinində yəhudilərin sinaqoqu olub. İndi bu binada Mahnı teatrı yerləşir.

Keçmiş Telefon (indiki 28 may) küçəsində almanların Kirxası olub. İndi bu binada kamera orkestrinin konsertləri keçirilir.

Roma-katolik kosteli 1912-ci ildə mühəndis Ploşko tərəfindən qotik üslubda tikilmiş əzəmətli bir tikili idi. O bu yaxın zamanlarda söküləndən sonra yerində Şəhriyar adına klub tikilmişdir.

Funikulyordan yuxarıda böyük bir sahədə, indiki Dağüstü parkın yerində böyük qəbiristanlıq salınmış və hər millət üçün ayrıca yer ayrılmışdı. Ən böyük hissəsini müsəlmanlarla pravoslavların qəbiristanlığı təşkil edirdi. Onlarla yanaşı Erməni - Qriqoryans, Katolik, Lüteran, Malakan qəbiristanlığı vardı.

Biri Aleksandr Nevski kilsəsinin yerində, o biri isə təxminən Cəfər Cabbarlı bağının ərazisində iki müsəlman qəbiristanlığı vardı. Axırıncı qəbiristanlıqda gözü

olan neftxuda erməni Mirzəyev iddia edirdi ki, qəbiristanlığın yeri onundur. Hətta bu yerə kupçisi olduğunu da bildirir. Bunu sübut etmək üçün muzdlu adamlar tutaraq, gecələr qəbiristanlığın başdaşlarını çıxarıb, yeri hamarlayır. Bundan xəbər tutan camaat hay-küy qaldırır. Bütün qəbiristanlıqlar Şəhər idarəsinin sərəncamında olduğu üçün o öz hüququnu müdafiəyə qalxır. Mirzəyev məhkəməyə verilir. İş Tiflisdəki palataya gedib çıxır. Tiflisdən bu işi yoxlamaq üçün nümayəndə göndərirlər. Çıxarılan başdaşlarından və orada-burada atılıb qalmış insan sümüklərindən məlum olur ki, bu yer doğrudan da qəbiristanlıq olub. Tapılan sümüklərdən bəziləri tədqiq olunur və aşkar edilir ki, doğrudan da bu yaxınlaradək burada ölü basdırılırmış. Beləliklə, Mirzəyevin bütün iddiaları rədd olunur

## BAKI BİRİNCİ CAHAN MÜHARİBƏSİ İLLƏRİNDƏ

Birinci cahan müharibəsinin əsas cəbhələrindən biri yaxın Qafqaz cəbhəsi olduğu üçün Bakıda müharibə daha çox hiss olunurdu. Qafqaz cəbhəsində əməliyyatlar 1914-cü ilin 31 dekabrından başlamışdı. Türk qoşunları Qars və Batum istiqamətində irəliləyərək, Zaqafqaziya torpaqlarına girmişdilər. Türkiyə hərbi dairələri də bu cəbhəyə xüsusi əhəmiyyət verdiklərindən Türkiyənin ən böyük hərbi qüvvələri bu istiqamətdə toplaşmışdı. Türkiyənin 40 piyada diviziyasından 11-i bu regionda vuruşurdu. Döyüşlərə Türkiyənin hərbi naziri Ənvər paşa özü rəhbərlik edirdi. Sarıqamış rayonunda döyüşlərin planı da onun yaxından iştirakı ilə hazırlanmışdı. Lakin məlum olduğu üzrə Sarıqamışda türklər rus ordusu tərəfindən məğlub edilib böyük itki vermişdilər. Bundan sonra türk qoşunları İran torpaqlarından keçərək, cənubdan Bakı və Gəncə üzərinə hücuma hazırlaşdılar.

Çar ordusu azərbaycanlıları silah altında saxlamağa qorxduğu üçün onları orduya çağırmırdı. Bunuhla belə cəbhə arxasında işləmək üçün Azərbaycandan 3000 nəfər işçi qüvvəsi tələb etmişdi. Azərbaycandan çıxmış bir çox hərbi sərkərdələr müharibənin ilk günlərindən almanlara qarşı vuruşurdular. Bunlar Rusiyada hərbi biliklərə yiyələnmiş yüksək dərəcəli zabitlərdi. Müharibə cəbhələrində şöhrət qazanmış general Səmədbəy Mehmandarov, general Əliağa Şıxlinski, Hüseyn xan Naxçıvanski və başqaları rus silahına böyük şöhrət qazandırmışdılar. General Mehmandarovun qoşunları dəfələrlə almanlara ağır zərbələr endirmiş, onları böyük xəsarətə uğratmışdılar. Xüsusilə 1914-cü ildə Lodz əməliyyatında almanların bütün hücum planları onun qoşunları tərəfindən, alt-üst edilmişdi. Bu əməliyyatdan sonra Mehmandarov 11-ci Qafqaz ordusu korpusunun komandiri təyin edilmişdi ki, bu da ordu komandiri vəzifəsinə bərabərdi. General Əliağa Şıxlinski rus ordusunda topçuluq sahəsində ən böyük mütəxəssis sayılırdı.

O "Topçuluq allahı" kimi yüksək şöhrətə çatmışdı. Müharibənin ilk günlərindən Peterburqun artilleriya müdafiəsi ona tapşırılmışdı. 1914-1917-ci illərdə rus ordusunda 200 nəfərədək azərbaycanlı zabit iştirak edirdi. Bunlardan biri Nijniqorod draqon polkunun rotmistri Teymur Novruzov idi. O öz eskadrası ilə düşmən süvarilərinə qarşı hücuma keçərək, onları darmadağın etmiş və düşmənin iki ağır topunu ələ keçirmişdi. Azərbaycanlı təyyarəçi poruçik Fərrux Qayıbov da savaşda böyük şöhrət qazanmışdı. Özünün "İlya Muromets-16" təyyarəsi ilə cəbhədə düşmənin canına vahimə salmışdı. Hələ Neman çayı üzərində olan ilk döyüşündə alman qoşunları üçün böyük əhəmiyyəti olan körpünü partlatmışdı. 1919-cu ilin sentyabr ayında Vilis üzərində qızğın döyüşlər zamanı təkbaşına düşmənin dörd təyyarəsi ilə vuruşmuş və dörd saat ərzində onlardan üçünü vurub salmış və özü də qəhrəmanlıqla həlak olmuşdu.

Müharibə cəbhələrində, habelə azərbaycanlılardan təşkil olunmuş bir süvari polku da "Yerli Qafqaz diviziyası" tərkibində düşmənə qarşı qəhrəmanlıqla vuruşurdu. Çar generalları onları təhqiramiz surətdə "Dikaya diviziya" adlandırırdılar. Müharibədən sonra bu polkun Bakıya qayıtmış hissəsi Azərbaycan Demokratik Respublikası ordusunun əsas özəyini təşkil etmişdi.

Qafqaz cəbhəsində gedən vuruşmalarda yaralanmış əsgərlər vaqon-vaqon Bakıya daşınaraq, şəhərdə yerləşdirilirdi. Şəhərdə elə iri bir bina qalmamışdı ki, orada yaralılar yerləşdirilməmiş olsun. Məktəblər, ictimai binalar tələm-tələsik hərbi xəstəxanalara çevrilmişdi. Hətta "Səadət" məktəbinin tikilib başa çatdırılmamış binasının da (indiki göz xəstəxanası) üstü tələsik örtülərək, yaralıların sərəncamına verilmişdi. Şəhərin, demək olar ki, bütün xeyriyyə cəmiyyətlərinin yerləşdiyi "İsmailiyyə" binası da yaralılar üçün ayrılmışdı. Burada müalicə olunanların əksəriyyəti rus ordusunun zabitləri idi. Yalnız 1917-ci ilin fevralında, Nikolay taxtdan salındıqdan sonra bu binada rus zabitlərinin mahnıları kəsilmişdi. Hamı öz vətənlərinə qaytarılmışdı.

Müharibə cəbhələrindən Bakıya daşınan alman və türk əsirlərinin də sayı-hesabı yox idi. Bu əsirlərin əksəriyyəti Nargin adasında yerləşdirilmişdi. Xüsusilə 1917-ci ilin aprel-may aylarında Türkiyədən, Rum elindən Bakıya xeyli qaçqın gəlmişdi. Şəhərdə onların əlindən tərpənmək mümkün deyildi. Bu qaçqınlara "İsmailiyyə" binasında ərzaq paylanır və elə oradaca onlar üçün pal-paltar tikilirdi. Bakının xeyriyyə cəmiyyətləri çox canfəşanlıqla onlara əllərindən gələni əsirgəmirdilər. Bunda H. Z. Tağıyev, Musa Nağıyev, Mirzə Əsədullayevin xüsusilə böyük xidmətləri vardı.

1916-cı ilin axırlarında Rusiyanın hər tərəfini bürüdüyü kimi Bakıda da qıtlıq başlamışdı. Sənaye, kənd təsərrüfatı, nəqliyyat ağır vəziyyətdə idi. Neft istehsalı gündən-günə azalırdı. Bunun da əsas səbəblərindən biri neft mədənlərində işləyən rus fəhlələrindən 13 min nəfərinin ordu sıralarına alınması idi. Təzə

quyular da qazılmırdı. Petrovok-Bakı dəmir yolu ilə əsasən hərbi yüklər daşındığından neft quyularının qazılması üçün lazım olan ləvazimat vaxtında çatdırılmırdı. Yüklər Petrovskdan ancaq dəniz vasitəsilə daşınırdı. Fəhlə qüvvəsi çatışmadığından işə dünənədək xışın dəstindən yapışmış kəndlilər götürülürdü ki, onların naşılığı ucbatından ya dəzgahlar qırılıb sıradan çıxır, ya da iş ləngiyirdi.

Əhalinin vəziyyəti daha dözülməzdi. Qıtlıq başlamış, bazarda qiymətlər 4-5 dəfə artmışdı. 1916-cı ildə çörəyin qiyməti 1914-cü ilə nisbətən 266 faiz artmışdı. Başqa ərzaq mallarının da, o cümlədən südün qiyməti 305 faiz, ətin qiyməti 327 faiz, düyünün qiyməti 355 faiz, ərinmiş yağın qiyməti isə 520 faiz artmışdı. Şəhərdə əhalinin yoxsul təbəqələri içərisində acından ölmə halları da çoxalmışdı. Buğda olmadığından şəhərdə dəyirmanların çoxu işləmirdi.

Mədən və zavodlarda dözülməz şəraitdən cana doymuş fəhlələr içərisində iğtişaş və tətillər gündən-günə genişlənirdi. Fəhlələr əmək haqqının artırılmasını, iş gününün qısaldılmasını tələb edirdilər. Tətillər getdikcə daha qəti və daha kəskin şəkil alırdı. 1916-cı il fevral ayının ortalarında qıtlıqdan və qiymətlərin artmasından cana doymuş şəhər əhli də qiyam qaldırdı. Qiyam birinci olaraq, Səbzi bazarda arvadlar tərəfindən qaldırıldı. Sonra bütün şəhərə yayıldı. Bu qiyam Bakının tarixində "Arvad qiyamı" ("Babiy bunt") adı ilə məşhurdur. "Açıq söz" qəzeti özünün 1916-cı il 2 mart tarixli nömrəsində qiyam haqqında belə yazırdı: "Yekşənbə günü (fevralın 28-də) Bakıda iğtişaşlar başladı. Ərzağın, xüsusilə kartofun bahalanması ilə əlaqədar olaraq iğtişaş göyərti dükanlarından başlamış, baqqal, bəzzaz dükanlarına da yayılmışdır. Düşənbə günü arvad və uşaqlar şəhərin mərkəzində olan mağazaları yarmağa başladılar. Çərşənbə günü un dəyirmanlarını (Skobelevin dəyirmanını), un anbarlarını (Tağıyevin) yarmağa başladılar. Polis və jandarma da uzaqda durub tamaşa edirdi. Onlar əksinə, camaatı qızışdırırdılar. Sonra qradonaçalnikin tədbiri ilə iğtişaşçı dəstələr dağıdıldı və hətta atəş açıldı. Ölən və yaralanan da oldu. Bu iğtişaş Moskvadakı iğtişaşların təkrarı idi.

Sonra polis məmurları evləri axtarıb, oğurlanmış malları geri qaytarmış və mal oğurlayanlar həbs edilmişlər".

O biri qəzetlər də bu hadisəni təfərrüatı ilə qeyd edirdilər. Arvad və uşaqlar mağazaların şüşəli qapılarını sındıraraq, dükanlara girir və qabaqlarına çıxanları qarət edirdilər. Bazar küçəsində Lalayevin karvansarasındakı bütün bəzzaz dükanları dağıdılmışdı. Camaat top-top parçaları çiyinlərinə alaraq, evlərinə daşıyırdı. Polis bu tarmar qarşısında aciz qalmışdı. Camaatı qorxutmaq üçün Nikolay küçəsində qoyulmuş pulemyot da camaatı bu işdən çəkindirə bilməmişdi. Nəhayət, polis iğtişaşçılara atəş açmaq əmrini aldı. Çoxlu ölən və yaralanan oldu. İğtişaş yatırılandan sonra polis və jandarma evbəev gəzərək, oğurlanmış malları geri qaytarır və oğurlayanları həbsə alırdılar. Bu qiyam fevralın 14-dən 16-sınadək davam etmişdi.

1916-cı ilin baharından başlayaraq, Bakı neft fəhlələri də tətilləri genişləndirdilər. Mart və aprel aylarında neft fəhlələri tərəfindən başlayan tətilə şəhərin bir sıra xırda sənaye müəssisələrinin işçiləri də qoşuldular. Məsələn, un dəyirmanlarının, mətbəələrin fəhlələri də neft mədənləri fəhlələri ilə həmrəyliklərini bildirdilər.

Aprel ayında güllə hazırlayan zavodun da 400 nəfər fəhləsi bu hərəkata qoşuldu. Benkendorfun zavodunda başlayan tətil 5 gün davam etdi. Hökümət tətilçilərlə amansız rəftar etdi. 380 nəfər fəhlə işdən qovuldu, 93 nəfər fəhlə isə ordu sırasına alındı.

1916-cı ildə tətil edən fəhlələrin sayı 16 minə çatmışdı. Hökümət tətilçiləri cəbhəyə göndərməklə hədələyirdi.

1917-ci il fevralın 27-də Petroqradın fəhlə və saldatları üsyana qalxdılar. Üsyançılar hökümət binalarını silah anbarlarını zəbt etdilər və çar nazir və generallarını da həbsə aldılar. İnqilab qalib gəldi. Martın 2-də II Nikolay öz qardaşı Mixailin xeyrinə taxt-tacından əl çəkdi. Lakin rus burjuaziyasının mütləqiyyəti bu yolla xilas etmək cəhdi boşa çıxdı. Üsyana qalxmış xalqın təzyiqi ilə Mixail də taxt-tacdan əl çəkdi. Beləliklə, inqilabın qələbəsi nəticəsində çar mütləqiyyəti yıxıldı.

Bakıda yerli mürtəce qüvvələr Petroqradda baş vermiş bu silahlı üsyanı və Nikolayın yıxılmasını camaatdan gizlətməyə çalışdılar. Ancaq bu onlara müyəssər olmadı. Çevriliş xəbəri Azərbaycanda böyük ruh yüksəkliyi ilə qarşılandı.

Fevral inqilabının ilk günlərindən Petroqradda fəhlə və saldat Sovetlərinin yaradılması xəbəri Bakıda da əks-səda verdi. Çox keçmədi ki, Bakıda da fəhlə soldat deputatları Sovetləri yaradıldı.

## 1907-1917-Cİ İLLƏRDƏ MƏTBUAT

Dövri mətbuat irtica illərinin ictimai hadisələrini bilavasitə olması da, dolayısı ilə əks etdirirdi. Aşağıda adlarını çəkəcəyimiz qəzet və məcmuələrin səhifələrində dövrün ziddiyyətləri ilə yanaşı, din, əxlaq məsələləri işıqlandırılır, dil və mədəniyyət sahəsində gedən mübarizə özünü büruzə verirdi.

Bu dövrdə Azərbaycan mətbuatı əsas etibarilə iki adamın inhisarında idi: Orucov qardaşları ilə Haşım bəy Vəzirov şəhərdə mətbuat və çap işlərini öz əllərində möhkəm saxlayırdılar. Hər ikisinin mətbəə şəraiti imkan verirdi ki, qəzetlərin vaxtlı-vaxtında çıxmasını və yayılmasını təmin etsinlər. Orucov qardaşlarının mətbəə bazası daha güclü idi. Orucovlar nəşriyyatını başqalarından fərqləndirən bir cəhət də vardı. Bu ondan ibarət idi ki, Orucovlar Azərbaycan mətbuat tarixində ilk dəfə olaraq qonorar sistemini tətbiq etmişdilər. Yazıçı Seyid Hüseyn yazırdı: "İnqilaba qədər Azərbaycan mətbuat işçiləri qonorar almazdılar.

1910-1911-ci illərdə Orucov qardaşları Sabiri öz qəzetlərinə cəlb etmək üçün birinci olaraq bir yazıçıya yalnız yazılarından ötrü "yüksək qonorar" təsis etdilər".

Beləliklə, ilk qonorar alan yazıçımız M. Ə. Sabir olmuşdur. O öz tazyanalarından ötrü ayda on manat alırdı.

Haşım bəy Vəzirov isə Sabiri öz mətbəəsində işlədirdisə də əvəzində ona bir qəpik də vermirdi.

Həmin illərdə əsas mətbuat orqanları aşağıdakılardan ibarətdi:

**"Həqiqət" qəzeti.** 1909-cu ilin dekabrından nəşr olunurdu. Üzeyir bəy Hacıbəylinin müdiriyyəti altında çıxırdı. Naşiri Orucov qardaşları idi. 1910-cu ilin əvvəlində bağlanmışdır.

**"Yeni Həqiqət" qəzeti**. - Naşirləri yenə Orucov qardaşları idilər. Qəzetdə mühərrirlərdən Əli bəy Hüseynzadə, M. Ə. Rəsulzadə, Həsən Səbri Eyvazov, Axund Molla Ruhulla Məmmədzadə yaxından iştirak edirdilər.

1911-ci ildə qəzet hökümət tərəfindən bağlanır və başqa mühərrirləri ilə bir sırada Oruc Orucov da həbs edilib, sürgün olunur.

**"Günəş" qəzeti**- 1910-cu ildə Orucovlar tərəfindən nəşr olunurdu. Bu qəzet bağlanmış "Həqiqət" qəzetinin əvəzinə çıxırdı. Lakin qəzetin ömrü çox qısa olmuşdur. Həmin ildəcə bağlanmışdı.

**"Məlumat" qəzeti** - 1911-ci ildə Orucov qardaşları tərəfindən nəşr olunurdu. Qəzetin müdiri Hacı İbrahim Qasımov, baş mühərriri isə Mehdi bəy Hacınski idi. Bu qəzet də tezliklə hökümət tərəfindən bağlanır.

Yazıçıların əksər hissəsi qəzet və məcmuə səhifələrində dərc olunan yazılar üçün qonorar almaq hüququndan məhrum edilmişdilər. Şair Məhəmməd Hadi Azərbaycan qəzet və jurnal səhifələrində dərc edilən şerləri üçün bir qəpik də almazdı. Böyük ehtiyac içində boğulan şair buna görə şerlərini ayrı-ayrı vərəqələr şəklində çap etdirərək onları küçə və meydanlarda özü satmağa məcbur olurdu.

**"Yeni İrşad" qəzeti -** "Məlumat" qəzeti bağlanandan sonra Orucovlar nəşriyyatı tərəfindən çap olunurdu. Müdiri Yusif Əhmədov, baş mühərriri isə Mehdi bəy Hacınski idi. Bu qəzet də tezliklə bağlanır.

**"İqbal" qəzeti** - "Yeni İrşad" bağlanandan sonra onun əvəzinə Orucov qardaşları tərəfindən nəşr olunurdu. Müdiri Sənətulla İbrahimov idi. 1913-cü ildə onu Hüseyn Sadiq əvəz etmişdir. 1914-cü ildə qəzetin nəşri Rəsulzadələrin əlinə keçir. Baş mühərrir Məmməd Əmin Rəsulzadə, müdir isə onun əmisi oğlu Məmmədəli Rəsulzadə olur. M. Ə. Rəsulzadənin dövründə qəzetin ətrafına güclü yazıçı və mühərrirlər toplanır və qəzet ictimai həyatda böyük və fəal rol oynamağa başlayır. Qəzetin mövzu dairəsi genişlənir, qəzet səhifələrində ictimai problemlər üzrə ciddi mübarizə və münaqişələr başlayır. Həmin ildə qəzet bağlanır.

**"Yeni İqbal" qəzeti** - Bu qəzet "İqbal" bağlanandan sonra Orucov qardaşları tərəfindən çıxarılırdı. 1915-ci ildə M. Ə. Rəsulzadə qəzetdə çap olunmuş bir məqaləsinə görə həbs olunur.

**"Açıq söz" qəzeti** - M. Ə. Rəsulzadə həbsdən çıxandan sonra bu adda müstəqil bir qəzet çıxarmağa başlayır. 1917-ci ildə "Yeni İqbal" qəzeti "Açıq söz" qəzeti ilə birləşir.

**"Asari həqiqət"-** həftəlik qəzetdi. Müdiri Mirzə Cəlal Yusifzadə idi. 1912-ci ildə qəzetin cəmi bir neçə nömrəsi çıxmışdır.

**"Təzə xəbər" qəzeti** - 1912-ci ildə Qədir Heydərovun müdirliyi ilə çıxan həftəlik qəzet idi. Ömrü çox qısa olur.

**"Son xəbərlər" qəzeti** - "Təzə xəbər" qəzetinin əvəzinə 1912-1913-cü illərdə həftədə bir dəfə nəşr olunurdu. Müdiri Zaman bəy Abdullabəyov idi.

**"Haqq yolu" -** qəzetinin ilk nömrəsi 1911-ci il dekabrın 14-də çıxmışdır. Siyasi, fənni, iqtisadi və ədəbi bir qəzet idi. Qəzetin müdiri və baş mühərriri də doktor Qara bəy Qarabəyov idi. Nəşri 1912-ci ildə də davam etmişdir. Qəzet öz səhifələrində dil və yazı qaydaları ilə əlaqədar bir sıra münaqişəli məqalələr dərc edirdi. Qəzet səhifələrində F. Köçərlinin, M. Ə. Rəsulzadənin bir sıra ciddi elmi məqalələri dərc edilmişdi. Bunlardan başqa Məmməd Sadıq Axundov, Mahmudbəyov, Əli Fəhmi və başqaları da qəzet səhifələrində fəal və müntəzəm çıxış edirdilər.

**"Kəlniyət" məcmuəsi** - Birinci nömrəsi 1912-ci il mayın 24-də çıxmışdır. Məzhəkə məcmuəsi idi. Müdiri hacı İbrahim Qasımov, imtiyaz sahibi isə Seyid Hüseyn Sadiq idi. Şəkilli çap olunurdu. 1913-cü ilin fevralında fəaliyyətdən qalır.

**"Müraat" məcmuəsi** - "Kəlniyət"dən iki il əvvəl, yəni 1910-cu ildə çıxmış məzhəkə məcmuəsi idi. Şəkilli idi. Məcmuə bir nömrədən artıq çıxmamışdır.

**"Şəlalə" məcmuəsi**. - 1913-cü il yanvarın 19-dan çap olunmağa başlamış ədəbi, ictimai, elmi məcmuədir. Ayda iki dəfə çıxırdı. Müdiri isa bəy Aşurbəyli, mühərriri isə Səbribəyzadə Xalid Xürrəm bəy idi. Bu məcmuənin səhifələrində Osmanlı ədəbiyyatına böyük bir meyl vardı. Yerli türk dili qarşısında Osmanlı türkcəsinə üstünlük qazandırılır, çap olunan məqalələrin əksəriyyəti Osmanlı türkcəsində olurdu. Məcmuə bir sıra məsələlərdə mürtəce mövqe tuturdu. Xüsusilə qadın azadlığının qatı düşməni idi. Onların fikrincə qadın çadradan çıxmamalıdır. Bu haqda “İqbal” qəzeti mühərrirləri ilə şəlaləçilər arasında daimi mübarizə gedirdi. Səbribəyzadə məcmuədən getdikdən sonra dərc olunan məqalə və əsərlərdə Azərbaycan türkcəsi artıq üstün mövqe tutmağa başlayırdı.

**“Məktəb” məcmuəsi.** - Uzun ömürlü uşaq məcmuəsi olub. 1911-ci ildə nəşrə başlamış, 1918-ci il mart hadisələrinədək davam etmişdir. “Məktəb” öz xüsusi mətbəəsində Qafur Rəşad və Əbdurrəhman Əfəndizadə tərəfindən nəşr edilirdi. İki həftədə bir dəfə çıxırdı. Bakının ən görkəmli müəllim və mühərrirləri

bu məcmuə ətrafına toplaşmışdılar. Məcmuənin səhifələrində Süleyman Sani Axundov, Şəfiqə Əfəndizadə, Abdulla Şaiq, Rəşid bəy Əfəndizadə, Abbas Səhhət, Əli Nəzmi, Ağa bəy İsrafilbəyov və başqaları müntəzəm çıxış edirdilər. "Məktəb" məcmuəsinin Azərbaycan pedaqoji elmi tarixində xidməti az olmamışdır.

**"Bakı həyatı"** - Azərbaycan dilində nəşr edilmiş demokratik istiqamətli həftəlik siyasi, ictimai, ədəbi qəzet idi. Birinci nömrəsi 1912-ci il 22 iyulda, axırıncı nömrəsi isə həmin ilin 8 sentyabrında çıxmışdır. Cəmi 4 nömrə çıxmışdır.

**"Yoldaş" qəzeti** - Siyasi, ictimai, ədəbi qəzet idi. Cəmi 3 nömrə çıxmışdır. Birinci nömrəsi 1907-ci il avqustun 22-də, axırıncı nömrəsi isə həmin ilin 1 sentyabrında çıxmışdır. Redaktoru və naşiri Əsədulla Axundov idi. "Yoldaş" Bakı general-qubernatorunun qərarı ilə bağlanmışdır.

**"Səda" qəzeti** - "İttifaq" qəzeti bağlandıqdan sonra Haşım bəy Vəzirovun çıxardığı yeni qəzet idi. Birinci nömrəsi 1909-cu il 12 oktyabrda çap olunub. Əvvəllər "Səda" Orucovların mətbəəsində çap olunurdu. Sonralar milyonçu Murtuza Muxtarov "Tərəqqi" mətbəəsini pulla alıb, Haşım bəyin sərəncamına vermiş və o vaxtdan mətbəə də "Səda" mətbəəsi kimi adlanmağa başlamışdı. 1911-ci ildə bir çox Azərbaycan mühərrirləri çar jandarması tərəfindən həbs edildikdə Haşım bəy də azadlıqdan məhrum edilir. Ancaq o həbsdə çox qalmır. Həbsxanadan çıxdıqdan sonra "Səda"nın çapını davam etdirir. 1911-ci ilin avqustunda "Səda" hökümət tərəfindən bağlanır.

**"Sədayi vətən"** - 1911-ci il dekabrın 1-dən Haşımbəyin çıxardığı yeni qəzet idi. "Sədayi vətən"in cəmi 66 nömrəsi çıxmışdır, sonra hökümət tərəfindən bağlanmışdır. Haşım bəy 1912-ci il martın 12-dən "Sədaye haqq" adlı yeni bir qəzet buraxmağa başlayır. Bu qəzet də 536 nömrəsindən sonra bağlanmışdır.

**"Sədaye Qafqaz" -** Haşım bəyin nəşr etməyə başladığı təzə qəzet idi. İlk nömrəsi 1915-ci il mayın 30-da çıxmışdır. Haşım bəyin ölümündən bir az sonra bağlanmışdır.

Bu arada Haşım bəyin çıxardığı, bir məcmuəni də qeyd etmək lazımdır. Bu da ilk nömrəsi 1914-cü il dekabrın 27-də çıxmış şəkilli "Məzəli" məzhəkə məcmuəsi idi. 1915-ci ilin dekabrında məcmuənin nəşri dayandırılmışdır.

**"Hilal" məcmuəsi.** - 1910-cu il 18 dekabrdan Əliabbas Müznib tərəfindən buraxılırdı. Ancaq cəmi bir-iki nömrəsi çıxandan sonra hökümət tərəfindən bağlanmışdır.

**"Şəhabisaqib"** - məcmuəsi "Hilal"ın əvəzinə çıxan məcmuə idi. Onun da naşiri Əliabbas Müznib idi. Bu da tezliklə hökümət tərəfindən bağlanmış və Müznib özü də həbs edilib, Sibirə sürgün edilmişdi.

**"Yeni Füyuzat"** - 1910-cu ildən çap olunmağa başlamış şəkilli məcmuə idi. İmtiyaz sahibi Əlipaşa Hüseynzadə (Sur), baş mühərriri isə Əhməd Kamal idi. Məcmuənin yuxarısında aşağıdakı misralar daim titul kimi gedirdi:

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbeyi-əqli əsərində.

Məcmuənin səhifələrində türklərin tarixinə dair bir sıra maraqlı məqalələrlə yanaşı, vətənpərvərlik ruhunda ictimai-əxlaqi məsələlər də işıqlandırılırdı. 1911-ci ildə Bakını bir çox ziyalı və mühərrirləri ilə birlikdə, Əhməd Kamal da həbsə alınıb Türkiyəyə sürgün olunur. Bununla da "Yeni Füyuzat" öz fəaliyyətini dayandırmışdı.

**"Nicat" həftəlik qəzeti.** - 1910-cu ildə "Nicat" maarif cəmiyyətinin türk və rus dillərində çap olunan orqanı idi. Naşiri İsabəy Aşurbəyi idi. Qəzetin nəşri 1912-ci ilədək davam etmişdir.

Bakıda müharibə şəraitinə baxmayaraq, mətbuatın çapı və yayılması əvvəlki qayda üzrə davam edirdi. Həmin illərdə çap olunan mətbuat aşağıdakılardan ibarət idi:

**"Dirilik" məcmuəsi.** Ayda iki dəfə nəşr olunurdu. Ədəbi, ictimai, fənni məcmuə idi. İlk nömrəsi 1914-cü il sentyabrın 16-da çap edilmişdir. 1916-cı ilin ortalarında bağlanır. Məcmuənin müdiri Əliabbas Müznib, imtiyaz sahibi isə Əbülfəzl Mütəllibzadə idi. M. Ə. Rəsulzadə, Cənnəti Qafarzadə, Əli Məhzun, Abid Mütəllibzadə, Cəfər Cabbarlı məcmuədə yaxından iştirak edirdilər.

**"Tuti" məzhəkə məcmuəsi idi.** Həftədə bir dəfə çıxırdı. İlk nömrəsi 1914-cü il 27 dekabrda çıxmışdır. Müdiri Cəfər Bünyadzadə idi. Nəşri ta 1917-ci ilədək davam etmişdir. Məcmuənin son nömrələri Cəfər Bünyadzadənin qardaşı Dadaş Bünyadzadənin müdirliyi altında çıxırdı.

**"Bəsirət" qəzeti.** Həftəlik ictimai, siyasi, ədəbi qəzet idi. 1914-cü il aprelin 14-dən çıxırdı. Bütün müharibə müddətində nəşr edilmişdir. Redaktoru Hacı Qasımov idi. 1918-ci ilin martından sentyabrınadək nəşrin arası kəsilmişdir. Qəzet 1917-ci ildə rus dilində çıxan "Baku" qəzetinin naşir və redaktoru erməni millətçisi Vermişevin dərc etdirdiyi məqalələrdə azərbaycanlılara yaxdığı şər və böhtanı amansızcasına ifşa edirdi. Sonra, yəni Azərbaycan Demokratik hökuməti dövründə və ta 1920-ci il 15 apreledək qəzetin nəşri davam etdirilmişdir. Qəzetin səhifələrində Nəriman Nərimanov, M. Ə. Rəsulzadə, Ordubadi, M. Hadi, Abbas Səhhət və başqaları iştirak edirdilər.

**"Babayi Əmir".** Həftəlik məzhəkə məcmuəsi idi. İlk nömrəsi 1915-ci il aprel ayının 21-də çıxmışdır. Məcmuənin məsul müdiri və imtiyaz sahibi Əbülfəzl Mütəllibzadə idi. Nəşr olunduğu gündən ta bağlananadək 60 nömrəsi çıxmışdır.

**"Açıq söz" qəzeti.** - 1915-ci il oktyabr ayından çıxırdı. Qəzetin müdiri və həm də baş mühərriri M. Ə. Rəsulzadə idi. Bir müddətdən sonra qəzet İsabəy Aşurbəylinin "Kaspi" mətbəəsini almış və mətbəə artıq "Açıq söz" mətbəəsi

adlanmağa başlamışdı. Qəzet 1918-ci il mart hadisələrinədək öz nəşrini davam etdirmişdir. Mart ayından ta sentyabr ayınadək qəzetin nəşri ara vermişdi. Qəzetin əsas şüarı "Türkləşmək, İslamlaşmaq və müasirləşmək" idi. Məlum olduğu üzrə M.Ə.Rəsulzadə bu şüarı sonralar "Müsavat" partiyasının şüarına çevirmişdi. Qəzetin daimi mühərriri Sənətulla İbrahimov idi. Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Abdulla Şaiq, Hüseyn Sadiq, Çəmənzəminli, Əhməd Cavad, İbrahim Xəlil, Şəfiqə xanım Əfəndizadə qəzetdə yaxından iştirak edirdilər.

**"Doğru söz"** həftəlik qəzeti. 1915-ci ildə yaranmış və həmin ildə öz fəaliyyətini dayandırmışdı. Cəmi 3-4 nömrə dərc edilmişdi. Qəzetin müdiri Yusifəli Əliyev idi.

**"Qurtuluş" məcmuəsi.** Ayda iki dəfə çap olunan ədəbi, ictimai, fənni məcmuə idi. 1915-ci ilin 1 oktyabrından nəşr olunurdu. 4 nömrəsi çıxandan sonra bağlanmışdır. Azərbaycan Demokratik höküməti zamanı təzədən çap olunmağa başlamışdır.

Naşiri və baş mühərriri Hüseyn Sadiq idi.

Bunlardan başqa "Gənclər sədası", "Hümmət" (N. Nərimanovun redaktorluğu ilə fevral inqilabından sonra təzədən nəşr olunurdu), "Qardaş köməyi" məcmuəsi buraxılırdı.

1918-ci ildə xalq içərisində kooperasiyanın əhəmiyyət və xeyrini təbliğ etmək məqsədilə "El həyatı" adlı xüsusi bir məcmuə də buraxılırdı.

"Əkinçi" qəzeti sosialist qəzeti idi.

1917-ci ildən Bakıda İran kommunist partiyası "Ədalət" tərəfindən "Bayraqi Ədalət" adlı Azərbaycan və fars dillərində qəzet çap olunurdu.

Bakıda hələ fevral inqilabından əvvəl daha iki məzhəkə məcmuəsi çap olunurdu: "Leylək"və "Arı" məcmuələri. Elə qəzət və məcmuələr də vardı ki, onlar mətbuat tarixində heç bir iz buraxmadan parlamış və tez də sönmüşdülər. Belələrinə misal olaraq "Sovqat", "İqdam", "El", "Doğru yol", "Xalqçı", "Sədaye İran", "Yeni dünya", "Gənclər dünyası", "Xalq maarifi", "Zəhmət həyatı", "Qurtuluş yolu" qəzetlərini, "Mədəniyyət", "Şərq eli" məcmuələrini misal göstərmək olar. "Füqəra Füyuzatı" məcmuəsinin cəmi üç nömrəsi çıxmışdı.

## BAKI QOÇULARI

Deyirlər ki, qoçu sözü Bakıya məxsusdur. Əslində də belədir. Qoçuluq Bakıda meydana çıxmış və Bakıda da yayılmışdır. Doğrudur bu sözün etimologiyası indiyədək araşdırılıb, müəyyən edilməyib. Ancaq arada bir rəvayət gəzir ki, guya nə vaxtsa Bakıya kənardan qolu güclü Qoçu adlı bir gənc gəlir və şəhərdə hamını incitməyə başlayır. Necə deyərlər yetənə yetir, yetməyənə də daş

atır. Heç kəs də onun qabağına çıxa bilmir. O vaxtdan da guya şəhərdə təsadüf olunan belə qolu zorlu adamlara Qoçu deyərlərmiş. Bu bəlkə də belədir. Lakin bir həqiqət vardır ki, qoçuluq ictimai bir hadisə kimi keçən əsrin ortalarında Bakıda neft sənayesinin inkişafı ilə bağlı yaranmış və yayılmışdır. Mətbuat səhifələrində də qoçu sözünə biz həmin vaxtdan təsadüf edirik. İri neft sahibkarları özlərini və əmlaklarını qorumaq üçün ətrafına silahlı adamlar toplayırdılar. Neft sənayesi inkişaf etdikcə belə adamlara ehtiyac daha da artırdı. Hər bir neft firmasının, hər bir milyonçunun öz qoçu dəstəsi vardı. Neftxüdaların pulu ilə varlanmış qoçular sonralar özləri müstəqil qüvvəyə çevrilmişdilər. Qoçular onun-bunun sifarişi ilə adam öldürür, küçələrdə adamların şərəfinə toxunur, pul qazanmaq məqsədilə varlı adamları oğurlayırdılar. Xüsusilə qadınlar qoçuların qorxusundan küçəyə çıxa bilməzdilər. Onlara söz atmaq bir kənara qalsın, hətta qadının geydiyi dikdaban çəkmə qoçunun xoşuna gəlmədikdə, küçənin ortasında onu saxlatdırır, dikdaban çəkmənin yerinə ona nələyin geydirərdilər.

Bakı qoçuları öz hərəkətlərində iki şeyə arxayın idilər: biri muzdla xidmət etdiyi milyonçu və ya varlıya, ikincisi belindəki mauzerə. Mauzer qoçunun gücü və vahiməsi idi. Bu onun əlindən alındımı, aciz və məzlum bir məxluqa çevrilirdi. Qoçuların bəziləri təbiətlərinə görə çox qorxaq idilər. Hətta elələri vardı ki, polisin fit səsini eşidən kimi girməyə deşik axtarırdılar. Bununla belə içərilərində qəddar və yırtıcıları da çoxdu. Bu baxımdan Bakı qoçularını mövqe və çəkilərinə görə iki qrupa bölmək olardı. Birinci qrup qoçular həm varlı və həmdə hədsiz qəddar idilər. Belələrinə məşhur qoçu Nəcəfqulunu, Teymur bəy Aşurbəyovu, Kəblə Abdulla Zərbəliyevi, Kəblə Hacı Balanı, Ağa Kərimi, novxanalı Məşədi Hacı oğlunu, Şiruyəni, kürdxanalı Adili, Türbəti, Malbaş Yusifi və başqalarını göstərmək olar. Bunlar bəzən boş bir şeyin üstündə günün günorta vaxtı şəhərin küçələrində atışmağa başlardılar. Məsələn, belə bir atışma 1918-ci il yanvarın 15-də qoçu Nəcəfqulu ilə Teymur bəy Aşurbəyov arasında da olmuşdu. Qorodovoylar qorxularından özlərini bilməməzliyə qoyub, daldey küçələrə çəkilmişdilər. Atışma yalnız Aşurbəyov sinəsindən yaralanandan sonra kəsilmişdi. Küçələrdə isə neçə nəfərin qana bulanmış meyiti qalmışdı. Novxanalı qoçu Məşədi Hacı oğlu da günün günorta vaxtı şəhərin adlı-sanlı ruhani atası Axund Molla Ruhullanın mənzilinə girərək, onu namaz qıldığı yerdə öldürmüşdü. Bu hadisə 1912-ci il yanvar ayında olmuş və bütün şəhər əhlini ayağa qaldırmışdı.

Qoçu Kəblə Hacı Bala da çoxlu nahaq qan tökmüşdü. Şəhərin bir neçə yerində onun dükan və kontoru vardı. Kontorlarından biri indiki Kukla teatrının qabağındakı dükanlardan birində yerləşirdi. Bu kontor şəhər əhli arasında "Adam öldürmə kontoru" adı ilə məşhur idi. İntiqam almaq istəyənlər buraya gəlir, istədikləri adamı pulla Kəblə Hacı Bala və onun adamları vasitəsilə qətlə yetirirdilər.

Adam oğurlamaq qoçular arasında xüsusilə dəb düşmüşdü. Pula ehtiyac hiss etdikləri zaman şəhərin varlılarını və ya onların övladlarını tez-tez oğurlayır, külli pul aldıqdan sonra onları buraxırdılar. Hətta milyonçu Musa Nağıyev də iki dəfə oğurlanmışdı. Onun oğurlanması təsadüfi deyildi. Nağıyev xəsis olduğu üçün qoçu saxlamazdı. Qoçular da bundan xəbərdardılar. Buna görə də fürsət axtarıb, onu oğurlayırdılar. Nağıyevi ikinci dəfə oğurlayanlar Stalinin adamları idi. Partiya xəzinəsi boşaldığı üçün bolşeviklər belə bir tədbirə əl atmışdılar.

Məmməd Əmin Rəsulzadə "Stalinlə ixtilal xatirələri" kitabında bu əhvalatdan danışaraq, yazırdı: "...quldur dəstələri (qoçulara işarədir - Q.İ.) zənginləri təhdid edərək, para çəkir, bəzilərini çalıb-çapır, aldıqları girov pulun müqabilində buraxır, çox zaman böyük firmalara göndərdikləri təhdid məktubları ilə bunları xəraca bağlayırdılar. Bakının məşhur milyonerlərindən Musa Nağıyev bir ara tutulmuş, verdiyi böyük miqdarda bir nicat puluna müqabil hürriyyətinə qovuşmuşdu. Hali-fəaliyyətdə bulunan bu quldur dəstələri arasında bolşevik partiyası hesabına çalışan bir dəstənin də mövcudiyyətindən bəhs olunurdu. Bu çetənin başında isə Erivan meydanının qəhrəmanı (bu hadisə məşhurdur) şəxsən Kobanın bulunduğu sonradan bilinmişdi".

Nobel qardaşları neft şirkəti də qoçularınköməyindən istifadə etmişdilər. Bunu M. Ə. Rəsulzadə yuxarıda adını çəkdiyimiz kitabında da təsdiq edirdi: "...polisin acizliyini görən bəzi firmalar təhlükəsizliyini verdikləri dolğunca maaş müqabilində Bakının "qoçu" deyə məşhur olan qoçaqlarına əmanət etmişdilər. O cümlədən məşhur petrol şirkəti Nobel bu məqsədlə H.M.-yev deyilən birisilə bağlaşmışdı".

"Nobel qardaşları" firmasını buna məcbur edən qoçulardan aldıqları hədələyici məktublardı. M. Ə. Rəsulzadə bu hadisəni daha geniş təsvir etmişdir: "Bolşevik partiyasının qolu ilə adı çəkilən firmanın neft alan şöbəsinə bir məktub gəlir. Məktub 50000 rublənin müəyyən gün və saatda gələcək yoldaşlara təslim edilmək üzrə hazırlanmasını tələb edirdi. Firmanın müdirləri H.M.-yevi çağırır və ondan təyin olunan saatda terroristlərlə qarşılanmasını xahiş edir. H. M. bir neçə qoçusu ilə birlikdə gözləyir. Təyin olunan saatda iki yoldaşı ilə Koba, yəni Stalin peyda olur. Qorxu təlqin edən sərt bir baxışla H.M.-ni süzən Koba ona ismi ilə xitab edərək deyir:

- Hə, biz adi bir oğru-quldur deyilik. Kapitalizmə qarşı vuruşan bir işçi partiyasıyıq. Hədəfimiz Rusiya çarlığıdır. Biz işçilər bir zülmün altındayıqsa, siz müsəlman iki zülmün altındasınız. Başqasının xüsusi mənfəətini qorumaq üçün bizə qarşı silah çəkmək, canınızı mənasız yerə hədər etməkdir. Halbuki bizim aldığımız paralar hürriyyət üçün sərf olunur. Bir millət olaraq, sizin hürriyyətiniz də bunun içindədir.

Bundan sonra H.M.-yevin müqaviməti qırılır və həmən arkadaşlarına dönərək:

- Biz pəs, - deyir".

Musa Nağıyev bolşeviklər tərəfindən oğurlanmasını özü üçün ləkə və şərəfsizlik hesab edirdi. Buna görə özünün işlər müdiri Fətulla bəy Rüstəmbəyova dönə-dönə tapşırarmış ki, duma bu əhvalatdan xəbər tutmamalıdır.

Qoçu Nəcəfqulunun adı Bakıda dillər əzbəri idi. Onun törətdiyi cinayətlər də daha dəhşətli idi. Şəhərdə hamının canına vahimə salmışdı. Küçədə onun rastına çıxan adamlar dərhal yollarını dəyişərdilər. Ondan ötrü ismət və həya boş sözlərdi. Başqasının arvadına gözü düşərkən elə o gecə ərinin axırına çıxardı.

Nəcəfqulu sözün əsl mənasında cəllad idi. Bakının tarixində bir çox qanlı hadisələr onun əli ilə törədilmişdi. Yalnız Sovet hakimiyyətinin ilk günlərində Əli Bayramovun qətlini araşdıran məhkəmənin hökmü ilə güllələnmişdi.

Şəhərin Şamaxı yolu üstündə olan məhəllələr isə qoçu Ağa Kərimin ixtiyarında idi. Xüsusilə Kömür meydanı onun daimi məskəni idi. Kəndlərdən buraya satmaq üçün meyvə və başqa mallar gətirən arabaçıların Ağa Kərimin icazəsi olmadan bazara girməyə ixtiyarları yoxdu. Gərək əvvəlcədən Ağa Kərimdən icazə alaydılar. İcazə də kəndlilərə çox baha otururdu. Əgər birisi Ağa Kərimdən icazəsiz bazarda bir şey satardısa, Ağa Kərim onun başına elə bir oyun açardı ki, kəndli bazara gətirdiyi şeylərdən nəinki məhrum olar, hətta təhqir edilib, döyülərdi də. Kömür meydanına gələn arabaların çoxu Qubadan olardı. Buna görə də Ağa Kərimin təhqir və söyüşlərinə daha çox dözən qubalılar idi. Ağa Kərimdən başqa onun iki qardaşı da Kömür meydanında allahlıq edərdilər. Onların burada çayxanaları vardı. Əslində isə hər şeylə məşğul olardılar.

Bu qrupdan olan Bakı qoçuları həmişə səliqə ilə geyinərdilər. Əyinlərində atlas köynək, yaxud ağ kraxmallı köynək, zərbaftadan jilet, üstündən bahalı parçadan don və ya kostyum olardı. Başlarına drabi papaq qoyar, ayaqlarında jıq-jıq uzunboğaz çəkmə və ya yanları rezinli şiblit olardı. Yanlarında da həmişə mauzer gəzdirərdilər.

İkinci qrup qoçular isə daha çox icraçı idilər. Bunlar adlı-sanlı qoçuların həndəvərində dolaşan buyruq qulları idilər. Bazar bütün günü belə qoçularla qaynaşardı. Başlarına çal papaq qoyar, ayaqlarına bir qayda olaraq, uzunboğaz çəkmə geyər, şalvarlarının balaqlarını da çəkmənin içinə salardılar. Bellərinə pencəyin altından gümüş belbağı bağlardılar. Bığları da həmişə yağlı və burum-burum olardı.

O dövrdə Bakıda yaranmış bir sıra mürtəce partiya və təşkilatlar qoçuların xidmətindən çox istifadə edirdilər. Məsələn, 1905-ci ildə "İttifaq" müsəlman mürtəce partiyası öz mövcudiyyət və ləyaqətini qorumaq üçün qoçu Ağa Kərimlə əlaqəyə girmişdilər. Silahlı qoçu ilə belə yaxınlıq və ittifaq "İttifaq"ı nəzərdən

salmış və nəhayət 1906-cı ildə tamamilə dağılmışdı. Çar inzibati idarələri ayrı-ayrı inqilabçılar barədə cəza tədbirləri düşünərkən qoçuları da işə cəlb edirdilər. Onların fikrincə inqilabçıları ələ keçirmək üçün yerli qoçulardan istifadə etmək rəsmi polis məmurlarından istifadə etməkdən daha əlverişlidir. Məsələn, Əli Bayramovun həbs edilib, öldürülməsində qoçu - baş kəsən Əjdər Əminovun böyük köməyi olmuşdu. O qəddar polisin göstərişi ilə qoçu Hüseyn Qədiroğlu ilə birlikdə Əli Bayramovun başını kəsib, cəsədini gizlətmişdilər.

Adi vaxtlarda isə qoçuların polisi görən gözləri yoxdu. Hər ikisi bir-birindən çəkinərdi. Qoçular atışdığı zaman qorodovoylar öz postlarından uzaqlaşardılar ki, guya görmürlər. Ya da özlərini bilərəkdən görməməzliyə qoyardılar. Qoçular da əllərindən bir xəta çıxdığı zaman qorodovoyun bir fiti kifayət idi ki, dabanlarına tüpürüb qaçsınlar.

1910-1912-ci illərdə şəhərdə qoçuların törətdiyi cinayətlər həddini aşmışdı. Bunun qarşısını almaq məqsədilə şəhər qradonaçalniki (qalabəyi) podpolkovnik P. İ. Martınov bir sıra ciddi tədbirlər hazırlamışdı. Bu işdə "Hidayət" cəmiyyəti də yaxından ona köməyə qoşulmuşdu. "Hidayət" şəhərdə azğınlıq edən qoçuların siyahısını tutub Martınova təqdim edir və onların şəhərdən sürgün edilmələrinə çalışırdılar. Axund Molla Ruhullanı qətlə yetirmiş qoçu Məşədi Hacı oğlu da elə bu zaman sürgün edilmişdi.

Şəhərin küçələrində qoçuların vəhşətlərini öz gözləri ilə görmüş M.Ə.Sabir "Bakı pəhlivanlarına" şeirində belə yazırdı:

Könlüm bulanır küçədə cövlanını görcək,
Nitqim tutulur hərzövü hədyanını görcək.
Canım üzülür əldəki qalxanına baxcaq,
Qəlbim alışır beldəki patranunu görcək,
Baxdıqca revolverinə əndamım olur süst.
Bağrım yarılır xəncəri bürranını görcək.

Bakı milyonçu və varlıları da qoçulara həm arxalanır və həm də onlardan çəkinərdilər. Lakin bu milyonçular içərisində yalnız Murtuza Muxtarov qoçuların qənimi idi. Bəlkə buna görə idi ki, camaat onu Qoçular qoçusu adlandırırdı. Onun bir qoçunun başına açdığı oyun bütün qoçular üçün həmişəlik dərs olmuşdu. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Hafiz Sadıqovun Bakı qəzetlərində qoçular barədə çap etdirdiyi məqalələr çox maraqlıdır.

Əlbəttə, qoçuluq Bakının ictimai həyatında qara bir ləkə idi. Lakin bununla belə qoçuların üzərinə mürtəce bir qüvvə kimi tamam xətt çəkmək də düzgün olmazdı. Ağır faciəli günlərdə qoçular həmişə xalqın köməyinə çatmışdılar. Məsələn, 1904 və 1918-ci illərdə erməni-müsəlman qırğınında qoçuların

fəaliyyətini qeyd etməmək mümkün deyil. 1918-ci ildə erməni daşnaklarının Erməni kəndindən şəhərə hücum edəcəklərini eşidən kimi qoçular bir sədd kimi onların qabağını kəsmişdilər. Ya da ermənilər Bakının cənub kəndlərinə basqın edəndə qoçular Bülbülə kəndinin böyründəki gölün ətrafını əhatə edərək, onları Mərdəkan, Binə və Qala kəndlərinə buraxmamışdılar. Bu döyüşdə Bakı kəndlərinin qoçularından da bir çöxu fədakarlıqla həlak olmuş, lakin düşməni bir addım da irəli buraxmamışdılar.

Qoçuların içərisində ehtiyacı olan adamlara əl tutan, onlara pənah gətirənləri, ədalətsizlikdən qoruyan qoçuların da olduğunu qeyd etməmək insafdan olmazdı.

## BAKI KALEYDOSKOPU

Bakıda tək-tək elə adamlara rast gələrdin ki, onlar heç bir mövqe tutmasalarda öz fərdi bacarıqları, gücü və ya da həyatlarında baş vermiş hadisələrlə camaat içərisində məşhur olmuşdular. Hamı onları tanıyırdı. Onların içərisində zavallısı da vardı, kasıbı da. Bəziləri məzəli təbiətləri, baməzəlikləri ilə camaat tərəfindən sevilirdi. Aralarında yaxşı mütəxəssislər də vardı. Onların barəsində olan rəvayətlər indiyədək Bakı camaatı içərisində yaşayır. Belə adamlardan bir neçəsi barədə söhbət açmaq istərdik.

**HAMBAL DADAŞ** - Bu iri cüssəli, yekəpər bir adamdı. Sənəti hamballıq idi. Onun qəribə geyimi vardı. Gişdən tikilmiş iri enli paltarı dizlərinədək uzanırdı. İri qarnını kəmərlə möhkəm çəkib, bağlardı. Qollarında dirsəyədək həmişə qara dəridən qolçaq olardı. Ağır yük daşıyarkən damarlarının zədələnməməsi üçün biləkləri həmişə tarım çəkilmiş brezent parçası ilə sarıqlı idi. Onun uzun köynəyi üstündən daha nələr asılmamışdı. Cürbəcür irili-xırdalı cəngəllər, dəmir halqalar, bıçaq, qayçı. Bir sözlə, yük daşıyarkən ona lazım olan bütün alətlər üstündən asılı durardı. Belindən isə nazik və qalın kəndirlər heç zaman əskik olmazdı. Bakı hambalları içərisində ən ağır yükləri o daşıyardı. Pianolar, iri ağır dəmir kassalar Dadaşın köməyi olmadan daşına bilməzdi. Bəzən bu işləri təkbaşına da görürdü. Bunun üçün ondan ötrü növbədə durardılar. Dadaş təkbaşına beş-altı hambalın işini görərdi. O əslən İranlı idi. Ancaq uşaqlığından Bakıda yaşayırdı. Pianonu çiyinlərində təkbaşına apararkən, camaat küçədə durub, heyrətlə baxardı.

**ALTIAYLIQ PƏHLƏVAN.** Əsrin əvvəllərində Bakıda Altıaylıq adlı bir pəhləvan yaşayırdı. Maştağa kəndindəndi. Əsl adı Əbdüləli idi. Anadan 6 aylıq doğulduğu üçün hamı onu Altıaylıq çağırırdı. Onu öz gözləri ilə görmüş Hüseynqulu Sarabski qədim Bakı haqqındakı xatirələrində Altıaylığı belə təsvir edirdi: "Altıaylıq özü nazik, uzun, qara bığlı, hündürboylu, enlikürəkli, üzügülər bir pəhləvan idi".

Altıaylıq uşaqlıqdan Maştağada, sonralar Bakının İçərişəhərdə olan zorxanasında məşq keçərdi. Bu zorxana o zaman Bakıda yeganə zorxana idi. İçərişəhərdə, yuxarı bazarda zirzəmidə yerləşirdi. Zirzəminin ortasında içərisi sementlənmiş iri bir hovuz vardı ki, adına Süfrə deyərdilər. Süfrənin uzunluğu təxminən 10 metr, eni isə bundan da az, beş metr yarım olardı. Hovuz yerdən bir metr dərinlikdə olduğu üçün yuxarıda oturan tamaşaçılar meydanda baş verən hadisələri aydın görərdilər. Burada həvəskar və professional pəhləvanlar daş, mil oynadar, sonra güləşərdilər. Altıaylıq gənc yaşlarından bu zorxanada pəhləvanlığın bütün sirlərinə yiyələnmişdi. Həvəskar pəhləvan kimi usta pəhləvanlarla güləşər və onlardan güləşmənin bütün qayda və yollarını öyrənərdi. O mil oynatmaqda xüsusilə usta idi.

1903-cü ildə İran şahı Müzəfərəddin şah Bakıda olarkən onu qarşılayan camaat içərisində Altıaylıq da vardı. O mil oynada-oynada şahın qabağına çıxmış və şahın qarşısında öz məharətini göstərmişdi.

Çox keçmir ki, Altıaylıq artıq yetkin bir pəhləvan kimi professional pəhləvanlarla da görüşür və hamının kürəyini yerə vururdu. Tezliklə şöhrəti bütün yaxın ölkələrə yayılır. Bir dəfə bir neçə nəfər maştağalı ilə birlikdə Kərbəladan, imam Hüseynin ziyarətindan qayıdarkən Tehran şəhərindən keçməli olur. Həmin gün şəhərdə xəbər yayılır ki, günortadan sonra Şah sarayının qabağında, şahın öz hüzurunda pəhləvanlar güləşəcəklər. Altıaylıq da öz yoldaşları ilə tamaşaya gedirlər. Şahın adlı-sanlı pəhləvanı meydana girərək, o biri pəhləvanları meydana dəvət edir və hamının kürəyini yerə vurur. Axırda saray pəhləvanı yenə meydan sulayaraq, camaata müraciətlə deyir:

-Kim istəyirsə, buyursun gəlsin. Bu meydan, bu şeytan. Altıaylıq yoldaşlarına deyir ki, soyunub, girəcəyəm meydana, onun kürəyini elə yerə vuracağam ki, bir də qələt eləyib, lovğalanmasın. Yoldaşları razı olmurlar:

-Qərib yerdir, baba, işin olmasın - deyirlər.

Altıaylıq isə onlara qulaq asmayaraq, soyunub meydana girir. Heç iki dəqiqə keçmir ki, saray pəhləvanını havaya qaldırıb kürəyini yerə vurur. Bunu görən şah qəzəblə deyir:

- Oğlan, bu hesabdan deyil. Təzədən güləşin.

Altıaylıq heç bir söz deməyib, gülümsəyir və təzədən meydana girərək pəhləvanın kürəyini ikinci dəfə yerə vurur, sonra şaha müraciətlə soruşur:

- Şahım, bu da hesabdan deyil?

Şah bu dəfə heç bir söz demir. Altıaylığı yanına çağırıb ona bir ovuc qurumuş əncir verir:

- Al, ye, allah qüvvətini daha da artıq eylər.

- Altıaylıq deyir:

Şahım, mən Bakıdanam. Üç ay yayı bu əncirin yaşını yeyirəm. Qurusu nəyimə lazım.

Sonra şah Altıaylığın sarayda qalmasını təkid edirsə də Altıaylıq vətənə qayıtmağı sarayın hər cür naz-nemətindən üstün tutur.

Beləliklə, ömrünün axırınadək heç bir pəhləvan onun kürəyini yerə vura bilmir.

Altıaylıq 63 yaşında vəfat edir və Maştağada dəfn olunur. Onu dəfn edərkən axund Mir Qəni deyib:

- Camaat, heç bilirsiniz bu mərhum kimdir? Bu, Altıaylıq Əbdüləli pəhləvandır. 63 ildə heç kəs onun kürəyini yerə vura bilməmişdi. Nəhayət, allahın əmri ilə Əzrail onun kürəyini yerə vurdu.

**ŞAİR-HAMBAL.** Əsrimizin əvvəllərində Bakı mətbuatında hambal adlı bir şairin imzasına ara-sıra təsadüf olunurdu. Bu adam Bakının "Qafqaz və Merkuri" gəmiçilik şirkətində doğrudan da hamballıq edirdi. Əsl adı Bayraməli, familiyası Abbaszadə idi. Əslən İranlı idi. 1859-cu ildə İranın Sərab mahalının Dunni kəndində yoxsul bir ailədə doğulmuşdu. İbtidai təhsilini mollaxanada aldıqdan sonra maddi ehtiyacı üzündən təhsilini davam etdirə bilməmişdi. Cənubi Azərbaycanda məşrutə inqilabı başlananda Abbaszadə Səttarxanın fədai dəstələrinə qoşulur və Səttarxanın ən yaxın adamlarından biri olur. Uzunmüddət fədai kimi vuruşan Bayraməli döyüşlərdən birində yaralanır və sağalandan sonra Bakıya fəhləliyə gəlir. "Qafqaz və Merkuri" şirkətinin körpüsündə hamballıq eləyir. Hələ gəncliyindən şeirə olan həvəsi Bakı şəraitində daha da artır və ilk əvvəllər "Mirzə Gülzar" imzası ilə şeirlər yazmağa başlayır. Şerlərini bəzən körpüdə, arxasında gəzdirdiyi palanın, ya da dizinin üstündə yazardı. Bu həvəs nəhayət onu Sabirə yaxınlaşdırır. Sabir ondakı qabiliyyəti görüb, məsləhət bilir ki, şer yazmağında davam etsin və onları da mütləq Hambal imzası ilə çap etdirsin. Böyük şairin yaxından köməkliyi sayəsində Hambal dövri mətbuata ayaq açır. Bakının bir çox qəzet və jurnalları onun şerlərini çap etməyə başlayırlar. İlk illərindən başlayaraq, şerlərində zülmə, ədalətsizliyə, zorakılığa qarşı çıxır, məzlum insanların, zavallı və kimsəsizlərin arzu və istəyini ifadə edirdi. Bir parça çörək pulu qazanmaq üçün İrandan Bakıya gəlmiş zavallı adamları heç kəs onun kimi yaxından duya bilmirdi. Küçələrdə, körpülərdə və neft mədənlərində səhərdən axşamadək qan-tər tökən zavallı adamları gördükcə ürəyindən qara qanlar axır:

Nə bir fəhləlik var, gedək iş görək,
Qalıb küçələrdə bikar, ağlarıq.

Şair öz vətənini də unuda bilmirdi. Orada baş verən hadisələri diqqətlə izləyir, onlara dərhal öz münasibətini bildirirdi. İran şahı Məmmədəlinin taxtdan düşürülməsini belə təsvir etmişdir:

Millət yığılıb, Məmdəlini atdı qırağa,
Keçdi qolu qüvvətlilərin əmri qabağa,
Təslim olunub təxti-ədalət bir uşağa,
Başda oturanlar hamısı düşdü ayağa.
İş tərsinə döndü, bütün adət dəyişildi,
Qanun pozulub, vəzi vilayət dəyişildi.

Və yaxud "Şahın gəlməsi" adlı şerində deyirdi:

Gəlmişəm ey şəhi-İran, sənə nə,
Oldu İran hamı viran mənə nə,
Mən ruzi əzəldən demişəm inci mənəm mən,
Gər döysələr, öldürsələr də inci mənəm mən.

Şair xalq işi yolunda fəda olmağı hər şeydən üstün tuturdu. Mübaliğəsiz demək olar ki, Hambalın bütün şerlərində Sabir nəfəsi, Sabir ruhu aydın duyulurdu.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Hambal "Qızıl qələmlər" cəmiyyətinə üzv qəbul olunur və eyni zamanda "Kommunist" qəzetində işə girir.

Bayraməli Abbaszadə - Hambal 1926-cı il iyun ayının 3-də Bakıda vəfat etmişdir.

1948-ci ildə hambalın şerləri Azərnəşr tərəfindən çap edilmişdir.

**ƏLƏKBƏR FƏRRUX.** Əsrimizin əvvəllərində Orta Asiyada, Rusiyanın bir sıra şəhərlərində mahir heyvan təlimatçısı kimi tanınmış Ələkbər Fərrux bakılıdır. O sirk sənətinin bütün növlərinə yiyələnməsi ilə həmkarlarından fərqlənirdi. Ələkbər Fərrux vəhşi heyvanları: pələng, şir, fil, timsah, ayı, canavar və başqa heyvanları məharətlə əhliləşdirmək sahəsində böyük şöhrət tapmışdır. Sirk tarixi üzrə mütəxəssis olan Y. Dmitriyev "Rusiyada sirk" adlı kitabında bu barədə belə yazırdı: "Yalnız ən istedadlı vəhşi heyvan təlimçiləri, o cümlədən L.Filatov və Ə.Fərrux heyvanlarla işlərkən yeni üsullar axtarıb tapmağa, heyvanların təbii instinktlərindən istifadə etməklə heyvanlarla öz aralarında dostluq yaratmaq və bu mümkün olmadıqda heç olmasa onlarla iltifat bağlamağa çalışırdılar...".

Ələkbər Fərrux çox qüvvətli, qorxmaz və iradəli bir təlimçi olmuşdur. Heyvanların təbiətinə, yaxından bələd olan, onların şıltaqlıqlarına təmkinlə dözən

sirk ustası kimi ömrünün böyük bir hissəsini manejlərdə keçirmiş və elə manejdə də həlak olmuşdur.

Ələkbər Fərrux 1878-ci ildə Bakıda, indiki M. Muxtarov küçəsindəki 29 nömrəli evdə dünyaya gəlib. Böyük musiqi istedadına malik olan atası Fərrux Hacı Qafaroğlu dövrünün qabaqcıl adamlarından idi. Demək olar ki, bütün musiqi alətlərində çalmağı bacarır, müxtəlif orkestrlərdə çıxış edirdi. 1884-cü ildə o Orta Asiyaya gedir və altı yaşlı Fərruxu da özü ilə aparır. 1903-cü ildə Fərrux Hacı Qafar oğlu Buxara şəhərində kiçik bir heyvanxana-balağan təşkil edib, tamaşalar verməyə başlayır. Bu kiçik heyvanxana-balağan tezliklə elə şöhrət tapır ki, Buxara əmiri atanı qızıl, oğulu isə gümüş medallarla təltif edir. Kiçik Fərruxun da təltif edilməsi təsadüfi deyildi. O bütün tamaşalarda həmişə atası ilə birlikdə çıxış edir, akrobatika ilə məşğul olur və velosipeddə çətin nömrələr göstərirdi.

Ələkbər artıq gənclik yaşına qədəm qoyanda timsah, fil və meymunlarla təlim keçməyə başlayır. Bir müddətdən sonra şir də bu heyvanların sırasına əlavə olunur. Qısa müddət ərzində heyvan təlimçisi kimi şöhrət tapır. Rusiyanın şəhərlərinə qastrola çıxır. 1910-cu ildə Saratovda məşhur rus müğənnisi F.İ.Şalyapinlə tanış olur.

1917-ci ildə Kazan şəhərində qastrolda olarkən Ələkbərin heyvanları şəhərdə baş vermiş aclıq nəticəsində qırılır. Əlacı kəsilmiş Ələkbər jonqlyor və musiqiçi kimi çıxış edir. 1925-ci ildə Bakıya qayıdır və sirkdə inzibatçı işləyir. Lakin vəhşi heyvanlar əldə etmək arzusu onu bir dəqiqə də tərk etmir. 1926-cı ildə o müvafiq təşkilatların köməyi ilə Almaniyadan iki şir gətirilməsinə çalışır və 1935-ci ildə Hamburq şəhərindən "Samson" və "Herta" adlı iki şirin gətirilməsinə nail olur. 1936-cı ildə Leninqraddan daha iki şir gətirmək ona müyəssər olur. 1937-ci ildən başlayaraq, o artıq bu heyvanlarla sirkdə çıxış etməyə başlayır. Bu zaman arvadı da Züleyxa Fərrux adı ilə ona kömək edirdi. 1937-ci ildən başlayaraq, arvadı ilə birlikdə Bakı sirkinin binasında müntəzəm çıxış edirdilər. Onların şirlərlə birlikdə ayı və itlərin də iştirak etdiyi qarışıq nömrələri tamaşaçıların çox xoşuna gəlirdi.

Ələkbər və Züleyxa milli geyimlərdə çıxış edərdilər. Ələkbərin başında həmişə qırmızı parçadan sarğı olardı. Beləliklə, 1937-ci ildən başlayaraq birlikdə Rusiyanın bütün şəhərlərində qastrolda olurdular. Ələkbər sonralar tamaşaçıların diqqətini daha çox cəlb etmək məqsədilə heyvanları manejdə tamaşaçıların gözü qabağında yedirtməyi qərara alır. Bu çox təhlükəli idi. Yoldaşları ona məsləhət bilirlər ki, belə qorxulu işdən əl çəksin, lakin Ələkbər öz inadından dönmür. Heyvanları manejdə yedirtməyə başlayır və bir gün bu təhlükəli işin qurbanı olur. Bu hadisə 1940-cı ildə Bryansk şəhərində olmuşdu. Ələkbər arvadı ilə birlikdə manejdə ayı və şirlərin iştirakı ilə nömrə göstərərkən necə olursa, manejin arxasındakı qapı açılır və əsən külək, oyundan sonra heyvanları yedirtmək üçün

sirk işçilərinin hazırladıqları ətin iyini manejə doldurur. Bunu duyan şirlərdən biri Fərruxun başına bağladığı qırmızı sarğını ətə oxşadaraq, onun üstünə atılır, pəncəsi ilə onun başındakı parçanı qopardıb, didişdirməyə başlayır. Şirin dırnaqları onun başında dərin yara açdığından Ələkbər huşunu itirir. Arvadı irəliləyib, Ələkbəri kənara çəkmək istərkən şir təzədən Ələkbərin üstünə atılaraq, pal-paltarını didişdirməyə başlayır. Daha nə arvadının şirləri qəfəsə tərəf qovması və nə də yanğın söndürənlərin su şınaqları Ələkbərin köməyinə çata bilmir. Beləliklə Ələkbər həlak olur. Tanınmış bu heyvan təlimçisinin səhvi sonralar bütün heyvan təlimçiləri üçün dərs oldu.

**LOTU CABBAR.** Bakılı Lotu Cabbar baməzə bir kişi idi. Xarratlıq edərdi. Çox zaman qapı-qapı gəzərək, köhnə taxta sandıqları, sınıq stol və stulları təmir edərdi. Şirin, məzəli söhbətləri, zarafatı və şuxluğu ilə şəhər içərisində, Bakının ətraf kəndlərində Lotu Cabbar kimi şöhrət tapmışdı. Əsl adı Məşədi Cabbar Vahabov idi. Camaatı güldürər, bəziləri isə gülməkdən uğunub gedərdi, ancaq bu zaman özünün dodağı, belə qaçmazdı. Daz başı, sallaq bığları, əyri ayaqları vardı. Bir müddət Nikitin qardaşlarının sirkində klounluq edərdi. Sonra sirki tərk edərək, məzəli hərəkətləri, duzlu danışıqları ilə toyxanaları bəzəyir. Bakının bütün kəndləri onu tanıyırdı. Lotu Cabbarın toyda olacağını eşidən kimi, camaat axışıb gələr, toyxana ağzınadək dolardı. Çoxu toyxananın kənarında durub, içərini görməsə də heç olmasa onun məzəli sözlərinə qulaq asardılar. Lotu adı da ona məhz belə dadlı-məzəli hərəkət və danışığına görə verilmişdi.

Lotu Cabbar adətən musiqilər susduğu zaman çıxış edir, xanəndə və sazandaların nəfəs alması üçün şərait yaradardı .

Həmişə aşağı başda, toyxana çadırının ağzında oturardı. Bakı kəndlərində toylar çox nadir hallarda Lotu Cabbarsız keçərdi. Çıxışlarında ən tanınmış adamları belə elə məharət və bacarıqla lağa qoyardı ki, onlar özləri də bunu hiss etmədən Lotu Cabbarı alqışlardılar. Çünki Cabbar ən acı sözu belə elə incəlik və həssaslıqla deyərdi ki, heç kəs ondan nə narazı qalar və nə də inciyərdi. Məzəlilik onun təbiətində idi. Bəzən heç ağzını açmadan, görkəmi ilə camaatı güldürərdi. Danışdığı məzəli əhvalatlar, qaravəllilər hamının dillər əzbəri olmuşdu. Onun danışıqlarından bəziləri məşhur "Ekstrafon" firmasının vallarına yazılmış və camaat arasına yayılmışdı.

Toyxanalar üçün Lotu Cabbarın xüsusi proqramları vardı. Əvvəla o skamyada, stulda deyil, yerdə, bardaş qurub oturmağa adət etmiş-di. Növbəsi çatanda isə bir pişik cəldliyi ilə yerindən sıçrayıb, toyxananın ortasına atılardı. Onun ən çox sevdiyi oyunlardan biri məşhur papaq oyunu idi. Bu zaman o başına papaq qoyar, sonra onu müxtəlif istiqamətlərdə hərləyərək, ayrı-ayrı şəhərlərdə papağın necə qoyulmasını nümayiş etdirərdi. Oxucuya məlumdur ki, sonra Üzeyir Hacıbəyov bunu özünün "O olmasın, bu olsun" musiqili komediyasında Məşədi

İbadın vasitəsilə səhnəyə çıxarmışdı: "Papağı belə qoysam Şamaxı lotusuna oxşayaram, belə qoysam Bakı qoçusuna oxşaram...".

Lotu Cabbarın məşhur bir proqramı da ağzından guya bağırsaqlarını çəkib çıxarması idi. Bunun üçün tamaşaçılar sezmədən ağzına kiçik bir kağız bürməsi qoyar, belini arxaya əyərək, sinəsinə vura-vura onu ağzından burula-burula çəkib çıxarardı. Bürmənin ucu çadırın damına çatdıqda, Lotu Cabbar bürmənin gerisini tələsik çəkərək, yerə tökərdi. Sonra da açılmış bürməni yığışdırıb, meydandan çıxardı.

Lotu Cabbar toylara adətən Cabbar Qaryağdı oğlunun sazanda dəstəsilə gedərdi. Onun çıxışlarını görənlər danışırlar ki, Cabbar Qaryağdı oğlu oxuyub qurtarandan sonra Lotu Cabbarortaya atılar və deyərdi:

- Hə, sən Cabbar Qaryağdı oğlu ol, mən də Cabbar Yağış yağdı. Gör səni öz selimlə necə süpürləyib atacağam.

Lotu Cabbarın maraqlı oyunlarından biri də kibrit qutusu oyunudur. Bunun üçün o əllərini yerə dayayaraq, ayaqlarını yuxarı qaldırıb, ayırır. Sonra bir nəfər boş kibrit qutusunu onun qılçalarının arasına qoyur. Lotu Cabbar qamından yel buraxmaqla kibrit qutusu atılıb düşür, sanki rəqs edirdi. Camaat gülürdü.

Lotu Cabbarın danışıq və məzələrində xalq müdrikliyi dərin kök atmışdı. O xalq məzəsini, xalq yumorunu rəngarəng şəkildə məharətlə ifadə etməyi bacarırdı.

**KƏRBƏLAYİ YAFTIMƏLİ.** Müəllim Qafur Rəşadın müdir olduğu "Məktəb" mətbəəsi 1916-cı ildə Kərbəlayi Yaftıməli adlı bir adamın "Cənnətülküşah" adlı kitabını nəşr edir. Kitab 47 səhifədən ibarət idi. Kitabın çapı dövrünün ziyalıları arasında böyük həyəcan və söz-söhbətə səbəb olmuşdu. Yaftıməli kim idi? Əslən İranlı olan bu şəxs çoxdan Bakıda yaşayırdı. Müəyyən bir peşəsi yoxdu. Arabir həyətbəhəyət gəzib, şüşə salardı. Gününün çox vaxtını isə məscidlərdə, ya da yığıncaqlarda keçirər, bədahətən şerlər deyib, camaatı əyləndirərdi. Çox məzlum və yoxsul bir adamdı. Camaat bəzən onu şeirlərinə görə lağa qoyardı. Xüsusilə "Göydə uçar çalağan, yerdə gəzər malağan" misraları ilə başlayan məzəli şeiri camaat içərsində dillər əzbəri olmuşdu. Uşaqlar Yaftıməlini küçədə görəndə bu şeiri təkrar edə-edə Yaftıməlinin dalınca düşərdilər. Yaftıməli özü-özünü həmişə belə təqdim edərdi:

Həqiri həqiqi,
Ürəfa məclisinin süxədanı,
Kərbəlaye Yaftıməli
Xələfe Əsgərəli.

Həqiri həqiqi onun təxəllüsü idi.

"Məktəb" mətbəəsində çap etdirdiyi kitabça mərsiyələrdən və hərzə qəsidə və nəsihətnamələrdən ibarət idi. Bu şerlərin bəziləri ədəb və əxlaqdan kənar erotik şerlərdi. Məhz buna görə də qabaqcıl ziyalılar "Məktəb" mətbəəsinin belə hərzə şerlər çap etməsinə qəzəblənmişdilər. Mətbəənin körpə məktəblilər üçün "Məktəb" məcmuəsi ilə yanaşı belə hədyanlar çap etməsi Qafur Rəşadı qabaqcıl ziyalıların nəzərində hörmətdən salmışdı. Məsələn, Yaftıməli bir nəsihətnaməsində belə yazırdı:

Hərzə deyib, hərzə gəzib, haram yeyib, bu dünyaya dəyməz,
Mülaqət edəsən, qəsd düxul ilə qüsl etməyinə dəyməz.

Bir sözlə, müəllifin qəpik-qəpik toplayaraq nəşr etdirdiyi bu kitabça bazar əhlinin əyləncə vasitəsinə çevrilmişdi. Ziyalılar zəif, mənasız bir şerə rast gəldikdə deyərdilər: "Lap Yaftıməlinin şeirlərinə oxşayır". Yaftıməlinin şeirlərində qafiyə və vəzn pozğunluğu həddindən artıq idi, şeir qaydalarına qətiyyən riayət edilmirdi.

Bu zavallının ölümü də miskincəsinə olmuşdu. 1918-ci il erməni-müsəlman qırğını günlərindən birində hardansa köhnə bir xəncər tapıb, küçəyə çıxır və bərkdən çığırır: "Ay müsəlmanlar, cihaddır". Elə oradaca nagah bir erməni gülləsinin qurbanı olur.

## TOY VƏ BAYRAM MƏRASİMLƏRİ

Bakının öz toy və bayram ənənələri vardı. Oğlan evləndirmək və qız ərə verməyin çox dolamanc yolları qədim zamandan məlumdur. Əvvəla qızı oğlan özü seçməzdi. Bu iş adətən, ananın, bacının, bibinin və xalanın üstünə düşərdi. Hətta oğlan özü qız seçmək istəsə də, bu mümkün deyildi. Çünki küçə və bazarda rastlarına çıxan qızlar üzlərini həmişə çadra ilə gizlədərdilər. Qız seçməkdə oğlan evinin köməyinə hamamlar çatırdı. Hamamda qız seçmək adət şəklini almışdı. Burada qızın boynuna, buxununa, əndamına, ayaqlarına, saçlarına yaxından tamaşa edərdilər. Bəzən xoşlarına gələn qızları başlarına su tökmək bəhanəsilə yanlarına çağıranda onların çəldliyini də yoxlardı-lar.

Qız oğlan anasının xoşuna gələndən sonra qızı, ailəsini, əcdadını hər tərəfli öyrənərdilər. Bu məqsədlə yengə tutardılar. Yengə soraqlaşa-soraqlaşa qız evini axtarıb, tapır, qonum-qonşudan onların əsil-nəcabətini, varlı olub-olmadıqlarını ətraflı öyrənərdi.

Yengələrin baş soxmadığı yer qalmazdı. Tanımadığı həyətlərə girib bir stəkan su içmək bəhanəsilə ev sahibini səslərdi. Ev sahibəsi suyu qızı ilə göndərirdisə yengənin kefi durulardı. Qızı diqqətlə süzərdi başdan ayağa. Gözlərini elə zillərdi ki, qız utandığından başını aşağı dikib durardı. Bu zaman su içmək

yengənin yadından tamam çıxardı. Nigaran qalan qız anası yuxarı mərtəbədən səslərdi:

- Nə oldu, ay qız?

- Ana, hələ içməyib.

Bəzi hallarda qız anasının ürəyinə rəhm düşər, yengəni yuxarı çağırıb, ona çay təklif edərdi. Bu zaman yengənin baxtı alçı durardı. Qızın əsil-nəcabətini cikli-bikli öyrənərdi.

Şad xəbərlə oğlan evinə qayıdan yengə başlardı qızı, onun əsil-nəcabətini tərifləməyə. Yaxşı qız tapdığı üçün oğlan anasından xələt alardı.

Bundan sonra oğlan evi qız qapısına "həri" almağa gedərdi. Əvvəlcə arvadlar gedərdi. Onlardan sonra kişilər, "həri" cavabı alandan sonra nişan gedər, qızın barmağına üzük keçirərdilər.

Qız uzun müddət nişanlı qalardısa, oğlan evi borclu idi ki hər bayramda, baharda və payızda qız evinə hədiyyələr göndərsin. Novruz bayramında noğul, nabat, şəkərbura, paxlava, şəkər çörəyi, qoz və fındıq ləpəsi, kişmiş və boyanmış yumurtaları üstü rəngli örtüklərlə örtülü padnoslara doldurub, bəzən on-onbeş xonça düzəldib göndərərdilər. Qurban bayramında bayramlıq üçün boynuna qırmızı lent bağlanmış qoyun gedərdi. Bağ vaxtı padnoslara hər cür meyvə: armud, şaftalı, ərik, gilas, üzüm doldurub, qız evinə göndərilərdi. Belə hədiyyələrə vəzəurd deyərdilər.

Bakılıların ən çox sevdikləri və müqəddəs saydıqları bayramlardan biri də Orucluq bayramıdır. Orucluq Ramazan ayında başlayır və bütün müsəlmanlar da bir ay oruc saxladıqdan sonra bayram edirlər. Onlar səhər obaşdandan ta axşam şər qarışanadək heç bir şey yemir, içmir, papiros çəkmirlər. Ancaq axşam azanından sonra iftar açırlar. Ramazan ayı müsəlmanlar içərisində təmizlik, mehribanlıq, halallıq, səmimiyyət, istiqanlılıq ayı kimi məşhurdur. Ramazan ayında ağzı oruclu yalan danışsa, oruc batil olur. Oruc tutmaq həddi-büluğa çatmış yeniyetmədən başlayaraq, hamıya vacibdir. Ramazan ayında fağır-füqəraya kömək əli uzatmaq böyük səvab hesab edilir. Orucluq bayramında da oğlan evindən qız evinə bayram sovqatı göndərilərdi. Sovqat əsasən bayram plovundan və şor qoğalından ibarət olurdu.

Toy mərasimi yaxınlaşdıqda ona böyük hazırlıq görülərdi. Əvvəlcə qız adamı toy eləyərdi. Buna görə həyət-baca süpürülüb təmizlənər, qapı-baca əhənglə ağappaq ağardılardı. Bundan sonra yengə qapı-qapı düşüb, lazım bildikləri arvad və qızları toya çağırardı. Arvad toyu çox dəbdəbəli keçərdi. Çağırılmış bütün arvad və qızlar ən bahalı zərbaftalı donlarını geyinər, kirşanla üzlərini ağardar, gözlərinə sürmə çəkərdilər. Evdə nə qədər qızıl bəzəkləri vardısa, taxıb gələrdilər. Növrəstə qızlar birçək qoyardılar. Çal-çalğı başlardı. Arvad və cavan qızlar bir-birini əvəz edir, toyxananın ortasına çıxıb, süzə-süzə rəqs edərdilər. Oynayanların başına şabaş

yağardı. Nişanlı qızlar oynayarkən, ya-xın adamları onların başına pulu su kimi səpərdilər. Verilən şabaşları yengə əyilərək yığar və çalanlara verərdi.

Toya çağırılanlara xüsusi hazırlanmış şirniyyat verilərdi. Beləliklə hava qaralanadək dünbək, qaval və qarmon səsləri bütün məhəlləyə yayılardı.

Qız evindən sonra oğlan evi toya hazırlaşardı. Şəhərdə böyük sa-lonu olan evlərdən bihndə toyxana düzələrdi. Bəzən toyxanalar çox zaman küçədə, evin qapısında düzəlmiş çadırda keçirilərdi. Bu zaman toyxananın divarları və skamyaların üstü, toyxananın içərisi müxtəlif xalılarla bəzənərdi. Toyun başlanmasını qoşa qara zurna ilə xəbər verərdilər. Camaat toplaşandan sonra toy başlardı. Bəzi toylarda bir neçə dəstə musiqiçilər olurdu. Dərvişlə keçirilən toylar da vardı. Dərviş toyxananın enini-uzununu ölçə-ölçə qəribə rəvayətlər danışar və oxuyardı. Toyxanalarda birqayda olaraq, mütrüblərolurdu. Bunlar yeniyetmə gözəl oğlanlardı. Onlar saçlarını qız saçları kimi uzadır, çətir qoyur və dar şalvar geyirdilər. Bəzi toylarda isə onları rus qızları əvəz edərdi. Bunlar əlbəttə toyxanaya çoxlu adam cəlb etmək məqsədi güdürdü. Toydakılar arabir mütrübləri yanlarına çağırtdırıb, oturdar, onunla şirin-şirin danışardılar. Çağıran adam mütrübün cibinə pul qoyardı. Mütrübləri tez-tez oynadar və bir-birinin acığına pulları onların başına səpələrdilər. Bakı kəndlərində keçirilən toylarda Lotu Cabbar tez-tez çıxış edərdi. Camaatı məzəli danışıqları və komik hərəkətləri ilə güldürərdi. Kənd yerində toylar adətən yay aylarında və payızın əvvəllərində keçirilərdi. Məclisdə əyləşən cavanlar üçün evlərindən və nişanlılarından xonçalar gələrdi. Üstü püstə ilə dolu budaqlar, albalı budaqları, ərik, şaftalı və başqa nübar meyvələr bir-birinin dalınca cavanlara çatdırılardı. Onlar da bu meyvələri mütrüb vasitəsilə məclisin müxtəlif yerlərində oturan dostlarına göndərərdilər. Məclisdə şuluqluq salmağa cəhd edənlər də olurdu. Ancaq bu zaman toyun sərpayısı onun qarşısını dərhal alırdı. Buna görə toya sərpayı həmişə kəndin hörmətli adamlarından təyin olunardı.

Toya çağırılmış adamlar toyxanaya girməmişdən əvvəl toyxananın böyründə ayrılmış məxsusi otağa daxil olar, burada pul salandan sonra xörək yeyib, toyxanaya keçərdilər. Həmin otaqda pul yığan adam, pul salanların adlarını və nə qədər saldıqlarını qabağındakı uzun siyahıya qeyd edərdi.

Toy bir neçə gün və bəzən bir həftə uzanardı. Toy qurtarıb, camaat dağılışandan sonra bəyin yaxın adamları yığışıb meyxana deyərdilər. Dövrə vurub oturmuş adamlardan iki nəfər ortada oturub, meyxanaya başlardı. Meyxana deyənlər adətən bədahətən şeir deyən şair təbiətli adamlardı. Bəhsə girişir, bir-birlərini və habelə ayrı-ayrı adamların eyiblərini tənqid edərdilər. Onların deyişmələrində satira ilə yumor bir-birinə qarışardı. Şerlərin nəqəratını dövrə vurub oturmuş adamlar təkrar edərdilər. Meyxana bəzi hallarda dünbəklə də müşayiət olunardı. Bəzən toyxanaların axırında qumar oynamaq da adət şəklini almışdı. Ta səhərədək oturardılar.

Hər iki ev, yəni oğlan evi ilə qız evi toyları qurtarandan sonra qız evinə gəlini gətirmək üçün gedərdilər. Gecə məşəl işığında musiqi çala-çala faytonlar bir-birinin dalınca düzülərdi. Oğlan evindən gəlmiş yeniyetmə bir oğlan gəlinin belini qırmızı lentlə bağlardı. Sonra qızın atası öz övladına xeyir-dua verib, oğlan evinə yola salardı. Bu zaman qız evindən gizlincə bir şey oğurlamaq oğlan evi adamları arasına dəb düşmüşdü. Ancaq bunu elə etməli idilər ki, qız evindən heç kəs görməsin.

Gəlinin dalınca bəy oğlan özü də getməli idi. Faytonlar yenə məşəl yandıraraq, musiqi ilə geri döndükləri zaman yollarını şəhərin gur küçələrindən salardılar ki, bütün camaat görsün. Bu mərasimdə meydan qızışdıran qız evindən yengə, oğlan evindən xəlfə olardı. Yengə-nin işi zifaf geçəsindən ta ertəsi gün sübhədək davam edərdi. O da sübhün gözünü oğlanın evində açardı. Sübh tezdən qız evinə xəbər aparardı ki, hər şey öz qaydasınca olmuşdur. O dəqiqə qız evindən gəlin üçün quymaq bişirib göndərərdilər.

Bəzən elə olurdu ki, bəy oğlan ancaq zifaf gecəsi qızın üzünü görərdi. İşdir, qız oğlanın ürəyinçə olmasaydı, bu onun üçün ömürlük bir dərd olaraq qalırdı.

## BAKI XÖRƏKLƏRİ

Bakı xörəklərinin şöhrəti qədim zamanlardan Şərqə və hətta Avropa ölkələrinə yayılmışdı. Müxtəlif zamanlarda Bakıda olmuş səyyah, alim və yazıçıların xatirələrində Bakı xörəklərinin ləziz və ətirli hazırlanması barədə qeydlərə rast gəlmək mümkündür. Böyük fransız yazıçısı Aleksandr Düma Bakıda olarkən yediyi ləziz xörəklərdən də yeri düşdükcə yazmışdır. Bakının xüsusilə plovu dillər əzbəri olmuşdu. Sədri və ya dünsiyah düyüsündən plov bişirilən evlərin yanından laqeyd keçmək mümkün olmazdı. Plovun ətri uzaqdan adamları məst edərdi. Bakıda plovun bir-neçə növü vardır: toyuq plov, cücə plov, zəfəran plov, səbzə plov, südlü plov, parça-döşəmə plov, əvəlik plov və s. Plov da bakılıların sevdiyi xörəklərdəndi. Elələri vardı ki, lobyaçilovu daha çox sevirdi. Bakı xörəklərini dada gətirən xörəklərin hazırlanmasında xoşkübar və ədviyyatın çox işlənməsi idi. İrandan daşınıb gətirilən xoşkübar və ədviyyat bakılıların mətbəxindən heç zaman əskik olmazdı. İşlənən ədviyyat bunlardan ibarətdi: sarıkök, darçın, hil, mixək, cirə, sumaq, zəncəfil, istiot, raziyana, zəfəran və s. Məsələn, bozbaş və ya piti bişirərkən, sarıköksüz keçinməzdilər. Sumaq da həmçinin. Bakı pitisi xüsusilə dadlı olurdu. Kiçik bardaqlarda hazırlanan pitini yeyən adam hava qaralanadək acmazdı, adam doyduran xörək idi. Buna görə pitixanaların yanından ötən adam xörəyin iyinə mütləq ayaq saxlayıb, içəri keçməyə məcbur olurdu. Piti və ya bozbaşın təkcə iyi adamı iştahaya gətirərdi. Dolmalarda növbənöv idi. Ən çox işlənən yarpaq dolması idi. Yay aylarında təzə

meynə yarpağından, qış aylarında isə səliqə ilə bardaqlara yığılıb, saxlanmış zərif yarpaqlardan hazırlanırdı. Badımcan və pomidor dolmaları da ədviyyatla hazırlanıb, çox ləziz olurdu. Zərif kələm vərəqlərindən hazırlanan kələm dolmasının da başqa ləzzəti vardı.

Əlbəttə, plovdan sonra ən ləziz xörək tikə kabab və lülə kabab idi. Kabab bişirilərkən iyi məhəllələrə də yayılardı. Tikə kabab və lülə kabab ancaq həmin gün kəsilən qoyun ətindən hazırlanırdı. Müştəri dünəndən qalmış əti dadından dərhal başa düşürdü. Şişə çəkilib bişirilən kababdan başqa tavada bişirilən kabab da vardı ki, adına da tava kababı deyirdilər. Əlbəttə, o, şiş kababının yerini verməzdi. Plovun qarası kimi hazırlanan qovurmalar da müxtəlif və bir-birindən dadlı olurdu. Qovrulan ətə əla çeşidli albuxara, şabalıd, səbzə qovurmada isə göyərti qatılırdı. Qovurmalar toyuq ətindən də hazırlanırdı. Xəmir yeməklərindən, əlbəttə, ən dadlısı qutab idi. Qutabı ətdən, göyərtidən və balqabaqdan olurdu. Bəzən rəngarənglik üçün hər üçündən hazırlayıb, səliqə ilə nimçələrdə süfrəyə düzürdülər. Dəvə ətindən bişirilmiş qutabın başqa ləzzəti vardı. Dəvə qutabı, dəvə saxlanılan yerlərdə çox bişirilərdi. Ancaq bununla belə başqa kəndlərdə də, şəhərdə də bişirilib satılardı. Dəvə əti qutabı adətən təndirdə bişirilirdi, onu çörək kimi təndirin divarına yapardılar. Bu qutablar həcmcə adi qutablardan böyük olardı.

Xəmir xörəklərindən birl də düşbərə idi. Düşbərə Azərbaycanda demək olar ki, ancaq Bakıda bişirilirdi. Bakılıların ən çox sevdiyi sulu xəmir xörəyi idi. Xəmir xörəklərindən gürzə adlı bir yemək də vardı. Bu bir növ düşbərəyə oxşayır. Xırda-xırda kəsilmiş xəmirin içinə ət qoyulub qıraqları düşbərə kimi bükülür. Ancaq həcmcə düşbərədən böyük olur, forması da başqadır. Bunlarla yanaşı xəmir xörəklərindən xingal, xəmiraşı, əriştə, xəşil, umac, halva və başqaları da vardır. Xingal iki cür olur: quru və sulu xingal. Sulu xingal adətən süfrəyə yağlı, qızardılmış xörəklərdən qabaq birinci yemək kimi verilir. Quru xingal isə əsl yemək idi. Xingalın xəmiri suda bişəndən sonra onun suyu süzülür və boşqablara tökülüb, üstünə ətdən hazırlanmış qovurma və ya da qıyma tökürlər. Bəzi yerlərdə üstünə qatıq da əlavə olunur. Quru xingalın yağı adətən çox olmalıdır.

Xəşil qış aylarında, soyuq havalarda bişirilən xörəkdir. Bu, un, yağ və şəkərlə bişirilir, üstünə sarıkök və ya da zəfəran suyu tökülür. Umacı soyuqdəymədə yeyirlər. Quymağı daha çox doğan arvadlar üçün və uşaqlar üçün bişirirlər.

Südlü xörəklərdən yuxarıda adını çəkdiyimiz südlü plovdan başqa südlü sıyıq, dovğa da bakılıların xoşladıqları xörəklərdir. Dovğanı qatıq olmadıqda quruddan da hazırlayırlar. Firni - süd, şəkər və düyü unundan bişirilən şirin yeməkdir. Üstünə də darçın səpirlər.

Ətli xörəklərdən danışarkən iki xörəyi də qeyd etmək lazımdır. Bunlardan biri Arzuman küftəsi, o biri isə cız-bız idi. Arzuman küftəsi adi küftədən öz

böyüklüyü ilə fərqlənir. Elə iri olur ki, içinə yumurta da yerləşir. Bişmiş yumurtanın qabığını soyduqdan sonra küftənin içinə qoyub bişirirlər. Cız-bız isə heyvanın içini, ciyərini, ürəyini, mədəsini və bağırsaqlarını təmizləyib, xırda-xırda doğradıqdan sonra tavada qovururlar. Keçmişlərdə Bakıda cız-bızxanalar çoxdu. Həmişə də adamla dolu olurdu. Çünki cız-bız başqa ət xörəklərinə görə çox ucuzdu. Dükanın içində qurulmuş ocağın üstünə iri bir tava qoyub, cız-bız hazırlayırdılar. Ocağın ətrafında dövrə şəklində stullar düzülərdi. Müştərilər bu stullarda oturur, tavada qovrulan cız-bız hazır olduqca dükan sahibi onu iri kəfkirlə ocağın qırağına düzülmüş boşqablara töküb müştərilərin qabağına qoyardı.

Balıq xörəkləri də bakılıların süfrəsindən əskik olmazdı. O zaman Bakıda xüsusi balıq passajı vardı. İndiki urologiya xəstəxanasının binasına bitişikdi. Buraya Bakı kəndlərindəki vətəgələrdən hər səhər təzə balıq daşınardı. Evdar qadınlar onlardan cürbəcür xörəklər hazırlayırdılar. Ən ləziz xörək ləvəngi idi. Bu zaman təzə balığın qarnına döyülmüş qoz, ziriş və ya da kişmiş doldurub, bişirərdilər. Ləvəngi Bakıya Lənkərandan keçmişdi.

Adətən balığı parça-parça doğrayıb, yağda qızartmaq daha çox yayılmışdı. Quru kütümü xəmirə tutub, çörək yaparkən təndirin odu altında bişirmək şəhərdədə, Bakı kəndlərində də bir adət şəklini almışdı. Təndirdən çıxmış isti çörəklə bişmiş kütüm balığını yeməyin başqa ləzzəti vardı.

Ətli yeməklərdən biri də kəllə-paça (xaş) idi. Bakıda kəllə-paça əsasən qoyun başından və əl-ayağından hazırlanırdı. Mal ayağından xaş bişirmək daha sonralar dəbə düşmüşdü. Xaşın dadlı olması üçün onun üstünə sarımsaqlı sirkə tökürlər.

Balqabaqdan hazırlanan biryemək də vardı. Adına qəlyə deyirlər. Balqabağı parça-parça doğrayıb suya tökürlər. Bişənə yaxın üstünə şəkər də əlavə olunur.

**Şirniyyat və qənnadı.** Bakı şirniyyatı əsrlər boyu İran şirniyyatı ilə rəqabətdə olmuşdur. Bakıda bişirilən təkcə paxlava bütün Şərq şirniyyatı içərisində həmişə şöhrət tapmışdı. Bakı paxlavasını barmaqlarınla sıxdıqda təbəqələrin arasından bal kimi şirə süzülür. Bakı şəkərburasına da söz ola bilməz. Azərbaycanın heç yerində belə dadlı şəkərbura hazırlanmır. Bakılı qızların zərif barmaqları ilə şəkərburaların üstünə vurulan nəqşlərə heç yerdə rast gəlməzsən. Onlar xəmirdən az qala sənət əsəri yaradırlar. Bunlardan başqa bakılıların blşirdiklri şəkər çörəyi, süd çörəyi, fəsəli, şor qoğalı da çox ləzzətli olur. Bakı kəndlərinin əksəriyyətində şor qoqalının xəmirini su ilə yoğururlar. Bu, qoğalın vərəqlərinin açılmasına xeyli kömək eləyir. Xəmiri südlə yoğrulan qoğal isə bərk olur və vərəqləri də yaxşı açılmır.

Yay aylarında bakılılar çoxlu mürəbbə hazırlamağı sevirlər. Elə meyvə tapılmaz ki, ondan mürəbbə hazırlanmasın: heyva mürəbbəsi, əncir mürəbbəsi, zoğal mürəbbəsi, ərik mürəbbəsi, qoz mürəbbəsi, ağ gilas mürəbbəsi, albalı

mürəbbəsi, qarpız mürəbbəsi, qızıl gül mürəbbəsi, tut mürəbbəsi qış aylarında süfrələrin bəzəyi olur.

Şirniyyat qismindən məcun və peşməyi də göstərmək lazımdır. Məcun qəndlə meyvə şirəsindən hazırlanmış şirniyyat idi. Qatı olur. Çox şirin olduğundan adamın boğazını qəhərləndirərdi. Peşmək də qənddən və şəkər tozundan hazırlanır, tel-tel, zərif şirniyyatdır. Çox yüngül olur. Əllə yeyilir.

Bakıda məşhur olan səələb də şəhər əhlinin çox xoşladığı şirniyyatdır. Bu bir növ firniyə oxşayır, ancaq çox sıyıqdır, Səələb adətən qışda hazırlanıb, iri çayniklərdə satılardı. Öskürəyə qarşı yaxşı vasitə idi. Sinəni yumşaldırdı. Səələb bitkisi ilə süddən hazırlanır.

## BAKIDA İLK AZƏRBAYCAN FİLMİ

Bakıda fotonun meydana çıxması demək olar ki, XX əsrin əvvəllərinə aiddir. Xüsusilə şəhərə gələn xarici firmaların nümayəndələri Bakı nefti, Bakı neft fantanları ilə əlaqədar olaraq fotolar çəkir və onları açıqca şəklində satırdılar. Film çəkilişi isə daha sonrakı illərə aiddir. Onuncu illərdə xarici firmaların nümayəndələri bir çox qısa metrajlı sənədli filmlər çəkmişdilər. Bunlar şəhər həyatının ancaq qısa bir hissəsini əks etdirirdilər. Küçələrdə, limanlarda, vağzallarda baş verən maraqlı hadisələr, fantanlar, şəhərin görkəmli yerləri sənədli filmlərin əsas süjetini təşkil edirdi. Bədii filmlərin çəkilişi 1916-cı ildən sonra başlayır. Bu Pirone qardaşlarının "Film" aksioner cəmiyyətinin adı ilə bağlıdır. İlk bədii film Azərbaycan yazıçısı İbrahim bəy Musabəyovun eyni adlı əsəri əsasında çəkilmiş "Neft və milyonlar səltənətində" adlı film idi. Bu film Bakı neft sahibkarlarının vəsaiti hesabına çəkilmişdi. İctimai ziddiyyətlər, varlıların qəddarlığı, pul hərisliyi sadəlövh şəkildə olsa da filmdə öz əksini tapmışdı. Filmin çəkilişi Bakıda və onun ətraf kəndlərində aparılmışdı. Pavilyon səhnələri isə Tiflisdə çəkilirdi. Filmin maraqlı epizodlarından biri o zaman Səlimovun Balaxanadakı neft mədənində baş vermiş dəhşətli yanğının lentə alınması idi. Rejissor B.Svetlov və operator Q. Leçberq bu yanğını sensasiya kimi filmə daxil etmiş və beləliklə onun effektini xeyli artırmışdılar. Filmdə çəkilmək üçün Bakı teatrlarından bir çox aktyor dəvət olunmuşdu. Baş rolda görkəmli aktyorumuz H. Ərəblinski çəkilmişdi. O milyonçu Lütfəli bəyin rolunu məharətlə ifa etmişdi. Bundan başqa filmdə göstərilən toy səhnəsində tarzən Qurban Primov və xanəndə Cabbar Qaryağdı oğlu da iştirak edirdilər.

Film ekrana çıxmamışdan əvvəl geniş reklam təşkil edilmiş, Bakı qəzetlərində elanlar verilmişdi. Bunlardan əlavə xüsusi buklet də buraxılmışdı ki, buraya filmin librettosu və filmdən ayrı-ayrı kadrlar daxil edilmişdi.

"Neft və milyonlar səltənətində" filminin bir sıra qüsurlarına baxmayaraq, Azərbaycan milli kino sənətinin başlanğıc nöqtəsi kimi çox əhəmiyyətli idi.

Bundan bir il sonra Bakıda Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası əsasında "Arşın mal alan" komediyası çəkilmişdi. Lakin film çox zəif idi. Onun əleyhinə birinci olaraq, Ü. Hacıbəyli çıxış etmişdi. Əvvəla film kino sənəti ilə heç bir əlaqəsi olmayan Belyakov adlı bir nəfər tərəfindən çəkilmişdi. Filmin əsas hissəsi o zamankı "Forum" kino-teatrının həyətində, təbii mənzərələr isə Zığ kəndinin yaxınlığında dəniz kənarında çəkilmişdi. Film tamaşaçıların rəğbətini qazana bilməmişdi. 1917-ci ilin noyabr ayında "Forum" kinoteatrında cəmi iki dəfə nümayiş etdirilmişdi.

"Neft və milyonlar səltənətində" filmi Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində milli kinonun inkişafı üçün yol açdı. Mövcud olan baza əsasında kino çəkilişi xeyli genişləndi.

1923-cü ildə respublika Maarif Komissarlığı nəzdində Azərbaycan Foto-Kinə İdarəsi - AFKİ yaradıldı. Həmin ildə "Qız qalası" adlı iki seriyalı film çəkilib, ekranlara buraxıldı. Bu filmdə Azərbaycan artistlərindən İbrahim Azəri çəkilmişdi. 1924-cü ildə "Bayquş" adlı ikinci film çəkildi. Filmin baş rollarında Abbas Mirzə Şərifzadə və Ağarza Quliyev çəkilmişdi. 1925-ci ildə çəkilmiş "Bismillah" filminin rejissoru Abbas Mirzə Şərifzadə idi. Əsas rollarda artistlərdən Mirzəağa Əliyev, Mustafa Mərdanov çəkilmişdi. Həmin illərdə Azərbaycan artistlərinin böyük bir dəstəsi kinonun studiyası ətrafında toplaşmışdılar. Sonralar AFKİ genişlənib əsl kino istehsal edən studiyaya çevrildikdə "Azər-kino" adlanmağa başladı.

## NARGİN ADASININ ƏSİRLƏRİ

Nargin adası Bakının həbsxanalarından biri idi. 1910-cu ildə H.Z.Tağıyev öz dəyirmanını həbsxanaya çevirib, hökümətə təhvil verəndən sonra Nargınə göndərilən məhbusların sayı xeyli azalmışdı. Şəhər əhli öz məhbus qohum-qardaşı ilə görüşmək üçün qayıq və barkaslarla xüsusilə şiddətli fırtınalarda adaya getmək əzabından xilas olmuşdular. Buradakı taxta baraklardan çoxu boşalmışdı. Lakin Birinci cahan müharibəsinin başlanması ilə Nargin adasında həyat təzədən qaynamağa başladı. Qafqaz cəbhəsində əsir düşən almanlar və türklər eşelon-eşelon buraya sürgün edilməyə başladı. Əsirlər arasında təkcə əsgər və zabitlər deyil, dinc əhalidən qocalar və uşaqlar da vardı. "Bəsirət" qəzeti 1917-ci il 22 dekabr tarixli nömrəsində xəbər verirdi ki, adada 8 minədək əsir yaşayır ki, bunlardan yarısı türklər, qalanı isə alman və avstriyalıdır. Bakının xeyriyyə cəmiyyətlərinin əsirlərə yemək və geyim cəhətdən kömək etmələrinə baxmaya-raq, əsirlərin vəziyyəti çox ağır idi. Qış aylarında baraklar qızdırılmırdı, su çatışmırdı. Yatacaq yerləri boş taxtalardan ibarət idi. Qəzetin yazdığına görə gündə yüzlərcə

əsir tələf olurdu. Adadan hökümətin adına bir-birinin dalınca şikayət, ərizələr yağdırılırdı. 1918-ci ilin fevralında "Açıq söz" qəzetinin yazdığına görə adanın komendantı Şəhər idarəsinə xəbər verib ki, ada qarnizonu, xüsusilə 7 min hərbi əsir pulsuzluqdan əziyyət çəkirlər. Pul göndərilməsə acından ölərlər. Fevralın 25-də Narginin türk və alman əsirləri Qafqaz ordusu komandanı Adişelidzeyə məktub göndərmiş və öz vəziyyətlərindən şikayətlənmişlər. Eyni zamanda osmanlı zabitləri adından Petroqrada teleqram göndərilmişdi.

Həmin ilin dekabr ayında Şəhər idarəsi adadakı əsirlərin vəziyyətini öyrənmək üçün N.Nərimanovun başçılığı ilə Narginə komissiya göndərir. Adadakı vəziyyəti, hərbi əsirlərin güzəranını yoxladıqdan sonra Nərimanov əsirlərə kömək məqsədilə komissiyanın adından bir sıra təkliflər hazırlayıb Tiflisə; Qafqaz ordusu komandanlığına göndərir. Tədbirlərdə hər şeydən qabaq göstərilirdi ki, adaya daha əsir göndərilməsin, müharibədə iştirak etməmiş qocaları və uşaqları öz vətənlərinə göndərsinlər. Ya da uşaqları xeyriyyə cəmiyyətlərinin sərəncamına versinlər. Xəstələri tezliklə şəhərə köçürsünlər. Yemək və su norması artırılsın və əsirlərin alt paltar və geyimlərlə təmin edilməsi qayğısına qalınsın.

N. Nərimanov həmin il şəhər dumasında əsirlərin vəziyyəti barədə geniş məruzə ilə də çıxış etmişdi. O demişdi ki, "Nargin - qəbiristanlıqdır, bu qəbiristanlığın yanında minlərlə adam öz ölümlərini gözləyirlər, 7 min adam isə bu növbədə öz yerini tutmaq üçün hazırdır". Sonra palatalardakı vəziyyətə keçərək, demişdi: "Bu adada tikililər hər cəhətdən pisdir. Bunlar insanlar üçün tikilməyib. Palatalar qaranlıq və üfunətli anbarlardan ibarətdir. Sobaları yandırmaq üçün odun yoxdur. Barakların taxtaları aralıdır. Dama açılan pəncərələr şüşəsizdir. Bu qədər adamın sığışdığı anbarların içərisində ayaq yolu tikilib. Ayaq yolunun aralı taxtaları arasından üfunət bütün anbarlara yayılır. Bu şəraitə alışmayan adam burada 10 dəqiqədən artıq dura bilməz. Taxta döşəmə ancaq bir neçə palatadadır, o birilərinin yerliyi çılpaq torpaqdır. Bütün palatalar xəstələrlə doludur. Sağlam adamlar xəstələrlə bir palatada yatırlar. Xəstələrdən çoxunun üst-başı öz ifrazatına bulaşmışdır. Xəstələrin çoxu alt paltarsız və çılpaq yorğan və şinellərinə bürünüb yatırlar. Mən orada başlarının altında yastıq əvəzinə kərpic olan çox adamın öldüyünü görmüşəm. Buraya su gec-gec daşınır. Elə vaxt olur ki, dərman atmağa da su tapılmır. Burada adamlar susuzluqdan da ölürlər. Gündə azı 45-50 adam ölür".

Nərimanov "Hümmət" qəzetində çap etdirdiyi məqalələrində Nargin adasını "Göz yaşları axıdan ada" adlandırır. Belə ağır yaşayışdan əsir əsgər və zabitlər həmişə nicat yolu axtarırdılar. Əsirlər içərisində fərarilik çoxalmışdı. Üzməyi bacaran cəsurlar tapılmışdı ki, üzə-üzə Şıx kəndinə çıxıb, nicat tapmışdılar. Qayıqlarla tək-tək qaçan əsgərlər də Bakı kəndlərində özlərinə sığınaq tapırdılar. Bakı kəndliləri də əsirlərin halına acıyaraq, onlara öz kömək əllərini uzadırdılar. 28

aprel çevrilişinədək Bakı kəndlərində gizlənmiş belə əsirlərə çox rast gəlmək olardı. 1918-ci il yanvarın 27-də motorlu qayıqla bir neçə türk zabiti və əsgəri qaçmışdı.

Nargin adasındakı ağır vəziyyət türklərin Bakıya gəlməsinədək davam edir.

1918-ci ildə Nargin əsirlərinə kömək məqsədilə "Möhtaclara kömək" adlı məcmuə də çap edilirdi. Məcmuənin müdiri Oruc Orucov, baş mühərriri isə Xəlil İbrahim idi.

## MÜHƏRRİRLƏRİN TƏQİBİ

1910-cu ildə gizli polisə belə bir xəbər çatmışdı ki, müsəlman ziyalıları arasında, o cümlədən qəzet mühərrirləri içərisində panislamizm əhvali-ruhiyyəsi çox qüvvətlənmişdir. Guya məktəblərdə, xüsusilə "Səadət" məktəbində ittihadi İslam açıqdan açığa təbliğ olunur.

Panislamizm çar Rusiyası üçün böyük təhlükə təşkil edirdi. Çarizm ehtiyat edirdi ki, bu meyl müsəlman ölkələrinin Rusiyanın himayəsindən çıxması ilə nəticələnə bilər. Bununla əlaqədar çar polisi mühərrirlər içərisində nəzarəti gücləndirməyə başladı. Baş verəcək təhlükənin qarşısını almaq üçün ziyalılar içərisində çalışan casusların sayını artırdı. 1910-cu ildə "Səadət" məktəbində müəllim işləyən yazıçı və publisist Əli bəy Hüseynzadənin fəaliyyəti polisi xüsusi ilə narahat edirdi. Onlara məlumat verilmişdi ki, Hüseynzadə şagirdlər içərisində panislamizm təbliğ edir. Polisi şübhəyə salan o idi ki, onun aşağıdakı şeiri bütün şagirdlərin dillərində əzbər olmuşdu:

Ucundadır dilimin Həqiqətin böyüyü,
Nə qoydular deyəyim, Nə kəsdilər dilimi.
Bilirmisən cühəla
Nə etdilər vətənə,
Nə qoydular uyuya,
Nə qoydular oyana.
*   *   *
Durur bila hərəkət
Rəvamı bir diriyə,
Nə getmədə irəli,
Nə dönmədə geriyə.
Ədu qırar qapıyı,
Biz evdə bixəbəriz,
Nə başqa-başqalarız,
Nə ittihad edəriz
Ayıtmadı qələmim

Bu türk ilə əcəmi,
Nə qoydular yazayım,
Nə qırdılar qələmi.

Bundan başqa rus çar məmurlarına o da məlum idi ki, Hüseynzadə öz pantürkist və panislamist görüşlərinə görə İstanbulda II Sultan Həmid tərəfindən təqib edilmiş və Türkiyədən qaçıb Bakıya gəlmişdir. Çox keçmir ki, polis Əli bəyin "Səadət" məktəbindən azad edilməsinə nail olur. Lakin iş bununla da bitmir. Əli bəy Hüseynzadə təzədən Türkiyəyə getməyə məcbur olur.

Bir müddətdən sonra Bakı qəzetlərinin mühərrirləri içərisində həbslər başlanır, qəzetlər bir-birinin dalınca bağlanır. Qəzet redaksiyaları və məktəblər ətrafında hərlənən casuslar görkəmli mühərrir və müəllimlər barədə ardıcıl danoslar yazırdılar. Axund Molla Ruhulla həmin günlərdə həbs edilmiş mühərrir oğlu Məmmədsadığa yazdığı məktubda deyirdi

Bu da (danosçuluq - Q.İ.) bəzi fitnəkar casusların əlində bir sərmayə və maaş olubdur". Doğrudur, Axund Ruhulla bu fitnəkarların kim olduğunu aşkar açıqlaya bilmirdi, ancaq hiss edirdi ki, bu işdə mühərrir və müəllimləri yaxından tanıyan bir və ya bir neçə adamın barmağı vardır. Yalnız sovet illərində köhnə arxivlər açılıb, araşdırıldıqda məlum olmuşdur ki, belə şəxslərdən biri mühərrir kimi tanınmış Haşım bəy Vəzirovdur. Arxivdən tapılan gizli polisin sənədində Haşımov ləqəbi ilə gizli polis agenti kimi qeydiyyatdan keçmişdi. Budur, həmin sənəddə oxuyuruq: "Haşım bəy Mir İman bəy oğlu Vəzirov Yelizavetpol quberniyasındandır, tatardır (azərbaycanlı - Q.İ.), Şuşa şəhərində anadan olub, hazırda Bakıda yaşayır. "Səda" qəzetinin mühərrir-naşiridir. Qafqazda panislamizm üzrə "intilligent" təxəllüslü DJİ-nin (dövlət jandarm idarəsinin) gizli əməkdaşıdır. Bilavasitə olaraq, rotmistr Kulinskinin və polkovnik Minkeviçin rəhbərliyi altında işləyir. 1911-ci ildə Bakı quberniyasında və Dağıstanda müsəlman hərəkatında iştirak edənləri ələ vermişdir".

O da məlumdur ki, 1911-ci il 24 martda rotmistrlə danışıq zamanı Haşım bəy bir çox adamlar barədə ona məlumat vermişdir. Həmin görüşdən sonra mart ayında bir çox qəzet redaksiyalarında axtarış aparılmış və "Yeni Füyuzat" qəzetinin müdiri və imtiyaz sahibi Əlipaşa Hüseynzadə Sibirə sürgün edilir, baş mühərrir Əhməd Kamal paşa ölkədən çıxarılıb Türkiyəyə göndərilir. "Həqiqət" qəzetindən Oruc Orucov da həbs edilir. Bununla yanaşı Haşım bəy Vəzirovun qəzeti "Səda" da bağlanır və Haşım bəy özü də həbsə alınır. Lakin bir neçə gündən sonra həbsdən azad olunub, qəzetini davam etdirir. Görünür ki, polis Haşımovu da həbs etməklə gözdən pərdə asmış və onun üstünə kölgə düşməsinə yol verməmişdir.

Həmin ildə "Şihabe sakib" məcmuəsinin müdiri Əliabbas Müznib də həbs edilib, Sibirə sürgün edilmişdi.

Məxfi polis idarəsi sonralar da panislamizmə qarşı mübarizəni genişləndirmək üçün öz ətrafına təzə-təzə casuslar cəlb etməklə türk ziyalıları üzərində nəzarəti daha da qüvvətləndirmişdi.

## H.Z.TAĞIYEVİN MÜHAKİMƏ EDİLMƏSİ

1912-ci ilin əvvəllərində Bakının ictimai həyatında elə bir hadisə baş verdi ki, nəinki, azərbaycanlıları, bəlkə də bütün müsəlmanları həyəcana gətirdi. Bu H.Z.Tağıyevin mühakimə edilməsi idi. Hadisə belə olmuşdu: vaxtı ilə Tağıyevin pulu ilə ali texniki təhsil alıb qayıtmış Lütfəli bəy Behbudov səkkizinci ilə keçirdi ki, Hacının yanında mühəndis kimi işləyirdi. Evinə gedib-gələn, məhrəm bir adamdı. Necə olursa Hacı Lütfəli bəyin Sona xanıma (Hacının arvadı) olan münasibətindən şübhələnir və onu cəzalandırmağı qərara alır. Bir gün (bu hadisə 1911-ci il may ayının 16-da olmuşdu) Lütfəli bəyə xəbər göndərir ki, yaşadığı evin otaqlarında nə isə dəyişiklik eləmək istəyir. Lütfəli bəy də gəlib, əlində arşın otaqları ölçə-ölçə bir otağa girəndə orada beş-altı nəfərin toplaşdığını görür. Lütfəli bəyin daxil olması ilə Hacının: "Vurun, əzişdirin bu yaramazı" deməsi bir olur. Adamlar da Lütfəli bəyin üstünə düşüb onu o ki var əzişdirirlər. Bu adamlar kimlərdi? Bakı qradonaçalnikinin xüsusi məmuriyyət zabiti podpolkovnik Mənsur Mirzə Qacar, məhəl sərhəd briqadasının qərargah rotmistri Rza bəy Məmmədbəyov, Hacının oğlu Sadıq Tağıyev, "Kaspi" qəzetinin işlər müdiri Həsən ağa Həsənov (o eyni zamanda şəhər dumasının qlasnısı idi), Tağıyevin fabrikinin müdiri Mehdi Cəfərov, Hacının qardaşı oğlu Məmmədrza Tağıyev.

Bir rəvayətə görə guya Hacı da qızışıb, bu işdə iştirak edirmiş. Başqa bir rəvayətdə deyilir ki, guya Behbudov içəri girəndə Hacı ona təklif edir ki, təcili yığışıb Bakıdan getsin. Behbudov da otaqdan çıxandan sonra Hacının adamları pilləkənin üstündə onu əzişdiriblər. Sonra da çənəsini yaralayaraq, qanı axa-axa faytona mindirib, evinə göndərirlər. Bəzi qəzetlər bunu başqa şəkildə təsvir etmişdilər. Guya Hacı Behbudovun arvadını çağırtdırır və qana bulaşmış ərini göstərərək demişdir: "Sona xanıma xain gözü ilə baxdığı üçün onu bu günə salıblar".

Bir neçə gündən sonra şəhərdə bununla əlaqədar bir çox şayiələr yayılır. Guya Tağıyevin adamları onu nəinki döymüş, hətta ona butulka da keçiriblər. Aradan bir müddət keçir. Tağıyevin düşmənləri (onların arasında erməni varlıları da vardı). Lütfəli bəyi qızışdırırlar və o da aradan xeyli keçəndəi sonra Tağıyevi məhkəməyə verir. Məhkəmə çox uzanır və nəhayət 1912-ci il mart ayının 6-da Tağıyevin işinə baxılır. Məhkəmə mart ayının 9-dək davam edir. O günlərdə şəhərdə söz-söhbət ancaq Hacının mühakimə edilməsindən gedirdi. Camaat, böyükdən kiçiyədək məhkəmənin qapısını kəsdirib durmuşdular. Çoxlu şahidlər

dindirilmişdi, o cümlədən milyonçu Musa Nağıyev də şəhadət vermişdi. Məhkəməyə şahid kimi çağırılmış Muxtarov həmin günlərdə şəhərdə olmadığından məhkəmənin adına teleqram göndərmişdi. Teleqramda bildirirdi: "Uzaq bir məsafədə olduğum üçün bilzat məhkəmə iclasında hazır ola bilmədim. Məhkəmə müstəntiqinin hüzurunda söylədiyim sözləri - şəhadəti dübarə təsdiq edirəm".

Məhkəmənin gedişi bütün müsəlman aləminə səs salmışdı. Rusiyanın həryerindən teleqramlar gəlir, Hacının mühakimə edilməsi barədə öz təəssüflərini bildirirdilər. İmam Əbdürrəhman Niyazi bütün Rusiya müsəlmanları adından qəzəb və təəssüfünü bildirirdi. Məhkəmənin getdiyi günlərdə şəhərin, demək olar ki, bütün məscidlərində Hacının bəraət qazanması üçün namaz qılınır, dua oxunurdu.

Nəhayət, şəhər vilayət məhkəməsi belə bir qərar çıxarır: Hacı hüquqdan məhrum edilməklə iki il yarım, başqaları isə hərəsi iki il həbsə məhkum edilirlər. Lakin qərar hökm şəklini almamışdan əvvəl Hacı, oğlu Sadıq Tağıyev, prins Mənsur Mirzə və rotmistr Rza bəy Məmmədbəyovun işi imperatorun mülahizəsinə təqdim olunur.

Aprelin 27-də Cümə məscidində Bakı müsəlmanlarının yığıncağı çağırılır. Yığıncaq Tağıyevin əfv edilməsi barədə padşahdan xahiş et-mək üçün bir nümayəndə heyəti seçir. Həmin günlərdə professor Kosovorotov Tağıyev və Behbudov işində Behbudovun döyülməsini təhqiq və münsiflik etməsi barədə geniş bir məqalə ilə çıxış edib, yazırdı: "Mən birinci dəfədir ki, belə əhəmiyyətsiz işi təhqiq edirəm və bu kimi əhəmiyyətsiz işə dair münsiflər şəhadətinin nəzər-diqqətə alınmadığını və bu cür məhkəmənin qərarını birinci dəfədir ki, görürəm" ("İqbal", 6 aprel 1912).

Tağıyevin əfv edilməsində təşəbbüsdə olmaq üçün Bakıdan Peterburqa xüsusi nümayəndə heyəti yola düşür. Heyətə I dövlət dumasının üzvü Əlimərdan bəy Topçubaşov, Musa Nağıyev, Mirzə Əsədullayev, doktor Məmmədrza Vəkilov və iki nəfər üləma daxil idi.

İmperator H.Z.Tağıyevin günahından keçir.

## BAKI 1917-1920-Cİ İLLƏRDƏ

1917-ci ildə Rusiyada fevral inqilabı baş verdi. İnqilabın qələbəsi çar imperiyasının bütün xalqlarını ayağa qaldırdı və onları istiqlaliyyət və muxtariyyət uğrunda mübarizəyə ruhlandırdı. Martın 2-də II Nikolay taxt-tacdan əl çəkdi. Rusiyada iki hakimiyyətlik yarandı: Müvəqqəti hökümət və Sovetlər. Martın 9-da Dövlət dumasının Zaqafqaziyadan olan deputatlarının təşəbbüsü ilə Müvəqqəti hökümət Zaqafqaziyanı idarə etmək üçün xüsusi bir komissiya yaratdı. Komissiyanın tərkibinə A.Xarlamov (sədr), M.Y.Cəfərov və M.İ.Papacanov daxil edildi. Peterburqdan gələn komissiya birinci növbədə Bakıda yığıncaq keçirdi.

Dumanın balkonundan toplaşmış camaata müraciət edən komissiya üzvü M.Y.Cəfərov dedi:

- Biz Peterburqdan buraya sizi, azad Rusiyanın vətəndaşlarını təbrik etməyə gəlmişik. Bizə Dövlət duması tərəfindən müşkül bir vəzifə verilmişdir. Bu vəzifə Məclisi Müəssisan cəm olub, əsas qanunla sərəncam verənədək Qafqazın bizim tərəfdən idarə edilməsidir. Vətəndaşlar, doğrudan da böyük hadisə baş vermişdir. Artıq çar yoxdur. Onun çürümüş və qüvvətli bir məmləkəti fəlakət halına gətirmiş idarəsi daha yoxdur. Rus milləti vaxtında özünü xilas etməyə qalxmışdır. Lakin iş hələ qurtarmamışdır. Əldə etdiyimizi möhkəmlətmək lazımdır. Komissiyanın çıxış edən o biri üzvləri də camaatı Müvəqqəti hökuməti müdafiə etməyə çağırdılar.

1917-ci ilin 15 noyabrında Zaqafqaziya komissarlığı yaradıldı. Bu komissarlığın tərkibinə Azərbaycandan Fətəli xan Xoyski, M.Y.Cəfərov daxil edilmişdi. Komissarlığın təşəbbüsü ilə Qafqaz cəbhəsindən qayıdan əsgərlər tərksilah edilərək, əldə olunmuş silahlarla Gürcüstan, Azərbaycan və Ermənistan silahlı qüvvələri təşkil olunmağa başladı.

1918-ci il 10 fevralda Zaqafqaziya seymi açıldı. Seym Zaqafqaziyadan Məclisi Müəssisana seçilmiş deputatlardan, menşevik, daşnak və müsavatçıların nümayəndələrindən ibarət idi. 1918-ci il 26 martda seym Zaqafqaziya komissarlığını ləğv etmək barədə qərar çıxardı. 1918-ci il 22 apreldə isə Zaqafqaziyanın Sovet Rusiyasından ayrıldığını rəsmiləşdirdi. Seym türklərlə sülh danışıqlarına başladı. Lakin danışıqlar uzun sürdü. Çünki Zaqafqaziya seymi türklərdən ötrü danışıqlara başlamaq üçün hüquqi ixtiyarata malik deyildi. Buna görə Zaqafqaziyanın müstəqilliyini elan etmək lazımdı. Həmin məsələ seymin 9 aprel tarixli iclasında müzakirəyə qoyuldu. Uzun sürən mübahisələrdən sonra Zaqafqaziya Müstəqil Demokratik Federativ Respublika elan edildi. Lakin bu respublika əvvəlki komissarlıqdan ancaq xarici əlamətləri ilə fərqlənirdi. Əslində isə seymin üzvləri umumi bir qərara gələ bilmirdilər. Hər şeydən əvvəl onların ümumi bir proqramı yox idi. Seym istər-istəməz parçalanma təhlükəsi altında qalmışdı. Mayın 25-də seymin axırıncı iclası keçirildi. Ertəsi gün Zaqafqaziya respublikası da dağıldı. Gürcüstan özünü müstəqil respublika elan etdi. Ondan sonra seymin müsəlman üzvləri də Milli Şura yaratdılar. Şuranın sədrliyinə M.Ə.Rəsulzadə, üzvlüyə isə aşağıdakılar seçildilər: Həsən bəy Ağayev (sədr müavini), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman Nərimənbəyov, Heybətqulu Məmmədbəyli, Mehdi bəy Hacınski, Əliəsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Soltan Məcid Qənizadə, Əkbər Şeyxəl İslamov, Məmməd Yusif Cəfərov, Hidayət bəy Məlikaslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudun bəy Köçərli, Cəmo bəy Hacınski, Şəfi bəy

Rüstəmbəyov, Xosrov bəy Sultanov, Cəfər Axundov, Məmməd Məhərrəmov, Cavad Məlikyeqanov, Hacı Molla Axundzadə.

Mayın 28-də Azərbaycan müstəqil respublika elan edildi.

Həmin gün Azərbaycan Cümhuriyyətinin ilk müvəqqəti hökümət kabineti təşkil edildi. Onun tərkibinə Fətəli xan Xoyski - Nazirlər Şurasının sədri və daxili işlər naziri, Xosrov Sultanov - hərbi nazir, Məmmədhəsən Hacınski - xarici işlər naziri, Nəsib bəy Yusifbəyli - maliyyə və xalq maarifi naziri, Xəlil Xasməmmədov - ədliyyə naziri, Məmməd Yusif Cəfərov - ticarət və sənaye naziri, Əkbər Şeyxəl İslamov - əkinçilik və əmək naziri, Cəmo Hacınski - Dövlət müfəttişi daxil oldular.

Azərbaycan istiqlaliyyətinin yaradılması mayın 30-da radio-teleqrafla dünyanın bütün siyasi mərkəzlərinə: Tehrana, İstanbula, Parisə, Londona, Berlinə, Vaşinqtona, Vyanaya, Romaya, Madridə, Tokioya, Stokholma, Moskvaya və s. xəbər verildi.

Yeni təşkil edilmiş Zaqafqaziya respublikaları öz dövlət quruluşlarını qorumaq üçün birinci növbədə hərbi qüvvələrə möhtac idilər. Məlumdur ki, qoşunsuz heç bir dövlət yaşaya bilməz. Bu məqsədlə özlərinə güclü dövlətlərdən havadar axtarmağa başladılar. 1918-ci il iyunun 4-də çağırılmış Batum konfransında Zaqafqaziya respublikaları, o cümlədən Azərbaycan Cümhuriyyəti ilə Türkiyə arasında müqavilə bağlandı. Azərbaycan Türkiyənin simasında özünə arxa tapdı. Özünun hərbi qüvvələrinə malik olan Gürcustan da almanların himayəsinə sığındı. Ermənistanın isə Cahan müharibəsində vuruşmuş daşnak qoşunları cəbhədən qayıdandan sonra Ermənistan milli dövləti Zaqafqaziyada özünü daha sərbəst hiss edirdi.

Azərbaycan Milli Şurası və höküməti 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçdü. Türkiyənin Azərbaycan Cümhuriyyəti ilə bağladığı müqavilə Türkiyənin özü üçün də çox sərfəli idi: Çünki belə bir müqavilə Türkiyəyə Azərbaycana qoşun yeritməyə imkan verirdi. Sülh müqaviləsinin 4-cü bəndinə əsasən Türkiyə Azərbaycanın təhlükəsizliyini qorumaqda, Qarabağda fəaliyyət göstərən erməni quldur dəstələrinin hücumundan qorunmaqda və Bakı şəhərinin cümhuriyyətə qaytarılmasına kömək etməli idi.

Zaqafqaziya respublikaları ilə hələ sülh bağlanmamışdan əvvəl Ənvər paşanın qardaşı Nuru paşa may ayında Gəncəyə gəlib yerləşmişdi. Burada Türkiyənin 5-ci piyada divizionu əsasında İslam ordusu yaratmaq niyyətində idi. Buraya general Şıxlinskinin komandanliq etdiyi müsəlman milli korpusu, "Dikaya diviziya"nın pərən-pərən düşmüş hissələri və habelə yerlilərdən düzəldilmiş dəstələr daxil ediləcəkdi. Beləliklə Nuru paşanın komandası altında 18 min nəfərdən ibarət Qafqaz İslam ordusu yaranmışdı ki, bunun ancaq üçdə bir hissəsini türklər təşkil edirdi. Qalanları isə heç bir təlim görməmiş dəstələr idi. Bununla da İstanbul höküməti Brest-Litva müqaviləsində türklərin Bakıya hücum

etməyəcəkləri barədə maddənin pozulacağını pərdələmək məqsədi daşıyırdı. Mərkəzi Sovet hökümət alman-türk hücumunun qarşısını almaq üçün əlindən gələni edirdi. O Almaniyadakı səfiri İoffe vasitəsilə almanlardan tələb edirdi ki, Brest sülh müqaviləsinə riayət etsinlər və türklərin Bakı üzərinə olan hücumunun qarşısını alsınlar. Alman diplomatları türklərin Azərbaycandakı səfirliyinə göstəriş vermişdi ki, türkləri Bakı üzərinə hücumdan çəkindirsin. Lakin həqiqətdə belə deyildi. Almanlar türklərin Azərbaycandakı işğalçılıq hərəkətlərini müdafiə edirdilər. Sonrakı danışıqlarda Almaniya hökümət bildirir ki, kifayət qədər Bakı nefti aldığı təqdirdə Türkiyəni Bakı üzərinə hücumdan əl çəkməyə məcbur edə bilər. Nuru paşa Gəncəyə varid olandan ölkənin daxili işlərinə də qarışırdı. Əvvəla müqavilədə Azərbaycan müstəqil bir dövlət kimi tanınmırdı. Türklər Azərbaycana Şərqi Zaqafqaziyada yaradılacaq Turan imperiyasının (buraya Şimali Qafqaz, İranın şimal hissəsi. Türküstan da daxil olmalı idi) bir hissəsi kimi baxırdılar. Ənvər paşa Zaqafqaziyada panturanizm siyasətini Azərbaycan və Dağıstan qüvvələri vasitəsilə həyata keçirmək fikrində idi. O, Azərbaycan Milli Şurasına laqeyd münasibət bəsləyirdi. Fətəli xan Xoyskinin kabinəsinə də şübhə ilə yanaşmağa başlamışdı. Fətəli xan Xoyskinin kabinetində fəaliyyət göstərən nazirlər onun ürəyincə deyildi, Milli Şura bu barədə öz etirazını bildirdikdə Nuru paşa onları türk ordusu ilə Gəncəyə məsləhətçi kimi gəlmiş Əhməd bəy Ağayevin üstünə göndərir. Əhməd bəy nümayəndə heyətinə bildirdi ki, kabinetin xalq içərisində hörməti yoxdur və ola bilər ki, bu, xalqın qiyamı ilə nəticələnsin və o zaman türklər kabineti müdafiə edə bilməyəcəklər. Ağayev onlara təklif edir ki, kabinet təzədən təşkil edilsin və Milli Şura da buraxılsın, Milli Şura və hökümət üzvləri bundan narazı qalsalar da bu təkliflə razılaşmalı oldular. 1918-ci ilin 17 iyununda Milli Şura və Azərbaycan Demokratik Cümhuriyyətinin hökümət buraxıldı. Bu vəziyyətlə razılaşmağı lazım bilən M.Ə.RƏSULZADƏ Milli Şuranın iclasında demişdi: "Bu gün biz prinsipimizə sadiq qalaraq, yaranmış şəraiti nəzərə almalıyıq. Bəlkə bu gün bizim qəbul edəcəyimiz qərar bizim bədbəxt-liyimiz olacaq; lakin yaranmış vəziyyətdən çıxmaq yeganə bu qərardan asılı olsa da, biz onu qəbul etməliyik". Fətəli xan Xoyski yeni ikinci kabinetin tərkibini elan edir. Bu kabinetdə köhnə hökümət üzvlərindən cəmi altı nəfəri qalır. Milli Şura da öz səlahiyyətini təzə kabinetə verir. Türklər yaranmış sabitliyin pozulmasından ehtiyat edərək, M. Ə. Rəsulzadəni başda olmaqla sülh heyəti tərkibində İstanbula dəvət edirlər. Heyət uzun müddət orada qalır. Bu yolla onlar Azərbaycandan uzaqlaşdırılmışdılar. Avqustun 27-də Sovet hökümət ilə Almaniya arasında Brest-Litva müqaviləsinə əlavə olaraq saziş imzalandı. Müqavilənin 4-cü bəndinə aşağıdakı da əlavə olunmuşdu: Almaniya Şamaxı və Bakı qəzalarının sərhədini poza biləcək hər hansı üçüncü bir dövlətə mane olmaq üçün tədbirlər görəcəkdir.

M.Ə.Rəsulzadə İstanbulda olduğu zaman Rusiyanın Azərbaycanın təbii paytaxtı və onun siyasi, mədəni və iqtisadi mərkəzi olan Bakının üzərində Rusiyanın suverinetini etiraf edən Almaniyaya qarşı Türkiyə hökümətinə nota vermiş və surətini də bitərəf və mərkəzi hökumətlərin səfarətxanalarına göndərmişdi. Notada deyilirdi ki, Almaniya ilə Rusiya arasında bağlanmış əlavə müqaviləyə görə Bakı şəhəri Sovet hökümətinin ixtiyarında saxlanılır. M.Ə.Rəsulzadə buna etiraz edərək, Azərbaycan hökümətinin Bakı şəhərinə tarixi bir haqqı olduğunu isbat etmək üçün şəhərin tarixi haqqında müfəssəl məlumat verir və bu tarixi hüququ coğrafi, iqtisadi və milli təsəvvürat əsasları ilə isbat etməyə çalışır.

Notanın axırında ümidvarlıqla bəyan edilirdi ki, Almaniya dövləti Azərbaycan höküməti və millətinin Bakı şəhərinə malik olmaları hüququnu ciddi surətdə nəzərə alar.

Yuxarıda deyildiyi kimi fevral inqilabından sonra ölkədə iki hakimiyyətlik yaradıldığı zaman Bakı və onun quberniyası Bakı Xalq Komissarları Sovetinin ixtiyarında, Gəncə və Gəncə quberniyasının qəzaları isə Azərbaycan Demokratik Cümhuriyyətinin əlində idi.

Bakı Soveti Gəncədə demokratik cümhuriyyətin yaradılmasından qorxuya düşdüyü üçün ona qarşı hərbi hazırlıq görürdü. 1918-ci il iyunun 10-da Bakı Soveti qoşunları, onların tərkibinə daxil edilmiş daşnak milli hissələri ilə birlikdə Gəncə istiqamətində hücuma keçib, iyunun 12-də, Kürdəmiri tuturlar. Belə bir şəraitdə Tiflisdən Gəncəyə köçmüş Azərbaycan Respublikası höküməti iyunun 19-da Azərbaycanda hərbi vəziyyət elan edir. Bakıda yaşayan müsavatçılar da Qafqaz cəbhəsində türk ordusunun uğurlu döyüşlərindən və qələbələrindən ruhlanaraq, pərən-pərən düşmüş "Dikaya diviziya" hissələrini bərpa etməyə və onun sıralarını gücləndirməyə başladılar. Daşnaklar da ingilis imperializminin Sovet hakimiyyətinə qarşı çıxış etmək üçün kifayət qədər qüvvəyə malik olmadıqlarını hiss edərək özlərini bitərəf kimi göstərməyə çalışırdılar. Əslində isə vəziyyət dəyişdikdə, müsavatçıların və ümumiyyətlə müsəlmanlar üzərinə qalxmağa fürsət gözləyirdilər. Lənkəran və Muğanda müsavatçılar artıq bolşeviklərə qarşı döyüşə başlamışdılar. Lənkəran qəzasında onlar şəhər qarnizonu rəisi Osten-Sakenlə əlbir olaraq, höküməti tərksilah etmiş və hakimiyyət "Dikaya diviziya"nın yerli qərargahının əlinə keçmişdi. Martın 14-də onlar üç türk zabitinin başçılığı ilə inqilabçı saldatlara hücum edərək, çoxlu hərbi sursat ələ keçirmişdilər.

1918-ci il martın 14-də Bakı Komissarları Sovetinin qoşunları daşnak Əmirovun komandası altında Şamaxıya göndərildi. Müsavat nümayəndələri bu qoşunun Şamaxıya nə məqsədlə göndərildiyini soruşduqda, onlara bildirdilər ki, qoşun qəzada olan iğtişaşı yatırmaq məqsədilə getmişdir. Lakin əslində Əmirovun qoşunları Şamaxıya gedən yol boyu kəndləri dağıtmış, onlarla adamı qətlə

yetirmişdilər. Şaumyanın sovet qoşunları adlandırdığı daşnak hissələrinin əsl niyyəti belə idi. Onlar imkan düşən kimi nəinki gizlində, hətta açıq-açığına azərbaycanlıları qətlə yetirirdilər. Bütün bu hadisələr Bakıda erməni-müsəlman qırğının başlanması üçün gərgin şərait yaratmışdı. Partlayış üçün təkcə bir bəhanə lazım idi.

Bu bəhanə də martın 29-da tapıldı. Lənkəranda olan "Dikaya diviziya"nın bir qrup zabiti H.Z.Tağıyevin Lənkəranda ölmüş oğlunun meyitini "Evelina" gəmisində Bakıya gətirmişdilər. Bakı milyonçusu Ş.Əsədullayevin oğlu Ə.Əsədullayevin başçılığı altında olan bu zabitlər geri dönərkən özləri ilə Lənkərandakı "Dikaya diviziya"nın hissəsi üçün yeni qüvvələr aparırdılar. Bakı Soveti bundan xəbər tutduqda gəminin yola düşməsinə icazə vermir. Qızıl qvardiya hissələri ilə gəmidəki zabitlər və əsgərlər arasında atışma başlayır. Qızıl qvardiya hissələri üstün olduqlarından gəmidəkiləri tamamilə tərksilah edirlər.

Martın 30-da səhər tezdən "Dikaya diviziya" əsgərlərinin tərksilah edilməsinə etiraz olaraq, şəhərdə mitinqlər düzəldildi. Günortaya yaxın müsavatçıların nümayəndə heyəti Bakı Sovetinin İcraiyyə Komitəsinə gələrək, silahların qaytarılmasını tələb etdilər, hərbi inqilab komitəsinin təcili iclası çağırıldı. Bu iclasda Şaumyan və habelə Müsavat partiyasının lideri də iştirak edirdi. Silahların geri qaytarılması qərara alındı. Lakin iclas zamanı xəbər çatdı ki, Tatar küçəsində və Şamaxı yolunda ermənilərlə müsavatçılar arasında vuruşma gedir. Belə döyüşlər sonra Bazar küçəsində də başladı. Axşama yaxın şəhərin bir sıra küçələrində səngərlər qazıldı və atışmalar qızışdı. Şamaxıda Lalayevin başçılığı altında erməni qoşunlarının törətdiyi vəhşiliklərin xəbəri Bakıya çatanda bütün şəhər əhli ayağa qalxdı.

Beləliklə Bakıda vətəndaş müharibəsi başladı. Lakin ilk günlərdən erməni milli qoşunlarının işə qarışması nəticəsində vətəndaş müharibəsi erməni-müsəlman qırğınına çevrildi. Ermənilər şəhərin Sisianov və Kolyabakin küçələrinin tinindəki "Mars" kinoteatrının damında pulemyot quraraq, şəhər əhlini atəşə tutdular. Vuruşmalar Bazar küçəsi ilə davam edərək, qala divarlarına yaxınlaşırdı. O gün axşam ermənilərin nümayəndəsi Müsəlman Milli Şurasının binasına gələrək bildirdi ki, erməni Milli sovetinin nümayəndələri "Metropol" mehmanxanasına toplaşaraq, sülh danışıqları aparmaq üçün müsəlman nümayəndələrini gözləyirlər. Gecə saat 1-də müsəlmanların Əlimərdan bəy Topçubaşov, Əbdüləli bəy Əmircanov, Ağahüseyn Tağıyev, Səməd bəy İsgəndərov və başqalarından ibarət səkkiz nəfərlik nümayəndə heyəti mehmanxanaya yola düşür. Lakin nümayəndə heyəti mehmanxanaya çatmamış xəyanətcəsinə atəşə tutulurlar. Nümayəndələr geri qayıtmağa məcbur olurlar.

Ermənilərin fitnəkarlığına baxmayaraq, azərbaycanlılar qırğının qarşısını almaq üçün öz üzərlərinə düşən vəzifəni yenə layiqincə yerinə yetirirdilər.

Məsələn, erməni tərəfi xəbər göndərir ki, biz erməni məhəllələrində yaşayan azərbaycanlılara toxunmuruq, siz də müsəlman məhəllələrində yaşayan ermənilərə toxunmayın. Azərbaycan Milli Şurası xüsusi adamlar vasitəsilə azərbaycanlıları xəbərdar edirlər ki, öz məhəllələrində yaşayan ermənilərə toxunmasınlar. Ancaq belə danışıqlar müzakirə edilərkən azərbaycanlılar xəbər tuturlar ki, Ermənikənd və Qanlıtəpə tərəfdə ermənilər yenə də müsəlmanlara hücum edib, ev-eşiklərini dağıdır, özlərini də qətlə yetirirlər. Onlar erməni kəndində xəndəklər qazır və zirehli maşınları Müsavat partiyasının birinci şöbəsinin qapısı ağzında duraraq, içəridən çıxanları qətlə yetirirlər. Şəhərin şimalında yaşayan azərbaycanlıları böyükdən kiçiyə Azadlıq meydanındakı sirkin binasına toplayıb, taxta binaya od vurmağa hazırlaşırdılar. Erməni-müsəlman qırğınının qarşısını almaq məqsədilə Sovetlər tərəfindən təşkil olunmuş İnqilabi Müdafiə Komitəsinin hərbi nümayəndələri bundan xəbər tutduqda onların köməyinə çatır. Bazar küçəsində də ermənilər hücuma keçmişdilər. Onlar küçə boyu vuruşa-vuruşa İçərişəhərə tərəf irəliləyirdilər. Bu dəstələrin içərisində qızıl qvardiya dəstələri də müsəlmanları qoşa qala qapısına tərəf sıxışdırmışdılar. Burada qızğın atışma gedirdi. "Dikaya diviziya"nın qərargahı bu zaman "İsmailiyyə" binasında yerləşirdi. Bəlkə də məhz buna görə bu ətrafda atışmalara Mikoyan və Əzizbəyov rəhbərlik edirdilər. Tüfənglərdən və pulemyotlardan "İsmailiyyənin binası müttəsil atəşə tutulurdu. Qoşa qala qapısından İçərişəhərə soxulmağa cəhd edən qoşun hissələri müsavatçılar tərəfindən ciddi müqavimətə rast gəlirdi. Müsavatçılar Nikolay kilsəsinin qapılarını çıxarıb, onlardan sipər kimi istifadə edərək qala darvazalarının ağzında müdafiə xətti düzəltmişdilər. Məmmədyarovun adamları nə qədər cəhd edirdilərsə, içəri keçə bilmirdilər. Lakin "İsmailiyyə" binasındakı "Dikaya diviziya" qərargahının adamları çox az idi. Onlar güclü düşmən qarşısında davam gətirə bilməyib, geri çəkilir və İçərişəhərdə gizlənirdilər. Bundan istifadə edən düşmən "İsmailiyyə" binasını yandırır.

Erməni-müsəlman qırğınının şahidi olmuş yazıçı Seyid Hüseyn yazırdı ki, "Mart hadisələrində orada ("İsmailliyyə"də - Q. İ.) yerləşən təşkilatlar binanı tərk etmişdilər. Orada habelə Müsavatın telefonu işləyirdi. "İsmailiyyə"ni ən axırıncı müsavatçılar tərk etmişdilər".

Erməni hissələrinin vətəndaş müharibəsi pərdəsi arxasında əsl erməni-müsəlman qırğını keçirdiklərini Şaumyan gözəl başa düşsə də susurdu. Ona müsavatçılar üzərində qələbə lazımdı. Krasnovodskdan Sovetlər üçün göndərilən silahlar, hərbi sursat əslində daşnakların sərəncamına keçirdi. Bu silahların çox hissəsi Mantaşovun zavodunda və Parapet yanındakı erməni kilsəsinin zirzəmisində gizlədilirdi.

Martın 19-da daşnaklar Suraxana, Əmirhacıyan və Bülbülədə zirehli avtomobillərin köməyi ilə əhalinin qanını axıtdı.

Yaradılmış İnqilabi Müdafiə Komitəsinin tərkibinə Şaumyanla ya-naşı "Daşnaksütyun" partiyasının Bakı təşkilatının lideri S.Məlik-Yolçuyan, Bakıda sağ eserlərin lideri S.Saakyan da daxil idi. Şaumyan 13 aprel 1918-ci il tarixli bir məqaləsində mart hadisələrindən bəhs edərkən açıq-aydın yazırdı ki, "6 min sovet və 3-4 min daşnak milli hissələri Bakıda müsavatçıların təşkil etdikləri qiyamı yatırmışdır". Əslində Bakıda müsavatçıların heç bir qiyamı olmamışdı. Bu, Şaumyanın qızıl qvardiya dəstələrinin erməni hərbi hissələri ilə birlikdə törətdikləri fit-nəkarlığa qarşı azərbaycanlıların cavab çıxışları idi. 1918-ci ildə Bakı Xalq Komissarları Sovetində ədliyyə naziri işləmiş Artaşes Karinyan sonralar "Bakı kommunası" və "Daşnaksütyun" partiyası adlı məqaləsində yazırdı: "Bakı Sovet ordusu milli hissələrinin komanda heyəti inqilabın qarşısında duran vəzifələrə və kommunist partiyasına yabançı idi. Daşnak Avetisova, Hamazaspa, Bek-Zurabova orduya komandanlıq etmək həvalə olunmuşdu".

Beləliklə 1918-ci il mart hadisələrində müsavatçılar məğlub edildi. Sovet komandanlığı onları şəhərdən çıxmağa məcbur etdilər. Müsavat qüvvələri Gəncəyə toplaşdılar.

1918-ci ilin aprel ayında Bakı Xalq Komissarları Soveti yaradıldı. Bakı şəhəri və onun ətrafı, Bakı qəzası onun ixtiyarına keçdi. Bakı Xalq Komissarları Sovetində cəmi üç nəfər azərbaycanlı vardı. Qalanları, demək olar ki, əksəriyyəti ermənilər və ruslardan ibarət idi.

Xalq Komissarları Soveti bir sıra sosialist tədbirləri həyata keçirdi. Banklar, Xəzər ticarət gəmiçiliyi, balıq vətəgələri milliləşdirildi. Rusiyaya müntəzəm olaraq, neft daşınmağa başlandı. Torpağın kəndlilərə verilməsi barədə qərar çıxdısa da yerinə yetirilmədi.

Türklərin Bakı üzərinə hücumu ilə ölkədə vəziyyət getdikcə ağırlaşırdı. Lenin Petrovun komandası altında Bakı komissarlarına 8.720 nəfərdən ibarət qoşun göndərdi. Bununla da türklərin hücumunun qarşısını almaq mümkün olmadı. İranda olan keçmiş çar polkovniki Biçeraxov ingilislərin təhriki ilə Şaumyana öz xidmətini təklif etdisə də, Şaumyan onun niyyətini başa düşmədən (bəlkə də düşərəkdən) razılıq verib. Biçeraxovun min beş yüzdən ibarət olan qoşununu türklərlə müharibə cəbhəsinə göndərdi.

Türklərin güclü təzyiqi altında kommunanın qoşunları geri çəkilirdi. Şəhərdə aclıq başlamışdı. Ərzaq çatışmazlığı əhalini qəzəbləndirdi. Qoşunda, xüsusilə erməni daşnaklarının komandası altında olan əsgərlər arasında fərahlik artırdı. Menşevik, eser və daşnaklar şəhər və kəndlərdə yaradılmış bu dözülməz vəziyyətin günahını bolşeviklərin üzərinə yıxaraq, vəziyyəti yaxşılaşdırmaq üçün ingilislərin Bakıya çağırılmasını tələb edirdilər. Bir azdan Biçeraxov öz qoşunları ilə cəbhəni özbaşına tərk edərək, Petrovska tərəf çəkildi. Cəbhədə vəziyyət daha da ağırlaşdı. Aclıqdan və pozuntulardan cana doymuş əhali artıq hökümətə inamını

tamamilə itirmişdi. Onlar çörək və cəbhə arxasında qayda-qanun tələb edirdilər. Belə vəziyyətdən istifadə edən menşevik, daşnak və eserlər ingilislərin Bakıya çağırılmalan barədə qəti qərara gəldilər.

Türk qoşunları 7 iyulda üç günlük döyüşlərdən sonra Kürdəmiri aldılar. 20 iyulda türklər Ağsu-Şamaxı şose yolu boyu hücuma keçərək, Şamaxını cənubdan, Mədrəsə tərəfdən ötüb keçərək, Şamaxı-Bakı yolunu kəsdilər. Üçüncü briqadanın komandiri daşnak Amazasp vəziyyətin ağırlığını görüb qoşuna əmr edir ki, Şamaxıdan geri çəkilsinlər. Cəbhənin Şamaxı hissəsindəki bu geri çəkilmə mərkəzi hissədə gedən döyüşlərə də təsir etdi. Onlar Hacıqabulu boşaldıb, Biləcəriyə tərəf çəkildilər.

Cəbhədə böhranlı vəziyyət yaranmışdı. Türklər artıq Bakının qapısını döyməyə başlamışdılar. Şəhərdə aclıqla bərabər həyəcan və təşviş də artmışdı. 1918-ci ilin 16 iyulunda Bakı Sovetinin fövqəladə geniş iclasında ingilislərin Bakıya çağırılması müzakirəyə qoyuldu. Bolşeviklərin qəti müqavimətinə baxmayaraq, azca səs çoxluğu ilə (236-ya qarşı 259 səslə) ingilislərin Bakıya çağırılması barədə qərarqəbul edildi. Hakimiyyətin koalision, hökümətə təhvil verilməsi qərara alındı. Bolşeviklər təzə hökümət tərkibinə daxil olmaqdan imtina etdilər. Avqustun 1-də eser, menşevik və daşnaklardan ibarət Sentrokaspi diktaturası yaradıldı.

Cəbhədən geri çəkilən sovet qoşunları sahildə, Pyotr meydanına toplaşaraq, Həştərxana getməyə hazırlaşırdılar. Sentrokaspi diktaturası ingilisləri Bakıya çağırmaq üçün Ənzəliyə nümayəndə heyəti göndərdilər. Menşevik və eserlər camaatı inandırmağa çalışırdılar ki, guya ingilislər özləri ilə taxıl və ərzaq da gətirəcəklər. 1918-ci ilin 4 avqustunda polkovnik Stoksun komandanlığı altında ilk ingilis qoşunları Bakıya daxil oldular. Qoşun cəmi min beş yüz saldat və zabitdən ibarət idi. Onlardan taxıl gözləyən əhali əsgərlərin qucağındakı bir neçə meymunu gördükdə Sentrokaspi höküməti tərəfindən aldandıqlarını başa düşdülər. Əvvəla bu qoşunla türklərin qabağında durmaq və şəhəri onlardan qorumaq heç cür mümkün deyildi. Buna görə türklərlə vuruşmaq üçün Sentrokaspinin qoşunlarından istifadə etməyə başladılar.

Döyüşlər isə davam edirdi. Avqustun 1-də Çəmbərəkənd cəbhəsində vəziyyət çox ağırlaşdı. Bakı zəhmətkeşlərinə məlum oldu ki, ingilislər türklərin qarşısını ala bilməyəcəklər.

Sentrokaspi rəhbərləri başlarını itirmişdilər. Birtərəfdən ingilislərin Bakıya gəlməsilə vəziyyətin daha da ağırlaşması, o biri tərəfdən türklərin tezliklə Bakını ala biləcəkləri hökümət dairələrində vahimə yaratmışdı.

Avqustun 17-də general Denstervil də öz qərargahı ilə Bakıya gəldi. İngilislər birinci növbədə Xəzər ticarət donanmasının bəzi gəmilərini ələ keçirdilər və Bakıdan neft daşımağa başladılar. 1918-ci ilin avqustunda Ənzəliyə 40 min ton

benzin yola salan ingilis komandanlığı Sentrokaspi hökümətini məcbur etdi ki, onlara hər ay 80 min pud benzin versinlər.

Sovet hakimiyyəti başçıları avqustun 14-də gecə 16 gəmiyə oturaraq, Həştərxana yola düşdülər. Lakin dənizdə bərk fırtına qopduğu üçün Jiloy adasının yanında lövbər salıb, gözləməli oldular. Bu zaman Sentrokaspinin hərbi gəmiləri onları haqladılar. Xəzər donanmasının bütün hərbi gəmiləri - "Kars", "Ərdəhan", "Göy qapı", "Astrabad" Sentrokaspi hökümətinin əlinə keçmişdi. Bakıya qayıtmaq barədə bolşeviklərə ultimatum verildi. Lakin bolşeviklər onların ultimatumunu rədd etdilər. Belə olduqda hərb gəmiləri onların gəmilərini atəşə tutdular. Gəmilərdə yaralanan və ölən də oldu. Nəhayət, gəmilərin batırılacağı ehtimalı bolşevikləri geri qayıtmağa məcbur etdi. Sentrokaspinin silahlı dəstələri ilə əhatə edilmiş körpüdə onlar tərksilah edildilər və 35 nəfər komissar və məsul işçilər həbs edilərək həbsxanaya salındı. S.Şaumyan, M.Əzizbəyov, A. Çaparidze, İ.Fioletov da onların içərisində idilər. 3 min nəfərdən ibarət olan kommunist və əsgərlər tərksilah edildikdən sonra Həştərxana göndərildi.

Bakıda vəziyyət son dərəcə gərginləşmişdi. 1918-ci ilin avqust ayının axırında türklər demək olar ki, Bakını hər tərəfdən mühasirəyə almışdılar. Cəbhə xətti Bibiheybətin qərbində dəniz sahilindən başlayaraq, şimal tərəfə, Badamdarın qərbi ilə "Qurd darvazası" yüksəkliyi ilə Biləcəri stansiyasınadək uzanırdı. Biləcəri stansiyasının şimalında Böyük Şorda cəbhə xətti qırılır, sonra Binəqədi, Digah, Məhəmmədli kəndləri ilə Maştağayadək uzanır və dəniz sahilində bitirdi. Sentyabrın əvvəlində türklər hücumu qüvvətləndirdilər və Binəqədi kəndini aldılar. Sonra bu istiqamətlə Balaxana və Zabrat üzərinə yürüdülər. Çəmbərəkənd tərəfdən isə şəhəri aramsız top atəşinə tuturdular.

Bakını qorumağın mümkün olmadığını görən Denstervil sentyabrın 14-də gecə ikən öz qoşunu ilə birlikdə Bakını tərk edərək Ənzəliyə yola düşdü. İngilislərdən sonra Sentrokaspi diktaturasının üzvləri də qaçdılar. Bu zaman həbsxanada olan Bakı komissarlarını azad etmək üçün bolşeviklərdən bir dəstə həbsxanaya gedib, uzun danışıqlardan sonra komissarları azad etdilər və onları "Türkmən" gəmisi ilə Həştərxana yola saldılar. Dənizin ortasında gəmidəki eser və daşnakların təkidi ilə gəmi istiqamətini dəyişib, o zaman ağqvardiyaçıların əlində olan Krasnovodska istiqamət aldı. Krasnovodskda komissarlar həbs edildi və 1918-ci ilin 20 sentyabrında Krasnovodskdan 207 verst aralıda olan Ağcaqum çölündə güllələndilər.

Türklərin Bakıya yaxınlaşması günlərində dəniz körpülərində qaçmaq istəyən daşnakların, onların ailələrinin əlindən tərpənmək mümkün deyildi. Bu qələbəlikdə ancaq güclülər və pullular gəmiyə minib, özlərini rahlaya bilirdilər. Biletlərin qiyməti birə on qat artmışdı. Eyni zamanda Bayıl tərəfdən atılan toplar

camaatın içərisində daha dəhşətli vahimə yaradırdı. Erməni ailələri köç-külfətlə qaçırdılar.

Şəhərin belə həyəcanlı, vahiməli və qarmaqarışıq günlərində türklər şəhərə daxil oldular. Bu, sentyabrın 15-də olmuşdu. Sonra Qafqaz İslam ordusu bütün Qafqazın zəbti barədə geniş planına sadiq qalaraq, Dağıstana girib, Dərbənd və Petrovsk şəhərlərini də tutdular.

Bu zaman bəzi dələduzlar aranın qarışmasından istifadə edərək, şəhərdə qarət və oğurluğa qurşandılar. Ancaq türk inzibati orqanları tərəfindən amansızcasına cəzalandılar.

Şəhərin Parapet bağında dara çəkildilər. Belə dar ağacları şəhərin bir neçə yerində də qurulmuşdu. Dara çəkilmiş adamların günahları yazılıb, sinələrindən asılmışdı. Onların içərisində türk əsgərlərindən də vardı.

Türklər Bakıya daxil olandan sonra Azərbaycan Demokratik Respublikası hököməti Bakıya köçdü və Bakı yeni yaradılmış Demokratik Respublikanın paytaxtı oldu. Bütün Şimali Azərbaycan torpaqları onun sərəncamına keçdi.

Bu aylarda İranın bəzi qəzetləri Azərbaycan Demokratik Respublikası ətrafında mübahisə açaraq, bildirirdilər ki, Azərbaycanda yaranan yeni hökümət Azərbaycan adını özünə mənimsəməklə səhv etmişdir. Guya əslində Şimali Azərbaycan əsl Azərbaycan deyildir. Bu xüsusda M.Ə.Rəsulzadə "Azərbaycan və İran" adlı məqaləsində yazırdı: "Tehran qəzetləri yeni doğmuş İslam hökümətinin adından dilgir olduqlarını qeyd edirlər və iki qardaş millətin arasında soyuqluq düşməməsi üçün "Azərbaycan" adının dəyişməsini təklif edirlər. İran qəzetləhnin fikrincə bizim Qafqaziyanın bir qismindən ibarət olan məmləkətimizə Azərbaycan ismi verməyə ixtiyarımız yoxdur". M.Ə.Rəsulzadə bu fikri əfsanə hesab edir və qətiyyətlə bildirir ki, Azərbaycan yalnız onun İran tərəfdə qalan hissəsi deyil, habelə şimalda, rus tərəfdə qalan hissəsi də tam ixtiyaratla Azərbaycan adlanır.

Türklər Bakını almaqla məşğul ikən Andronik Qarabağı mühasirəyə alıb, azərbaycanlıları qətlə yetirirdi. Türklər şəhərə daxil olduqları günün ertəsi türk qoşunlarının bir hissəsi Qarabağın köməyinə çatıb, onu mühasirədən xilas etdilər.

1918-ci il oktyabrın 6-da respublikanın hökümət kabinetində dəyişiklik edilir. Fətəli xan Xoyski hökümətin yeni heyətini elan edir.

Yeni hökümət ölkənin ictimai-siyasi həyatında, mədəniyyət və təsərrüfat sahəsində bir sıra ciddi demokratik tədbirlər görməyə başladı. Bu tədbirlərdən biri də oktyabrın 8-də hökümətin çıxardığı qərar idi. Bu qərarda deyilirdi ki, milliləşdirilmiş əmlak və hər cür istehsalat növləri sahiblərinə qaytarılsın. Məmləkətin parlamentini çağırmaq məsələsi meydana çıxır. Lakin əsl parlament seçkiləri üçün vaxt müsaid etmədiyindən hökümət və Milli Şura belə qərara gəlir ki, hələlik sabiq Zaqafqaziya Seyminin 44 nəfərdən ibarət müsəlman fraksiyasının üzvləri və kənardan 80 nəfər çağırılıb, parlament təşkil olunsun.

1918-ci ildə sultan Türkiyəsi ağır bir vəziyyətə düşmüşdü. Ölkə ingilis-fransız orduları tərəfindən sıxışdırılırdı. Həmin ilin sentyabr ayında Makedoniya cəbhəsində və Fələstində də türk qoşunları böyük məğlubiyyətə uğradılar. Türkiyə təslim oldu. Ənvər paşa hakimiyyətdən uzaqlaşdırıldı. Yeni hökümət 1918-ci il 30 oktyabrda Mudros limanında Antanta dövlətləri ilə barışıq sazişi bağladı. Bu sazişə görə türklər işğal etdiyi ölkələrdən, birinci növbədə Zaqafqaziya və Dağıstandan çəkilməlidirlər. Mudros sazişinin 14-cü maddəsinə əsasən türklər bütün Azərbaycanı və Bakı şəhərini ingilislərə təhvil verməli idilər. Beləliklə 17 noyabrda türk qoşunları Azərbaycanı tərk etdi.

Türklərdən sonra yeni Azərbaycan Respublikası bir növ yetim qaldı. Onun düşmənləri, birinci növbədə, daşnaklar ayaq tutdular. Xüsusilə Qarabağda Andronik yenə də qanlı cinayətlərini davam etdirməyə başladı. Müsavat höküməti yaranan vəziyyəti nəzərə alaraq, türk zabitlərindən bəzilərini və o cümlədən Nuru paşanı Azərbaycanda saxladılar. Hökümət yeni yaranan qoşunun hazırlanması və təlimi üçün onlardan istifadə etmək fikrində idi. Tomsonla danışıqlar keçirmək üçün hökümətin tezliklə Ə. Ağayev, Ə. Topçubaşov, N. Yusifbəyli və M. Rəfiyevdən ibarət Ənzəliyə nümayəndə heyəti göndərildi.

Tomsonla Azərbaycan höküməti arasında gedən danışıqlar, azərbaycanlıların böyük təəssüfünə səbəb oldu. Tomson açıq bildirmişdi ki, o Azərbaycanı hələ müstəqil dövlət kimi tanımır. Çünki bu dövlət guya türklərin səyi nəticəsində yaranmışdır. Guya o xalqın iradəsini təmsil edə bilməz.

1918-ci il 17 noyabrda Denstervili əvəz edən general Tomsonun komandası altında ingilis qoşunları Bakıya daxil oldu. Onlar eyni zamanda Gəncə, Şuşa və Naxçıvanda da öz nümayəndəliklərini yerləşdirdilər. General Tomson özünü Bakının hərbi qubernatoru elan etdi. İngilis polkovniki Kokkerel isə Bakı polisinin başçısı təyin edildi. Azərbaycan hökümətinin üç rəngli bayraqlarının çıxarılması əmr olundu. Tomson Azərbaycanın daxili işlərinə qarışmayacağı barədə Azərbaycan nümayəndə heyətinə verdiyi vədi Bakıya daxil olan kimi pozdu və ölkənin əsas sahələrini - neft sənayesi, banklar, nəqliyyat, Bakı-Batum neft kəməri, dəmir yolunu Müsavat höküməti ilə bağladığı müqavilə əsasında tam nəzarəti altına aldı. Xəzər nəqliyyatını idarə etmək üçün ingilis mayoru Braunun başçılığı ilə xüsusi Britaniya idarəsi yaradıldı. Neft sənayesi sahəsində də ingilis işğalçıları Britaniya neft nümayəndəliyini yaratdılar. Bu nümayəndəliyin köməyi ilə Bakı nefti İngiltərəyə daşınmağa başladı. Azərbaycanda hökmranlıq etdikləri müddət ərzində İngiltərəyə 30 milyon pud neft daşınmışdı. İngilis zabit və saldatları şəhərdə tam hökmranlıq edirdilər. Sərxoş halda faytonlara oturaraq, atları dördnala çapdırır, kinolarda, sirkdə qadınlara sataşır, adamları təhqir edirdilər. Şəhər məktəblərindən bir çoxu əsgər kazarmalarına çevrilmişdi. Fəhlələri və şəhər əhlini qorxutmaq üçün şəhərin Parapet bağında dar ağacları qurulmuşdu. Şəhərdə çap

olunan mətbuatı diqqətlə izləyirdilər. Buna baxmayaraq, hökümət onların bu biabırçı hərəkətlərinə dözürdü. Ancaq ona görə ki, ölkə üzərinə üçüncü bir qüvvə hücuma keçərsə ingilis komandanlığı onun arxasında dursun. Bununla belə ingilislər Bakı və onun ətrafından başqa Azərbaycanın bütün rayonlarının Azərbaycan dövləti tərəfindən idarə edilməsinə etiraz etməmişdilər. Ənzəlidə Tomsonun Azərbaycan nümayəndələrinə bəyanətində irəli sürdüyü bir çox məsələlərdə indi güzəştə gedirdi. Açıq bildirirdi ki, o Azərbaycan Respublikasını rəsmi dövlət kimi tanımasa da onunla daimi əlaqə saxlayacaqdır. Hətta xan Xoyski kabinətinə hörmət etdiyini də bildirərək demişdi: "Xan Xoyski höküməti həqiqətən fəaliyyətdə olan yeganə hakimiyyətdir". Qarabağ məsələsində də Tomson Azərbaycan dövlətinin tərəfində idi. Şəhərin işğalı ilə öz üzərinə götürdüyü bir çox inzibati tədbirlərdən də Azərbaycan hökümətinin xeyrinə olaraq imtina edirdi. Məsələn, Qarabağda erməni daşnaklarının, xüsusilə Andronikin yenə baş qaldırdığı barədə Azərbaycan hökümәti Tomsonla danışıq aparmışdı. Bununla əlaqədar Tomson Qafqazda Andronikə belə bir teleqram göndərmişdi: "Verilən məlumata görə ermənilər Qarabağda müsəlmanlara qarşı bəd hərəkətlər və zülmlər icra edirlər. Mən müttəfiq ordunun nümayəndəsi sifətilə məlum edirəm ki, ermənilərə söyləyərsiniz ki, öz yerlərində rahat oturub, nizamsızlıq eləməsinlər. Əgər mənim bu əmrimə əməl edilməyib, yenə nizamsızlıq görülsə, o zaman bütün məsuliyyət şəxsən Sizin üzərinizə düşəcəkdir". O Andronikə yalnız Qarabağdan deyil, Zəngəzurdan da çıxıb getməsini əmr etmişdi.

İngilislər Bakıya daxil olandan sonra öz təsərrüfatları yanında Denikinin nümayəndəliyini yaratmışdılar. Bununla da denikinçilərin şəhərdə əl-qol açmaları üçün şərait yaranmışdı. Dövlət idarələrinin çoxunda rus çinovnikləri içərisində Denikinin casusları fəaliyyət göstərirdi. Nümayəndəlik açıqdan-açığa Bakıda olan rus zabitləri içərisində səfərbərlik keçirərək, könüllü ordu üçün qüvvə toplayırdı. Şəhərin yuxarı məhəlləsində, Təzə Pirin ətrafında könüllü ordunun generalı Prejevalski orduya təzə alınmış saldat və zabitlərlə məşq keçirdi. Bu vəziyyətlə əlaqədar hökümət başçısı Fətəli xan Xoyski Tomsondan məktubla xahiş edirdi ki, onların şəhərdən çıxarılması barədə sərəncam versin. Tomson isə cavab məktubunda denikinçilərin bu fəaliyyətlərini ört-basdır edərək yazırdı: "Mənim xəbərim var ki, rus qoşunu Bakıda səfərbərlik keçirmir. Ola bilər ki, Denikin qoşununda xidmət etmək üçün zabitlərin siyahısını tərtib etmələri belə təsir bağışlayır. Onlarla heç bir məşq keçirilmir və tezliklə şəhəri tərk edəcəklər". Məktubunun axırında Azərbaycan hökümətini əmin edir ki, Azərbaycanın muxtariyyətinə toxunan olmayacaqdır.

Şəhərdə gizli və bəzən açıqdan-açığa Denikin lehinə təbliğat aparan denikinçilər müxtəlif şayiələr yayaraq, könüllü ordunu Azərbaycana basqın etməyə təhrik edirdilər. Şayiə yaymışdılar ki, türklər təzədən Bakıya hücum edəcəklər. Bu,

Denikinin Azərbaycana basqını üçün bir bəhanə idi. Onlar Denikin qoşunlarını eyni üsulla guya "Dağıstanda bolşeviklər var" deyə Dağıstan üzərinə sövq etmişdilər. O zaman Denikin Şimali Qafqaz sərhədini aşıb Dağıstan üzərinə yürüdüyü zaman ingilislər həyəcana düşmüş Azərbaycan dövlət başçılarını arxayın salaraq deyirdilər ki, Denikin heç zaman Bakıya toxunmayacaqdır. Lakin xalq onların sözünə inanmırdı. Şəhərdə, fəhlə rayonlarında keçirilən mitinqlərdə tələb edirdilər ki, Dağıstana kömək üçün Azərbaycanda səfərbərlik elan edilməlidir. Dağıstanın köməyinə çatmalıyıq. Mitinqlərin ardı-arası kəsilmirdi. Lakin hökümət ingilis komandanlığını narazı salmamaq məqsədilə dözürdü. Denikin Petrovskdan Azərbaycandakı nümayəndəliyinin başçısı Lazerevə və ingilis qoşunları komandanı polkovnik Şatelvorta yazırdı ki, "Azərbaycan hökuməti könüllü ordu hissələrinin Dağıstana yürüşündən təşvişə düşmüşdür. Halbuki general Dratsenko Petrovsk və Dərbəndin işğalı ilə kifayətlənib, irəli getməyəcəyi barədə təminat vermişdir.

Göründüyü kimi Denikin Azərbaycanla oyun oynayırdı. Lakin denikinçi qəzetlər Azərbaycan üzərinə hücumu qızışdırmaq üçün əllərindən gələni əsirgəmirdilər. Rus Milli komitəsinin orqanı olan "Yedinaya Rossiya" qəzeti yazırdı ki, Azərbaycan ya bolşevikləri qəbul etməlidir, ya da Denikini seçməlidir. Denikinçilər bolşeviklərdən daha məsləhətdir.

İngilislər Azərbaycan hökümətinə vəd verdikcə Denikin qoşunları daha da irəliləyirdilər. Məlum olurdu ki, ingilis komandanlığının Azərbaycanı himayə edəcəyi barədəki vədi də boş və məkrlidir. Bakı fəhlə və zəhmətkeşləri dövlətdən tələb edirdilər ki, Denikin əleyhinə ciddi tədbir görülsün. Yenə də şəhərdə mitinqlər başlamışdı. Bu mitinqlərdən birisində Bakı varlılarından dəyirmanlar kralı adlanan Ağabala Quliyev küçədə Denikin lehinə açıq-açığına təbliğat apardığı üçün izdiham tərəfindən döyülmüşdü, sonra da hökümət onu həbsə almışdı. Şəhərdəki Denikin fitnəkarlarının qarşısını almaq dövlət qarşısında vacib bir məsələ kimi dururdu. "Azərbaycan" qəzetinin 1919-cu il 11 iyun tarixli nömrəsində Üzeyir Hacıbəylinin çap etdirdiyi "İçərimizdəki denikinlər" adlı baş məqaləsində ölkədə təxribat aparan denikinçiləri amansızcasına ifşa etməyə çağırırdı. Belə bir vaxtda Azərbaycan Cümhuriyyətinin Dövlət Müdafiə Komitəsi 1919-cu il 11 iyun tarixində bütün Azərbaycanda hərbi vəziyyət elan etdi.

1919-cu il 6 iyul tarixində Lazerev Denikindən yeni bir teleqram alır. Teleqramda deyilirdi: "Hərgah Azərbaycan höküməti tərəfindən könüllü ordu əleyhinə düşmənanə hərəkət başlamazsa, Denikin Azərbaycana qarşı heç bir iqdamatda olmayacaq. Samur çayında müəyyən etdiyi sərhədi könüllü ordu keçməyəcəkdir. Azərbaycanı Rusiyanın ayrılmaz bir hissəsi hesab edərək, bu məsələ Ümumrusiya Məclisi Müəssisanında həll edilənədək Azərbaycanın istiqlalını təsdiq edir".

Teleqramdan göründüyü kimi, müəyyən edilmiş sərhəd bir az da uzadılıb, Samura çatdırılmışdı. O biri tərəfdən Denikin Azərbaycanı hələ də müstəqil, suveren dövlət kimi tanımaq istəmirdi. Çünki o Azərbaycana hələ də Rusiyanın ayrılmaz hissəsi kimi baxırdı. Teleqramda isə onun müstəqilliyinin müvəqqəti zaman üçün tanınması da onunla izah edilirdi ki, o gec-tez Azərbaycanın işğal edilməsini güman edirdi.

Ondan sonra Denikindən alınmış yeni bir teleqramda müəyyən edilmiş sərhəd artıq Azərbaycan sərhədində idi. Teleqramda deyilirdi: "Əgər Azərbaycan höküməti tərəfindən üstümüzə hücum olunmazsa öz tərəfimdən ordularımızın Zaqatala-Qafqaz dağları, Qızılburundan irəli getməyəcəyini təmin edirəm".

Bu barədə Nəsib bəy Yusifbəyli Şatelvortla görüşüb, xeyli söhbət etmişdi. Baş nazir sonra bu danışıqlardan aldığı təəssüratını parlamentə açıqlamışdı: "Əlbəttə, - demiş, - ingilislər öz sözlərinin üstündə həmişə durmurlar. Bizə çox vədlər verdilər. Bizə dedilər ki, Dağıstan təhlükədə deyildir. Dağıstana guya heç kim hücum etməyəcək. Guya Denikin Petrovskini ancaq bir baza olaraq tutacaq və Petrovskdən bu yana keçməyəcək". Sonra baş nazir onun Şatelvorta dediyi bu sözləri açıqlayır: "Mən ona dedim ki, siz bu vədlərlə bizə mane oldunuz. Sizin vədlər olmasaydı, biz Dağıstana kömək göndərərdik, bəlkə Şimali Qafqazda düşməni dəf edərdik. Nəticədə nə oldu? Denikin Şimali Qafqazı tutdu. Dünən onlar Dərbənddən irəli keçmək istəmirdilər, bu gün isə Qızılburuna soxulmaq istəyirlər. Əlbəttə bunlar bəhanədir. Məlumdur ki, Qızılburunun heç bir strateji əhəmiyyəti yoxdur. Onlar Bakının suyunu kəsmək istəyirdilər".

İngilislər Bakını tərk etdikdən sonra Denikinin generalı Baratov Azərbaycan hököməti ilə danışıqlar aparmaq üçün avqustun 24-də Bakıya gəlir. Yerli qəzetlər onun gəlişini narazılıqla qarşılayırlar. Hökümətdən tələb edirlər ki, generalın sözlərinə inanmasınlar. Denikin qoşunu birinci növbədə Qafqazı boşaltmalı və Azərbaycan dövlətini tanımalıdır.

Avqustun 27-də Baratov Azərbaycan parlamentinin iclasına gəlir. Çıxışında deyir ki, Denikinin Azərbaycan əleyhinə heç bir sui-qəsdi yoxdur və heç bir iqdamatda olmayacaq. Bu şərtlə ki, hökümət Azərbaycanda bolşeviklərin əl-qol açmalarına imkan verməsin.

Lakin Baratovla danışıqlar baş tutmur. Məlum olur ki, onun müqaviləni imzalamağa vəkaləti çatmır. Bundan başqa Azərbaycan tərəfi müqavilə imzalanan zaman respublikanın tanınması tələbini təkidlə irəli sürürdü. O da məlum olur ki, denikinçilər Azərbaycanı Rusiyadan ayrılmış bir dövlət kimi tanımaq istəmirlər. Açıq bildirildiyi kimi Azərbaycanın müstəqilliyini yalnız Rusiyada təşkil olunacaq ali hakimiyyət tərəfindən məsələ həll olunandan sonra tanıya bilər.

Denikin ordularının cənub cəbhəsindəki məğlubiyyətindən sonra Azərbaycan Respublikası üçün Denikin təhlükəsi aradan qalxır.

Rusiya Sovet hökümәti dә Azәrbaycan Demokratik Respublikası ilә müqavilә bağlamaq barәdә bir neçә dәfә tәşәbbüsdә olmuşdu. Lakin bu tәşәbbüslәr hәmişә nәticәsiz qalmış vә Çiçerinin notalarına rәdd cavabı verilmişdir. Çünki notalarda Denikin әleyhinә ittifaq bağlamaq barәdәki tәklif gәnc Azәrbaycan Respublikası üçün tәhlükәli idi. "Azәrbaycan" qәzeti özünün yanvar 1920-ci il tarixli nömrәsindә bu müqavilәnin Azәrbaycan üçün әlverişli olmadığını belә izah edirdi: "Sovet hökümәti tәklifinin iki cәhәti var. Birincisi, onunla sülh bağlamaq (bunu qәbul etmәk olar), ikincisi, Denikinә qarşı hәrbi ittifaqa girmәkdir. Buna rәdd cavabı verәcәyik. Bizim üçün fәrqi yoxdur: Lenin olsun vә ya Denikin olsun. Bi-zә lazımdır ki, bizim istiqlaliyyәtimizә toxunmasınlar".Buradan göründüyü kimi, gәnc Azәrbaycan hökümәti ilk günlәrindәn heç bir dövlәtlә hәrbi ittifaqa girmәmәyi, yalnız sülh mәramında olduğunu açıq bәyan edirdi. Hökumәt Sovet hökümәtinin xarici işlәr naziri Çiçerinә bildirmişdi ki, biz heç zaman başqa ölkәlәrin daxili, işlәrinә qarışmaq fikrindә deyilik.

1918-ci ilin 7 dekabrında Bakıda parlamentin açılışı oldu. O gün şәhәr bayramsayağı bәzәnmişdi. Pәrlament binasına çıxan küçәlәr adamla dolmuşdu. Parlament binasının qapısı ağzında sağda vә solda ingilislәrin iki zirehli maşını durmuşdu. Bu, asayişi qorumaq mәqsә-dilә edilmişdi. Parlamentin iclası H.Z.Tağıyevin qız mәktәbi binasında keçirilirdi. İclası Milli Şuranın sәdri, "Müsavat" partiyasının lideri M.Ә.Rәsulzadә açaraq demişdi:

- Burada, Azәrbaycanda bulunan bütün millәtlәrin tәbәqәlәri vә müxtәlif cәrәyanların nümayәndәlәri olduğundan bu mәclis vәtәnimizi tamamilә tәmsil edә bilәr.

Sonra divara vurulmuş Azәrbaycan Demokratik Respublikasının üç rәngli bayrağını göstәrәrәk, sözunә belә davam etmişdir:

- Azәrbaycanı tәmsil edәn o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış. Türk hürriyyәti, İslam mәdәniyyәti vә müasir Avropa әfkar ehraranasını tәmsil edәn bu üç boyalı bayraq daim başımızın üstündә ehtizaz edәcәkdir.

Parlamentin açılışını tәsvir evәn Ü.Hacıbәyov 9 dekabr tarixli "Azәrbaycan" qәzetindә belә yazırdı: "Mәmmәd Әmin nitqinin başlanğıcında bayraqdakı üç rәngin: türklәşmә, İslamlaşma vә müasirlәşmәk amalı-әlamәtindәn olduğuna işarә ilә "bir kәrә yüksәlәn bayraq bir daha enmәz" sözlәrini dedikdә bütün mәclis ayağa qalxıb, әl çala-çala onu alqışladı.

Sonra hökümәtin başçısı Fәtәli xan Xoyski mәruzә ilә çıxış edәrәk, Azәrbaycan Respublikasının yaşadığı altı ay әrzindә keçirdiyi ağır vә çәtin yoldan vә habelә onun gәlәcәk tәrәqqi yollarından danışdı. Axırda parlamentin sәdri vә müavini seçildi. Sәdriyә Әlimәrdan bәy Topçubaşov, müavinliyinә isә Hәsәn bәy Ağayev seçildi".

1920-ci ilin əvvəllərində parlamentin 11 müxtəlif fraksiya və qrupunu təmsil edən 96 üzvü var idi. Ən böyük fraksiya müsavatçıların idi. Onun 36 nəfər üzvü var idi. Sonra ittihad partiyası -13 nəfər, sosialistlər 13 nəfər (Ə.C.Pepinov, İ.Əbilov, S.Ağamalıoğlu, Ə.H.Qarayev də buraya daxildi), Ehrar- 6 nəfər, partiyasızlar - 3 nəfər, slavyan-rus cəmiyyəti - 3 nəfər, azlıqda qalan millətlər fraksiyası - 4 nəfər, erməni fraksiyası - 5 nəfər və s. Deputatların tərkibində rus, gürcü, polyak, yəhudi, alman nümayəndələri də vardı. Parlamentdə 11 komissiya fəaliyyət göstərirdi. Parlamentə daxil olan qanun layihələri əvvəlcə komissiyalarda müzakirə olunur, sonra parlamentin müzakirəsinə verilirdi: Hökuməti Nazirlər Şurasının sədri kimi 1918-ci il may ayının 28-dən 1919-cu il aprelin 14-dək Fətəli xan Xoyski, 1919-cu ilin aprel ayının 14-dən ta respublikanın süqutunadək Nəsib bəy Yusifbəyli idarə etmişdir.

Nəsib bəy Yusifbəyli parlamentdə müxtəlif partiyaların bir-birinə münasibətindən danışarkən deyirdi: "Firqələrimizin xətti hərəkəti nə qədər müxtəlif olsa da, sosialistlərdən tutmuş ittihadçılaradək ümum firqələrimiz hürr və müstəqil Azərbaycanın tərəqqi və təalisi, məqsədi hər növ xüsusi narazılığın fövqündə qoyulur. Mübarizə ancaq təfsilat və cüziyyat üstündədir" ("Azərbaycan" qəzeti № 40, 1920-ci il).

Azərbaycan hökuməti respublikanın Qərb ölkələri tərəfindən tanınması üçün səy ilə çalışırdı. Hökumətin Amerika cümhur rəisi Vilsona göndərdiyi teleqramında deyilirdi: "Azərbaycan Cümhuriyyəti isbat etmişdir ki, o da başqa mədəni müstəqil millətlər kimi yaşamağa müstəhəq, qadir və qabildir. Ancaq rəsmiyyət üçün onun istiqlalının və hüququnun qeyri müəzzəm millətlər tərəfindən qəbulu arzu olunur və qeyri millətlərlə mədəni əlaqə düzəldib, yaşayacaqdır. Cümlə müəzzəm Avropa ölkələrinə rica etməkdən əvvəl gənc Azərbaycan Cümhuriyyəsi əvvəlcə sizin alicənab şəxsiyyətinizə müraciət edib, sizdən onun istiqlaliyyətini təsdiq etdirməyi və bütün millətlər üçün etiraf etmiş olduğunuz müstəqil yaşayış hüququndan istifadə etdikdə qarşımıza çıxacaq maniələri rəf və dəf etməklə millətimiz sizdən ali müzahirət gözləyir".

Azərbaycan hökuməti Antanta dövlətləri tərəfindən tanınmamışdan da əvvəl xarici ölkələrlə əlaqələrini davam etdirirdi. 1919-cu ilin martında Azərbaycan Demokratik Respublikası ilə İran arasında iqtisadi və siyasi əlaqələr yaratmaq məqsədi ilə "Rəd" qəzetinin müdiri Seyid Ziyaəddin Tabatabəyi başda olmaqla İran nümayəndə heyəti Bakıya gəlmişdi. Qarşıiıqlı müzakirələrdən sonra hər iki dövlət arasında saziş bağlanmışdı. Bundan başqa Azərbaycan Cümhuriyyəti Türkiyə, Gürcüstan hökumətləri, Dağıstan xalqları ilə mədəni dostluq əlaqələri yarada bilmişdi. 1918-ci il dekabrın 28-də parlament Paris sülh konfransına səlahiyyətli nümayəndə heyəti seçdi. Heyətin tərkibinə parlamentin sədri Ə.M.Topçubaşov, hökumət üzvü M.H.Hacınski (Müsavat partiyasından),

parlament üzvləri Əhməd bəy Ağayev (bitərəf), Ə.ŞeyxəlÍslamov ("Hümmət"), Ceyhun bəy Hacıbəyli (Müsavat), M.Məhərrəmov (sosialist), M.Mirmehdiyev (İttihad), Əli bəy Hüseynzadə (bitərəf), V.Marçevski (bitərəf) vardı. Nümayəndə heyəti yanvarın 19-da dəmir yolu vağzalından təntənə ilə yola salındı.

1918-ci il 28 maydan 1920-ci ilin aprelinədək Azərbaycan Nazirlər Kabinəsi 5 dəfə dəyişmişdir. Üç kabinetdə (28 may 1918, 17 iyun 1918, 22 dekabr 1919) sədr Fətəli xan Xoyski, 14 aprel 1919 və 22 dekabr 1919-cu illərdə isə Nəsib bəy Yusifbəyli olmuşdur.

1920-ci ilin əvvəlində parlament sədrinin səlahiyyəti bitir. H. Ağayev istefa verir. Parlament sədrliyinə M. Y. Cəfərov, sədr müavinliyinə S. M. Qənizadə, katibliyinə isə Rzayev seçilir.

1920-ci il yanvarın 14-də Paris sülh konfransında Azərbaycan və Gürcüstan cümhuriyyətlərinin istiqlaliyyəti defakto olaraq tanındı. O gün Bakı şəhəri təntənə içində idi. Dənizdə atəşfəşanlıq düzəldilmiş, küçələrdə camaat sevinclə bir-birini təbrik edirdi. Azərbaycan parlamentinin bu münasibətlə təntənəli iclası çağırılmışdı. İclasda Cümhuriyyətin xarici işlər naziri çıxış edərək demişdi: "1918-ci il mayın 28-də Azərbaycan xalqı öz istiqlaliyyətini elan etdi. Lakin tək bir elan az idi. Bütün dünyaya göstərmək lazım idi ki, biz müstəqil yaşamağa layiqiq. Budur, Azərbaycan xalqı il yarım ərzində Avropaya göstərdi ki, o, müstəqil yaşaya bilər".

1920-ci ilin əvvəllərində Bakıda 20-yə qədər dövlətin: ABŞ-ın, İngiltərənin, Fransanın, Türkiyənin, İranın, Finlandiyanın, Polşanın, İtaliyanın, İsveçin, Yunanıstanın və başqa dövlətlərin diplomatik nümayəndələri və konsulları var idi. Lakin göründüyü kimi bu ölkələrin içərisində Sovet Rusiyasının nümayəndəsi yox idi. Nəsib bəy Yusifbəyli 1919-cu il noyabrın 22-də təzə təşkil etdiyi hökümətin məramnaməsindən danışarkən demişdi: "Təəssüf ki, indiyədək Rusiya ilə heç bir münasibət yarada bilməmişik, bunun günahı isə bizdə olmamışdır".

Azərbaycanın həyatında həqiqətən milli dirçəliş canlanmağa başlamışdı. Dağılıb, pozğun hala salınmış dəmir yolu bərpa edilib, qatarların hərəkəti üçün normal şərait yaradılmışdı. Poçt-teleqraf qaydaya salınmışdı.

Bakı - Batum neft kəməri bərpa edilmişdi. Müəssisələrdə iş saatı 8 saat müəyyən edilmişdi.

Bakı dövlət bankı da yaradılmışdı. Əvvəllər Gürcüstanla birlikdə, sonralar müstəqil bon pulları, daha sonra xaricdə çap edilmiş Azərbaycan pulları tədavülə buraxıldı. Bir sözlə, ölkənin daxili və xarici siyasəti möhkəm dostluq və dinc qonşuluq şəraitində qurulmuşdu. Təkcə Ermənistan Azərbaycanla köhnə ədavətini davam etdirir, tez-tez Qarabağa basqınlar edilirdi. Qarabağ məsələsi dəfələrlə parlament iclaslarında muzakirə edilmişdi. Ermənilər ərazi iddialarından əl çəkmirdilər. 1919-cu il dekabrın 22-də Nəsib bəy Yusifbəyli parlament iclasında

ermənilərin ağılsız torpaq iddialarından bəhs edərkən demişdi: "Qarabağ tərkibinə daxil olan dörd qəza və o cümlədən Zəngəzur qəzası Azərbaycanın ayrılmaz hissəsidir". Noyabr ayında Tiflisdə ərazi məsələsini həll etmək üçün üç respublikanın konfransı çağırılmışdı. Lakin Ermənistan özünü böyük Ermənistan elan etməklə Zaqafqaziya dairəsindən çıxdığını bildirmiş və konfransa gəlməmişdi. Bu ucbatdan da konfrans baş tutmamışdı. Həmin il Qərb dövlətlərinin başçıları ermənilərə bildirmişdilər ki, böyük Ermənistan məsələsi heç zaman baş tutası deyil. Onlar Zaqafqaziya Ermənistanı ilə kifayətlənməlidirlər. General Tomson onlara qəti bildirmişdi ki, ermənilər böyük Ermənistan fikrini birdəfəlik başlarından çıxarmalıdırlar. Azərbaycan Respublikasının 1918-ci il 17 iyul tarixli fərmanı ilə türk (Azərbaycan dili) rəsmi dövlət dili hesab edilmişdi. Qərarda deyilirdi. "Dövləti lisan türk dili qəbul edilərək irəlidə bütün məhkəmə, idarəye-daxiliyyə və sairə dövlət vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökümət müəssisələrində rus dili istemalına müsaidə edilsin".

Azərbaycan parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qərar qəbul etdi. Milliyyətindən və dilindən asılı olmayaraq, hər bir kəs və ya valideynləri azəri olan şəxslər Azərbaycan vətəndaşı sayılırdı. M.Ə.Rəsulzadə "Bütün Azərbaycan əhalisinə" müraciətində yazırdı: "Bütün Azərbaycan vətəndaşları bilafərq millət və məzhəb bir vətənin övladlarıdır. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə kəndi səadətlərini hazırlamaq üçün onlar yek digərinə əl uzatmalı və yardım etməlidirlər".

Azərbaycan höküməti birinci növbədə dövləti qoruya biləcək qüvvələrin təşkili və möhkəmlənməsi üçün təxirə salınmaz ciddi tədbirlər görürdü. Azərbaycan generallarından Səməd bəy Mehmandarov hərbiyyə naziri, Ə.A.Şıxlinski isə onun müavini təyin edilmişdi. Onlar "Dikaya diviziya"nın pərən-pərən düşmüş hissələrindən və səfərbərliyə alınan gənclərdən ordu təşkil etməli idilər. Bu işdə Azərbaycanda qalmış əsir türk zabitləri də onlara yaxından köməklik edirdilər. Xüsusi yardım alayı yaradılmışdı. Azərbaycan hökuməti hələ Gəncədə ikən kiçik zabitlər hazırlayan məktəb açmışdı. Ordunun yaradılmasında Bakıda olan rus zabitlərindən də istifadə edilirdi. Bundan başqa Krımdan da bir neçə yüksək rütbəli zabitlər Bakıya işləməyə gəlmişdilər. General Süleyman Sulkeviç də onların arasında idi. 1918-ci ilin noyabrında zabitlər məktəbindən buraxılmış ilk məzunlar artıq ordu sıralarında xidmətə başlamışdılar. Ümumiyyətlə qısa müddət ərzində Azərbaycanda 30 minlik milli Azərbaycan ordusu yaradılmışdı. Onun sərəncamında 4 hərbi təyyarə, 3 zirehli qatar, 6 zirehli avtomobil, iki hərbi gəmi vardı.

Azərbaycan ordusu hissələri respublikanın ayrı-ayrı regionlarında yerləşdirilmişdi: bir hissə Cəbrayıl, Cavanşir, Zəngəzur və Şuşada ermənilərə qarşı vuruşurdu. Bir hissə Qarabağ və Dilican istiqamətində hücuma keçmiş ermənilərə

qarşı göndərilmişdi. General Səlimovun komandası altında olan iki alay da Lənkəran-Muğan istiqamətində vuruşurdu.

Demokratik respublikanın maarif və mədəniyyət sahəsində gördüyü işlər, qəbul etdiyi qərarlar xüsusi diqqətə layiqdir. Respublikanın ilk aylarından orta məktəblər milliləşdirildi. Bakıda, Gəncədə, Qubada, Lənkəranda, Qazaxda, Şəkidə, Şuşada, Salyanda və başqa bir neçə şəhərdə seminariyalar açıldı. 1918-ci ilin noyabrında Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazax şəhərinə köçürüldü.

Mətbuat sahəsi isə hələlik sabit deyildi. Müxtəlif partiya və təşkilatların orqanları olan qəzet və məcmuələr əksər hallarda bir neçə nömrə çıxandan sonra bağlanırdı. Bəzilərinin ömrü 3-4 ay ancaq olurdu. Elələri də vardı ki, 1917-ci ildən başlayıb, ta 1920-ci ilədək, davam etmişdi. "Qardaş köməyi" məcmuəsi inqilabdan qabaq nəşrə başlasa da inqilabın başlanğıcında, yəni 1917-ci ilin fevral ayında öz fəaliyyətini saxlamışdı. Məcmuə başlıça olaraq, Kars tərəflərdə zərər çəkmiş müsəlman qaçqınlarının həyatına həsr olunmuş məqalələrlə dolu idi. Onun ətrafına toplaşmış əsas mühərrirlər bunlar idi: M.Ə.Rəsulzadə, Əhməd Cavad, Hüseyn Cavid, Firudin bəy Köçərli, Seyid Hüseyn, Abdulla Şaiq, Şəfiqə xanım Əfəndizadə və başqaları.

**İttifaqi mütəəllimin" qəzeti -** Bakı türk tələbələri təşkilatının orqanı idi. İlk nömrəsi 1917-ci il mart ayının 6-da çıxmışdır. Həmin ilin may ayında çağırılmış Ümumi Qafqaz tələbələrinin qurultayı təzə seçilmiiş Mərkəzi komitəyə tapşırır ki, yeni bir qəzet buraxsın. Buna görə "İttifaqi mütəəllimin" öz fəaliyyətini dayandırıb, yerini "Gənclər sədası" adlı yeni qəzetə verir. Qəzetdəki materiallar türk və rus dillərində çap olunurdu. Qafqazda yaşayan tələbələrin vəziyyəti barədə qəzet müntəzəm yazılar dərc edirdi. Ölkədə siyasi vəziyyətlə əlaqədar olaraq qəzet həmin ildə də bağlanır.

**"Zəhmət sədası"** qəzetinin də taleyi belə olmuşdu. Yəni çıxması ilə bağlanması eyni zamana düşdü.

**"Müsavat" qəzeti** - az-çox ömür sürən qəzet idi. Müsavat partiyasının orqanı idi. Həftəlik qəzet idi. Qəzetin şüarı belə idi: "İnsanlara hürriyyət, millətlərə müsavat". Qəzetdə ən çox fəaliyyət göstərən M.Ə.Rəsulzadə idi. Qəzetin nəşri 1918-ci ilin mart hadisələrinədək davam etmişdi. Həmin ildə çap olunmağa başlamış "Müsəlmanlıq" qəzeti də "Rusiyada müsəlmanlıq" partiyasının orqanı idi. Bir neçə ay ömür sürmüşdü. Ceyhun bəy Hacıbəylinin nəşr etməyə başladığı "İttihad" qəzeti bu partiyanın rəsmi orqanı olandan sonra "Müsəlmanlıq" öz əhəmiyyətini itirib, bağlanmışdı. Bir müddətdən sonra isə qəzet "Rusiyada müsəlmanlıq" İttihad partiyasının rəsmi orqanına çevrilərək nəşri 1920-ci il 27 aprelədək davam etmişdir. Qəzetin axırıncı nömrələri doktor Qara bəy Qarabəyov tərəfdən redaktə olunurdu.

Bunlarla yanaşı 1918-ci il 14 yanvardan Bakıda "El həyatı" adlı ədəbi, ictimai və siyasi bir məcmuə də nəşr olunurdu. Bu məcmuə ayda iki dəfə çıxmalı idi. Lakin ikinci nömrəsindən sonra bağlanmışdı. Məcmuə istehlakçılar cəmiyyətinin orqanı idi. Məqsədi el içərisində kooperativin əhəmiyyətini başa salmaq və xalqı kooperativlər ətrafında toplanmağa çağırmaq idi. Məcmuə yazırdı ki, "Heç bir firqənin naşiri əfkarı deyildir". Onun səhifələrində çıxış edən müəlliflər içərisində N.Nərimanov da vardı.

**"Əxban"qəzeti-fəhlə**, əsgər və matroslar şurasının orqanı idi. 18-ci il mart hadisələrindən sonra çap olunurdu. Onun da ömrü bu illərin başqa qəzetləri kimi çox qısa olub. Qəzetdə Ruhulla Axundov, Ağababa Yusifzadə və başqaları iştirak edirdilər. "Əkinçi" qəzeti mart hadisələrindən sonra çıxmağa başlamışdı. Öz siyasi görüşləri etibarilə türk ixtilalçı sosialist mövqeyində dururdu.

**"Azərbaycan hökümətinin əxbarı" qəzeti** - Azərbaycan və rus dillərində çıxırdı. Qəzetdə çap olunan əsasən rəsmi dövlət xəbərləri, əmrlər, qanunlar və sair rəsmi sənədlər idi. Qəzetin bünövrəsi Gəncə şəhərində qoyulmuşdu. Türklər Bakını tutandan sonra redaksiya Bakıya köçmüşdü.

**"Azərbaycan" qəzeti -** 1918-ci ilin iyun ayından Azərbaycan və rus dillərində Gəncədə çap olunmağa başlamışdı. Qəzetin 4 nömrəsi Gəncədə çıxmışdır. Həmin ilin sentyabr ayında qəzet redaksiyaları Bakıya köçürülür. Azərbaycan dilində çıxan qəzetin redaktoru Ceyhun bəy Hacıbəyli, rus dilində çıxan qəzetin isə redaktoru Şəfi bəy Rüstəmbəyov idi. Bir müddətdən sonra Ceyhun bəy Hacıbəyli Paris nümayəndələri tərkibində Fransaya getdiyindən qəzetin redaktorluğunu qardaşı Üzeyir Hacıbəyli qəbul edir. Qəzet Müsavat hökümətinin rəsmi orqanı idi. "Azərbaycan" qəzeti əhali içərisində böyük hörmət qazanmışdı. Qəzet rus dilində olan "Azərbaycan" qəzeti ilə birlikdə 1920-ci ilin 27 aprelinədək çap olunmuşdu. Bakının görkəmli ziyalı, yazıçı və ictimai xadimlərindən M.Ə.Rəsulzadə, Seyid Hüseyn, Xəlil İbrahim, Ömər Faiq Nemanzadə, Mirzəbala Məmmədzadə, Axund Yusif Talıbzadə, Fərhad Ağazadə qəzet səhifələrində müntəzəm çıxış edirdilər.

**"İstiqlal" qəzeti -** Müsavat partiyasının, rəsmi orqanı idi. İlk nömrəsi 1919-cu il 4 fevralda çıxmışdır. Aşağıdakı misralar qəzetin daimi devizinə çevrilmişdi:

Millət yoludur, haqq yoludur tutduğumuz yol,
Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol.

Qəzet həftədə bir dəfə çıxırdı. Axırıncı nömrəsi 1920-ci ilin 23 aprelində çıxmışdı.

**"Yeni həyat" qəzeti** - 1918-ci ildən çap olunurdu. Ancaq uzun ömür sürməmişdi, Redaktoru doktor Qara bəy Qarabəyov idi,

**"Xalq sözü" qəzeti** - başqa qəzetlərdən fərqli olaraq, günorta çıxır və səhərki hadisələri əhatə etməyə çalışırdı. Qəzet 1919-cu ilin iyun ayında nəşr olunmağa başlamış və cəmi 3-4 nömrə çıxmışdı.

**"Şeypur" məzhəkə məcmuəsi** - 1912-ci ilin sentyabr ayından çap olunmağa başlamışdı. Məcmuənin naşirləri Səməd Mənsur ilə Məmmədəli Sidqi idi. Nəşri təxminən 1919-cu ilin ortalarınadək davam etmişdir.

Bu dövrdə sol eserlərin, başqa sözlə desək, bolşeviklərin də mətbuat sahəsində geniş fəaliyyətə keçdiklərini görürük, Məsələn, sol eser, yəni bolşevik Əliheydər Qarayevin rəhbərliyi altında "Fəhlə konfransının əxbarı", "Füqəra sədası", "Haqq səsi", "Azərbaycan füqərası" qəzetləri nəşr edilirdi. Ancaq qeyd edək ki, bu qəzetlər bir-iki nömrə çıxandan sonra bağlanmışdır. "Yoldaş" və "Məşəl" məcmuələri də bolşeviklər tərəfindən buraxılırdı. Onların da ömürləri çox qısa olmuşdu.

**"Fəhlə və əkinçi" qəzeti** də sol eserlər tərəfindən nəşr edilirdi.

Bunlardan başqa ayrı-ayrı firqələr və şəxslər tərəfindən; "El", "Doğru yol", "Xalqçı", "Sədaye İran", "Mədəniyyət", "Övrağı nəfisə", "Zəhmət həyatı", "Qurtuluş yolu" qəzet və məcmuələr dərc edilirdi. Lakin bunların heç biri mətbuat tariximizdə özlərinə mövqe tuta bilməmişdi.

**"Hürriyyət" qəzeti** - İran Kommunist partiyası "Ədalət"in orqanı idi. Nəşri 1920-ci ilin may ayınadək davam etmişdi. Həftəlik qəzet idi. Redaktoru Mir Cəfər Cavadzadə (Pişəvəri) idi.

Yuxarıda adları çəkilən qəzet və məcmuələrlə yanaşı Tiflis, İrəvan, Gəncə şəhərlərində də Azərbaycan dilində qəzet və məcmuələr nəşr edilirdi. Bunlardan "Al bayraq" qəzetini və "Tartan-partan", "Gənclər yurdu" məcmuələrini göstərmək olar. Bunların hər üçü Tiflisdə çap olunurdu. "Gələcək" qəzeti Tiflisdə olan müsəlman sosial-demokrat "Hümmət" partiyası tərəfindən buraxılardı. Menşevik meylli idi. Bu qəzetin səhifələrində Əziz Şərif, Əliqulu Nəcəfzadə, Səmədağa Ağamalıoğlu yaxından iştirak edirdilər. "Al bayraq" sosialist qəzeti idi. "Tartan-partan" məzhəkəli məcmuəsi Ə. H. Qarayev tərəfindən buraxılırdı. 1918-ci ildə cəmi bir nömrə çıxmışdır. "Gənclər yurdu" qəzeti gənclər qəzeti idi. Bundan başqa 1918-ci ildə Gəncədə Əhməd bəy Ağayev tərəfindən "Türk sözü" adlı bir qəzet də buraxılırdı. Cəmi iki sayı çıxmışdı.

Eyni zamanda İrəvanda "Bürhani həqiqət" adlı həftəlik ədəbi-siyasi bir məcmuə də buraxılırdı. Qafqaz cəbhəsinin yaxınlaşması ilə əlaqədar bağlanmışdı.

Bakı şəhərində universitet açılması sahəsində böyük işlər aparılmışdı. Nəhayət, Azərbaycan parlamenti 1919-cu il sentyabrın 1-də Bakıda universitet açılması barədə qanun təsdiq etdi. Qəbul edilmiş qanunda deyilirdi ki, universitetdə 4 fakultə təşkil olunur: Tarix-ədəbiyyat, fizika-riyaziyyat, hüquq və tibb fakültələri. Universitetin rektoru professor V.İ.Razumovski təyin olunur. Universitetdə hər bir

tələbədən 500 manat təhsil haqqı alınırdı. Tələbələrdən 10 faizi isə pulsuz təhsil alırdı. Universitetdə Rusiyadan dəvət olunmuş professorlar leksiya oxuyurdu. Təhsil alanlar içərisində azərbaycanlılarla yanaşı başqa millətlərin nümayəndələri də vardı: rus, erməni, yəhudi, dağıstanlı və başqaları. Universitetin açılması Azərbaycanın həyatında mühüm hadisə idi.

Azərbaycan hökümətinin qısa bir müddətdə əldə etdiyi böyük müvəffəqiyyətlər xalq içərisində böyük nüfuzu olan Müsavat partiyasının başçılığı altında başa gəlmişdi. Respublikanın bütün ictimai, siyasi, iqtisadi və mədəni həyatında Müsavat həmişə bayraqdar olmuşdu.

Təəssüf ki, respublikanın ömrü qısa oldu. 1920-ci ilin 27 aprelində bolşeviklər hökümətin təslim olması barədə parlamentə ultimatum verdilər. Və parlamentin çıxardığı aşağıdakı qərarla hökümət təslim oldu.

Azərbaycan Respublikasmın fövqəladə iclasının qərarı

**27aprel 1920-ci il**

Sizin 27 aprel tarixli məktubunuzu müzakirə edərək və onun məzmununu yaşadığımız vəziyyətlə müqayisə edərək və sizin təklifinizi nəzərə alaraq, seçdiyimiz komissiya bu qərara gəlir:

1. Sovet hakimiyyəti tərəfindən idarə olunan Azərbaycan istiqlaliyyəti bütövlükdə saxlanmalıdır.
2. Azərbaycan Kommunist partiyası tərəfindən yaradılmış hökümət müvəqqəti orqan olacaq.
3. Azərbaycanın idarə edilməsinin son forması hər cür xarici təzyiqlərdən asılı olmayaraq, Azərbaycan fəhlə, kəndli və əsgər deputatları Soveti simasında Azərbaycanın ali qanunverici idarəsi tərəfindən müəyyən ediləcəkdir.
4. Hökümət idarələrinin əməkdaşları öz yerlərində qalır, yalnız məsul vəzifə tutanlar azad edilirlər.
5. Yeni təşkil olunmuş müvəqqəti kommunist höküməti parlament və hökümət üzvlərinin toxunulmazlığına təminat verir.
6. Qızıl Ordunun hücumla Bakı şəhərinə daxil olmasına yol verməyəcək.
7. Azərbaycanın istiqlaliyyətini boğmaq istəyən hər hansı xarici qüvvələrə qarşı yeni hökümət onun sərancamında olan vasitələr və qəti tədbirlərlə mübarizə edəcəkdir.

Azərbaycan parlamenti bu şərtlərin özünün fövqəladə iclasında səs çoxluğu ilə qəbul edildiyini nəzərinizə çatdırır.

**Parlamentin sədri: MƏMMƏD YUSİF CƏFƏROV.**

**Bakı, 27 aprel, axşam saat 11.**

Sonradan məlum olduğu kimi bu şərtlərin heç biri yerinə yetirilməmiş, Azərbaycan Milli hököməti aldadılmışdı.

Hökümət başçılarından bəziləri vaxtında aradan çıxaraq, xaricə getmiş, buna macal tapmayanlar isə həbs edilib, güllələnmiş və sürgün edilmişdilər.

Beləliklə, Azərbaycan Milli Demokratik Respublikası üfüqdə parlaq bir ulduz kimi parlayıb, tez söndü. Lakin onun xoş təəssüratı uzun müddət, düz 70 il Azərbaycan oğullarının ürəyində özünə gizli yuva tapmışdı. Yalnız bizim günlərdə o özünü böyük sevinclə biruzə verdi və M.Ə.RƏSULZADƏNİN vaxtı ilə dediyi: "Bir kərə yüksələn bayraq bir daha enməz" sözləri, nəhayət, özünü doğrultdu. Azərbaycanda daha güclü, milli Azərbaycan Respublikası bərqərar oldu.

## ƏLAVƏ

## BAKI ŞƏHƏRİNIN ƏSAS KÜÇƏLƏRİ (Keçmiş və hazırki adları)

Aznatskaya - Pyotr Montin - Əliövsət Quliyev.
Armyanskaya - M. Qorki, Mirzə İbrahimov.
Bazarnaya - Hüsü Hacıyev.
Balaxansxaya - Basin - Füzuli.
Baryatinskaya - Fioletov - Ə. Əlizadə.
Birjevaya - Azadlıq - Üz.Hacıbəyov.
Bondarnaya - Dmitrov - Ş. Bədəlbəyli.
Beqlyarovskaya - Firdovsi.
Beloqorodskaya - Nobel prospekti - Raboçi prospekt.
Bolşaya minaretskaya - Asəf Zeynallı.
Bolşaya morskaya - Kirov prospekti - Bülbül.
Bolşaya Salyanskaya - Müşfiq küçəsi.
Budaqovskaya - Kaspirskaya - Şmidt - Rəşid Beybutov.
Buxarskaya - Hertsen - Vəli Məmmədov.
Varvarinskaya - Menjinski - Həqiqət Rzayeva.
Velikaknyajskaya - Olqa - Caparidze - M. Ə. Rəsulzadə.
Verxne kladbişinskya - Vaqif- Həsən Seyidbəyli.
Verxne Priyutskaya - Ketsxoveli - Şamil Əzizbəyov.
Verxne Tazapirskaya - Mustafa Sübhi.
Verxnaya Naqornaya - Abdulla Şaiq.
Vladimirskaya - Roza Lüksemburq - Kökəb Səfərəliyeva.
Vodovoznaya - Şirşov - Almaz İldırım.
Voznesenskaya - Çiçərin - Yusifbəy İbrahimli.
Vokzalnaya - Puşkin
Voronsovskaya - Əzizbəyov - İslam Səfərli.
Vranqelskaya - Zinovyev - Kaqanoviç - Ə. H. Qarayev - Əhməd Cavad.

Doktorskaya - Adil Babayev küçəsi.
Qadji Qaibovskaya - Qazi Məhəmməd.
Qeorqievskaya - Cəlil Məmmədquluzadə.
Qimnaziçeskaya - Tolstoy.
Qorçakovskaya - Malıgin - H. Z. Tağıyev.
Qubernskaya - Nizami.
Dvorstsovaya - Maqomayev.
Djuminskaya - Mirzə Şəfi.
Diviçinskaya - Sereteli.
Zavedenskaya - Krasnaya - B. Sərdarov - Neftçi Qurban.
Birinci Zavodskaya - Y. Qaqarin - Afiyəddin Cəlilov.
İkinci Zavodskaya - Firuz Qəmbərov.
Üçüncü Zavodskaya - Sabit Orucov.
Dördüncü Zavodskaya - Əsədulla Axundov - Mehdi Mehdizadə.
Beşinci Zavodskaya - Telnov.
Altıncı Zavodskaya-Süleyman Vəzirov.
Yeddinci Zavodskaya.
Səkkizinci Zavodskaya.
Doqquzuncu Zavodskaya - Kamandar Əhmədov.
Onuncu Zavodskaya.
Onbirinci Zavodskaya.
Onikinci Zavodskaya.
Onüçüncü Zavodskaya.
Birinci Zavokzalnaya.
İkinci Zavokzalnaya - Anaşkin - Ülvi Bünyadzadə.
Üçüncü Zavokzalnaya - Q. Musabəyov - Nemət Quliyev.
Dördüncü Zavokzalnaya - Kazımzadə.
Beşinci Zavokzalnaya - Əliağa Vahid.
Yeddinci Zavokzalnaya - Vanilov -Tələt Şıxəliyev.
Səkkizinci Zavokzalnaya - Dzerjinski - Əhmədbəy Ağaoğlu.
Doqquzuncu Zavokzalnaya - Uritski - Ə. Dəmirçizadə.
Onuncu Zavokzalnaya - Qədirbəyova.
Onbirinci Zavokzalnaya - Navai - Koroğlu Rəhimov.
Onikinci Zavokzalnaya - Qafur Rişad.
On üçüncü Zavokzalnaya - Həsənoğlu.
Kamenistaya - Şors - Bəşir Səfəroğlu.
Birinci Kannitepinskaya - Sverdlov - Salatın Əsgərova.
İkinci Kannitepinskaya.
Üçüncü Kannitepinskaya M. Kusumov- Sahib Zeynalov.

Dördüncü Kannitepinskaya - Ruhulla Axundov.
Beşinci Kannitepinskaya - S. Əfəndiyev - Vladislav Plotnikov.
Altıncı Kannitepinskaya - 8 Mart - Eldar Tağızadə.
Yeddinci Kannitepinskaya - Dobrolyubov - İzzət Həmidov.
Çelyayevskaya - Bu küçəni Azərnəşrin binası iki hissəyə bölüb, yarısı qalıb Urologiya xəstəxanası ilə passajın arasında, o biri hissəsi isə "Araz" kinoteatrı ilə yanındakı bağın arasındadır.
Səkkizinci Kannitepinskaya - Dağıstan küçəsi.
Doqquzuncu Kannitepinskaya.
Onuncu Kannitepinskaya - Sarabski küçəsi.
Onbirinci Kannitepinskaya - Vəzirov.
Karantinnaya - Pioner - Həzi Aslanov.
Kladbişinskaya - Park küçəsi – Mehdi Hüseyn
Kolodeznaya - Ağamalıoğlu - L. və N. Rastropoviçlər küçəsi.
Kolyubakinskaya - Yefim Saratoves - Nigar Rəfibəyli.
Krasnokrestovskaya - Buynakskaya - Şeyx Şamil.
Krasnovodskaya - Səməd Vurğun.
Kubinskaya - Qubanov - Zivərbəy Əhmədov.
Malaya Morskaya - Todorskaya - Malaya Morskaya.
Mariniskaya - Korqanov - Rəsul Rza.
Maştaqinskaya - Əlibala Dadaşov.
Melniçnaya - H. Qurbanova.
Merkuryevskaya - Şaumyan - Azərbaycan Prospekti.
Milyutinskaya - Trotski - Myasnikov - Tərlan Əliyarbekov.
Millionnaya - Fikrət Əmirov.
Mixailovskaya - Zevin - İncəsənət - Həsən Əliyev - Əziz Əliyev,
Molokanskaya - 9 Yanvar - Xəqani.
Naberejnaya Aleksandr II - Sahil küçəsi - Neftçilər prospekti.
Birinci Naqornaya - Hənifə Ələsgərov.
İkinci Naqornaya - Mendeleyev - Quliyev Qulu.
Üçüncü Naqornaya - Dördüncü Naqornaya - Mir Kasımov.
Beşinci Naqornaya - Mirzəyan - Feyzulla Qasımzadə.
Altıncı Naqornaya - Abbas Səhhət.
Yeddinci Naqornaya - Leninqrad prospekti - Sankt-Peterburqskaya: 1. Fətəlixan Xoyski, 2. Nəsibbəy Yusifbəyov.
Səkkizinci Naqornaya - Kasparov - Möhsün Sənani.
Doqquzuncu Naqornaya - İnqilab küçəsi.
Onuncu Naqornaya - Sabit Rəhman.
Onbirinci Naqornaya - Məsud Əlizadə.

Onikinci Naqornaya - Yusif Vəzir Çəmənzəminli.
Onüçüncü Naqornaya - Kərimov Oqtay.
On dördüncü Naqornaya - Teymur Əliyev.
On beşinci Naqornaya - Salamzadə Əbdülvahab.
Nijne Naqornaya - Zülfi Adıgözəlov.
Nijne Tazapirskaya - M. F. Axundov.
Nijne Priyutskaya - Kamo - Süleyman Rəhimov.
Nikolayevskaya - Parlaman küçəsi - Kommunist - İstiqlal küçəsi.
Ostrovski - Uzkaya ulitsa - Poçtovaya - Süleyman Tağızadə.
Orlovskaya - Müqtədir - Səid Rüstəmov.
Ofitserskaya - Musəvi - Əfəndiyev Məmməd Sadıq.
Birinci Paralelnaya - İskra küçəsi - Əlibəy Hüseynzadə.
İkinci Paralelnaya - Bala Məcidov.
Üçüncü Paralelnaya - M. Abilov.
Dördüncü Paralelnaya - Sübhi Salayev.
Beşinci Paralelnaya - Qamaley - Fuad İbrahimbəyov.
Altıncı Paralelnaya - Bülbül Məmmədov - Naxçıvani.
Yeddinci Paralelnaya - Bəsti Bağırova.
Birinci Perevalnaya.
İkinci Perevalnaya.
Üçüncü Perevalnaya.
Dördüncü Perevalnaya - Novruzov qardaşları.
Beşinci Perevalnaya - Akademik Topçubaşov.
Altıncı Perevalnaya - Xan Şuşinski.
Yeddinci Perevalnaya - Maqazinnaya - Süleyman Rüstəm.
Səkkizinci Perevalnaya - Stanislavskaya - Şərq xalqları - Prospekt Lenina - Azadlıq.
Doqquzuncu Perevalnaya - Solnsev - Akademik Mirəli Qaşqay.
Onuncu Perevalnaya - Fabrisium - Ceyhun Hacıbəyov.
Persidski - Poluxin - Murtuz Muxtarov.
Petrovskaya Naberejnaya - İndi yoxdur. Neftçilər prospekti ilə birləşib.
Pozenovskaya - Engels küçəsi.
Politseyskaya - Kooperativ - Voroşilov - Yusif Məmmədəliyev.
Üçüncü Popreçnaya - Qafur Məmmədov.
Poroxovaya - Spandaryan - Qarabağ küçəsi.
Birinci Razyezdnaya - Qədirli küçəsi.
Praçeçnaya - 1. Qoqol- 2. Mərdanov qardaşları.
Serqeyevskaya - Qabışev- İ. İsmailov.
Spasskaya - Q. İsmailov- Zərgər palanı.

İkinci Razyezdnaya - Dekabristlər - Dağlı Yunis.
Suraxanskaya - Bir May: 1. Dilarə Əliyeva - 2. Çingiz Mustafayev.
Birinci Slabodskaya - Rıleyev - Ə. Əlizadə.
İkinci Slabodskaya - Çapayev - Təbriz.
Üçüncü Slabodskaya - Klara Setkin.
Dördüncü Slabodskaya - Yəhya Bakui.
Beşinci Slabodskaya - Aşıq Alı.
Sadovaya - Podqornaya,
Çkalov - Niyazi.
Serkovnaya - Proletarski - Vidadi.
Sisianovskaya - Əli Bayramov - Təbriz Xəlilrza oğlu.
Sovetskaya - N. Nərimanov. N. Nərimanov - Hüseyn Cavid.
Telefonnaya - Romanovlar - 28 Aprel - 28 May
Torqovaya - Nizami.
Tatarskaya - Krupskaya.
Çemberekendskaya - Lermontov.
Çadrovaya - Azad Azərbaycan qadını - Əlövsət Quliyev

# KİTABIN İÇİNDƏKİLƏR


**ÖN SÖZ**

**QƏDİM ŞƏHƏR**

Bakı Şirvanşahlar dövründə

Səfəvilər və türklər Bakıda

Stepan Razin Bakıda
Bakı rus işğalı dövründə
Bakı xanlığı
Sisianovun öldürülməsi
Bakıxanovlar sülaləsi
**BAKI  RUSİYANIN TƏRKİBİNDƏ**
Bakı komendantlıq dövründə
İçəri şəhərdən Bayır şəhərə
Bakı quberniyanın paytaxtıdır
Bakı arxipelaqı və Bakı körfəzi
**BAKI NEFT SƏLTƏNƏTİDİR**
Bakı-Batum neft kəməri
Qurultaylar Soveti
Erməni neft sahibkarlarının həyasızlığı
Bakı birjası
Nobel qardaşlarının şirkəti
**ŞƏHƏR BƏLƏDİYYƏ İDARƏSİ**
Bakı kəndləri
Bakı milyonçuları
**BAKI XX ƏSRDƏ**
1905-1906-cı illərdə mətbuat
Ziyalılar
Bakılı ziyalılar
Bakı ləhcəsi
Ruhanilik və üləmalar
Bakı Birinci Cahan müharibəsi illərində

1907-1917-ci illərdə mətbuat

Bakı qoçuları

Bakı kaleydoskopu

Toy və bayram mərasimləri

Bakı xörəkləri

Bakıda ilk Azərbaycan filmi

Nargin adasının əsirləri

Bakı mühərrirlərinin təqibi

H. Z. Tağıyevin mühakimə edilməsi

Bakı 1917- 1920-ci illərdə

Texniki redaktor: Rauf Kərimov

Səhifələyicilər: Fəxri Əliyev

Korrektor: Suğra Osmanova

Yığılmağa verilmişdir: 20.10.2005.

Çapa imzalanmışdır: 27.03.2006.

Nəşrin ölçüsü: 60x90 1/16. Ofset çapı.

Fiziki çap vərəqi: 24,0.

Sifariş: 43. Sayı: 1000 ədəd.

Nurlar Nəşriyyat Poliqrafiya Mərkəzi

Bakı-Az1122, H.Zərdabi pr. 78. Tel: 4977021, 4971362.

Faks: 4971295. E-mail: office@nurprint.com



İçəri şəhər. XVIII əsr.





Qoşa Qala qapısı.







Neft mədəni.

Bakı milyonçuları



H.Z.Tağıyev



Musa Nağıyev



Şəmsi Əsadullayev



Murtuz Muxtarov



İsabəy Hacınski



Ağabala Quliyev



Əjdərbəy Aşurbəyov



Hacı Şıxəli Dadaşov



Hacı Hacıağa Dadaşov



Ağayusif Hacıağa oğlu Dadaşov



Əliabbas Hacıağa oğlu Dadaşov



Ağadadaş Ağayusif oğlu Dadaşov



Əmirəcan məscidi



Axund Turabın
Mərdəkandakı qəbr-abidəsi



Mərdəkan qalası



Bakı şəhərinin
ilk gerbi



Bakı gimnaziya binası



Bakıda Pravaslav kilsəsi



Bakıda Roma-katolik kilsəsi



Dənizkənarı bulvar. Əsrin əvvəlində



Keçmiş Olqa indiki M.Ə.Rəsulzadə küçəsi



Bakı dəniz hamamı



"Mikado" teatrının binası



1919-cu ildə milli hökümət bu binada yerləşirdi.



Bakı. Darulmüəllimin.



Axund Mirzə Əbu Turab Axundzadə



Mir Məhəmməd Kərim Mircəfərzadə



Axund Molla Ruhulla



Axund Molla Ağa Əlizadə


Memar Qasımbəy Hacıbababəyov


Memar Ziverbəy Əhmədbəyov


Mühəndis M.H.Hacınski


Təzəpiri tikdirən Nabat xanım



Baqqal dükanı. Meyvə furuş



Körpü hambalları